55



*Professor*
*Elman Quliyev*

# ÖMÜR SƏHİFƏLƏRİ

Professor Elman Quliyev 55 ÖMÜR SƏHİFƏLƏRİ

Allah yaradıb aləmi insana münasib
İnsan isə əmr etmədə imkana münasib.

Var elmimizi içrə nə qədər elmi yazarlar!...
Elmin kişaf etmiş yeni dövrana münasib.

Əhsən deyirəm Rəbbə ki, Elmanlarımız tək
Alim yetirib Azəribaycana münasib.

Biganə deyil – yaxşıya biganə deyildir,
Biganə olan bəndəyə biganə münasib.

Var bağda səfa varisə bağbanda səliqə,
Bağ-bağça olur, bəlli ki, bağbana münasib.

İlhamə gəlib Şəhriyarı eylədi tədqiq,
Bildi o böyük şairi ümmana münasib.

Elmində təsəvvüf də görünməkdə bu şəxsin,
Bəzən də seçir sözləri irfana münasib.

Pərvanə deyil ki, yana atəşləri içində,
Şam atəşinə yanmağa pərvanə münasib.

Şahin, məni bir dost kimi xoşbəxt sanaram mən
Yazdımsa əgər şerimi Elmana münasib.

Şahin Fazil

**Əsl insan şam kimidir, ətrafa işıq saçdıqca özü əriyir...**

*Fəsillər arxada, fəsillər öndə...*
*Halaldır vəzifən, duz-çörəyin də.*
*Zuvandda doğulub həmkarım Elman,*
*Fəqət Azərbaycan var ürəyində.*

*Oqtay Rza*



*Ey böyük Şəhriyar, müqəddəs insan,*
*Dedin ki, bu dünya yalandır, yalan.*
*Anlayıb hikməti, söyləyim ki, mən,*
*Hazıram köçməyə yalan dünyadan.*
*(E.Q.)*

**Sənin bəhrən yeyən kimdir?**
**Kiminkisən, yiyən kimdir?**
**Sənə doğru deyən kimdir?**
**Yalan dünya, yalan dünya!**
**(Şəhriyar)**

*Professor*
*Elman Quliyev 55*

# ÖMÜR
# SƏHİFƏLƏRİ

**«APOSTROFF»**
BAKI – 2013

Elmi redaktor: **Himalay Qasımov**
*filologiya elmləri doktoru, professor*

Ön sözün müəllifləri: **Himalay Qasımov**
*filologiya elmləri doktoru, professor*

**Yaqub Babayev**
*filologiya elmləri doktoru, professor*

Tərtib edən: **Yaqub Babayev**
*filologiya elmləri doktoru, professor*

***Naşir***
**Akif DƏNZİZADƏ**

***Professor Elman Quliyev 55***

**Ö43** ***ÖMÜR SƏHİFƏLƏRİ.*** *Bakı,* **«APOSTROFF»**, – 400 səh.

ISBN 978-9952-404-36-4

Kitabda filologiya elmləri doktoru, professor Elman Quliyevin həyatı, yaradıcılığı, şəxsiyyəti rəy, düşüncə və mülahizələrdə öz ifadəsini tapmış, görkəmli ədəbiyyatşünas alimin keçdiyi həyat yolu rəsmi sənəd və fotoşəkillərdə əks olunmuşdur.

***Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.***

**© Elman Quliyev, 2013**

# 55 İLLİK HƏYAT BAHARININ ÖMÜR QARANQUŞU

*Ömür dedikləri coşğun çay kimi*
*Kükrəyib köpürür, hər zaman gedir.*
*Ona bel bağlama o qədər də sən*
*Bəzən açılmamış gül bağban gedir.*
*Arxayın-arxayın gəzmə əsərsiz*
*Deməsinlər halı pərişan gedir...*
*Yarat, sən köçəndə ellər söyləsin*
*Dünyadan nə gözəl bir insan gedir.*

**M.RAHİM**

İnsan ömrünü bəzən coşqun çaya bənzədirlər. İbtidasını dağlardakı, dərələrdəki, qayalardakı, yamaclardakı sısqa bulaqlardan alır. Axıb bir-birinə qovuşduqca çoxalır, gurlaşır. Məkanlar fəth edir, düzlərdən, səhralardan keçir. Torpaqla sürünür, daşlara dəyib «əzilir», qayalardan tökülüb «qışqırır», «fəryad edir». Onun çəkdiyi əzabda, qaçışda, tələskənlikdə əsas məqsəd özünü dəryalara, ümmanlara daha tez çatdırmaqdır. Sanki bu axarda, sürətli hərəkət istəyində çaylar kiçiklikdən, sısqalıqdan qurtarıb böyüklüyə, dərinliyə, əzəmətə qovuşmağa tələsir. Çünki onu qarşıda geniş mavi dənizlər, hüdudsuz okeanlar gözləyir. Həm də çaylar sürünüb torpağı yaladıqca (bəlkə, belə deyək: öpə-öpə torpağı keçdikcə) ondan güc alır, nə qədər əzab çəksə də, o qədər dəyanətli olur. Daşlara dəyib nə qədər cəfa görsə, o qədər möhkəmlənir. Qayalardan tökülüb nə qədər məşəqqətə tuş gəlsə, o qədər möhtəşəmləşir, şəlalələşib dillərə düşür, səsi ucalır, avazı gurlaşır, görkəmi gözəlləşir.

Belə bir bənzətmə insan ömrünə qiyas edilsə, tamamilə caizdir. Ona görə ki, əsl mənalı, faydalı insan ömrü də axdıqca zaman-zaman möhtəşəmlik qazanır, geniş məna kəsb edir, gözəlləşir, ülviliyə, aliliyə doğru ucalır və s. Əlbəttə, əməlləri, gördüyü işlər, ortalığa qoyduğu məhsullar, cəmiyyətə verdiyi töhfələr və s.lə.

Ömrü bəzən də ahəstə yerişlə irəliləyən karvana, səhərlər tülu edib axşamlar qüruba uğrayan günəşə, cücərib fidanlaşan, sonra boy atıb böyüyən, bar-bəhrə verən, nəhayət, quruyan ağaca da bənzədirlər. Bu bənzətmələrin,

müqayisələrin hamısında həyatın öz nizamından, Tanrının xəlq etdiyi varlıqlara əta etdiyi təbii oxşarlıqlardan doğan bir harmoniya, həqiqət vardır.

Oxuyacağımız bu kitabın qəhrəmanı, sözün yaxşı mənasında müqəssiri olan Elman Hilal oğlu Quliyev də həyata Xaliqin adi, ancaq sevimli bəndələrindən biri kimi doğuldu. Lakin böyüdükcə adilikdən çıxdı. Başqalarından fərqlənməyə başladı. Özünəməxsus bir dünyaya sahib olmağa başladı. Bu seçilmə, fərdiləşmə və fərqlənmə zahiri yaşayışda bir o qədər də sezilmədi. Zahiri həqiqətində o adi adamlardan az fərqləndi və ya heç fərqlənmədi. Amma mənəvi dünyası etibarı ilə tədricən özünə çevrildi. Və özünə çevrildikcə, öz «mən»i ilə üz-üzə qaldıqca o, daxilən zənginləşdi, böyüdü, kamilləşdi, saflaşdı, bişdi, bərkidi. Yetkin bir şəxsiyyət statusu qazandı. Bir insanda bir neçə keyfiyyəti qovuşdurdu.

Elman müəllimin 55 illik ömür yolunun xronikasını qısaca sözlərlə ifadə etsək, onu aşağıdakı mərhələlərə ayıra bilərik: körpəlik, uşaqlıq və orta məktəb həyatı, ali təhsil illəri, orta məktəbdə işlədiyi, həmçinin dissertant olduğu dövr, ali məktəb həyatı. Əlbəttə, bu mərhələnin hər birinin Elman müəllimin həyatında öz rolu, yeri, çəkisi və dəyəri vardır. Onun istisi də – soyuğu da, acısı da – şirini də, pisi də – yaxşısı da, xeyiri də – şəri də Elman müəllimə məxsusdur. Onun aşkar və gizli dünyasının keçmiş olayları, təbii ki, bu gün daha əzəmətli görünür. Çünki keçmişi diriltmək mümkün deyil. Və təbii ki, gizli olanlar, sirli olanlar aşkar olanlardan daha çoxdur. Həm də zaman ötdükcə bu gizlinlər nə üçünsə daha çox şirinləşir, yazılmamış bir nəğməyə, oxunmamış bir mahnıya, ruhda, mənəviyyatda kök atan ecazkar bir yazıya çevrilir. Və bunlar ancaq və ancaq sahibinə – yubilyara məxsusdur. M.Yaqub demişkən:

*Gizli bir bulaqdı, gizli bir ocaq,*
*Odu da, közü də mənimdir ancaq*
*Köz olsa, külümlə qaysaqlanacaq*
*Mən heç o nəğməni yazmayacağam!*

*Canımda o qızıl tozudu qalır*
*Qanımda bir mələr quzudu qalır.*
*Eh, o da bir cürə yazıdı qalır*
*Mən heç o nəğməni yazmayacağam.*

Doğrudan da, keçmiş oxunması mümkün olmayan sevimli bir nəğmə timsalındadır.

Biz yubilyarın həyatında aşkar olanlarla yanaşı kəmiyyəti daha çox, saya gəlməyən gizlinləri ona görə xatırlatdıq ki, 55 illik ömür salnaməsini bu

gizlinlərsiz təsəvvür etmək mümkün deyil. Elman müəllimin şəxsiyyətini bütövləşdirən də, onu gözəl insana, alimə, müəllimə, ailə başçısına, dosta, qohuma, ləyaqətli Tanrı bəndəsinə çevirən də təkcə onun aşkar həqiqətləri deyil, həm də gizlinləridir. Əslində onun nüfuzunun, qazandığı hörmətin, cəmiyyətdə əldə etdiyi mövqeyin, həyat yollarındakı yüksəlişin enerji qaynağı, qida mənbəyi bu görünməyən gizlinlərlə bağlıdır. Deməli, 55 illik ömrün salnaməsi olan bu kitabın ərsəyə gəlməsinin səbəb telləri də zahirdə görünən Elmandan görünməyən Elmana doğru uzanır. Ancaq həm yubilyarın şəxsiyyətinin 55 illik əməl faktlarından, həm də kitab boyunca müəlliflərin, yubilyarı müxtəlif yönümlərdən tanıyıb ona qiymət verənlərin ürək sözlərindən, verdiyi xasiyyətnamədən bəlli olur ki, Elman müəllimin aşkar həqiqəti necə təmiz, gözəl və məkrsizdirsə, gizlinləri də o cür pak, riyasız, xeyir timsallı, işıqlıdır. Bu kitabın bütün səhifələri, bütün sətirləri bunu bir daha təsdiq edir. Bu mənada kitabın hər cümləsindən həqiqət boylanır.

Yubilyarı bir şəxsiyyət kimi müxtəlif rakurslardan dəyərləndirmək olar: insan kimi, alim kimi, müəllim kimi, dost kimi, ailə başçısı kimi, qohum kimi, valideyn kimi, vətəndaş kimi, türkçü kimi və s. Kitabdakı yazılarda bunların hamısına toxunulub. Həm də dərin bir səmimiyyət və obyektivliklə toxunulub.

Hər bir insan ömrü onun özü və yaxınları üçün mənalı hesab olunur. Amma bu, sözün dar mənasında «mənalı ömür» sayıla bilər. Sözün geniş anlamında «mənalı ömür» isə yalnız o ömrə deyə bilərik ki, sən və sənin gördüyün işlər bütün cəmiyyətə yarasın, əməllərin başqalarına da fayda versin. Dünyada səndən bir iz-soraq qalsın. Bu mənada Elman müəllim xoşbəxt adamdır. O, dünyada qoyduğu izlə, Azərbaycan elmi-pedaqoji ictimaiyyətinə verdiyi töhfələrlə fəxr edə bilər. Biz burda yubilyarın istər elmi, istərsə də tədris-pedaqoji aspektdə gördüyü işləri bir-bir sadalamaq fikrində deyilik. Buna ehtiyac da görmürük. Təkcə onu xatırlatmaq kifayətdir ki, əgər Elman müəlllim elmi istiqamətdə başqa heç bir iş görməsəydi, yalnız M.Şəhriyar barədə dissertasiyasını yazmış olsaydı, bu, xalqımızın onu filologiya elminin tarixində yaşatmaqdan ötrü bəs edərdi. Yaxud təkcə «Türk xalqları ədəbiyyatı» dərsliyini ərsəyə gətirib başqa heç nə qələmə almasaydı, bir dərslik müəllifi kimi məktəb və dərslik tariximizə düşərdi. Və ya yalnız iki cildlik «Şərq xalqları ədəbiyyatı» müntəxabatının tərtibçi-müəllifi olub əlavə əlini ağdan-qaraya vurmasaydı, yenə də tədris və pedaqoji həyatımızın məhsuldar cəfakeşləri sırasına daxil ola bilərdi. Hələ biz onun onlarla sanballı elmi məqalələrini, həmçinin çoxsaylı monoqrafiyalarını, tədris vəsaitlərini və nəşr etdirdiyi kitabları, mötəbər elmi tədbirlərdəki çıxışlarını, elmin inkişafı naminə aldığı çoxsaylı mükafatları demirik.

Bir alim və müəllim kimi nə qədər tələbənin filologiya elminin sirləri-

nə yiyələnməsində, magistr və dissertantın yetişməsində onun xidmətləri var. Nə qədər alimin, kitab müəllifinin dissertasiyasına, kitabına rəy vermişdir və s. Bir sözlə, Elman müəllim elmdə və tədrisdə, ictimai-pedaqoji həyatımızda uğurlu işlər görmüş, öz sözünü demiş, izini qoymuş, möhürünü vurmuş alim pedaqoqlarımızdandır. Onun ömrünün məna və hikməti ilk növbədə bundadır. Amma məsələ deyilənlərlə yekunlaşmır və daha miqyaslıdır. O, bir insan kimi də mənalı ömrün daşıyıcısıdır: xeyirxahlığı, başqalarına əl tutması, qayğıkeşliyi, əməlpərvərliyi, insanpərvərliyi, cəfakeşliyi, əməksevərliyi ilə. Yəni o, yalnız özü üçün yaşamır. Öz işığını başqalarının da yoluna salır. Bu anlamda onun şəxsiyyəti, həyatı xüsusi məna kəsb edir. Əlbəttə, bu, Allah-taalanın insana lütf etdiyi bir səadət payıdır.

E.Quliyevin 55 illik yubileyinə həsr olunmuş kitabın hər səhifəsini oxuduqca biz bu deyilənlərin şahidi oluruq. Həm də yalnız yubilyarın özünün fəaliyyəti və əməlləri çevrəsində deyil, bundan daha ziyadə başqalarının müşahidəsi, görümü və şahidliyi müstəvisində.

Əslində bu, yalnız bir yubiley toplusu deyil. Bir həqiqət kitabıdır – Bir alimin, müəllimin, vətəndaşın, dostun, ziyalının, müsbət titullarını sadalamaqla az qala qurtarmaq mümkün olmayan insanın barəsində həqiqət kitabıdır. Kitabın hər səhifəsində, hər sətrində və sözündə müəlliflərin səmimiyyətlə döyünən qəlbi, isti münasibəti, obyektiv səciyyələndirmə istəyi, dərin məhəbbəti duyulur. Kitabdakı yazıların məcmusu Elman müəllimi bir şəxsiyyət kimi bütöv şəkildə dərk etməyə imkan verir. Çünki hər kəs onun şəxsiyyətinə, əməlinə, mənəvi-əxlaqi keyfiyyətlərinə, insanlıq hisslərinə, alimlik bacarığına, müəllimlik ədasına bir bucaqdan işıq salır. Müxtəlif isnad nöqtələrindən salınan bu söz-fikir işığının ziyası altında Elman müəllimin xarakteri tamamilə açılır. Çoxsaylı yazı müəllifləri sanki birləşib konkret bir yazıçıya, Elman müəllim isə həmin yazıçının ustalıqla, mahir şəkildə xarakterini verdiyi roman qəhrəmanına çevrilir. Dediyimiz anlamda bu kitabı yubilyar haqqında yazılmış bir roman, ifrata varmadan deyək ki, bəlkə, elə epos da adlandırmaq olar: Bir ömrün romanı, dastanı və ya eposu.

Bəlkə də, salnamə, dastan, epos, roman, hekayət yox, eləcə belə deyək, yəni kitabın adını və məzmununu bu üç kəlmə ilə ifadə edək: Qəhrəman (Elman müəllim!) haqqında söz! Çünki geniş mənada fəlsəfə və hikmət, ağıl və kamal meydanında söz hər şeyi özündə ehtiva edə bilir. Və bütün həqiqətlər gözəli və çirkini, yaxşısı və yamanı, alisi və adisi ilə sözlə ifadə oluna bilir. Kitab da, roman da, salnamə və s. də nəticə etibarı ilə sözlərin məcmusudur. İ.Nəsiminin sözləri ilə desək:

*Əqli-küll, ərşü kürsu, lövhü qələm,*
*Çar ünsür, nöh asimandır söz.*

Burada P.Buastın bir sözü də yada düşür: «İnsanlar sözlərə oxşayırlar, yerlərinə qoymasan mənalarını itirərlər». Doğrudan da, varlıq nizamında hər şey yerində gözəl görünür. Söz də, insan da, o cümlədən.

Elman müəllim də həyatının bütün axarı boyunca hər an, hər zaman öz yerini, məqamını bilən insan olub, öz mərtəbəsini bilib. Həm salamını, həm kəlamını, yəni həm davranışını, həm sözünün çəkisini bilən insandır. Onun barəsində bu kitab da vaxtında, məqamında ərsəyə gəlib. Orada hər bir kəsin yazdığı ürək sözləri, xatirələri, fikir və münasibətləri də yerindədir, qəlbin hökmünə əsaslanır. Bu, Elman müəllimin 55 illik ömrünün, şəxsiyyətinin bir növ səciyyənaməsidir. Onu həsr olunduğu şəxsiyyətə aid məsələlərin ehtiva dairəsinin genişliyinə, tamlığına görə «Elmannamə» də adlandıra bilərik.

Kitabı yubilyarın ömür çələngi də adlandırmaq olar. Belə ki, bu, onun 55 illik ömür yoluna, şəxsiyyət vüqarına qoyulmuş çələngə bənzəyir. Ancaq fikrimizcə, kitabı yubilyarın 55 illik həyat baharının ömür qaranquşu kimi xarakterizə etmək, daha düzgün olardı. O mənada ki: əvvələn, kitab bizə Elman müəllimin ömrünün kamala çatdığı əlamətdar bir yaş həddinin – 55-ci baharının çatdığını xəbər verir. İkincisi, buradakı hər cümlə, hər mətləb oxucuya yubilyarın işıqlı əməl və fikir sahibi olduğunun xoş müjdəsini söyləyir. Qaranquş öz gəlişi ilə insanlara baharın xoş müjdəsini gətirdiyi kimi kitabda deyilənlər də qəhrəmanın şəxsiyyətinin bahar ovqatından, xeyirxah missiyasından, bərəkətli, məhsuldar xislətindən soraq verir. Üçüncüsü, biz əminik ki, qaranquşun müjdəsi bir sevinc nəğməsi kimi heç vaxt unudulmadığı kimi bu kitabın oxucuda yaratdığı ovqat, mənəvi ruh da həmişə onun yadında əbədi qalacaq.

***Əziz oxucu!***

***Bu kitab sizi bir alimin, müəllimin, vətəndaşın, insanın 55 illik ömür yolu ilə tanış edir. Biz də ona ünvanlanan bütün təbriklərə qoşuluruq. Arzu edirik ki, Allah-taala ona ömrünün II yarım əsrinin tamamında – 100 yaşında da buna bənzər bir kitab nəşr etməyi nəsib etsin! Həmin kitab isə yarım əsrin deyil, bir əsrin yubiley salnaməsinə, ömür qaranquşuna çevrilsin!!!***

***HİMALAY QASIMOV***
*filologiya elmləri doktoru, professor*

***YAQUB BABAYEV***
*filologiya elmləri doktoru, professor*

## *ÖMÜRDƏN SƏHİFƏLƏR*

**1958**

Lerik rayonu Zuvand mahalının Kələxan kəndində qulluqçu ailəsində anadan olmuşdur.

**1965-1969**

Lerik rayonu Kələxan kənd ibtidai məktəbində təhsil almışdır.

**1969**

Lerik rayonu Kəlvəz kənd orta məktəbinin V sinfinə qəbul edilmişdir.

**1972**

ÜİLKGİ sıralarına daxil olmuşdur.

**1975**

Lerik rayon Kəlvəz kənd orta məktəbini bitirmişdir.

Lerik rayon Kommunal Təsərrüfat Birliyində fəhlə işləmişdir.

**1976-1977**

Lerik rayon Rabitə şöbəsində teleqrafçı işləmişdir.

**1977**

V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuşdur.

**1979**

Ümumittifaq tələbə-gənclər arasında keçirilən konfransda «Tolstoy və Azərbaycan ədəbiyyatı» mövzusunda yazdığı elmi işə görə I yerə layiq görülmüşdür.

**1981**

V.İ.Lenin adına APİ-nin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və Lerik rayon Kəlvəz kənd orta məktəbinə dil-ədəbiyyat müəllimi təyin edilmişdir.

**1982**

Lerik rayon 13 saylı seçki dairəsində Kənd Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

**1986**

Lerik rayon Kəlvəz kənd orta məktəbinə tədris işləri üzrə direktor müavini təyin edilmişdir. Lerik rayonu 13 saylı seçki dairəsində Kənd Xalq Deputatları Sovetinə ikinci dəfə deputat seçilmişdir.

**1988**

Xalq yazıçısı, akademik Mirzə İbrahimov yaradıcılığı əsasında namizədlik dissertasiyası müdafiə etmiş və SSRİ Nazirlər Sovetinin ya-

nında Ali Attestasiya Komissiyasının qərarı ilə (15 noyabr 1988-ci il 13 saylı protokol) filologiya elmləri namizədi elmi dərəcəsini almışdır. Kommunist Partiyası sıralarına daxil olmuşdur.

## 1991

V.İ.Lenin adına APİ-nin Folklorşünaslıq ETL-ə laborant qəbul edilmişdir.

## 1992

Folklorşünaslıq ETL-də elmi işçi vəzifəsini tutmuşdur.

## 1993

ADPU Müasir Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasına müəllim vəzifəsinə təyin edilmişdir.

## 1998

ADPU Müasir Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasında dosent vəzifəsini tutmuşdur.

## 1999

«Mirzə Uluğbəy» mükafatına layiq görülmüşdür (Özbəkistan).

## 2000

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyası tərəfindən dosent elmi adı verilmişdir (protokol N25).

## 2004

«Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Şəxsi təşəbbüsü ilə Türkiyə Səfirliyinin ADPU-da yaratdığı «Türk odası»na müdir təyin olunmuşdur.

## 2006

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının qərarı əsasında (27 yanvar, 2006-cı il, 03-R saylı protokol) filologiya elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

## 2007

Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. C.Rumi – 800 (YUNESKO) müsabiqəsinin laureatı olmuşdur.

ADPU Elmi Şurasının qərarı ilə professor vəzifəsinə seçilmişdir. Şəxsi təşəbbüsü ilə yaradılan «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin müdiri təyin edilmişdir. AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasına üzv seçilmişdir.

## 2008

«İlin alimi» müsabiqəsinin qalibi olmuşdur (I yer). Türk xalqları ədəbiyyatı problemlərinin öyrənil-

məsində göstərdiyi xidmətlərinə görə «Türk Dil Qurumu»nun (Türkiyə, Ankara) mükafatını almışdır.

## 2010

Azərbaycan Respublikası Prezidenti Yanında Ali Attestasiya Komissiyasının qərarı ilə (protokol $^{1}$03-R) professor elmi adına layiq görülmüşdür. Şimali Kipr Türk Cümhuriyyətində keçirilən beynəlxalq simpoziuma təqdim etdiyi məqalə TÜRKSOY tərəfindən dəyərləndirilmişdir.

## 2011

Türk dili və ədəbiyyatı problemləri istiqamətindəki xidmətlərinə görə Şimali Kipr Türk Cümhuriyyətinin Bakı təmsilçisi Zəki Gazioğlu tərəfindən təşəkkür təqdim edilmişdir.

«İlin müəllimi» müsabiqəsinin qalibi olmuş (I yer), «Avropa Nəsr Mətbu Evi» tərəfindən «Ən yaxşı vətənpərvər tədqiqatçı alim «Qızıl medalı» ilə təltif edilmişdir. AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasına üzv seçilmişdir.

## 2012

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 18 aprel tarixli 2177 nömrəli sərəncamına əsasən «Tərəqqi» medalı ilə təltif edilmişdir. Türk xalqları ədəbiyyatı problemlərinin öyrənilməsi, onun tədrisi, Azərbaycanda türkçülüyün inkişafı ADPU ilə Türkiyə səfirliyi, o cümlədən Türkiyə universitetləri arasında elmi əlaqələrin qurulması sahəsində xidmətlərinə görə Türkiyənin Azərbaycandakı səfirliyi tərəfindən Dövlət təşəkkürünə layiq görülmüşdür

## 2013

«Qızıl qələm» mükafatı almışdır...

***Professor***

***Elman Quliyevin***

***yaradıcılığı, şəxsiyyəti***

***rəy, düşüncə və mülahizələrdə***



*İsa Həbibbəyli*
*Millət vəkili,*
*AMEA-nın vitse prezidenti,*
*akademik*

# ƏDƏBİYYATŞÜNASLIQ ELMİNDƏ BƏLLİ BİR SİMA

Bütövlükdə Azərbaycan elminin, o cümlədən ədəbiyyatşünaslığın inkişafı yolunda elmi nəsillərin təsnifatı baxımından bir neçə istiqamət müşahidə olunur. Bunlardan ən çox görünəni ümumi axında yol gedənlərdir ki, beləlləri müəyyən rütbə, titul qazansalar da elmi xidmətləri ilə diqqəti çox da cəlb edə bilmirlər. Ancaq elə alimlərimiz də vardır ki, onlar təmsil etdikləri elmi istiqamətlərdə ardıcıl, məqsədyönlü və səmərəli fəaliyyətləri ilə artıq bəlli bir simaya çevrilə bilmişlər. Filologiya elmləri doktoru, professor Elman Quliyevin çoxillik və sistemli elmi axtarışları ona müasir Azərbaycan ədəbiyyatşünaslıq elminin tanınmış nümayəndələrindən biri olmaq statusu qazandırmışdır. Hər şeydən əvvəl, onu qeyd etmək lazımdır ki, Elman Quliyev yeni dövr Azərbaycan şəhriyarşünaslıq elminin yaradılmasında mühüm xidmətləri olan tədqiqatçılardan biridir. Onun «Məhəmmədhüseyn Şəhriyarın yaradıcılıq təkamülü (milli problemlər kontekstində)» mövzusundakı doktorluq dissertasiyası müasir mərhələdə qüdrətli sənətkara həsr olunmuş sanballı elmi-tədqiqat işi kimi qəbul olunur. Bu doktorluq dissertasiyası özünəqədərki Azərbaycan şəhriyarşünaslığının ümumiləşmiş yekunu, yeni epoxanın Şəhriyar haqqındakı tədqiqatçılıq prinsiplərinin sanballı monoqrafik təqdimatıdır.

Elman Quliyevin Şəhriyarın yaradıcılığını milli təkamül proseslərinin işığında dəyərləndirib elmi cəhətdən qiymətləndirməsi onun fərqli və əhəmiyyətli elmi nəticələrə gəlməsini şərtləndirmişdir. Fikrimizcə, Elman Quliyevin «Şəhriyarın poeziyası və milli təkamül» monoqrafiyası Azərbaycan ədəbiyyatşünaslığında əhəmiyyətli bir azərbaycanşünaslıq əsəridir. Bundan başqa, onun «Şəhriyarın poetikası» monoqrafiyası böyük ustadın ədəbi irsinin sənətkarlıq baxımından araşdırılması sahəsində mü-

hüm elmi addımdır. Nəticə etibarilə Elman Quliyev müasir Azərbaycan şəhriyarşünaslığının yeni tipli fədakar yaradıcılarından biridir. Elman Quliyevin ustad Məhəmmədhüseyn Şəhriyarın məşhur «Heydərbabaya salam» əsərinin necə varsa orijinal mətnini çap etdirməsi onun şəhriyarşünaslıq tədqiqatlarını tamamlayır.

Azərbaycan müstəqillik qazandıqdan sonra türkologiyanın sürətli inkişafı bu elmi istiqamət üzrə də tədqiqatçıların və araşdırmaların göstəricilərinin artması ilə səciyyələnir. Türkologiya dedikdə isə daha çox dilçilik yönlü araşdırmalar yada düşdüyü üçün bəzən, bu sahə üzrə çalışan ədəbiyyatçılar diqqətdən kənarda qalır. Elman Quliyev Azərbaycanda yeni dövrdə ədəbiyyat yönlü türkologiyanın əsas yaradıcılarındandır. Alimin «Türk xalqları ədəbiyyatı», «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» əsərləri ali məktəblərdə dərslik, dərs vəsaitləri kimi nəzərdə tutulsa da, onun bu qəbildən olan nəşrləri özündə həm də yeni və ciddi araşdırmaları da əhatə edir. Elman Quliyevin özbək ədəbiyyatına dair tədqiqatları və tədris vəsaitləri onun türkologiyaya dair baxışlarının əhatə dairəsinin genişliyini şərtləndirir. Elman Quliyev yeni epoxanın geniş dünyagörüşünə malik, ciddi araşdırmaların və ümumiləşdirmələrin müəllifi olan yüksək hazırlıqlı, peşəkar türk ədəbiyyatı mütəxəssisi kimi də diqqəti cəlb edir. Daha çox dilçilik istiqamətində inkişaf edən Azərbaycan türkologiya elmi onun bu sahədəki tədqiqatları ilə ədəbiyyatşünaslıq üzrə də zənginləşmişdir. Bu sahədə ardıcıl olaraq çalışan bir çox digər tədqiqatçılarla birlikdə Elman Quliyevi də Azərbaycan elmində yeni dövrün ədəbiyyat ağırlıqlı türkologiyasının yaradıcılarından biri hesab etmək olar. Professor Elman Quliyevin Azərbaycan ədəbiyyatına dair tədqiqatları da həm ölkə ədəbiyyatşünaslığında, həm də ümumtürkoloji ədəbiyyatşünaslıq mühitində xüsusi çəkiyə malikdir.

Bu cəhəti də ayrıca qeyd etmək lazımdır Elman Quliyev müəllim – ədəbiyyatşünasdır. Müəllim – alim tipli ədəbiyyatşünaslarda ədəbiyyatın tarixi və nəzəri tərəflərini yaxşı bilmək və öyrənməklə yanaşı, həm də praktik olaraq ədəbi materialı dərindən mütaliə etmək, şeirlər əzbərləmək kimi keyfiyyətlər də nəzərə çarpır ki, Elman Quliyevdə də həmin cəhətlər özünü göstərir. Fikrimizcə, Elman Quliyev bütövlükdə elmin və ədəbiyyatın təmiz havasında nəfəs alan, elmimizə təzə baxış, yeni axtarış materialları, özünəməxsus nəzəri-tarixi ümumiləşdirmələr gətirən səviyyəli bir ədəbiyyatşünasdır. Onun adı və imzası kimi, elmi üslubu da fərdi şəkildə və fərqli səviyyədə nəzərə çarpır.

Filologiya elmləri doktoru, professor Elman Quliyevə elmi fəaliyyətində və müəllimlik işində daha böyük uğurlar arzulayıram.



*Hulusi Kılıç*
*Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri*

## TÜRK DÜNYASININ ZƏHMƏTKEŞ ALİMİ

Professor Elman Quliyevlə ilk dəfə 2008-ci ildə görüşsəm də mənə onun fəaliyyəti barədə az-çox məlumat verilmişdi. Filologiya elmləri doktoru, professor Elman Quliyevin şəxsi təşəbbüsü ilə 2004-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetində «Türk odası»nın, 2007-ci ildə isə «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin yaradılması, eyni zamanda Azərbaycanda türk xalqları ədəbiyyatı problemlərinin yüksək şəkildə araşdırılması, öyrənilməsi, universitetlər üçün «Türk xalqları ədəbiyyatı» fənninə dair dərslik və tədris proqramlarının yazılması istiqamətindəki xidmətləri barədə bir səfir olaraq mənə məruzə edilmişdi. Bütün bunlar məndə universitetə gedib, oradakı işlərlə tanış olmaq marağı oyatdı. Biz səfirlik olaraq 18 dekabr 2008-ci il tarixində TİKA xətti ilə texniki avadanlıqla təchiz olunmuş «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin yeni təmirli otaqlarının açılışını planlaşdırdıq. Universitetlə, eyni zamanda «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzi ilə tanışlıq məndə yüksək təəssüratlar doğurdu. Şahidi oldum ki, 1996-cı ildən Azərbaycan ali təhsil məktəblərində tədris olunan «Türk xalqları ədəbiyyatı» fənninin öyrənilməsi istiqamətində pedaqoji universitetdə çoxlu uğurlar əldə edilmişdir. Qısa vaxt ərzində prof., dr. Elman Quliyev Azərbaycanda ilk dəfə olaraq bakalavr təhsili üçün «Türk xalqları ədəbiyyatı», magistratura təhsili üçün «Ümumtürk ədəbiyyatı» tədris proqramlarını, «Müasir özbək ədəbiyyatı tarixi», «Türkiyə türk ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», «Özbək ədəbiyyatı» və s. dərslik və dərs vəsaitləri yazmış, Azərbaycan və xarici ölkələrdə türk ədəbiyyatı problemləri ilə bağlı çoxsaylı məqalələr dərc etdirmiş, beynəlxalq konfranslarda maraqlı məruzələr etmişdir. Prof., dr.Elman Quliyevin Azərbaycan universitetlərində dərslik kimi istifadə olunan «Türk xalqları ədəbiyyatı» kitabını oxuduqdan sonra onun bu ədəbiyyatın problemlərinə nə dərəcədə yaxından bələd olduğunun bir daha şahidi oldum. Kitabda çoxminillik tarixə malik türk xalqları ədəbiyya-

tının aparıcı yaradıcı simalarının həyat və yaradıcılıqlarının araşdırılmasını, onların türkçülük düşüncəsində təhlilə cəlb edilməsini müəllifin uğuru hesab edirəm. Prof., dr. Elman Quliyev Türkiyə türk, özbək, türkmən, qazax, krım-tatar, qırğız ədəbiyyatlarının tanınmış şəxsiyyətlərinin yaradıcılıqlarını milli-estetik prinsiplər daxilində təhlilə cəlb etmiş, məsələlərə türk-milli düşüncə müstəvisində aydınlıq gətirmişdir. Bunun nəticəsidir ki, kitab ümumtürk yazılı abidələri, türk dünyasının ən böyük ədəbi simaları olan C.Rumi, Y.İmrə, Ə.Hamid, T.Fikrət, N.Kamal, Z.Göyalp, R.N.Güntəkin, Ə.Nəvai, M.Şeyxzadə, M.Fəraqi, A.Kunanbayev, İ.Qaspiralı, O.Süleymenov, Ç.Aytmatov və s. sənətkarların həyat və yaradıcılıqları haqqında kompleks təsəvvür yaradır, geniş mənada türk mənəvi dəyərləri, ədəbi-bədii zövq və təfəkkür tərzinin üstünlüklərini nümayiş etdirir. Prof. Elman Quliyevin son dövr türkoloji çalışmalarını özündə əks etdirən, mənə təqdim olunmuş «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri», «Orta əsrlər türk xalqları ədəbiyyatı», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı», iki cildlik «Şərq xalqları ədəbiyyatı» kitabları onun nə qədər zəhmətkeş və cəfakeş alim olduğundan xəbər verir.

Elman müəllim gözəl alim olduğu kimi, gözəl dost və gözəl pedaqoqdur. Müxtəlif sahənin insanları olsaq da, bu bizim dostluq əlaqələrimizə mane olmamışdır. Mən onunla səfirlikdə, universitetdə, müxtəlif tədbirlərdə görüşmüş, həmsöhbət olmuş və bundan məmnun qalmışam. Mən bütün görüşlərimdə prof. Elman Quliyevin ruhuna hakim kəsilən türkçülük yanğısını duymuşam. Mənə elə gəlir ki, onun türk ədəbiyyatı problemlərini özündə əks etdirən çoxsaylı kitablarının meydana gəlməsinin kökündə əsas olaraq bu dayanır.

Elman müəllim nəyi edirsə ürəkdən edir. Mühüm elmi nəticə əldə etmək gərgin, ağır zəhmət tələb etdiyi kimi, həm də cəsarət tələb edir. Mən bütün bunları Elman müəllimdə müşahidə edə bilmişəm. Əgər bunlar olmasaydı, o, qısa zamanda bu qədər kitab və məqalə yaza bilməzdi.

Elman Quliyev həm də gözəl ailə başçısıdır, mehriban, qayğıkeş ata və nəvə fərəhi ilə yaşayan babadır. Mən onun övlad toyu sevinci yaşantılarının şahidi olmuş və bir dost kimi onu təbrik etməyi özümə borc bilmişəm.

Bu gün prof. Elman Quliyev təkcə Azərbaycanda tanınmır. O, türk dünyasında tanınan, sevilən, elmi fəaliyyəti dəyərləndirilən türkoloq alimdir. Bu bir həqiqətdir ki, türk dünyası bu cür şəxslərin sayəsində çox şey qazanacaqdır.

Əslində 55 yaş insan ömrünün orta həddidir. Elman müəllim kimi insanlar bu yaş həddindən sonra daha çox işləməyi bacarırlar. İnanıram ki, hələ qarşıda onu çox-çox uğurlar gözləyir. Şübhə yoxdur ki, o, bundan sonra da fəaliyyətində dövlətinə və millətinə xidmət göstərəcəkdir.

Mən əziz dostum, dəyərli alim prof.Elman Quliyevi 55 yaşı münasibəti ilə təbrik edir, ona can sağlığı, ata, baba sevinci yaşamağı və işlərində daha böyük uğurlar qazanmağı arzulayıram.



*Zeki Gazioğlu*
*Kuzey Kıbrıs Türk Cumhuriyeti*
*Bakü Temsilcisi*

## TÜRK DÜNYASINA HİZMET EDEN GERÇEK BİLİM İNSANI

Kökenleri binlerce yıl öncesine dayanan kadim Türk halklarının dil, kültür edebiyatlarının araştırılmasına ve bu mirasına sahip çıkılmasına çok büyük katkıları bulunan Elman Quliyev ile tanışıklığımız bundan beş yıl öncesine dayanır. Bu süreçte, kendisini öncelikle bir dost, sonrasında ise tüm zorluklara karşı direnen, yılmak bilmeyen gerçek bir bilim insanı olarak tanıdım. Yaptığı çalışmalarda tek bir amacı vardı: Türk dünyasına daha fazla hizmet etmek. Bu hizmetlerini sürekli makaleler yazarak, dergiler ve kitaplar yayınlayarak ve Azerbaycan Devlet Pedagoji Üniversitesi'nde Türk dünyası edebiyatı hususunda tedrisatlar oluşturarak kararlılıkla sürdürmüştür. ADPÜ bünyesinde onun büyük emekleri ve şahsi gayretleri sonucu oluşturulan «Türk Araştırmaları Merkezi» ve buna bağlı «Türk Odası»nın özelde Azerbaycan'ın kültür yaşamına, genelde ise Türk edebiyat dünyasına yapacağı olumlu katkıları gelecek nesiller büyük bir minnetle anacaktırlar. Türk dünyası, dili ve edebiyatı hususunda yıllardır çalışan Kıbrıslı Türk ilmi araştırmacılarının da Elman Quliyev'in cesaretle yürüdüğü, önemli katkılar koyduğu bu yolda, onunla birlikte yürümekten büyük bir haz aldıklarını da çok yakından bilen bir kişi olarak, Elman Quliyev'e Türk edebiyat dünyasına koyduğu katkılardan dolayı teşekkürlerimi sunar, yeni eserler üretmeye devam etmesini dilerken, ona bundan sonraki yaşamında sıhhat ve uğurlar arzularım.



*Nizami Cəfərov*
*Millət vəkili,*
*professor, AMEA– nın müxbir üzvü,*
*əməkdar elm xadimi*

## ƏMƏKDAŞLIQDAN DOSTLUĞA

Mən Elman Quliyevi çoxdan-keçən əsrin 90-cı illərindən tanıyıram. Ara-sıra müxtəlif elmi məclislərdə, tədbirlərdə görüşürdük. Təxminən on il bundan əvvəl-onun böyük Azərbaycan şairi M.H.Şəhriyarın yaradıcılığına həsr olunmuş doktorluq dissertasiyasının müdafiəsi dövründə daha tez-tez görüşməli olduq. Və nəticə etibarilə dostlaşdıq.

O zaman mən AAK-ın filologiya elmləri üzrə Ekspert Şurasının sədri idim. Elmanın dissertasiyası isə həmin Şuradan keçməli idi. Şura üzvlərindən bir neçəsi – Elmanın müəllimi olmuş həmkarları haqsız onu sıxışdırmağa başladılar. Tənqidlərdə subyektiv məqamlar daha çox idi. Ona görə Elmanı müdafiə etmək üçün yüngülvari bir «hiyleyi-şərr»ə də əl atmalı olduq. Başqaları, bəlkə də, vəziyyətdən çıxmaqdan ötrü bundan ikiəlli yapışardı. Ancaq təbiətən həm özünə, həm də ətrafındakılara səmimi olan Elman həmin «hiyleyi-şərr»i kifayət qədər ağrılı qəbul elədi. Müdafiə və özünütəsdiq üçün öz intellektinə arxalandı.

Professor Elman Quliyevin o zaman hücumlara məruz qalan «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» əsəri bu gün şəhriyarşünaslığın ən dəyərli işlərindən biridir. Bu əsər böyük şairin anadilli yaradıcılığını həm ideya-məzmun, həm də ifadə-forma planında dərindən (və bütün poetik miqyası ilə!) təqdim edir, milli mahiyyətini, təkamül yolunu açıb göstərir.

Elman Quliyevin böyük xidmətlərindən biri də türk xalqları ədəbiyyatları üzrə proqramlar tərtib etməsi, dərsliklər və monoqrafiyalar yazmasıdır. Etiraf etmək lazımdır ki, beş-on il ərzində bu qədər keyfiyyətli

əsərlərin ortaya qoyulması asan məsələ deyil. Müəllim-alimdən elmi intellekt, ədəbi faktlara, hadisələrə yaxından bələdliklə yanaşı, pedaqoji-metodiki hazırlıq, böyük zəhmətkeşlik də tələb edilir ki, bütün bunlar Elman Quliyevdə vardır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasının professoru, «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri kimi Elman Quliyevin fəaliyyəti bizim gözlərimizin qarşısındadır. Türkologiya, o cümlədən türk xalqları ədəbiyyatı tarixi mənim də maraq dairəmə daxil olduğundan artıq neçə illərdir ki, Elmanla elmi əməkdaşlıq edirik. Onun çap etdirdiyi kitabları məmnuniyyətlə oxuyuram. Mənim yazdıqlarıma da o, biganə qalmır. Və bu intellekt mübadiləsi, elə bilirəm ki, hər ikimiz üçün çox faydalıdır.

Elman yaradıcılığının, ümumən həyatının ən məhsuldar illərini yaşayır, ölkənin elmi-ictimai proseslərində iştirak edir, fəxri adlar, mükafatlar alır, gənc filoloqlar nəslinin – bizi əvəz edəcək mütəxəssislərin yetişməsində əhəmiyyətli rol oynayır.

Mən əminəm ki, o, çoxşaxəli (və təvazökar!) fəaliyyəti ilə bundan sonra da böyük nüfuz qazanacaq, hörmət sahibi olacaqdır.



*Sabir Rüstəmxanlı*
*Azərbaycanın xalq şairi,*
*Millət vəkili*

# BALACA ZUVANDDAN BÖYÜK TÜRK DÜNYASINA

Postmodernist düşüncənin maarifçilik erasını bitmiş hesab etdiyi, məktəbin, sözün, yüksək ideyalara xidmət edən əsərlərin nəyisə dəyişəcəyinə ümidin azaldığı bir dövrün aydınları və müəllimlərini zaman çox mürəkkəb suallarla üzləşdirir. Uşaq yurdları, məktəblər, lisey və universitetlərlə yanaşı, xeyri ilə ziyanını ayırmaq son dərəcə çətin olan, çox vaxt ənənəvi mənəvi dəyər və tərbiyə üsullarıyla ziddiyyət təşkil edən, sərhədsiz, qarışıq informasiya və rabitə imkanı, sosial şəbəkə gənc nəslin maraq dairəsinə getdikcə daha çox hakim kəsilir.

Belə bir dolaşıq, mürəkkəb və dəyərləndirilməsi mümkün olmayan münasibətlər sistemində tərbiyəçinin, müəllimin, alimin və ümumilikdə ziyalının çiyninə nə qədər ağır yük düşdüyünü təsəvvür etmək o qədər də çətin deyil. Bu gizli yarışda təhsil ocaqlarının öz cazibədarlığını və birincilik statusunu qoruması kitab və dərsliklərlə yanaşı, bəlkə onlardan daha çox müəllim şəxsiyyəti ilə bağlıdır. Kamil, yüksək mənəviyyatlı və işıqlı müəllim obrazı bütün hallarda uşaqlar üçün maraq dairəsinin mərkəzində dayanır.

Təəssüf ki, yaşadığımız dövrdə maddiyyatçılığın önə keçməsi müəllim və məktəbin nüfuzuna ciddi ziyan vurmuşdur. Kapitalın güclü əli öz zorakı və kobud təbiətini gizlətmək üçün cəmiyyətin ziyalı kəsiminin üzə çıxmasına mane olur, onu daim ehtiyac və münaqişələr içində saxlamağa çalışır.

Yəqin buna görə də cəmiyyətin iqtisadi gücü artdıqca onun mənəvi gücünü daşıyanların həyat şəraitləri daha da ağırlaşır. Çox az ziyalı var ki, bütün bu məhrumiyyətlərə baxmayaraq, öz əsl aydınlığını, mənəvi ucalı-

ğını, təmizliyini, milli xarakterini, şəxsiyyətinin cazibədarlığını qoruyub saxlaya bilir. Onlardan biri uzun illərdən bəri tanıdığım və həmişə xüsusi hörmətlə yanaşdığım professor Elman Quliyevdir.

Öncə onu deyim ki, Elman müəllimin doğulub boya-başa çatdığı yerlər mənim uşaqlıq xatirələrimdə dərin izlər buraxmışdır. Bizim yerlərlə Ərdəbil mahalını Alar yaylaqları ayırır. O yaylaqların bir ucu Elman müəllimin doğulduğu Zuvand mahalının Kələxan kəndinə qədər uzanır. Həmin kəndlə bizim ailəmizin sıx əlaqələri vardı. Atam o yerlərə atla gedib gələrdi. Sonralar bu ailə dostluğunu mən ədəbiyyata böyük coşquyla gəlmiş, amma sonralar nədənsə şeirdən uzaqlaşıb kəndə çəkilmiş Seyfəddin Səbaillə dostluğumuz timsalında davam etdirirdim.

Elman müəllim köklü bir nəslin övladıdır. Görkəmli ədəbiyyatşünas-alim, professor Abbas Zamanovla mən hələ tələbəykən tanış olmuşdum və bu tanışlıq tezliklə dostluğa çevrilmişdi. İşlədiyim «Ədəbiyyat və incəsənət» qəzetinə tez-tez gəlirdı. Özü də qonşuluğumuzda Nizami adına Ədəbiyyat Muzeyinin direktoru idi.  Bir gün işçilərimizlə vidalaşıb gedəndə qoluma girib məni də ərklə küçəyə dartdı. Öncə elə bildim onu muzeyə yola salmağımı istəyir, ancaq küçəyə çıxan kimi «gedək səni gözəl bir kişiylə tanış edim. Sizin tərəflərdəndir, deyəsən sizin rayonda da işləyib» Onun təklifi məni təəccübləndirmədi, Abbas müəllimin Cənub bölgəsini, o bölgənin tanınmış adamlarını, ziyalılarını yaxşı tanıdığından xəbərim vardı. Redaksiyadan səksən-yüz metr aralıda, Azərbaycan kinoteatrının arxasında Bakının məşhur atelyelərindən biri yerləşirdi. Abbas müəllim dərzilərin yanından keçib arxa otağa, müdirin yanına girdi. Boyca Abbas müəllimdən hündür, ancaq elə onun kimi şişman bir kişi yerindən qalxdı, gülə-gülə «qardaş, gəl!», «qardaş gəl» deyib Abbas müəllimi qucaqladı. Abbas müəllim xoş-beşə imkan vermədən «Ağa, bu cavan oğlanı tanıyırsan?-deyə soruşdu. Dostu əhvalını pozmadan «Tanış edərsən, tanıyaram!» – dedi. Ağa Quliyev Mir Cəfər Bağırov dövründə böyük vəzifələrdə  işləmiş, sonra arada yaranan münaqişələrə görə cəza çəkmiş, ancaq öz qürurunu sındırmamış bir adamdı və o gündən onunla da xoş bir münasibətimiz yarandı. Elman müəllimlə ilk tanışlığınızda mən nədənsə Ağa Quliyevi xatırlamışdım və sonradan onun qardaşı oğlu olduğunu biləndə zənnimin məni aldatmadığına sevindim, çünki «Ot kokü üstə bitər»...

Şübhəsiz, Elman müəllimə münasibətimdə o uzaq və xoş xatirlərin də təsiri var. Amma bizi bağlayan daha çox onun, sözün əsl mənasında, gözəl bir Azərbaycan-Türk ziyalısı olması və yaradıcılığında Azərbaycanı Güneyli-Quzeyli bütöv görməsidir. O öz elmi fəaliyyətinin ilk mərhələsində böyük şairimiz Şəhriyarın yaradıcılıq təkamülünün milli problemlərlə

bağlı olduğunu təsdiq etməklə poeziyanın milliliyinə nə qədər yüksək dəyər verdiyini təsdiq etmişdir. Sonralar onun mövzu dairəsi genişlənərək bütün türk coğrafiyasını əhatə etdi. Şəhriyar, Mirzə İbrahimov, Söhrab Tahir yaradıcılıqlarının araşdırılmasından başlanan yol onu Özbəkistana, Türkmənistana, Türkiyəyə apardı. Türk dünyası ədəbiyyatının ən ardıcıl araşdırıcılarından biri oldu. 1992-ci ildə Şəhriyar və Söhrab Tahir haqqında kitablarından sonra o bir müddət qədim türk ədəbiyyatını, müasir özbək ədəbiyyatını, ədəbiyyatşünaslıq problemlərini araşdırmaqla məşğul oldu və bu mövzularla bağlı bir-birindən dəyərli kitablar yazıb nəşr etdirdi.

Bu kitablarla yanaşı o həm də iyirmi ildən artıq müəllimi olduğu Azərbaycan Dövlət Pedaqoji Universitetində türk xalqları ədəbiyyatı, daha sonra şərq xalqları ədəbiyyatı üzrə müxtəlif proqram və dərsliklər hazırladı; Azərbaycan Dövlət Pedaqoji Universitetində türkologiyanın və türk ədəbiyyatşünaslığının öyrənilməsinə təkan verdi. Bu işin təməlini qoydu. Bu baxımdan kitablarının bir neçəsinin adını çəkmək yetərlidir: «Müasir özbək ədəbiyyatı tarixi», «Türkiyə türk ədəbiyyatı», «Şəhriyar poeziyası və milli təkamül», «Şəhriyar poetikası», «Türk xalqlarının ədəbiyyatşünaslıq problemləri», «Orta əsrlər türk xalqları ədəbiyyatı», iki cildlik «Şərq xalqları ədəbiyyatı», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı».

Bütün bu xidmətlərinə görə o, 2012-ci ildə Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. Elman müəllimin yaradıcılıq əlaqələri çox genişdir. O tez-tez beynəlxalq elmi konfranslarda çıxışlar edir, əsərləri qonşu ölkələrin oxucularına da yaxşı tanışdır.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru olan dostumuzun ən böyük xidmətlərindən biri bu qədim və mənə də doğma olan təhsil ocağında «Türk odası və türk araşdırmaları» elmi tədqiqat mərkəzini yaratmasıdır. Türk dünyası problemlərinin öyrənilməsi günümüzdə xüsusi aktuallıq qazanıb; humanitar elmimizin yeni, lakin çox əhəmiyyətli bir sahəsidir. Yeddi türk dövləti arasında güclənən inteqrasiya Elman müəllim kimi alimlərin yardıcılığının milli, ictimai və siyasi dəyərini ildən-ilə artırır. Yazıçılar Birliyinin üzvü, görkəmli ədəbiyyatşünas alim, yorulmaz müəllim və əsl Azərbaycan ziyalısı olan Elman Quliyevin bundan sonra da öz fəaliyyətini böyük istedadla davam etdirəcəyinə, ədəbiyyatşünaslığımızı yeni əsərlərlə zənginləşdirəcəyinə inanır və bu yolda ona uğurlar arzulayıram.



***Gövhər Baxşəliyeva***
*Millət vəkili,*
*AMEA-nın akad. Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun direktoru,*
*filologiya elmləri doktoru, professor*

## TÜRKOLOGİYA SAHƏSİNDƏ DƏYƏRLİ MÜTƏXƏSSİS

Biz tez-tez həmkarlarımız haqqında yazılar yazmalı oluruq: işimiz, elmi fəaliyyətimiz, mənsub olduğumuz mühitin mənəvi münasibətlər sistemi, sosial mühitdə tutduğumuz mövqelərdən irəli gələn borc hissi, mənəvi-elmi maraqlarımız və nəhayət bütün bunların fövqündə duran insanlıq məsuliyyətimiz bunu bizdən tələb edir. Əlamətdardır ki, bu yazılarda onları hansı əhvalda və şəraitdə yazdığımızdan asılı olmayaraq, subyektiv münasibətimiz öz ifadəsini bütün hallarda tapır. Elə yazılar var ki, onu həvəslə – məmnuniyyətlə yazırıq. Filologiya elmləri doktoru, ölkəmizin ən qədim ali təhsil ocaqlarından olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, həmin təhsil müəssisəsində «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri Elman Hilal oğlu Quliyev haqqında yazdığım bu yazı həmin qəbildən olub, sözün hər bir mənasında bizim ürək sözlərimizi ifadə edir.

E.Quliyevi bir elmi tədbirdən tanıdıq. Bakıda görkəmli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 100 illiyinə həsr olunmuş elmi konfrans keçirilirdi. Mən onun çıxışını maraqla dinlədim. Əslində, dinləməmək mümkün də deyildi. Elmi məruzə konfrans xatirinə yazılmış yazı yox, Şəhriyar ruhuna alim vurğunluğunu ifadə edən həqiqi elmi yanaşmanın bariz nümunəsi idi. Mən bu çıxışla E.Quliyevi bir şəhriyarşünas kimi «kəşf etdim». Sonralar gördüm ki, müşahidəmdə yanılmamışam. Məhəmmədhüseyn Şəhriyar onun yaradıcılığının mühüm bir sahi-

fəsini, ədəbi zövq və estetik maraq dünyasının ayrılmaz parçasını təşkil edir. Keçən əsrin 90-cı illərindən şəhriyarşünaslıqla məşğul olan E.Quliyev bu mövzuda çoxlu məqalə və kitablar çap etdirmişdir. Tədqiqatçının 1992-ci ildə «M.Şəhriyar: Gəldim sizi görməyə» kitabı ilə başlanan şəhriyarşünaslıq fəaliyyəti sonradan uğurla davam etmiş, və o, müəyyən ardıcıllıqla «Seyid Məmmədhüsen Şəhriyar» (1999), «Heydərbabaya salam» necə varsa» (2001), «M.Şəhriyar. Heydərbabaya salam» (2004), «Şəhriyar poeziyası və milli təkamül» (2004), «Şəhriyar poetikası» (həmmüəlliflə, 2006) kitablarını çap etdirmişdir. Bu kitablar alimin tədqiqatçı marağını, alimlik qabiliyyətini, elmi-nəzəri düşüncə özünəməxsusluğunu, insani məfkurəsini bütünlüklə nümayiş etdirir. Əslində, bütün yaradıcılığı bu sadaladıqlarımdan daha böyük və daha zəngin olsa da, bizcə, prof. E.Quliyevin təkcə şəhriyarşünaslıq fəaliyyəti ona elm tarixində şərəfli mövqe tutmağa bəs edərdi. Ona görə ki, milli şairimiz Şəhriyarın yaradıcılığı E.Quliyevin alim şəxsiyyətinin ruhunu – canını, bünövrə daşını təşkil edir. O, Şəhriyarın insanı heyran edən poeziya möcüzəsinin araşdırılmasına illərini, ağır zəhmətini və sevgisini verib. Azərbaycanın mənsub olduğu elmi məkanda ən yüksək elmi məqam olan elmlər doktoru alimlik dərəcəsini 2004-cü ildə müdafiə etdiyi «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda dissertasiya işi ilə alıb.

Lakin bütün bunlarla bərabər, E.Quliyevin elmi fəaliyyətinin əhəmiyyətli bir istiqaməti ümumtürk və Şərq ədəbiyyatı ilə bağlıdır. Əslində, bizim rəhbərlik etdiyimiz elm sahəsi kontekstində ona yaranan marağımızın, onun bu sahədəki proseslərə tərəfimizdən aktiv şəkildə cəlb olunmasının əsasında elə alimin türkoloji-şərqşünaslıq fəaliyyəti durur. E.Quliyevin türk xalqları ədəbiyyatının öyrənilməsi sahəsindəki fəaliyyəti bütün tərəfləri ilə diqqət çəkicidir. Onun müxtəlif illərdə tərtib etdiyi dərs proqramlarında, yazdığı kitablarda ümumtürk və Şərq ədəbiyyatıına konseptual yanaşma var. Konseptuallıq E.Quliyevin ümumtürk və Şərq ədəbiyyatını bütöv bir sistem kimi görə bilməsində və onun tədrisini fərqli sistem səviyyələri üzrə uğurla həyata keçirə bilməsində ifadə olunur.

Prof. E.Quliyevin ümumtürk ədəbiyyatı ilə bağlı fəaliyyəti sistemliliyi ilə diqqəti çəkir. Alimin yaradıcılığında ümumtürk ədəbiyyatı istər tarixi inikişaf dinamikası, istərsə də milli-ədəbi diferensiallaşma baxımından əhatə olunur. Ortaya qoyduğu kifayət qədər say və məzmun sanbalına malik olan materialı – kitabları ümumi dəyərləndirmə kontekstinə gətirdikdə E.Quliyevin öz kitablarında türk ədəbiyyatını ilk növbədə bütün etnik-ədəbi arsenalı ilə ümumiləşdirməyə çalışdığını görürük. Türklər

Avrasiya materikinin siyasi və mədəni tarixini yazmış etnosdur. Türk etnosunun gerçəkliyə ədəbi baxışı bütöv olduğu kimi, əhatəlidir. Türk mənsub olduğu coğrafi məkanın istənilən bölgəsində ədəbi fəaliyyətini heç vaxt dayandırmamış, dünyaya təkcə qılıncla yox, eyni zamanda sözün gücü ilə kosmik harmoniya gətirmişdir. Bu cəhətdən E.Quliyevin yaradıcılığında türk ədəbiyyatı anlayışı ilk növbədə dünya türklüyünün yaratdığı etnik-mədəni hadisədir. Bu hadisənin bütün nəhəngliyini, fiziki əzəmətini, mənəvi möhtəşəmliyini görmək üçün türk xalqlarının yaratdığı ədəbiyyatı bütün tarixi inkişaf dinamikası və milli fakturası ilə bir müstəviyə gətirmək, bu nəhəngliyi ədəbi-bədii boy-buxunu ilə görmək üçün ona ümumi baxış nöqtəsini müəyyənləşdirmək lazımdır. Bu cəhətdən, alimin «Türk xalqları ədəbiyyatı» (2009, 2011), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (həmmüəlliflərlə, 2010), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (2010), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (2012) kitablarında ümutürk ədəbiyyatına məhz belə ümumiləşdirici baxış nöqtələrindən yanaşılmışdır. E.Quliyev bu kitablarda ümumtrük ədəbiyyatının nəhəng ədəbi-bədii fakturasını inikas etdirməklə yanaşı, onun inkişaf dinamikasını da göstərməyə çalışmışdır. Bu cəhət – ədəbiyyat tarixinin dinamik proses, canlı ədəbi yaşantı kimi verilməsi ümumtürk ədəbiyyatını tələbələrə donuq faktura kimi öyrətməkdən çıxararaq, onların yaddaşında mənsub olduqları etnosun ədəbi düşüncəsi haqqında bütün ömürləri boyunca silinməyəcək, tədris boyunca nəsillərdən-nəsillərə keçəcək milli ədəbi yaddaş yaratmağa xidmət edir.

Alim digər tərəfdən ümutürk ədəbiyyatına onun daxili struktur əlvanlığı kontekstində yanaşmış, ümumtürk ədəbiyyatını konkret milli ədəbiyyatlar müstəvisində təqdim etməyə çalışmışdır. Bu cəhətdən E.Quliyevin «Müasir özbək ədəbiyyatı tarixi» (1999), «Özbək ədəbiyyatı» (2009) və «Türkiyə türk ədəbiyyatı» (2003) kitabları diqqəti cəlb edir.

Qeyd etməyə bilmirəm ki, prof. E.Quliyevin türk xalqları içərisində özbək və Türkiyə türklərinin ədəbiyyatını seçməsi təsadüfi deyildir. O, özbək ədəbiyyatını şərq türklüyünün, Türkiyə türklərinin ədəbiyyatını qərb türklüyünün səciyyəvi nümunələri kimi ümumiləşdirmişdir. Alimin bu yanaşmasında ümumtürk ədəbiyyatının etnik-bədii miqyaslarının bütün nəhəngliyi və bədii əzəməti öz əksini tapmışdır.

Prof. E.Quliyevin elmi fəaliyyətində onun 2 cildlik «Şərq xalqları ədəbiyyatı» kitabı (2011) xüsusi yer tutur. İkicildliyə cəlb olunmuş ədəbi materialın nəhəngliyi və zənginliyi, müəllif yanaşmasının elmi-pedaqoji, konseptual-metodoloji tərəfləri haqqında elmi mətbuatda kifayət qədər

yüksək fikirlər deyilmişdir. Biz burada məsələnin digər tərəfinə diqqət cəlb etmək istərdik. Belə ki, Şərq ədəbiyyatını ümumtürk ədəbiyyatından kənarda təsəvvür etmək mümkün deyildir. Bu cəhətdən E.Quliyevin öz yaradıcılığında ümümtürk ədəbiyyatı ilə yanaşı ümumşərq ədəbiyyatına da maraq göstərməsi və bu marağın ifadəsi olaraq sözü gedən ikicildliyin meydana çıxması onun alim düşüncəsində uzun illər ərzində reallaşmış ümumtürk və Şərq ədəbiyyatı konsepsiyasının ifadəsi baxımından tamamilə təbiidir.

Bütün bunlar bizə prof. E.Quliyevin şəxsində türkoloji-şərqüşünaslıq sahəsində kifayət qədər bilikləri və nəzəri düşüncə qabiliyyəti olan mütəxəssisi görməyə imkan vermişdir. Təbii ki, belə bir mütəxəssisin biliklərindən institutumuz faydalanmaya bilməzdi. Biz onu bir neçə il öncə əməkdaşlığa cəlb etdik və E.Quliyev öz elmi fəaliyyətini ADPU ilə bərabər AMEA Şərqşünaslıq İnstitutunda davam etdirməyə başladı. Öz yüksək şəxsi-mədəni keyfiyyətləri ilə də kollektivin rəğbətini qazanan alim Şərqşünaslıq İnstitutunun nəzdindəki Dissertasiya Şurasının üzvü kimi də yeni elmi kadrların yetişməsinə öz dəyərli tövhəsini verməkdədir.

Prof. E.Quliyev bir alim kimi Azərbaycan ədəbiyyatşünaslığında öz yeri və rolunu dərk etmiş tədqiqatçıdır. Onun elmi fəaliyyətinin Azərbaycanımız üçün bundan sonra da faydalı olacağına, alimin milli ədəbiyyatşünaslığı yeni-yeni tədqiqatlarla zənginləşdirəcəyinə inanır və ona uğurlar arzuyarıq.



*Himalay Qasımov*
*filologiya üzrə elmlər doktoru,*
*professor, ADPU-nun «Azərbaycan*
*ədəbiyyatı tarixi» kafedrasının müdiri*

## NURLU ŞƏXSİYYƏT, ƏSL ZİYALI, NƏCİB İNSAN!

Filologiya üzrə elmlər doktoru, professor Elman Hilal oğlu Quliyev «Şəhriyar poeziyası və milli təkamül» (2004) monoqrafiyası ilə şəhriyarşünaslıqda yeni bir baxış bucağı sərgilədi və bu fundamental araşdırması ilə Azərbaycan çağdaş ədəbiyyatşünaslıq elminə özəl bir nəfəs genişliyi gətirdi. Bu kitab Şəhriyarın böyük poeziyası barədə yeni tədqiqatların yaranmasına münbit elmi zəmin yaratdı. Bunu deyərkən biz milli-tarixi sərvətimiz olan Şəhriyar poeziyasını bədii vəhdətə və estetik ideala yetirən məqamla elmi-nəzəri təfəkkür müstəvisində incələnən iqtidarını ortaya qoyan alimin araşdırmasının boy göstərən arealı nəzərdə tuturuq. E.Quliyevin orijinal təhlil üslubu, cilalanmış tədqiqatçılıq baxışları, onu mahir bir araşdırmaçı kimi səciyyələndirən özünəməxsus dəyərlər, geniş erudisiya, intellektual düşüncə tərzi, örnək ola biləcək mənəvi keyfiyyətlər əlbəttə ki, şəxsiyyətinin bütövlüyü və kamilliyi kimi yorumlanır.

Azərbaycan Dövlət Pedaqoji Universiteti «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının professoru, «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri kimi universitetimizdə inkişafda olan elmi-pedaqoji mühitə özünün layiqli töhfəsini verməkdədir. Fitrətən əməl və qayə adamı olan professor Elman Quliyev gənclərin elmə yiyələnməsi yolunda qüvvə və bacarığını əsirgəmir, qayğı və tələbkarlığını, vətəndaşlıq narahatlığını milli-mənəvi ləyaqətlə həyata keçirir.

Zəngin tarixi, yaşarlı ənənəsi olan çox qədim bir nəslin yetirməsi, bir qədər obrazlı desək, ulu bir soyun layiqli varisi olan Elman Quliyevin dəyərli fikir və mülahizələrini dinləmək, doğmalığından qaynaqlanan sevinc və fərəh nə xoşbəxt ki, mənə onunla kafedrada birgə fəaliyyət göstərdiyi-

miz çağlarda nəsib oldu. Mən onun şəxsində özümə çox yaxın bir dost və həmfikir tapdım ki, bunun doğurduğu fərəhi sözlə ifadə etmək çətindir, daxili yaşantıya köklənmişdir. Bu baxımdan cəmiyyətdəki mövqeyindən, dostlarına, yaxın ətrafına olan insani münasibətindən, davranış və rəftarından duyduğum sevinc təbiidir. Bu kimi nəcib xüsusiyyətlərin məndə doğurduğu vəcd, görünür, ruhi-mənəvi bağlılıqdan qaynaqlanır. Həm də ona görə ki, E.Quliyev sözün əsl mənasında inam və etiqadla yaşayan müdrik şəxsiyyətdir. Daxili dünyası ilkinliyə kökləndiyi üçün simasında bir nuranilik var. Azərbaycan ədəbiyyatşünaslıq elminin yaradıcı nümayəndəsi olan Elman Quliyevin ədəbi-estetik baxışları ürfani görüşləri ilə vəhdət təşkil edir. Özəl aurası ilə fərqlənən və təqdir olunan Elman müəllim həyatının mənasını aramsız elmi axtarışlarda, yazıb-yaratmaqda görür və bu da sonucda onun mənəvi rahatlığına zəmin yaradır, vətəndaşlığına məxsusi bir vüsət aşılayır. Rəbbimizin istedad və tükənməz enerji ilə varlandırdığı Elman Quliyev cismani həyatını mənəvi ömrə qoşa bilir, tale yolunu əzm və iradə ilə keçir və onun üçün ayrılmış ömür payını şərəflə yaşayır, işi və əməli ilə mənəvi dünyamızı, milli elmi düşüncəmizi zənginləşdirir. Onun bir-birindən dəyərli, miqyaslı erudik düşüncədən boy göstərən çoxsaylı tədqiqat əsərləri elmi ictimaiyyət tərəfindən haqlı təqdir olunmaqdadır. Daha doğrusu, professor Elman Quliyevin monoqrafiyaları, dərslik və dərs vəsaitləri konseptual mündəricəyə köklənən məqalələri, mötəbər elmi məclislərdə, bir çox beynəlxalq simpozium və elmi konfranslarda dəyərli və parlaq məruzə və çıxışları, Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap olunan əsərləri bu gün hər bir kəsdə iftixar hissi doğurur. Alimin Azərbaycan elmi-pedaqoji uğurlu gələcəyinə hesablanan «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar poetikası» (Bakı, 2006), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (Bakı, 2009, 2011), «Şərq xalqları ədəbiyyatı», 2 cilddə (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları» (Bakı,2012) fundamental dərslik və dərs vəsaitləri, bunların başlıca mündəricəsini özündə tam ehtiva edən proqramlar çox mətləblərdən soraq verir. Bu gün Azərbaycan Dövlət Pedaqoji Universiteti həm də onunla öyünür və iftixar hissi keçirir ki, Elman Quliyevin monoqrafiya, dərslik və dərs vəsaitləri ölkəmizin universitetlərində mötəbər tədris materialı olaraq sevilə-sevilə oxunur, bəhrələnilir və təqdir olunur. Azərbaycanın və bir sıra xarici ölkələrin elmi kitabxanalarında alimin əsərlərinin yer alması bu baxımdan təbiidir və onun nüfuzunu, qələminin kirdarını isbat edir. Bu baxımdan heç də təsadüfi deyil ki,

o, 1999-cu ildə «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı almış, 2007-ci ildə «C.Rumi – 800» (YUNESKO) müsabiqəsinin laureatı olmuşdur. Zəngin tarixi və yaşarlı ənənələri ilə fərqlənən türk xalqlarının ədəbiyyatlarını, o cümlədən Şərq ədəbiyyatının ayrı-ayrı dönəmlərdə boy göstərən örnəklərini mahiyyət müstəvisində bir araya gətirən və onların özəllikləri barədə konseptual fikirlər sərgiləyən dərslik və vəsaitlərinə və mahir bir pedaqoq kimi keyfiyyət göstəricilərinə görə professor Elman Quliyev universitetimizdə iki dəfə «İlin alimi» (2007, 2011) və «İlin müəllimi» (2011) müsabiqəsinin qalibi olması əlbəttə ki, təbii və qanunauyğundur. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin 2012-ci il 18 aprel tarixli sərəncamı ilə Elman Quliyevin «Tərəqqi» medalı ilə təltif edilməsi onun əməyinə verilən çox layiqli qiymətdir. Elman Quliyev Türkiyə – Azərbaycan əlaqələrinin inkişafı istiqamətində də yorulmaz və səmərəli fəaliyyət göstərir və bu sahəyə özünün layiqli töhfələrini verir. Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki, Türkiyə dövləti də onun bu dəyərli fəaliyyətini nəzərdən qaçırmamış, Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə (2012) layiq görmüşdür.

Elman Quliyevin 2011-ci ilə qədər AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olduğu çağlarda, hazırda AMEA-nın akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olduğu indiki dönəmdə gənc nəslin elmi biliklərə yiyələnməsi işinə dəstək vermiş, dəyərli mülahizə və tövsiyələri, konseptual fikirləri ilə onları daim ruhlandırmışdır.

Professor Elman Quliyev sözün əsl mənasında halal adamdır, vətənini, xalqını dərin məhəbbətlə sevən ziyalıdır, təhsil aldığı və hal-hazırda işlədiyi mötəbər təhsil ocağına – Azərbaycan Dövlət Pedaqoji Universitetinə, dostlarına, ailəsinə sadiq və bağlı insandır.

Əziz qardaşım! İlk gəncliyindən müdrikliyinlə seçilmisən, fərqlənmisən. Yaradıcılığının qaynar çağındasan, yazdıqların və yazacaqların halalın olsun.



***Hüseynbala Mirələmov***
*Milli Məclisin deputatı,*
*yazıçı-dramaturq*

# DOST SÖZÜ

Hansı sahədə fəaliyyət göstərməyindən asılı olmayaraq hər bir insanın istedadı, fədakarlığı onun ruhuna və həyatına işiq salır. Bu mənada mənim dostum, professor Elman Quliyev də ruhunda işıq gəzdirən cəfakeş elm adamlarından biridir. Bizim dostluq yolumuza da heç də cənub bölgəsində doğulmağımız deyil, məhz onun ruhu, əməlləri işıq salır. 55 il öncə dağlar qoynunda dünyaya göz açan dostum öz xarakterində və elmi fəaliyyətində göz açıb gördüyü təbiətin əzəmətini yaşadır. Elman bütöv türk dünyasının vurğunudur. Bu vurğunluğu onun elmi fəaliyyətində ana xəttə çevrildiyini duymamaq mümkün deyil. O, uzun illərdir ki, qədim, orta əsrlər və müasir türk ədəbiyyatının yorulmaz tədqiqatşısı, həm də təbliğatçısıdır. Səmimi şəkildə etiraf edirəm ki, mən dostumun bütün kitablarını oxumamışam. Ancaq onun mənə verdiyi kitablarının, elmi əsərlərinin və məqalələrinin Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və başqa xarici ölkələrdə çap edilməsindən yaxşı xəbərdaram. O, ədəbiyyatsevərləri Məmmədhüseyn Şəhriyar, Mirzə İbrahimov, Yusif Balasaqunlu, Cəlaləddin Rumi, Yunis İmrə, İbrahim Şinasi, Əbdülhəmid Ziya Paşa, Namiq Kamal, Əbdülhəq Hamid Tarxan, Tofiq Fikrət, Mehmed Akif Ərsoy, Ziya Göyalp, Ömər Seyfəddin, Yəhya Kamal Bayatlı, Rəşad Nuri Güntəkin, Əlişir Nəvai, Həmzə Niyazi, Məxtumqulu Fəraqi, Abdulla Qədiri, Çolpan, Qafur Qulam, Musa Aybək, Maqsud Şeyxzadə, İsmayıl Qaspiralı, Çingiz Aytmatov, Abay Kunanbayev, Oljas Süleymenov, Zülfiyyə, bir sözlə, türk və şərq xalqları ədəbiyyatında silinməz izlər qoyan görkəmli simalarla ətraflı tanış etmək uğrunda böyük zəhmətə qatlaşıb. Onun elmi yara-

dıcılığı ilə tanış olanda hiss edirsən ki, bu kontekstdə gördüyü bütün işlərin mayasında ilk növbədə Elmanın türk təəssübkeşliyi, şərqli xarakteri dayanıb. Təsadüfü deyil ki, Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə Elman Quliyev «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə layiq görülmüşdür. Hazırda ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru olan Elman Quliyev, həm də «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə rəhbərlik edir. 1999-cu ildə «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı almış, 2007-ci ildə C.Rumi – 800 (YUNESKO) müsabiqəsinin laureatı, ilk dəfə «İlin alimi» (2007, 2010) və «İlin müəllimi» (2011) müsabiqələrinin qalibi olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 18 aprel tarixli sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir. Bu gün AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, həmçinin Azərbaycan Yazıçılar Birliyinin üzvü olan qələm dostumu 55 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı, elmi fəaliyyətində və yaradıcılığında uğurlar diləyirəm.



*Musa Qasımlı*
*tarix elmləri doktoru, professor,*
*Azərbaycan Respublikası*
*Milli Məclisinin deputatı*

## NÜFUZLU ALİM, TƏVAZÖKAR İNSAN

Azərbaycan türkologiya elmi ağır tarixi bir yol keçərək bu günə gəlib çatıb. Ötən əsrin 20-30-40-cı illərində azərbaycanlı türkoloq alimlər, yazıçı və şairlər pantürkçü, turançı damğası ilə Stalin dövrünün repressiyalarına məruz qalıblar, həyatlarını itiriblər. Azərbaycan bir türk ölkəsi və xalqı olmasına baxmayaraq, türk deyənin «dilini yerindən qoparıblar». Türkoloqların fiziki baxımdan varlıqlarını itirmələri ilə Azərbaycan türkologiya elmi də ağır zərər görüb. 70-80-ci illərdə türkologiya sahəsində bir dirçəliş yarandı.

Azərbaycanın müstəqil dövlət kimi yenidən doğulması türkologiyanın inkişafında yeni bir keyfiyyət mərhələsinin başlanğıcını qoydu. Türkoloq alimlər geniş imkanlar qazandılar. Gənc türkoloqlar nəsli yetişdi. Onlar ölkə elmimizi türk dünyasının coğrafiyası, tarixi, dili, ədəbiyyatı, mədəniyyəti və s. həsr edilmiş dəyərli əsərləri ilə zənginləşdirdilər.

Belələrindən biri filologiya elmləri doktoru, professor Elman Quliyevdir. Elman müəllimi ilk dəfə ədəbiyyat tariximizin görkəmli tədqiqatçılarından biri, fiziki imkanlarının məhdud olmasına baxmayaraq arxivlərdə yorulmadan çalışan, artıq Haqqın dərgahına qovuşmuş professor Xeyrulla müəllim Məmmədovun yanında görmüşəm. Bu, təqribən 20-25 il bundan əvvəl olub. Xeyrulla müəllim onun haqqında çox yaxşı sözlər söylər, aralarında çox yaş fərqinin olmasına baxmayaraq, ona gələcəyin böyük ədəbiyyatçı alimi olaraq baxar, bərabər səviyyədə söhbət edərdi.

Həmin vaxtdan ötən müddət ərzində daim Elman müəllimin yaradıcılığını izləmişəm. Nəşr edilən əsərlərini mənə bağışlayıb. Bir neçəsini

mən xahiş edib istəmişəm. Elman müəllim Azərbaycanda və onun hüdudlarından kənarda özünü görkəmli bir türkoloq olaraq artıq təsdiq etmiş alimimizdir. Onu bir neçə xarici ölkədə yaxşı tanıyırlar.

Elman müəllim türk dünyası sevdalısıdır. Heç şübhəsiz, türk dünyasını sevmək hər bir türkün mənəvi borcudur. Ancaq bu sevgi yalnız hissiyyatlarla olsaydı, tam deyil, yarımçıq olardı. Əbədi sevmək üçün türk dünyasını dərindən, yaxşı bilmək gərəkdir. Elman müəllim türk dünyasını mükəmməl bilən, dərin elmi araşdırmalar aparan və dəyərli monoqrafiyaların müəllifi olan bir alimdir.

Elman müəllim təkcə türk dünyasını sevmir, eyni zamanda qiymətli əsərləri və elmi toplantılarda etdiyi məruzələri, universitet auditoriyalarında oxuduğu mühazirələri ilə həm türk dünyasını öyrədir, həm də təbliğ edir.

Elman müəllim mənim üçün hər şeydən əvvəl, təvazökar və sadə, həlim bir insandır. Təkəbbürlük ona yaddır.

Ömrünün 55 illiyində Elman müəllimi ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı və yaradıcılıq uğurları arzulayıram. Professor Elman müəllimin yubileyi fikrimcə, eyni zamanda Azərbaycan türkologiya elmi üçün də bir yaddaqalan hadisədir.



*Asəf İsgəndərov*
*Lənkəran Dövlət Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor, əməkdar elm xadimi*

## DAHA UCA ZİRVƏLƏR ARZUSUYLA

Ədəbiyyatşünas alim, ADPU-nun professoru, «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin müdiri Elman Quliyevin 55 yaşı tamam olur. 55 yaş yaradıcı ziyalı, görkəmli alim üçün həm hesabatdır, həm də öhdəçilik. Deyərdim ki, hər iki halda Elman müəllimin potensialı böyükdür, deməyə sözü çoxdur. Alim sözüylə, elmi əsərləri ilə tanınır. O, təkcə işlədiyi ali məktəb hüdudlarında deyil, daha geniş miqyasda tanınmalıdır. Bu cəhətdən Elman Quliyev haqqında xoş sözlər söyləmək olar. Onun çoxsaylı monoqrafiyaları, dərslik və tədris proqramları Azərbaycan elmi ictimaiyyətinə, eləcə də türk dünyasına çox yaxşı məlumdur. Məhz bu səbəbdəndir ki, alimin elmi nailiyyətləri həm Azərbaycanda, həm də türkdilli ölkələrdə yüksək mükafatlara, fəxri adlara layiq görülmüşdür.

55 yaş yaradıcı alim üçün ən məhsuldar dövrdür. Hesab edirəm ki, Elman müəllim əldə etdiyi uğurlarla kifayətlənməyəcək, bizi daha böyük elmi nailiyyətləri ilə sevindirəcəkdir.

E.Quliyev həm də akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, həmçinin Azərbaycan Yazıçılar Birliyinin üzvi kimi də səmərəli fəaliyyət göstərir.

Elman müəllimi Lənkəran Dövlət Universitetində də yaxşı tanıyır, hörmət və ehtiramla qarşılayırlar. O, bir neçə dəfə bizim ali tədris müəssisəsində Dövlət Attestasiya Komissiyasının sədri kimi fəaliyyət göstərmiş, ona etibar olunan işdə etimadı doğrultmuş, professor-müəllim kollektivinin, tələbələrin böyük hörmətini qazanmışdır.

Özünə, öz işinə hədsiz tələbkarlığı, yorulmadan yaradıcılıqla məşğul olması E.Quliyevin daha böyük uğurlarından xəbər verir. Yubiley münasibətilə onu ürəkdən təbrik edir, daha uca elmi zirvələr əldə etməsini arzulayırıq.



*Ahmet Saniç*
*Qafqaz Universitetinin rektoru, professor*

## ALİM ÖMRÜNÜN 55-Cİ BAHARI

Bizim görkəmli ədəbiyyatşünas alim kimi tanıdığımız filologiya elmləri doktoru, professor Elman Quliyevin 55 yaşı tamam olur; necə sevindirici haldır ki, nə bu ömür, nə də bu ömrün gənc nəslin tərbiyəsinə həsr olunan 30 ildən artıq xeyirli-bəhrəli qismi hədər yerə getməmiş, daim cəmiyyətə, onun yüksək amallarına xidmətdə keçmişdir. Azərbaycan deyəndə, əlbəttə göz önünə hər şeydən əvvəl qədim və böyük mədəni keçmişə malik olan bir doğma ölkə gəlir. Azərbaycan xalqının uzun əsrlər boyu meydana çıxardığı qədim ədəbiyyatı və bu ədəbiyyatın Həsənoğlu, Nəsimi, Xətai, Füzuli, Vaqifi vardır. Bu zəngin ədəbiyyat sonraki əsrlərdə bir daha Sabir, Cəfər Cabbarlı, Hüseyn Cavid, Səməd Vurğun, Müşfiq, Şəhriyar qələmilə dolğunlaşmış və zənginləşmişdir. Lakin hörmətli professor Elman Quliyev bu ədəbiyyatı ayrıca, böyük Türk dünyasından təcrid edilmiş halda götürmədi və nə Şəhriyarı Nəcib Fazildən, nə də Əlişir Nəvaini bunlardan kənarda tutmadı. Bu xalqların birliyi kimi onların mədəniyyətlərinin də, mənəvi-əxlaqi irsinin də, tarixinin də əslində bir ulu kökdən, qaynaqdan gəldiyini dönə-dönə söyləmək, fəaliyyət amalına çevirmək əsil alim düşüncəsindən, onun geniş eridusiyasından xəbər verir.

Dərslik yazmaq təhsilə, maarifə yol açmaq, elmin çətin yollarına işıq salmaq deməkdir. «Şəhriyar: Heydərbabaya salam», «Türkiyə türk ədəbiyyatı», «Özbək ədəbiyyatı», «Müasir Özbək ədəbiyyatı», «M.İbrahimov: ədəbi estetik görüşlər və sənətkarlıq məsələləri», «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı» kimi dərsliklər türk xalqları ədəbiyyatının tədrisində mühüm əhəmiyyətə malikdir. Həm də bu kitabların

uzun siyahısı göstərir ki, Elman müəllim bir filoloq, ədəbiyyat tarixçisi, tədqiqatçı kimi çox geniş fəaliyyət dairəsinə malikdir.

Bu kitablar fədakarlığın, dözüm və səbrin, ağır yaradıcı əməyin məhsuludur. Professor Elman Quliyevi hər zaman saf, sadə, təvazökar bir insan kimi tanımış olsaq da tədqiqat əsərləri göstərir ki, bu mülayimliyin arxasında mübarizlik, dönməzlik, əsl alimə xas olan zəhmətkeşlik dayanır.

Dəyərli alimimizin bu günlərdə 55 yaşı tamam olur, sözün tam mənasında demək mümkündür ki, hörmətli Elman müəllim ömrün ən müdrik çağındadır, son illər onun çapdan çıxan fundamental əsərləri bunu deməyə imkan verir. Professor Elman Quliyevin səmərəli fəaliyyəti lazımınca qiymətləndirilib: Respublika prezidenti tərəfindən 2012-ci ildə Azərbaycan Respublikasının dövlət mükafatı olan «Tərəqqi medalı» ilə təltif olunmuşdur.

Hörmətli professoru – universitetimizin hər zamankı əziz qonağı Elman Quliyevi Qafqazımızın professor-müəllim heyəti və tələbələri adından bir daha təbrik edir, ona elmi fəaliyyətində böyük nailiyyətlər və cansağlığı arzu edirəm.



*Abdulkadir İnaltekin*
*öğretim görevlisi,*
*araştırmacı-yazar-şair,*
*Almaniya, Berlin*

# DOSTA RESMİ SÖZLERLE HİTAP ETMEK SAMİMİYETE HALEL GETİRİR

ADPU (Azerbaycan Devlet Pedagoji Üniversitesi), Azerbaycan ve Dünya Edebiyatı Bölümü, «Türk Odası» ve «Türk Araştırmaları Merkezi» Başkanı değerli dostum, kardeşim ve Türk Dünyasının mühim şahsiyetlerinden değerli aydın ve bilim adamı Prof. Dr. Elman Quliyev'in 55. yıldönümüne hasredilmiş hatıra kitabında dilek ve temennilerimi yazmam için bana da yer verilmiş olmasından duyduğum mutluluk beni bahtiyar etmiştir. Böyle hallerde insan duygu ve düşüncelerini yazmakta ve ifade etmekte güçlük çekiyor. Eğer hakkında yazmak ya da konuşmak istediğiniz insanlar sizin dünyanızda ayrı bir yere sahipse, o zaman işiniz daha da zorlaşıyor; diliniz de, kaleminiz de adeta kilitleniyor. Türkiye'de bilinmeyen ve uygulanmayan yıldönümü kutlamaları Azerbaycan'da gelenek halini almıştır. Bu uygulamanın iki önemli yanı var: Birincisi, alanında büyük birikimi olan, büyük başarılar kazanmış şahıslar için beş ve on yıllık aralıklarla yapılan yıldönümü kutlamaları bir anlamda o kimsenin manevi mükafatı sayılır. İkincisi de, yıldönümü hatıra kitabı ile söz konusu kimsenin alanında yaptığı çalışmalar, kazandığı başarılar ve yaratıcılığı birçok ehliyetli insanlar tarafından değerlendirilip halka sunulur. Daha sonra bu değerlendirmeler toplumun farklı katmanlarında tahlil süzgecinden geçer ve o kimsenin halk tarafından çok yönlü tanınmasını sağlar. Bu bağlamda Azebaycan'da uygulanan yaş haddi kutlamalarını bir tür muhasebe yıldönümleri olarak da değerlendirebiliriz.

Prof. Dr. Elman Quliyev, çok yönlü araştırmaları ve çalışmaları ile Azerbaycan için olduğu kadar Türk Dünyası için de önemli bir bilim ada-

mıdır. Genç yaşına rağmen büyük başarılar elde etmiş, çok sayıda araştırma ve ders kitaplarının yazarıdır. E. Quliyev takdire şayan çalışmaları ile uluslararası ilim camiasının da dikkat merkezindedir. 1999 yılında kazandığı 14. Yüzyılın meşhur alimi Özbekistanlı uzay bilimci ve matematikçi Mirze Uluğbeğ mükafatı, 2007 yılında UNESCO tarafından ilan edilen Mevlana Celalettin Rumi'nin 800. yılı mükafatı ve aynı yıl «Yılın Bilim Adamı» seçilmesi E.Quliyev'in bilim dünyasındaki yüksek mevkiinin en bariz ispatıdır.

Uluslararası ödüllerinin yanında çok sayıda uluslararası ilmi toplantılarda tebliğ sunmuş, ilmi eserleri ve makaleleri Türkiye, İran, İrak, Türk Cumhuriyetleri ve Rusya'da yayınlanan E. Quliyev, hakiki manada baştan ayağa donanımlı bir aydın ve bilim adamıdır.

Sovyetler Birliğinin dağılmasından sonra Türk Dünyası halklarının edebiyatı alanında yapılan en kapsamlı bilimsel çalışmalar arasında yer alan eserleri: «Türk Halkları Edebiyatı», «Şark Halkları Edebiyatı», «Genel Türk Edebiyatı» ders kitaplarının yanı sıra «Muasır Özbek Edebiyatı Tarihi», «Türkiye Türk Edebiyatı», çok sayıda bilimsel çalışmaların ürünü olan birbirinden değerli makale ve kitapları hem Azerbaycan, hem de uluslararası bilim camiası için önemli kaynaklar arasında yerini almıştır. Araştırmaları ile Azerbaycan'ın ilmi meselelerine çözüm üretme yolunda büyük gayret sarf eden, meşakkatli çalışmaları ile husule getirdiği ders kitapları muasır Azerbaycan'ın çağdaş eğitimine büyük katkı sağlamıştır. Muhammed Şehriyar yaratıcılığı üzerine yaptığı bilimsel çalışmaları, makale ve kitapları kendisine akademik unvanın yanında Şehriyarşinaslık kimliği de kazandırmıştır.

E.Quliyev, yüksek değere sahip bilim adamı olmanın yanında samimi can dostu, son derece ciddi, ağırbaşlı ve mütevazı kişiliği ile de meslektaşları arasında büyük saygınlık kazanmış, talebeleri tarafından çok sevilen bir hoca olarak tanınır. Herkesin pek çok içtimai ve iktisadi sıkıntılarla karşı karşıya olduğu günümüzde her şeye rağmen bilimsel çalışmaları ile çevrenin takdirini kazanmak ancak üstün meziyet sahibi insanlara mahsus bir özelliktir. Defalarla birlikte olduğumuz uluslararası ilmi toplantılarda, E. Quliyev'in bilim dünyasında kazandığı saygınlığa yakından şahidi oldum. 21. yüzyılın Türk dünyası tarihinde iz bırakanlar safındaki yerini şimdiden almış, gelecek nesillere köprü olmuş E.Quliyev, Azerbaycan'ın ve Türk dünyasının medarı iftiharıdır.

Değerli dostum ve kardeşim Prof. Dr. Elman Quliyev'in 55. yıldönümünü içtenlikle tebrik eder, Allah Teala'dan sağlıklı uzun ömür, nesillere geçecek başarılar, aile hayatında mutluluk ve iki cihanda saadet dilerim.



***Budaq Budaqov***
*akademik*

# M.ŞƏHRİYAR POEZİYASININ UĞURLU TƏDQİQATÇISI ELMAN QULİYEVƏ
# A Ç I Q  M Ə K T U B

Hörmətli Elman müəllim! Salamlarımı qəbul etməyinizi rica edirəm.

Sizin mənə bağışladığınız («Şəhriyar poeziyası və milli təkamül», Bakı, «Elm»-2004, 279 səhifə – 17,5 çap vərəqi; «Heydərbabaya salam» necə varsa», Bakı-2004, «Adiloğlu» nəşriyyatı, 147 səhifə – 4,62 ç.v və M.Şəhriyar. «Heydərbabaya salam», Bakı-2004, «Adiloğlu» nəşriyyatı, 92 səhifə) kitablar mənim M.Şəhriyar yaradıcılığı ilə geniş tanışlığıma imkan verdi.

Sizin monoqrafiya əsərinizin 266-278-ci səhifələrində verdiyiniz istifadə edilmiş ədəbiyyat siyahısı ilə tanışlığım məndə böyük qürur hissi oyatdı. Ona görə ki, bu ədəbiyyata daxil olan 181 əsərdə M.Şəhriyar yaradıcılığı ilə bağlı orijinal və lazımi mənbələr əksini tapır.

Mənim şəxsən tanıdığım və dostluq etdiyim Q.Beqdelinin, Hökümə Billurinin, Həmid Məmmədzadənin və b. əsərlərini bu siyahıda görmək məni məmnun etdi. Sizin bu siyahıya daxil etdiyiniz 21 əsəriniz göstərir ki, Siz son 15 il ərzində ardıcıl olaraq M.Şəhriyar yaradıcılığını tədqiq edirsiniz. Bu səbəbdən də sizin «Şəhriyar poeziyası və milli təkamül» monoqrafiyanız (2004) çox dəyərli bir monoqrafiyadır. Sizin bu əsəriniz məni Şəhriyar yaradıcılığı ilə yaxından tanış etdi. Bu məqsədyönlü işə və çəkdiyiniz yaradıcılıq əziyyətinə, həm də məzmunlu əməyə görə sağ olun.

Bir gün Hüseyn Cavid Mir Cəlala rast gəlir. Cavid əfəndi Mir Cəlal-

dan soruşur ki, nə ilə məşğulsan? Cavabında Mir Cəlal müəllim deyir ki, qadın şairlərdən dissertasiya yazıram. Cavid əfəndi Mir Cəlala məsləhət görür ki, Füzuli yaradıcılığının tədqiqi ilə məşğul olsa, ədəbiyyatşünaslığımız daha çox fayda görər. Dahi şair Cavid əfəndi əlavə olaraq Mir Cəlal müəllimə deyir ki, əgər sən Füzulini yaşada bilməsən, ancaq o səni yaşadar. Mir Cəlal müəllim Cavid əfəndinin məsləhəti ilə Füzulini tədqiq edir. Mütəxəssislərin dediyinə görə, nəticədə Mir Cəlal müəllim sanballı bir monoqrafiya yazır.

Siz də öz çoxsaylı tədqiqatlarınızla M.Şəhriyarı yaşada-yaşada onunla bahəm yaşayırsınız. Sizin düşünərəkdən tutduğunuz bu yol çox böyük, uğurlu yoldur.

Mən öz növbəmdə deyə bilərəm ki, Şəhriyar uğurlu poetik yaradıcılığı ilə özünə İran şairləri başında gedən dahilərin cərgəsinə daxil olmaq hüququ qazandırmışdır. Bu uğur ancaq dahi Şəhriyarın deyil, həm də klassik poeziya sevərlərin, o cümlədən də bütün azərbaycanlıların qürurudur.

Şəhriyar poeziyada ucala-ucala, eyni zamanda hər iki çiynində xalqını, millətini də ucaldıb. Deməli, Şəhriyarın poeziyada qazandığı uğur ancaq özünə deyil, həm də xalqına, vətəninə və bütün Şərq dünyasına məxsusdur.

Mən sizin monoqrafiyada Şəhriyarın «Heydərbabaya salam» poemasına «Öyrədən Allahın adı ilə» adlı özünün yazdığı müqəddiməni sevə-sevə oxudum. Möhtərəm alim Mehdi Rövşənzəmirin qələmi ilə yazılmış «Şəhriyarın Heydərbabası» adlı müqəddimədən mən Mehdini çox savadlı, Qərb ədəbiyyatını dərindən bilən və biliyini yaradıcı şəkildə «Heydərbaba»ya yazdığı müqəddimənin məzmununa daxil edən tutarlı bir yaradıcı alim kimi tanımışam. Mehdinin yazısından aldığım ləzzət səmavi olduğundan çox şirindir.

Hiss olunur ki, Siz Şəhriyarı dərindən oxuduqdan və onu hərtərəfli dərk etdikdən sonra tədqiq etmisiniz. Şəhriyarın poetik yaradıcılığı çoxşaxəli, çox problemli olduğu üçün fəlsəfi baxımından da çox dərindir. Zəmanəsinin psixoloji yükü və mürəkkəb siyasi şəraiti şairin sətiraltı ehyamlardan məharətlə istifadə etməsi ilə nəticələnmişdi. Düzdür, o bəzən çox cəsarətlə və açıq-saçıq yazmasa da, çatışmamazlığı tənqid etməkdən də çəkinməmişdir.

Mən «Heydərbabaya salam»ı dönə-dönə oxumuşam. Ancaq ondan doymaq bilməmişəm. Buna başlıca səbəb «Heydərbabaya salam»da mənim kənddə keçirdiyim uşaqlıq həyatımın tam öz əksini tapmasıdır. Nov-

ruz bayramının keçirilməsi prosesi, orada yaşanan sevinc, bayram keçirən uşaqların fəallığı və sevinci, kənd həyatı, müxtəlif xarakterli, lakin bir amallı insanlar, onların sərgüzəştləri və s. Mən son dərəcə sadə el dilində və son dərəcə dərin fəlsəfi planda yazılmış bu əsərdən aldığım ləzzəti haçansa başqa şeirdən almamışam.

Mənə elə gəlir ki, «Heydərbabaya salam» əsasən bizim üçün, xüsusi ilə mənim mənsub olduğum nəsil üçün yazılıb. Çünki indi hansı azərbaycanlının yaşadığı kəndlərdə olan damlarda baca qalıb ki, Novruz bayramında da oradan şal sallayasan, ev sahibi də ora bayramlıq qoysun. Yaxud kənddə ağız, bulama var ki, uşaq onun adını qavraya və ya dadını da dada bilsin. Uşaq çəpiş görməlidir ki, onun atılıb-düşməsini, oynamasını müşahidə edib yaddaşına həkk edə bilsin.

Toyda bəyin damdan gəlinə alma atması, taxçalara düzülmüş qabqacaqlar və bir çox etnoqrafik adətlər indi yoxa çıxıb. İndi onların bəzilərinə çox nadir hallarda rast gəlmək olur.

*Dam üstə duranı tanımasan da,*
*Hədiyyə verəsən gərək o anda.*
*Mahir olmalıdır qaynana, gəlin*
*Ki, düzgün tanısın şalın yeznənin*
*Adaxlı şalına bağlasın gərək,*
*Naxışlı corablar, tirmə şal, ipək.*

Bacasız evlər bu ənənəni mexaniki şəkildə ixtisar edib.

İndi Novruz bayramında uşaqlar qapının zəngini çalırlar. Əgər qapını açırsansa, qapıda torba və ya papaq görürsən. Uşaqlar qaçaraq pilləkənin altında gizlənirlər. Payını alandan sonra sevincək qaçırlar. Belə halda yeznənin şalına naxışlı corab bağlamağa yer qalmır.

Təkcə şəhər mühitində deyil, əksər kəndlərdə də Novruz bayramının «Şəhriyar sayağı» keçirilməsinə imkan və ya geniş şəkildə şərait qalmayıb. Bu səbəbdən mən deyirəm ki, «Heydərbabaya salam»da olan qəlb oxşayan milli ənənə şirinliyi və incəlikləri indiki zamanda çox azalıb.

Kəndlərin yenidən qurulması Novruz bayramının müasirləşmiş şəkildə keçirilməsinə səbəb olmuşdu. Bütün hallarda Novruz bayramı əvəzsiz milli sərvətdir. Ona görə də mən dahi Şəhriyarın «Heydərbabaya salam» poemasının hər bir kubletindən mənəvi payımı götürürəm. Bu səbəbdən də Şəhriyarın «Heydərbabaya salam»ı o mühitdə yaşamış insanlar üçün daha anlaşıqlı və daha şirindir.

Məncə, ümumiyyətlə, Şəhriyarın poetik yaradıcılığı, o cümlədən də «Heydərbabaya salam» poemasını tədqiq etməklə Siz dahi Şəhriyarın poeziya uğurlarını müəyyənləşdirmiş, ilk dəfə onun sənətinin milli-mənəvi keyfiyyətini üzə çaxırmış və onun yaradıcılığını geniş kütlələrə daha dərindən tanıtdırmısınız.

Hörmətli Elman müəllim! Mən məsləhət görərdim ki, Siz Şəhriyarın həyatını müəyyən mərhələlərə (məsələn, I. Təbriz, II Tehran, III Məşhəd, IV Tehran, V. Təbriz) bölməklə onun hər mərhələdə poeziyaya etdiyi töhfələri araşdırasınız.

Şəhriyar poeziyasını mən bütün varlığımla sevirəm. Buna səbəb şairin yaradıcılığında sadəlik daxilində mövzu orijinallığı, atalar sözləri səviyyəsinə ucalmış zəngin poetik fikir yükü, forma əlvanlığı və s. cəhətlərdir. Şəhriyarın «Yalan dünya» kitabını oxuduqca çox zənginləşdim. Allah Məhəmmədhüseyn Şəhriyara rəhmət eləsin!

Əziz Elman müəllim! Mənə bağışladığınız kitablara yazdığınız avtoqraflara görə Sizə öz razılığımı bildirirəm. Çox sağ olun.

*«Təhsil problemləri» qəzeti,*
*11-20 iyun, 2006-cı il*
*N33-34*



***Vəli Əliyev***
*akademik, ADPU-nun Ümumi tarix kafedrasının müdiri*

# TÜRK ƏDƏBİYYATI PROBLEMLƏRİNİN TƏDQİQATÇI ALİMİ

Türk xalqlarının tarixini, türk mənəviyyatının ümumibəşəri dəyərlərini dərindən və hərtərəfli araşdırmaq üçün, Türk ədəbiyyatı problemlərinin öyrənilməsi mənbəşünaslıq baxımından çox önəmlidir.

Türk ədəbiyyatı problemlərinin görkəmli tədqiqatçısı, gözəl şəxsi keyfiyyəti ilə tanınan professor Elman Hilal oğlu Quliyevin dünyaya göz açıb (Kələxan kəndi) boya-başa çatdığı Lerik rayonunu Zuvand mahalı Azərbaycanda türk nəsillərinin ən qədim məskənlərindən olub, maddi və mənəvi mədəniyyətimizin zəngin irsini əsirlər boyu qoruyub saxlayır.

Prof. E.H.Quliyevlə Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışmağa başladığım ilk günlərdən aramızda dostluq münasibəti yarandı. Bu gənc alimin şəxsi keyfiyyəti, yüksək intellekt səviyyəsi və türk ədəbiyyatı problemləri ilə ciddi məşğul olması diqqəti cəlb etdi. Onun Türk xalqları ədəbiyyatı və Şərq xalqları ədəbiyyatına böyük marağı və bu sahədə gördüyü yaradıcılıq işləri təqdirəlayiqdir.

Prof. E.M.Quliyevin «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Müasir Özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2003), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı», (Bakı, 2009, 2011), «Şərq xalqları ədəbiyyatı», 2 cilddə, (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) əsərləri Avropa və Asiya mə-

kanında, bütövlükdə türk dünyası xalqlarına dəyəri töhfədir. Əsərlərinin Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və b. ölkələrdə nəşr edilməsi, onun türk ədəbiyyatı problemlərinin sevimli vətənpərvər tədqiqatçısı olduğundan xəbər verir.

Prof. E.M. Quliyevin ADPU-da «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri kimi Azərbaycan türklərinin dünyanın digər türkdilli xalqları ilə sıx ədəbi əlaqələr yaratması dostum olaraq məni çox sevindirir. Onun yaradıcılığı türk xalqlarının xoşbəxt gələcəyi, birliyi yolunda görülən çox dəyərli fəaliyyətdir. Prof. E.H.Quliyevə işdə böyük uğurlar və Lerik dağları kimi saf, möhkəm və uzun ömür arzu edirəm.

Əziz dostum, 55 il insan ömrünün yeni gözəl mərhələyə keçidi deməkdir. Bu mərhələdə mən Sizdən Türk ədəbiyyatı problemləri ilə bağlı yeni dəyərli elmi əsərlər gözləyirəm. Elə buna görə də Sizə uzun ömür arzulayıram ki, çox yaşayasınız və xalqımıza çox xidmət göstərəsiniz.



*Əbülfəz Quliyev*
*AMEA-nın müxbir üzvü,*
*AMEA-nın Naxçıvan bölməsinin İncəsənət,*
*Dil və Ədəbiyyat İnstitutunun direktoru*

## GÖRKƏMLİ ALİM, NƏCİB İNSAN

Elman müəllimi mən 10 ildən çoxdur ki, tanıyıram. Yadımdadır ki, biz ilk dəfə 2008-ci ildə İranda görüşdük. Onda görkəmli Azərbaycan şairi, ölməz söz ustası Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 100 illiyi qeyd olunurdu. Tehranda, sonra Təbrizdə Şəhriyar günləri keçirilirdi. Onda mən Elman müəllimi tanınmış Şəhriyarşünas kimi tanıdım. Elman müəllimin məruzəsi gurultulu alqışlarla qarşılandı. Qonşu ölkədə Elman müəllim Şimali Azərbaycan elmini ləyaqətlə təmsil edirdi. Bu sahədə alimin gərgin və səmərəli tədqiqatlarının nəticəsi olan qiymətli kitabları Şəhriyarşünaslığa dəyərli töhfədir. Elə ona görə də tədbir iştirakçıları Elman müəllimin Şəhriyar yaradıcılığına həsr etdiyi sanballı monoqrafiya və kitablarına böyük maraq göstərirdilər. Bu kitablar Şəhriyar yaradıcılığının, Şəhriyar irsinin tədqiqində elmimiz üçün, bizim üçün çox qiymətli qaynaqdır. Doktorantlarımız tez-tez bu qaynaqlara müraciət edir, istifadə edir, bəhrələnirlər. Professor Elman Quliyevin «Şəhriyarın poetikası», «Heydərbabaya salam» necə varsa» kitabları bu sahədəki boşluğu doldurdu. Ulu Şəhriyar poeziyasının sehrini, sirrini elmi şəkildə tədqiqatçılara çatdırdı. Təsadüfi deyil ki, bu tədbirdə iştirak edən Türkiyədən gəlmiş Türk Dil Qurumunun başqanı professor Şükrü Haluk Akalın onu ürəkdən təbrik etdi və bir neçə aydan sonra Ankarada Şəhriyarın 100 illiyinə həsr olunmuş elmi məclisə dəvət etdi. Burada da Elman müəllim dünyanın məşhur şəhriyarşünaslarının qarşısında məruzə etdi, gözəl Azərbaycanımızı layiqli şəkildə təmsil etdi.

Professor Elman Quliyev bir türkoloq kimi türk dünyasında yaxşı tanınır, elmimizə layiqli xidmət göstərir. Onun yaxşı bir təşkilatçı kimi

Azərbaycan Dövlət Pedaqoji Universitetində qurduğu türkologiya kabinəsi tələbələrə sevgisinin aşılanmasında, ortaq türk mədəniyyətinin təbliğində az iş görməmişdir. Alimin «Türk xalqları ədəbiyyatı» dərsliyi də türklüyə nəcib xidmətin bir nümunəsidir.

Elman müəllim pedaqogikanın nəzərdə tutduğu bütün mənəvi və əxlaqi keyfiyyətlərə malik bir müəllim, gözəl bir insandır. Bu mehriban insan o qədər səmimi və dürüst bir şəxsiyyətdir ki, adam onun duzlu, yerinə, məqamına uyğun şirin söhbətlərindən doymur. Onunla ünsiyyət yaratmaq çox asandır, çünki uşaqla uşaq, böyüklə böyükdür. Hər kəslə öz dilində danışmaq qabiliyyəti var onda. Bu da insani məharət, keyfiyyətdir.

Əziz dost, 55 yaşın mübarək. Sizə can sağlığı və elmi, pedaqoji fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzu edirəm.



***Nizami Xudiyev***
*filologiya elmləri doktoru,*
*professor, əməkdar elm xadimi,*
*ADPU Azərbaycan dilçiliyi*
*kafedrasının müdiri*

## ZƏHMƏTKEŞ ALİM, İSTEDADLI FİLOLOQ

Gələcəyi əvvəlcədən görünən öz istedadlı tələbəm haqqında xoş söz demək, onun yorulmaz fəaliyyəti haqqında fikir söyləmək hər bir müəllim üçün böyük fəxarətdir. Öz təmkinli davranışı ilə seçilən, yerini bilən, professor-müəllim heyəti və tələbələr arasında böyük nüfuza malik olan filologiya elmləri doktoru, professor, indi isə həmkarım Elman Hilal oğlu Quliyev haqqında söz açmaq mənim üçün xoş ovqat yaradır.

Bir qədər əvvəlki illərə qayıtmalı oluram. Xatirimdədir ki, Elman Quliyev Pedaqoji Universitetin filologiya fakültəsinə qəbul imtahanı verirdi, mən də imtahan götürürdüm. Onun biletinə düşən suallardan biri də Cəfər Cabbarlının dramaturgiyası idi. Bütün suallara ətraflı cavab verəndən sonra o, bizə cəsarətlə ən yüksək qiymət almaq arzusunda olduğunu bildirdi və dedi ki, mən Cəfər Cabbarlının bütün yaradıcılığını əzbər bilirəm. İstəyirsinizsə, Cəfər Cabbarlının şeir yaradıcılığından da danışa bilərəm. Əslində, o zaman bu kimi suallar qəbul imtahanına düşmürdü. Amma biz maraq üçün ona Cəfər Cabbarlının şeir yaradıcılığından suallar verdik. O isə təmkinlə bütün suallara cavab verdi və hətta onun bir neçə şeirini də əzbər dedi.

Elman bütün qəbul imtahanlarını uğurla verərək tələbə biletinə sahib oldu. Tələbəlik dövründə hamı kimi mən də Elmanın xatirini çox istəyirdim. O, mənim bütün dərslərimə vaxtında gəlir, verilən bütün tapşırıqları layiqincə yerinə yetirirdi. Onun iti təfəkkür tərzi, bütün mövzulara yaradıcı münasibəti, polemikaya girmək bacarığı müəllimlərin diqqətini cəlb edirdi. Hələ tələbəlik illərində onun istiqaməti bəlli idi. Çünki onda elmə həvəs daha qabarıq görünürdü. Elmi və bədii əsərlərə qızğın məhəbbət, araşdırma və ya analitik təhlil qabiliyyəti onun gələcəkdə gözəl filo-

loq-alim olacağını irəlicədən xəbər verirdi. Nəhayət, o, məqsədinə çatmaq üçün filologiya elminin keçilməmiş cığırı ilə addımlamağı qarşısına məqsəd qoydu.

Elman müəllim 1991-ci ildən ADPU-da fəaliyyət göstərir. Mənim rektor işlədiyim dövrdə filologiya fakültəsinin tədris planına yeni fənn kimi «Türk xalqları ədəbiyyatı» daxil edilmişdi. Açığı deyim ki, bizim universitetdə bu fənni tədris edəcək mütəxəssis olmadığı üçün bu fənnin kim tərəfindən deyiləcəyi sual altında idi və bu, məni də narahat edirdi. Kimə təklif olunurdusa, heç kim bu fənnin tədrisi məsuliyyətini öz üzərinə götürmürdü. Elə Elman Quliyev özü də bu təklifi qəbul etmirdi, həmin fənni tədris etməkdən boyun qaçırırdı.

O vaxt mən mərhum professor Xeyrulla Məmmədovu yanıma dəvət etdim, bu fənnin ortada qaldığını ona bildirdim, bir çıxış yolu tapılması üçün onunla məsləhətləşdim. Xeyrulla müəllim də mənim fikrimlə razılaşdı və bu fənnin Elmana verilməsini məsləhət gördü. Elman etiraz edəndə, mən çox sərt şəkildə ona bildirdim ki, əgər bu dərsləri deməsən, onda bu Universitetdə sənə veriləsi başqa dərsimiz yoxdur. Əslində, mənim belə sərt mövqedə dayanmağım Elmanın gələcək elmi-pedaqoji fəaliyyətinə hesablanmışdı. Mənim dırnaqarası bu sərt mövqeyimin içində Elmana qarşı bir məhəbbət gizlənirdi. Çünki mən onun zəhmətkeş, bacarıqlı və istedadlı kadr olduğunu nəzərə alıb qərar çıxarırdım. Elmandan başqa «Türk xalqları ədəbiyyatı» fənnini səriştəli tədris edəcək ikinci bir adam görmürdüm.

Universitetin o vaxtkı rəhbəri kimi, mən Elman müəllimin uğurlarını görəndə sevincimin həddi-hüdudu olmurdu. O, qısa bir zaman çərçivəsində türk xalqları ədəbiyyatı ilə bağlı bir neçə kitab yazdı, dərslik və dərs vəsaiti hazırladı. Nəinki respublikamızda, o cümlədən, beynəlxalq aləmdə də tanındı. «Mirzə Uluqbəy» mükafatına layiq görüldü, C.Rumi – 800 müsabiqəsinin laureatı oldu. İki dəfə «İlin alimi» və «İlin müəllimi» müsabiqələrinin qalibi adını aldı. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edildi.

Bir çox beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmiş, elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və digər ölkələrdə çap edilmişdir. Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə «Ən yaxşı vətənpərvər alim» qızıl medalına layiq görüldü və s.

Göründüyü kimi, Elman Quliyev böyük zəhmət hesabına bu uğurları əldə etmişdir. Bundan sonra da ona yeni-yeni nailiyyətlər arzu edirəm. Elman müəllim üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən əsl alim-pedaqoqdur.



*Cəlil Nağıyev*
*Bakı Asiya Universitetinin rektoru, filologiya elmləri doktoru, professor Azərbaycan Respublikasının əməkdar müəllimi*

# İSTEDADLI AZƏRBAYCAN TÜRKOLOQU – ELMAN QULİYEV

Türkologiya elmi müasir dünya şərqşünaslığının kifayət qədər yaxşı inkişaf etmiş sahələrindən biridir. Həm klassik Avropa (Qərb) şərqşünaslığında, həm də geniş Şərq dünyasında türkologiya elminə xüsusi diqqət ayrılmış, son iki əsrdə elmin bu sahəsində bir sıra sanballı tədqiqat işləri yaranmışdır. Xüsusilə, XIX əsrin ikinci yarısından etibarən ilk dəfə olaraq türk dünyasının zəngin mədəniyyətinə, ədəbiyyatına və tarixinə maraq daha da güclənmiş, mərkəzi Avropa ölkələrində – Almaniyada, Fransada, İngiltərədə və İtaliyada türkologiyanın filoloji aspektləri araşdırılmağa başlamışdır. Əvvəlcə alman alimi Ditsin, sonra italyan alimi Rossinin «Kitabi-Dədə Qorqud» dastanı üzərində apardıqları araşdırmalar sayəsində elmin bu sahəsi daha peşəkar səciyyə almağa başlamışdır.

Klassik rus filologiyasının görkəmli nümayəndələri, ilk şərqşünas alimlər olan Veselovski, Pıpin, Biçurin, Potanin və onların məşhur davamçıları Bartold, Konrad, Krımski, Jirmunski, Koroğlu türkologiya sahəsində çox qiymətli əsərlər yazmış, elmin bu sahəsini daha da inkişaf etdirmişlər. Sovet dövründə Bakıda rus dilində Kononovun redaktorluğu ilə «Sovet türkologiyası» adlı elmi jurnalın çıxmağa başlaması, həmin dövrdə Bakı Dövlət Universitetində Türkologiya kafedrasının açılması da türkologiyanın həm dilçilik, həm də ədəbiyyatşünaslıq sahələrini inkişaf etdirmişdir. Hələ XX əsrin əvvələrindən başlayaraq Bakıda Birinci Türkoloji Qurultayın keçirilməsi, məşhur dünya türkoloqlarının Azərbaycanda toplaşması Azərbaycanı türkologiyanın mərkəzinə çevirmiş, bu elmin bizim respublikamızda da xüsusi sürətlə inkişaf etməsinə imkan vermişdir. Azərbaycanda ötən əsrlərdə M.Kazımbəydən başlayan türkologiya elmi,

sonralar Krım və Qazan tatarlarının, Orta Asiya və Anadolu türkoloqlarının elmi mərkəzi olmuşdur.

Müstəqillik qazandıqdan sonra Azərbaycanda türk xalqlarının ədəbiyyatlarının müxtəlif aspektləri daha geniş şəkildə araşdırılmağa və təbliğ olunmağa başlamışdır. Əvvəlcə SSRİ xalqları ədəbiyyatı çərçivəsində ali məktəblərdə tədris olunan türk xalqlarının ədəbiyyatları, bu imperiya dağıldıqdan sonra müstəqil şəkildə öyrənilməyə başlamış, sovet senzurasından və ideoloji təzyiqlərindən xilas olan tədqiqatçı-türkoloqlar bu sahədə əvəzsiz monumental əsərlər yaratmışlar.

Azərbaycanda Türkiyə türk ədəbiyyatının dərindən öyrənilməsi üçün dəyərli mənbələrdən biri də türkiyəli araşdırmacı Dos.Dr.Qayaxan Özgülün tərtib etdiyi, filologiya üzrə elmlər doktoru Ramiz Əsgərin dilimizə qismən uyğunlaşdırdığı iki cildlik «Türk ədəbiyyatı tarixi» əsəri olmuşdur. Türk ədəbiyyatı sahəsində Türkiyə alimlərinin çox qiymətli tədqiqatlarının toplusundan ibarət olan bu qiymətli əsər gələcəkdə Azərbaycanda da Türkiyə türklərinin ədəbiyyatının müxtəlif aspekt və spektrlərinin, bu ədəbiyyatın bir sıra aktual tarixi və nəzəri problemlərinin dərindən və peşəkar şəkildə öyrənilməsinə imkan yaradacaqdır.

Müasir Azərbaycan və türk ədəbiyyatlarının istedadlı tədqiqatçılarından biri olan filologiya üzrə elmlər doktoru, professor Elman Quliyev də bu sahədə diqqətəlayiq işlər görmüşdür. Öz sələflərinin xidmətlərini şərəflə davam etdirən professor E.Quliyev son illərdə türk xalqlarının ədəbiyyatlarının bir sıra aktual problemləri sahəsində araşdırmalar aparmış və bu zəhmətinin məntiqi nəticəsi olaraq qiymətli əsərlər yazmışdır. O, ümumiyyətlə ümumtürk mədəniyyəti, orta əsrlərdə yaranan ortaq türk abidələri, türk mifologiyası və folkloru, türk xalqlarının klassik milli yazılı abidələri və bu ədəbiyyatların görkəmli nümayəndələri haqqında geniş spektrli araşdırmalar aparmış, Y. Balasaqunlu və Ə.Yasəvi kimi ümumtürk ədəbiyyatının məşhur nümayəndələri və Türkiyə türklərinin, Orta və Mərkəzi Asiya türklərinin böyük yazıçılarının yaradıcılıqları haqqında oçerklər, məqalələr və monoqrafiyalar çap etdirmişdir.

O, Türkiyə ədəbiyyatının C.Rumi (Mövlanə), onun oğlu Osmanlı türk ədəbiyyatının yaradıcılarından biri Sultan Vələd, Yunis İmrə, İbrahim Şinasi, Əbdülhəmid Ziya Paşa, Namiq Kamal, Əbdülhaq Hamid, Tofiq Fikrət, Mehmet Akif, Ziya Göyalp, Ömər Seyfəddin, Yahya Kamal, Rəşad Nuri Güntəkin, Nazim Hikmət, özbək ədəbiyyatının Əlişir Nəvai, Həmzə Niyazi, Abdulla Qədiri, Çolpan, Qafur Qulam, Musa Aybək, Uyğun, Maqsud Şeyxzadə, Həmid Alimcan, Zülfiyyə, Şərəf Rəşidov, Erkin Vahidov, qazax

ədəbiyyatından Abay Kunanbayev və Oljas Süleymenov, tatar ədəbiyyatından İ.Qaspiralı və Musa Cəlil, qırğız ədəbiyyatından Ç.Aytmatov kimi nümayəndələri haqqında dərin məzmunlu əsərlər yazmışdır. Bütün bu elmi araşdırmalar professor Elman Quliyevin ali məktəblər üçün hazırladığı «Türk xalqları ədəbiyyatı» adlı dərslikdə tələbələrin və geniş oxucu kütləsinin ixtiyarına verilmişdir.

Professor Elman Quliyevin yaradıcılığında mühüm əhəmiyyət kəsb edən sahələrdən biri də çağdaş Güney Azərbaycan ədəbiyyatı və onun ən görkəmli nümayəndəsi olan M.Şəhriyarın yaradıcılıq yolunun araşdırılmasıdır. Bu istedadlı tədqiqatçı Güney ədəbiyyatımız mövzusunda «M.Şəhriyar. Gəldim sizi görməyə»(1992), «S.Tahir. Lirika»(1992), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (1999), «Heyderbabaya salam» necə varsa» (2001), Şəhriyar poeziyası və milli təkamül» (2004), «M.Şəhriyar. Heydərbabaya salam» (2004), «Şəhriyar poetikası» (həmmüəlliflə – 2006) adlı monoqrafiyalarını çap etdirmiş, 2004-cü ildə «M.Şəhriyar yaradıcılığının təkamülü» (milli problemlər kontekstində)» adlı filologiya üzrə elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Bundan başqa Elman Quliyev «Mirzə İbrahimov: Ədəbi-estetik görüşləri və sənətkarlıq məsələləri» (1997), «Müasir özbək ədəbiyyatı tarixi» (1999), «Türkiyə türk ədəbiyyatı» (2003), «Özbək ədəbiyyatı» (2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (həmmüəlliflə – 2010), «Şərq xalqları ədəbiyyatı» (2011) kimi monoqrafiyalar, dərslik və dərs vəsaitlərini də hazırlayaraq çap etdirmişdir.

Professor Elman Hilal oğlu Quliyev elmi fəaliyyətlə yanaşı, fəal elmi-pedaqoji fəaliyyətlə də məşğuldur. Hazırda o, Azərbaycan Dövlət Pedaqoji Universitetində professor kimi çalışmaqla yanaşı, həmin universitetdə fəaliyyət göstərən «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəridir. Yazıçılar Birliyinin üzvü olan Elman Quliyev bir sıra nüfuzlu mükafatlar almışdır. Bu mükafatlar sırasında cənab Prezidentimiz İlham Əliyevin sərancamı ilə onun layiq gördüyü «Tərəqqi» medalını xüsusi qeyd etmək istəyirəm.

Elman Quliyev yaradıcılığının çiçəklənən bir dövrünü yaşayır. Onun çox böyük yaradıcılıq potensialı var, şübhəsiz ki, o dünya ədəbiyyatı, o cümlədən də türk xalqları ədəbiyyatları sahəsində dərin məzmunlu və dəyərli araşdırmalarını bundan sonra da daha intensiv şəkildə davam etdirəcək, öz oxucularını yeni-yeni əsərlərlə sevindirəcəkdir.

Mən professor Elman Quliyeva möhkəm can sağlığı, elmi-pedaqoji fəaliyyətində və şəxsi həyatında uğurlar arzulayıram.



***Novruz Novruzov***
*Şabran Rayon İcra Hakimiyyəti başçısı*

## UCALIQDAN ZİRVƏLƏRƏ

*Yalnız o adam xoşbəxt yaşayır ki, öz vəzifə borcunu yerinə yetirəndə sevinc tapsın.*
***Siseron***

Bizim Lerikdə şiş ucları buludlarla öpüşən, qəlbi dağların zirvəsində qərar tutan yurd yerlərindən biri də qədim Zuvand torpağıdır. Diabar adlanan çökəklikdə yerləşən Zuvandı yubanmadan, bəri başdan təqdim edib burasını da deyim ki, bu yerlər dövlət yasağıdır.

Öz əsrarəngiz, füsunkar təbiəti, çay vadilərində, kəhriz döşündə gah uzanan, gah da burula-burula dərələrin dibiylə, qayaların döşüylə qucaqlaşan, ucu-bucağı görünməyən bol mer-meyvəli bağları, suyu diş göynədən şır-şır axan bulaqları, təmiz, saf havası ilə çox yox, bircə dəfə bu yerlərə yolu düşənləri hayıl-mayıl edən bu torpağı məşhurlaşdıran həm də onun adına-sanına layiq, tən-dürüst, şöhrətləri bir elə, bir obaya sığmayan övladları olub.

Zuvandın təkcə Lerikin özündə deyil, bölgənin hüdudlarından çox-çox uzaqlarda tanınan, şöhrəti el-el gəzən kəndləri çoxdur. Ancaq tərəddüdsüz deyərdim ki, Kələxan kəndi o sırada lap başda duranlardandır. Keçən əsrin otuzuncu illərində Azərbaycanda kollektiv şəkildə savadsızlığın ləğvində əyyami-qədimdən savadlılar, ziyalılar kəndi hesab olunan Kələxan oxumuşlarının danılmaz xidmətləri olub. Bu kəndin savadlı cavanları qonşu kəndlərdə özlərindən yaşlılara müəllimlik edib, onlara yazıb-oxumaq öyrədib. Adı bu gün də ehtiramla çəkilən neçə-neçə ziyalısı

dövrün, zamanın təməl prinsiplərinə uyğun vəzifə daşıyıb, idarə edib, quruculuq işlərində qulluq mövqeyi ilə fərqləniblər.

Bir yana baxanda bu, beləcə də olmalı idi! Bəlkə də bu, başdan-binədan Kələxanın qismətinə düşən bir paydır. Axı, araşdırıcıların yozumuna görə, kəndin adı güclü, böyük mənasındadır. Kələxanın da sakinləri yəqin ki, elə həmişə, hər vaxt gücdə, böyüklükdə öz ulu babalarının ənənələrini ləyaqətlə yaşadıb davam etdiriblər.

Bir vaxt paytaxta – Bakıya, eləcə də keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə ali təhsil ardınca oxumağa yollanan lerikliləren ilk qaranquşları da elə, necə deyərlər, «güclü, böyük» kələxanlılar olublar.

Neçə-neçə elm adamı, mötəbər vəzifə sahibi – bir sözlə, bir çox tanınmış lerikli tərcümeyi-halında anadan oldğu yerin adını göstərəndə, iftixarla «Kələxan» sözünü yazıb. Beləcə, kələxanlılar həm tanınıblar, həm də doğulub boya-başa çatdıqları o balaca vətənləri – Kələxanı tanıdıblar.

Kələxanlı Quliyevlər cənub bölgəsinin ağır-urvatlı, tanınan soykökləindəndir və bu soykökündən adı el-obada hörmətlə çəkilən neçə-neçə comərd kişilər yetişib. Keçən əsrin 50-ci illərində, M. Bağırov rejimi dövründə Respublika prokurorunun müavini vəzifəsində çalışıb, o illərin acı ruzigarından qeyrəti, cəsarəti sayəsində sağ-salamat qurtaran Ağa Quliyev, Lerikdə hər bir ailənin indi də adını ehtiramla andığı Höcət və Adil Quliyevlər, Özbək Quliyev, elə Araz müəllimin, Qəhrəmanın, Elman müəllimin ataları Hilal Quliyev. Hələ mənim şəxsi ünsiyyətdə olmadığım daha neçə-neçə kələxanlı alim, müəllim, həkim...

Kiminə uzun, kiminə qısa portret-esse adlandırdığım bu yazıda, bəlkə də hələ ki, öz yaxın qohum-qardaşından, öz həmyerlilərindən, oturub-durduqlarından savayı çoxunun bir elə yaxşı bələd olmadığı, yalnız elmi titullarına görə tanıdıqları – axı, elmlər doktoru, professor olmaq asan iş deyil – Quliyevlərin Elman adlı bir oğlundan söz açmaq fikrindəyəm. Həm də onun alimlik şöhrətindən daha çox, bir fərd kimi şəxsi keyfiyyətlərindən, məziyyətlərindən danışmaq istəyirəm.

Burasını da deyim ki, Elman müəllimin özündən əvvəl rəhmətlik qardaşı Araz müəllimi tanıyırdım. Yoldaşlığımız, dostluğumuz da var idi. Quliyevlərin Kələxan kəndini ikiyə bölüb keçən Zuvand çayının güneyində, quzey taydakı şiş zirvəsində səthi nəhəng qranit qayalarla sanki ilahi qüdrətə malik memarın ürəyinin şirəsi ilə hörülmüş mərmər qalaça ilə üzbəüz, bağ-bağatlı, gen-geniş həyətlərində atalarının – el-obanın sayılıb-seçilən kişilərindən olan Hilal dayının hələ sağlığında da, sonralar da ara-sıra qonaq da olmuşam, xeyirdə, şərdə də iştirak eləmişəm.

O güllü-gülüstan həyətdən neçə-neçə yeni yurd yeri göyərib. İndi paytaxtda yaşayıb elmimizə xidmət etsə də Elman müəllim o yurdu unutmur, ilk fürsətdə üzünü Kələxana tutur, ürəyi ata ocağına qızınır, ürəyinin hərarətindən həyət-bacaya paylayır. Mərmər qalaça ilə üzbəüz evlərinin işığını yandırır, bağını, bağçasını solmağa qoymur.

Söhbətimi bir az da uzaqdan davam etdirsəm, deməliyəm ki, cavanca Elmanın toyu yadımdadır. Elə öz soylarına layiq bir ailənin müəllimə qızı ilə ailə qurdu və onun toyunda qol götürüb oynamasam da, yaxın ailə dostu kimi iştirak etmişəm, uca Tanrıdan ona xoşbəxtlik də diləmişəm. Sevinirəm ki, bir vaxt toyunda iştirak etdiyim səbəbkar indi üç vətənpərvər övlad atasıdır.

O da xatirimdədir ki, uzun illər kənd arası yollar idarəsində müdir işləyən, çox sevilən, deyib-gülən, xətirli-hörmətli kişini – Elman müəllimin atası Hilal dayını bütün tanıyanları, eləcə öz övladları da əzizləyə-əzizləyə «Hili», – deyə çağırırdılar. Elman müəllimin böyük qardaşı Araz Quliyev o vaxtlar, yəni ötən əsrin 80-ci illərinin əvvəllərində Lerikdə çıxan «Bolluq uğrunda» rayon qəzetində şöbə müdiri idi və özü kimi imzası da yaxşı tanınan jurnalistlərdən idi. Dost-tanışla söz-söhbətinin bir mövzusu da, çox vaxt özündən balaca qardaşı Elmandan olardı. Qardaşının gələcəyinə inanırdı və Elmandan danışanda bu inamı onun üz-gözünü nura boyayırdı. Nə yaxşı ki, sonralar Elman Quliyev öz şərəfli ömür yolu, pedaqoji və elmi uğurları ilə qardaşının inamını doğruldub el-obasının istəklisi, iftixarı oldu. Həm də qardaşının ruhunu şad etdi.

Elman Quliyevin bir müəllim və alim kimi yetişməsi, bir növ elə gözlərimin önündə olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş V.İ.Lenin adına APİ) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirən Elman Quliyevin təyinatı Lerikə verilmişdi. Mən o zamanlar Lerikdə çalışırdım. Yadımdadır, onu Kəlvəz kəndinə müəllim göndərmişdilər və o da tez bir zamanda rayonda savadlı, bacarıqlı bir gənc müəllim kimi hamının hörmətini qazandı.

Elman Quliyev rayonun ictimai fəallarından idi. Perspektivi olan fəal ziyalı kimi adı həmişə ehtiyat rəhbər kadrlar siyahısına daxil edilirdi. Lakin onun vəzifəyə can atdığı, karyera haqda fikirləşdiyi yadıma gəlmir. Rəhbər işçi kimi bir müddət yalnız məktəb direktorunun müavini oldu. Elmi işlərə marağı olmasaydı, şübhəsiz, vəzifə pillələrində də layiqincə yüksələcəkdi..

Elman müəllim elm, irfan yolunu seçdi. Yerli «Bolluq uğrunda» qə-

zetində maraqlı, oxunaqlı yazılarla çıxış edən E. Quliyevin imzası az sonra Bakıda – mərkəzi mətbuat orqanlarında da görünməyə başladı.

Quliyevlərlə səmimi münasibətlərim öz yerində. Təvazökarlığı, səmimiyyəti və ciddi iradəsi  Elman müəllimi mənə daha da doğmalaşdırmışdı. Elman müəllimin aspiranturaya daxil olub xalq yazıçısı, akademik Mirzə İbrahimovun yaradıcılığı haqqında namizədlik dissertasiyası yazmasına, həmin dissertasiyanı uğurla müdafiə etməsinə də qəlbən sevinmişdim. Elə o vaxtlar ona rəğbətimi artıran bir səbəb də bu olmuşdu ki, Elman müəllim başqaları kimi aspirantlığını əlində dəstavüz edib Bakıya qaçmamış, rayonda qalıb ailəsinə kömək edə-edə, gecəsini-gündüzünə qata-qata dissertasiya yazmışdı, müəllim işləyə-işləyə namizədlik dissertasiyasını müdafiə edərək alimlik dərəcəsi almışdı.

1991-ci ildə vaxtilə təhsil aldığı ali məktəbə işə dəvət ediləndə Elman Quliyev artıq ədəbiyyatşünaslıq elmi sahəsində öz sözünü deməyi bacaran yetkin bir alim idi. Elman müəllim Bakıya köçdükdən sonra da onunla əlaqələrimiz üzülmədi və mən uzaqdan-uzağa da olsa, onun uğurlarından xəbər tuturdum. Həm müəllim, həm də bir tədqiqatçı alim kimi inkişaf edən, bu inkişafa görə yalnız öz istedadına, zəhmətinə borclu olan Elman müəllim indi təkcə Azərbaycanda deyil, qonşu İran və Türkiyədə də dəyərli bir tədqiqatçı – alim kimi tanınır və sevilir.

Ədəbiyyata, ədəbiyyatşünaslığa olan həvəsim öz yerində. Elman müəllimlə şəxsi tanışlığım həm də məni onun yaradıcılığı, elmi axtarışları ilə daim yaxından maraqlanmağa sövq edib. Nəşr olunan qalın-qalın kitablarını sətir-sətir «oxumuşam» – desəm, yəqin ki, inandırıcı, səmimi olmaz, ancaq elmi uğurlarını müntəzəm izləmişəm və bu uğurlara həm də möhkəmcə sevinmişəm.

Görkəmli sənətkarımız, nəsrimizin klassiklərindən olan Mirzə İbrahimovun ədəbi-estetik görüşlərini və sənətkarlıq xüsusiyyətlərini araşdırıb tədqiq etməklə alim adını qazanan Elman müəllim sonrakı tədqiqatlarının böyük bir hissəsini Cənubi Azərbaycan ədəbiyyatının öyrənilməsinə, xüsusilə o taylı ədəbiyyatımızın klassiki olan Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığına həsr edib.

Qocalı-cavanlı elə bir azərbaycanlı tapmaq olmaz ki, bu taydan unudulmaz şairimiz Səməd Vurğunun məşhur «Azərbaycan» şeirindən heç olmazsa üç-dörd bəndi əzbər bilməsin:

*Dağlarının başı qardır,*
*Ağ örpəyin buludlardır,*
*Böyük bir keçmişin vardır,*

*Bilinməyir yaşın sənin,*
*Nələr çəkmiş başın sənin...*

Qətiyyətlə deyərdim ki, qocalı-cavanlı hər bir azərbaycanlının həm də o taylı ustad şairimiz M. Şəhriyarın «Heydərbabaya salam»ı da dilinin əzbəridir:

*Heydərbaba, yolum səndən gəc oldu,*
*Ömür keçdi, gələmmədim gec oldu.*
*Heç bilmirəm, oğlun-qızın nec oldu.*
*Bilməz idim döngələr var, dönüm var.*
*Ayrılıq var, itkinlik var, ölüm var...*

M. Şəhriyarın ölməz poeziyası yüksək ədəbi zövqə və elmi-nəzəri biliklərə malik Elman müəllim kimi filoloq alimin diqqətini, əlbəttə, cəlb etməyə bilməzdi. Elman müəllim faydalı və çox vacib bir iş görmüş, zəhmətə qatlaşaraq M. Şəhriyarın kitablarını ərəb qrafikasından yeni – latın qrafikasına çevirib nəşr etdirməklə kifayətlənməmiş, həm də böyük şairin həyatı və yaradıcılıq yolu barədə sanballı elmi iş yazmış, uğurla müdafiə də edərək filologiya üzrə elmlər doktoru adını almışdır.

Onun Şəhriyar yaradıcılığına müraciət etməsi, əlbəttə, təsadüfi deyil. İstər elə həyatının, istərsə də yaradıcılığının bir hissəsi Cənubi Azərbaycanla bağlı olan böyük ədibimiz Mirzə İbrahimovdan sonra Elman müəllimin Şəhriyar yaradıcılığına müraciət etməsində bir qanunauyğunluq görürəm. Şəksiz ki, bu, Elman müəllimin yaradıcılığında həm də bir Savalan istəyi, Savalan sevgisidir və burada mənim yadıma yenə də onun ömür yolunun cavanlıq illəri düşür.

Ali təhsilini başa vurub doğma rayona qayıtdıqdan sonra əlinə dərs jurnalı alan Elman Quliyev ilk dəfə müəllim kimi kəndlərinə qonşu olan Kəlvəz məktəbində sinfə girib. Burasını da deyim ki, onun doğma kəndi Kələxanla bir vaxt çalışdığı Kəlvəzin arası təxminən üç-dörd kilometr olar. Burası da var ki, Kələxandan Kəlvəzə doğru o üç-dörd kilometr yol qəlbi Qoşqara, Kəpəzə həsrət Savalan dağına sarı, bir az da cənub tərəfdədir.

Dediyim kimi, o uzun müddət Savalan dağı ilə üzbəüz Kəlvəzdə müəllim işləyib. Hər səhər evdən çıxanda üzü Kəlvəzə Savalanla göz-gözə yol gedib. Elə sinif otağının pəncərəsindən də, yəqin ki, Savalana sarı çox baxıb. Kəlvəzi qucağına alan Sahal dağı ilə qoşa qanad kimi gərilib qalan Kələxananın başında tac kimi dayanan Mərmər qalaçadan Savalanın qarlı zirvələrini seyr edib.

Mərmər qalaçadan söz düşmüşkən söhbətimin bu yerində qoy bura-

sını da deyim ki, bu təbii sərvəti tədqiq edən görkəmli geoloq alimimiz, akademik Mirəli Qaşqay vəfat edərkən vəsiyyət etmişdi ki, məzarının üstünə bu daşdan bir parça da olsa, qoysunlar. Məşhur alimin bu vəsiyyəti yerinə yetirilib.

Cənuba doğru o məkanda yerləşən kənd məktəbindən çox yox, vur-tut beş-altı yüz metr aralıda o tayı bu taydan, şimalı-cənubdan ayıran tikanlı sərhəd məftilləri keçir.

Bəlkə də hər gün üzü Savalana, cənuba sarı yerimək, buz kimi soyuq sərhəd məftillərinin ox kimi gözə sancıldığını görmək və hətta damarlarını donduran qanı ilə də hiss etmək – bax, bəlkə də elə bunlar Elman müəllimin cənub həsrətini, cənub nisgilini birə-beş artırıb.

Yəqinimdir ki, Elman müəllim o taylı həsrətimizin nisgilli tərənnümçüsü M. Şəhriyarın misralarını öz-özünə pıçıldaya-pıçıldaya təsirlənib də:

*Bir uçaydım bu çırpınan yel ilən,*
*Bağlaşaydım dağdan aşan sel ilən,*
*Ağlaşaydım uzaq düşən el ilən,*
*Bir görəydim ayrılığı kim saldı?*
*Ölkəmizdə kim qırıldı, kim qaldı?*

Düşünürəm ki, yaşadığı, içində olduğu bu mühit onu cənub ədəbiyyatının tədqiqatçısı olmağa daha çox cəlb edən amil olub.

Elman müəllimin alim kimi yaradıcılığı çoxşaxəlidir və onun elmi tədqiqatlarının bir istiqamətini də türk xalqları ədəbiyyatının problemlərinin araşdırılması təşkil edir. Bu sahədə apardığı araşdırmalar, yazdığı dərsliklər və tərtib etdiyi proqramlar onu tanınmış türkoloq alim kimi də şöhrətləndirib.

Təvazökar insan və gözəl müəllim olan Elman Quliyevin istər ölkəmizdə, istərsə də ölkəmizin hüdudlarından kənarda çap etdirdiyi kitablar, elmi simpoziumlarda, konfranslarda oxuduğu məruzələr, tərtib etdiyi proqramlar həm də bir alim kimi onun necə bacarıq və keyfiyyətlərə malik olduğuna da dəlalət edir. İndiyə kimi aldığı mükafat və ödüllər də Elman müəllimin pedaqoji sahədə olduğu kimi, elm sahəsində də nüfuzlu söz və mövqe sahibliyinin bir sübutudur. Elman müəllimi çoxdan tanıyan və bu uğurlarına sevinən yaxın bir adam kimi yəqinimdir ki, bundan belə də onun neçə-neçə elmi-pedaqoji nailiyyətlərinin şahidi olacağıq.

Elman müəllimi neçə illərdir ki, görməsəm də, dediyim kimi, elmi-pedaqoji fəaliyyətinin sorağındaydım. Yaxın bir tanışım Elman Quliyevin son illərdə qazandığı uğurlardan bəzilərini mənə sadalayanda ürəyim dağa döndü.

Özbəkistanın Mirzə Uluqbəy mükafatı, adı ilə az qala bütöv bir türk dünyasını tanıdan Cəlaləddin Ruminin 800 illiyi ilə bağlı 2007-ci ildə YUNESKO-nun keçirdiyi beynəlxalq müsabiqənin laueratı, elə həmin 2007-ci və 2010-cu illərdə «İlin alimi» və bir il sonra ali təhsil müəllimləri arasında «İlin müəllimi» müsabiqəsinin qalibi...

Dövlətimiz də Elman müəllimin elmi-pedaqoji fəaliyyətini yüksək dəyərləndirmiş və Elman Quliyev keçən il «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

Zaman-zaman turançılıq uğrunda fırtınalara sinə gərmiş görkəmli insanların adlarını qoca tarix öz yaddaşında yaşatmaqdadır. Yəqin ki, gələcək nəsillər bu sırada Elman müəllimi də xatırlayacaqlar. Axı, Elman Quliyevin türk xalqları ədəbiyyatı problemləri ilə bağlı neçə-neçə kitabı Türkiyədə, İranda, İraqda, Türkmənistanda, Şimali Kiprdə və digər türkdilli ölkələrdə də çap olunmuş, türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki xidmətlərinə görə o, «Ən yaxşı tədqiqatçı alim» qızıl medalına layiq görülmüşdür.

Vallah, təltiflər adamın qəlbini dağa döndərir, dostları sevindirir və nə yazıq ki, bədxahları da kədərləndirir. Ancaq Elman kimilər bədxahları kədərləndirmək üçün yox, dostları sevindirmək üçün gecələrini gündüzə qatırlar.

Bunlar cavanca bir alimin öz haqq payıdır və nə yaxşı ki, Elman müəllim bu yaşında belə təltiflərə, ödüllərə layiq görülüb.

Məlumdur ki, görülən işi tam bəyənəndə «əla» deyirik və bu «əla»nı rəqəmlə bildirəndə «5» yazırıq.

Təsadüfən eşidib bildim ki, Elman müəllimin yaşının tamamıdır. İki 5 rəqəmi yanaşı duracaq: 55

Elman müəllimin ömür yolu da beləcə qoşa-qoşa beşlərə layiqdir.

Qədim çin hökmdarlarından birinin vannasında belə bir cümlə həkk olunub: «Özünü hər gün təzələ, dönə-dönə təzələ, təzələ, təzələ!..»

Elman müəllim kimi alimlər isə öz aramsız elmi axtarışları ilə həm özlərinin, həm də saysız oxucularının beyinlərini, qəlblərini, hiss və duyğularını təzələyirlər.

Professor Elman Quliyev indi həm ömür-gün, həm də yaradıcılıq yolunun ən coşqun, ən məhsuldar çağlarını yaşayır. Bu yolda ona yeni-yeni uğurlar diləməklə yanaşı inanıram ki, bundan sonra da həmişə onun xoş sorağını eşidəcək və bir eloğlu kimi bütün bunlara sevinənlərdən biri də özüm olacağam...



*Rövşən Bağırov*
*Lerik Rayon İcra Hakimiyyəti başçısı*

## VƏTƏNPƏRVƏR ZİYALI, ZƏHMƏTKEŞ ALİM

Cənab Prezidentin Sərəncamı ilə 2007-ci ilin aprel ayında Lerikə icra hakimiyyəti başçısı təyin olunduqdan sonra heç vaxt olmadığım rayonda əhali, ziyalılar və ağsaqqallar tərəfindən yüksək səviyyədə qarşılanmağım, həm leriklilərin dövlətçiliyə sədaqətinin, həm də hər yerdə söylənilən bir fikrin-Lerikin sözün əsl mənasında digər yerlərə nümunə ola biləcək qonaqpərvərliyinin nəticəsi idi. Artıq həmin gündən illərdir keçir. Ancaq hansı kəndə, hansı obaya gediriksə həmin səviyyədə qonaqpərvərlik, hörmət və ehtiramın şahidi oluruq. Dağların qoynunda yerləşən bu elin insanları dağ vüqarlı olmaları ilə yanaşı, həm də ağsaqqala, böyüyə xüsusi hörmətləri ilə də seçilir. Bəzən burada hər hansı vəzifəli şəxsin öhdəsindən gələ bilmədiyi işi ağsaqqalın bir kəlmə sözü ilə həll etmək olur. Məhz bu ziyalıların, qədirbilən insanların köməkliyi ilə cənab Prezidentin qarşımıza qoyduğu vəzifələrin yerinə yetirilməsinə əzmlə nail oluruq.

Uzunömürlülər diyarı Lerik əsrarəngiz təbiəti, mərd, vüqarlı insanları ilə yanaşı, elmimizə, ədəbiyyatımıza, mədəniyyətimizə böyük töhfələr vermiş ziyalıları ilə də tanınır. Onların bir neçəsi ilə şəxsən tanışlığım var. Belə yaradıcı ziyalıların sırasında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru Elman Quliyevin özünəməxsus yeri və sanbalı vardır. O, rayona hər gəlişində aparılan abadlıq-quruculuq işləri ilə bağlı fikirlərini bizimlə bölüşür, təşkil etdiyimiz tədbirlərdə həmişə iştirak etməyə can atır. Elman müəllim həm də Lerikin yüksək səviyyədə təəssübünü çəkən bir ziyalıdır. Onunla hər söhbət zamanı mən bunun şahidi olmuşam. Məhz bunun nəticəsidir ki, çoxsaylı lerikli alimlər arasında o, daha çox Lerikdə

aparılan işlərlə maraqlanır, bəzən müəyyən işlərin görülməsi üçün təkliflər verir.

Elman müəllimin 55 illik ömür kitabının hər səhifəsi zəhmətlə, əziyyətlə, lakin ləyaqət və şərəflə yazılıb. Həmin kitabı vərəqlədikcə gözlərimiz qarşısında zirvəsi qarlı dağları, ayna bulaqları, meyvəli bağları ilə tanınan Lerikin unikal bölgələrindən biri olan Zuvand canlanır. Deyirlər təbiət öz duruluğundan, saflığından, paklıq və gözəlliyindən insanın mənəviyyatına müəyyən pay verir. Təbiət Elman müəllimdən də bu səxavətini əsirgəməmişdir. Məhz bu ilahi səxavətin təsiridir ki, o, qəlbi, ruhu dağ çeşmələri kimi dupduru elinə, obasına qırılmaz tellərlə bağlı vətənpərvər və nəcib bir şəxsiyyət kimi formalaşmışdır.

Professor Elman Quliyev Azərbaycan ədəbiyyatşünaslığının tanınmış nümayəndələrindən biridir. Onun qələminin məhsulu olan tədqiqi və analitik məqalələr, elmi monoqrafiyalar, tərtib etdiyi dərsliklər elmi və ədəbi ictimaiyyət tərəfindən həmişə böyük rəğbətlə qarşılanır. Onu bir alim kimi fərqləndirən və hörmət sahibi edən əsas cəhət elmi həqiqətə sadiqliyi, obyektivliyi və ən başlıcası zəhmətkeşliyi olmuşdur.

Professor Elman Quliyevin ədəbi və elmi-pedaqoji yaradıcılığının böyük bir hissəsi doğma övladları qədər sevdiyi, məhəbbətini və qayğısını heç vaxt əsirgəmədiyi, hər biri üçün qürur duyduğu tələbələridir. O, mənalı ömrünün böyük bir hissəsini onlara həsr etmişdir.

55 yaş insanın ömrünün müdriklik dövrünə qədəm qoyduğuna dəlalət edir. Öz əqidəsinə, amalına, məramına sadiq qalan Elman müəllim daim axtarışdadır, həmişə həvəslə, inamla, var qüvvəsi ilə çalışır. Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin təhsil sahəsində qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsində bir vətəndaş, bir alim və bir müəllim kimi əməyini əsirgəmir.

Elman müəllimin müsbət keyfiyyətlərini sadalamaqla qurtarmaz: zəhmətsevər, obyektiv bir elm adamıdır, bacarıqlı təhsil işçisidir, mehriban, sədaqətli dostdur, nümunəvi ailə başçısıdır, kamil bir şəxsiyyətdir.

Xoşbəxt o adam deyil ki, böyük var-dövləti var, o adamdır ki, heç bir var-dövlətə ehtiyacı yoxdur. Professor Elman Quliyev insanlığı, ziyalılığı bütün rəsmi titullardan üstün tutur. Onun yüksək vətəndaşlığı, elmi və pedaqoji kadrların hazırlanmasına hədsiz bağlılığı milli-mənəvi dəyərlərimizə, vətənə, torpağa böyük məhəbbət və sədaqətindən qaynaqlanır.

Professor Elman Quliyevi 55 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, tükənməz yaradıcılıq enerjisi arzulayıram.



*Firdovsi Əliyev*
*YAP Siyasi Şurasının üzvü,*
*Ekologiya və Təbii Sərvətlər*
*Nazirinin müavini*

# MƏHSULDAR ALİM

Ölkəmizin elm xadimləri içərisində özünəməxsus mövqeyi və nüfuzu olan prof. Elman Quliyevin 55 yaşının tamam olması ilə bağlı kitab hazırlandığını eşidəndə sevindim. Böyük məmnunluqla mənim ürək sözlərimin də burda yer almasına hacət duydum.

Tələbəlik həyatımız eyni dövrə təsadüf etsə də, atalarımız dost olsalar da, qəribədir ki, Elman müəllimlə mən uzun illər ərzində bir-birimizi yaxından tanımamışıq. Elman Quliyevlə ilk tanışlığım Milli Məclisin deputatı olduğum zaman mənim təşəbbüsümlə Azərbaycan Televiziyasının təşkil etdiyi «Pillələr» proqramının çəkilişinə təsadüf edir. Elə o vaxtdan başlayaraq mənim prof. Elman Quliyevlə səmimi münasibətlərimin əsası qoyuldu. Elman müəllimin zəngin ənənələr, ədəbi-bədii, tarixi qaynaqlar üzərində boy atan milli-türk düşüncəsi ilə bağlı qiymətli tədqiqatları ilə tanış olduqdan sonra onun şəxsiyyətinə heyranlığım daha da artdı. Görkəmli alimin tədqiqatlarının həm Azərbaycan, həm türk, həm də şərq xalqları ədəbiyyatı ilə bağılılığı Elman müəllimin dərin biliyindən, düşüncə müstəvisinin genişliyindən xəbər verir. Doğrudur, prof. Elman Quliyevin yaradıcılıq spektri o qədər geniş və çoxşaxəlidir ki, onu xarakterizə etmək üçün ədəbiyyatı çox yaxşı bilmək lazımdır. Mən bu sahədən bir qədər uzaq olsam da, tədqiqatlarının elmi çəkisinin ağırlığını duya bilirəm.

Elman müəllim qədirşünas, böyük-kiçik yeri bilən insandır. O, 1988-ci ildə namizədlik dissertasiyası müdafiə edərkən Lerikin tanınmış ziyalısı və ağsaqqalı atam Şahmirzə Əliyevin həmin müdafiəyə gəlişini, oradakı çıxışını xüsusi minnətdarlıqla xatırlayır və bu barədə belə deyir: «Heç ağlıma da gəlməzdi ki, məsul vəzifədə işləyən bir şəxs işini-gücünü buraxıb müdafiəmə gələcək və müdafiə qurtaran kimi məni təbrik edib 400 km.lik məsafəni geri dönəcək. Bunu ancaq Şahmirzə müəllim kimi ziyalı, elmə, gəncliyə yüksək qiymət verən insanlar edə bilərdilər».

Məhsuldar bir alim və tədqiqatçı kimi ölkəmizin elm xadimləri arasında özünəməxsus yeri olan Elman Quliyev dəfələrlə respublika və beynəlxalq səviyyəli konfranslarda məruzələrlə çıxış etmiş, bir çox məruzəsinə görə beynəlxalq dərəcəli diplomlar almışdır. Elmi əsərləri İran, Türkiyə və İraqda dərc olunmuşdur. Ondan çox monoqrafiya, dərs vəsaiti, tədris proqramı və yüzdən çox elmi məqalənin müəllifi olan prof. Elman Quliyev respublika ədəbi mühitində sanballı ədəbiyyatşünas və tənqidçi kimi tanınır. Azərbaycan Dövlət Pedaqoji Universitetində çalışdığı müddətdə özünü elmi və nəzəri cəhətdən hazırlıqlı, işgüzar, intizamlı, peşəsini sevən səmimi bir insan kimi tanıdan Elman Quliyev universitetin professor-müəllim və tələbə kollektivinin dərin hörmətini qazanmışdır.

Elman müəllim bir neçə ildir şəxsi təşəbbüsü ilə yaratdığı «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə rəhbərlik edir. Bu illər ərzində o, Türkiyənin Azərbaycandakı səfirliyi ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti arasında əlaqələrin qurulmasına, Türkiyənin nüfuzlu universitetləri və bir sıra elmi qurumları ilə faydalı əməkdaşlığa nail olmuşdur. Azərbaycanda türk xalqları ədəbiyyatı problemlərinin araşdırılması istiqamətində qazandığı elmi uğurlar, yaradıcı elmi təklifləri, bu sahədə elmi kadrların hazırlığındakı xidmətləri, gənc nəslin vətənpərvərlik ruhunda yetişdirilməsindəki fəaliyyəti prof. Elman Quliyevə böyük şöhrət gətirmişdir. Hamı mənimlə razılaşar ki, bu şöhrətin qapılarını onun üzünə açan böyük zəhmət və əziyyətlər hesabına yazdığı kitablardır. Mən dostumun yazmış olduğu «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006, həmmüəlliflə), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010, həmmüəlliflərlə), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (Bakı, 2009; 2011), «Şərq xalqları ədəbiyyatı», 2 cilddə, (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) adlı monoqrafiya və dərsliklərində özünü göstərən Azərbaycançılıq və Türkçülük xəttini ilk növbədə onun milli dəyərlərə sıx bağlılığının bariz nümunəsi hesab edirəm.

Elman müəllim hələ gəncdir. Onun yazıb-yaradacağı, görəcəyi işlərin böyük bir hissəsi hələ qabaqdadır. Mən 55 yaşlı əziz dostum Elman müəllimə elmi-pedaqoji fəaliyyətində və şəxsi həyatında bol-bol uğurlar, möhkəm can sağlığı, Lerik uzunömürlülüyü arzulayıram. Hörmətli Elman müəllim! Müqəddəs və faydalı işinizdə möhkəm dözüm və yeni-yeni uğurlar arzulayır, yeni-yeni kitablar, dərsliklər və dərs vəsaitləri gözləyirik. Səsiniz-sədanız həmişə uca zirvələrdən gəlsin!



*Muxtar Kazımoğlu (İmanov)*
*Filologiya üzrə elmlər doktoru,*
*AMEA Folklor İnstitutunun direktoru*

## HƏDƏFİ BƏLLİ OLAN HƏMKARIMIZ

Professor Elman Quliyev elmi yaradıcılığa başladığı ilk vaxtlardan nəyi və necə tədqiq edəcəyini bilən, yəni məqsədini, hədəfini elə əvvəlcədən düzgün müəyyənləşdirən və bütün yaradıcılığı boyu bu hədəfə doğru addımlayan alimlərimizdən biridir. Professorun elmi yaradıcılığı, apardığı araşdırmalar iki böyük amala xidmət edir: Azərbaycançılıq və türkçülük.

Elman Quliyev üçün ayrıca götürülmüş Azərbaycan yox, bütöv Azərbaycan var, Güneyli-Quzeyli Bütöv Azərbaycan. Məhz buna görədir ki, onun yaradıcılığının sərhədləri yalnız Quzey Azərbaycanın yazıçı və şairlərinin ədəbi irsinin tədqiqi ilə məhdudlaşmır. Bu elmi yaradıcılıqda Quzey Azərbaycanı Mirzə İbrahimov təmsil edirsə («Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri». Bakı, 1997), Güney Azərbaycanı XX əsr ədəbiyyatımızın nəhəng simalarından olan Məhəmmədhüseyn Şəhriyar təmsil edir. («M.Şəhriyar: Gəldim sizi görməyə». Bakı, 1992; «Seyid Məhəmmədhüseyn Şəhriyar». Bakı, 1999; «Heydərbabaya salam» necə varsa». Bakı, 2001; « M.Şəhriyar. Heydərbabaya salam». Bakı, 2004; «Şəhriyar poeziyası və milli təkamül». Bakı, 2004; «Şəhriyar poetikası». Bakı, 2006). Təsadüfi deyil ki, professoru Azərbaycan Şəhriyarşünaslığının ən görkəmli nümayəndəsi (prof.H.Qasımov) hesab edirlər. Bu, təbii ki, mübahisə doğurmayan bir faktdır. Çünki Azərbaycanda M.Şəhriyarı professor Elman Quliyev qədər ardıcıl və sistemli araşdıran ikinci bir alim tapmaq çətindir.

Elman Quliyev əslən Güneydən olub həyatını və yaradıcılığını Quzey

Azərbaycana bağlayan yazıçı və şairlərimizi də diqqətdən kənarda qoymur («S.Tahir. Lirika». Bakı, 1992) və bununla sanki xəritələrdə ikiyə bölünmüş Azərbaycanı ədəbiyyat müstəvisində bütövləşdirməyə çalışır.

Elman Quliyevin yaradıcılığında Azərbaycan ədəbiyyatı möhtəşəm türk ədəbiyyatının bir qolu kimi təqdim olunur. Bildiyimiz kimi, Sovetlər birliyi dağılandan dərhal sonra milli özünəqayıdışın ilk addımlarından biri qardaş türk xalqları ədəbiyyatının yenidən öyrənilməsindən ibarət oldu. Türk mənəvi mədəniyyətinin öyrənilməsi işində digər həmkarlarımızla bir sırada Elman Quliyev də xüsusi xidmətlər göstərdi. Professor ümumtürk ədəbiyyatını, bu ədəbiyyatın aparıcı simalarının yaradıcılığını nəinki tədqiq etməyə başladı, həm də bu ədəbiyyatın əsaslı tədrisinə girişdi, qısa müddət ərzində proqramlar, dərsliklər yazdı («Türk xalqları ədəbiyyatı». Bakı, 1998; «Şərq xalqları ədəbiyyatı». Bakı, 1998; «Qədim türk ədəbiyyatı». Bakı, 2010; «Müasir özbək ədəbiyyatı tarixi. Bakı, 1999; «Türkiyə türk ədəbiyyatı». Bakı, 2003). Bütün bu əsərlər əsasında Elman Quliyev müxtəlif ictimai-siyasi dönəmlərdə təsirlərə, təhriflərə məruz qalmış ümumtürk ədəbiyyatı barədə dolğun təsəvvür yarada bildi.

Türkçülük Elman Quliyevin yalnız elmi-pedaqoji fəaliyyətində yox, həm də ictimai-təşkilati fəaliyyətində ardıcıl olaraq izlənilən istiqamətdir. O, Azərbaycan Dövlət Pedaqoji Universitetində «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzlərinin rəhbəridir. Bu mərkəzlərin rəhbərliyinin Elman Quliyevə həvalə edilməsi onun türkçülük sahəsindəki elmi-pedaqoji və ictimai fəaliyyətinə xüsusi imkan və şərait yaradır. Və professor bu imkan və şəraitdən milli maraqlar naminə istifadə etməyi bacarır.

55 yaşı tamam olan həmkarımıza möhkəm can sağlığı, Azərbaycançılıq və türkçülük yolunda yeni-yeni uğurlar arzulayıram.



*Məhərrəm Qasımlı*
*AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavini, Dövlət Mükafatı laureatı, filologiya elmlər doktoru, professor*

# ELMİ VƏ MİLLİ MÜCADİLƏNİN VƏHDƏTİ

Professor Elman Quliyev çox məhsuldar, öz üzərində daim işləyən, ildən-ilə elmi səviyyəsini yüksəldən alimdir. Son illərdə müxtəlif mətbuat orqanlarında dərc olunan məqalələri, monoqrafiyaları bunu bir daha təsdiq edir. O, bir müddət bizim Nizami adına Ədəbiyyat İnstitutun ixtisaslaşmış Dissertasiya Şurasının üzvü olub. Bu mənə imkan verib ki, dəyərli alimi daha yaxından tanıyam. Mən onun çıxışlarında obyektivlik və prinsipiallıqla yanaşı, müzakirəyə çıxarılan məsələlərə dərin bələdliyini dönə-dönə müşahidə etmişəm.

Bir alim, təcrübəli elm adamı kimi professor Elman Quliyevin yüksəlişi, uğurları həmkarlarını sevindirməyə bilməz. O pedaqoji və elmi fəaliyyəti üzvi vəhdət halında birləşdirərək bizim klassik mirzələrin – Mir Cəlal Paşayevin, Mirzə Feyzullanın, Abbas Zamanovun, Kamal Talıbzadənin, Xeyrulla Məmmədovun, Abbas Hacıyevin və başqalarının məktəbşünaslıq və elmşünaslıq ənənələrini ləyaqətlə davam etdirir. Həmkarları, tələbələri onun haqqında həmişə müsbət fikirlər səsləndirir, bir elm adamı kimi fəaliyyətinə yüksək qiymət verirlər.

Elman Quliyevin elmi çalışmaları da kifayət qədər sanballıdır və böyük nəzəri əhəmiyyət kəsb edir. Şəhriyarın Şərq, eləcə də türk ədəbiyyatındakı mövqeyi, müasir özbək ədəbiyyatı, Türkiyə türk ədəbiyyatı ilə bağlı yazdığı əsərlər müasir ədəbiyyatşünaslığımızın ən yaxşı örnəklərindəndir. Qırğız, qazax, türkmən, qaqauz, eləcə də Türkiyə türk ədəbiyyatından yazanda da, milli ədəbi irsimizdən bəhs edəndə də o «ana avazımızı» – ümumtürk kontekstini heç vaxt unutmur. Türk xalqları ədəbiyyatın-

da türk ruhunu, türk milli-tarixi kimliyini önə çəkir, türk xalqlarının mənəvi, mədəni birliyinin vacibliyini əsaslandırmağa çalışır. Bizim müasir ədəbiyyatşünaslıqda türkün mənəvi birliyinə çalışan çox az elm adamını Elman Quliyevlə müqayisə etmək olar. Bu cəhətdən onun tədqiqatları həm perspektivli, həm də aktualdır.

Ustad Şəhriyar yaradıcılığı professor Elman Quliyevin daim maraqlandığı istiqamətlərdən – lirikadan biridir. Bu da təsadüfi deyil. Elman Quliyev Şəhriyar poeziyasına milli türk amili nöqteyi-nəzərindən yanaşır. Bu poeziyanın incəliklərinə, sənət özünəməxsusluğuna dönə-dönə qayıdan alimin elmi axtarışları həmişə öz yeniliyi ilə seçilir. Alim tutduğu bu uğurlu elmi və milli mücadilə yolunda «Müasir özbək ədəbiyyatı» (1999), «Heydərbabaya salam», «Necə varsa» (2004), «Türkiyə türk ədəbiyyatı» (2003), «Türk xalqları ədəbiyyatı» monoqrafiyalarını ərsəyə gətirmişdir. Bu əsərlər elmi ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Elman Quliyevin 2004-cü ildə «Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının təkamülü» (Milli problemlər kontekstində) mövzusundakı doktorluq dissertasiyasının müdafiəsini də yaxşı xatırlayıram. Çox uğurla keçən bu müdafiədə dissertantın opponentlərə verdiyi cavablar göstərdi ki, o artıq professional bir ədəbiyyat mütəxəssisidir. Tədqiqatçı M.Şəhriyarı təkcə Azərbaycan poeziyasının böyük bir siması, ədəbi şəxsiyyəti kimi deyil, həm də ictimai-siyasi nüfuz sahibi kimi təqdim etdi, Şəhriyar poeziyasının ideya-məzmun, sənətkarlıq xüsusiyyətlərini yüksək elmi-nəzəri səviyyədə izah etdi.

Artıq o vaxtdan on ilə yaxın bir zaman məsafəsində uzaqlaşmışıq. Bu müddətdə Elman Quliyev neçə-neçə monoqrafiyalar nəşr etdirib, bir neçə elmi və pedaqoji uğurlar qazanıb. ADPU-nun «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının tanınmış professorudur.

Təkcə elm adamı kimi deyil, həm də bir şəxsiyyət kimi Elman Quliyev filoloji mühitdə nüfuz qazanıb. İşlədiyi pedaqoji kollektivdə dərin hörmət qazanıb, xeyli sayda yetirmələri respublikanın nüfuzlu ali məktəblərində və başqa tədris ocaqlarında çalışır. Belə hesab edirəm ki, yaxın illərdə onun daha geniş miqyaslı uğurlarının şahidi olacağıq.

Əlli beş yaş müdrikliyin və gəncliyin qovuşuğu, həm də sərhədidir. Əziz qardaşım bu məqamda, bu mərtəbədə özünü ləyaqətlə aparır.

Bu, açığı, mənim çox ürəyimcədir.



*Nizaməddin Şəmsizadə*
*Azərbaycan Respublikasının*
*Dövlət Mükafatı laureatı,*
*filologiya elmləri doktoru, professor*

## TÜRKÜN RUHUNA EHTİRAMLA

Dəfələrlə demişəm ki, bir daha etiraf edim ki, yaşıdlarım, mənsub olduğum nəsil haqqında yazmaqdan böyük zövq alıram. Bu nə sirri-xudadır bilmirəm. 50-ci illərin (1950-1959) uşaqlarını olduqca doğma bilirəm. Belə uşaqlardan biri də 1958-ci ildə Lerikin Zuvand mahalının Kələxan kəndində doğulub bu gün bütün türk dünyasında görkəmli alim kimi şöhrət qazanmış filologiya elmləri doktoru, professor Elman Quliyevdir.

Gəncliyində yaşıdlarımız – aspirantlar, dissertantlar sevimli ocağımız M.F.Axundzadə adına kitabxanada bir yerə yığışar, ədəbiyyatımız və nəzəri-estetik fikrimizin taleyi ilə bağlı ədəbi mübahisələr aparardıq. İllər keçdi. Təbii olaraq hərə öz mövzusunun arxasınca getdi. Elman Quliyevə də eləcə bir gün unudulmaz Xeyrulla müəllim təklif etdi ki, mən «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusu üzrə Elmanın doktorluq işinin rəsmi opponenti olum. Mövzu yaxşı düşünülmüşdü və müdafiə uğurla keçdi, Elman hazırlığını bacarıqla nümayiş etdirə bildi.

Elman Quliyevin bir ziyalı kimi fəaliyyətini iki yerə bölmək olar: pedaqoq və tədqiqatçı! O, 20 ildən artıqdır ki, ADPU-da işləyir. Bu müddət ərzində o, «Türk xalqları ədədbiyyatı», «Şərq xalqları ədəbiyyatı», «Ümumtürk ədəbiyyatı», «Qədim türk ədəbiyyatı», «Qədim türk ədəbiyyatı», «Türkiyə türk ədəbiyyatı» (XIX-XX əsrlər) kimi dəyərli proqramlar və fundamental dərsliklər hazırlamışdır.

Ali məktəblərdə 30 il tədris təcrübəsi olan bir pedaqoq kimi deyə bilərəm ki, proqram, dərslik yazmaq çox çətin, olduqca şərəfli və məsuliyyətli bir işdir.

Elman Quliyev çox məhsuldar alimdir, o dörd tərtib-mətnşünaslıq işinin, 15 monoqrafiyanın müəllifidir. O heyrətamiz bir həvəs, vətəndaş

qeyrəti və sifəti ilə işləyir. Onu yorulmağa qoymayan ulu türkün yenilməz ruhu, türk xalqlarına, onların ədəbiyyat və mədəniyyətinə böyük məhəbbətdir. Məncə, Elmanın ədəbi-nəzəri xidmətləri, əsərlərinin ədəbiyyatşünaslıqda əhəmiyyəti bir neçə cəhətlə xüsusilə bağlıdır:

1. Elman öz doktorluq dissertasiyası və bu mövzuda yazdığı, tərtib etdiyi əsərlərdə XX əsrin böyük Azərbaycan şairi M.Şəhriyarı bu tay Azərbaycanda da yüksək səviyyədə tanıtmağa nail oldu. Onun «Seyid Məhəmmədhüseyn Şəhriyar» (1999), «Heydərbabaya salam» necə varsa» (2001), «Şəhriyar poeziyası və milli təkamül» (2004), «Şəhriyar poetikası» (2006) monoqrafiyaları, «M.Şəhriyar: Gəldim sizi görməyə» (1992), «M.Şəhriyar: Heydərbabaya salam» (2004) tərtib kitabları ədəbi-nəzəri fikrimizdə şəhriyarşünaslıq elmini formalaşdıran əsərlərdir.

2. M.Şəhriyar haqqında tədqiqatları ilə özünü bir millətçi – azərbaycanlı kimi təqdim etməyə nail olmuş Elman Quliyev həm də geniş hüdudlarla düşünən bir türkçü alim kimi tanınmağa və nüfuz qazanmağa nail olmuşdur. Mən onu XXI əsrin Azərbaycan türkçüsü hesab edirəm. Buna hər şeydən öncə Elman Quliyevin «Orta əsrlər türk xalqları ədəbiyyatı» (2010), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (2010), «Türk xalqları ədəbiyyatı» (2009, 2011), «Türkiyə türk ədəbiyyatı» (2003), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (2012) kimi sanballı kitabları imkan verir.

3. Professor E.Quliyev istedadı, səmimiyyəti və əlbəttə ki, fədakar zəhməti sayəsində tanınmış şərqşünasdır. Burada yenicə çapdan çıxmış iki cilddən ibarət «Şərq xalqları ədəbiyyatı» (2011) əsərini ayrıca qeyd etmək istəyirəm. Elmanda bir şərqli təbiəti, təmkin və müdriklik də var. O ata-ana hörmətini uca tutan, ailəcanlı bir insandır. Mən onun nəcib sifətli bir hüquqşünas oğlunu da onun ən böyük əsəri kimi qeyd etmək istəyirəm.

4. Elmanın əsərləri təkcə ədəbi-nəzəri baxımdan deyil, həm də siyasi-tarixi nöqteyi-nəzərdən əhəmiyyət kəsb edir: türk xalqlarının birləşdirilməsi işinə xidmət edir. Gənclər, xüsusən də gələcəyin müəllimi olacaq tələbələrdə türkün tarixinə, mənəvi dünyasına maraq yaradacaq bu araşdırmalar bizdən sonra gələn nəsillərə ünvanlanması ilə dəyərlidir. Çünki adlarını çəkdiyim kitablar türk qeyrəti, türk cəsarəti – türkün ulu ruhuna ehtiramla yazılıb.

Elman dağlar oğludur, Zuvandın buz bulaqlarının suyunu içib, Savalandan əsən yellərlə nəfəs alıb. Ona görə də E.Quliyev saf və səmimidir. Həm alimlikdə, həm ailəçilikdə, həm müəllimlikdə, həm də dostluqda səmimiyyət başlıca şərtdir. Professor Elman Quliyev inadkar bir inamla bu vacib şərtləri qoruyub saxlayır, pozulmağa qoymur.



*Arif Əmrahoğlu*
*Azərbaycan Yazıçılar Birliyinin katibi*

# TALEYİNİ QƏLƏMİ İLƏ YAZMAĞA ÇALIŞAN ALİM

Alimləri fərqli meyarlarla şərti şəkildə müxtəlif qruplara ayırmaq mümkündür: güclü və zəif alim, savadlı və qeyri-savadlı alim, mütaliəli və oxumaqdan daha çox yazan alim karyerasının və maaşının artması naminə müdafiə edən, yazılar çap etdirən və ən nəhayət, araşdırmanı özünə tale seçən alim. Elman Quliyev sonuncu alim tipindəndir, yəni taleyini qələmi ilə yazmağa və ömrünə araşdırmaları ilə məna verməyə çalışır.

Filologiya elmləri doktoru, professor Elman Quliyevi alim kimi səciyyələndirən əsas cəhətlərdən biri məhsuldarlıqdır. M.Şəhriyar, M.İbrahimov, türk, şərq xalqları ədəbiyyatı ilə əlaqədar yazaraq ortaya qoyduğu monoqrafik əsərləri yada salmaq bir yana, bu əsərlərin hər birinin sadəcə korrekturasını oxuyub-yoxlamağın ağırlığını düşünəndə onun işgüzarlığına qibtə etməmək olmur. Bunların hamısının arxasında yaxınlarla-doğmalarla yaşanan, istirahətə, əyləncəyə həsr oluna biləcək dünənə çevrilmiş ömür durur.

Çoxsaylı başqa müəllim həmkarları kimi, o da dərs deyib gündəlik dolanacağına təminat yaradardı. İçindəki araşdırma yanğısı onu elmi araşdırmaların sonunda mənəvi təskinlikdən başqa heç bir xüsusi mükafat dayanmayan ağır yoluna gətirib çıxartdı. Sadəcə müəllim olmaqla, Pedaqoji Universitetdə mühazirələr oxumaqla kifayətlənməyən E.Quliyev pedaqoji fəaliyyətlə tədqiqatçılığı səmərəli şəkildə birləşdirməyi bacardı.

Gündəlik fəaliyyətimlə əlaqədar onun türk xalqları ədəbiyyatı ilə bağlı araşdırmalarını və dərsliklərini daha müntəzəm şəkildə mütaliə et-

mişəm və yenə də edirəm. Professor P.Xəlilovdan sonra türk xalqları ədəbiyyatı üzrə dərslik yazılmasında bir boşluq yaranmışdı. Bunun əsas səbəblərindən biri P.Xəlilovun dərsliklərinin dövrün, zamanın tələblərinə uyğun mülahizələri ilə birlikdə mükəmməlliyi, predmeti mümkün dərəcədə xronoloji ardıcıllıqla və əsas yaradıcı simalar üzrə dolğunluqla əhatə etməsində idisə, digəri müraciət olunan problemin zənginliyində, genişliyində, mürəkkəbliyində və ziddiyyətli olmasında idi.

E.Quliyev hər iki cəhəti göz önünə almaqla araşdırmalara başladı və türk xalqları ədəbiyyatı üzrə dərslik sahəsindəki boşluğun aradan qaldırılmasında əhəmiyyətli rol oynayan əsərlərini ortaya qoydu.

Onun türk xalqları ədəbiyyatı üzrə dərslikləri bir neçə baxımdan maraq doğurur. Birincisi, E.Quliyevin dərslikləri qəbul olunmuş fənn proqramına mümkün qədər cavab verir. Tədqiqatçı dərsliklərindəki icmalları, ədəbi portretləri tələb olunduğu kimi, mövcud normativ elmi nəticələr üzərində qurur, amma eyni zamanda konkret bir əsərin müəyyən epizodunun şərhində, obrazın səciyyələndirilməsində özünün fərqli mülahizələrini irəli sürür. Tədqiqatçı bəzən də elmi fikirdə problemin işlənmə dərəcəsini də nəzərə alır. Məsələn, o, A.Qədirinin yaradıcılığından danışarkən yazıçının barəsində kifayət qədər çox yazılan məşhur «Ötən günlər» romanından da bəhs edir, amma bir çox sələflərindən və müasirlərindən fərqli olaraq «Mehrab əqrəbi» romanının təhlilinə daha geniş yer ayırır.

İkincisi, onun dərsliklərində türk xalqlarının ədəbiyyatı və aparıcı simaları nəzərdə tutulan dərəcədə əhatə edilir. Təbii ki, obyektiv mənzərənin yaradılması subyektiv zövqü və istəyi arxa plana keçirir. Dərslik yazan əksər müəlliflər kimi, E.Quliyev də bu qaçılmaz prinsipə əməl edir və deyək ki, XX əsr özbək ədəbiyyatı haqqında yığcam və səciyyəvi mənzərə yaratmağa çalışanda A.Qədirinin, Çolpanın repressiyaya məruz qalmasını da vurğulayır, əsərlərində sovet ideologiyasının təbliğindən yan keçməyən H.Niyazidən, Ş.Rəşidovdan da danışır.

Dərsliklərin son nəşrlərində E.Quliyev yaxşı mənada normativləri pozubdur. O, «Türk xalqları ədəbiyyatı» dərsliyinin 2009-cu il nəşrinə bəzi proqramlara əsasən ayrıca tədris olunmayan İ.Qaspiralı oçerkini və qədim türk eposundan, şeirindən, nəsrindən nümunələri də daxil etməyi lazım bilibdir.

Onun digər bir cəhəti də elmi həyatdakı fəallığıdır. Mühazirələr oxumaq, araşdırmalar aparmaqla yanaşı, o, həm də elmi-təşkilati işlərdə, kadr yetişdirilməsi prosesində fəal iştirak edir. «Türk odası», «Türk araş-

dırmaları» elmi-tədqiqat mərkəzində işləri təşkil etməkdə, namizədlik və doktorluq dissertasiyalarının müdafiə proseslərində xüsusi fəallıq göstərir.

Ədəbiyyat tarixində olduğu kimi, elm tarixində də iki cür yer tutmaq mümkündür: a) verilən titullarla, fəxri adlarla, yaxınların sözləri ilə; b) ortaya qoyulan əsərlərlə. Vaxtilə Y.Əmrə yazırdı:

*Zehmetsiz zengin olanın,*
*Kitabsız alim olanın,*
*Sermayesi din olanın,*
*Rehberi şeytan olmuşdur.*

Kitablı alim Elman Quliyev milli filoloji fikirdə əsərlərinin müəyyənləşdirdiyi yerdədir, yuxarı keçməyə də, aşağı düşməyə də əsərləri imkan vermir. Çünki o, taleyini qələmi ilə yazmağa və ömrünə araşdırmaları ilə məna verməyə çalışır.



***Sevda İbrahimova***
*Azərbaycan Respublikasının*
*Xalq artisti, Üzeyir Hacıbəyov adına*
*Azərbaycan Dövlət Konservatoriyasının*
*«Metodika və Pedaqoji hazırlıq»*
*kafedrasının müdiri, professor*

## PROFESSOR ELMAN QULİYEV HAQQINDA

Elə insanlar var ki, sən onlarla şəxsən tanış olmasan da, onların yazdığı məqaləmi, əsərmi olsa belə, oxuduqda, onların daxili aləmini, onların dünyagörüşü və şəxsiyyətini duyursan. Mən, görkəmli alim prof.Elman Quliyevi, məhz onun atam Mirzə İbrahimov haqqında yazdığı «Xalqın böyük oğlu» məqaləsini oxuduqda, məhz bu hissələri keçirdim. Onun səmimi, təsiredici yazısı, məni atalı günlərimə qaytardı. Əlbəttə, ana-ata məhəbbəti, ülvi, təmiz məhəbbətdir və zaman keçdikcə, sən bu məhəbbətin əbədiliyini duyursan, bu məhəbbət səni daha da ruhlandırır və sənə xoşbəxtlik hissləri bəxş edir.

Elman müəllimin yazısı, onun sənətinə olan məsuliyyət, tələbkarlıq və böyük ciddilik kimi vacib xüsusiyyətləri özündə cəmləşdirir. Hiss olunur ki, səmimi və ürəkdən gələn alimin yazısıdır.

Mən Elman müəllimi 55 illik yubileyi ilə səmimi qəlbdən təbrik edirəm. Ona yeni gözəl, böyük əhəmiyyətli elmi işləri yaratmaqda uğurlar arzulayıram.

*Ən xoş arzularla*
*Sevda İbrahimova*
*04.03.2013*



***Əsgər Rəsulov***
*filologiya elmləri doktoru, professor,*
*Azərbaycan Respublikası Milli Arxiv*
*İdarəsinin rəis müavini*

## XEYİRXAH ALİM, TƏVAZÖKAR İNSAN

Ədəbiyyatşünas dostlarımızdan birinin 55 yaşı ilə əlaqədar yazmışdım ki, rəvacda olan qoşa rəqəmlərə vurğunluğum yoxdur, ancaq 55 rəqəminin uşaqlıqdan bəri məndə xoş bir çağrışımı var. Böyüklərimiz loto daşlarını torbadan çıxarırkən uca səslə «11»-ə baraban çubuğu, «69»-a ər-arvad, «90»-a babay, «55» rəqəminə isə «partapart» deyərdilər. Görkəmli alim Elman Quliyevin 55-ci yaşdönümü ilə əlaqədar məndən yazı istədiklərində, yenə bir anlığa o illərə qayıtdım. Yəni 50-55 il əvvələ...

Elman müəllimlə hər dəfə görüşəndə, onun üzündəki utancaq gülüşü, təmənnasız nəcibliyi, astarı üzündən oxunan zərafət və səmimiyyəti öz avtoqrafıyla mənə bağışladığı «Türk xalqları ədəbiyyatı» kitabının tək cümləlik, lakin dərin məzmunlu, məni xeyli mütəəssir edən ithafını yadıma salır: «Bu kitabı həyatda analıq, qonşuluq, ağbirçəklik borcunu şərəflə yerinə yetirmiş, ağzı dualı, alnı möhürlü ipək anam Məşədi Rəhilə xanımın və dünyasını vaxtsız dəyişmiş əziz qardaşım Arazın müqəddəs ruhlarına ithaf edirəm»... Və hər görüşümüzdə Elman müəllim haqqındakı belə bir qənaətim daha da qüvvətlənir ki, onun uşaq məsumiyyəti, dostcanlılığı, istiqanlılığı və gözlərinin dərinliyindəki mübhəm kədər məhz bu təkcümləlik ithafın ünvanlandığı şəxslərdən qidalanır – övladlarına qarşı qayğıkeş və cəfakeş qadın, qonum-qonşuya əl tutan, el-obanın güvənc yeri olan ağbirçək, namaz-niyazını əskik etməyən «ağzı dualı, alnı möhürlü ipək ana»dan və «dünyasını vaxtsız dəyişmiş əziz qardaş»dan. Ehtimal ki, nisgilinin bir qismi də o biri Arazdan qaynaqlanır. Elman müəllimin elmi-tədqiqat fəaliyyətinin önəmli payını, doktorluq dissertasiya-

sının mövzusunu Arazın cənubu və şimalının görkəmli sənətkarı Ustad Şəhriyarın yaradıcılığı tutur axı...

Elman müəllim haqqındakı kitabda toplanacaq yazılarda, yəqin ki, onun filoloq alim kimi elmi adı, savadı, professor kimi maarifçi-pedaqoji fəaliyyəti, türkşünas araşdırmaçı kimi ADPU-dakı «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə rəhbərliyi geniş işıqlandırılacaq, xeyli ürəkaçan fikir və təəssüratlar dilə gətiriləcək. Türk dünyasına xidmətləri müqabilində qazandığı nüfuzlu mükafatları («Mirzə Uluğbəy», «C.Rumi-800», «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» və s.) xatırlanacaq. Respublikamızda və xaricdə (Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr) keçirilən beynəlxalq elmi konfranslardakı məruzələrindən, işıq üzü görmüş məqalələrindən söz açılacaq. Xüsusən son beş ildəki gərgin əməyinin halalca qarşılığı olan «Tərəqqi» medalından, «İlin müəllimi» və «İlin alimi» kimi qürurverici fəxri adlarından söhbət salınacaq. Mən bəri başdan bütün bu xoş duyğu və düşüncələri bölüşməklə yanaşı, burada yalnız Elman müəllimin elmini tamamlayan helmini, təvazökarlıq, hər an köməyə hazır davranış, müsahibini diqqətlə dinləmək səriştəsi, bildiyi mövzularda məsləhətlərini əsirgəməmə səxavəti kimi fərdi məziyyətlərini vurğulamaq istəyirəm. Şübhəsiz ki, bu keyfiyyətlərin bir qismi onun yetişdiyi ailə-ocaqdan, bir hissəsi 20 ildən artıqdır işlədiyi doğma elmi-pedaqoji təhsil qurumundan, bir qismi isə «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasındakı işgüzar mühitdən, bu kollektivə rəhbərlik edən görkəmli ədəbiyyatşünas alim Himalay Ənvəroğlunun yaratdığı səmimi isti auradan qaynaqlanır.

Elman müəllim xeyixah alimdir. Üzvü olduğu AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnsitutu nəzdindəki Dissertasiya Şurasında elmi rəhbəri olduğum dissertantların müdafiələrindəki xeyirxah və məzmunlu çıxışlarını unutmuram. Doktorluq işimin avtoreferatına onun və Himalay müəllimin yazdıqları müsbət rəyləri bu gün də böyük minnətdarlıq hissi ilə xatırlayıram.

Elman müəllim məhsuldar tədqiqatçıdır, son 20 ildə 20-dən artıq kitab nəşr etdirmişdir. Onun «M.Şəhriyar: Gəldim sizi görməyə», «Söhrab Tahir. Lirika», «Heydərbabaya salam», «Türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı», «Qədim türk ədəbiyyatı», «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri», «Müasir özbək ədəbiyyatı tarixi», «Türkiyə türk ədəbiyyatı», «Şəhriyar poeziyası və milli təkamül», «Orta əsrlər türk xalqları ədəbiyyatı» kimi kitabları mütəxəssislər tərə-

findən çox yüksək dəyərləndirilir, bir çoxu türkoloqların və filoloq-tələbələrin stolüstü kitabıdır.

Müəllif özü kitablarının bir neçəsini təvazökarlıqla dərslik adlandırsa da, əslində, onlar nəzəri keyfiyyəti, araşdırmaçı məharəti ilə sözün həqiqi mənasında sanballı elmi-tədqiqat əsərləridir. Orta yaşlı filoloqlarımız bilirlər. Vaxtilə ali məktəblərdə «SSRİ xalqları ədəbiyyatı» fənni çərçivəsində türk xalqlarının bir-iki nümayəndəsi tədris olunar və müvafiq dərsliklərə də onların adları salınardı. Elman müəllimin hazırladığı və təkrar-təkrar nəşr edilən «Türk xalqları ədəbiyyatı» kitabında həm keçmiş Sovet məkanında yaşayan türk xalqlarının, həm də qardaş Türkiyə türklərinin dünyanın qəbul etdiyi görkəmli söz-sənət adamlarının, onlarla şair və ədibinin həyat və yaradıcılığına dair elmi əsaslarla şərh edilən oçerklər, ətraflı nəzəri təhlillər yer almaqdadır. Onun bu qəbildən olan dərslikləri müxtəlif Şərq və Türk xalqları sənətkarlarına dair məlumatların bir kitab altında toplanması deyil. Bu kitablarda hər bir sənətkarın mənsub olduğu ədəbiyyatın ümumi mənzərəsinin, yetişdiyi ictimai-ədəbi mühitin, bədii-estetik yaradıcılığının yığcam səriştəli təhlili var. Ümumiyyətlə, kitabları oxuyarkən hiss edirsən ki, Elman müəllim sadəcə elmi-pedaqoji fəaliyyətinin əsas hissəsini deyil, bütövlükdə ömrünü türk xalqlarının milli-mənəvi dəyərlərinin araşdırılmasına, bu dəyərlərin qoruyucusu və nəsildən-nəsilə ötürücüsü missiyasını daşıyan dahi sənətkarların həyat və yaradıcılığının öyrənilməsinə və öyrədilməsinə həsr etmişdir.

Alımlı-çalımlı 55 rəqəmi yubiley yaşı sayılmır. Görünür, Elman Hilaloğluna (bunu «halal oğlu» kimi də oxuya bilərsiniz!) vəfa borcu olan dostlarımız onun haqqında söz demək üçün beş il gözləmək, bizləri də intizarda saxlamaq istəməmişlər... «Partapart» yaşın mübarək, Elman müəllim!



***Malik Cəbrayılov***
*ADPU-nun tədris işləri üzrə prorektoru,*
*fizika-riyaziyyat elmləri*
*doktoru, professor*

## GƏNCLİYİN MÜDRİK ÇAĞI

Elman müəllimin yubileyini belə adlandırmaq daha düzgün olar. O, Pedaqoji Universitetin sayılan seçilən alimlərindəndir. Təbii ki, alim üçün 55yaş ən məhsuldar dövrdür. Bu gün Elman müəllim öz fəaliyyəti ilə bunu doğruldur.

İxtisaslarımız müxtəlifdir. Müxtəlif fakültələrdə çalışırıq. Ola bilər ki, işlədiyi Filologiya fakültəsinin ictimaiyyətinin diqqətini daha gənc illərdən cəlb edib. Adətən alimin digər ixtisas sahəsində çalışanların diqqətini cəlb etməsi daha güclü fəaliyyəti ilə, xüsusilə gördüyü iş uğrundakı mübarizəsi nəticəsində yaranır. Elman müəllimin doktorluq dissertasiyasının müzakirəsi belə səbəblərdən olmuşdur. O, bu amal uğrunda sözün əsl mənasında mübarizə aparırdı.

O, elmi dərəcə aldıqdan sonra da bu müvəffəqiyyətin təsadüfi olmadığını sübut etdi. Xüsusilə Elman müəllimin «Türk araşdırmaları» mərkəzinin rəhbəri kimi fəaliyyəti uğurlu oldu. Onun qısa müddətdə «Türk xalqları ədəbiyyatı» sahəsindəki fəaliyyəti ona haqlı olaraq şöhrət gətirdi. Bir neçə dərslik, dərs vəsaiti və proqram ərsəyə gətirdi.

55 yaş, doğrudan da, yaradıcı insan üçün gənclik çağıdır. İnanıram ki, ömür vəfa etsə mənim həmyaşıdlarım Elman müəllimin çox müvəffəqiyyətlərinin şahidi olacaq. Onu gəncliyin bu müdriklik zirvəsi ilə təbrik edir, ona səmərəli elmi fəaliyyət və cansağlığı arzu edirəm.



*Vilayət Əliyev*
*ADPU-nun elmi işlər üzrə prorektoru,*
*Respublikanın əməkdar müəllimi,*
*filologiya elmləri doktoru, professor*

## MÜƏLLİM OLMAQ ŞƏRƏFLİDİR, HƏR ŞEYDƏN UCADIR

Müəllim olmaq böyük xoşbəxtlikdir. Hər ötən illərin insanın zənginləşməsində, öyrənib-öyrətməsində böyük payı vardır. İnsan üçün mənəvi cəhətdən zənginləşmə xüsusilə vacibdir. Bu işdə müəllimlik sənətinin rolu əvəzolunmazdır. Müəllimlik missiyasını özünün həyat amalı seçənlər dünyanın ən xoşbəxt insanlarıdır. Zaman keçdikcə əsl müəllimin həyat mövqeyi xeyli dərəcədə möhkəmlənir, ürəyinə və yaddaşına yeni-yeni ünvanlar yazılır, o, yüzlərcə və minlərcə insan həyatına daxil olur, özünün əməl və fəaliyyəti ilə bu insanların düşüncələrində iz buraxır, onun həyat kitabının səhifələri maraqlı xatirələr mənbəyinə çevrilir. Xoşbəxt müəllimlərin  dərs dediyi tələbə və şagirdin uğurları, xalqı üçün gərəkli olması onu daim ucaldır. Bu ucalıq, bu uğurlar müəllimin ən önəmli mükafatıdır.

75 illik həyatımda qürrələndiyim, fəxr etdiyim tələbələrim çox olmuşdur. Onların təhsildə, elmdə uğurları məni daim sevindirmişdir.

Vaxtilə dərs dediyin tələbənin illər ötəndən sonra səninlə bir yerdə uğurla və şərəflə müəllim çalışdığını gördükcə bu sevincin dəyəri daha da artır. Belə gənclər müəllimlərinin yaddaşında həmişə istedadlı, tərbiyəli, təvazökar, mədəni, qabiliyyətli tələbə-həmkar kimi qalacaqlar.

Fəxr etdiyim tələbələrimdən biri bu gün mənimlə Pedaqoji Universitetdə çiyin-çiyinə çalışan, elmin və təhsilin zirvəsinə ucalan, elinə-obasına, xalqına bağlı olan, yeni-yeni uğurlara imza atan, etik normalara əməl edən, müəllimlərinin hörmətini və tələbələrinin məhəbbətini qazan-

mış istedadlı alim və qabiliyyətli müəllim Elman Quliyevdir. O bu gün təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında imzasını atan, özünü təsdiq edən tanınmış filoloq və müəllimdir.

Təbiətən çox sakit görünən Elman düşdüyü mühitdə öz işgüzarlığı, çalışqanlığı ilə diqqəti cəlb edir. Bu gənc tələbəlik illərindən öz fəallığı ilə seçilmiş və elmi istiqamətini müəyyən etmişdir. Türk dünyasına olan isti münasibəti, müəllimi Xeyrulla Məmmədovun ağıllı məsləhəti onun gələcək fəaliyyətinin bu istiqamətdə müəyyənləşməsində böyük rolu olmuşdur. Elman məqsədini düzgün seçən və bu yolda yorulmadan səy göstərən gənc alimdir. O, seçimində heç vaxt yanılmamış, daim istedadı və səyi nəticəsində elmin zirvəsinə doğru can atmış və istədiklərinə də çatmışdır. Bu işdə iki amil xüsusi rol oynamışdır – böyük şair Şəhriyar yaradıcılığına sevgi və türk xalqlarının ədəbiyyatına sonsuz məhəbbət. Bu seçim ona dalbadal uğurlar gətirmiş, kollektivdə, respublikada və türk dünyasında sevdirmişdir. Xarakterindəki yumşaqlıq, insanlara yanaşma qabiliyyəti xüsusi rol oynamışdır. Xüsusilə 2004-cü ildə «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər konteksində)» mövzusunda yazıb müdafiə etdiyi doktorluq dissertasiyası gələcək yaradıcılığına təkan vermiş, ona şöhrət gətirmiş və oxucularının sevincini qazanmışdır. 1992-2012-ci illər arasında məhsuldar olmuş, bir-birindən dəyərli əsərlərə imza atmışdır. Bu siyahıda olan «M.Şəhriyar: Gəldim sizi görməyə» (Bakı, 1992), «S.Tahir. Lirika» (Bakı, 1992), «M.Şəhriyar. Heydərbabaya salam» (Bakı, 2004), «Türk xalqları ədəbiyyatı» (Bakı, 1998), «Şərq xalqları ədəbiyyatı» (Bakı, 1998), «Ümumtürk ədəbiyyatı» (Bakı, 2005), «Qədim türk ədəbiyyatı» (Bakı, 2010), «Türkiyə türk ədəbiyyatı» (XIX-XX əsrlər) (Bakı, 2011), «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006, həmmüəlliflə), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010, həmmüəlliflərlə), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (Bakı, 2009; 2011), «Şərq xalqları ədəbiyyatı», 2 cilddə, (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) və s. adlı tərtib, proqram, dərs vəsaiti, dərslik və monoqrafiyaları prof.Elman Quliyevin nə dərəcədə zəhmətkeş və məhsuldar alim olduğunu təsdiqləyir.

Prof.Elman Quliyevin çəkdiyi zəhmət ona daim uğur gətirmişdir:

1999-cu ildə «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı almış, 2007-ci ildə C.Rumi-800 müsabiqəsinin (YUNESKO) laureatı, iki dəfə «İlin alimi» (2007, 2010) və «İlin müəllimi» (2011) müsabiqələrinin qalibi olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 18 aprel tarixli sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir.

Bir çox beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmiş, elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap edilmişdir.Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına (2011) və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə (2012) layiq görülmüşdür. Hazırda ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəridir. 2011-ci ilə qədər AMEA Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olmuşdur. Hazırda AMEA-nın akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, həmçinin Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Son olaraq sevimli və istedadlı tələbəm Elman Quliyevə həyatının 55-ci baharında can-sağlığı, ailə xoşbəxliyi, şirin tələbə-müəllim münasibəti, çoxsaylı elmi uğurlar arzu edirəm.



*Vüqar Mehrabov*
*ADPU-nun ümumi işlər üzrə prorektoru, dosent*

## BÖYÜK ALİM VƏ GÖZƏL PEDAQOQ

Başqalarından fərqli olaraq mənim professor Elman Quliyevlə əyani tanışlığımın tarixçəsi bir qədər azdır. Bu mənim Azərbaycan Dövlət Pedaqoji Universitetində 2006-cı ildən çalışmağımla bağlıdır. Amma bütün bunlara baxmayaraq bu çox qısa zaman kəsiyində mən Elman müəllimi yaxından tanımışam. Bunun əsas səbəbi isə onun universitetin ictimai həyatında göstərdiyi fəaliyyət, Azərbaycan ədəbiyyatı kafedrasının professoru, «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri kimi qazandığı elmi uğurlar olmuşdur.

Elman müəllimin Lerik rayonunun Kələxan kəndindən başlayan ömür yolu əziyyətli, zəhmət dolu və şərəfli olmuşdur. Bu illər ərzində professor Elman Quliyev istedadı, biliyi və zəhmətsevərliyi ilə nəinki Azərbaycanın elmi ictimaiyyətində, hətta Türkiyə və türkdilli dövlətlərdə də öz imzası ilə tanınmışdır. Təsadüfi deyil ki, Elman müəllim 1999-cü ildə Özbəkistanın «Mirzə Uluğbəy» mükafatına, 2007-ci ildə YUNESKO-nun «C.Rumi-800» müsabiqəsinin laureatı adına, 2011-ci ildə Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına layiq görülmüşdür. Hazırda prof. Elman Quliyev AMEA-nın akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü kimi gənc alimlərin yetişdirilməsinə də öz xidmətini göstərir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 18 aprel 2012-ci il tarixli sərəncamı ilə prof. Elman Quliyevin «Tərəqqi» medalı ilə təlif edilməsi onun keçdiyi şərəfli yola və qazandığı uğurlara verilən layiqli qiymətdir.

Mən bir daha prof. Elman Quliyevi 55 yaşı münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı, uzun ömür və xoşbəxtlik, Azərbaycanımızın inkişafı yolunda səmərəli fəaliyyətində uğurlar arzılayıram.



*Rafiq Baxşəliyev*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru, professor*

# İSTEDADLI ALİM, TƏCRÜBƏLİ PEDAQOQ ELMAN QULİYEV

Azərbaycan torpağının səfalı suları, təmiz havası olan Lerik rayonunda dünyaya gələn professor Elman Quliyev elm sahəsində böyük xidmətlər göstərmişdir. Professor Elman Quliyev universitetimizdə 1991-ci ildən işləyir. Elman müəllim 2004-cü ildə «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Bir sıra kitabların çap olunmasına nail olmuşdur. Bunlardan «M.Şəhriyar. Heydərbabaya salam» (1998, Bakı), «Ümumtürk ədəbiyyatı» (2005, Bakı), «Qədim türk ədəbiyyatı» (2010, Bakı) və başqalarını göstərmək olar.

Professor Elman Quliyev yorulmadan öz elmi yaradıcılığını davam etdirərək yeni əsərlərin yazılmasında öz qüvvəsini əsirgəməmiş və bir sıra dəyərli əsərlər çap etdirmişdir. Bunlara misal olaraq «Seyid Məhəmmədhüseyn Şəhriyar» (1999, Bakı), «Türkiyə türk ədəbiyyatı» (2003, Bakı), «Özbək ədəbiyyatı» (2009, Bakı), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (2010, Bakı), «Şərq xalqları ədəbiyyatı» 2 cilddə (2011, Bakı) və başqa kitablarını göstərmək olar.

Alim türk xalqları ilə əlaqəsini davam etdirərək 1999-cu ildə «Mirzə Uluğbəy» mükafatına layiq görülmüşdür. Professor Elman Quliyev 2007-ci ildə C.Rumi – 800 (YUNESKO) müsabiqəsinin laureatı, 2007-2010-cu illərdə ADPU-da iki dəfə «İlin alimi», 2011-ci ildə isə «İlin müəllimi» müsabiqələrinin qalibi olmuşdur. Onun göstərdiyi xidmətlər dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş və o Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 18 aprel 2012-ci il tarixli sərəncamı ilə «Tə-

rəqqi» medalı ilə təltif edilmişdir. Müəllifin bir çox elmi konfranslarda məruzələri və çıxışları olmuş və bir sıra elmi əsərləri Türkiyədə, İranda, İraqda, Türkmənistanda, Şimali Kiprdə çap edilmişdir. Onun Türkiyə ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki fəaliyyəti «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına (2011) və eləcə də Türkiyənin Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə (2012) layiq görülmüşdür. Professor Elman Quliyev hazırda ADPU-nun Azərbaycan ədəbiyyatı kafedrasının professoru, eləcə də «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri kimi fəaliyyətini davam etdirir. Elman Quliyev hazırda AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, eləcə də Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvüdür.

Professor Elman Quliyev bir tədqiqatçı alim kimi bir sıra problemlərin öyrənilməsində işgüzarlığı, həmçinin pedaqoji universitetdə müəllim kimi tələbələri Vətəni sevmək ruhunda və biliklərə yiyələnmələri sahəsində xüsusi bacarığı ilə həmişə fərqlənir. Mən Elman müəllimə möhkəm can sağlığı, uzun ömür, elmi-pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.



***Mehdi Abdullayev***
*ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru*

# HƏYATINI ELMƏ BAĞLAYAN İNSAN

*Dünyanı istəyən elmə sarılsın,*
*Axirəti istəyən yenə elmə sarılsın.*
***Hz. Məhəmməd***

Universitetimizin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, «Türk odası» və «Türk araşdırmaları» elmi tədqiqat mərkəzinin rəhbəri professor Elman Quliyev elm sahəsində uğurlar qazanmış, həyatını, dünyasını elmə bağlamış alimlərdəndir. Onun elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap edilmişdir. Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə o, «Ən yaxşı tədqiqatçı, vətənpərvər alim» qızıl medalına və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə layiq görülmüşdür.

Qısa vaxt ərzində prof.dr.Elman Quliyev Azərbaycanda ilk dəfə olaraq bakalavr təhsili üçün «Türk xalqlarının ədəbiyyatı» (1998), magistratura təhsili üçün «Ümumtürk ədəbiyyatı» (2005) tədris proqramlarını, «Müasir özbək ədəbiyyatı tarixi» (1999), «Türkiyə türk ədəbiyyatı» (2003-2007), «Türk xalqları ədəbiyyatı» (2008), «Özbək ədəbiyyatı» (2009) dərslik və dərs vəsaitləri yazmışdır.

Prof.dr.Elman Quliyev Azərbaycan və xarici ölkələrdə türk ədəbiyyatı problemləri ilə bağlı çoxsaylı məqalələr dərc etdirmiş, beynəlxalq konfranslarda türk ədəbiyyatının yaradıcılıq təmayülləri kontekstində məruzələr etmişdir. Onun Azərbaycan universitetlərində dərslik kimi is-

tifadə olunan «Türk xalqları ədəbiyyatı» kitabını xüsusilə qeyd etmək lazımdır. Əsərlə tanışlıq oxucuda ümumtürk yazılı abidələri, türk dünyasının ən böyük ədəbi simaları olan C.Rumi, Y.İmrə, Ə.Hamid, T.Fikrət, N.Kamal, Z.Göyalp, R.N.Güntəkin, Ə.Nəvai, M.Şeyxzadə, M.Fəraqi, A.Kunanbayev, İ.Qaspiralı, O.Süleymenov, Ç.Aytmatov və s. sənətkarların həyat və yaradıcılıqları haqqında kompleks təsəvvür yaradır, geniş mənada türk mənəvi dəyərləri, ədəbi-bədii zövq və təfəkkür tərzinin üstünlüklərini nümayiş etdirir.

Bütün bu türkoloji çalışmaları və elmi fəaliyyəti Elman Quliyevin vətənə, elmə, millətə bağlı bir insan və əsl müəllim olmasının göstəricisidir.

Müəllim – elm, sənət insan mədəniyyətini yüksəklərə qaldıran qoşa qanaddır. Prof.dr.Elman Quliyevə məhz bu qoşa qanadla uçuş və yüksəliş arzulayırıq.



*İmamverdi Həmidov*
*AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Qədim dövr ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru*

# ZƏHMƏTİNƏ VƏ SƏMİMİYYƏTİNƏ GÜVƏNƏN ZİYALI

Professor Elman Quliyevi bir alim, pedaqoq və bir insan kimi tanıdığım vaxtdan bu günə qədər düşüncəmdə və həyatda zəhmətkeş bir ziyalı alim və sadə, səmimi bir şəxsiyyət olaraq yerini tutmuşdur. Son dərəcə təvazökar olan bu insanı yaşadığımız dövrdə rast gəlinən təmiz simalardan biri hesab edirəm. Çalışqanlığı və zəhməti ilə özünü tanıdan Elman müəllim mənim üçün eyni zamanda sadiq bir dostdur. Bu insanı mənimlə mərhum Xeyrulla müəllim tanış etmişdir. Ona görə hər dəfə Elmanla görüşəndə sanki Xeyrulla müəllimin ruhu qarşımda durur.

E.Quliyev nəslimizin qatlaşdığı çətinliklərdən keçərək özünü əsl pedaqoq və elmi tədqiqatçı kimi tanıda bilmişdir. Kövrək qəlb sahibi olan Elman müəllim ədəbiyyat elminin ülgülərinə uyğun olan və ədəbi-bədii əsərlərdə ideal səviyyəsinə qaldırılan müsbət insan surətlərinin bir çox keyfiyyətlərini özündə ehtiva etməyə çalışan alim səviyyəsinə yüksəlməkdədir. Mənim qənaətimə görə Elman Quliyevin elmi-tədqiqatçılıq işində və pedaqoji fəaliyyətindəki xüsusiyyətlər «ağır, gərgin, əzablı, lakin şərəfli və mənalı ömür yolu keçmiş insanlar kimi adını Azərbaycan tarixi, Azərbaycan ədəbiyyatşünaslıq tarixi, Azərbaycan ədəbiyyatı tarixi, Azərbaycan ziyalılığı tarixi, Azərbaycan mənəviyyatı tarixinə salan (E.Quliyev) müəllimi prof. Xeyrulla Məmmədov məktəbinin əlamətləridir.

Elman müəllimin tədqiqat obyekti Azərbaycan ədəbiyyatı və türk xalqları ədəbiyyatıdır. Onun tədqiqatçılıq marağı ədəbiyyatımızın zirvə məqamlarında duran şəxsiyyətlərin ədəbi-bədii fəaliyyəti ilə bağlı olmuş-

dur: Məhəmmədhüseyn Şəhriyar, Mirzə İbrahimov. Qələmini ədəbiyyatşünaslığın çox mühüm məsələləri olan ədəbi-estetik prinsiplər və bədii sənətkarlığın çoxqatlı xüsusiyyətlərini öyrənməklə sınayan E.Quliyev ədəbi şəxsiyyətin yaradıcılıq təkamülünü milli problemlər kontekstində tədqiq etməyə girişmişdir. Başlanğıc cənublu-şimallı Azərbaycanın ədəbi həyatını yaxşı bilən və onu dəyərli əsərləri ilə təmsil edən böyük ədib Mirzə İbrahimovla bağlı olmuşdur. O, 1997-ci ildə işıq üzü görmüş «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» adlı kitabında yazıçının konkret zaman çərçivəsində və zəngin ədəbi ənənələrə malik zəmində formalaşdığı ədəbi nəzəri görüşlərin estetik mahiyyətini izah etməyə çalışmış, əsərlərindəki bədii sənətkarlığın özünəməxsusluqlarını göstərmişdir. Bu baxımdan Elman müəllim yazıçının əsərlərini qiymətləndirməkdə tarixi zaman məsələsinə daha çox əsaslanmışdır. Böyük sənətkar və nasir kimi M.İbrahimovun yaradıcılığında millilik motivi həmişə mühüm bir xətt olaraq seçilmişdir. Azərbaycan ədəbiyyatında XX əsrin özünəməxsus bir dövr təşkil etməsi, ideologiya, ictimai quruluş və yazıçı şəxsiyyəti məsələsinin araşdırılıb düzgün qiymətləndirməsinə E.Quliyev obyektiv alim mövqeyindən yanaşmışdır. Onun təhlilində Mirzə müəllim ədəbi ictimai xadim olmaqla dövrünün sayılıb seçilən və nüfuza malik şəxsiyyəti kimi təqdim edilir. Ən başlıcası ondan ibarətdir ki, Mirzə İbrahimov yazıçının özünü ifadə etmə vasitəsi olan milli ana dilini qorumaqda rolu və bu yolda mübariz formaları bütün mürəkkəbliyi ilə göstərilmişdir.

«Şəhriyar poeziyası və milli təkamül» monoqrafiyasında ustad Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının öyrənilməsində Elman müəllimin tədqiqatçılıq səriştəsi özünü bütün müsbət keyfiyyətləri ilə göstərmişdir. O, hər şeydən öncə Şəhriyar poeziyasının milli dəyərlərini göstərmiş, şairin yaradıcılıq leytmotivini təşkil edən kəskin çıxışının ifadəsinin öyrənilməsi ilə məşğul olmuşdur. Bunun üçün şairin poetik əsərlərindəki çoxsaylı bədii nümunələrə müraciət etmişdir. E.Quliyev Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə olaraq Şəhriyar yaradıcılığının təkamülünü şəxsiyyət, sənətkar və mühit amili problemləri daxilində araşdırmışdır. O, bu tipli tədqiqatlara məxsus metodoloji yanaşmadan çıxış edərək ictimai-siyasi prosesləri öyrənməklə Cənubi Azərbaycanda Səttarxan, Ş.M.Xiyabani və S.C.Pişəvərinin başçılığı ilə inqilabi hərəkatlar dövründəki milli oyanışın ədəbi-mədəni proseslərə təsirin mənzərəsini vermişdir.

Əsərdə qoyulmuş aşağıdakı problemlər şəhriyarşünaslığın başlıca məsələlərini çevrəsinə alır və ilk dəfə olaraq obyektiv elmi həllini tapır: milli münaqişələr zəminində şairin həyat yolunun qaranlıq və mübahisəli

məqamlarına aydınlıq gətirmək; Şəhriyarın yaradıcılığında vahid Azərbaycan konsepsiyası, Azərbaycançılıq, türkçülük və dil təəssübkeşliyinin elmi-nəzəri baxımdan izahı; şairin sənətində xalq yaradıcılığı ənənələrindən bəhrələnməsi; Şəhriyarın nəzəri-estetik görüşlərinin milli təkamül problemi ilə bağlılığı.

Bu mühüm məsələlərin uğurlu elmi həlli onun «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Heydərbabaya salam» necə varsa» və «Şəhriyar poetikası» adlı kitablarında da əksini tapmışdır.

Professor E.Quliyevin elmi tədqiqatçılıq fəaliyyətinin başqa bir sahəsi türk xalqları ədəbiyyatı ilə bağlıdır. Ölkəmizdəki türkoloqlardan fərqli olaraq Elman müəllimin bu yöndəki işləri türk xalqları ədəbiyyatının tədrisindəki çətinlikləri aradan qaldırmaq və universitet tələbələrini dərsliklərlə təmin etmək zərurətindən irəli gəlmişdir. Ümumiyyətlə, elmi düşüncələrinin məhsulu olan sərvətini həyatda real tətbiq etmək istiqamətində qayğı onu daim düşündürmüşdür. Bu, onunla bağlıdır ki, prof. E.Quliyev uzun müddətdən bəri çalışdığı Azərbaycan Dövlət Pedaqoji Universitetində peşəsini sevən, biliyini tələbələrinə çatdırmaq üçün maksimum səylərini səfərbərliyə alan bir müəllim nüfuzunu qazanmışdır. Professor «Türk xalqları ədəbiyyatı» (1998), «Şərq xalqları ədəbiyyatı» (1998), «Ümumtürk ədəbiyyatı» (2005), «Qədim türk ədəbiyyatı» (2010), «Türkiyə türk ədəbiyyatı (XIX-XX əsrlər)» (2011) tədris proqramlarını tərtib etmiş, ADPU-də «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzini yaratmışdır.

Milli müstəqilliyə nail olduqdan sonra «Türk xalqları ədəbiyyatı» fənninin tədrisi işlərini təşkil etmək və yaxşılaşdırmaq məqsədilə Elman müəllimin təşəbbüsləri təqdirəlayiqdir. Onun hazırladığı dərs vəsaitləri türk xalqları ədəbiyyatının özünəməxsus inkişaf yolunun işıqlandırılması, şanlı tarixə malik türklərin ədəbi-mədəni irsinin qiymətləndirilməsi, qorunması və təbliği kimi mühüm işlərin uğurlu həllinə kömək edir. Bu fənlə bağlı hazırladığı proqram və dərsliklərində o, türk milli ədəbiyyatlarının məşhur abidələri, dövrü üçün səciyyəvi sayılan nümunələri, fərdi yaradıcılıq qabiliyyətinə malik parlaq şəxsiyyətlərin əsərləri təqdim edilmişdir. Yusif Balasaqunlu, Cəlaləddin Rumi, Yunis İmrə, İbrahim Şinasi, Tofiq Fikrət və başqa türk ədib və şairləri, özbək, türkmən, qazax, krımtatar və qırğız ədəbiyyatlarının Əlişir Nəvai, Maqsud Şeyxzadə, Məxtumqulu Fəraqi, Abay Kunanbayev, Çingiz Aytmatov kimi onlarla məşhur nümayəndələri haqqında məzmunlu oçerklər prof. E.Quliyev tərəfindən yığcam şəkildə təqdim edilmişdir.

E.Quliyev Azərbaycanın hüdudlarından kənarda tanınan alimdir. Elmi araşdırmalarının nəticələri haqqında Türkiyə, İran, İraq, Türkmənistan və Şimali Kiprdə beynəlxalq konfranslarda maraqlı məruzələr etmiş və elmi məcmuələrdə məqalələrlə çıxış etmişdir.

Prof. E.Quliyev AMEA Ədəbiyyat İnstitutu və Şərqşünaslıq İnstitutu ilə elmi əməkdaşlıq edir. O, həmin elmi müəssisələrdə fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü kimi elmi kadrların hazırlanmasına öz töhfəsini verir. Müdafiə olunan dissertasiyaların müzakirəsində, yazdığı opponent rəylərində öz obyektiv fikir və mülahizələri ilə seçilən Elman müəllim doktorantların işlərinə qayğı və tələbkarlıqla yanaşan alimdir.

Elman müəllim zəhmətkeşliyi və səmimiliyi ilə seçilən bir ziyalıdır. Onun səmimiliyi dost qayğısını, elmi təfəkkürünü, müəllim peşəsini, bir sözlə xalqa xidmətini əhatə edir. Nə yaxşı ki, xalqımızın belə ziyalıları var. Son vaxtlar xalqa xidmət yox, xalqa xəyanət acısını daddığımız Əkrəm Əylisli şoku qarşısında Elman müəllim kimi təmiz qəlbli, saf duyğulu, zəhmətinə və səmimiyyətinə güvənən ziyalıların varlığı qürurumuzu daha da artırır.

Prof. Elman Quliyev dəyərli alim və müəllim, gözəl insan və dost olduğu kimi qayğıkeş ailə başçısı, səmimi və xoşbəxt ata kimi tanınır. O, ömrünün müdriklik çağındadır. Arzu edirəm ki, Elman müəllim səfalı diyarın məğrur insanları kimi əsrə bərabər ömrünün qalan hissəsini xoşbəxtlik duyğuları ilə yaşasın.



***Maarifə Hacıyeva***
*Əməkdar müəllim, filologiya elmləri doktoru, professor*

# ƏQİDƏ DOSTU

*Rütbələr içində olsa da biri,*
*Hamıdan ucadır alimin yeri.*
***Nizami Gəncəvi***

Günlərin birində işlədiyim Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) Azərbaycan dili kafedrasında idim. Qarabuğdayı gənc bir oğlanın məni axtardığını söylədilər. Bu, 1988-ci il idi. O qarabuğdayı, simpatik oğlan isə indi filologiya elmləri doktoru, professor Elman Quliyev idi. Mirzə İbrahimovdan yazdığı namizədlik dissertasiyası müdafiəyə buraxılmışdı. Mən o zaman dosent idim. Mənim opponentliyimi ona məsləhət görmüşdülər. Mən razılığımı bildirdim və uğurlu bir müdafiənin şahidi oldum. Bu gənc alimə opponent olmaqla onun elmi gücünü kəşf etdim. Sonralar onunla qatıldığım bir neçə beynəlxalq simpozium və seminarda yol yoldaşı oldum. Yol yoldaşlığı da elmi təfəkkürü qədər mükəmməl idi.

Professor Elman Quliyev gözəl əqidə sahibi, məslək sahibi olan qiymətli alimdir. O, ali məktəblər üçün yazdığı dərslik və monoqrafiyaları ilə yanaşı dərin məzmunlu məqalələri, publisist yazıları ilə də ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Bizlərə görə çox gənc olmasına baxmayaraq, yaşlı və orta nəsil, ədəbi-elmi ictimaiyyət ona hörmət və rəğbətlə yanaşır. Mən onu yorulmadan çalışan bir tədqiqatçı, tələbələrin sevdiyi bir müəllim, qeyrətli bir ailə başçısı olduğu üçün çox sevirəm.

Tədqiqatlarında, xüsusən Məhəmmədhüseyn Şəhriyar haqqında apardığı mükəmməl araşdırmasında dərin mənalı elmi-nəzəri,tarixi ma-

hiyyətli fikirləri orjinal və təqdirəlayiqdir. Onun ədəbiyyatımızın müxtəlif sahələrinə, türk dünyasına aid tədqiqlərində ciddi problemlərə girişdiyini görür, mükəmməl bir ziyalı kimi xidmətlərini, son dərəcə geniş ürəkli olmasını, səmimiyyətini təqdir edirəm. Həmişə səbirli və təmkinli gördüyüm bu cavan professorun simasında bir xeyirxahlıq, bir nur, zəhmətə bağlı dərin mənalı bir təbəssüm görürəm.

Professor Elman Quliyev çalışdığı Azərbaycan Dövlət Pedaqoji Universitetində dərs dediyi tələbələrə elmin incəliklərini öyrətməklə bərabər, universitetin ictimai həyatında da fəal iştirak edir. O, «Türk Araşdırmaları elmi-tədqiqat mərkəzi»nin müdiridir. Mən hər dəfə bu mərkəzə getdiyimdə orada bir neçə yeniliyin şahidi oluram. AMEA-nın «Ədəbiyyat üzrə ixtisaslaşmış müdafiə şurası»nın üzvü kimi fəaliyyəti də təqdirəlayiqdir.

Əziz məsləkdaşım Elman Quliyev günümüzdə Azərbaycan filologiya elmində öz yeri olan, tanınan, seçilən, adı hörmətlə çəkilən alimlərimizdəndir.

Elmi-pedaqoji fəaliyyətinin çox məhsuldar bir dövrünü yaşayan professor Elman Quliyevə yaradıcılıq uğurları, ən ümdəsi Böyük Yaradanın gözəl insanlara bəxş etdiyi can sağlığı arzu edirəm. O, mənim doğruluq, etibar rəmzini özündə ehtiva edən məslək və əqidə dostumdur.



*Anar İsgəndərov*
*BDU-nun kafedra müdiri,*
*tarix elmləri doktoru, professor*

# SƏDAQƏTLİ TƏLƏBƏ

Əslində bu yazını tamam başqa müstəvidə yaza bilərdim. Yəni, filologiya elmləri doktoru, professor Elman Quliyevin elmi fəaliyyətini qələmə alıb yazını bitirmiş olardım. Fikirləşdim ki, professorla bağlı bu səpkili yazıların sayı kifayət qədər olacaq. Buna şübhəm də yoxdur. Çünki Elman müəllim gənc yaşlarında bir tədqiqatçı alim kimi diqqəti cəlb etmiş və bu gün də bu istiqamətdə uğurlu addmlar atır.

Elman müəllim təkcə yazdıqları ilə diqqəti cəlb etmir, həm də ona ziyalı yolunun ilk, çətin və şərəfli addımlarını öyrədən professor Xeyrulla Məmmədova olan insani münasibət diqqət mərkəzindədir. Xeyrulla Məmmədovun böyüklüyü elm sahəsində külüng çalan ziyalıların hamısına məlumdur. Amma Xeyrulla müəllimlə bağlı tədqiqat aparan, onun yaradıcılığını tədqiq edən, onun həyat və fəaliyyətindən ağız dolusu danışan isə Elman müəllimdir.

Əslində Xeyrulla müəllimin çoxlu yetişdirmələri olsa da, Elmana olan münasibəti tamam başqa cür idi. Xatırlayıram, Elman müəllim böyük uğurla doktorluq dissertasiyası müdafiə etmişdi. Amma müəyyən qüvvələr ona mane olmaq istəyirdilər. Xeyrulla müəllim bir yerdə qərar tutmur, bu işin uğurlu sonluğu üçün hər cür qapıları döyməyə hazır idi. Xoşbəxtlikdən Elman müəllim zəhmətinin bəhrəsini gördü. Bu işə ən çox sevinən Xeyrulla müəllim oldu.

Elman müəllim prof. Xeyrulla Məmmədovu ona görə çox sevmirdi ki, hər ikisi bir torpağın övladıdır. Əsla yox. Elman müəllim Lerikin ən mənzərəli küçələrindən birinə Xeyrulla müəllimin adının verilməsi üçün

aylarla vaxt sərf etdi. Bir dissertasiyanın həcmindən çox ayrı-ayrı instansiyalara məktublar yazdı, Xeyrulla müəllimin Azərbaycan ədəbiyyatı tarixinin inkişafında rolundan bəhs etdi və daha nələr etdi. Son nəticədə istədiyinə nail oldu.

Elman müəllim Xeyrulla müəllimin yarımçıq qalan əlyazmalarına həyat verdi, redaktəyə ehtiyacı olanları qaydaya saldı, nəşr olunması üçün nəzərdə tutulanları nəşriyyatlara verdi. Bu işdə Elman müəllim heç kimdən kömək ummadı, çünki Xeyrulla müəllimi hamıdan yaxşı tanıyan Elman idi.

Bu yaxınlarda prof. Xeyrulla Məmmədovun əziz xatirəsinə həsr olunmuş «Dünyada qala bilmək» kitabının təqdimatı idi. Təqdimat mərasimini çoxları apara bilərdi. Amma bu səlahiyyət Elman Quliyevə verildi. İnsafən də, Elman müəllim də bu məclisi Xeyrulla müəllimin şəxsiyyətinə layiq apardı. Başqa cür ola da bilməzdi.

Prof.Elman Quliyevin Xeyrulla müəllimlə bağlı yazdığı xatirəsi şirin olduğu qədər də təsirlidir. Mənə belə gəlir ki, Elman müəllimin prof. Xeyrulla Məmmədovla bağlı yazdığı bu fikir bütün məclis iştirakçılarının ürəyincə oldu: «Xeyrulla Məmmədov indi haqq dünyasındadır. Yaşadığımız bu dünyada onun yeri boşdur. Bu boşluq təkcə onun doğmaları, dostları, həmyerliləri arasında deyil, ali məktəb auditoriyalarında, elmi şuralarda, beynəlxalq konfrans zallarında, arxiv idarələrində, teleradio məkanında, mətbuat səhifələrində hiss olunur və olunacaq. Lakin təsəlli odur ki, prof.X.Məmmədovdan Azərbaycan elminə və onu sevənlərə dünyanın ən qiymətli daş-qaşından dəyərli əsərləri, Xeyrulla müəllim şəxsiyyəti, Xeyrulla müəllim vüqarı, Xeyrulla müəllim ləyaqəti, Xeyrulla müəllim üslubu yadigar və nümunə qalmışdır...».

Bəli, 55 yaşlı filologiya elmləri doktoru, professor Elman Quliyev Xeyrulla Məmmədov zirvəsini tədqiq edir, təbliğ edir və əbədiyaşar edir. Xeyrulla müəllim Azərbaycan ədəbiyyatı üçün xələf olduğu kimi, Elman müəllim də Xeyrulla müəllim üçün xələfdir. Böyük ziyalı Xeyrulla müəllimə Allahdan rəhmət, onun sədaqətli tələbəsi Elman müəllimə isə yaradıcılıq uğurları və can sağlığı arzu edirəm.



***Zahid Xəlil***
*ADPU-nun Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının müdiri, filologiya elmləri doktoru, professor, Əməkdar müəllim*

## DOSTLUĞA SADİQ ADAM

Elman Quliyev haqqında düşünəndə mənim xəyalımda onun iki mühüm keyfiyyəti canlanır. Birinci keyfiyyəti dostluğa sədaqəti, ikincisi səmimiliyi və zəhmətkeşliyi. Elman Quliyevlə onun həmyerlisi, ADPU-nun professoru görkəmli alim Xeyrulla Məmmədovun arasında kifayət qədər yaş fərqi var idi. Amma bu iki şəxsiyyətin dostluğu qibtə olunacaq qədər diqqətəlayiqdir. Xeyrulla müəllim dünyasını dəyişəndən sonra Elman Quliyev onun xatirəsini əbədiləşdirmək yolunda çox zəhmət çəkdi. Kitablarının nəşrini və təqdimatını keçirdi, xatirə günlərini qeyd etdi. Xeyrulla müəllimin köhnə dostlarını bir yerə topladı, ona layiq tədbirlər keçirdi.

Elmanın dostluğa sədaqət hissləri bu gün də onun əsas keyfiyyəti kimi görünür. Professor Himalay Qasımovla dostluğu buna bir nümunə ola bilər.

Elman Quliyev həm də çox zəhmətkeş bir alimdir. 1958-ci ildə doğulub. Deməli mən bu sətirləri yazdığım zaman onun 55 yaşı olur. Nəzərə alsaq ki, alimin mükəmməl yazı mədəniyyətinə sahib olması üçün 35-40 yaşı olması lazımdır. Deməli, Elman Quliyev hardasa 20-25 ildir ki, elmi yaradıcılığa başlamışdır. Amma bu az vaxtda bir sıra kitablar yazmış, müntəxəbatlar, proqramlar tərtib etmişdir. Bu kitabların hamısı Pedaqoji Universitetin tələbələri üçün lazımlı vəsaitlərdir. Elman Quliyevin qələmə aldığı ən iri fundamental tədqiqatlardan biri «Türk xalqlarının ədəbiyyatı» dərsliyidir. Bu kitab qədim və çox mürəkkəb tarixi olan türk xalqlarının yaratdığı ədəbi abidələri araşdırır, bu xalqın dastan yaratma sahəsindəki uğurlarını çox geniş işıqlandırır. Məlumdur ki, hər xalq dastan yarada bil-

mir. Yalnız böyük mübarizələr yolu keçən xalqlar belə möhtəşəm abidələr yaratmaq gücünə malik olur. Elman Quliyev türkün dastan yaradıcılığının həm islamiyyətdən əvvəl, həm də ondan sonrakı dövrlərini araşdırır. Əlbəttə bu işdə türk alimlərinin tədqiqatlarından bəhrələnir və Azərbaycan oxucusu üçün mükəmməl bilgi verir.

Əsasən dərslik kimi nəzərdə tutulan «Türk xalqlarının ədəbiyyatı» kitabında Yusif Balasaqunlu, Əhməd Yəsəvi, Cəlaləddin Rumi, Yunis İmrə, Sultan Vələd kimi dünya şöhrətli qələm sahiblərinin yaradıcılığı əks olunur.

SSRİ zamanında ali məktəblərdə sovetlər ittifaqına daxil olan ölkələrin ədəbiyyatı haqqında müəyyən məlumatlar verilirdi. Pənah Xəlilovun «SSRİ xalqlarının ədəbiyyatı» (1966), «Türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatı» (1994) bu boşluğu aradan qaldırmaq işində xüsusi rol oynayırdı. Həmin dərsliklərdə SSRİ-də yaşayan türk xalqlarının ədəbiyyatına da xüsusi diqqət yetirilirdi. Lakin Elman Quliyevin dərsliyinin qiyməti orasındadır ki, müəllif buraya Türkiyə türklərinin yaratdığı abidələri əlavə etmiş, keçmiş SSRİ ərazisində yaşayan özbək, türkmən, tatar, qırğız ədəbiyyatları haqqında yeni məlumatlar toplamış, onlara müstəqil dövrün verdiyi imkanlar prizmasından yanaşmışdır. Dərsliyi yazarkən müəllif türk xalqlarının ən layiqli tədqiqatçılarının əsərlərindən bəhrələnmişdir. Məsələn, türk tədqiqatçısı Ağalı Sirri Ləvəndin «Türk ədəbiyyatı tarixi», Cəmil Sənanın «Yəhya Kamal: əsərləri və şəxsiyyəti», Əhməd Kabaklının «Türk ədəbiyyatı üç cilddə», Fuad Körpülünün «Türk ədəbiyyatı tarixi» , X.Koroğlunun «Özbək ədəbiyyatı», «Türkmən ədəbiyyatı», İ.Qaspiralının «Seçilmiş əsərlərinin 2 cildliyi» və s. kimi kitablardan bəhrələnərək türk xalqlarının ədəbiyyatın ümumi mənzərəsini yarada bilmişdir.

Elman Quliyevin xidmətlərindən bri də budur ki, o, öz əsərinə qədim türk nəsr nümunələri və şeir nümunələri daxil etmişdir. Həmin nümunələr türk ədəbiyyatının təkcə qədimliyi haqqında məlumat vermir, həm də bu ədəbiyyatın keçdiyi yol haqqında təsəvvür yaradır.

Elman Quliyev  gənc olmasına baxmayaraq xeyli məqalə, dərslik, dərs vəsaiti, monoqrafiya qələmə almışdır. Müəllifin «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı,1999), «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006, həmmüəlliflə), «Özbək

ədəbiyyatı» (Bakı, 2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı,2010, həmmüəlliflə), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı,2010), «Türk xalqları ədəbiyyatı» (Bakı,2009;2011), Şərq xalqları ədəbiyyatı», 2 cilddə, (Bakı,2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) adlı kitabları işıq üzü görmüşdür. 1999-cu ildə «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı almış, 2007-ci ildə C.Rumi – 800 (YUNESKO) müsabiqəsinin laureatı, iki dəfə «İlin alimi» (2007, 2010) və «İlin müəllimi» (2011) müsabiqələrinin qalibi olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 18 aprel tarixli sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir. Bir çox beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmiş, elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap edilmişdir. Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə «ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına (2011) və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə (2012) layiq görülmüşdür.

Elman Quliyev Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda, hazırda isə Şərqşünaslıq institutunda dissertasiya şurasının üzvüdür.

Göründüyü kimi E.Quliyev təkcə dostlarına deyil, elmin özünə də sədaqətli insandır.



***Nizami Tağısoy***
*Bakı Slavyan Universiteti Azərbaycan ədəbiyyatı kafedrasının professoru, filologiya elmləri doktoru, ədəbiyyatşünas-tənqidçi, Azərbaycan Yazıçılar Birliyinin üzvü*

# TÜRKOLOJİ ƏDƏBİYYATŞÜNASLIĞIMIZIN YORULMAZ TƏDQİQATÇISI

Professor Elman Hilal oğlu Quliyev adı və imzası türkoloji ədəbiyyatşünaslıqda bu gün kifayət qədər tez-tez səslənən adlardan, nəzərəçarpan imzalardandır. Onun məsuliyyətli ziyalı ömrünə və taleyinə aparan yol XX əsrin 50-ci illərindən başlamaqla, addım-addım, mərhələ-mərhələ, pillə-pillə, pərdə-pərdə, ilbəil formalaşıb. Ali təhsil alıb, elmə, tədqiqatçılığa maraq onu Pedaqoji Universitetlə yaxından ülfət bağlamağa sövq edib. Aspirantura təhsili görüb, doktorant olub, müvəffəqiyyətlə əvvəl namizədlik, sonra doktorluq dissertasiyalarını müdafiə edib. Hər an, hər saat həsrətlə boylanıb Arazın o tayından olan ünlü soydaşlarımızın, türkçülük və azərbaycançılıq məfkurəsini həyatının qırılmaz hissəsi hesab edən Şəhriyar yaradıcılığını milli kontekstlər zəminində uğurla araşdırıb, ədəbiyyatşünaslığımıza dəyərli töhfəsini verib. Lakin bu da onu qənaətləndirməyib. Arayıb, axtarıb, ömrünün ən dəyərli anlarını, günlərini, aylarını, illərini kitabxanalarda, qiraətxanalarda, arxivlərdə olub, kitablardan, materiallardan, bədii sözün şövqündən və sehrindən bir an belə perik düşməyib. M.H.Şəhriyarla yanaşı, Söhrab Tahir yaradıcılığını da böyük maraq və məsuliyyətlə «vərəqləyib». «Söhrab Tahir. Lirika» kitabı beləcə dünyaya gəlib, Söhrabsevərlərin kitab rəfində, masasında sətir-sətir, vərəq-vərəq oxunub. Mirzə İbrahimovun ədəbi-estetik görüşləri ilə yanaşı, əsərlərinin sənətkarlıq məsələlərini araşdırma obyektinə çevirib, estetik-fəlsəfi yönlü konsepsiyaları ümumiləşdirib, məntiqi nəticələrə imza atıb.

Elman Quliyev bax beləcə ədəbiyyatşünaslığımıza, onun inkişaf

meyllərinə və konsepsiyalarına öz mövqeyi ilə qədəm basıb, özünə diqqəti cəlb edib. Arazın o tayındakı ədəbiyyatımıza sevgi prof. Elman Quliyevi ədəbiyyata daha geniş üfüqlərdən baxmağa istiqamətləndirib. Türk xalqları ədəbiyyatına dərindən nəzər salıb. Bir-birinin ardınca «Müasir özbək ədəbiyyatı tarixi», «Türkiyə türk ədəbiyyatı», «Özbək ədəbiyyatı», «Türk xalaqları ədəbiyyatının yaradıcılıq problemləri», «Orta əsrlər türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» və s. kimi dərs vəsaiti, dərslik, monoqrafiyalar və ali məktəblər üçün proqramlar Elman Quliyevin son 15 illik zəhmətinin və qələminin məhsulu kimi tələbə, müəllim və mütəxəssislərə təqdim olunub. Son illər ərzində ali məktəblərin filologiya-jurnalistika fakültə və ixtisaslarında (Azərbaycan bölməsi) təhsil alan tələbələr bir qayda olaraq türk xalqları ədəbiyyatının aparıcı simalarının yaradıcılıq yolunu Elman Quliyevin «Türk xalqları ədəbiyyatı» dərsliyindən öyrənirlər.

Prof. Elman Quliyev daim axtarışda olan alimlərdəndir. Onun axtarışları əsasən üç istiqamətdə – metodoloji – metodik, tarixi-nəzəri və pedoqoji-praktik təmayüldə təlimin interaktiv konsepsiyaları əsasında qurulmaqdadır.Yəqin elə bunun nəticəsidir ki, Elman Quliyev haqlı olaraq bir sıra mükafatlara layiq görülmüş, onun müxtəlif beynəlxalq səviyyəli simpozium və konfranslardakı çıxışları diqqətlə dinlənilmiş, məqalələrinin bir sırası konseptuallığı ilə seçilmiş və problemə fərqli rakursdan yanaşması ilə diqqət mərkəzinə düşmüşdür. Prof. Elman Quliyev hazırda daha yüksək professionallıqla, bir tərəfdən, Azərbaycan Dövlət Pedaqoji Universitetindəki Azərbaycan ədəbiyyatı tarixi kafedrasında mühazirələr oxuyur, digər tərəfdən, bu elm ocağında «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə rəhbərlik etməklə, təhlillərini uğurla davam etdirməkdədir.

Prof. Elman Quliyev ölkəmizin nüfuzlu elm və təhsil ocaqlarında Dissertasiya Şuralarının üzvü olmaqla, gənc alimlərin elmə gəlməsində onlara müxtəlif məsləhətlər verib, nəzəri-metodoloji yardımını əsirgəməməkdədir. O, belə xeyirxah əməlindən yəqin heç zaman əl çəkməyəcəkdir. Şübhə etmirik ki, alimin türkoloji ədəbiyyatşünaslığa hələ neçə-neçə əsərləri ərməğan ediləcəkdir. Bu yolda istəkli həmkarımıza həyat və elmi-tədqiqat uğurları diləyirik.



*Hüseyn Həşimli*
*filologiya üzrə elmlər doktoru,*
*əməkdar elm xadimi*
*(Naxçıvan Dövlət Universiteti)*

## ÇEŞMƏ KİMİ, YAXUD «TÜRK ODASI»NDAN TÜRK DÜNYASINA

İstedadlı və məhsuldar ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor Elman Quliyevin özündən əvvəl imzasını tanımışam. Ciddiyyəti, sanbalı, elmi siqləti ilə seçilən kitablarını və məqalələrini oxuduqca, onların araya-ərsəyə gəlməsi üçün çəkilən zəhməti, aparılan əhatəli araşdırmanı təsəvvür etdikcə müəllifə rəğbətim artıb. Şəxsi tanışlıqdan sonra isə bu müsbət təəssürat daha da dərinləşib və genişlənib. Bəli, professor Elman Quliyev çağdaş Azərbaycan ədəbiyyatşünaslığında özünəməxsus mövqeyi, mühüm xidmətləri olan görkəmli alimdir. Onun pedaqoji fəaliyyətinə bələd olanlar alimliyi ilə müəllimliyinin bir-birini uğurla tamamladığını da asanlıqla qeydə ala bilərlər. Nəhayət, bunların hamısının fövqündə Elman müəllimin xeyirxah, şəffaf şəxsiyyəti, bütöv əqidəsi, fəal vətəndaş mövqeyi dayanır. Ali məktəbdə tədris etdiyi, eləcə də araşdırdığı böyük ədəbi şəxsiyyətlərin əsərlərində ifadə olunan ülvi duyğular, nəcib hisslər alimin öz simasında da bütün aydınlığı ilə təzahür etməkdədir. Bu mənada üçlüyün vəhdətindən danışmağa tam əsasımız var. Belə ki, professor Elman Quliyevin elmi araşdırmaları, pedaqoji fəa-liyyəti və mükəmməl şəxsiyyəti bir-biri ilə möhkəm bağlıdır və bu üç faktorun vəhdəti onun ziyalı portretinin ən əsas parametrlərini özündə cəmləşdirməkdədir.

Hörmətli Elman müəllimin əlli beş illik yubileyi ilə əlaqədar bu məqalə ətrafında düşünməyə başladığım ilk anda ustad Hüseyn Arifin aşağıdakı misralarını xatırladım:

*Alim tanıyıram, qoca Qafqazın*
*Çeşmə tək durulub dibindən çıxır...*

(Növbəti misraları yazmamaq da olar, – elm oğrularından bəhs edir, – təəssüf ki, beləlәri də var: «Alim var, bir əli Salman Mümtazın, bir əli Hümmətin cibindən çıxır».)

Əlbəttə, ki, professor Elman Quliyevin tədqiqatçı özəlliyi ilk iki misrada ifadə olunan ülviyyəti, çeşmə kimi duru, qaynar və şəffaf alim əməyini özündə tam mənasıyla ehtiva edir. Onun şəxsiyyəti də, elmi-pedaqoji fəaliyyəti də məhz dağdan, qayadan süzülən bulaq kimi təmiz və qaynardır ; elmin ən dərin qatlarına üz tutan səbrli, səriştəli və zəhmətkeş alim-pedaqoqu qısaca xarakterizə etməyə də elə iki söz yetərlidir : ÇEŞMƏ KİMİ .

Elman müəllimin elmi fəaliyyətinin xronologiyasına, problematikasına və əhatə dairəsinə nəzər saldıqda mükəmməl sistematika, təkamül və qanunauyğunluq müşahidə edirik. Hələ 1988-ci ildə görkəmli ədib Mirzə İbrahimov haqqında namizədlik dissertasiyasını müdafiə etdikdən sonra gənc tədqiqatçı Arazın güneyində yaranan Azərbaycan poeziyasının böyük ustadı Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığının milli problemlər kontekstində öyrənilməsi ilə ardıcıl məşğul olmuş, bu sahədə fundamental tədqiqat aparmışdır. Çoxillik araşdırma 2004-cü ildə bu mövzuda doktorluq dissertasiyasının uğurla müdafiəsi ilə nəticələnmişdir. İstedadlı alimin həm dissertasiyası, həm də mövzu ilə bağlı çap etdirdiyi çoxsaylı məqalələr və monoqrafiyalar, respublika və beynəlxalq miqyaslı elmi konfranslarda etdiyi məruzələr onu şəhriyarşünaslıqda öz dəst-xətti və məxsusi xidmətləri olan yetkin tədqiqatçı kimi tanıtdırmış və şöhrətləndirmişdir.Xüsusən Elman müəllimin «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Şəhriyar poeziyası və milli təkamül» monoqrafiyalarının elmi tutumunu, əhəmiyyətini və konseptuallığını ayrıca vurğulamaq istərdim. Elman Quliyevin müəllimi (elə mənim də həmişə özümə müəllim saydığım) ustad ədəbiyyatşünas, hörmətli professor Himalay Ənvəroğlunun (Qasımovun) bu tədqiqatlar barədə dəqiq qənaətlərini xatırlatmaq yerinə düşər: «Elman Quliyev ... tərəfindən tədqiqata ilk dəfə cəlb olunmuş fakt və materialların bolluğu, böyük şairin poeziyasında özünəməxsus təkrarsızlıqla əksini tapmış avtobioqrafik məqamların aydınlaşdırılması bütövlükdə onun sənət dünyasının sirlərini açıqlamağa, dərindən duyub anlamağa yardımçı olmuşdur... Şairin poetik obraz yaratmaq ustalığının, milli ruhunun və sənətinin təkamülünün tarixi-mərhələvi düşüncə müstəvisində araşdırılması metodoloji baxımdan yeni, özünəməxsus olub, problemi geniş dairədə predmetləşdirməyə meydan açır».

İldən-ilə, əsərdən-əsərə Elman müəllimin araşdırmaları daha da cilalanıb təkmilləşdiyi kimi, onun tədqiqatçı diapazonunun getdikcə genişlənməsini də müşahidə edirik. Bu gün Elman Quliyev adı çəkiləndə təkcə o taylı-bu taylı Azərbaycan ədəbiyyatının bir sıra görkəmli simalarının yaradıcılığının sistemli şəkildə araşdırılması deyil, həm də Şərq, o cümlədən türk xalqlarının söz sənətinin tarixi inkişaf yoluna, yaradıcılıq problemlərinə güzgü tutan çoxsaylı kitablar göz önünə gəlir. Onun yetkin alim-pedaqoq səriştəsi və erudisiyası ilə yazıb müxtəlif vaxtlarda çap etdirdiyi «Müasir özbək ədəbiyyatı tarixi», «Özbək ədəbiyyatı», «Orta əsrlər türk xalqları ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», «Türkiyə türk ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı» və digər dəyərli kitablar müstəqil Azərbaycanda yeni tipli dərsliklərin yaradılması işinə layiqli töhfədir. Buraya Elman müəllimin hazırladığı müvafiq tədris proqramlarını da əlavə etmək yerinə düşər.

Tanınmış alimin tədqiqatları Türkiyə, İran, Türkmənistan, İraq və digər ölkələrdə də yayınlanmış, maraqla qarşılanmış, həm respublikamızda, həm də xaricdə yüksək qiymətləndirilmişdir. Onun layiq görüldüyü çoxsaylı təltiflər, eləcə də əsərləri haqqında nüfuzlu alimlərin mötəbər rəyləri dediklərimizə sübutdur.

Bu gün Azərbaycan Dövlət Pedaqoji Universitetində səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olan professor Elman Quliyev həm də bu ali təhsil ocağında «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəridir. Təqdirəlayiq haldır ki, bu «Türk odası»ndan başlanan yol təkcə bir ədəbiyyatşünasın yaradıcılıq bioqrafiyasının əlamətdar, qürurverici səhifələrindən ibarət olmaqla qalmır, eyni zamanda bütün türk dünyasına, Şərq aləminə yön alır, elmi-ədəbi fikrimizin inkişafına, inteqrasiyasına layiqincə xidmət göstərir.

Elman müəllimi yaxından tanıyan, əsərlərinə yaxından bələd olan bir şəxs kimi deyə bilərəm ki, onun daha böyük işləri qarşıdadır. İndiyə qədər araya-ərsəyə gəlmiş çoxsaylı kitablar və məqalələr, eləcə də mənalı yaşanmış ömür tanınmış alimin əlli beş yaşda alnıaçıq, üzüağ hesabat vermək səlahiyyətinin təsdiqi və qarantıdır. Qarşıdakı ikinci əlli beş ildə də əziz Elman müəllimin bu şərəfli missiyanı daha böyük uğurlarla davam etdirməsi diləyi və ürəkdən gələn səmimi yubiley təbrikləri ilə qısa qeydlərimi yekunlaşdırıram.



***ƏdalətFərəcov***
*ADPU-nun Fiziologiya kafedrasının müdiri, biologiya elmləri doktoru, professor*

## ELM TƏŞKİLATÇISI, GÖRKƏMLİ ALİM

Görkəmli, dahi şəxsiyyətlərin məşhurluq haqqında belə bir fikri var: «İstedad bir faizdir, doxsan doqquz faizi zəhmətin payına düşür». Bu ifadə təvazökarlıq nümunəsidir. Əslində fitri istedad sahibi əgər biliyindən, imkanlarından səmərəli istifadə etməyi bacarırsa o, elmdə böyük müvəffəqiyyət qazana bilir. Bu fikirləri böyük inamla Elman müəllimin ünvanına aid edirəm. Elman müəllim cavan yaşlarında filologiya elmləri üzrə doktorluq dissertasiyası müdafiə edib, qısa müddətə professor adına layiq bilinmişdir. Professor Elman Quliyevin çap etdirdiyi əsərlərdən aydın olur ki, o, qədim şərq xalqlarının, türk xalqlarının ən yaxşı bilicisi və tədqiqatçısı kimi özünü təsdiq etmişdir. O, tədqiq etdiyi mənbələri uğurla oxuculara çatdırmağı bacaran alimlərimizdəndir. Yalnız ədəbiyyatı deyil, bir çox elm sahələrinə dərindən bələd olmağın nəticəsidir ki, Elman müəllim bu gün respublikamızda çoxsaylı əsərlərin tədqiqatçısı və müəllifi kimi tələbə auditoriyasından başlamış, Respublikanın Yazıçılar Birliyinə qədər geniş oxucu kütləsinin, ziyalı təbəqənin diqqətini cəlb edə bilmişdir. Onun dünyanın müxtəlif ölkələrində keçirilən elmi məclislərdəki uğurlu çıxışları, aldığı beynəlxalq mükafatlar Elman müəllimin hələ bundan sonra qazanacağı müvəffəqiyyətlərin başlanğıcı hesab etmək olar. Elman müəllim danışarkən özünü o qədər təvazökar aparır. Lakin fikrinin dərinliyi, danışdıqlarının elmi mənbələrə söykənməsi onun özü haqqında mahiyyət dərinliyi, təfəkkürünün və təxəyyülünün zənginliyi barədə müsahibində bir daha etibarlı inam yaradır.

Elman müəllimin çox yaxşı yoldaşlığı var. 2010-cu ilin may ayında

Türkiyənin Hacettepə Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinin birlikdə keçirdikləri «Elmi pedaqoji kadrların hazırlanması» adlı Beynəlxalq konfransda iştirak etmişik. Təbii ki, Elman müəllim «Filologiya» mən isə «Biologiya» sahəsində mütəxəssislərik.

Elman müəllim əsl ziyalıya xas olan nümunəvi davranış, səviyyə sahibidir. Alimə, ziyalıya verilən ən ümdə tələblərdən biri onu tələbə auditoriyasının, üzvü olduğu kollektivin, işlədiyi müəssisədə rəhbərliyin rəğbətini qazana bilməsidir. Bir sıra xarici ölkələrin mükafatını alması, xarici ölkə səfirliklərinin təşəkkürünə layiq bilinməsi Elman müəllimin elmə xidmətlərinin bəhrəsidir.

Professor E.Quliyev ADPU-da keçirilən «İlin alimi», «İlin müəllimi» müsabiqələrinin dəfələrlə qalibi olmuşdur. Onun xidmətləri Pedaqoji Universitetin rəhbərliyi və ölkə Prezidenti tərəfindən yüksək qiymətləndirilmiş və o, 2012-ci ildə ölkə Prezidentinin Sərancamına əsasən «Tərəqqi» medalı ilə təltif olunmuşdur.Elman müəllimin yaradıcılıq imkanları genişdir, ümid edirəm ki, onun bundan sonra da yazacaq əsərləri elmi ictimaiyyətin geniş rəğbətini qazana biləcəkdir.



*Ağahüseyn Həsənov*
*ADPU-nun professoru, pedaqogika üzrə elmlər doktoru, respublikanın əməkdar müəllimi, Beynəlxalq Eko Energetikası Akademiyasının akademiki, Pedaqogika və Sosial Elmlər Akademiyasının həqiqi üzvü, AYB-nin üzvü, Qızıl Qələm mükafatının laureatı*

# PROFESSOR ELMAN QULİYEV – GÖRKƏMLİ ƏDƏBİYYATŞÜNAS ALİM

Ədəbiyyat tarix boyu zəngin pedaqoji qaynaq hesab olunmuşdur. Ona görə ki, yetişməkdə olan gənc nəslin milli-mənəvi tərbiyəsində ən qüdrətli vasitə hesab olunmuşdur. Çünki ədəbiyyat özündə pedaqoji prosesin əsas vəzifəsi olan təhsilləndirmə və tərbiyəetmənin məzmununu cəmləşdirir. Bu ədəbi-bədii məzmundan gənc nəslin təhsilləndirmə və tərbiyəetmə işində geniş şəkildə istifadə olunur. Ədəbi irs nümunələrində ifadəsini tapmış tərbiyəvi dəyərlər insanı mənəvi keyfiyyətlər ruhunda yetişdirməkdə, onun əqlini biliklərlə zənginləşdirməkdə, əxlaqını saflaşdırmaqda, namuslu əməyə psixoloji və əməli cəhətdən hazırlamaqda misilsiz dərəcədə əhəmiyyət kəsb etdiyi üçün onu pedaqogikadan ayırmaq çətindir. Çünki onların hər ikisində əsas ideya təhsilləndirmə və tərbiyəetmə məqsədi durur. Yetişməkdə olan gənc nəsli ahəngdar inkişaf etdirib şəxsiyyət kimi həyata hazırlamaqda həm pedaqogika və həm də ədəbiyyat ümdə vəzifə daşıyır. Ədəbiyyatla-pedaqogika arasında fərq ondan ibarətdir ki, bu vəzifənin yerinə yetirilməsində ədəbiyyat özünün bədii janr və formalarından istifadə edir, pedaqogika isə bu qüdrətli vasitələrdən istifadənin səmərəli nəticə verməsinin elmi qanunlarını şərh edir.

Əgər ədəbi irs pedaqoji qaynaqdırsa, təbii olaraq bu ədəbi irsin yaradıcıları da pedaqoqdurlar. Belə, zəngin pedaqoji mənbələrdən biri də XXI əsr Azərbaycan ədəbi-pedaqoji xəzinəsinə daxil olan professor Elman Hilal oğlu Quliyevin yaradıcılığıdır.

Əzəmətli talış dağlarının qoynunda yerləşən Lerik bölgəsinin Kələxan kəndində yaşayan Hilal kişinin ocağında 1958-ci ildə bir oğlan dünyaya gəldi. Ağsaqqallar uşağa Elman adını verdilər ki, böyüyüb elinə bağlı bir igid olsun. Heç də təsadüfi deyil ki, hər bir uşaq dünyaya gələndə özü ilə gətirdiyi sevinc hissi ilə yanaşı, valideynlərinə bir ümid hissi də bəxş edir. Böyüyüb adına layiq olmaq, elinin, xalqının başını ucaltmaq missiya-

sının öhdəsindən Elman layiqincə gələ bilmişdir. O, 2004-cü ildə «Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər konteksində)» mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru və professor rütbələrinə qalxmışdır. Elm aləmində belə yüksək səviyyəyə qalxmaq güclü təfəkkür, böyük bilik və əzmkar zəhmət tələb edir.

Özünün 55 yaşında olan bu gənc professorun elmi fəaliyyətinə nəzər salanda göz önündə böyük yaradıcılıq mənzərəsi canlanır. Əlbəttə, prof. Elman Quliyevin uğurlu yaradıcılıq illəri hələ qabaqdadır. Elm xəzinəsinə böyük töhvə bəxş edən prof. E.Quliyevin bu yaradıcılığından nümunə üçün bir neçə elmi əsərlərinin adını qeyd etmək istəyirəm. 1997-ci ildə nəşr olunan «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» əsəri məzmun və mahiyyət etibarı ilə ədəbiyyatşünaslıq baxımından yüksək əhəmiyyətə malikdir. Əsərdə adından məlum olduğu ki, Azərbaycanın görkəmli yazıçısı, ədib və mütəfəkkiri Mirzə İbrahimovun ədəbi-estetik görüşləri və bədii-pedaqoji sənətkarlıq məharətinin gücü incə duyğularla oxucuya çatdırılır.

Ümumiyyətlə, müəllifin qələmindən çıxan hər bir əsəri məzmun və elmi mahiyyətinə görə yüksək əhəmiyyətə malikdir. O, «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» (Bakı, 2001), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Şərq xalqları ədəbiyyatı», 2 cilddə (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) və s. biri-birindən maraqlı monoqrafiyaların müəllifidir. Professor Elman Quliyev bir sıra mükafatların laureatıdır. Bu mükafatlar arasında beynəlxalq əhəmiyyətə malik olan 2007-ci ildə C.Ruminin – 800 (YUNESKO) müsabiqəsinin laureatı olmasını və türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalını xüsusi olaraq qeyd etməyi vacib hesab edirəm.

Prof. Elman Hilal oğlu Quliyev geniş diapozonlu, beynəlxalq miqyaslı alimdir. Onun kitabları Türkiyədə, İranda, İraqda, Türkmənistanda, Şimali Kiprdə və s. ölkələrdə nəşr olunmuşdur. ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri olan Elman Hilal oğlu Quliyevin faydalı elmi-tədqiqat və pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 18 aprel sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif etmişdir.

Elman çox sadə, səmimi, təvazökar bir insandır. Mən onu hər dəfə görəndə qürur hissi keçirirəm. Çünki o vətəninə, xalqına layiq olan bir oğuldur.



***Şahin Fazil***
*Tarix elmləri doktoru, professor,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*«Məcməüş-şüəra» ədəbi məclisinin sədri*

# MARAQLI İNSAN

Elman Quliyev. Filoloq. Şəhriyarşünas. Elmlər doktoru. Professor. Maraqlı insan.

Onunla 1998-ci ili aprel ayının ayının 13-də Tehranda tanış oldum. Bizi gözəl bir səfər tanış etdi Elmanla. Ayın 13-ü olmasına baxmayaraq uğurlu bir səfər və uğurlu səfərin uğurlu nəticəsi. Qarşılıqlı ehtiram və səmimi münasibətlər. Maraqlarımız toqquşur bu insanla. Hər ikimiz elm və poeziya vurğunuyuq. Hər ikimiz Şəhriyarpərəstik.

Bəli, mənim İrana yeddinci səfərim və o vaxtadək vətənimdə hələ yaxşı tanımadığım Elman. Olduqca sadə, az söz ilə çox məna ifadə edən incə təbiətli, mədəni, ziyalı bir insan.

Mən çoxsaylı səfərnamələr müəllimfiyəm. Hər ölkədən aldığım təəssürat yeni bir səfərnamələr ilə nəticələnir. Azərbaycanda, təvazökarlıqdan uzaq olsa da, səfərnamə yazan müəlliflər yox dərəcəsindədir. Başqa-başqa ölkələrə gedirlər, qayıdırlar, bir də gedirlər, yenə gedirlər, amma səfərnamə yazmırlar. Mən heç də onları qınamıram. O qədər qayğı var ki, hərə öz əsas işi ilə məşğuldur.

Gözəl janrdır səfərnamə. Əgər mən Yeddinci səfər səfərnaməmi vaxtı ilə yazmasaydım, bu gün bəlkə də, Elman haqqında nə isə qələmə alardım, amma yeknəsəq bir məqalə alınardı. Zənn edirəm ki, oxucuları yormayacağam.

Bir həftə bundan əvvəl Elman Quliyevlə Azərbaycan Milli Akademiyasının həyətində qarşılaşdıq. Dedi ki, onun haqqında məqalələrdən ibarət bir kitab hazırlanır. «Sən də yaz» demədi, «mən də yazaram» demədim. Sadəcə olaraq Elman haqqında yazmağı özümə borc bildim. Çünki maraqlı insandır Elman.

Son görüşümüz məni yazmağa vadar etdi. Düşündüm ki, nə yazım, necə yazım, nədən yazım? 2003-cü ildə çapdan çıxmış «İran səfərnamələri» kitabımı varaqlamaqda yazdıqlarıma bir də nəzər salmaqdaydım. «Şahin uçmuş yenə şahin kimi İran tərəfə» adlandırdığım yeddinci səfərnamədə aşağıdakı ilk cümlələri oxumağa başladım: «Qeyd etməliyəm ki, nümayəndə heyətinin tərkibi respublikamızın nüfuzlu alim, müəllim, şair və tədqiqatçılarından ibarət idi. Azərbaycanın mədəniyyət naziri Polad Bülbüloğlunun rəhbərliyi ilə qonşu və dost diyara yollanan heyətin tərkibində akademiklər Fərəməz Maqsudov, Bəkir Nəbiyev, elmlər doktorları Yaşar Qarayev, Təhminə Rüstəmova, Nizami Cəfərov, Gövhər Baxşəliyeva, Tahir Məhərrəmov, Şövkət Tağıyeva, Müseyib Məmmədov, Kamil Allahyarov, elmlər namizədləri Tofiq Cahangirov, Sabir Əmirov, Mənzərə Məmmədova, Mehri Məmmədova, Rasim Nəbioğlu, Ruqiyyə Qəmbərqızı, Nüşabə Əlizadə, Lalə Əlizadə, Sənan İbrahimov, Elman Quliyev, şairlər Şahmar Əkbərzadə, Nazim Rizvan, müəllimlər Əbdül Qənbəroğlu, Mahmud Fətiyev, Tamrida Fərzəliyeva, «Say» qəzetinin redoktoru Hacı Rafiq, jurnalistlər Telli Pənahqızı, Afaq Əbdülqızı və başqaları vardı, bizdən bir gün əvvəl Azərbaycandan gələnlərin içərisində Naxçıvan Muxtar Respublikasındakı ziyalı dostlarımız prof. İsa Həbibbəyli, Naxçıvan Mədəniyyət naziri Nizami Həmzəyevi və həkim-şair Nadir Əlincəni gördükdə çox sevindim.»

Deməк, Şəhriyar Beynəlxalq Yubiley Konfransı. Bir neçə gün sonra Konfransın Davamı Təbrizdə olacaqdı. İndi isə Tehrandayıq, Elman kimi maraqlı insanlar arasındayıq.

Biz üç gün Tehranda qaldıq, müxtəlif iclaslarda iştirak etdik, İran İslam Respublikasının prezidenti Seyid Məhəmməd Xatəmi bizi qəbul etdi. Polad Bülbüloğlunun, Bəkir Nəbiyevin, Türkiyə Yazarlar Birliyinin sədri Məhəmməd Təğanın, Azərbaycan Mətbuat və İnformasiya nazirinin müavini Rəfael Məmmədovun, İranın sabiq Xarici İşlər Naziri Əli Əkbər Vilayətinin və başqa söz sahiblərinin sözlərini dinlədik və Təbriz şəhərinə uçduq.

Təbrizdə bir gün istirahət və gəzinti. Elmanla söhbətimiz baş tutur. Bizə ayrılmış maşına əyləşib Təbrizlə tanış oluruq. Bu qədim şəhərin doqquz qapısı. Təbriz qalasında orta əsrlərdə mövcud olmuş doqquz böyük qapı. Bu giriş qapılarının bəzilərinin tağları hələ də qalmaqdadır: Sürxab, Şütürban, İstanbul, Vücuyə, Gəcil, Məhadmihən, Növbər, Xiyaban, Bağmişə qapılarının inşa olunduğu tarixi yerlər. Acıçay və Meydan çayları şəhərin içindən keçir. «Çayların hər ikisinin suyu azdır» dedi Elman. Görünür suyun səviyyəsi bir neçə gündən sonra çoxalacaqdı.

Ertəsi gün «Məqbərətüş-şüəra» («Şairlər məqbərəsi») adlanan böyük bir məqbərəyə gəldik. Klassik şairlər Əsədi Tusi, Qətran Təbrizi, Micirəddin Beyləqani, Zəhirəddin Faryabi, Əfzələddin Xaqani, Şahpur Nişaburi, Şəmsəddin Səccasi, Zülfiqar Şirvani, Hümam Təbrizi, o cümlədən Məhəmmədhüseyn Şəhriyarın uyuduqlarının göstəricisi olan böyük bir lövhədəki siyahı. Elman bərk maraqlandı və siyahının üzünü köçürməyimi xahiş etdi. Yazdım. Həmin lövhədə 407 şair və ədibin, həmçinin 70 nəfər arif şəxsiyyətin adları həkk olunmuşdu.

Elmanın gözlərinin yaşardığını gördüm. Böyük şairlərin xatirəsi onun qəlbini riqqətə gətirmişdi. Ürəyi nazikdir Elmanın...

Təbrizdə bir neçə maraqlı görüş keçirildi, şairlərlə müşairə oldu, ustad Şəhriyarın ev-muzeyinə getdik, məşhur «Azərbaycan» muzeyində çoxsaylı eksponatlara (hətta 7 min il bundan əvvəl zərb edilən sikkələrə) baxdıq, «Şəhid Mədəni» klubuna dəvət olunduq, orada istedadlı rejissor Hüseyn Baqqal Lalənin hazırladığı «Heydərbabaya salam» musiqili pyesinə böyük maraqla tamaşa etdik, Şəhriyarın qızı Şəhrzad, gəlini Sima Rəcəbzadə, nəvəsi Nəkisa ilə tanış olduq. Səfərnamədən sətirlər: «Ertəsi gün Təbriz görüşlərimizi bitirib yenidən Tehrana uçduq. İki gündən sonra isə artıq Bakıdaydıq. Özüm Bakıya gəlmişdimsə də, xəyalım Tehranda, Təbrizdə, ustad Şəhriyarın gəzib-dolaşdığı yerlərdə uçmaqda idi».

Bu mənim Elmanla İranda keçirdiyim bir həftəlik səfərin təəssürat bəyanı idi. Elman həqiqətən maraqlı adamdır. Türk (Azərbaycan) dilinin incəliyindən o qədər danışır ki,... Yadıma Təbrizdəki bir institutun konfrans zalında keçirilən böyük mərasim düşdü. Orada çıxış edən ayətullah Şəbüstəri Şəhriyarı o qədər təriflədi ki. Səfərnamədən sətirlər: «Bir gün Şəhriyara deyirlər ki, «Heydərbabaya salam»ın fars dilinə bir neçə tərcüməsi var, amma onların heç biri oxucunu qane etmir. Əsəri sən özün fars dilinə çevirsən yaxşı olmazmı?». O, cavab verir: «Doğrudur. «Heydərbabaya salam» fars dilinə tərcümə olunub. Elə mən özüm də onu farscaya çevirə bilərəm. Amma onun fars dilinə tərcüməsi türk dilinin lətafətini verə bilməz». Bizim Elman da türk dilinin, dilimizin incəliyinin vurğunudur. Elmanın iti qələmi o qədər kitab, məqalə yazıb ki...

İllər ötdü. Arabir müxtəlif elmi yığıncaqlarda Elmanla görüşürdük. Üzərində bir neçə il işlədiyi böyük bir tədqiqat işi yüksək qiymətləndirildi, «Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda yazdığı dissertasiya dərhal qiymətləndirildi və Elman filologiya elmləri doktoru oldu, sonra isə professor adına layiq görüldü.

Prof.Elman Quliyev müxtəlif ölkələrdə Azərbaycanı təmsil etmiş

(Türkiyə, Kipr, Türkmənistan, İraq), elmi məruzələr oxumuşdur. 15-dən çox dərslik, dərs vəsaiti, monoqrafik əsərlər, o cümlədən 600 səhifəlik «Türk xalqları ədəbiyyatı» kitabı ona məxsusdur. Qeyd edim ki, bu qiymətli kitabın iki nəşri vardır: 2003 və 2011 il nəşrləri. «Ön söz» hissəsini səfir Hulusi Kılıç yazmış, Elman Quliyevi dünyadakı bütün türkdilli xalqlara təqdim etmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetində vacib bir iş də gördü Elman: Onun təşəbbüsü ilə 2007-ci ildə «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzi yarandı və bu mərkəz hal-hazırda konkret işlər görməkdə, elmi-mədəni görüşlər keçirməkdədir.

Mən bu qısa məqaləmin sonunda alim dostum Elman Quliyevə həsr etdiyim bir qəzəlimi ona təqdim edirəm:

*Allah yaradıb aləmi insana münasib*
*İnsan isə əmr etmədə imkanə münasib.*

*Var elmimiz içrə nə qədər elmi yazarlar!...*
*Elm inkişaf etmiş yeni dövranə münasib.*

*Əhsən deyirəm Rəbbə ki, Elmanlarımız tək*
*Alim yetirib Azəribaycanə münasib.*

*Biganə deyil – yaxşıya biganə deyildir,*
*Biganə olan bəndəyə biganə münasib.*

*Var bağda səfa var isə bağbanda səliqə,*
*Bağ-bağça olur, bəlli ki, bağbanə münasib.*

*İlhamə gəlib Şəhriyarı eylədi tədqiq,*
*Bildi o böyük şairi ümmanə münasib.*

*Elmində təsəvvüf də görünməkdə bu şəxsin,*
*Bəzən də seçir sözləri irfanə münasib.*

*Pərvanə deyil ki, yana atəşlər içində,*
*Şam atəşinə yanmağa pərvanə münasib.*

*Şahin, məni bir dost kimi xoşbəxt sanaram mən*
*Yazdımsa əgər şerimi Elmanə münasib.*



*Əsgər Qədimov*
*Naxçıvan Dövlət Universitetinin «Azərbaycan ədəbiyyatı» kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor*

# KEÇMİŞ İLLƏRİN XATİRƏSİ VƏ ZİYALI DOSTUM ELMAN QULİYEV

İnsan yaşlaşır, xatirələr isə həmişə cavan qalır. Mən 1970-ci ildə APİ-nin (İndiki ADPU) tarix-filologiya fakültəsinin «Azərbaycan dili və ədəbiyyatı» ixtisasını bitirmişəm. O zamankı təhsil mühiti, bizə dərs deyən müəllimlərin xarakteri, elmi-pedaqoji fəaliyyətləri, milli-mənəvi mövqeləri bu gün də şirinli-acılı xatirələr kimi fikrimdə yaşayır. Bizə dərs deyən müəllimlərin bir çoxu ictimai ideal sahibləri, bəziləri isə şəxsi ambisiyalarla yaşayan, yeri gəldikdə intriqalara qoşulan, şəxsi intriqalarını ictimai məsləkindən üstün tutan «ziyalılar» idi. Amma təhsil aldığım elmi-pedaqoji mühit, mən də daxil olmaqla, tələbə dostlarımın bir çoxunu həyata hazırladı. Mərhum müəllimlərimizdən İsmayıl Şıxlı bizi dünya ədəbiyyatının ecazkar dünyasına aparır, Məmmədsəlim Tahirli yumor dili ilə antik yunan ədəbiyyatının sirləri ilə tanış edirdi.

Mərhum professor Məmməd Məmmədovdan ədalətli, humanist olmağı, elmə qarşı tələbkarlığı öyrəndik. Sonralar Məmməd müəllim aspiranturada mənim elmi rəhbərim oldu. Onun təmənnasız qayğısı ilə müdafiə edib elmi dərəcə aldım.

Xatirimdə nəcib insan kimi qalan ziyalı-müəllimlərimizdən biri də o zaman bizim fakültənin dekanı olan dosent Həmzə Qasımzadə olmuşdur. Bu tələbkar ziyalı bizim üçün humanizm nümunəsi idi. Hər tələbəni öz dili ilə dindirər, hamıya qayğı ilə yanaşardı. İnstitutu bitirəndə bu qənaətə gəldik ki, APİ-də güclü elmi-pedaqoji mühit, milli-mənəvi dəyərlər və humanizm ənənələri vardır. Bununla hər zaman qürur duyur, APİ-də təhsil aldığımız üçün fərəhlənirdik.

Bu ənənələr ADPU-da indi də davam etdirilir. Filologiya elmləri doktoru, professor Himalay Qasımovun rəhbərlik etdiyi «Azərbaycan ədəbiyyatı tarixi» kafedrası keçmiş APİ-nin mütərəqqi ənənələrini yaşadır, tələbələrə, doktorant və dissertantlara, müəllim-ziyalılara əvəzolunmaz qayğı və humanistlik göstərir, yaddaşlardan silinməyən yaxşılıqlar nümayiş etdirirlər. Çox sevinirəm ki, Himalay müəllim özünün yüksək elmi potensialında, humanizmi və qayğıkeşliyində rəhmətlik əmisi Həmzə Qasımzadənin tövsiyə və ənənələrini layiqincə davam etdirir.

Bu günlərdə 55 yaşını iftixarla qeyd etdiyimiz ziyalı dostumuz, filologiya üzrə elmlər doktoru, professor Elman Hilal oğlu Quliyev də Himalay müəllimin rəhbərlik etdiyi kafedrada fəaliyyət göstərir.

Elman müəllimlə mən ilk dəfə onların kafedrasında tanış olmuşam. Sonra 2006-cı ildə «XIX əsr Ordubad ədəbi mühiti» mövzusunda yazdığım doktorluq dissertasiyam həmin kafedraya rəyə göndərilmişdi. Təhsil aldığım illərdə və namizədlik dissertasiyamın müdafiəsi ərəfəsində intriqaya qoşulan, hətta elmi rəhbərinə görə dissertantları müzakirələrdə sıxma-boğmaya salan dırnaqarası ziyalılar xatirimdən çıxmamışdı. Elman müəllimdən soruşdum: «Kafedranızda ümumi atmosfer necədir? Dissertantları, doktorantları incitmirlər ki?»

Elman müəllim güldü və dedi: «Narahat olma, Himalay müəllim obyektiv adamdır, elə şeylərə yol verməz. Dissertasiyanı da oxumuşam, çox yaxşıdır, Mustafa müəllim də çox müsbət rəy verib. Onu da deyim ki, mən əvvəlcə mündəricata baxıb ədəbi şəxsiyyətlərin tərcümeyi-halını görəndə işdən narazı qaldım. Lakin sonra fəsillərlə tanış olduqda XIX əsr Ordubad ədəbi mühitinin xronoloji və problematik təhlilini görəndə işdən çox razı qaldım».

Bu, mənimlə Elman müəllim arasında olan ilk səmimi, elmi söhbətimiz idi. Elman müəllimin də iştirakı ilə doktorluq dissertasiyamın müzakirəsi uğurla keçdi.

Sonralar həmin kafedraya gedib-gəldikcə Elman müəllimlə daha da yaxınlaşdıq, söhbətlərimiz oldu... Hər dəfə görüşəndə nəşr olunan kitablarımızı bir-birimizə hədiyyə edirdik. Bir gün Bakıda kafedrada onunla yenə görüşdük. Məndən soruşdu ki, «Əsgər müəllim, Naxçıvandan Təbriz çox yaxındır. Deyirlər ki, maşın saat yarıma gedir. Sən də gedib-gəlirsən?»

Bildim ki, Təbrizlə bağlı nəsə sözü var. Dedim ki, mən Təbrizə tez-tez gedirəm, oranın arxivlərində elmi-tədqiqat aparıram. Təbrizlə bağlı bir işiniz var?

Gülümsündü və dedi: «Məhəmmədhüseyn Şəhriyar haqqında bir kitab yazmışam, onu ustad Şəhriyarın oğlu Hadiyə çatdırmaq lazımdır ki, şairin ev muzeyinə qoyulsun».

Sevindim və dedim: «Ustad Şəhriyarın oğlu mənim dostumdur, hərdən Naxçıvana bizim evə də gəlir».

Mən Elman müəllimin «Şəhriyar poetikası» kitabını ondan aldım, birini də içərisini yazıb mənə hədiyyə etdi. Bir həftədən sonra Təbrizə getdim, Hadi ilə görüşüb kitabı ona verdim.

Növbəti dəfə Bakıda kafedrada yenə də Elman müəllimlə görüşdük. Bu dəfə məni ADPU-nun nəzdində rəhbərlik etdiyi «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə apardı, oradakı zəngin kitabxana ilə tanış oldum. Türk dünyası ilə bağlı söhbət etdik. Qəlbim fərəhləndi, sevindim ki, Pedaqoji Universitetdə Elman müəllimin rəhbərliyi ilə türkçülük ideyaları həyata keçirilir. Axı mən də öz həyat yolumda türkə bağlı bir ziyalıyam. Odur ki, bu görüşümüzdən sonra milli mövqeyimiz Elman müəllimlə məni daha da yaxınlaşdırdı və biz artıq dostlaşdıq.

Bir az da Elman müəllimin elmi tədqiqatları barədə:

Elman müəllim Türk dünyasına, Şərq xalqları ədəbiyyatına ürəkdən bağlı olan tədqiqatçı-alimdir. O, neçə-neçə proqram və dərsliklərin, monoqrafik tədqiqat əsərlərinin müəllifidir. Onun gərgin elmi zəhmətinin bəhrəsi olan «Seyid Məhəmmədhüseyn Şəhriyar» (1999), «Müasir özbək ədəbiyyatı tarixi» (1999), «Heydərbabaya salam. Necə varsa» (2001), «Şəhriyar poeziyası və milli təkamül» (2004), «Şəhriyar poetikası» ( Şərikli, 2006), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (2010), « Türk xalqları ədəbiyyatı» (2011), «Şərq xalqları ədəbiyyatı» (2011) və başqa kitabları monumental elmi-tədqiqat əsərləridir. Bu əsərlər Elman müəllimin nə qədər böyük elmi-pedaqoji potensiala, milli-mənəvi dəyərlərə, azərbaycançılığa, türkçülüyə bağlı bir ziyalı olduğunu nümayiş etdirir.

Elman müəllim beynəlxalq elmi konfrans və simpoziumlarda da türkçülüyü təbliğ edir. Onun Türkiyə, Türkmənistan, İran, İraq və başqa yerlərdə keçirilən konfranslardakı məruzələri öz elmi dəyəri və milliliyi ilə həmişə seçilir.

Elman müəllim bu təqdirəlayiq fəaliyyətini bu gün də uğurla davam etdirir.

Əziz dostum Elman müəllim! Bir ziyalı kimi səninlə qürur duymağa dəyər. Sən türk dünyası yolunda yorulmadan çalışan ziyalı dostumuzsan. Allah sənə uzun ömür, can sağlığı versin! Biz dostların da sənin müqəddəs milli əməllərinlə fərəhlənək!

*Naxçıvan, 6 aprel 2013-cü il*



*Fərrux Rüstəmov*
*ADPU-nun pedaqoji fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi*

# VƏTƏNİN ORTASINDA – SƏRHƏDDƏ DOĞULAN DOSTUM

Allah-taala insana seçmək və seçilmək kimi ali keyfiyyət bəxş edib. İnsanlar çox şeyi seçsələr də Vətəni və valideynlərini seçmək imkanından məhrumdur. Bu müqəddəs varlıqlar – Vətən və valideynlər Ulu yaradanın insanlara töhfəsidir. Həzrəti Məhəmməd Peyğəmbər deyirdi ki, xoşbəxt o kəsdir ki, anadan xoşbəxt doğulsun. Belə xoşbəxt insanlardan biri də özümə doğma və yaxın hesab etdiyim Elman Quliyevdir. O, Lerik rayonunun Zuvand mahalının Kələxan kəndində dünyaya gəlib. Kəndin əsrarəngiz təbiəti, əzəmətli dağları, şır-şır axan bulaqları, zümrüd meşələri, lacivərd ətəkli səması onun xarakterinə hopub. Ruzisi halallıqla ərsəyə gələn bir ailədə boya-başa çatıb. Qayğısız uşaqlıq illəri arxaca qaldıqca içində bir nisgil böyüyüb. Quzu otara-otara «Arazı ayırdılar, qum ilə doyurdular» xalq mahnısının sözlərini dodaqaltı zümzümə edə-edə tikanlı məftillərdən o yana, Vətəndən Vətənə boylanıb. Üzünü Ərdəbilə, Təbrizə, Xoya, Səlmasa tutaraq dərindən bir ah çəkib, yaxın olduğu qədər də uzaq olan yurddaşlarına əli çatmayıb, səsi-ünü yetməyib. Tikanlı məftillər təkcə torpağın üstündə deyil, həm də onun sinəsində şırım açıb. Düyünlənmiş yumruğu havada qalıb, xəyallara dalıb. Millətinin tarixi, taleyi, başına gətirilənlər onun iç dünyasını göynədib, gecələr yuxusunu ərşə çəkib. Lerik dağlarından bölünmüş Vətən torpağının həm şimalını, həm də cənubunu eyni anda seyr etmək imkanı olan Elman Quliyev daim Təbriz niskili ilə yaşamışdır. S.Rüstəmxanlı demişkən:

*Ümid bürcüm, zəfər tağım – Təbrizim,*
*Güllə dəymiş söz bayrağım – Təbrizim.*

Allah-taala Elmanı qəribə bir məkanda dünyaya gətirib: Böyük Azərbaycan torpağının təxminən mərkəzi ərazisində, ancaq sərhəddə. Bu, Azərbaycanın qəribə, niskilli və faciəli taleyidir. Və bu qəribəlik Elmanın mənəvi dünyasının, fikir aləminin də vətən düşüncəsi ilə bağlı kədərinə, ağrısına çevrilib. Başqa sözlə desək, haqqında danışdığımız bu kövrək qəlbli insan sərhədləri şimalda Dərbənddən cənubda Həmədana qədər uzanan Azərbaycanın təxminən orta məkanında yerləşən Lerikdə dünyaya göz açsa da, bir az böyüyüb ayaqları yer tutanda cənuba baxıb sərhəd dirəklərinə tikanlı məftillər görüb: Vətənin ortasından çəkilmiş, Vətəni ikiyə bölən sərhəd dirəklərini, tikanlı məftilləri. Və yavaş-yavaş böyüyüb vətən həqiqətlərini dərk etdikcə bu məftillər Elman müəllimin vətəndaş qəlbindən keçib:

*Tikanlı məftillər sinəmdən keçir,*
*Bakıyla Təbrizin arasındayam.*

Bir sözlə, Elman taleyin əli ilə Vətəndə – lakin sərhəddə yaşamaq əzabına məhkum olunub. Bəlkə də, «Vətənin mərkəzində, amma sərhəddə» yaşamaq qisməti onun qəlb dünyasında az-az adama nəsib olan bir vətən yanğısı, el-oba dərdi, xalq niskili yaradıb. Bu həqiqət onun araşdırmalarının, elmi fəaliyyətinin məhsullarına da sirayət edib.

Elman Azərbaycan xalqına məxsus klassik kişilərdəndir. Yəni o, «ağır oturub batman gələn», hər şeyin – həm danışdığı sözün, həm də etdiyi hərəkətin ölçüsünü-biçisini bilən kişidir. Əsl Azərbaycan kişisinə məxsus müsbət keyfiyyətlərin çoxunu onun xarakterində tapmaq mümkündür.

Ancaq mən bir həqiqəti də etiraf etməliyəm, Allah-taala Elmana çox şey verib. Məsələn, ali təhsil, alimlik mərtəbəsi, institut müəllimi, laboratoriya müdiri, səviyyəli tədqiqatçı bacarığı, cəmiyyətdə mövqe, yaxşı qohum-əqrəba, dost-tanış, gözəl ailə, az-çox ruzi və s. Amma o, yenə də dünyadan və özündən narazıdır. Mən hər iki cəhəti Elmana məxsus müsbət cəhət kimi qiymətləndirirəm. Belə ki, Elman təbiətən mömin, Allah adamıdır. Etiqad sahibidir. O, yaxşı başa düşür ki, dünyadan razılıq məğrurlara, dünyapərəstlərə, nəfsi üçün yaşayanlara, maddiyyat əhlinə, cahillərə məxsusdur. Özündən razılıq da bu cür mənfi keyfiyyətlərdən nəşət tapır. Elman isə ali mənəviyyata, ruhani ucalığa malik bir insandır. Deməli, onun özündən və dünyadan narazılığında həqiqət əhlinə məxsus bir qanunayğunluq vardır. Onun tədris etdiyi «Türk və şərq xalqları ədəbiyyatı» ilə bağlı fənləri tələbələrə çox gözəl şəkildə öyrədə bilməsinin, əsl mütəxəssis kimi nüfuz qazanmasının bir səbəbi də bundadır. Belə ki, türk və

şərq xalqları ədəbiyyatı başdan-başa didaktik-tərbiyəvi, ürfani fikirlərlə doludur. Dünya sevgisini Allah sevgisinə çevirmək bu ədəbiyyatın başlıca qayəsidir.

Mən Elman müəllimlə bağlı bəzi xatirələrimi də bu yazımda yada salmaq istəyirəm. Onun dissertasiyasının uzun, qovğalı, hay-küylü müzakirəsi mənim yaxşı yadımdadır. Mən hələ belə bir şeyi nə görmüşəm, nə də eşitmişəm ki, bir dissertasiyanın müzakirəsi bir neçə gün çəksin. Amma Elman bəzi «xeyirxah» adamların ucbatından belə bir mənzərə ilə üzləşdi. Onun doktorluq dissertasiyasının müzakirəsi üçün keçirilən iclas indi talekanallarda tez-tez gördüyümüz teleseriallar kimi bir neçə gün uzandı. Hər iclas teleserialın bir fraqmenti kimi yeni bir macəra ilə yadda qaldı. Xoşbəxtlikdən bu serialın bədxah obrazları nəticədə uduzdular. Müsbət qəhrəman isə qalib gəldi.

Yadımdadır ki, Elman haqqında ilk geniş sözümü də mən onun doktorluq dissertasiyasının müdafiəsində dedim. Həm Elmanın alim şəxsiyyəti və zəhməti, həm də onun dissertasiyasının müsbət məziyyətləri barədə hiss edib bildiklərimi söylədim. Çıxışım həqiqətə söykəndiyi, reallığa əsaslandığı üçün ürəkdən gəlirdi, boğazdan yuxarı deyilmiş tərif siqlətindən uzaq idi.

Mən 50 illik yubileyimlə bağlı kitabımı Elmana verdikdən sonra o, zarafatla mənə dedi: – Daha sənin özün mənə lazım deyilsən. Kitabın otağımda qalacaq və sən lazım olanda ona baxacağam. Səni tanımaq istəyəndə onu oxuyacağam.

Doğrudan da, Elman mənim yubileyim münasibətilə nəşr olunmuş həmin kitabı «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzində – müdiri olduğu otaqda ən görkəmli yerə qoyub. Bu, onun qəlb genişliyindən, paxıllıqdan uzaq, dostun uğuruna sevinən bir şəxsiyyət olmasından xəbər verir.

Bu il Elman müəllimin 55 yaşı tamam olur. Bu, ömrün yarı yaşıdır. Mən öz alim dostumu 55 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı, həyat yollarında uğurlar arzu edirəm.



*Sayalı Sadıqova*
*ARNK yanında Terminologiya Komissiyasının sədr müavini, filologiya elmləri doktoru, professor*

# ÖMRÜN YARADICILIQ YOLLARINDA

Azərbaycan ədəbiyyatının inkişafında, araşdırılması və tədrisində mühüm xidmətləri olan Elman Quliyev «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Müasir Özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» (Bakı, 2001), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006, həmmüəlliflə), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010, həmmüəlliflərlə), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (Bakı, 2009, 2011), «Qədim türk ədəbiyyatı» (Bakı, 2010) monoqrafiyalarının və 150-ə qədər elmi məqalənin müəllifidir.

Elman Quliyev 1958-ci ildə gözəl təbiəti, ürəkaçan mənzərələri ilə seçilən Lerik rayonunun Kələxan kəndində dünyaya göz açmış və orta məktəbi də orada bitirmişdir. O, 1981-ci ildə Pedoqoji İnstitutun dil-ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və müəllimlik fəaliyyətinə başlamışdır. Lakin elmi axtarışlara olan böyük marağı onu rahat buraxmamış və elmi yaradıcılığa gətirmişdir. Bu illərdə səmərəli elmi axtarışlar aparmış və böyük uğurla namizədlik dissertasiyası müdafiə etmişdir. Bundan sonra həyatını bütünlüklə elmi işə bağlamış, yorulmaq bilmədən tədqiqatlar aparmışdır. Alim 2004-cü ildə müdafiə etdiyi «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər konteksində)» adlı doktorluq dissertasiyası ədəbi problemlərin həllində mühüm hadisələrdəndir.

Elman müəllim özünəməxsus tədqiqat yolu, dəsti-xətti olan alimlərimizdəndir. Görkəmli alimin xalqımızın böyük oğlu Şəhriyarın ədəbi irsi-

nin toplanmasında, nəşrində, tədqiqində xidmətləri mühümdür. Bu baxımdan Şəhriyarşünaslıqda çox dəyərli söz sahibi olan professor Elman Quliyevin «Türk xalqları ədəbiyyatı» (Bakı, 2008) fundamental dərsliyi də dünya ədəbiyyatları arasında zənginliyi, tarixi, ənənəsi və mündəricə dərinliyi ilə seçilən türklərin mənəvi dəyərlərini tədqiq edən qiymətli əsərdir. Türk xalqları ədəbiyyatının milli-mənəvi dəyərləri və bəşəri-humanist idealları özündə ehtiva edən öncül bir ədəbiyyat kimi araşdırılması bu baxımdan təqdirəlayiqdir. Müəllifin vulqar-sosioloji yanaşmadan uzaq olan obyektiv elmi-nəzəri dəyərləndirmə prinsipini rəhbər tutması kontekstdə ona ədəbi-bədii materialların təqdimi və tədqiqində milli-mənəvi dəyərləri, soykökü, özünü tanıma kimi əsaslı problemləri çağdaş ədəbiyyatşünaslıq düşüncəsi müstəvisində araşdırmaq imkanı vermişdir. Dərs vəsaitinin əhatə dairəsi kifayət qədər geniş olsa da, tədqiqat prosesində zəngin tarixi və yaşarlı ənənələri ilə fərqlənən türk xalqlarının ədəbiyyatları bir araya gətirilmiş, özəllikləri barədə konseptual mülahizələr yürüdülmüşdür. Tədqiqatda təhlilə cəlb edilən əsərlərin ideya-məzmununu, fərdi bədii üsullardakı polifonizmi, yaradıcılıq metodları və dünya baxışları ilə fərqlənən yazıçıları, şairləri türk xalqları ədəbiyyatı tarixi müstəvisində bir araya gətirilməsi mürəkkəbliyi qədər də əhəmiyyətlidir. Araşdırmanın mahiyyətdən qaynaqlanan bölmələri tədqiq prosesində bir-birini tamamlayır. Ədəbiyyatları qaynaqlandıran ictimai-siyasi ab-hava və ədəbi-mədəni gerçəkliklə bağlı qənaətlər prof.E.Quliyevin tarixiliyə önəm verdiyini, ədəbi ənənə və həm də tarixi şəraitlə bağlılığını göstərir. Tarixə müxtəsər nəzər yetirən  müəllif Cəlaləddin Rumi, Yunis Əmrə, İbrahim Şinasi, Əbdülhəmid Ziya Paşa, Namiq Kamal, Əbdülhəq Hamid, Tofiq Fikrət, Mehmed Akif Ərsoy, Ziya Göyalp, Ömər Seyfəddin, Yəhya Kamal Bayatlı, Rəşad Nuri Güntəkin kimi ustad sənətkarlar, metod, üslub və janr xüsusiyyətləri tarixi dövrün gerçək həqiqətləri müstəvisində dəyərləndirir. Bir-birindən fərqli zaman və məkan bölümündə, milli-mənəvi gerçəklər zəminində yaradılan özbək, türkmən, qazax, krım-tatar, qırğız ədəbiyyatı struktur baxımdan tədqiqatçının qarşısına müəyyən problemlər çıxarsa da, o, bunların özəlliklərini bacarıqla vermişdir. Qədim və zəngin tarixə malik olan türk xalqı dünya ədəbiyyatının inkişafında yaxından iştirak etmiş, yetişdirdiyi ədəbi şəxsiyyətlər təkcə vətənin hüdudları daxilində deyil, ondan çox-çox uzaqlarda öz təkrarsız yaradıcılıqları ilə tanınmış, mənsub olduqları xalqa böyük şöhrət qazandırmışlar. Bu baxımdan Əlişir Nəvai poeziyası ilə bağlı təhlillər də kontekst xarakterli olub, onun yeni ədəbi mərhələnin təşəkkülündə və formalaşmasında rolu müəyyən-

ləşdirilir. Xüsusilə, türk xalqlarının ədəbiyyatını yaradanların – türk ədəbiyyatında Məxtumqulu Fəraqi, qazax ədəbiyyatında Abay Kunanbayev, krım-tatar ədəbiyyatında İsmayıl Qaspiralı, qırğız ədəbiyyatında Çingiz Aytmatov fenomeninin meydana gəlməsini şərtləndirən cəhətlərə aydınlıq gətirilir. Tutarlı və konkret faktlara dayaqlanan açıqlamalardan həm də belə bir qənaət formalaşır ki, türk xalqlarının ədəbiyyatları möhtəşəm olmaqla bərabər, həm də milli və bəşəridir. Müqayisə və paralellər tarixləri, taleləri bir araya gətirməyə, türk ədəbiyyatları arasında körpü yaratmağa yönəldilmişdir. Bununla da, ADPU-nun və Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru Elman Quliyev Şərq ölkələrində böyük nüfuza malik tədqiqatçı kimi tanınır. O, təkcə Azərbaycanda deyil, vətənimizin hüdudlarından uzaqlarda da – İran, İraq və Türkiyədə çap olunan əsərləri, bir çox beynəlxalq konfranslarda keçirilmiş simpozium və elmi konfranslarda problem mahiyyətli maraqlı məruzələrlə çıxış etmişdir. Məhsuldar elmi fəaliyyəti ilə yanaşı, görkəmli alimin yüksək ixtisaslı kadrların yetişdirilməsində də mühüm xidmətləri olmuşdur. O, uzun müddət Nizami adına Ədəbiyyat İnstitutunun ixtisaslaşdırılmış Müdafiə Şurasının üzvü kimi fəaliyyət göstərmiş, onlarla dissertasiya işinə rəyçi və rəsmi opponent təyin olunmuş, gənclərə bilik və təcrübəsini müdrikliklə öyrətmiş, onlara bu elmin sirlərinə bələd olmaqda əlindən gələni əsirgəməmişdir. Hazırda AMEA-nın akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvüdür. Ancaq elmi yaradıcılıq onu ilk gənclik illərindən vurğunu olduğu pedaqoji işdən ayıra bilməmişdir. Otuz illik fasiləsiz pedaqoji stajı olan Elman müəllim ali məktəbi qurtarandan yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətini də davam etdirmişdir.

Elman müəllim təbiətcə nikbin, xaraktercə tələbkar, sonsuz həyat sevincləri ilə yaşayan, son dərəcə həssas, qayğıkeş bir insan, gənclərin yaxın dostu, məsləhətçisidir. O, həmçinin çox mehriban, qayğıkeş, xoşxasiyyət, ailəsinə qəlbən bağlı bir insandır. Onun sözlə ifadə edilməyən, sərhədləri bilinməyən bu məhəbbəti gənc filoloqlar üçün bir örnəkdir. Xalqa olan məhəbbətin təntənəsini ifadə edən bu səmərəli elmi yaradıcılıqdan hələ neçə-neçə nəsil bəhrələnəcək. Cavan alim, professor E.Quliyev ömrünün və elmi fəaliyyətinin çiçəklənən bir dövrünü yaşayır. Onun 55-ci baharı bu günlərdə tamam olur. Yorulmaz tədqiqatçı, zəhmətkeş alim, səmimi və xeyirxah insan, genişürəkli, həssas qəlbli alimi bu münasibətlə təbrik edir, ona yaradıcılıq işlərində uğurlar, şəxsi həyatında xoş müjdələr, sevinclər diləyirik.



*Məhəbbət Mehdiyeva*
*filologiya üzrə fəlsəfə doktoru,*
*Respublikanın əməkdar mədəniyyət işçisi,*
*Heydər Əliyev Fondunun əməkdaşı*

## TƏVAZÖKAR ALİM

Hər birimizin tanıdığımız insanlar haqqında öz rəyimiz, öz təsəvvürümüz var. O rəy, o təsəvvür ürəyimizdə, beynimizdə illər ötdükcə möhkəmlənir, yeni fikirlərlə, düşüncələrlə dolğunlaşır, zənginləşir. Düzdür, elələri olur ki, onların haqqında ilk təəssürat, yaxud formalaşmış rəy hansısa hadisənin, əməlin, bəzən hətta yanlış, düşünülməmiş bir sözün təsiri altında dəyişir, uzun müddət tanıdığın, hörmət bəslədiyin insanı əslində tanımadığını, yaxud yaxşı tanımadığını anlayırsan, təəssüflənirsən, bundan mütəəssir olub kədərlənirsən. Amma nə yaxşı ki, 1988-ci ildən tanıdığım Elman müəllimi elə ilk görüşümüzdə necə görmüşəmsə, o vaxtdan 25 ilin keçməsinə baxmayaraq, elə indi də gördüyüm kimi, tanıdığım kimi qəbul edirəm. Hətta deyərdim ki, tez-tez görüşməsək də, ona bəslədiyim hörmət, səmimiyyət bu ötən illər ərzində daha da artıb, daha da dərinləşib.

O uzaq 1988-ci ildə Elman Quliyev o vaxtlar çalışdığım və mənim üçün indi də müqəddəs məbəd hesab etdiyim Nizami Gəncəvi adına Azərbaycan ədəbiyyatı muzeyinə gələrək bir çox gənc dissertantlar kimi müdafiəyə təqdim edəcəyi dissertasiyasının rus dilinə tərcümə olunmasında ona köməklik göstərməyimi məndən xahiş etmişdi. Bu xahişə biganə qalmamış, onun dissertasiyasını o vaxtkı qanunlara uyğun olaraq rus dilinə tərcümə etmiş və Elman Quliyevin öz işinin vurğunu olduğunu, ona necə ciddi yanaşdığını, sözün əsl mənasında üzərində «əsdiyinin» şahidi olmuşdum. Bizim bacı-qardaş münasibətlərimiz də elə o vaxtdan başlamışdı. Təsdiqini aldıqdan sonra Elman müəllimin həvəslə işlədiyini, məqalələr dərc etdirdiyini, konfranslarda çıxışlar etdiyini, elmin çətin yollarında dayanmadan irəli addımladığını görür və sevinirdim. 2004-cü ildə bizim yollarımız yenidən kəsişmiş və mən bu dəfə Elman müəllimin artıq doktorluq dissertasiyasının sənədləşməsində ona köməklik göstərmişdim. Ötən

illər ərzində Elman müəllim uzun və səmərəli elmi-yaradıcılıq yolu keçmiş, elmdə böyük nailiyyətlər əldə etmiş, neçə-neçə məqalənin, maraqlı kitabların müəllifi olmuşdu. O, uzun müddət Azərbaycanın dahi şairi M.Şəhriyar irsinin nəşri və tədqiqi ilə məşğul olaraq «M. Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmiş, ustad şairin anadilli şeirlərinin çoxsaylı nümunələrinin Şimali Azərbaycanda ilk dəfə kitab şəklində və ayrı-ayrı qəzet və jurnal səhifələrində çap etdirib oxuculara təqdim etmişdir.

Hazırda tanınmış alim, görkəmli pedaqoq, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor Elman Quliyev «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı laureatı , C.Rumi – 800 (YUNESKO) müsabiqəsinin, iki dəfə «İlin alimi» və «İlin müəllimi» müsabiqələrinin qalibi, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə aldığı «Tərəqqi» medalının kavaleridir. Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə professor Elman Quliyev «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə layiq görülmüşdür. O, bir çox beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmiş, elmi əsərləri isə Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap edilmişdir. Onun bu böyük uğurlarına ürəkdən sevinən, fərəhlənən yaxınlarından, dostlarından biri də mənəm.

1991-ci ildən ürəkdən bağlandığı və bu günə qədər həvəslə çalışdığı Respublikamızın mötəbər elm və tədris ocağı olan Azərbaycan Dövlət Pedaqoji Universitetində Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri, sayılıb-seçilən alim hesab edilən Elman Quliyev həm də öz zəhmətkeşliyi, səmimiliyi, sadəliyi və təvazökarlığı ilə onu tanıyanların hamısının dərin hörmətini qazanmışdı. Onun şəxsiyyəti göz qabağındadır – son dərəcə ziyalı, başı aşağı, təmkinli, zəkalı, yazıb-yaradan, öz biliyini cavanlara əsirgəməyən bir insan.

Elman müəllimin ömrü də, yaradıcılığı da güzgü kimi şəffaf və aydındır. 55 il alim üçün ən kamil, ən məhsuldar dövr hesab olunur. Elman müəllim bu yaş həddinə gözəl işlərlə, nailiyyətlərlə, yaradıcılıq uğurları ilə gəlib çıxıb.

Mən Elman müəllimi yubileyi münasibətilə ürəkdən təbrik edirəm, ona yeni yaradıcılıq uğurları, yeni kitablar, kəşflər, həmçinin ailə səadəti, nəvə-nəticə fərəhi, bir sözlə, sevincli aylar-illər arzulayıram. Əminəm ki, Elman müəllim bundan sonra da, qazandığı yeni nailiyyətlərdən asılı olmayaraq, 1988-ci ildə tanıdığım sadə və səmimi bir insan kimi qalacaq və bundan sonra da dostlarını uğurları ilə sevindirəcək.



*Xalidə Qafqazlı*
*AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu türk filologiyası şöbəsinin müdiri*

# MƏSLƏKİNİN VURĞUNU

O çox təvazökar və sadə insandır. Onu yaxından tanımayan, yaradıcılığına bələd olmayanlar bu cavan alimin neçə-neçə sanballı, savadlı, elmi əsərin müəllifi olduğunu bilməz. Təbiətən mülayim olan Elman müəllimin elmi, ədəbi əsərlərin oxuyanda görürsən ki, o, istər Türkiyə, Kipr, istər ümumilikdə türk xalqları ədəbiyyatına aid məqalələrinin, məruzələrinin, kitablarının hamısını eyni həvəslə, eyni maraqla, eyni diqqətlə yazmışdır.

Onun «Türk xalqları ədəbiyyatı» kitabına ön söz yazan müəlliflərdən biri Türkiyənin Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri işləmiş hörmətli Hulusi Kılıç olmuşdur. Ön sözdə möhtərəm Hulusi Kılıç filologiya elmləri doktoru professor Elman Quliyevin təşəbbüsü ilə 2004-cü ildə ADPU-da «Türk oda»sının, 2007-ci ildə isə «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin yaradılmasından böyük fərəhlə bəhs edir. Görkəmli diplomat professor Elman Qulieyin fəaliyyəti sayəsində Azərbaycanın ali təhsil məktəblərində tədris olunan «Türk xalqları ədəbiyyatı» fənninin öyrənilməsi istiqamətində tədris proqramlarının hazırlanmasını, «Müasir özbək  ədəbiyyatı tarixi» (1999), «Türkiyə türk ədəbiyyatı (2003, 2007) «Türk xalqları ədəbiyyatı» (2008), «Özbək ədəbiyyatı» (2009) və  s. dəyərli əsərlərin ərsəyə gəlməsini çox qiymətləndirir.

Tarix, mədəniyyət, ədəbiyyat baxımından qədim və zəngin olan türklər məlum olduğu kimi dünyanın ən qüdrətli xalqlarındandır. Prof. E.Quliyevdə bu xalqların ədəbiyyatını öyrənməkdə xüsusi həvəs və araşdırmaçı bacarığı var. Onun özünün də yazdığı kimi hazırki dövrdə türk mədəniyyət və ədəbiyyatının təkcə milli zəmində yox, ümumtürk anlayış-

ları səviyyəsindən və bu səviyyənin nəzəri-estetik prinsiplərinin dərki baxımından öyrənilməsi vacibdir. Çox təqdirəlayiqdir ki, onun yazdığı «Ümumtürk ədəbiyyatı» (Bakı, 2005), «Qədim türk ədəbiyyatı» (Bakı, 2010), «Türkiyə türk ədəbiyyatı» (XIX-XX əsrlər) (Bakı, 2011) kimi tədris proqramların, «Türkiyə türk ədəbiyyatı» (2003), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010, həmmüəlliflərlə), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (Bakı 2009), «Şərq xalqları ədəbiyyatı», 2 clddə (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) kimi əsərlərini oxuduqca, onlarla yaxından tanış olduqca məlum olur ki, sözün əsl mənasında bu zəhmətkeş alim qarşıya qoyduğu məsələlərə, tələb və məqsədlərə tam nail olmuşdur. Məhz bunun nəticəsidir ki, öz elmi yaradıcılığına çox tələbkarlıqla yanaşan, yorulmadan ədəbi, elmi araşdırmalar, təhlillər aparan prof. Elman Quliyev hər bir ədəbi sənətkarın yaradıcılığını milli-estetik prinsiplər daxilində tədqiq etmiş, məsələlərə milli düşüncə müstəvisində aydınlıq gətirməyə nail olmuşdur. Məhz öz elmi araşdırmalarına çox ciddi yanaşmağının nəticəsidir ki, tanınmış Türk diplomatı Hulusi Kılıçın da yazdığı kimi zəhmətkeş, çox məhsuldar işləyən bu alimin – Elman Quliyevin əsərlərilə tanış olduqda oxucuda ümumtürk yazılı abidələri, türk dünyasının ən böyük ədəbi simaları olan C.Rumi, Y.İmrə, Ə.Hamid, T.Fikrət, N.Kamal, Z.Göyalp, R.N.Güntəkin, Ə.Nəvai, M.Şeyxzadə, M. Fəraqi, A.Kunanbayev, İ.Qaspıralı, O.Süleymenov, Ç.Aytmatov və başqa sənətkarların həyat və yaradıcılıqları haqqında kompleks təsəvvür yaranır, geniş mənada türk mənəvi dəyərləri, ədəbi-bədii zövq və təfəkkür tərzinin üstünlüklərini nümayiş etdirilir.

Prof. Himalay Qasımov prof. Elman Quliyev haqqında «Nəcib insan, görkəmli alim» adlı yazısında göstərir ki, professor Elman Quliyevin «Türk xalqları ədəbiyyatı» (Bakı, 2011) fundamental dərsliyində dünya ədəbiyyatları arasında zənginliyi, tarixi, ənənəsi və mündəricə dərinliyi ilə seçilən türk xalqları ədəbiyyatı milli-mənəvi dəyərləri və bəşəri humanist idealları özündə ehtiva edən öncül bir ədəbiyyat kimi araşdırılması baxımından təqdirəlayiqdir.

Professor Elman Quliyev bütün bu işləri gərgin zəhmət hesabına görə bilib. Əziyyətləri müqabilində dostlarının, elm adamlarının rəğbətini qazanıb. Yaşı 55 olsa da, hələ cavandır. Qarşıda onu uzun ömür, çoxlu nailiyyətlər gözləyir. Bu istək və ümidlə ona can sağlığı arzu edirəm.



*Əzizxan Tanrıverdi*
*filologiya elmləri doktoru,*
*professor*

# TƏLƏBƏ YOLDAŞIMIN UĞURLARI

Başı qarlı dağları, kəklikli, turaclı düzləri, diş göynədən buz bulaqları, sıx meşələri, xoş ətirli çiçəkləri, şəfaverici bitkiləri, dağ vüqarlı, saf insanları.... ilə məşhur olan Lerik! Yurdumuzun ən ucqar, həm də ən hündür guşələrindən biri! Sən dağ saflığını, dağ təmizliyini, dağ müqəddəsliyini qoynunda dünyaya göz açanların hər birinin ruhuna zərrə-zərrə hopdurubsan! O taylı bu taylı Azərbaycanımızın, ümumən türk dünyamızın uğurlarına sevinib, dərdlərinə şərik olubsan! Azərbaycan elminə Xeyrulla Məmmədov, Bəhlul Abdulla, Asəf İsgəndərov kimi alimlər veribsən! Bu missiyan bu gün də davam etməkdədir. Konkret desəm, haqqında söhbət açmaq istədiyim professor Elman Hilal oğlu Quliyev də sənin qoynunda – Zuvand mahalının Kələxan kəndində dünyaya gəlib... Elman müəllimin uşaqlığı da, yeniyetməliyi də Kələxanla bağlıdır, orta təhsilini də doğma kəndində başa vurub. Yeri gəlmişkən, o, bütün uğurlarına görə məhz Kələxana borclu olduğunu xüsusi olaraq vurğulayır. Dağlar oğlu Elman müəllim bu gün də Kələxanla nəfəs alır, ata-baba yurdundan söhbət deşəndə uşaq kimi kövrəlir.

Ömrünün on səkkiz ilini Kələxanda keçirən Elman müəllimin Bakı şəhərinə gəlişi 1977-ci ilə təsadüf edir. O, həmin il APİ-nin filologiya fakültəsinə qəbul olunmuşdu, elə ilk tanışlığımız da onda oldu. Bu, o deməkdir ki, Elmanı çoxdan – düz otuz altı ildir ki, tanıyıram. Onun bu illərdə qazandığı uğurların, demək olar ki, hamısının canlı şahidi olmuşam, dəqiq desəm, tələbə yoldaşımın filologiya elmləri doktoru dərəcəsi və professor elmi adı almağına, C.Rumi – 800 (YUNESKO) müsabiqəsinin laureatı ol-

mağına ... daha neçə-neçə uğurlarına ürəkdən sevinmişəm. Elman müəllimin uğurları sırasında – uşaqlarına el adəti ilə toy etməsi – qız köçürməsi, gəlin gətirməsi, ən əsası isə baba olması xüsusi yer tutur. Açığını deyim ki, tələbə yoldaşım uşaqlarına toy edəndə mən də onun qədər sevindim, baba olmasını eşidəndə isə onu ilk təbrik edənlərdən biri oldum. Burada bir fikri qeyd etmək lazım gəlir: Elman müəllim! Ulularımız «Dövlətdə dəvə, övladda nəvə» – deyiblər. Nəvə toyu görəsən! Mən də o xoş ovqatlı, sevincli, şad anları səninlə birlikdə yaşayım!

Prof. Elman Quliyev yüzlərcə tezis və məqalə, onlarca dərs vəsaiti, dərslik və monoqrafiya müəllifidir. Heç şübhəsiz ki, onun bu cür əsərləri ayrıca tədqiqat tələb edir. Bu mənada E.Quliyevin araşdırmalarında xüsusi yer tutan «M.Şəhriyarın yaradıcılığı» və «Türk xalqları ədəbiyyatı» ilə bağlı əsərlərinə yığcam şəkildə münasibət bildirməklə kifayətlənirəm: Elman müəllim M.Şəhriyarla bağlı əsərlərində ustad şairin yaradıcılıq təkamülünün tarixi-milli zəmində inkişafını, şeirlərindəki poetik siqləti, estetik idealı geniş və sistemli şəkildə təhlil süzgəcindən keçirmişdir. Bu isə onu deməyə əsas verir ki, şəhriyarşünaslıqda E.Quliyev öz dəsti-xətti ilə seçilir; E.Quliyevin 2011-ci ildə çap etdirdiyi «Türk xalqları ədəbiyyatı» adlı dərslik filologiyamıza ən dəyərli töhfələrdən biridir. Burada türk xalqları ədəbiyyatının yaradıcılıq mərhələləri geniş və sistemli şəkildə təqdim olunur...

Elman müəllim! Saçlarına düşən dənə baxıb kövrəlməyəsən! Yaşım əlli beş oldu, – deyib həyatdan gileylənməyəsən! Yazasan, yaradasan, Azərbaycanımıza, ümumən türk dünyamıza xidmət edəsən! Ən əsası isə Tanrının verdiyi bu ömür payını necə yaşamısansa, elə də yaşayasan!



*Vüqar Əhməd*
*filologiya elmləri doktoru,*
*professor, şair, musiqi tədqiqatçısı*

## GÖRKƏMLİ ƏDƏBİYYATŞÜNAS, SƏDAQƏTLİ DOST

Elmanla düz 25 ildən çoxdur ki, dostuq, qardaşıq. Mən Pedaqoji Universitetin aspiranturasında oxuyanda Elman dissertant idi. Tələbə vaxtı məndən yuxarı kursda oxumuşdu, tanışlığımız vardı. Dostluğumuz aspirantura illərindən başladı.

Mənim elmi rəhbərim, mərhum professor, böyük ədəbiyyatşünas alim Xeyrulla Məmmədov olduğundan bütün leriklilər kimi Elman da mənə doğmalıqla yanaşırdı. Məlum olduğu kimi Elmanla Xeyrulla müəllim həmyerli idilər.

Sağlığında hörmətini, ölümündən sonra isə Xeyrulla müəllimin xatirəsini Elman həmişə əziz tutur. Ustadımın ölümündən sonra əziz dostum Elman Xeyrulla Məmmədovun «XIX əsr Azərbaycan ədəbiyyatı» monoqrafiyasını nəşrə hazırlayıb çap elətdirdi. Pedaqoji Universitetdə kitabın təqdimatını, onun xatirə gecəsini keçirdi... Kürsüdə gözü yaşlı danışdım, Elmana baxanda onu da kövrələn gördüm.

Elmanın çalışqanlığı sayəsində Lerikin mərkəzi küçələrindən birinə professor Xeyrulla Məmmədovun adı verildi. Həmin gün hər ikimiz üçün ən sevimli günlərdən biri idi.

Bu yaxınlarda Xeyrulla Məmmədov haqqında «Dünyada qala bilmək» adlı xatirələr toplusu işıq üzü gördü. Xalq artisti, Xeyrulla müəllimin bacısı oğlu Ramiz Novruzun tərtib etdiyi, professor İsrafil İsrafilovun redaktoru olduğu, şair Taleh Həmidin «Ön söz» yazdığı toplunun təqdimatı Milli Dram Teatrında keçirildi. Respublikanın görkəmli ziyalılarının iştirak etdiyi tədbiri yüksək peşəkarlıqla, leksikon zənginliyi ilə, natiqlik məharəti ilə professor Elman Quliyev idarə elədi.

Bu tədbirdən öncə 2013-cü il yanvar ayının 14-də mənim «Qarabağ yuxusu və yaxud yuxuda qələbə» avtobioqrafik romanımın təqdimatında

aparıcı İlkin Həsəni akademik Vasim Məmmədəliyevin dərin məzmunlu, heyrətamiz çıxışından sonra sözü Elman müəllimə verdi. Vasim müəllimdən sonra auditoriyanı ələ almaq çox çətindir. Professor Elman Quliyev orijinallıqla, ümumtürk ədəbiyyatından paralellər aparmaqla əsəri ədəbi-bədii məziyyətləri çərçivəsindən elə təhlil süzgəcindən keçirdi ki, iştirakçılar böyük zövq aldılar.

Mən Elmanla ailəvi dostam. Onun balalarının toyunda bir əmi kimi, yaşım çatmasa da bir ağsaqqal kimi iştirak eləmişəm; qızının da, oğlunun da toyunda. Hətta oğlunun toyunda anasının vəsiyyətini mən icra elədim. Toyun «Final»ında mərhum anasının vəsiyyətinə uyğun olaraq miras qoyduğu qızıl medalyonu bəy-gəlinə mən təqdim elədim. Toylarda nadir hallarda rəqs eləyən bir insan kimi Elmanın balalarının toyunda ayaqlarım «sınırdı».

Yazımı oxuyanlar deməsinlər ki, Elmanın çoxşaxəli, geniş məzmunlu, ədəbi coğrafiyası çoxçalarlı yaradıcılığı qaldı bir kənara elə başqa səpgidə söhbət açıram. Bu aspektdə də fikirlərim olacaq. Sadəcə mən dostumun necə saf insan, əqidə sahibi, böyüklərə hörmət göstərən, anaya da, balaya da, dosta da məhəbbət bəsləyən bir vətəndaş olması təəssüratını yaratmaq istəyirəm.

Elman dost yolunda 24 saat oyaq, xeyirxahlıq üçün daim müntəzirdir. Hələ elə ola bilməz ki, kimsə Elmana bir problem üçün ağız açsın, o, isə imkanı çatırsa, ona əl uzatmasın. Mən onu torpağı sanı yaşasın Xeyrulla müəllimin əvəzinə «təyin eləmişəm özüm üçün». Hərdən zarafatla deyirəm ona ki, ustadım Xeyrulla müəllim dünyasını dəyişsə də, səni özümə ustad seçmişəm. Elman deyir: – əstəğfurulla və tez həyalı siması ilə utancaq görkəm alır.

Ümumiyyətlə, yaşı 55-ə çatsa da, utancaq, abırlı, həyalı adamdır. Elmdə böyük nailiyyətlərinə baxmayaraq çox təvazökar insandır. Elmanın acı günləri getsin-gəlməsin. Ata əvəzi, böyük qardaşı Araz Elmanın doktorluq müdafiəsi öncəsi qəflətən xəstələndi. Moskvaya qədər apardılar. «Gəlsə əcəl, verməz macal»– deyib atalar. Elman mənim doktorluğumda iştirak edə bilmədi. Öz müdafiəsində də bir gözü gülər, bir gözü ağlar idi. Çox böyük mənəvi sarsıntı keçirtdi Arazın ölümüylə Elman. Ovundura bilmirdik onu, təsəllisi o oldu ki, mən qardaşım Mövsüm Əhmədlə rəhmətlik Araza bir «Qardaş» mahnısı yazdıq. Tacir Şahmalıoğlu ürək yanğısı ilə oxudu bu mərsiyə-nəğməni Az.TV-də səsləndirdik.

Elmanın anası bu dərdə dözmədi, getdi oğlunun yanına. Allah bütün analara, o cümlədən bizim analara da rəhmət eləsin...

Elman bu yaxınlarda mənim tamam olacaq 50 yaşım münasibətilə gözəl yazı yazırdı: «Zəhmətlə qazanılan şöhrət». Bir jurnal və iki qəzetdə

dərc olundu məqalə. Müəllifin məqaləsinin qüdrəti mənə də, yazıya da şöhrət və populyarlıq gətirdi. Sağ ol qardaşım, əllərin ağrımasın....

Mənim bir çox dərslik, monoqrafiya və kitablarımın gah redaktoru, gah da rəyçisi professor Elman Quliyevdir. Ya da əksinə. Elman müəllimin kitablarında mənim imzam, adım-soyadım özünə yer tapır.

Mən altı il Azərbaycan Müəllimlər İnstitutunda professor kimi fəaliyyət göstərmişəm. İnanın magistraturada dərs deyəndə məni sevindirən o idi ki, «Ümumtürk ədəbiyyatı» tədris edərkən yeganə dərslik olan Elman müəllimin kitabı mənim də, magistrların da köməyinə gəlirdi. Tələbələrimə qürürla deyirdim ki, o biri fənləri öz dərsliklərimlə tədris edirəm, bu sahəni isə dostumun, görkəmli ədəbiyyatşünasın dərs vəsaiti ilə sizə mühazirə oxuyuram.

XX əsr Azərbaycan ədəbiyyatını tədris edərkən Şəhriyara çatanda professor Elman Quliyevin fundamental tədqiqatları köməyimizə çatırdı.

Elə indi də işlədiyim AMEA-nın Ədəbiyyat İnstitutunun «Cənubi Azərbaycan ədəbiyyatı» şöbəsinin elmi iş planlarını yerinə yetirərkən Elmanın Şəhriyara həsr etdiyi, tərtibçisi və müəllifi olduğu kitablar əvəzsiz tədqiqatlar kimi gərəyimiz olur və bu qiymətli monoqrafiyalar şəxsi kitabxanamın «qızıl fond»– una daxil edilib.

Professor Elman Quliyev Mirzə İbrahimova da monoqrafiya ithaf edib, ulu Şəhriyara da. Xalq şairi Söhrab Tahirin lirikasına da biganə qalmayıb. Cənub ədəbiyyatı, Orta və çağdaş türk xalqları ədəbiyyatı, özbək ədəbiyyatı, Şərq xalqları ədəbiyyatı ədəbiyyatşünasın yaradıcılığında öz tədqiqini tapmış mövzulardandır. Bu əsərlər gərgin zəhmətin nəticəsində ərsəyə gəlib. Şükür ki, zəhməti də həmişə qiymətləndirilib. Ölkə başçımız onu «Tərəqqi» medalı ilə təltif edib.

Özbəkistanın «Mirzə Uluqbəy», YUNESKO-nun «C.Rumi-800», «İlin alimi» (2 dəfə), «İlin müəllimi» mükafatları, fəxri adlara layiq görülüb. Çoxdur onun mükafatları, hamısını sadalasam böyük siyahı alınar.

Pedaqoji Universitetlə yanaşı əməkdaşı olduğu Şərqşünaslıq İnstitutunun Dissertasiyası Şurasının, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Gözəl pedaqoq, ustad müəllimdir. Dostlarının olduğu kimi tələbələrin də sevimlisidir. Gözəl ailə başçısıdır. Yaxşı atadır, deyərdim ideal atadır. Çox gözəl əmidir, dayıdır, babadır. Bizlər üçün sədaqətli dostdur. Allah bu gözəllikləri ona görə ona əta eləyib ki, Vətənimizi, Dünyanı gözəl görür Elman. Dünyaya gözəl gözlə baxanda gözəllik səni öz ağuşuna alır. 55-in mübarək olsun ay gözəl alim, görkəmli ədəbiyyatşünas, sədaqətli dost!



*Nəbi Əsgərov*
*filologiya elmləri doktoru,*
*professor*

# ELMAN MÜƏLLİMİN MƏNƏVİ DÜNYAGÖRÜŞÜNDƏKİ YETKİNLİK HƏMİŞƏKİ KİMİ QALIR

Elman Quliyevi 1978-ci ildən tanıyıram. O, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində məndən iki kurs aşağıda təhsil alırdı. Bizi daha da yaxınlaşdıran APİ-nin Dərnəgüldəki 4 saylı tələbə yataqxanası olmuşdu. O vaxt həmin yataqxanada Tələbə Sovetinin sədri seçildiyimə görə, Elmanı və başqa tələbə yoldaşlarımı daha yaxından tanıya bildim. Gənclik illərində tanıdığım Elmanla indiki professor Elman Quliyev arasında heç bir fərq hiss etmirəm. Elman müəllim gənclik illərində də, indi də, öz etik davranışı, yüksək mədəniyyəti ilə seçilən ziyalılarımızdandır. Yəni, Elman müəllimin mənəvi dünyagörüşündəki yetkinlik həmişəki kimi qalır.

Uzun fasilədən sonra Elman müəllimlə görüşümüz yenə Azərbaycan Dövlət Pedaqoji Universitetində oldu. Elman müəllim bu illərdə oxuduğu ali məktəblə əlaqə saxlayır, aspirantura təhsili ilə bağlı məqalələr çap etdirir, aspirantların və dissertantların elmi konfranslarında iştirak edirdi, ancaq o, 1991-ci ildən təhsil aldığı ali məktəbdə həmişəlik fəaliyyətə başladı. Elman müəllimi mənimlə sıx birləşdirən məqamlardan biri də şəhərdə qonşu yaşamağımızdır. Bəzən yolumuz bir olur, elmdən, təhsildən, ölkədə gedən yeniliklərdən danışır, fikir və mülahizələrimizi bölüşürük.

Keçən əsrin 90-cı illərini Elman Quliyevin həyatında elmi yüksəliş dövrü kimi səciyyələndirmək olar. Bu illərdə o, namizədlik dissertasiyası üzərindəki işlərini yekunlaşdırıb, müstəqil ölkəmizin inkişaf istiqamətinə,

mənəvi təkamülünə uyğun elmi axtarışlar aparmağa başladı. Bu baxımdan onun Şərq ədəbiyyatına – konkret olaraq Sovetlər dönəmində yasaq edilmiş Şəhriyar yaradıcılığına müraciət etməsi ədəbiyyatda yeni bir cığırın başlanğıcı kimi dəyərləndirilə bilər. Ancaq Elman müəllimin yaradıcılıq yolu bu illərdə o qədər də hamar olmayıb. O, bu yolda qarşısına çıxan müxtəlif maneələri asanlıqla olmasa da, dəf edərək, böyük əziyyətlər bahasına ədəbiyyatşünaslıq sahəsində öz sözünü deyə bildi.

Elman müəllim 2004-cü ildə «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Bundan qabaq onun Böyük Şəhriyar yaradıcılığı ilə bağlı «M.Şəhriyar: Gəldim sizi görməyə» (Bakı, 1992), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «M.Şəhriyar. Heydərbabaya salam» (Bakı, 2004) kitabları işıq üzü görmüşdü. Bu monoqrafiyalar tezliklə ədəbiyyatşünas alimlərin diqqətini cəlb etmişdi. Bu baxımdan ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri prof. H.Ə.Qasımovun fikirləri öz dəyəri ilə seçilir. Müəllif yazır: «Tarixi-nəzəri düşüncə çevrəsi kifayət qədər geniş olan E.Quliyevi şəhriyarşünaslıqda söz sahibi edən çeşidli əsərləri ilə yanaşı, əlbəttə ki, ilk öncə məhz «M.Şəhriyar və milli təkamül» tədqiqatıdır. Bu əsər E.Quliyevi orijinal təhlil üslubuna, cilalanmış tədqiqatçılıq baxışlarına malik olan bir araşdırıcı kimi səciyyələndirir və onun elmi təfəkkürünün, intellektual düşüncəsinin, nəzəri biliyinin geniş çevrəsindən xəbər verir».

Elman Quliyevin yaradıcılığının ikinci hissəsi bütövlükdə Şərq-Türk ədəbiyyatına istiqamətlənib. SSRİ dönəminin ali məktəblərin tədris planlarında çox az özünə yer tutan şərq-türk ədəbiyyatının tədrisi ölkəmizin müstəqillik illərində bu sahəyə marağı daha da aktuallaşdırdı. Şərq, eləcə də türk xalqlarının bir hissəsi olan Azərbaycan xalqının ədəbiyyatında möhtəşəm bir ədəbiyyatın (Şərq xalqları ədəbiyyatı) tədris olunmaması bir boşluqdan xəbər verirdi. Elman müəllimin bu istiqamətdə yazdığı əsərlər – «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010, həmmüəlliflərlə), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Şərq xalqları ədəbiyyatı», 2 cilddə (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) monoqrafiya, dərslik, dərs vəsaitləri və proqramları tədrisdə belə bir boşluğu doldurmağa xidmət edir. Artıq bir neçə ildir ki, universitetlərin filologiya fakültələrində həmin elmi-pedaqoji səpkili əsərlərdən tədris prosesində istifadə olunur. Elman Quliyevin tədris prosesində

ən çox istifadə olunan əsərlərindən biri də «Türk xalqları ədəbiyyatı»dır (Bakı, 2009). O, bu kitabını «Ümumtürk yazılı ədəbiyyatı», «Türkiyə türk ədəbiyyatı», «Özbək ədəbiyyatı», «Türkmən ədəbiyyatı», «Qazax ədəbiyyatı», «Krım-Tatar ədəbiyyatı», «Qırğız ədəbiyyatı» və s. fəsillərə bölərək adı çəkilən türk ədəbiyyatlarını ümumtürk ədəbiyyatı kontekstində araşdırmış, müəyyən paralellər aparmışdır. Müəllif əsərin girişində haqlı olaraq yazır ki, dünya xalqlarının mədəniyyəti tarixən bir-birindən təcriddə deyil, əksinə qarşılıqlı təsir dairəsində inkişaf etmiş, yüksək mənəvi dəyərlər qazanmışdır. Şərti də olsa dünya mədəniyyətinin iki qütbü kimi səciyyələndirilən Şərq və Qərb mədəniyyətləri bir-birinə bağlılıq və təsir nəticəsində müasir sivil mərhələyə yetişə bilmişdir. Türk xalqlarının mədəniyyəti və ədəbiyyatı bu mənada dünya mədəniyyəti və ədəbiyyatının ayrıca qolu və mərhələsi olmaqla yanaşı, həm də əsas tərkib hissəsidir.

Elman Quliyev Universitetin ictimai işlərində də yaxından iştirak edir. Bir başa onun təşəbbüsü və təşkilatçılığı ilə ADPU-da 2004-cü ildə «Türk odası», 2007-ci ildə «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzi yaradılıb.

Elman müəllim həm də gözəl ailə başçısıdır. Ailəsində üç övlad qol-qanad açıb. Hamısı yüksək mənəviyyatlı, təhsilli, intellektual səviyyəli gənclərdir. Bu baxımdan da Elman müəllim və xanımı balaları üçün böyük örnəkdir. Elman müəllimə, dostuma bu əziz günündə – 55 illiyində yeni yaradıcılıq uğurları, ailə xoşbəxtliyi, bir də qədrini az bildiyimiz can sağlığı arzulayıram.



*Yaqub Babayev*
*filologiya elmləri doktoru, professor*

# OLDUĞU KİMİ GÖRÜNƏN DOST

İlk dəfədir ki, əlimə qələm alıb Elman müəllim haqqında yazı yazıram. Və əlimə qələm alıb yazmaq istəyəndə gördüm ki, mənim onun barəsində deyiləsi, yazılası nə qədər sözüm varmış. Bunları, bəlkə də, bir neçə cild kitaba sığışdırmaq olar. Amma adi vaxtlarda mənə elə gəlirdi ki, onun haqqında 5-10 cümlədən artıq heç nə deyə bilmərəm.

Yazıya nədən başlamalı olduğumu fikirləşəndə də gördüm ki, başlamalı çox şey var. Çünki Elman müəllim elə bir səciyyəyə malik insandır ki, yaxşı nə varsa, hamısını onun haqqında demək olar. Mən də onu gurultulu epitetlərlə tərifləyə bilərəm. Onsuz da indi insanları tərifləməkdə, qarşıdakının xoşuna gəlmək stixiyasında epitet yarışı gedir. İşlənən, böyük tribunalardan tutmuş lokal məclislərə qədər hər yerdə hər kəs tərəfindən deyilən epitetlər yalan, məkr libasına elə bürünüb ki, həqiqi dəyərini itirib. Ona görə də həqiqi duyğularımı, ürək sözlərimi (təbii ki, onların az bir qismini) səmimi hiss və xatirələrimi qələmə almağı daha münasib hesab etdim.

Elman müəllimlə nə vaxt və necə tanış olmuşam? Yadımda deyil. Maraqlıdır ki, bu barədə nə qədər fikirləşdim, yaddaşımı töküşdürdümsə, nə həmin vaxt, nə də həmin məqam yadıma düşdü. Yalnız ümumi şəkildə xatırlaya bildim ki, mən 1985-ci ilin sentyabrında ADPU-nun (o zamankı V.İ.Lenin adına ADPİ) əyani şöbə üzrə aspiranturasına qəbul olunmuşdum. Elman müəllim də dissertant idi. Lerikdə müəllim işləsə də dissertasiyası ilə bağlı vaxtaşırı Bakıya, o cümlədən ADPİ-yə gəlirdi. Deməli, biz də 1985-86-cı illərdə ilk dəfə adi bir insan kimi institutda, yəqin ki, kafedrada görüşmüşük. Əgər mən onda bilsəydim ki, illər ötəcək, Elman mənim üçün ən yaxın dosta, ən etibarlı sirdaşa, ən munis insana çevriləcək, şübhəsiz ki, ilk tanışlığın bütün təfərrüat və detallarını yadımda saxlayardım. Təbii ki, o ilk görüşdə, hətta 1-2 il keçənə qədər Elmanla başqa yüz-

lərlə insana bəslədiyim münasibətdə olmuşam. O da mənə adi, yüzlərlə tanışından biri kimi baxıb. Və beləcə bir neçə il keçib.

Amma bu adi münasibət tədricən sıxlaşıb, yaxınlaşıb, doğmalaşıb və dostluğa çevrilib. Bu yaxınlaşma biz hər ikimiz ADPİ-nin Folklor problem laboratoriyasında işə qəbul olunub iş yoldaşı olandan sonra daha da artıb. Biz bir-birimizi daha yaxşı tanımağa başlamışıq.

Elman müəllimlə bizim münasibətlərimiz heç vaxt maddi ölçülərə sığmayıb. Doğrudur, biz hər ikimiz, demək olar ki, maddi cəhətdən eyni səviyyəli adamlar olmuşuq, həyatın hər cür çətinliyini, ehtiyacını görmüşük. Bununla belə yoldaşlıqda, münasibətlərdə bu cəhət həmişə kölgədə qalıb. Bizi birləşdirən ancaq mənəvi bənzərlik, həyata, insanlara dünyaya baxışda oxşarlıq olub. Biz onunla çətin günlərin dostu olmuşuq. Bu dostluğun yolu uzunmüddətli yoldaşlıqdan keçib. Məhz həmin yoldaşlıq Elman müəllimi mənə tanıdıb. Onun mənəvi aləmini, fərdi xarakterini, iç dünyasını mənə agah edib. Yoldaşlığın hər mərhələsində, hər epizodunda mən onun yeni-yeni işıqlı cəhətlərini görüb ona daha da yaxınlaşmışam.

Mənim yazdıqlarımı Elmanın yaxınları, dostları, tanışları, qohumları, ailə üzvləri, tələbələri, yerliləri və daha kimlər oxuyacaqlar. Bu gün onu tanıyanlar üçün bu nəcib insanı böyük şəxsiyyət, xeyirxah adam kimi təqdim etmək adi görünə bilər. Çünki onu tanıyanlar hamısı Elman müəllimi məhz belə tanıyır, xarakterizə edir. Lakin onu şəxsən tanımayanlar, o cümlədən gələcək nəsil üçün yazılanlar, şübhəsiz ki, xüsusi əhəmiyyət kəsb edəcək. Ona görə də mən Elman müəllimin həyat tarixçəsindən müşahidə etdiyim bəzi tipik epizodları, əhvalatları xatırlatmaq istəyirəm. Bu epizodlar onun bir insan kimi xarakterini açıb göstərməkdən ötrü tipik həyat faktlarıdır.

Məsəl var: Birindən soruşurlar ki, qardaşın necə adamdı? Cavab verir ki, yoldaş olmamışıq. Doğrudan da, insanın xarakteri yoldaşlıqda üzə çıxar. Mən də Elman müəllimlə yoldaş olduqca və o, öz simasını büruzə verdikcə onu kəşf etməyə başlamışam. Onunla daha çox ünsiyyət qurmağa, yaxın olmağa çalışmışam. Çünki R.Rza demişkən:

İnsan var ki,

*Təvəllüdü, vəfatı bəlli.*
*Səhər qalxıb, axşam yatıb*
*Hər gün süd içib*
*Hərəkəti nəzakətli, sözləri nəcib*
*Pəncərəni bərk bağlayıb külək əsəndə*
*Xatırlayıb yazı ancaq şaxta kəsəndə.*
*Dəymə mənə, mən də sənə dəymərəm deyib*
*Taleyindən sakit ömür, dinclik diləyib*
*Beləsindən nə yazasan?*

Doğrudur, Elman müəllimin də «hərəkəti nəzakətli, sözləri nəcib» olub. Ancaq bu R.Rzanın nəzərdə tutduğu insanlarda olduğu kimi zahiri xarakter daşımayıb. İçəridən gəlib, ruhun, mənəviyyatın təzahürü kimi özünü göstərib. Ona görə də qəlblərə yol tapıb, Elman müəllimin insani «mən»i ilə başqa könüllər arasında ülfət, dostluq, mehribançılıq yaradıb, onu başqalarına sevdirib.

İndi keçək yubilyarın həyatında görüb şahidi olduğum bəzi əhvalatlara. 1990-cı ilin yazı idi. Xarici ölkələrlə, o cümlədən İranla ara təzə-təzə açılmışdı, gediş-gəliş başlamışdı. Elman müəllim mənə dedi ki, gəl bir İrana gəzməyə gedək. O zaman sərhəd rayonlarına xaricə adamların hansı miqdarda gedə bilməsi mənasında konkret limit verirdilər. Bakıdan İrana getmək xeyli çətin idi. Astaranın o zamankı icra başçısı Elman müəllimin yaxın dostu idi. Biz birlikdə Astaraya həmin başçının yanına getdik. Elman ondan xahiş etdi ki, bizim Astaranın hesabından, yəni oranın limiti hesabına İrana getməyimizə kömək etsin. Başçı bizi çox yaxşı qarşıladı və Elman müəllimin xahişini yerinə yetirdi. Bu mənim Elmanla ilk səfər yoldaşlığım idi. Bu səfər məndə onun barəsində iki təəssürat yaratdı. Birincisi, onun başqalarının yanında necə hörmət-izzət sahibi olması. Belə ki, biz onda institutda adi elmi işçi idik. Buna baxmayaraq Astaranın icra başçısı Elmanı çox isti qarşıladı, çox hörmətlə də işimizi düzəldib yola saldı. İkincisi, Elmanın necə çevik, zirək, iş yolu bilən olduğunu gördüm.

Beləliklə, biz viza açdırıb bir neçə gün sonra İrana gedəsi olduq. Bu səfərin, demək olar ki, bütün detalları mənim xatirimdədir. Biz Bakıdan qatarla Astaraya getdik. Səhər tezdən keçid məntəqəsinə gələndə gördük ki, burada adam əlindən tərpənmək olmur. Heç bir növbə-filan yoxdur. Kim güclüdür, həyasızdır, abrını ata bilir, qolunun və dilinin hesabına qabağa düşüb sərhəd məntəqəsindən keçə bilir. Kim sakitdi, mədənidi abırhəyasına qısılıb qalır. Yəni bura əsl abırlı-abırsız, zorlu-zorsuz seçiminin məkanıdır. Gördük, bu minvalla bizim getməyimiz müşkül məsələdir. Amma Elman çox keçmədən çıxış yolu tapdı. Dedi ki, burada (Astarada) sərhəd qoşunlarının komandiri general Şanşindir. O, vaxtilə bizim kəndə (Lerik rayonunun Kələxan kəndində) işləyib, bizdə də olub. Qoy ona deyim. Bəlkə, bizə kömək etdi. Belə də oldu. Elman Şanşinin qəbuluna düşə bildi. Generalın göstərişi əsasında, bizi camaat keçən ümumi qapıdan deyil, hərbçilər üçün nəzərdə tutulan arxa qapıdan içəri buraxdılar. Biz rahatca sərhəddi keçib Ərdəbilə gedə bildik.

Bu epizod Elman müəllimin ağlının, fərasətinin, zirəkliyinin, bacarığının həyati bir fraqmentidir.

Ərdəbildə baş verən maraqlı bir epozodu da mütləq xatırladacağam. Çünki bu Elman müəllimin necə qürurlu, öz mənliyini qoruyan, heç kəsə əyilməyən bir şəxsiyyət olduğunun nümunəvi göstəricisidir. Əhvalat bun-

dan ibarətdir: Biz Ərdəbildə Elmanın bir tanışıgildə qalırdıq. Gündüz şəhəri gəzməyə çıxdıq. Şeyx Səfi kompleksinə gəldik. Kompleksi gəzdik, Xətainin və başqa səfəvilərin qəbirlərini ziyarət etdik. Şəhərin xeyli görməli yerlərində olduq. Bir mağazanın yanından keçirdik. Dedik, bir mağazaya baxaq. Mağazada bir serviz Elmanın xoşuna gəldi. İstədi ondan üç komlekt alsın: birini özünə, birini bacısına, birin isə qardaşıgilə. O zaman dolların dəyərli vaxtı idi. Mağaza sahibi ilə üç komplekt servizi 50 dollara razılaşdırdıq. Pulu vermək məqamında bəlli oldu ki, pul gecələdiyimiz evdəki paltarın cibində qalıb. Dedik, gedək pulu gətirək, servizləri götürək. Mağaza sahibi razılaşdı. Bizim gedib qayıtmağımız yarım saat çəkdi. Biz maqazinə girdik, oraya bir nəfər də gəldi. Onunla söhbət etməli olduq. Bəlli oldu ki, həkimdi (İranda həkimlər böyük hörmət sahibidirlər). Sonra Elman müəllim pulu verib servizləri götürmək istədi. Ancaq mağaza sahibi namərdlik edib fikrini dəyişdi. Dedi, yox, mən 50 dollara ancaq iki serviz verə bilərəm. Biz əvvəlki söhbətimizi ona xatırlatdıq. O, sözündən qaçıb bildirdi ki: – Ağa, yox, mən fikrimi dəyişdim. İndi belə verirəm. Bizim onunla mübahisəmiz bir nəticə vermədi. Həkim sakitcə bizim mübahisəmizi izləyirdi. Nəhayət, Elman iki serviz götürüb 50$ verdi. Biz narazı halda mağazadan çıxıb yola düşdük. 50-60 addım getmişdik ki, gördük, mağazinçi əlində üçüncü serviz bizim dalımızca gəlir. Hiss olunurdu ki, həkim onu sözündən qaçdığı üçün möhkəm danlayıb. Çağıra-çağıra gəlib bizə çatdı. Servizi Elmana vermək istədi. Lakin Elman servizi götürmədi. Mağaza sahibi çox üzrxahlıq elədi ki: – Ağa, mən səhv eləmişəm, servizi götür (Görünür, həkim onu bərk danlamışdı). Elman isə qürurunu sındırıb servizi götürmədi. Dedi: – Ağa, apar başqasına sat, qoy pulun çox olsun. Hiss etdim ki, bu söz mağaza sahibinə lap ağır gəldi və özünü təhqir olunmuş saydı. Xülasə, Elman servizi götürmədi və biz oradan uzaqlaşdıq. Mənim yadıma M.Cəlalın «Bir gəncin manifesti» povestində xalça satan Sonanın «İtə ataram, yada satmaram» əhvalatı düşdü. Mən gördüm ki, mənəvi ucalıq, qürur, öz mənliyini qorumaq Elman müəllimin qanında, genindədir. O, pula-paraya görə heç kəsin qarşısında əyilmir, öz şəxsiyyətini qoruyur. Bir insan kimi tamahını öldürə bilir. Nəfsindən çox-çox ucada durur.

Elman müəllim mətin, mübariz, comərd, öz mənliyini qoruyan, şərəfini hər şeydən uca tutan bir şəxsiyyətdir. Mən «şəxsiyyət» istilahını yubilyar barədə cəsarətlə işlədirəm. Bəllidir ki, «şəxsiyyət» olmaq mənəviyyata, əxlaqa və əmələ bağlıdır. Hazırkı dünyamızda mənəviyyat o qədər korşalıb, əxlaq o qədər çirkaba batıb, əməllər o qədər pisləşib ki, barmaqla saymaq olar. Ancaq Elman müəllim bu statusu qazana bilib. Bu, bəlkə də, onun həyatda ən böyük qazancı, varı, dövləti, xəzinəsidir. Bu mənada o, pulsuz, sərvətsiz xəzinə sahibidir. Həmin xəzinənin adı «mənəviyyat,

əxlaq, kişilik, qeyrət və qürur» xəzinəsidir. Deyilən fikrin sübutu mənasında yubilyarın həyatından, fəaliyyətindən istənilən qədər faktlar, epizod-əhvalatlar nümunə gətirmək mümkündür. Amma mən yazının həcminin standarta uyğunluğunu nəzərə alıb tipik bir epizodu xatırlatmaqla kifayətlənirəm.

1997-98-ci illər idi. Elman müəllim «M.Şəhriyar yaradıcılığında milli təkamül» mövzusunda doktorluq dissertasiyasını müzakirə üçün ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasına təqdim etdi. İnsafən dissertasiya çox səviyyəli, elmi cəhətdən tutumlu idi. AAK-ın və filologiya elminin lazımi tələblərinə cavab verirdi. Təəssüf ki, kafedranın bəzi üzvləri dəstə bağlayıb Elman müəllimə qarşı çıxırdı. Məqsədləri elmin təəssübünü çəkmək deyil, qərəzli olaraq Elmanın doktorluq müdafiəsinə mane olmaq idi. Doktorantın bu dəstəni zərərsizləşdirmək, təzyiqi aradan qaldırmaq və rahatca müdafiə etməkdən ötrü iki yolu var idi: Birincisi, dəstə üzvlərinə yaltaqlanmaq, yarınmaq, onların «bığının altından keçmək»; ikincisi, Azərbaycan cəmiyyətinin və reallığının yazılmamış qanunlarına uyğun olaraq özünü yuxarı səviyyədə tapşırtmaq. Bunların hər ikisini etməyə Elmanın imkanı var idi. Bu variantların hansısa birindən istifadə edib o, asanlıqla işini aşıra bilərdi. Lakin doktorant bunların heç birini etmədi. Çünki hər iki yol şərəfsiz yol idi, insan ləyaqətinə ləkə gətirən yol idi. Kimin və ya kimlərinsə qabağında alçalmaq, gözü kölgəli olmaq, başqa sözlə, şəxsiyyətini atmaq, qürurunu sındırmaq, ömrü boyu gizli və aşkar tənə hədəfinə çevrilmək demək idi.

Əlbəttə, Elman müəllim bu «rahat yolu» qəbul etmədi. Öz mənliyini, qürurunu qorudu. Məsələnin çətin, lakin şərəfli yolunu – mübarizə, özünüsübut, özünütəsdiq yolunu tutdu. Bu yol onun ömrünün bir neçə ili, əsəblərinin xeyli gərilməsi bahasına başa gəldi. Bununla belə qələbə ilə nəticələndi. Elman bu mübarizə yolunda həm bir insan, həm bir elm xadimi, həm də bir şəxsiyyət kimi öz aliliyini təsdiq etdi. Ədalətsiz və şərəfsiz bir güruha ədalət və şərəflə qalib gəldi.

Elman həm bir alim, həm də bir müəllim kimi özünü yaxşı tanıdıb. Respublika elmi ictimaiyyəti onu sanballı, ciddi, nüfuzlu bir alim kimi tanıyır. Azərbaycanda «Türk xalqları ədəbiyyatı» fənninin ilk memarıdır. Onun ilk proqramı və dərsliyi Elman müəllimə məxsusdur. Elm yollarında gördüyü başqa işlər barədə uzun-uzadı danışmaq olar. Bir müəllim kimi tələbələrin onu necə sevdiyini söyləməyə ehtiyac yoxdur.

Bir neçə kəlmə də oğul, qardaş, həyat yoldaşı və ata Elman müəllim barədə danışmaq istəyirəm. Əlbəttə, hamı anasını sevir. Ancaq Elmanın anasına sevgisi bir başqa idi. Biz yaxın olduğumuzdan müxtəlif məsələlərlə, o cümlədən qohum-əqraba, ailə münasibətləri ilə bağlı tez-tez söhbət edirik. Mən onun anasına sevgisində başqalarına bənzəməyən bir alilik

görmüşəm. Bu sözləri onun qardaş və bacılarına münasibətinə də şamil etmək olar. Qardaşı Arazın ölümünün onu necə sarsıtdığı dillə, sözlə ifadə olunası bir hiss deyil. O, bu ölümün kədərini, göynərtisini indi də yaşayır.

Elman müəllimin həyat yoldaşı Səbirə xanıma münasibətində də sevgi ilə dolu bir kişiyanalıq vardır. Kişiyanalıq ona görə deyirəm ki, onun qəlbində Səbirə xanıma qarşı dərin bir sevgi, səmimiyyət, hörmət olsa da, bunları büruzə verməyi xoşlamır. Çünki bu, bir türk kişisi üçün şit görünən əlamət olardı. O, ailəsinə, ömür-gün yoldaşına məhəbbətini qəlbində yaşadır və gizlədir. Elə buna görə də onu qoruya bilir. El dili ilə desək, car edib çöllərə axıtmır. Mən arzu edirəm ki, tale onu Səbirə xanımla birlikdə qocaltsın, hər ikisinə Allah-taala 100 il ömür versin. Təbii ki, yaşa dolduqca ailə məhəbbəti, ər-arvad münasibətləri daha da istiləşir. Bir dostluq ülfətinə çevrilməyə başlayır.

Elman müəllimin övladlarına münasibəti də başqa valideynlərdən fərqlənir. Mən burada da, yəni onun öz övladlarına münasibətində də heç kəsdə görmədiyim qeyri-adi hikmət, gözəllik və dərunilik hiss etmişəm. Onu övladları ilə cismani əlaqə ilə bərabər ruhani rabitə bağlayır. Elə buna görə də övladları onu böyük bir səmimiyyətlə sevir. O, övladları ilə fəxr edir. Onların tərbiyəsindən, ağılından, kamalından, əxlaqi gözəlliyindən, insanlara, qohum-əqrabaya, dost-tanışa olan saf münasibətindən qürur duyur. Bu tərbiyədə Səbirə xanımın da böyük əməyi olduğunu dönə-dönə xatırladır.

Nəhayət, Elman müəllimlə bizim şəxsi münasibətimizə gələk. O heç bir epitetsiz, tərifsiz, tərənnümsüz mənim dostumdur, vəssəlam. Əsl dost necə olmalıdırsa, o da elədir! Əsl sirdaş necə olmalıdırsa, o da elədir! Əsl munis, həmdərd, həmdəm necə olmalıdırsa, o da həmin ali keyfiyyətlərə malikdir. Mənim üçün o, bir dost və insan kimi hər kəsdən, hər şeydən ucadadır. Burada bir atalar sözü də yadıma düşdü. Onu böyük şairimiz B.Vahabzadə poetik dillə bu cür ifadə edir:

*Məsəl var deyərlər dostunu göstər*
*Mən deyim sən özün necə adamsan.*

Elman müəllim hamıya – valideynlərə, qohum-əqrabaya, dost-tanışa, iş yoldaşlarına, tələbələrə, bir sözlə, cəmiyyətdə münasibətdə olduğu bütün insanlara qarşı olduğu kimi görünür. O, saxta münasibətdən, yaltaqlıqdan, riyadan, maskalanmaqdan uzaqdır. Cəmiyyətdə belə insanlar azdır və onların yeri çox ucadadır.

Elman müəllim ömrünün 55-ci baharını yaşayır. Mən ona həyat yollarında uğurlar, can sağlığı və bir də ən vacib nemət olan Tanrı lütfü arzulayıram.



*Rafiq Yusifoğlu*
*Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, şair-ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor*

## ZƏHMƏTKEŞ TƏDQİQATÇI, SƏMİMİ İNSAN

Filologiya elmləri doktoru, professor Elman Quliyevi tələbəlikdən alimlik mərtəbəsinə yüksələn zəhmətkeş, istedadlı, təvazökar bir alim kimi tanıyıram. Onun haqqında ilk xoş sözü mərhum dostum, professor Xeyrulla Məmmədovdan eşitmişəm. Elmanın doktorluq müdafiəsi zamanı Xeyrulla müəllimin əsl alim və ağsaqqal kimi Ədəbiyyat İnstitutunda sevinc hissi keçirməsi, onun haqqında ürək dolusu danışması indi də yadımdadır. Ən yaxşı cəhət budur ki, Elman Quliyev həm elmi araşdırmalarında, həm də müəllimlik fəaliyyətində öz sevimli müəlliminin ümidlərini tam doğrulda bilib. Elman Quliyevin ən böyük mükafatı isə dərs dediyi tələbələrin hörmət və məhəbbətini qazanmasıdır.

Professor Elman Quliyev türk xalqları ədəbiyyatı mütəxəssisi kimi respublikamızda tanının, seçilən alimlərdəndir. Onun yazdığı dərsliklər, monoqrafiyalar, hazırladığı oxu kitabları tələbələrin ehtiyacını ödəmək gücündədir. Məşhur ərəb şairləri Muin Bsisu və Mahmud Dərvişdən tərcümə elədiyim «İsrailli əsgərə məktub» poemasını Elman müəllimin məndən xəbərsiz dərsliyə salması ürəyimdə məmnunluq hissi doğurub. Sonralar tale elə gətirib ki, onunla birlikdə ADPU-da işləmişəm. Məhz bu zaman Elmanın necə sadə, təvazökar, diqqətcil bir insan olduğunu görmüşəm.

Ömrünün ixtiyar çağına qədəm qoyan professor Elman Quliyevə yeni-yeni uğurlar arzulayıram.



*Sənan İbrahimov*
*BDU-nun professoru*

# ELMAN MÜƏLLİM ƏSL ZİYALIDIR!

Atalar deyir ki, insan dünyada tədricən ziyalı olur. Ancaq mənim fikrimcə, Elman müəllimin simasında ziyalılıq anadangəlmədir. Ola bilməz ki, ailədə ziyalılığı öyrənə bilməyən sonra həyatda ziyalı olsun. Bunların hamısı ailə tərbiyəsindən irəli gəlir.

Yadımdadır, Elman müəllimin müdafiəsində bir söz səsləndi: «Elman müəllim kəndlərinin ilk elmlər doktorudur». Ancaq heç kəs demədi ki, bu işdə onun valideynlərinin böyük xidməti olmuşdur. Alim olmaq həvəsi ilə yaşayan bir övlad böyütmək, hər valideynə qismət olmur. Mən Elman müəllim kimi bir ziyalını böyüdən valideynlər qarşısında baş əyirəm. Onlar Azərbaycan xalqına əsl oğul, böyük ziyalı bəxş etmişlər.

Ziyalılıq Elman müəllimin təbiətindədir, ancaq onun dərin sirlərini ünsiyyətdə olduğu nadir insanlardan öyrənmişdir. Kimdir həmin nadir insanlar? Mən onların siyahısında birinci Xeyrulla müəllimin adını çəkmək istəyirəm. Allah rəhmət etsin, Xeyrulla müəllim gənclərlə oturub-durmağı xoşlayardı... Onu Elman müəllimlə tez-tez bir yerdə görmək olurdu. Bu bağlılıq onların bir rayondan olmaları ilə bağlı deyildi. Çox həmyerli adamlar var, bir-birlərini görməyə gözləri yoxdur. Onunla bir rayondan olan alimlər çoxdur, elə onunla birlikdə işləyənlər də var. Ancaq Elman müəllimin onlarla münasibəti Xeyrulla müəllimə olan münasibəti kimi deyil... Xeyrulla müəllim, elə ziyalı idi ki, ondan öyrəniləsi əxlaqi keyfiyyətlər son dərəcə çox idi.

Biz rəhmətlik ilə, bir məhəllədə yaşayırdıq, onunla söhbətlərimiz o qədər maraqlı olurdu ki, axşamın nə vaxt düşdüyünü hiss etmirdik. Bu mənada bizə ondan nələri isə öyrənməyə vaxt çatmırdı. Elman müəllimlə

isə onlar bir yerdə işləyirdi və ünsiyyət vaxtları kifayət qədər idi və Elman müəllim fürsəti bada verməyib, ziyalılığın dərin sirlərini o böyük şəxsiyyətdən öyrənməyə imkan tapırdı. Bu mənada Elman müəllimə qibtə etməyə dəyər.

Bu söhbətləri etməkdə məqsəd odur ki, yaxşı yaxşını çəkir, pis pisi çəkir, hətta xalq arasında biədəb də olsa özündə həqiqəti ehtiva edən bir məsəl də var: «qarğanın dostu qaşqaldaq olar, alimin dostu fazil». Elman müəllimin qanında olan fəzilət onu Xeyrulla müəllimə yaxınlaşdırırdı. Elman müəllimi həyatda maraqlandıran ziyalılıq idi. Bu maraq isə ona ailə tərbiyəsindən gəlmişdi.

Mən onunla ilk dəfə İran torpağında tanış oldum. Nümayəndələr arasında cavan olmasına baxmayaraq, Elman müəllim ziyalı davranışı ilə Şəhriyarın 90 illik yubileyində iştirak etdi və özünün yazdığı kitabı mənim gözlərim qarşısında Şəhriyarın ev muzeyinə hədiyyə etdi. Elə həmin andan da təkcə məndə deyil, bir çox başqa adamlarda ona qarşı böyük bir rəğbət hissi yarandı. Sanki həmin məqam bizi mənəvi xəcalətdən xilas etdi. İranlılar aradabir pıçıltı ilə deyirdi: «Şəhriyarın böyüklüyünü sözdə demək lazım deyil, tədqiqatlarla sübut etmək lazımdır» – həmin sözlər qarşısında Azərbaycan elmində elə bir şəhriyarşünas alim tanımırdıq ki, adını çəkək. Sadəcə Şəhriyarın məşhur şairlərimizdən olan Süleyman Rüstəmə, Səməd Vurğuna, Rahimə, Bəxtiyara yazdığı mənzum məktubları anladırdıq. Ancaq birdən, Elman müəllimin ortaya çıxması və onun ocağına bir kitab qoyması, sanki bütün Azərbaycan elminin üzünü ağ etdi. Biz artıq ürəkdən Şəhriyarın Azərbaycanda sevilib, tədqiq olunmasından danışırdıq.

Elə bu söhbətin davamı kimi, rəhmətlik Əlibala Hacızadə bir gün dedi ki, İranda Şəhriyarın 100 illik yubileyi keçirilir, ancaq onu tədqiq edən alim tapmırıq. Mən dərhal Elman müəllim barədə məlumat verib, onun sanballı tədqiqatlarından danışdım. Əvvəl sözlərimə elə də əhəmiyyət verməyən Əlibala müəllimə bir qədər də Elman müəllimin böyük ziyalı olmasından danışanda, dərhal dedi ki, «düz deyirsən, alim olmaq asandır, adam olmaq çətindir, əgər o sənin dediyin böyük ziyalılardandırsa, deməli, onu yubileyə göndərməyə dəyər». Sağ olsun Elman müəllim, həmin məqamda mənim təqdimatımı doğrultdu və sonra özündən də eşitdiyimə görə, səfərləri çox uğurlu olmuşdur. Hətta ölkə prezidenti onlarla görüşmüşdür.

Mənim bu fikirlərimi olsun ki, qəribliyə salanlar da olacaq; deyəcəklər ki, Elman müəllim sənin dostundur, ona görə pafoslu sözlər deyirsən,

onu həmişə tərifləyirsən... Bəli mən danmıram, Elman müəllim mənim əziz dostlarımdandır. Hətta son dəfə çıxan «İran, Əfqanıstan, Tacikistan ədəbiyyatı» kitabımın redaktorudur. Artıq biz bir yerdə – Şərqşünaslıq İnstitutunda işləyirik. Arada bir görüşürük. Bütün bunlar bizim aramızda olan dostluğu daha da dərinləşdirir. Hətta dostlarımın biri olan Sevindiyi prezidentimiz Yardımlı rayonuna icra başçısı təyin edəndə, ona dedim ki, çəkinmə get, o bölgədən Xeyrulla müəllim, Elman müəllim kimi böyük ziyalılar çıxmışdır. O da dediklərimdən həvəslənib işinə ürəkdən girişdi.

Dostumun artıq 55 yaşı tamam olur; onu da deyim ki, o məndən cəmi bir yaş böyükdür, təqribən onunla həmyaşıdıq, bu ömür yolumuzda tale hər ikimizi bir-birimizə yaxınlaşdırdı. Çünki biz sənət yollarında birlikdə addımlayırıq. Mən Naxçıvandan, o Lerikdən gəldi, əqidə birliyi, sənət bizi görüşdürdü və mən onunla olan dostluğumla daha da güclü oldum. İndi cəsarətlə Azərbaycan Pedaqoji Universitetə gedirəm, bilirəm ki, orada bir dostum var, o məni görməkdən çox şad olur.

Mən dostuma ömür yollarında ən böyük səadət, ailə xoşbəxtliyi, işində uğurlar arzulayıram. Sənin 55 yaşın mübarək olsun, gün o gün olsun ki, Sənin 100 yaşını qeyd edək, mənim əziz dostum və xalqımızın böyük ziyalısı.



***Nüşabə Əlizadə***
*BDU-nun Şərqşünaslıq fakültəsi*
*İran filologiyası kafedrasının dosenti,*
*filologiya üzrə fəlsəfə doktoru*

# ŞƏHRİYAR POEZİYASININ VURĞUNU

Azərbaycan filologiya elminin tanınmış nümayəndələrindən olan Elman Quliyevin yaradıcılığı geniş və rəngarəngliyi ilə nəzər-diqqəti cəlb edir. Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının professoru vəzifəsində çalışan E.Quliyevin elmi-pedaqoji fəaliyyəti elmi araşdırmalarını istiqamətləndirmiş və onun Yaxın və Orta Şərq xalqlarının bədii söz ustadlarının yaradıcılığı ilə yaxından maraqlanmasına səbəb olmuşdur. Elman müəllim dünya ədəbiyyatı xəzinəsinin zənginləşməsində misilsiz xidmətləri olan Şərqin ustad korifeylərinin sənətkarlığı ilə yaxından tanış olmuş, İran, Livan, İraq, Misir, Suriya, hind, tacik ədəbiyyatının ölkə və dünya mədəniyyətinə, ictimai-mənəvi fikir tarixinə bəxş etdikləri əsərlərinin ümumbəşəri ideallara xidmət etməsini dərs dediyi gənclərə aşılamağa, onların mənəvi-estetik baxışlarının cilalanmasına çalışmışdır. Zəngin Şərq ədəbiyyatını tədris edən Elman müəllimin müxtəlif illərdə «M. Şəhriyar. Gəldim sizi görməyə», «S. Tahir. Lirika», «Türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı», «M. İbrahimov: ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri», «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Müasir özbək ədəbiyyatı tarixi», «Heydərbabaya salam» necə varsa», «Türkiyə türk ədəbiyyatı» kimi əsərləri çap olunmuşdur. Bu əsərlərin içərisində Elman müəllimi elmi ictimaiyyətə daha çox tanıdan, sevdirən mövzu yaradıcılığına vurğun olduğu Məhəmmədhüseyn Şəhriyar və onun şah əsəri «Heydərbabaya salam»poeması ilə bağlı araşdırmalarıdır. Elman Quliyev «Heydərbabaya salam» poeması ilə «Xalqımızın Böyük Oğlu» mandatını almış Məhəmmədhüseyn Şəhriyarın bu əsəri üzərində tədqiqatını son dərəcə yüksək elmi səviyyədə aparmış, əsərin Azərbaycan oxucusuna təhriflər olmadan çatdırılması, şairin həyatı ilə bağlı yanlışlıqların aradan qalxması, şairin milli, bədii, estetik

görüşlərini diqqət mərkəzinə çevirmək üçün çox zəhmət çəkmiş və şairə olan sonsuz məhəbbətini ləyaqətli bir övlad məhəbbəti ilə yerinə yetirmişdir. Elman müəllimin şairin yaradıcılığı ilə bağlı araşdırmaları müxtəlif mövzularda əks olunmuşdur. Onun «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Türkiyəyə xəyali səfər», «Gəldim sizi görməyə», «Poeziya və milli şüur», «Şəhriyar yaradıcılığında vətənpərvərlik mövzusu», «Şəhriyarın sənət görüşləri», «Şəhriyarın estetik görüşləri», «Şəhriyar və klassik ədəbiyyat», «Şəhriyarın sənətkarlığı», «Şəhriyar işığından hərə bir pay götürdü», «Şəhriyarın «Heydərbabaya salam» poemasının ilk nəşri və bəzi mülahizələr» , «Şəhriyar ənənəsi və Yaxın Şərq ədəbiyyatı», «Şəhriyar və millilik», «Şəhriyar yaradıcılığının milli estetik idealı», «Şəhriyarın türk dili uğrunda mücadiləsi», «Şəhriyarın yaradıcılığında dil məsələsi: münasibət və təəssübkeşlik, yeni ənənə forması», «Şəhriyar yaradıcılığının tarixi-milli zəmində inkişafı», «Şəhriyarın milli vətəndaş mövqeyi», «Şəhriyarın anadilli şeirlərinin vəzni» və s. adlı məqalələri Şəhriyar yaradıcılığını müxtəlif aspektlərdən işıqlandırmış, tədqiqatlarını ölkəmizdə və xaricdə çıxan elmi araşdırma məcmuələrində çap etdirməklə, şair poeziyasının elmi əsaslarla öyrənilmə dairəsini genişləndirmişdir. Onun Şəhriyar yaradıcılığı ilə bağlı «Şəhriyar poeziyası və milli təkamül» monoqrafiyası araşdırmalarının zirvəsi sayıla bilər və bu əsər müəllifə filologiya elmləri doktoru elmi dərəcəsini qazandırmışdır. «Heydərbabaya salam» əsəri işıq üzü gördükdən sonra öz şirin yerli Təbriz ləhcəsi ilə qəlblərə nüfuz etdi, bir çox insanların mürgülü xatirələrini oyatdı, Araz çayı ilə ikiyə bölünmüş dili bir, dini, adət-ənənəsi bir xalqın mənəvi birlik simvoluna, möntəşəm poetik abidəsinə çevrildi, hissləri, şüurları təlatümə gətirdi. Elman müəllim haqlı olaraq göstərir ki, «Heydərbabaya salam» poeması hər bir azərbaycanlı üçün ana laylası qədər əziz və müqəddəsdir O, Şəhriyarın «Heydərbabaya salam» poemasında tərənnüm etdiyi mənzərələrin, hadisələrin fəlsəfi-psixoloji mənasını açıqlamaqla, şair mənəviyyatının, əsərində göstərdiyi kimi, hər cür siyasətdən uzaq olan paklığına, ülviliyinə hörmətlə yanaşır, həqiqi insan ömrünün üstün cəhətlərini alqışlayır. Elman müəllim Şəhriyarın bu əsərdə ikiyə bölünmüş vətən yanğısından, ayrılığın hansı qüvvələr tərəfindən salınması və bu vəziyyətdən çıxmaq üçün yolların nədən ibarət olmasını Heydərbaba dağından soruşmasını vurğulamaqla, şairin haqsızlıqla barışmadığını, nəhayət bir gün «namərdlərin burunlarının ovulacağına» ümid bəsləməsini vətəndaşlarına xatırlatmasını əsərin dəyərli cəhətlərindən biri kimi vurğulayır. E. Quliyevin Şəhriyar yaradıcılığına olan dərin bağlılığı, əsərləri üzərində apardığı araşdırmaları elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir və şairin ədəbi irsi ilə maraqlanan alimlər hər zaman onun tədqiqatlarına müraciət edir, sanballı elmi fikirlərindən faydalanırlar.

Məhəmmədhüseyn Şəhriyarın İran İslam Respublikasında keçirilən həm 90 illik, həm də 100 illik təntənəli yubiley tədbirlərində iştirak etmək üçün Azərbaycan Respublikasından dəvət olunan ədəbiyyat, incəsənət nümayəndələri arasında Elman müəllim də var idi. Həmin yubiley tədbirlərində mən də iştirak edirdim və İran elmi ictimaiyyətinin Elman müəllimin Şəhriyar poeziyası haqqında məruzəsini böyük maraq və diqqətlə dinləyib, alqışlarla qarşıladıqlarına şahid olmuşam. O, Məhəmmədhüseyn Şəhriyar yaradıcılığı ilə bağlı çap etdirdiyi kitablarını şairin Təbriz şəhərindəki ev-muzeyinə hədiyyə verdi və bu kitablar böyük ehtiramla qəbul edilib sərgi lövhəsində yerləşdirildi. Dünyanın hər yerindən İrana səfər edən elm və mədəniyyət xadimləri, sadə insanlar böyük şairin ev muzeyinə gəlib, Şəhriyar ruhuna, yaradıcılığına ehtiramlarını izhar edirlər. Şair yaradıcılığına həsr edilmiş əsərlərin arasında Elman Quliyevin bir neçə kitabının olması Azərbaycan elminin şöhrəti və təbliğinə xidmət edən cəhət kimi qiymətləndirilməlidir.

Belə bir deyim var ki, insanı tanımaq üçün yol yoldaşı olmaq lazımdır. İranda keçirilən elmi konfranslarda Elman müəllimlə yol yoldaşlığı onun mədəni, xeyirxah, son dərəcə qayğıkeş bir insan olduğunu da göstərdi. İranda Elman müəllimin illər boyu əlaqə saxlayıb, dostluq etdiyi bir insan yaşayır. Elman müəllimin Tehranda olduğunu bilən kimi onu səfər yoldaşları– Maarifə xanım Hacıyeva və mənimlə evinə dəvət etdi. Mən bu ailənin böyükdən kiçiyinə qədər Elman müəllimi necə böyük məhəbbətlə, saygı ilə, sanki illərlə həsrətində olduqları əzizləri kimi qarşıladıqlarını gördüm. Biz Şəhriyarın 100 illik yubileyinə gedəndə, həmin dostun qardaşı qızının toyu olmalı idi. Təbii ki, dostunun bütün ailəsini, qohumlarını yaxşı tanıyan və onların böyük məhəbbətini qazanmış Elman müəllimin səfərinin o günlərə təsadüf etməsi hamını sevindirmişdi. Elman müəllim təkidlə bizi də o toya apardı və biz İranda yaşayan azərbaycanlıların toy adətləri ilə tanış olduq, onların sevinclərinə öz sevinc payımızı qatdıq. Elman müəllim Tehranda olduğu müddətdə konfrans tədbirlərinin vaxt sarıdan sıxlığına baxmayaraq, demək olar ki, hər gün Lerikdə yaşayan anası ilə telefonla danışar, ondan xəbər tutardı. Qayğıkeş övladın anaya məhəbbət və diqqətlə yanaşmasından xəbər verən bu hərəkəti təqdirəlayiq idi və biz hər kəsə nəsib olmayan belə ana-bala bağlılığına qibtə edirdik.

Ataların belə bir sözü var ki, alim olmaq asandır, insan olmaq çətin! Elm aləmində çalışan hər bir adam çox gözəl bilir ki, alim olmaq heç də deyildiyi kimi asan iş deyil! Amma bu çətin işlə müqayisədə insan olmaq daha çətindir. Elman müəllim bu çətin işlərin hər ikisinin öhdəsindən ləyaqətlə gəlmiş, həm elm aləmində görkəmli alimlərimizdən biri kimi öz elmi təfəkkürü ilə nüfuz sahibi olmuş, həm də onu tanıyanların yanında bir insan kimi hörmət və məhəbbət qazanmışdır. Elman müəllimə bundan sonra da can sağlığı, ailə sevinci, böyük elmi uğurlar və həyat eşqi arzulayıram.



*İlqar Hüseynov*
*ADMİU-nun «Mədəniyyət və muzeyşünaslıq» kafedrasının müdiri, kulturologiya elmləri doktoru, professor*

# ŞƏRƏFLİ ALİM ÖMRÜ

Müəllim adı hər zaman hər kəs üçün doğma və əziz olub. Bu adı şərəflə daşımaq isə müəllimlərin müqəddəs vəzifə borcu sayılır. Əsl müəllim pedaqoji fəaliyyətindən başqa, həm də xalq içində xeyirxah və alicənab bir şəxsiyyət kimi tanınmalıdır. Ömür elə bir nemətdir ki, hamıya verilir, kiminə çox, kiminə az. İllər insanlara ömür vermir, insan özü illərə ömür verir. Məhz Elman Quliyev də belə bir pedaqoq alimlərimizdəndir. O, 55 illik həyatında şərəfli bir tarixi yol keçmişdir. Elman müəllim ADPU-da sayılıb seçilən filoloq pedaqoqlarımızdandır. Ömrünün ən gözəl çağlarını Azərbaycan ədəbiyyatının inkişafına, Azərbaycan ideologiyasına və milli məfkurənin formalaşmasına, milli-mənəvi dəyərlərimizin dirçəlməsinə həsr edən Elman müəllim öz yüksək mədəniyyəti, intellekti ilə seçilən alimlərimizdən biridir. Yaşı 55-i adlamasına baxmayaraq Elman müəllim həm də öz elini, obasını ürəkdən sevən və dəyərləndirən şəxsiyyətlərdən biri kimi çoxlarına müsbət nümunədir, el-obada böyük hörmət sahibidir. Yorulmaq bilməyən bu cəfakeş elm fədaisinin qəlbində Vətəninə böyük sevgidən başqa daxili aləmində həm də paklıq, saflıq, yüksək əxlaq və mənəvi zənginlik vardır. Elman müəllimdə o qədər yüksək mədəniyyət vardır ki, bəzən insan onunla ünsiyyətdə olanda bu mənəviyyat sahibinin nə qədər incə və həssas qəlbli insan olmasını bir daha təsdiqləyir. 55 illik ömür yolunda dolğun və mənalı yaradıcılıq yolu keçən Elman müəllim ədəbiyyatımızın inkişafına çox dəyərli töhfələr vermişdir. Xüsusilə, cənub mövzusu, Məhəmmədhüseyn Şəhriyar ömrü onun elmi yaradıcılığının zirvəsini və leytmotivini təşkil edir. Şəhriyar yaradıcılığı onun bütün

yaradıcılığında öz geniş əksini tapmışdır. Elman müəllimin ömür yolunu yunanların od allahı olan «əzabkeş Prometey»ə bənzətmək olar. Öz alın təri ilə həyatda addımlayan Elman müəllimə yuxarıda Allah, aşağıda isə gözəl insanlar dəstək olmuşdur. Belə insanlar isə, həyatda həmişə saf və ləyaqətli olurlar. Məhz Elman müəllim də, bax belə şəxsiyyətlərdən biridir. Elman müəllimin elmi yaradıcılıq fəaliyyəti ilə yaxından tanış olandan sonra belə qənaətə gəlmək olur ki, o doğrudan da öz xalqını, milli adət-ənənəsini, milli folklorunu, milli mənəviyyatını sevən vətənpərvər filoloqlardandır. Elman müəllim pedaqoji ictimaiyyət arasında qabiliyyətli, əzmkar, zəhmətkeş, prinsipial, çox istedadlı alimlərimizdəndir. Onun diapazonlu elmi yaradıcılığı təkcə Azərbaycanda yox, xarici ölkələrdə dəyərləndirilərək xalqımıza başucalığı gətirmişdir. O, ADPU-nun ən hörmətli və ləyaqətli əməkdaşı kimi hamının etimadını qazanmışdır. Tələbə, müəllim kollektivi ilə səmimi ünsiyyəti ona universitet rəhbərliyinin, həm də bütün kollektivin böyük rəğbətini qazandırmışdır. Elman müəllim daim çətinliklərə sinə gərə-gərə elmdə addımlayan alimlərimizdəndir. O, çox ağır zəhmətə qatlaşaraq namizədlik və doktorluq dissertasiyası müdafiə edərək elmdə öz sözünü demişdir. Bütün bunlara isə o, özünün ciddi cəhdlə çalışması, səbri, mübarizliyi və prinsipiallığı ilə nail olmuşdur. Ayrı-ayrı insanların, xüsusilə alimlərin keçdiyi mənalı həyat yollarını öyrənmək və təbliğ etməyin müasir zəmanəmizdə olduqca mühüm əhəmiyyəti vardır. Xüsusilə böyüməkdə olan gənc nəsil üçün alimlərin keçdiyi mənalı həyat yolu daim örnək olmalıdır. Bu baxımdan şəxsiyyətinə və elmi fəaliyyətinə yüksək qiymət verdiyim Elman Quliyevin keçdiyi həyat yolu olduqca mənalı, çoxşaxəli və zəngindir. Elman müəllimin uşaqlıq illəri Azərbaycanın ən dilbər guşələrindən olan uzunömürlülər diyarı Leriklə bağlıdır. Bu bölgə ən qədim zamanlardan insanların məskunlaşması üçün əlverişli təbii coğrafi şəraitə malik olmuşdur. Bu baxımdan istedadlı alim Elman Quliyev uşaqlıq illərində göz açdığı dağlar qoynunda təbiətin yaratdığı füsunkar gözəlliklərdən ilham almış və onların əzəməti altında yaşamışdır. Elman müəllimi 5 əsas keyfiyyət səciyyələndirir:

1. *Ailəcanlı olması;*
2. *Əməksevərliyi;*
3. *Yüksək insani keyfiyyətləri;*
4. *Elmliliyi;*
5. *Onun yüksək humanizmi və sülhsevərliyi.*

Elman müəllim bu gün istedadlı bir alim kimi peşəsinə olan dərin vurğunluğu ilə səciyyələnir. Ömürdən keçən günləri ilə daim sevinc və fə-

rəh hissləri keçirən Elman müəllim bizim üçün həmişə müsbət nümunə və şəxsiyyət olaraq qalır. Elman müəllim Azərbaycanda və xarici ölkələrdə keçirilən beynəlxalq konfranslarda, simpoziumlarda, mötəbər məclislərdə fəal iştirak edir. O, çox sanballı və dəyərli dərslik, dərs vəsaiti, monoqrafiya, məqalə və elmi-metodik göstərişlərin müəllifidir. Respublikamızın mədəni həyatında da fəal surətdə iştirak edir. Bu gün Elman müəllim ömrünün ən gözəl çağını, müdriklik dövrünü yaşayır. Mənim onunla heç vaxt dəyişməyən səmimi dostluq və qardaşlıq münasibətlərim davam edir. Gün o gün olsun ki, biz Elman müəllimin 55 yaşını yox, 60, 70, 80, 90, 100 illik yubileyini qeyd edək. Osman Sarıvəllinin sözləri ilə desək, «Hər kəs 100 il yaşamasa günah onun özündədir.» Sizə gələcək ömür yollarında möhkəm can sağlığı, uzun ömür, xoşbəxt, firavan günlər və məhsuldar elmi yaradıcılıq, pedaqoji fəaliyyətinizdə isə yeni-yeni uğurlar və müvəffəqiyyətlər arzulayıram.

*Dağlar oğlu, dağ tək dayan həmişə,*
*İradən əyilməz, elmin var olsun.*
*Alovlan odtək, bənzə Günəşə,*
*O böyük Yaradan Sənə yar olsun!*



*İbrahim Bayramov*
*Filologiya elmləri doktoru, professor,*
*ADPU-nun Magisratura və doktorantura şöbəsinin müdiri*

# SƏMİMİ İNSAN, ETİBARLI DOST

1995-ci ildən həyatımın yeni bir səhifəsi Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlandı. Yeni iş yerim Azərbaycan dilçiliyi kafedrasının nəzdində fəaliyyət göstərən «Azərbaycan dilinin onomologiyası» elmi-tədqiqat laboratoriyasında kiçik elmi işçi vəzifəsi idi. Bu elmi tədqiqat-laboratoiyasının yaxınlığında başqa bir elmi– tədqiqat laboratoriyası «Folklorşünaslıq» problem laboratoriyası yerləşirdi. Burada ilk tanış olduğum şəxslərdən biri Elman müəllim oldu. İlk gündən istiqanlılığı, səmimiliyi, canıyananlığı ilə diqqətimi cəlb etdi. Hiss etdim ki, dost olmağa layiqdir. Sonralar onunla ünsiyyətim, əlaqəm genişləndi. Zənnimdə yanılmadığımı hiss etdim və sevindim ki, həyatda belə bir dostum da oldu.

Elman müəllim Azərbaycanın dağlar qoynunda yerləşən Lerikdə dünyaya gəlmişdir. O dağların möhkəmliyini, əzəmətini həmişə onda görürəm. O, zamanın sınağından həmişə üzüağ çıxmışdı. Ən çətin anlarda belə əyilməmiş, öz qürurunu saxlamışdır.

Prof.E.Quliyev türkologiya sahəsində tədqiqatları ilə nəinki Azərbaycanda, demək olar ki, bütün türk dünyasında nüfuzlu bir alim kimi tanınmışdır. Türkologiya sahəsində sistemli tədqiqatları ona alim nüfuzu gətirmiş, sanballı, bir-birindən dəyərli əsərləri ilə həmkarları arasında xüsusi hörmət qazandırmışdır. Eyni zamanda prof. E.Quliyevin əsərləri Türk xalqları ədəbiyyatı sahəsindəki boşluğu doldurmuşdur. «Türk xalqları ədəbiyyatı», «Özbək ədəbiyyatı», «Orta əsrlər türk xalqları ədəbiyyatı», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı», 2 cildlik «Şərq xalqları ədəbiyyatı» və s. əsərləri tələblərinin ehtiyacını ödəyir, bu elm

sahəsində biliklərin formalaşmasına çox müsbət təsir göstərir. Bu əsərlər gənc nəslin türk düşüncəsi ilə, milli-mənəvi dəyərlər ruhunda böyüməsində əvəzsiz rola malikdir.

Prof.E.Quliyev ADPU-da fəaliyyət göstərən «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə rəhbərlik edir. Bu mərkəzdə bilavasitə Elman müəllmin rəhbəriyi altında bir neçə dəyərli əsərlər nəşr olumuşdur.

Prof.E.Quliyevin uzun müddətdir ki, «Azərbaycan ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı» ixtisasları üzrə magistraturada mühazirələr aparır. Onun hər bir dərsi magistrantları yeni-yeni tədqiqatlara istiqamətləndirir. Prof.E.Quliyevə can sağlığı ilə yanaşı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. İnanıram ki, indidən sonra da onun yazacağı hər bir əsər Türkologiya sahəsindəki tədqiqatların istiqamətləndirilməsinə öz müsbət təsirini göstərəcək.



*Mahmud Allahmanlı*
*filologiya elmləri doktoru, professor*

# VƏTƏNPƏRVƏRLİYƏ HESABLANAN ÖMÜR

Ədəbiyyatşünas alimimiz, filologiya elmləri doktoru, professor Elman Hilal oğlu Quliyevin bu yaxınlarda əlli beş yaşının tamam olacağını eşidəndə ürəyimdən bir-birindən fərqliliklə keçən bir neçə hiss oldu. Yadıma bizdən qabaqkıların, müəllimlərimizin yubiley yaşları ilə bağlı düşüncələrim gəldi. Və düşündüm ki, bu illər nə qədər sürətlə, yel qanadı ilə uçub gedirmiş. Artıq biz nəslin bir hissəsinin yaşı əllini haqlayıb, digər bir hissəninki isə haqlamaqdadır. Gözlərim önünə neçə illər öncənin hadisələri gəldi. Elman Quliyevlə əlaqələrimiz, tələbəlik illərindən bu yana olanlar və s. Folklor laboratoriyada işlədiyimiz vaxtdan bu günə kimi hamısı yaddaşımdan keçdi. Ancaq bu yolun mahiyyətinə vardıqda, bir qədər diqqətlə yanaşdıqda təskinlik, fəxarət duyulacaq tərəfləri daha çox gözlərim önündə canlandı. Çünki prof. E.Quliyev bu yolu, əlli beş illik ömrü boş-boşuna xərcləməyibdir. Əksinə, şərəf və ləyaqət doğuracaq işlər görübdü. Azərbaycan elmi, mədəniyyəti üçün bütün varlığı ilə çalışıbdır. Bunları aydın görmək üçün təkcə kitablarını saymaq lazımdır. Hansı kitablar ki, burada bütünlükdə türkün mənəvi mədəniyyəti, ədəbiyyatı, tarixi cəmləşir. «M.Şəhriyar: Gəldim sizi görməyə» (Bakı, 1992), «Söhrab Tahir. Lirika» (Bakı, 1992), «Mirzə İbrahimov: ədəbi – estetik görüşlər və sənətkarlıq məsələləri» (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk

xalqları ədəbiyyatı» (Bakı, 2009, 2011), «Şərq xalqları ədəbiyyatı». 2 cilddə (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) və s. Ancaq bu adları sadaladım. Həmin adların arxasında duran böyük işləri, insan ömrünü fikirləşəndə bunun mahiyyəti daha da böyüyür. Və adam inana bilmir ki, bu qədər işi görmək üçün nə boyda sevgi, vurğunluq lazım imiş. Bax məsələnin mahiyyəti buradadır. Biz çox da bu mahiyyət məsələsinə fikir vermirik. Prof. E.Quliyevdə də belə olub. O, ilahi gücün sayəsində məhz bu işi görübdü. Və əlli beş yaşa əli boş gəlməyibdi. Bəlkə də neçə əlli illərə sığışacaq dəyərli işlər görübdü. Təkcə onun türk xalqları ədəbiyyatı ilə bağlı araşlırmalarını və yaxud da Şərq xalqları ədəbiyyatı ilə bağlı gördüyü işlərə diqqət yetirmək kifayətdi. Bunların arxasında böyük zəhmət, olanların ümumiləşdirilməsi, seçilib bir araya gəlməsi dayanır. Onu da xüsusi olaraq vurğulayaq ki, E.Quliyev böyük əzmkarlıq göstərərək Azərbaycan Dövlət Pedaqoji Universitetində «Türk odası» və «Türk araşdırmaları mərkəzi»ni yaradıbdı. Bu özlüyündə mədəni əlaqələrin genişlənməsinə, türk xalqları ilə münasibətlərin inkişafına, dəyərli bağlantılara xidmət edir. Təkrar qeyd edək ki, belə bir odanın, mərkəzin yaradılması məhz E.Quliyevin şəxsi təşəbbüsü və fədakarlığı sayəsində olubdu. Yarandığı vaxtdan gərəkli tədbirlərlə, dəyərli işlərlə səciyyələnən bu mərkəz artıq öz perspektivlərini, sabaha gedən yolunu müəyyənləşdirib. Bu həm də müstəqillik yoluna yeni qədəm qoymuş Azərbaycanımızın mədəni əlaqələrinin bağlantılarının güclənməsi məqsədinə yönəlikli işdi.

«Türk araşdırmaları mərkəzi»nin pedaqoji universitetdə yaranmasının digər bir üstünlüyü tələbə auditoriyası ilə bağlıdı. Çünki bu mərkəzin işinin mühüm bir hissəsi mənəvi dəyərlərin, türk xalqları ədəbiyyatının təbliği ilə bağlanır. Qoyulan problemlər, görülən işlər hamısı bir istiqamətdə bu məqsədə yönəliklidi. Və bu işlərin də başında prof.E.Quliyev durur. Məlum olduğu kimi, E.Quliyev uzun illərdi ki, azərbaycanlı balalarına türk xalqlarının ədəbiyyatından mühazirələr oxuyur. Bunun özü çox ağır, həm də məsuliyyətli işdi. Burada duyulacaq şərəf var. Universitetimizdə həmin fənnin tədrisi, proqramının, dərs vəsaitinin, dərsliyinin hazırlanması Elman müəllimin adı ilə bağlıdır. Göründüyü kimi, o, təkcə «araşdırmalar mərkəzi»nin rəhbəri olmaqla maraq doğurmur. Fəaliyyətinin mühüm bir hissəsi tələbə auditoriyası ilə bağlıdır. Ziyalı mühitinin, çoxsaylı müəllim ordusunun formalaşmasında Elman Quliyevin müəllim kimi böyük rolu var. İndi Azərbaycanın elə bir kəndi, şəhəri olmaz ki, orada dərs dediyi tələbə olmasın. Fikrimizcə, Elman müəllimin alimliyindən,

elmi fəaliyyətindən öncə onun müəllimliyi gəlir. O, müəllimlikdən alimliyə böyük bir yol gəlmişdir. Bu yolun bütün tərəflərində vətənpərvərlik, xalq, el-oba sevgisi dayanır. Əks təqdirdə bu qədər böyük işlərin görülməsi mümkünsüzdü. Müəllimliklə alimlik onda qovuşur, biri digərini tamamlayan fakta çevrilir. Görünür dünyaya göz açdığı Zuvandın əsrarəngiz təbiətindən, Savalan dağlarından əsən mehin ona çox güclü təsiri olub. Qəlbinin dərinliklərində olan vətən və xalq sevgisini yaşarılığa kökləyibdi. Burada Məhəmmədhüseyn Şəhriyarın, Mirzə İbrahimovun, Söhrab Tahirin və bu silsilədən olan digərlərinin yaradıcılıq və həyat təsirləri də var. Ona görə də onun düşüncəsində məsələlərə belə genişliklə yanaşma özünü göstərir. Məhz bu səbəbdən də E.Quliyev Özbəkistanda «Mirzə Uluğbəy» (1999) mükafatına layiq görülmüşdü. Bundan əlavə YUNESKO-nun «C.Rumi-800» (2009) yubiley tədbirində müsabiqənin laureatı olmuşdu. Bu özlüyündə kifayət qədər yüksək göstəricidi. Və prof.E.Quliyevin bu mərhələyə təsadüfi gəlmədiyini, əksinə böyük araşdırmalarla, dəyərlərlə irəlilədiyini təsdiqləyir. Azərbaycan Dövlət Pedaqoji Universitetindəki dəyərli işləri ilə bağlanır. Bunlar müəllimlik və tədqiqatçılıq fəaliyyətində, araşdırmalar mərkəzindəki böyük işlərdə özünü göstərir. Universitetdə iki dəfə ilin alimi, bir dəfə ilin müəllimi kimi uca ada layiq görülmüşdür. Məhz bütün bu işlərin nəticəsi olaraq o, ölkə prezidenti tərəfindən «Tərəqqi» medalı ilə təltif olunmuşdur. Bütün bu uğurlar prof.E.Quliyevin vətənpərvərliyindən keçir. Və deyərdim ki, o, bütün işlərini xeyirxahlığa, yaxşılığa, insanlara əl tutmağa, vətənpərvərliyə hesablayır. Elə əlli beş yaşa da məhz bu böyük dəyərlərlə gəlmişdir.



*Ramazan Qafarlı*
*filologiya üzrə elmlər doktoru,*
*professor*

## DOST HAQQINDA SÖZ

Müəllim, alim, təşkilatçı, ailə başçısı və dost!

Ömrünün qoşa «beş»inə çatan ərəfədə Elman Quliyevin bu qoşa beş cəhətindən saatlarla danışmaq mümkündür. Birinci hansından başlamalıyam? Düzü, çətinlik çəkirəm. Çünki o, müəllim ömrünü də, alim ömrünü də eyni bacarıq və istedadla yaşamış, eyni şövq, sevgi və həvəslə yazıb-yaratmaqdan, danışıb şərh etməkdən doymayıb. Gözəl övladlar ərsəyə gətirdiyi də göz qabağındadır. Dostluğuna gəlincə, Allah Elman Quliyevə o qədər səxavət və xeyirxahlıq bəxş edib ki, hamıya pay verməyə imkanı olsun. Zahiri görünüşündəki həlimlik, mülayimlik bir daha təsdiqləyir ki, bu adamın pislik etmək əlindən gəlmir. Sanki xəmiri xeyirxahlıqla yoğurulub. Onu da vurğulayım ki, o, ömrünün bu mərhələsində qazandıqları uğurlara, ad-sana asanlıqla çatmayıb. Addımladığı çala-çuxurlu, kol-koslu yollarda qarşısına irili-xırdalı kötük atanlarla da çox rastlaşıb, amma heç vaxt sınmayıb, əyilməyib, təmkinini pozmayıb, səbir kasası dolub daşanda belə, kinini-qəzəbini içinə salıb. «Pislik şeytandan gəlir, mənə təpik atanlara da bacardığım yaxşılığı edəcəyəm» – deyib.

Elman Quliyevin itirdikləri bəlkə də qazandıqlarından çox olub. Qardaşı Arazın, ustadı Xeyrulla müəllimin yoxluğu bu gün bizləri də sarsıdır. Elə düşünürəm ki, Elman Quliyev bu ağır yanğıları ilə özündə yaşamağa ona görə güc tapıb ki, yazıb-yaratmaq qüdrətinə malik olub. İçindəki ağrı-acılar Şərqin və Türkün söz korifeylərinin əsərlərindən aldığı müdrikliyin, şirinliyin çevrəsində itib-batıb. Şəhriyar sevgisiylə başlayan ədəbiyyat vurğunluğu onu Firdovsinin, Sədinin, Hafizin, Mahmud Qaşqarlının,

Yusif Balasaqunlunun, Əhməd Yasəvinin, Yunus İmrənin, Cəlaləddin Ruminin və onlarla başqa qüdrətli söz sənətkarının irsinin araşdırılmasına, şərhinə və təbliğinə doğru uzun bir yola çıxardıb. Bununla alimin cildlərlə kitabının meydana gəlməsinə münbit şərait yaranıb və sevindirici haldır ki, onun elmi fikirləri Azərbaycandan kənarlara da yayılır...

Deyərdim ki, Elman Quliyevin vəzifəsi lap yuxarılara da yüksələ bilər, kitablarının sayı-hesabı bilinməz, hətta şöhrəti Amerikaya da gedib çatar, lakin heç bir qüvvə onun dostluğunu, insanlara sədaqətini azaltmağa qadir olmaz. Ona görə ki, o, doğulub boya-başa çatdığı Lerikin saflığını, təmizliyini öz içinə çəkib. Çünki o, elə insanlardan tərbiyə alıb ki, onlar böyük bir elin arxası, yolgöstərəni olublar.

Ağac bar verdikcə budaqları yerə doğru əyilir. İnsan da yaratdıqca cəmiyyətdə yararlı şəxsə çevrilir və sayılıb-seçilir. Bilikli, təhsilli nəsil yetişdirdikcə, müdrikləşir, arxasında sağlam alimlər, müəllimlər ordusu görüb ağsaqqallaşır. Doğrudur, Elman Quliyev hələ cavanlığını yaşayır, amma onun davranışı, rəftarı, əməlləri genindəki böyüklüyündən, ağsaqqallığından irəli gəlir. Bəli, 55 yaşlı pedaqoq-alim bu gün ömrünün ən şirin çağını yaşayır və həqiqi ağsaqqallıq dövrünün astanasına doğru kövrək addımlarını atır.

Müəllim, alim, təşkilatçı, ailə başçısı və dost! Bu beş cəhətinə həmişə eyni dərəcədə diqqətlə yanaşan, öz yerini bilən, sözünü deməyi bacaran, çalışdığı sahəyə xeyli yenilik gətirən insana ancaq xöşbəxtlik və daha böyük yaradıcılıq uğurları arzulamaq qalır. Bura qədər günləri acını, şirini bir-birinə qataraq keçib, qoy bundan sonrakı yaşantısı ancaq şirindən şirin olsun.



*Təyyar Salamoğlu*
*ADPU-nun «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının professoru, filologiya elmləri doktoru*

## ELƏ İNSANLAR VAR Kİ...

Elə insanlar var ki, sənin həyat tarixçəndə bir saatlıq, bir günlük yer tutur. Haçansa, nə vaxtsa, nə münasibətləsə görüşürsən və yaranmış münasibət burda da qurtarır. Elə insanlar da var ki, sanki sənin taleyinin yol yoldaşıdır. Bir dəfə nə münasibətləsə uğuruna çıxır və yenə də sanki tale qədər yazıbmış ki, sənin həyatının bir parçasına çevrilir. Həyatın enişli-yoxuşlu yollarında bəzən onunla birlikdə, bəzən də paralel şəkildə Allahın sənə bəxş etdiyi ömrü yaşayırsan. Mənim yarım əsrlik həyat tarixçəmdə belə insanların sayı çox olmasa da, az da deyil. Və bunlardan biri hazırda mənimlə eyni kafedrada professor kimi çalışan Elman Quliyevdir. Elman müəllim bu günlərdə anadan olmasının 55-ci ildönümünün sevincini (olsun ki, həm də nisgilini) yaşayır. Əlli beş il! Ömrün əsrin yarısından uzun bir parçası! Bizi ömrün payızına aparan yolun başlanğıcı!

Uşaqlığımız və erkən gəncliyimiz ayrı-ayrı bölgələrdə keçib. Elman müəllim Lerikin cənnətməkan guşələrindən birində dünyaya göz açıb. Mən Aranlıyam. Qızmar istiləri ilə xatırlanan, amma mənim üçün elə cənnətin bir parçası olan Sabirabadda doğulmuşam.

1977-ci ildə qazandığımız ilk böyük uğur onu Lerikdən, məni Sabirabaddan qoparıb (heç şübhəsiz ki, cismani) şəhər mühitində birləşdirdi. Filologiya fakültəsinin I kursunda təhsil alan 250 tələbənin arasından bizim də səsimiz gəldi. Elmanın səsi çox tez seçildi, fərqləndi. Filologiyanın seçilən, elmlərin əsaslarını israrla mənimsəməyə girişmiş onlarla tələbələri sırasnda Elman öz «mən»ini çox tez təsdiq etdi.

Tale yolumuzdakı müvəqqəti ayrılıq çox az bir zamandan sonra ye-

nidən eyni bir müstəvidə kəsişdi. Filologiya fakültəsini müvəffəqiyyətlə bitirib, doğulub boya-başa çatdığımız rayonlarda bir neçə il Azərbaycan dili və ədəbiyyat müəllimi işləyədən sonra alim olmaq istəyi hər ikimizi bir-birimizdən xəbərsiz Bakıda görüşdürdü. 1984-cü il idi.

Hər ikimiz imtahan və müsahibələrdən müvəffəqiyyətlə keçib ədəbiyyatşünaslıq elminin fədaisinə çevrilmək üçün mənəvi imtiyaz əldə etdik.

Elman müəllim Mirzə İbrahimovun yaradıcılığına dair yazdığı namizədlik dissertasiyanı 80-ci illərin sonlarında uğurla müdaifə etdi.

Doxsanıncı illərin işsizlik, evsizlik, iqtisadi məhrumiyyətlərlə keçən bir-neçə ilini də sıcaq əlaqə, sıx ünsiyyətdə keçirdik. Bir-birimizə təsəlli verir, Allahın hər şeyə zamin durması, bizim də bu çətinliklərdən adlayıb keçəcəyimiz haqqında tez-tez təsəlli-söhbətlərimiz olurdu.

Biz eyni vaxtda, bəlkə də eyni gündə doğma institutumuzun nəzdində açılan Folklorşünaslıq problem laboratoriyasında işə düzəldik. Sanki Allahın bizim üzərimizdə xüsusi nəzarəti varmış kimi biz çox qısa bir zamanda baş müəllim, dosent olduq.

Bu arada zaman çox tez keçirdi. Elə indi də elədir. Bəlkə də heç yerli-dibli elə deyil. Sadəcə biz – elmə təşnə olan insanlar yaradıcılıq, elmi fəaliyyət aurasına elə daxil olmuşduq ki, zamanı heç hiss etmirdik.

ADPU-nun professoru, filologiya elmləri doktoru, nüfuzlu ədəbiyyatşünas alimlər kimi aramsız çalışdığımız indiki illərdə (hiss edilmədən keçən 25 ildə) keçib gəldiyimiz yol qürur mənbəyimizdir.

Elman müəllimin doktorluq müdaifəsi çox keşməkeşli oldu. «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda dəyərli tədqiqatı nədənsə çoxlarının müqaviməti ilə rastlaşdı. Elman dönməz xarakteri və təbii ki alim dostlarının mənəvi dəstəyi ilə bu müqaviməti uğurla qırdı. Çoxları burda nöqtə qoyur. «Filologiya elmləri doktoruyam, bəsimdir» düşünür. Ancaq Elmanın elmi fəaliyyət ehtirası nəhayətsiz idi. O, bir-birinin ardınca Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinə həsr edilmiş kitablar yazdı. M.Şəhriyar haqqında monoqrafiyasını, onun əsərlərindən ibarət topluları nəşr etdirdi. «Gəldim sizi görməyə...» adlı M.Şəhriyarın lirik şeirlərindən, S.Tahirin əsərlərindən ibarət miniatür kitablar çap olundu. Onlara dərin məzmunlu «Ön söz»lər yazıldı. Mən o kitabların elmi redaktoru olmuşam. Bu ilk məhsullarımıza biz necə yanaşırdıq, necə həyəcanlar keçirirdik.

«Ustad Şəhriyarın ana dilli şeirlərinin çoxsaylı nümunələrini Şimali Azərbaycanda ilk dəfə kitab şəklində və ayrı-ayrı qəzet və jurnal səhifələ-

rində çap etdirib oxuculara təqdim etmək»lə bərabər, bir-birinin ardınca o, «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Şəhriyar poetikası», «Şəhriyar poeziyası və milli təkamül», «Heydərbabaya salam, necə varsa» kitablarında bu böyük şairin sənət yolunun özünəməxsusluqlarını araşdırdı, maraqlı elmi nəticələr əldə etdi. Bu kitabların şəhriyarşünaslıqda xüsusi yeri vardır.

Elmi təfəkkürünün universallığı onu ali məktəbdə tədris etdiyi türk və şərq xalqları ədəbiyyatlarına dair araşdırmalara sövq etdi. O, bu fənlərə dair tədris proqramları, dərs vəsaitləri nəşr etdirdi. «Türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı», «Ümumtürk ədəbiyyatı» adlı tədris proqramları, «Müasir özbək ədəbiyyatı tarixi», «Türkiyə türk ədəbiyyatı» adlı dərs vəsaitləri ilə o, yeni-yeni elmi və tədris-metodik uğurlara imza atdı. Elmanın türk xalqları ədəbiyyatı sahəsindəki araşdırmaları son nəticədə «Türk xalqları ədəbiyyatı» adlı bir dərsliyin yaranması ilə nəticələndi. Dərsliyin son nəşrlərindən birinə Türkiyə Respublikasının Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Hulusi Kılıçın «Tədqiqatçının türk yanğısı və ya qısa zaman uğurları» adlı məzmunlu «Ön söz»ündə oxuyuruq: «Əsərlə tanışlıq oxucuda ümumtürk yazılı abidələri, türk dünyasının ən böyük ədəbi simaları olan C.Rumi, Y.İmrə, Ə.Hamid, T.Fikrət, N.Kamal, Z.Göyalp, R.N.Güntəkin, Ə.Nəvai, M.Şeyxzadə, M.Fəraqi, A.Kunanbayev, İ.Qaspıralı, O.Süleymanov, Ç.Aytmatov və s. sənətkarların həyat və yaradıcılıqları haqqında kompleks təsəvvür yaradır, geniş mənada türk mənəvi dəyərləri, ədəbi-bədii zövq və təfəkkür tərzinin üstünlüklərini nümayiş etdirir. Bu çərçivədə Elman Quliyevin türkoloji çalışmalarını və fəaliyyətini yüksək qiymətləndirir, ona uğurlar diləyir və müəllifin «Türk xalqları ədəbiyyatı» kitabını türk dünyası üçün əhəmiyyətli hesab edirəm».

Prof. Elman Quliyev istedadlı alim, tanınmış pedaqoq olmaqla bərabər, həm də bacarıqlı təşkilatçıdır. O, doğma universitetimizdə «Türk araşdırmaları mərkəzi»nin təməl daşını qoymuş, artıq neçə illərdir ki, bu mərkəzə rəhbərlik edir.

Azərbaycan ədəbiyyatşünaslığının ünlü simalarından biri – filologiya elmləri doktoru, professor H.Qasımov onun elmi və təşkilatçılıq fəaliyyətinə böyük dəyər verərək yazır:

«ADPU-nun Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru Elman Hilal oğlu Quliyev Şərq ölkələrində böyük nüfuza malik tədqiqatçı kimi tanınır. Onun İran, İraq və Türkiyədə çap olunan əsərləri, bir çox beynəlxalq konfranslarda etdiyi

məruzələr deyilənlərə əyani sübutdur. «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri kimi fəaliyyəti elmi-təşkilatçılıq bacarığına və türk təəssübkeşliyinə əyani sübutdur» (H.Qasımov. Nəcib insan, görkəmli alim. E.Quliyev. Türk xalqları ədəbiyyatı. Bakı. Qismət, 2009, s. 11-12).

Professor E.Quliyev türk xalqları ədəbiyyatının araşdırılması və tədrisində əldə etdiyi nailiyyətlərinə görə 1989-cu ildə «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı almış, 2007-ci ildə isə «C.Rumi – 800» (YUNESKO) müsabiqəsinin laureatı olmuşdur.

Hörmətli həmkarım prof. E.Quliyev yaradıcılığının çiçəklənmə dövrünü yaşayır. Bu isə yeni-yeni uğurlara imza atmaq üçün təminat verir. Alim dostumu anadan olmasının 55-ci ildönümü münasibətilə bir daha təbrik edir, ona can sağlığı diləyir, elmi və pedaqoji fəaliyyətində davamlı uğurlar diləyirəm.



***Seyfəddin RZASOY***
*AMEA Folklor İnstitutu*
*Mifologiya şöbəsinin müdiri,*
*filologiya elmləri doktoru*

# MAYASI BİLİKDƏN VƏ MƏRİFƏTDƏN YOĞRULMUŞ ŞƏXSİYYƏT VƏ ALİM

Hər bir şəxsiyyət zamanla polad kimi tökülür, bina kimi tikilir, dağ kimi ucalır. Poladın kristallik möhkəmliyi, binanın harmonik gözəlliyi, dağın möhtəşəm ucalığı bizi heyran edir. Ancaq nə möhkəmlik, nə gözəllik, nə də ucalıq bünövrəsi olmasa, öz-özünə yaranmaz. Bu, bizim mənsub olduğumuz dünyanın maddi və mənəvi strukturunun ilahidən gələn dialektikasıdır.

Məndən cəmi bir neçə yaş böyük olsa da, onu həmişə böyük, güclü və öndə görmüşəm. Bu, doğrudan da, belədir. O, tələbə olanda da, aspirant olanda da, alim olanda da, ali məktəb müəllimi olanda da həmişə yaşından böyük və məqamının fövqündə olub. Bunun adı mənim xüsusi poliqrafiya ilə vurğulamaq istədiyim müdriklikdir.

Söhbət filologiya üzrə elmlər doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, orada «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri, görkəmli alim, görkəmli müəllim, milli ədəbiyyatşünaslığımızın ən aktual problemlərinə dair çoxsaylı məqalələrin, kitabların müəllifi, ali məktəb tələbələrinin uzun onilliklər boyu dərsliyinə uzun müddət tamarzı qaldıqları aktual fənlər üzrə mühüm dərsliklərin müəllifi, türkoloji ədəbiyyatşünaslıq, şərqşünaslıq sahəsindəki fəaliyyətlərinə görə beynəlxalq ədəbi mükafatların laueratı, respublikanın məşhur Dissertasiya Şuralarının üzvü Elman Hilal oğlu Quliyevdən gedir.

Bu sadalaya bildiklərim onun görünən, hamı tərəfindən bilinən, başqa sözlə, ictimai-elmi fəaliyyətini əks etdirir. Və bütün bunların hamısı,

etiraf edirəm ki, hər bir alim-müəllimin arzuladığı, çatmaq istədiyi məqamlar – zirvələrdir. Ancaq prof. E.H.Quliyevin bütün bu obrazının içərisində bir obraz da var: onu taleyin dolanbaclarından, həyatın keşməkeşlərindən, fələyin min bir oyunundan sağ-salamat – mənəviyyatı və cismi heç bir zədə almadan keçirən obraz.

Bu obrazın bünövrəsi nə ali məktəbdə qoyulmayıb, nə də aspiranturada və doktoranturada yaranmayıb. Və əslində, prof. E.Quliyevin içərisindəki sadəcə «Elman» adı ilə işarələnmiş həmin obraz bu sadaladığım məktəblərdə yarana da bilməzdi. Bunun üçün məhz Zuvandda doğulmaq, Kələxanın bulaq sularını içə-içə, kəklikotusunun ətrini sinəsinə çəkə-çəkə böyümək, dağlarında quzu otaranda hansısa mübhəm, məchul bir hissin maqnetik cazibəsilə Sahalın zirvəsinə qalxıb, heyrət və həsrətlə cənub ellərinə baxmaq lazım idi.

*O ellər ki, kimin üçünsə sərhəddin o tayında qalmışdı...*

*O ellər ki, kimsə onu Cənubi Azərbaycan adı ilə tanıyırdı...*

*O ellər ki, kimsə onun adını çəkməyə belə qorxurdu...*

Ancaq zuvandlılar üçün o ellər nə Cənub, nə İran, nə də sözün hər iki mənasında iraq və İraq deyildi. O ellər haqqında hər gün evlərdə söhbət getdiyi, qohumların, yaxud Ərdəbil dialektində deyildiyi kimi, evladların, doğmaların yaşadığı, lakin telin o tayında qalmış yurd idi. Sərhədlər, tellər, rus əsgərləri, təqiblər bu doğmalığı korşalda, sevgini öldürə bilmədi. Balaca Elman Sahaldan o yana baxanda qəlbi anlaşılmaz coşqu ilə dolur, ürəyi arzuların yaratdığı həyəcandan az qala partlayır və ən qəribəsi, ruhuna, qəlbinə ecazkar bir ətir dolurdu.

Bu nə ətir idi, nəyin ətri idi?!

Anlamır, həyəcanından boğulur və bu halı kimsə ilə bölə də bilmirdi. Və bu, beləcə davam edirdi. Axır bir gün Süleyman Rüstəmin «Təbrizim» şeirini oxudu, bir gün Mirzə İbrahimovun «Gələcək gün» romanını oxudu. Və bir gün kəndə şagird dəftərində yazılmış «Gülüstan» poeması gəlib çıxdı. Onu oxuyub Bəxtiyarı, Bəxtiyarı oxuyub da Şəhriyarı tanıdı. «Heydərbabya salam» poemasına Şəhriyarın öz ifasında xışıltılı maqnitafon lentində qulaq asanda Sahalın zirvəsində telin o tayına baxarkən ruhunu yerindən oynadan, ağlını başından alan ətrin nə olduğunu anladı. Bu ətir Sahaldan cəmi 20 kilometr aralıda olan Ərdəbildən, Azərbaycan varlığının, milli ruhunun doğulduğu məkandan – Şah İsmayıl Xətainin məzarından gəlirdi. O ətir hər bir zuvandlının bağrında, ciyərlərində, qəlbində var. Fərqi yoxdur, zuvandlı Zuvandda doğulsun, Biləsuvarda doğulsun, ya

Bakıda, ya Şəkidə doğulsun: Xətai ətri, Xətai adabı, Xətai ruhu onunla birgə doğulur.

Elman bu ətirlə doğuldu, bu adabla böyüdü, bu ruhla da ömrünü yaşayır. Onun davranışlarındakı ağırlığı, heç nəyin qarşısında sarsılmayan kişi abrını, dünyanın şeytani gedişlərinə ağayana iztehzasını Zuvandda Xətai ətrini sinəsinə, ruhuna, cisminə, toxumalarına, hüceyrələrinə, hər bir geninə çəkməyən bilməz. Mən Elmanı uşaqlığından böyüdən, yaşından böyüdən, boyundan-cismindən böyüdən, məqamından böyüdən bu ruhu bilirəm. Elmana olan sevgim, rəğbətim və ehtiramım da o ruha bağlıdır. Xətai ruhunu daşıyanları sevməmək, Xətai ruhunu daşıyıb da sevilməmək mümkünsüzdür.

Biz elm adamları faliyyətimiz boyunca müxtəlif elmi dərəcələr, adlar almağa çalışırıq. Prof. E.Quliyev bunların ən yüksəklərinə nail olub. Ancaq onun elmdə çatdığı uca bir məqam da var. Elə bir məqam ki, onun eşqi ilə uşaqkən alışıb-yanıb, cismini, yuxusuz gecələrini, rahat günlərini, istirahətini o məqama qurban verib və ona çatıb. O – mərifətdir. Elman Quliyev indi öz elminin mərifət məqamındadır. Və bu məqama doğru uşaqlıqdan – qəlbinə, ruhuna Xətai ətri dolandan yol gəlməkdədir.

Mərifət – hərfi mənada bilik(lər) deməkdir. Ancaq insanın aldığı hər bilik, oxuduğu hər kitab onu mərifətə çatdırmır. Mərifətə könüllə, eşqlə çatırlar:

*Qəlbində ilahi eşqi olmayanlar mərifətə çata bilməzlər.*
*Cisimlərini bu yolda yandırmayanlar mərifətə yetə bilməzlər.*

Prof. E.Quliyev ucqar dağ kəndində uşaqlara ədəbiyyatı sevə-sevə öyrədəndə də, «Gələcək gün»ün müəllifinin nəsrini, Şəhriyarın şeirini milli sevgi ilə tədqiq edəndə də, tellər qırılanda ulu Şəhriyarın görüşünə tələsəndə də, ulu Xeyrulla Məmmədlinin yoxluğundan müdrik sarsıntı keçirəndə də, əslində, mərifət dalınca gedib.

Prof. E.Quliyevin elmi yaradıcılığı çox zəngindir. O, respublikamızda ədəbiyyatın tədqiqi və tədrisi sahəsində tanınmış professordur. Peşəkar alim kimi müasir Azərbaycan nəsri və şeirinin yaradıcılıq dinamikasının onun milli böyümə sxemləri problemi üzrə tədqiqi istiqamətində ixtisaslaşmışdır. Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinə dair dəyərli əsərlərin müəllifi olan E.Quliyev özünün son layihəsi olan «Şərq xalqları ədəbiyyatı» müntəxəbatına qədər fundamental monoqrafiyalar, sanballı dərsliklər yazaraq tələbə və müəllimlərin ixtiyarına vermişdir. Onun elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s.

kimi xarici ölkələrdə çap olunaraq Azərbaycan elminə şöhrət gətirməkdədir.

Elman müəllimin yaradıcılığının xarakterik keyfiyyəti onun əsərlərinin bütün hallarda konseptual ideya əsasında yazılmasındadır. Məsələn, son dövrlərdə Şərq ədəbiyyatının tədrisi sahəsində sözün həqiqi mənasında fundamental hadisə olan «Şərq xalqları ədəbiyyatı» müntəxəbatı müəllif tərəfindən irəli sürülmüş «Şərq mahiyyəti ideyası» əsasında reallaşdırılmışdır. «Şərqi tarixin başlanğıcı və insanlığın ilk vətəni» sayan, onun xoşbəxtliyini «insanlığın ilkin yaddaş, mənəviyyat və mədəniyyət laylasını Şərq beşiyində, onun isti qucağında dinləməsində» görən, «günəşin Şərqdə doğmasını, peyğəmbərlərin, müqəddəs kitabların bu torpaqlara göndərilməsini Allahın Şərqə hədiyyəsi və məhəbbətinin təzahürü» kimi qəbul edən prof. E.Quliyevin «Şərq fenomeni» konsepsiyasına görə, «Şərqi Tarix deyil, Tarixi Şərq yaradıb. Bu mənada «Tarix Şərqlidir» desək, yəqin ki, səhv etmərik. Ona görə də insan və cəmiyyətlə bağlı bir çox məsələlərin təməlində Şərq mahiyyətinin dayanması ideyasının üstündən sükütla keçmək qeyri-mümkündür».

Müəllifin bu yanaşma modelində vurğulanan «Şərq mahiyyəti ideyası», əslində, E.Quliyevin bir alim-filoloq və müəllim-pedaqoq kimi çoxillik fəaliyyətinin daxili hərəkət dinamikasını təşkil edən, onu 1444 səhifədən ibarət «Şərq xalqları ədəbiyyatı» müntəxəbatı kimi nəhəng bir layihəni reallaşdırmaq yolunda aramsız zəhmət çəkməyə, gərgin əmək sərf etməyə sövq edən əqli-idraki yaşam konseptidir. Məhz «Şərq mahiyyəti ideyası» müəllifin əqldə modelləşdirib, xalqın intellektual mülkiyyətinə çevirdiyi ikicildliyin energetik qaynağını, konseptual bazasını təşkil edir.

Prof. E.Quliyevin «Şərq xalqları ədəbiyyatı» müntəxəbatı ikicildliyi üçün xarakterik olan bu konseptuallıq, əslində, onun istənilən əsəri üçün səciyyəvidir. Bu mənada onun yaradıcılığı Azərabycan ədəbiyyatşünaslığının, ədəbi-nəzəri fikrinin mühüm və üzvi tərkib hissəsini təşkil edir. Biz ürəkdən gələn fəhmlə inanırıq ki, Uca Allahın qəzavü-qədərinə bütün varlığı ilə inanan Elman müəllim ona verilmiş ömür payınının hər bir anını elm və mərifət yolunda sərf edəcək və Azərbaycan ədəbi düşüncə tarixinin «Elman Quliyev» mərhələsini gerçəkləşdirəcək.



*Cəlil Baxşıyev*
*Lerik Rayon İcra Hakimiyyəti başçısının I müavini*

## QOHUMLAŞAN, DOĞMALAŞAN DOSTLUQ

Sözün düzü, həmişə ad günlərində təbrik ünvanladığım uşaqlıq dostum Elman müəllimin hansı yaşını qeyd etməsinin heç fərqinə varmamışam. Həmişə elə hiss etmişəm ki, məktəb illərində, sonra tələbəlik illərində yığışıb keçirdiyimiz ad günlərindən biridir. Lakin özüm də 50-ni adladıqdan sonra hiss etmişəm ki, yox e deyəsən, yavaş-yavaş «gəncləşirik»... Və bu gün Elman müəllimin ad günü ərəfəsində ona hədiyyə olaraq, dostlarının, əziz insanların xatirələrindən, ürək sözlərindən ibarət kitab hazırlanmasını alqışlayıram.

Elman müəllimlə aramızda yaş fərqi elə də çox deyil. Uşaqlığımız, gəncliyimiz demək olar ki, bir yerdə keçib. Lerikin qədim Zuvand bölgəsinin axarlı-baxarlı, əsrarəngiz təbiəti olan Kələxan kəndində böyüyüb boya-başa çatmışıq. O, məndən iki sinif yuxarıda oxuyurdu. Bəzən siniflərimiz birləşdirilirdi, eyni sinifdə müəllim bizə həm ikinci, həm də dördüncü sinifin dərsini keçirdi. Uşaqlıqdan fəallığı ilə seçilirdi Elman müəllim.

Kəndimizdə məktəb ibtidai olduğuna görə təhsilimizi qonşu Kəlvəz kənd orta məktəbində davam etdirirdik. Kəlvəz kənd məktəbi rayonumuzda ən qədim məktəbdir. 115 yaşı var. Bu gün respublikamızda və onun hüdudlarından kənarda belə, tanınan alimlərin yetişməsində mühüm rol oynayan Kəlvəz məktəbi, sözün əsl mənasında bir elm məbədidir. Tale elə gətirib ki, Elman müəllim də bu məktəbdə həm oxuyub, həm də 10 il müəllim kimi çalışıb. Ona dərs deyən müəllimlərlə çiyin-çiyinə işləmək çətin olsa da, Elman müəllim bunun öhdəsindən layiqincə gəlib. Hətta təşkilatçılıq qabiliyyətinin yüksək olduğunu görüb onu tədris işləri üzrə direktor müavini, məktəb komsomol təşkilatının katibi seçmişdilər. Direktor müa-

vini kimi işlərinin çox olmasına baxmayaraq Elman müəllim, həm ictimai-siyasi tədbirlərin hazırlanmasında fəal iştirak edir, həm də elmi yaradıcılıqla məşğul olurdu. Bunun nəticəsi idi ki, o, çox gənc yaşında, 1988-ci ildə ucqar bir dağ kəndində müəllim işləyə-işləyə filologiya elmləri namizədi elmi dərəcəsini almışdı. Bu gün artıq Azərbaycan Dövlət Pedaqoji Universitetin professoru, filologiya elmləri doktorudur.

... O vaxt kəndlərdə ailələr hamısı çoxuşaqlı idi. Hər kənddən 15-20 nəfər uşaq dəstə-dəstə səhər tezdən yola çıxırdıq ki, dərsə vaxtında çataq. Yol boyu biz çox vaxt müəyyən zarafatlar edərdik. Lakin indiki kimi ciddi olan Elman müəllim onda da özünü əsl müəllim kimi aparırdı. O zaman doğrudan da orta məktəb həyatı həm maraqlı idi, həm də müəllimlər tələbkar idi. Yadımdadır, məktəbdə keçirilən tədbirlərdə də Elman müəllim öz fəallığı ilə seçilirdi.

Bizdən böyük olsa da çox vaxt ərkyanə deyərdik ki, alim, nə var, nə yox? Onda heç kimin ağlına da gəlmirdi ki, zarafatla deyilən bu söz uzun illərdən sonra öz təsdiqini tapacaq. Bu həm də gözlənilən idi. Çünki həm onun böyüdüyü ailənin, mənsub olduğu nəslin demək olar ki, böyük bir hissəsi ziyalı idi, tanınmış şəxslər idi, həm də Elman müəllim özü elmə, mütaliəyə həddən çox maraqlı idi.

... Elman müəllimlə dostluğumuzun təməli deyərdim ki, o uşaqlıq, gənclik illərindən birgə keçirdiyimiz qayğısız günlərdən qoyulub. Tale elə gətirib ki, bu dostluq əlaqələrimizi daha sıx tellərlə bağlamaq bizə nəsib olub. Kənddə bir-birinə yad adam onsuz da yoxdur. Axtarsan hamı bir-biri ilə qohum çıxır. Ancaq biz doğrudan da həm yaxın qohum idik, həm də yaxın dost. Növbəti dəfə isə övladlarımız bizi yenidən daha da yaxın etdi. İndi biz bir ailəyik.

Elman müəllimin elmi işlərinin, xarici səfərlərinin çox olmasına baxmayaraq o, bu gün rayonumuzun ictimai-siyasi, mədəni həyatında iştirak edir. Onun sadəliyi, çöhrəsindən əskik olmayan o xoş gülüşü onu ilk dəfə belə görən hər bir insanın sevimlisinə çevirir.

Kəndimizin, ümumiyyətlə, qədim tarixə malik Zuvand mahalının sayılan hörmətli ziyalıları içində Elman müəllimi fərqləndirən ən mühüm cəhətlərdən biri onun doğma yurda, qohum-əqrəbaya sıx bağlılığıdır desəm məncə, dostlarımız mənimlə razılaşar. Doğrudan da, bəzən elə olur ki, hər hansı tədbirlə bağlı o, özünü məndən tez kəndə çatdırır. Baxmayaraq ki, rayon mərkəzində yaşayıram, bir də görürəm mənə zəng edir, filan tədbir var getmirsən? Deyirəm yox, gəlin birlikdə gedək. Gülür. Mən burdayam, səni gözləyirik.

Yadımdadır, uşaq vaxtı təsərrüfat işləri ilə əlaqədar, çox vaxt isə maraq üçün bütövlükdə mərmər daşlardan ibarət «Qala»ya, «Sahal» dağına birlikdə gedər, tikanlı məftillərin ikiyə böldüyü Vətən torpaqlarımızı, Cənubi Azərbaycanı, qızmar yayda da başı qarlı Savalan dağını xüsusi maraqla və qəlbimizin dərinliyində kök salmış həsrətlə seyr edərdik. Mənə elə gəlir ki, Elman müəllimin elmi araşdırmalarının da əsas qayəsini, ana xəttini Cənubi Azərbaycan mövzusu, ustad Şəhriyarın yaradıcılığının və bütövlükdə türk xalqları ədəbiyyat tarixinin araşdırılması təşkil etməsi heç də təsadüfi deyil.

... Yadıma düşmüşkən bir haşiyə qeyd etmək istərdim. Elman kənddə müəllim işlədiyi vaxtlarda da tez-tez «Sahal» dağına qalxıb tarixi düşmənlərimiz tərəfindən parçalanan Vətənimizin tikanlı məftillər arasında qalan yurd yerlərinə həsrətlə baxardı. Hər gəlişində tarixlərin gərdişinə mətinliklə sinə gərmiş «Sahal» dağının ətəyində Çinar, Söyüd və Qovaq ağacı əkmişdir. Bu gün də kəndə gələndə Elman müəllim vaxt tapıb o ağaclara baxır, onlara qulluq edir.

Mən ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, «Türk odası», «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin müdiri, Azərbaycan və xarici ölkələrdə tanınan görkəmli ədəbiyyatşünas alimi, rayonumuzun fəxri, uşaqlıq dostum Elman müəllimi anadan olmasının 55 illiyi münasibəti ilə ürəkdən təbrik edir, Uca Tanrıdan ona möhkəm cansağlığı və uzun ömür, şəxsi həyatında xoşbəxtlik və səadət arzulayıram. Bu gün bir alim kimi nəinki respublikamızda, türk və Şərq ölkələrində yaxşı tanınan, böyük nüfuz qazanan Elman müəllimlə fəxr edir, elmi yaradıcılığında və pedaqoji fəaliyyətində ona yeni-yeni nailiyyətlər arzulayıram.



*Şəmsəddin Aslanov*
*Azərbaycan Respublikasının*
*Əməkdar mühəndisi,*
*SNT inşaat şirkətinin direktoru*

## DAHİ İNSAN, BÖYÜK ALİM

Professor Elman Quliyev haqqında fikir söyləmək üçün ilk əvvəl 70-80-ci illərə qayıtmalıyam və bunun səbəbi istər Elman müəllim, istərsə də mənim üçün müqəddəsdir. Bu müqəddəslik bizim üçün valideynlərimiz və doğma yurdumuz Leriklə bağlıdır. Bizim tanışlığımız da məhz böyüklərimiz vasitəsilə Lerikdə olmuşdur. Belə ki, 1973-75-ci illər idi, atam Lerikdə ferma müdiri işləyirdi, professorun böyük qardaşı Araz müəllim isə redaksiyada çalışırdı. Onların tanışlığı da ferma haqqında məqalə dərc olunması ilə bağlı olmuşdu və sonralar isə iki ailə arasındakı münasibətlər daha da genişləndi.

Atamın Quliyevlər ailəsi haqqında söylədikləri bugünki kimi xatirimdədi: Hilal əmi də, Araz da yaxşı insanlardı, ziyali nəslin nümayəndələridir, Lerikdə böyük hörmət sahibidirlər.

Mən professoru və onun ailəsini atam vasitəsilə tanımağa başladım və tanıdıqca da atamın fikirlərinin nə qədər əsaslı olduğunun şahidi oldum.

Professor Elman Quliyev məhz belə bir ziyalı ailəsində tərbiyə almış, böyüyüb boya-başa çatmışdır. Professorun bugünkü çatdığı zirvə bu ailənin, bu nəslin layiqli davamçısı olduğunu əyani nümayiş etdirir. Elman müəllimin şəxsiyyəti ilə bağlı danışarkən gözəl fikirlər söyləmək çox olar. Ancaq mən başqa bir tərəfə fikirləri cəlb etmək istəyirəm. "Lerikin ucqar kəndində adi müəllim" və "ADPU-də professor". Bu iki anlayış arasındakı çətin, əziyyətli, keşməkeşli yola professor kimi yanaşa bilməsək də, bu anlayışlar arasındakı uçurumdan bu yolun nə qədər çətin

olduğunu təxmin edə bilərik və bu keşməkeşli və çətinliklərlə dolu yol professorun nə qədər ağıllı, çalışqan, səbrli olduğunu və şəxsiyyətinin digər gözəl tərəflərini açıqca göstərir.

Elman müəllim haqqında danışarkən mütləq qeyd olunmalı məsələlərdən biri də onun Azərbaycan təhsilinə verdiyi töhfələrdir. Onun müəllifi olduğu çoxsaylı kitablar, yetişdirdiyi çoxsaylı tələbələr bu fikrimə əyani sübutdur. Bunu da qeyd etməliyəm ki, professorun təhsilimizə verdiyi töhfələr Azərbaycan Respublikasının Prezidentinin də diqqətindən qaçmamış və professor cənab İlham Əliyev tərəfindən "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Sonda Elman müəllimi 55 illik yubiley münasibətilə özüm və ailəm adından təbrik edirəm və professora uğurlarının davamını, hər zaman yüksək zirvələrdə olmağı, hər zaman belə dəyərli olmağı və sağlam bədəndə xoşbəxt bir ömür arzulayıram.



*Gülçöhrə Alıyeva*
*ADPU-nun Xarici dillər kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent*

## HƏR ADAMA DOST DEYİLMƏZ, ZİRA HƏR ADAMDAN DOST OLMAZ!

Hörmətli Elman müəllim!

Dost qazancı Allahın bəşər övladına bəxş etdiyi ən böyük lütflərdən biridir. Sizinlə tanışlığımızın tarixi çox olmasa da, düşünürəm ki, Sizə dost deməyə haqqım çatır. Çox vaxt «qardaş» deyə müraciət etdiyim (Siz də mənə «bacı» deyə müraciət edirsiniz) çoxhörmətli dostum! Türkoloq – alim kimi Azərbaycanda türkologiya elminin inkişafına verdiyiniz töhvələr təkcə türkoloji elmi ictimaiyyət tərəfindən deyil, eyni zamanda dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir («Tərəqqi» medalı, 2012). Türkoloq-müəllim kimi tələbələrinizin təhsil sahəsində qazandığı uğurlar birbaşa Sizin adınızla bağlıdır.

«Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəri kimi türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarınıza görə «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına (2011) və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə (2012) layiq görülmüşsünüz. Gözəl ailə başçısı kimi övladlarınızın çoxsaylı uğurlarına sevincinizin şahidi olmuşam.

Elman müəllim, Allahın rizası, taleyin qismətilə «Elman – 55» mərhələsinə qədəm qoymusunuz. Dostum, Sizə «Elman – 100» arzusu ilə istedadlı alim kimi uca zirvələr fəth etməyi, tələbkar müəllim kimi tələbə uğurları, qayğıkeş ailə başçısı kimi ailə, övlad-nəvə sevinci, səmimi dost kimi sədaqətli, etibarlı olmağı arzulayıram.



***Əbülfət Pələngov***
*ADPU-nun «Hesablama riyaziyyatı və informatika» kafedrasının müəllimi, pedaqoji elmlər doktoru, Ali Attestasiya Komissiyasının riyaziyyat üzrə eksperti.*

## MƏN ONU BELƏ TANIDIM...

1977-ci ilin yayı idi. Hər ikimizin qohumu olan Əlgüşad müəllimin ailəsindən onun ali məktəbə qəbul olunduğunu eşitdim. Orta məktəbdə yaxşı oxuduğunu, ali məktəbə də yüksək qiymətlərlə daxil olduğunu söylədilər. Onu yaxından tanımaq istəyim oldu. Həmin il mən də onunla eyni ali məktəbə qəbul olunmuşdum, o filologiya fakültəsinə, mən isə riyaziyyat fakültəsinə. Çox keçmədi ki, biz tanış olduq. Mehriban, səmimi siması, iti baxışları   indiki kimi gözüm önündə canlanır.

I kursdan aktiv tələbə kimi özünü göstərdi. Çox keçmədi ki, onu qrup nümayəndəsi seçdilər. Bundan sonra tez-tez görüşərdik. Həmişəki kimi səmimi, qayğıkeş olduğunu dərhal hiss etdirər, əhvalımı və işlərimin, dərslərimin necə keçdiyi ilə maraqlanardı. Birinci kursda oxuyurduq, mən ictimai fənlərdən həmişə çətinlik çəkirdim. I kursda oxuyarkən Sov.İKP tarixi fənnindən çətinlik çəkirdim. Seminar müəllimimiz mühazirə müəllimindən fərqli olaraq bizdən formal şeylər tələb edirdi, mən də öhdəsindən gələ bilmirdim. Bir dəfə yenə Elman müəllimlə rastlaşdım, qayğılı göründüyümü dərhal hiss etdi. Məndən səbəbini soruşdu, mən də ona dərdimi söylədim. Məni arxayın etdi ki, mühazirə müəllimi Müqdət müəllimdirsə (Allah rəhmət eləsin!). o gözəl insandır və oxuyan tələbəyə qayğı ilə yanaşır. Dedi ki, bizim də müəllimimiz odur, ona görə onu yaxşı tanıyıram. Dediyi kimi də oldu. Mən həmin fənnən də semestr imtahanında yüksək qiymət aldım.

Tələbəlik illərində onu daim hərəkətdə görürdüm. Görüşəndə də bir-birimizdən əhvalımızı soruşduqdan sonra, ayrılırdıq, sanki o gələcəkdə nail olacağı elmin zirvəsinə tələsirdi.

İllər ötdü, Elman ali məktəbi fərqlənmə diplomu ilə bitirdi, təyinatını doğulduğu ucqar Lerik rayonuna aldı. Çox keçmədi ki, rayonda qabaqcıl müəllim kimi şöhrət qazandı, elinin, obasının sevimlisi oldu. Bu illərdə də əlaqələrimiz davam edirdi. Ayrı-ayrı rayonlarda işləsək də, müntəzəm görüşərdik, onun qazandığı uğurlara görə sevinərdim. Ucqar rayonda müəllimlik etməsinə baxmayaraq, elmi fəaliyyətini də davam etdirirdi. Çox keçmədi ki, onun namizədlik dissertasiyasını müdafiə etmək xəbərini aldım. Bu xəbər mənim həyatımda olan ən şad xəbərlərdən biri idi. Dostlarım və tanışlarımla görüşdükdə Elmanın dissertasiya işini müvəffəqiyyətlə müdafiə etmə xəbərini fəxrlə söyləyirdim. Axı o buna layiq idi...

80-ci illərin sonu idi. Bakıda Buzovnadakı o vaxtki MTN-n sanatoriyasında istirahət edirdim. Bu zaman Elmanın böyük qardaşı, nəinki Lerikdə, Respublikada çox məhşur olan, gözəl insan, istedadlı jurnalist rəhmətlik Araz Quliyevlə rastlaşdıq. Hal – əhval tutduq, xeyli şirin-şirin söhbət etdik. Elman haqqında söhbət edərkən artıq onun doktorluq dissertasiya işi üzərində işlədiyini özünəməxsus qürurla söylədi. Mən də çox sevindim və məmnun oldum. İllər ötdü. Bizim arzumuz gerçəkləşdi. O müvəffəqiyyətlə öz tədqiqat işini müdafiə etdi, ona AAK-nın qərarı ilə filologiya elmlər doktoru elmi dərəcəsi və professor elmi adı verildi.

Təəssüf ki, Araz müəllimi vaxtsız ölüm bizdən ayırdı, canından artıq sevdiyi qardaşının sonrakı müvəffəqiyyətlərini görə bilmədi.

Elman müəllimin görkəmli filoloq olması barədə mən yazmaq istəmirəm. Şübhəsiz, onun həmkarları bu sahədə onun qazandığı nailiyyətlərdən yazacaqlar. Ona görə də mən onun şəxsi keyfiyyətlərindən bir neçə nümunə gətirmək istədim.

2010-cu ildə Türkiyə Cumhuriyyətinin baş şəhəri Ankarada Beynəlxalq Konfrans keçirilirdi. Bu tədbir ilk dəfə olaraq respublikanın bütün əsas ali məktəblərini əhatə etməklə böyük nüfuzlu mütəxəssislərlə təmsil olunurduq. Nümayəndə heyətinin tərkibində görkəmli Türk Xalqlarının tədqiqatçısı professor Elman Quliyev də iştirak edirdi. Ankaraya yola düşərkən mən xəstələnmişdim, qızdırmam düşməmişdi. Hava limanında təyyarəyə qeydiyyat qurtardığı dəqiqələrdə məni oraya çatdırdılar. Elman müəllim həmin dəqiqələrdən başlayaraq mənə qayğı göstərdi. Məni psixoloji cəhətdən inandırdı ki, sən yaxşı olacaqsan. Doğurdan da get-gedə vəziyyətim yaxşılaşdı, məruzəm də normal keçdi. Bir necə gün səfər günlərində məni heç vaxt tək qoymadı, haraya getmək istəyirdim, mənimlə birlikdə gedirdi. Onun qayğıkeş yoldaş və dost olduğunun bir daha şa-

hidi oldum. Onun məruzəsini başqa bölmələrdə iştirak edən alimlər də gəlib dinlədilər.

Dəyərli dostumuz Elman müəllim həm də gözəl ailə başçısıdır. Atalar yaxşı demişlər : «Ot öz kökü üstündə bitər». Elman müəllimin ata – babaları sayılan, seçilən, cənub bölgəsində çox böyük hörmət qazanmış insanlar olmuş, indi bu ənənə  nəsildən-nəsilə fəxrlə ötürülür. Elman müəllimin də ailəsində böyüyüb başa çatdığı övladları atalarının adına layiq ali təhsilli mütəxəssis olmaqla vətəninə-elinə layiqli xidmət edirlər.

Eşitdim eloğlum, həmkarım,  gözəl alim və insan – Elman müəllimin bu yaxınlarda 55 yaşı tamam olur. Çox sevindim, ancaq inanmadım... Bu illər necə də tez gəlib keçmişdir. Elman müəllim mənim gözümdə tələbəlik illərində olduğu kimi cavan, çevik, hərəkətli, eyni zamanda da səbirli, təmkinli və sanballı bir dost kimi canlanır.

Əziz dost, 55 adlı bayramın mübarək! Bu 55 bizə çox məna verir: Məsələn, sən həmişə dərslərindən və imtahanlarından əla qiymətlər almısan. «İki beş» həm də ikiqat – həyat dərslərindən də əlaçı olduğunu göstərir. Sən elə riyaziyyatçıların dili ilə desək, 5-lik say sistemindəsən, sənə bu sistemdə 121 il sağlam ömür arzulayıram. Qalanını özün bilərsən!



*Ramin Əhmədov*
*ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru*

## HÖRMƏTLİ İŞ YOLDAŞI, SƏMİMİ QONŞU

Mehriban Elman müəllim! Sizi – filologiya elmlər doktoru və professoru anadan olmağınızın 55 illiyi münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Sizə həyatda can sağlığı, işinizdə uğurlar arzulayıram!

Elman müəllim Siz yaşınızın gəncliyində xeyli uğurlar qazanmışsınız. Bu uğurların sayı və istiqamətləri çoxdur, mənalı və dəyərlidir. Siz qocaman təhsil müəssisəsində – Azərbaycan Dövlət Pedaqoji Universitetində ən mötəbər kafedralardan olan Azərbaycan ədəbiyyatı tarixi kafedrasının yaşıdlarınız arasında ilk elmlər doktoru və professorusunuz. Siz ilk dəfə olaraq ADPU-da yaradılan «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin təsisçisi və müdirisiniz. Universitetimizin yubileyi ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin imzası ilə «Tərəqqi» medalına layiq görülmüşsünüz.

Siz respublikamızda fəaliyyət göstərən bir sıra elmi yığıncaqların fəal üzvüsünüz. Sizin səsiniz AMEA-nın Nizami adına Ədəbiyyat və Şərqşünaslıq institutları nəzdindəki ixtisaslaşdırılmış Müdafiə Şuralarından, Azərbaycan Yazıçılar birliyindən, bir çox beynəlxalq konfranslardan gəlir.

Sizin elmi və tədris-pedaqoji fəaliyyətiniz yalnız auditoriya ilə məhdudlaşmadığı kimi, təkcə bir ixtisasla da yekunlaşmır. Sizin nəinki ADPU-da, nəinki Respublikada çap olunmuş əsərləriniz, eləcə də qardaş Türkiyə və digər xarici ölkələrdəki nəşrləriniz fərəh doğurur. Sizin Ustad Şəhriyara həsr etdiyiniz monoqrafik tədqiqatlarınız, eləcə də «Türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı», «Ümumtürk ədəbiyyatı», «Türkiyə türk ədəbiyyatı», «Şəhriyar poeziyası və milli təkamül», «Şəhriyar poetikası» (həmmüəlliflə), «Özbək ədəbiyyatı» və s. adlı proqram, dərslik və monoqrafiyalarınız filoloq tələbələrin mütaliəsindədir. «Mirzə Uluğbəy» mükafatı, «C.Rumi-800» (YUNESKO) müsabiqəsinin laureatı, dəfələrlə «İlin alimi» müsabiqələrinin qalibi olmuşsunuz.

Haqqınıza çox yazmaq, çox danışmaq olar. Bunların bir çoxunu gələcəkdə 60 illiyinizdə demək arzusu ilə hələlik. Əlli beşin mübarək!



*Məhəmmədəli Mustafayev*
*AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru*

## ELMAN QULİYEVİ BELƏ TANIYIRAM

Elman Quliyevi 70-ci illərdən tanıyıram. Onda hər ikimiz indiki Azərbaycan Dövlət Pedaqoji Universitetində təhsil alırdıq. Elə o vaxt da ciddiliyi, təmkini, müəllim və tələbələrlə ünsiyyət yaratmaq bacarığı ilə seçilirdi. Ali məktəbi bitirəndən bir neçə il sonra hər ikimiz aspiranturaya daxil olduq. Mən AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun, o isə indiki ADPU-nun aspiranturasında elmi tədqiqatla məşğul olmağa başladıq. Daha doğrusu, bir-birimizi daha yaxından tanıdıq, ünsiyyətimiz daha da möhkəmləndi.

Elmi yaradıcılığa münasibətdə o, peşəkarlığa, fundamentallığa daha çox üstünlük verir. Daim öz üzərində işləyir, elmi təfəkkürünü genişləndirir. Filologiya elmlər doktoru, professor elmi dərəcəsi və vəzifəsinə yüksəlməsi ona asan başa gəlməyib. Bunun arxasında onun uzunillik gərgin elmi axtarışları, yuxusuz gecələri dayanır. Müxtəlif illərdə yazdığı «M.Şəhriyar. Gəldim Sizi görməyə» (1992), «S.Tahir. Lirika» (1992), «M.Şəhriyar «Heydərbabaya salam» (2004), «Mirzə İbrahimov: Ədəbi estetik görüşlər və sənətkarlıq məsələləri» (1997), «Seyid Məmmədhüseyn Şəhriyar» (1999), «Müasir özbək ədəbiyyatı» (1999), «Heydərbabaya salam» (2001), «Türkiyə türk ədəbiyyatı» (2003), «Şəhriyar poeziyası və milli təkamül» (2001) monoqrafiyaları, dərs vəsaitləri və dərslikləri Elman Quliyevin elmi marağının istiqamətini müəyyənləşdirməyə imkan verir. Türkün yaşadığı geniş coğrafi-mədəni mühitdə yaranan zəngin ədəbiyyat və onun görkəmli ədəbi simalarının yaradıcılığı Elman Quliyevin tədqiqat predmetinə daxildir. Son bir neçə ildə yazdığı monoqrafiyaları və

məqalələri göstərir ki, o təkcə ədəbiyyatşünaslıq sferası ilə məhdudlaşmır, türkologiyanın bir sıra fundamental problemlərinə də maraq göstərir, İraq, Türkiyə, İran, Qafqaz türklərinin bədii təfəkkürünün nəyə qadir olduğunu əsərlərində sübuta yetirməyə nail olur.

Elman Quliyevin M.Şəhriyar yaradıcılığına dönə-dönə qayıtması səbəbsiz deyil. Uzun illər şairin yaradıcılığı, həyatı haqqında tam təsəvvür əldə edə bilməmişik. Daha doğrusu, sovet rejimi Şəhriyarı olduğu kimi dərk etməyə imkan verməyib. Bu boşluğu dolduran ədəbiyyatşünaslarımızdan biri də Elman Quliyevdir. «Seyid Məhəmməd Hüseyn Şəhriyar» (1999), «Heydərbabaya salam» (2004) əsərləri ilə o şəhriyarşünaslıqda öz sözünü deyib. Bu sırada «Heydərbabaya salam» poemasını ayrıca qeyd etməliyik. Müəllif əsərdə möhtəşəm sənət abidəsi olan «Heydərbabaya salam» poemasını geniş təhlil etmiş, müxtəlif elmi mübahisələrə yer vermiş, polemikalar aparmış, eyni zamanda əsərin müxtəlif nəşrlərindəki təhrifləri göstərmiş, düzəlişlər aparmağı bacarmışdır. Bir qədər dəqiqləşdirsək, ayrı-ayrı nəşrlərdə söz və ifadələrin müxtəlif variantda işlənməsini müəyyənləşdirmiş, daha orijinal variantı tərtib etməyə çalışmışdır. Tədqiqatçı M.Şəhriyarı Firdovsi, Nizami, Xaqani, Hafiz, Xəyyam, S.Ə.Şirvani, M.Ə.Sabir kimi şairlərlə bir cərgəyə qoyur, şairin qüdrətini forma və məzmun gözəlliyinin vəhdətinə nail olmasında görür. Elman Quliyev M.Şəhriyar yaradıcılığını ancaq bədii yaradıcılıq faktı kimi deyil, həm də etnoqrafik yaddaşımız kimi dəyərləndirir.

Elman Quliyev türk xalqlarının ədəbiyyatı çərçivəsində türk ədəbiyyatına xüsusi önəm verir. «Türkiyə türk ədəbiyyatı» (2003) adlı dərs vəsaiti bunu bir daha təsdiq edir. Kitabda Türkiyə türk ədəbiyyatının XIX-XX əsrlər dövrü haqqında konkret fikir formalaşdırılır. Uzun müddət XIX və XX əsr Azərbaycan ədəbiyyatının nailiyyətlərinin Qərbi Avropa və rus ədəbiyyatının təsiri altında olduğu haqqında əsassız fikirlər söylənilib. Düzdür, son iki yüzilliyin ədəbiyyatında Qərbi Avropa maarifçiliyinin və rus ictimai – ədəbi fikrinin təsiri danılmazdır. Lakin bu təsir ancaq ədəbi əlaqələr səviyyəsində özünü doğruldur. Kökə, ənənəyə bağlılıq mövqeyindən ümumtürk ədəbiyyatının öz ənənələri var. Qədim və Orta əsrlər humanist poeziyamızda olduğu kimi, XIX-XX əsr türk ortaq mənəvi dəyərləri də müştərək ənənələrdən, vahid inkişaf tendensiyasindan uzaq deyil. Həmin dövrlərdə Türkiyədə İbrahim Şünasi, Əbdülhəmid Ziya Paşa, Namiq Kamal, Tofik Fikrət, Rəşad Nuri Güntəkin kimi fikir adamları yetişdirdiyi kimi Azərbaycanda da M.F.Axundzadə, H.Zərdabi, N.Nərimanov, C.Məmmədquluzadə kimi ictimai-ədəbi xadimlər fəaliyyət göstərib. El-

man Quliyevin «Türkiyə türk ədəbiyyatı», (XIX-XX əsrlər) dərs vəsaiti bu ənənənlərin ədəbi-tarixi qaynaqlarını aşkarlamaq, XIX-XX əsrlər türk ədəbiyyatının ümumtürk ədəbiyyatının bir çevrəsi kimi araşdırıb araya-ərsəyə gətirmək üçün yazılıb.

Türk xalqları ədəbiyyatının tədqiqini Elman Quliyev sistemli şəkildə davam etdirir. Hətta bu sahədə ayrıca monoqrafiyaları da nəşr olunub. Bu mənada onun «Müasir özbək ədəbiyyatı» (1999) kitabı diqqəti daha çox cəlb edir. Kitabda müasir özbək ədəbiyyatı, onun əsas simalarının bədii irsi geniş yer alır. H.Niyazi, A.Qədri, Qolyan, Q.Qusan, M.Şeyxzadə yaradıcılığını təhlil edən, özbək ədəbiyyatının sənətkarlıq xüsusiyyətlərinə daha çox diqqət ayıran Elman Quliyev müasir özbək ədəbiyyatının ayrı-ayrı mərhələlərinin spesifik xüsusiyyətləri haqqında da ədəbi-tarixi və nəzəri səpkidə konseptual fikirlər söyləyir.

Elman Quliyev 2004-cü ildə «Məmmədhüseyn Şəhriyar yaradıcılığının təkamülü (Milli problemlər kontekstində)» mövzusunda doktorluq dissertasiyası müdafiə etdi. Bildiyimimz kimi M.Şəhriyar həm fars, həm də Azərbaycan dillərində çoxsaylı əsərlər yazıb. Elman Quliyevin dissertasiyasının əhəmiyyəti bunda idi ki, o, M.Şəhriyarı milli Azərbaycan şairi kimi tədqiqata gətirdi, problemə azərbaycançılıq və türkçülük mövqeyindən yanaşdı. Dissertasiyanın bütün fəsillərində ictimai mühit və şəxsiyyət amili, Cənubu Azərbaycan ədəbi mühiti, və Azərbaycan dili problemləri, Şəhriyar və Azərbaycan dili, Şəhriyar yaradıcılığı və folklor qaynaqları diqqətdə saxlanılır, şairin bədii irsi milli təfəkkür kontekstində tədqiq edilirdi.

Bütün bunların fövqündə Elman Quliyev şəxsiyyətdir, ictimai nüfuz sahibi, gözəl ailə başçısıdır.



*İslam Qəribli*
*filologiya elmləri doktoru,*
*yazıçı-ədəbiyyatşünas*

## POTENSİALI YÜKSƏK OLAN ALİM VƏ ZİYALI

Professor Elman Quliyevlə qiyabi tanışlığımın tarixi onun Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş V.İ.Lenin adına APİ – İ.Q.) filologiya fakültəsində oxuduğu illərdən başlayır. 1975-ci ildə Elmanın oxuduğu ali məktəbin filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, Biləsuvar (keçmiş Puşkin – İ. Q.) rayonunda müəllim işləyirdim və hər dəfə Bakıya yolum düşəndə İnstituta gedər, sevimli müəllimlərim olan Xeyrulla Məmmədov, Quşdan Bağırov, Mürsəl Həkimov, Nadir Namazov, İsrail Mustafayev, Adilə Bəşirova və başqaları ilə görüşərdim. Qardaşım 1977-ci ildə, Elmanla eyni vaxtda ADPU-nun filologiya fakültəsinə qəbul olunduğundan, təbii ki, tələbələrlə, xüsusilə Lerikdən olanlarla da maraqlanardım və qardaşımın deməyinə görə, içərilərində elmə daha çox maraq göstərən, bütün imtahanlardan əla qiymət alan yalnız Elman idi. Görüşlərin birində lerikli tələbələr barədə Xeyrulla müəllimdən də soruşdum. O da qardaşım deyəni dedi. Xeyrulla müəllim onu da qeyd etdi ki, Elman yaxşı bir nəsildən olub ağsaqqal bir kişinin oğlu olmaqla yanaşı, həm də gələcəyinə ümidlə baxdığım savadlı və ağıllı oğlandır. İmkan olsa, onunla tanış ol. Cavansız, çalışın bir eloğlu kimi bir-birinizə yeri gələndə həyan olun. Qardaşımın: – Filologiya fakültəsində oxumaq istəmirəm, – deyərək ailəmizdən, müəllimlərindən, tələbə yoldaşlarından xəbərsiz ikinci kursun yazında ali məktəbi yarımçıq saxlayıb hərbi xidmətə getməsi, açığı, İnstitutla əlaqələrimin zəifləməsinə səbəb oldu və beləliklə, Elmanın tələbəliyi illərində onunla tanışlığım baş tutmadı. Elmanla Lerikdə müəllim işlədiyim illərdə tanışlıq imkanı ələ düşdü. Ustadımın nəsihətini sırğa eləyib qulaqlarımdan asdım və uca Tanrıya çox şükürlər olsun ki, yaşımızın əsrin yarısını arxada qoymasından sonra da Elmanla aramızda xətir-hörmətdən, səmimi dostuq münasibətlərindən savayı başqa bir şey olmadı. Çətin məqamlarda bir-birimizə arxa, dayaq olduq,

ustadımız – böyük alim və dahi şəxsiyyət Xeyrulla Məmmədovun etimadını doğrultmağa çalışdıq. Bir-birimizin uğuruna sevindik.

Tale, qismət elə gətirdi ki, hər ikimiz Lerikdə müəllim işləyə-işləyə: o, Mirzə İbrahimovdan, mən də Məhəmməd Hadidən dissertasiya müdafiə edib elmlər namizədi alimlik dərəcəsi aldıq. Çox keçmədi ki, hər ikimizi Bakıya dəvət etdilər. Elman Azərbaycan Dovlət Pedaqoji Universitetində, mən isə AMEA-nin Nizami adına Ədəbiyyat İnstitutunda çalşmağa başladıq.

Elmanla, onun bir alim və ziyalı potensialı ilə yaxından tanışlığım 1991-ci ilin yaz aylarına təsadüf edir. O vaxtlar mən Elmlər Akademiyasının A.M.Şərifzadə küçəsindəki yataqxanasında yaşayırdım. Bir gün Elmanla onun işlədiyi Universitetdə görüşdük. Bildirdi ki, bir il əvvəl Təbrizə getmişdim. Oradan M.Şəhriyarın Azərbaycan türkcəsində yazdığı şeirlərinin toplandığı kitabını gətirmişəm. Şeirlərin əksəriyyətini ərəb qrafikasından transliterasiya etmişəm. İstəyirəm ki, həmin yazıları nəzərdən keçirəsən. Məmnuniyyətlə razılıq verdim və Elmanı yaşadığım ünvana dəvət etdim. Dəvətimi qəbul edən Elman səhərisi M.Şəhriyarın görkəmli şərqşünas və gözəl yazıçı professor Həmid Məmmədzadənin tərtib edib geniş ön söz yazdığı Azərbaycan türkcəsində əsərlərinin toplandığı, Təbrizdə ərəb qrafikası ilə çap olunmuş kitabı və transliterasiya etdiyi mətnlə bizə gəldi. Mirzə İbrahimovdan namizədlik dissertasiyası müdafiə etmiş şəxsin ərəb əlifbası ilə yazılmış mətni bacarıqla transliterasiya etməsi ilə yanaşı, bu və ya digər dərəcədə fars dilinə aşina olması da məni sevindirdi. İki, ya üç gündən sonra «Gənclik» nəşriyyatına, rəhmətlik Əlican Əliyevin yanına getdik və məqsədimizi bildirdik ki, belə bir kitab var və onun çapına yardım etməyinizi rica edirik. Nədənsə Elman müəllimin hazırladığı kitab «Gənclik» nəşriyyatında çap olunmadı və həmin kitabı Elman müəllim geniş müqəddimə yazaraq bir il sonra başqa bir nəşriyyatda çap etdirdi və məhz bundan sonra Elman müəllim tədqiqat sahəsini dəyişib M.Şəhriyar kimi keşməkeşli həyat və ziddiyyətli yaradıcılıq yoluna malik olan bir sənətkar haqqında doktorluq dissertasiyası yazmaq fikrinə düşdü.

Elman müəllim haqqında ilk – «Təqiqatçı müəllim» adlı yazımı on yeddi il bundan əvvəl yazmış, Lerik torpağı və Lerik ziyalıları barədə çap etdirdiyim «Sönməyən ocaq» kitabına daxil etmişəm (İslam Qəribli. Sönməyən ocaq, Bakı, «Mütərcim» nəşriyyatı, 1997). O vaxtlar Elman müəllim hələ bu qədər məşhur deyildi və 1996-cı ildən etibarən Universitetlərin filologiya fakültələrində tədris olunmağa başlayan Türk və Şərq xalqları ədəbiyyatından dərs deyir, yeni fənnin tədrisi üçün proqramlar hazırlayır, türkoloq alim kimi formalaşma prosesini keçirirdi. Tərtib edib ön söz yazdığı «M. Şəhriyar. Gəldim sizi görməyə»(1992), «S. Tahir. Lirika» (1992) adlı kitabları və «Mirzə İbrahimov: ədəbi-estetik görüşləri və

sənətkarlıq məsələləri» monoqrafiyası çap olunmuşdu və tanındığı məkan da Azərbaycan idi.

Aradan keçən on yeddi il ərzində Elman müəllim, demək olar ki, daima axtarışda olmuş, tədrislə kifayətlənməmiş, təkcə şəhriyarşünas kimi yox, Cənubi Azərbaycan ədəbiyyatının ən mötəbər tədqiqatçılarından biri və nüfuzlu türkoloq kimi şöhrət qazanmışdır.

Elman müəllimin tərtib etdiyi tədris proqramlarının, yazdığı dərsliklərin elmi və metodik səviyyəsi bir qayda olaraq pedaqoji və elmi cəmiyyət tərəfindən yüksək qiymətləndirilib. Neçə illərdir ki, respublikanın əksər ali məktəblərində tələbələr Elman müəllimin tərtib etdiyi proqramlar və dərsliklər vasitəsi ilə türk xalqları ədəbiyyatını öyrənirlər.

Yazının bu yerində Elman müəllimin doktorluq dissertasiyası ilə bağlı bir neçə söz demədən keçə bilmirəm. İşlədiyi universitetdə vaxtilə ustadımız Xeyrulla müəllimə bədxahlıq edən bir para adamlar indi də Elman müəllimi qaralayıb, onun dissertasiyasının müzakirəsinə hər vəchlə maneçilik törədirdilər. Gah müxtəlif instansiyalara imzasız məktublar yazır, gah bilərəkdən müzakirəni pozur, gah da müzakirəyə qatılmayaraq yetərsayın əmələ gəlməsini əngəlləyirdilər. Bütün çətinliklərə, sıxma-boğmalara baxmayaraq əsəblərini cilovlamağı bacaran Elman müəllim, nəhayət işini müzakirə etdirib müdafiəyə buraxılmağa müvəffəq oldu. İş elə gətirdi ki, Elman müəllimin dissertasiyası əlavə rəy üçün Nizami adına Ədəbiyyat İnstitutuna göndərildi. İşi müzakirə etmək əməkdaşı olduğum Cənubi Azərbaycan Ədəbiyyatı şöbəsinə tapşırıldı. Universitetdəki ağzıgöyçəklər buraya da əl atmaq istədilər, lakin arzuları gözlərində qaldı. Elman müəllim həm əsəri, həm də parlaq çıxış və cavabları ilə bizi heyran elədi və biz yekdilliklə onun əsərinin müdafiəyə hazır olması barədə rəy verdik.

Elman müəllimə qədər də, Elman müəllimdən sonra da M.Şəhriyar barədə yazanlar, böyük şairin əsərlərini tərcümə, tərtib və nəşrə hazırlayanlar olub və M.Şəhriyar irsinə olan maraq bu gün də səngimək bilmir. Ancaq tam yəqinliklə bildirirəm ki, Elman müəllimin M.Şəhriyara sevgisi tamamilə bambaşqa, vurğunluq dərəcəsində olsa da real, həqiqi sevgidir. Bu sevgi M.Şəhriyara aludəçilik yox, şairi dərindən öyrənmək, öyrətmək, onu siyasi və sosioloji sifarişlərdən uzaq, olduğu kimi, M.Şəhriyar necə varsa eləcə, bütün ziddiyyətləri ilə təqdim etməkdə müəllifə bir növ yardımçı olur. Məslək, əqidə və vicdan sahibi olan bir alim kimi Elman müəllim M.Şəhriyarı bir çox başqaları kimi mifləşdirmir, olmayanları onun adına çıxmır, o şeyləri deyir və yazır ki, onlar olmuşlardır və məhz həqiqətin ortaya çıxmasına yönəldiyindən Elman müəllimin tədqiqatları mübahisə doğurmadan ədəbi və elmi ictimaiyyət tərəfindən qəbul olunur. Müəllifin son on beş ildə M. Şəhriyarın şəxsiyyəti və ədəbi irsinin tədqi-

qinə həsr olunmuş, ölkə və dünya mətbuatında dərc olunmuş onlarla məqaləsi, «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Heydərbabaya salam» necə varsa», «Şəhriyar poeziyası və milli təkamül», «Şəhriyar poetikası» kitabları, sözsüz ki, şəhriyarşünaslıqda yeni mərhələdir.

Elman müəllimin yuxusuz gecələrinin məhsulu olan «Müasir özbək ədəbiyyatı tarixi», «Türkiyə türk ədəbiyyatı», «Özbək ədəbiyyatı», «Orta əsrlər türk xalqları ədəbiyyatı», «Şərq xalaqları ədəbiyyatı» və s. dərslikləri onun türk və şərq xalqlarının ədəbiyyatına dərindən vaqif bir müəllim-alim olduğunu isbat etməklə yanaşı, həm də zəngin bilik ehtiyatına və ensiklopedik təfəkkürə malik olduğunun göstəricisidir.

Elman müəllim uzun illərdir ki, ADPU-da fəaliyyət göstərən «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə rəhbərlik edir. Türk dilli xalqlarla ədəbi əlaqələrin qurulmasında müstəsna xidmətləri olan bu mərkəzin fəaliyyətinin nəticəsidir ki, türkdilli ölkələrin bir çox ali məktəbləri ilə ADPU-nun sıx elmi əlaqələri yaranmış, bu əlaqələr yüksələn xətt üzrə daima inkişaf etməkdədir.

Allah-taalanın zahirən yaraşıqlı, boylu-buxunlu, daxilən gözəl və mənəviyyatca zəngin bir məxluq kimi xəlq etdiyi Elman müəllim həm də gözəl natiqdir. Bir çox məclislərdə, elmi konfranlarda, dissertasiya şuralarında onun insan ürəyini riqqətə gətirən obrazlı, elmi, lakonik nitqlərinə qulaq asmaq mənə də nəsib olub. Elman müəllimi dinləyərkən mənə həm də o da aydın olub ki, o, Azərbaycan dilinin incəliklərinə bələd olan adamdır, jest və mimikanı danışığı ilə məharətlə uzlaşdırmağı bacaran nitq sahibidir.

Təbii ki, Elman müəllimi yaxından tanıyan adam kimi haqqında çox şey deyə və yaza bilərəm. Amma bunları münasib bir vaxta saxlayıb Elman müəllimin daha bir neçə cəhətini də qeyd etməklə fikirlərimi yekunlaşdırıram.

Birincisi, Elman müəllim ağsaqqalara, ustadlarına həddən artıq bağlı və sadiq adamdır. Bu sözləri deyərkən onun Xeyrulla müəllimin «XIX əsr Azərbaycan ədəbiyyatı» kitabını çap etdirməsi, Xeyrulla müəllimin adını əbədiləşdirilməsi üçün çəkdiyi zəhəmətlər, ustadımız haqqında xatirələr kitabının hazırlanıb nəşr olumnasındakı zəhmətlər gəlib gözümün qabağında canlanır.

İkincisi, Elman müəllim sözün əsl mənasında mərd, məğrur və təvazökar adam, dar günün kişisi və nümunəvi ailə başçısıdır.

Yaşı əlli beşi haqlamaqda olan qardaşım, inanıram ki, neçə-neçə uğuru ilə bizə sevindirəcək və biz: Bu bizim Elman, Hilal kişinin oğlu, Araz müəllimin qardaşı professor Elman Quliyevdir, – deyə onunla fəxr edəcəyik.



***Firuzə Ağayeva***
*BDU-nun dosenti,*
*filologiya elmlər doktoru*

# ELMİMİZİ UCALDAN ALİM

2003-cü ilin əvvəllərində Mirzə İbrahimovla bağlı çap olunmuş kitabda «Xalqın böyük oğlu» adlı məqalədə maraqlı bir ifadə ilə rastlaşdım: «Xoşbəxt sovet pionerinin bədbəxt İran uşaqlarının həyatına tamaşası». Məqalədəki bu ifadələr məni olduqca heyrətləndirmişdi. Müəllifini soraqlayıb tapdım. Tarixçəsi çox uzaqlara gedən bu yazının yaranmasını Elman müəllim belə nəql etdi: «Bizim kəndimiz (Lerik rayonu, Kələxan kəndi) Ərdəbilin 20-25 kilometrliyindədir. Təpəyə çıxanda Ərdəbil görünür. Beşinci sinifdə oxuyanda ən çox sevdiyim bir hekayə vardı: M.İbrahimovun «Azad» hekayəsi. Kənddə biz quzu otarmağa gedəndə kitabları da qoltuğumuza vurub çölə gedərdik ki, vaxtımızı boş keçirməyib sabahkı dərslərə hazırlaşaq. Günlərimiz çox maraqlı və şən keçirdi. Lakin hər zaman dikdirə qalxanda o taydakı İran uşaqlarının həyatını fikirləşirdim. Görəsən, onlar necə yaşayırlar? Mənə elə gəlirdi ki, İranda yaşayan uşaqlar bizim kimi xoşbəxt deyillər. Bir qarın ac, bir qarın tox yaşayırlar. O zamankı düşüncəmə görə biz xoşbəxt uşaqlar idik. Mənim cümləmdəki məna ifadələr bununla bağlıdı. Ona görə təəssüratlarımı həmin məqaləyə belə köçürmüşəm».

Sonra Elman müəllim İranın gəzməli yerlərini görmək üçün ora gedir. Tehran şəhər mağazasında azərbaycanca kitab olmasını soruşur və Məhəmmədhüseyn Şəhriyarın «Türk divan külliyyatı»nı alır. Daha sonra Təbriz şəhərində Şəhriyarın məqbərəsini ziyarət etmək qərarına gəlir.

1991-ci ildə Şəhriyarla bağlı «Gəldim sizi görməyə» adlı kitabı nəşr olunur. Burada şairin Şimalda çap olunmayan şeirləri ilə Azərbaycan oxucularını tanış edir.

Elman müəllimlə bizim elmi əlaqələrimiz 2005-ci ildən yarandı. Yolum Pedaqoji Universitetə düşəndə onunla dərsdən çıxan zaman rastlaşdım. Tələbələrinin dövrəsində idi. Elə bil ki, dərs dəhlizdə davam edirdi.

Belə bir tələbə-müəllim münasibətini birinci dəfə idi görürdüm. Dərsliklərlə, dərs vəsaitləri ilə qane olmayan bu peşəkar müəllim hər zaman çalışır ki, tələbələrinə yeni nəsə desin. Üz-gözündən nur yağan bu alimin, elm adamının mənalı və məntiqli mühazirələrindən, diksiyalı çıxışlarından doymayan tələbələr ona öz iş otağına qetməyə imkan vermirdilər. Budur, müəllimin tələbələrinə, tələbələrinin müəlliminə olan əsl hörmət və məhəbbəti!

İndiyə qədər bu zəhmətsevən alim neçə-neçə şəhərlərin əlyazmalar fondunda və arxivlərdə xeyli sayda tarixi sənədlər araşdırmış, ədəbi ictimaiyyətimiz üçün maraq doğuran, başqa ölkə xalqları ilə ədəbi əlaqələrimizin canlı körpülərini yaradan bir sıra faktları ortaya çıxarmış, həmin məlumatları tədqiqat əsəri, monoqrafiya, dərs vəsaiti, dərslik kimi nəşr etdirərək ədəbiyyatşünaslıq elmimizi zənginləşdirmişdir.

O, hər yeni kitabı ilə ədəbiyyatımıza yeni bir ruh, ətir, təravət, rövnəq bəxş edir, neçə-neçə qaranlıq məqamlara aydınlıq gətirir.

Cənublu yazıçı və şairlər: Ə.Tudə. S.Tahir, M.İbrahimov, M. Şəhriyarın həyat və yaradıcılığını tədqiq edə-edə Elman müəllim öz fəaliyyətini daha da fundamentallaşdırdı, türk xalqları ilə bağlı material və faktlar toplayıb nəşr etdirdi.. «Türk xalqları ədəbiyyatı» (Bakı, 1998), «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Orta əsr türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (təkmilləşdirilmiş nəşrlər: 2008 – 2011).

Zaman vardı ki, türk dili və ədəbiyyatının ali və orta ixtisas məktəblərində tədrisi ilə bağlı prof. P.Xəlilovun «SSRİ xalqları ədəbiyyatı» istisna olmaqla bu sahədə dərslik çatışmazlığı ilə üzləşirdik. Elin sözü ilə desək, Elman müəllimin bu dərslikləri biz müəllim və tələbələrin əlindən tutdu.

İndi demək olar ki, ali məktəblərin çoxunda həmin vəsaitlərdən istifadə olunur və həmin dərsliklər gənclərimizdə türk dünyasına, onun böyük sənətkarlarına hörmət və məhəbbət aşılayır, onları vətənpərvərliyə, birliyə, təəssübkeşliyə səsləyir.

Şərq və türk xalqlarının ədəbiyyatını dərindən bilən bu tədqiqatçı alim hazırda böyük zəhmət hesabına Azərbaycan Pedaqoji Universitetində yaratdığı «Türk araşdırmaları» və «Türk odası» elmi-tədqiqat mərkəzinə rəhbərlik edir. Səmərəli fəaliyyətinə görə 2012-ci ildə «Tərəqqi» medalına layiq görülmüşdür.

Elman müəllim çox məhsuldar həyat və yaradıcılıq yolu keçib. Azərbaycan filologiyasının tədqiqi, Azərbaycan-İran, Azərbaycan-türk ədəbi əlaqələri sahəsində çox xidmətlər göstərib. İndi o, həyatının ən kamil dövrünü yaşayır. Bu istedadlı və yorulmaz alimin uğurları hələ irəlidədir. Sağlıq olsun!



*Aslan Salmansoy*
*filologiya üzrə fəlsəfə doktoru*

## TÜRKLÜYƏ XİDMƏT YOLUNUN LƏYAQƏTLİ DAVAMÇISI

Ayrılıqda həm yaxşı müəllim, həm də yaxşı alim olanların sayı çox olsa da, bu yüksək məqamları eyni zamanda özündə ehtiva edən ziyalılarımız çox azdır və bu azsaylı mütəxəssislərin sırasında düşünmədən yadımıza ilk olaraq, dərs dediyi tələbələrin «canlı arxiv» adlandırdığı, bizim həm də çox gerçəkləri və gümanları, məntiqi və meyarları ilə dəyərləndirdiyimiz professor Xeyrulla Məmmədov gəlir. O Xeyrulla Məmmədov ki, öz bilik və səriştəsini tələbələrə aşılamaq, təlim-tədris məsələlərinə dair çox gərəkli vəsaitlər hazırlamaqla yanaşı, fundamental monoqrafiyaları ilə də özünü, yalnız mənbələrlə işləyən, mülahizə və mühakimələri faktlara söykənən çox ciddi və nüfuzlu elm adamı kimi də təsdiq etmiş, elmi qənaətlərinin mötəbərliyinə heç kəsdə şübhə yeri qoymurdu. Xeyrulla müəllim o azsaylı müəllimlərdən idi ki, ən tanınmış, hətta ən «eqo»çu akademiya alimləri də onunla hesablaşır, biliyi və şəxsiyyətinə hörmətlə yanaşırdı.

Biz professor Elman Quliyevi də Xeyrulla Məmmədov biçimli, çevrəli mütəxəssis – həm yaxşı müəllim, həm də yaxşı alim hesab edir və güman edirik ki, bu müqayisəmizlə heç də ifrata varmırıq. Onun da həm təhsillə bağlı hazırladığı proqramlar, dərsliklər, eləcə də, çox dəyərli monoqrafiyaları filologiyamızdakı boşluqları dolduran və mütəxəssislər tərəfindən yüksək dəyərləndirilən əsərlərdir. Bu keyfiyyətləri və məziyyətlərinə görə onun əsərləri təkcə Azərbaycanda yox, bir sıra türkdilli ölkələrdə də çap edilir.

Yeri gəlmişkən xatırladım ki, məni Elman Quliyevlə bizim Ədəbiyyat İnstitutunun dəhlizində elə Xeyrulla müəllim tanış etmişdi. Onun Elmana çox isti münasibəti, Elmanın isə müəllimimizə böyük hörməti və saygısı elə o vaxtdan diqqətimizi çəkmiş, bu isə sonrakı ünsiyyətimizin davamlılığına, dostluğa çevrilməsinə kifayət etmişdir. Çünki çox obyektiv və bir az da sərt Xeyrulla müəllim hər adama ürək qızdırmaz və xatirini bu qədər istəməzdi...

E.Quliyevin həm türkşünaslığa, həm də şəhriyarşünaslığa dair orijinal və sanballı araşdırmaları türk dünyasının böyük filosofu, milli dövlətçilik və turançılıq nəzəriyyəsinin banisi Əli bəy Hüseynzadənin bir məramını yadımıza salır: «... tariximiz və keçmişimizdəki əkabiri-milliyəmiz haqqında həqiqəti meydana çıxarmaq üçün əvvəl əmrdə özümüzü tanımalıyıq. Yəni, türklərin kim olduqlarını və kimlərdən ibarət bulunduqlarını, nərədən nəşət etdiklərini, neçə şöbəyə ayrıldıqlarını, bu gün nərədə sakin olduqlarını və nə namlar təhdində yaşadıqlarını göstərməliyik».

Doğrudur, «Yalnız Azərbaycanda yox, bütün türklük miqyasında qövmi-özünüdərkin, istiqbal düşüncəsinin təkcə rəssamı deyil, həm də memarı (Y.Qarayev) olan Ə.Hüseynzadə bu yolda bütün yaradıcılıq ömrünü sərf etmiş, məsləkdaşları – digər türkçülər də bu istiqamətdə az iş görməmişdilər. Amma, 1936-cı ildə qəbul edilən «Stalin Konstitusiyası»ndan sonra, nəinki türkçülüyü tədqiq və təbliğ edən millətsevərlər faciələrlə üzləşdi, «türk» sözü belə «dildən qovuldu, sürgünə göndərildi». Türkün özü və sözü bir də Vətəni müstəqillik əldə etdikdən sonra, belə demək mümkünsə, «özünə qayıtdı».

E.Quliyevin özü və əsərləri türkə reabilitasiya qazandıranların, onu özünə qaytaranların ön sırasındadır. Onun türkşünaslıq və şəhriyarşünaslıqla bağlı monoqrafik tədqiqatları və dərslikləri Ə.Hüseynzadənin ünvanını soraq verdiyi türk yurdları ilə təmaslaşır, cızdığı konturları pozitivləşdirir, onun yarımçıq qalmış məramının həyata keçirilməsinə, «türkün əvvəl əmrdə özünü tanımasına», eləcə də tanıtmasına xidmət edir.

Professorun bu yöndəki fəaliyyəti, təkcə Azərbaycan ədəbiyyatı və filologiyasına yox, bütövlükdə türk xalqları ədəbiyyatına, mədəniyyətinə, türk xalqlarının birliyinə, türk dövlətçiliyinə əvəzsiz xidmətdir. Onun elmi-ictimai fəaliyyətinin bir sıra türk dövlət xadimlərinin marağına səbəb olması və zəhmətinin mükafatlandırılmasının da səbəbi budur. Bu mənada E.Quliyevi Əli bəy Hüseynzadənin layiqli və ləyaqətli varisi hesab etmək olar.

... Professor Elman Quliyevin şəxsiyyətini ucaldan bir keyfiyyət də

yadımıza, yenə sağlığında «yalvac-peyğəmbər» ünvanı ilə şərafətləndirilmiş Ə.Hüseynzadəni salır.

Səməd Ağaoğlu (Ə.Hüseynzadənin məsləkdaşı və yaxın dostu Ə.Ağaoğlunun oğlu) «pərdəarxası adam» adlandırdığı Ə.Hüseynzadə haqqında yazır: «Dövrün böyük mürşidinə (Z.Göyalpa) «İslam ümmətindən, Qərb mədəniyyətindən, türk millətindən» olmaq fikrini verən o, (Ə.Hüseynzadə) idi. Osmanlı imperatorluğunun din siyasəti ilə özünü doğrultmayacağı anlaşılınca, bütün türklərə bir vətən kimi, Turan yolunu da o göstərdi. Yox, yox, qətiyyən mübaliğə etmirəm, atamın bu dostu bütöv bir dövrün, həqiqətən gizli həyat mənbələrindən biri olmuşdur».

Mən Elman müəllimi xeyli vaxtdır ki, tanıyıram və bu illər ərzində onunla dəfələrlə elmi yığıncaqlarda, dost məclislərində iştirak etmişəm. Əksəriyyəti ədəbiyyatşünaslığımızda ciddi hadisəyə çevrilən çox dəyərli və orijinal əsərlər qələmə almış, monoqrafiyaları xarici ölkələrdə nəşr edilmiş, elmi əzmkarlığına görə kifayət qədər yüksək təltiflərə layiq görülmüş... bu təvazökar, sadə və səmimi insanın bircə dəfə də olsun xidmətlərini və tutduğu məqamı dilə gətirdiyini, qürrələndiyini görmədim. Əksinə, sələfi kimi «pərdəarxası adam» olmağı xoşladığının, «məchulluğ»unu qoruduğunun şahidi oldum.

Professor E.Quliyevin bu keyfiyyətlərini sələfi ilə müqayisə edər və onun layiqli varisi olduğunu dilə gətirərkən, düşünürəm ki, mən də «qətiyyən mübaliğə etmirəm» və ona da əminəm ki, bizim bu müqayisələrimizi, bu yetkin alimi və bütöv şəxsiyyəti yaxından tanıyanlar da münasib sayacaq və məmnunluqla təsdiq edəcəklər.



***Rəcəb Əliyev***
*ADPU-nun «Türk və Şərqi Avropa xalqları tarixi və TTM» kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent*

# ELMƏ, MÜDRİKLİYƏ VƏ XOŞBƏXTLİYƏ NAİL OLMUŞ ŞƏXSİYYƏT

Böyük yunan filosofu Platon özünün «Dövlət» əsərində insanları təsnifatlaşdırarkən onları üç qrupa bölmüşdür:

*1. Dünyanı dəyişənlər;*
*2. Dünyanı dərk edənlər;*
*3. Dünyanı seyr edənlər.*

Haqqında söz demək istədiyim professor Elman Quliyev məhz dünyanı dərk edənlər sırasındadır. Mən Elman müəllim ilə 1992-ci ildə filologiya fakültəsinin yerləşdiyi III mərtəbədədə tanış oldum. Onunla olan səmimi söhbətimizdən bir daha gördüm ki, yüksək ünsiyyətə, güclü məntiqə, yaradıcı və tənqidi təfəkkürə malik olan Elman müəllimə Ulu Tanrı təbəssümlü sima və xeyirxahlıq kimi xüsusiyyətlər də bəxş edib. Elmanın həyatını və yaradıcılığını müşahidə etdikdə mən onun simasında xoşbəxt insanın obrazını görürəm. Onun həyat amalı insanlara yaxşılıq etməkdir. Bu baxımdan Nəsirəddin Tusinin xoşbəxtlik haqqında dediyi müdrik bir kəlam yadıma düşdü. Nəsirəddin Tusi yazır ki, xoşbəxtlik fəzilətlərin vərdiş halına keçməsidir. Elman müəllim halal, imanlı, bilikli və təmənnasız xeyirxahlıq edən şəxsiyyətdir!

Elman müəllim xasiyyət və təbiət etibarı ilə dualizimdən tamamilə kənar adamdır. Sonradan onun dərs dediyi tələbələrlə söhbətimdə bu mənə bir daha aydın oldu ki, onun tələbələri də onu çox mədəni, onların şəxsiyyətinə hörmət edən, hər bir tələbəyə fərdi diqqət yönəltməyi bacaran müəllim kimi dəyərləndirirlər. Onun tədris etdiyi «Türk xalqlarının ədəbiyyatı» problemlərindən oxuduğu sanballı mühazirələri tələbələr tərəfindən sevilir və rəğbətlə qarşılanır. Tələbələr onun hədsiz dərəcədə savadlı və təvazökar, hamının şəxsiyyətinə hörmət edən bir müəllim kimi

tanıyırlar. Elman müəllim elmdə öz dəsti-xətti olan və çoxşaxəli tədqiqat sahələrinə malik alimdir.

O, Cənub, Şərq və Mərkəzi Asiya xalqlarının ədəbiyyatları ilə bağlı apardığı araşdırmaların və bu sahədə nəşr etdirdiyi çoxlu elmi monoqrafiyalar, dərsliklər, elmi-publisistik məqalə və dərs proqramlarının müəllifidir. O, Türk dünyasında türk xalqları ədəbiyyatlarının tədqiqi sahəsində məhsuldar alim kimi qəbul edilir. Əbəs deyil ki, professor Elman Quliyevin elmi yaradıcılığı Azərbaycan və xarici dövlətlərin elmi ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, yazdığı əsərlərə görə «Mirzə Uluqbəy» mükafatına, «C.Rumi – 800» (YUNESKO) müsabiqəsinin laureatı diplomuna, 2011-ci ildə isə «Türk xalqlarının ədəbiyyatı» problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə «Qızıl medala» layiq görülmüşdür. Elmi və pedaqoji sahədəki uğurlarına görə isə Azərbaycan Prezidentinin 2012-ci ildə 18 aprel tarixli sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir.

Professor Elman Quliyevin tədqiqatları Türk dünyası ədəbiyyatının bir çox qaranlıq qalan sahələrinə əbədi işıq salmışdır. Onun elmi yaradıcılıq irsi, elmi ictimaiyyət üçün yazdığı əsərlər Azərbaycana və onun çalışdığı ADPU-ya şöhrət gətirmişdir.

ADPU-nun rektorluğu onun pedaqoji və elmi fəaliyyətinə lazımi qiymət vermişdir. Universitetdə alimlər arasında keçirilən müsabiqədə Elman müəllim 2007, 2008-ci illərdə ardıcıl olaraq «İlin alimi» adına layiq görülmüşdür. Elman müəllimin həm də Azərbaycan Yazıçılar Birliyinin və bir neçə müdafiə şuralarının üzvü olması onun elmi məfkurəsindən elmi yaradıcılıqla məşğul olan onlarla Azərbaycanlı gənc tədqiqatçılarının bəhrələnməsindən xəbər verir. Hazırda ADPU-da fəaliyyət göstərən «Türk odası» və «Türk araşdırmaları» elmi tədqiqat mərkəzi onun ağır zəhmətinin nəticəsində inkişaf edərək yeni-yeni problemlərin tədqiqi ilə məşğuldur.

Elman müəllim yorulmaq bilməyən, həmişə xeyirxahlıq müjdəsi ilə yaşayan alimdir. Psixoloqlar müəyyən etmişlər ki, insanın xarakteri və təbiətinin formalaşmasında onun doğulub boya-başa çatdığı yerin ab-havasının təsiri əsas prioritetlərindən biridir. Bu doğurdan da belədir. Professor Elman Quliyevin xarakteri, düşüncə tərzi, saflığı və xeyirxahlığı onun boya-başa çatdığı Lerikin saf ab-havasından ərazinin ən saf sulu Zuvand bulaqlarından və həmişə məğrur dayanan möhtəşəm dağlarının havasındandır. Bir sözlə, bu ziyalı alim cəmiyyətə nur bəxş edən və həmişə axtarışda olan bir tədqiqatçıdır.

Əziz dostum, doğulub dünyaya gəldiyin gün mübarək! Bundan sonrakı həyat yollarında sənə Allahdan uğurlar, can sağlığı, həmişə gümrahlıq və sevinib gülmək arzulayıram.



***Nəcəf Nəcəfov***
*«Azərbaycan məktəbi» jurnalının baş redaktoru, ADPU-nun dosenti, əməkdar müəllim, Akad. M.Mehdizadə və Qızıl qələm mükafatları laureatı*

## QƏDİRŞÜNASLIQ TİMSALI

Azərbaycan xalqının insanda qiymətləndirdiyi ən vacib məziyyətlərdən biri də onun qədirşünaslığıdır. Atalar sözləri, zərbi-məsəllərdə də bu fikirlər özünün ən bariz ifadəsini tapmışdır. Fəlsəfi mənada qədirşünaslıq, qədirbilənlik mənəvi keyfiyyət kateqoriyasına daxildir. Bizim Elman müəllim özündə məhz bu keyfiyyətləri cəmləşdirmişdir. Qədirşünaslıq sözü onun adı ilə yanaşı qoyula bilər.

Bir sıra sanballı kitabların müəllifi kimi tanınan filologiya elmləri doktoru, professor Elman Quliyevin həyatının mənasını məhz qədirşünaslıq təşkil edir. Onun ömür yolunda bu keyfiyyət ən başlıca yer tutur. O əlinə nə iş alırsa-alsın hökmən qarşısına belə bir məqsəd qoyur. Onun türk xalqları ədəbiyyatı və mədəniyyətinin Azərbaycanda tədrisi və təbliği, həmçinin Azərbaycan ədəbiyyatının türk xalqları arasında təbliği istiqamətinə yönələn zəhməti də bu amala xidmət edir. Təsadüfi deyildir ki, o, Azərbaycan Dövlət Pedaqoji Universitetində «Türk odası» yaratmışdır. Onun zəhməti ilə tezliklə balaca bir otaq əsl mənada zəngin və maraqlı bir mərkəzə çevrilmişdir.

Elman müəllim danışanda da, düşünəndə də, haradasa bir təklif irəli sürəndə də sözünü bu sahəyə yönəldir. Uzun illər bizdən uzaq düşmüş bir dünyanı bizə yaxınlaşdırmaq özü də qədirşünaslıqdır. Bu işlərin əsasında xalqımızı soykökünə qaytarmaq kimi nəcib bir məqsəd durur.

«Azərbaycan ədəbiyyatı tarixi» kafedrasında onunla birgə fəaliyyətimizdə də bu cəhət çox aydın hiss olunur. Hər kəsə, xüsusən özünə və tələbələrinə tələbkarlıqla yanaşan Elman müəllim kafedramızda yaddaqa-

lan ənənələrin yaşamasına çalışır, sələflərimizi tez-tez yada salır, onların ruhunun şad olması üçün əlindən gələni əsirgəmir.

Mən bu baxımdan bir məsələnin üzərində dayanmaq istəyirəm. «Azərbaycan ədəbiyyatı tarixi» kafedrası Feyzulla Qasımzadə, İsmayıl Şıxlı, Xeyrulla Məmmədov, Abbas Hacıyev, Məmməd Məmmədov, Paşa Əfəndiyev, Mustafa Mustafayev kimi tanınmış alimlərin adı ilə bağlıdır. «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının müdiri, prof. Himalay Qasımov həmişə öz sələfi olan akademik Feyzulla Qasımzadədən söz salır, onun haqqında çox dəyərli fikirlər söyləyir, onu qədirdanlıqla xatırlayır. Belə bir tendensiya kafedra üzvlərinin hamısına sirayət etmişdir. Elman müəllim bu cəhətdən daha çox fərqlənir. Onun prof. Xeyrulla Məmmədovun adı ilə bağlı gördüyü işlər də bu qəbildəndir. XIX-XX əsr ədəbiyyatımızın istedadlı tədqiqatçısı, filologiya elmləri doktoru, professor Xeyrulla Məmmədovla mənim də aramda dostluq, yaradıcılıq münasibətləri olmuşdur. Onun hafizəsinə həmişə heyranlıqla yanaşırdım. Ona görə də, onun haqqında yazılan hər bir sətir mənim də ürəyimdən olur. Xüsusən onu yaxından tanıyan Elman müəllimin bu böyük alim haqqında yazıları, söhbətləri sanki Xeyrulla müəllimə ürəklərdə heykəl qoyur. Böyük qəlb sahibi olan Elman müəllim ürəyində yerləşdirdiyi Xeyrulla müəllimdən danışmaqdan, onun haqqında yazmaqdan yorulmur. O, bununla gələcək nəsillər üçün bir xəzinəni: – Xeyrulla Məmmədov irsini qoruyur. O bilir ki, əgər bunu o etməsə, sonra çox gec olacaqdır. Bizim müasirimiz olan Xeyrulla müəllim o qədər zəhmətkeş, dəqiq, erudisiyalı, yorulmaz bir tədqiqatçı idi ki, onun nəinki irsi, hətta üslub tərzi, tədqiqat metodu, ifadə etmək bacarığı, ayrı-ayrı klassiklərə şəxsi münasibəti də ədəbiyyatımızın tədqiq tarixini zənginləşdirə, gənc tədqiqatçılarda müxtəlif axtarıcılıq maneraları tərbiyə edə bilər. Əgər bu gün Fərhadın külüngü, Şah İsmayılın qılıncı, Səttarxanın tüfəngi əldə olardısa, muzeylərə ən nadir eksponat kimi qoyulardı. Elə indidən gələcək üçün Xeyrulla Məmmədovun arxivi də qorunmalıdır. Onun zərrə-zərrə topladığı incilər xalqının malı olmalıdır. Bax, bu işdə Elman müəllimin qədirşünaslığı əvəzsiz bir xeyirxahlıqdır. Xeyrulla müəllim haqqında xatirələr toplayanda da Elman müəllim belə düşünmüşdür. Onun adına Lerikdə küçə veriləndə də bu hissləri keçirmişdir. Azərbaycan Milli Dram Teatrı kimi möhtəşəm binada Xeyrulla Məmmədovun yubileyinin keçirilməsi də az-az alimlərə müyəssər olan bir hadisədir. Elman müəllim burada bir aparıcı kimi də öz istedadını göstərmişdir.

Orada nə qədər gözəl sözlər deyildi. Teatrın direktoru prof. İsrafil

İsrafilovun çıxışı məclisə çox güclü ton verdi. Belə bir məclisə qibtə etməmək olmazdı.

Elman müəllim öz üzərində çalışan, ciddi tədqiqatlar aparan alimdir. Onun söhbətləri türk aləmindən tutmuş arxiv sənədlərinə qədər uzun bir yolu əhatə edir. Onun bir cəhəti də qeyd edilməlidir ki, sevmədiyi işə girişmir. Əgər Şəhriyardan yazırsa, o yazdığı sətirlərə Şəhriyar sevgisini doldurmalıdır. Böyük türk klassikləri Tofiq Fikrət, Mehmed Akif də onun üçün Əlibəy Hüseynzadə, Əhməd bəy Ağayev kimi doğma klassiklərdir. O öyrəndiyi məsələni dərindən öyrənir. Axı, tədqiqat zəhmət, gərgin axtarışlar tələb edir.

Elman müəllimin bir cəhəti də diqqəti cəlb edir ki, o, tələbələri sevir, onların ədəbiyyatçı kimi yetişməsini həyatın mənası hesab edir. Onun magistrlərlə necə işlədiyinin şahidi olmuşam. Oljas Süleymenov, Çingiz Aytmatov, Nazim Hikməti də öz tələbələrinə İsmayıl Şıxlı, Bəxtiyar Vahabzadə kimi sevdirir. O, türk sənətkarlarını vahid bir ailənin üzvü sayır. Onun yaradıcılıq planlarında böyük bir türk aləmi hakimlik edir. Orada hər klassikin öz yeri vardır. Onları harada necə təqdim etməyi Elman müəllim yaxşı bilir. Maraqlıdır ki, onların hər birini də yaddan çıxarmır. Harada keçirilməsindən asılı olmayaraq türk xalqları ədəbiyyatına dair tədbirlərin hər birindən onun xəbəri olur.

Elman müəllim narahat qəlbli insandır. O yeriyəndə hiss edirsən ki, hansısa bir vacib məsələnin həlli üçün harasa tələsir. Elə bil səni, hansısa bir yeniliklə sevindirmək istəyir.

Elman müəllim çox yaxşı həmkardır. Bir sıra məsələlər barədə onunla məsləhət etdikdə həmişə müsahibinin təcrübəli, mühakiməli bir şəxs olduğuna inanırsan. Onun qəlbi xeyirxahlıqla doludur.

Elə ona görə də, Elman müəllimin onu tanıyanlar arasında dərin hörməti vardır. Belə bir adamla eyni kafedrada işləmək həmkarları üçün çox xoşdur.

Əminik ki, onun yeni-yeni uğurları bizim hamımızı sevindirəcəkdir.

Elman müəllimə bu yolda «dünyanın ən şirin neməti olan» (S.Vurğun) can sağlığı və ailə səadəti arzu edirik.



***Oqtay Rza***
*ADPU-nun dosenti, əməkdar müəllim,*
*R.Rza mükafatı laureatı*

# FƏSİLLƏR ARXADA, FƏSİLLƏR ÖNDƏ

Professor Elman Hilal oğlu ilə ilk dəfə nə vaxt, harada tanış olmağım yadımda deyil. Lakin fərəhlə deyə bilərəm ki, şəxsiyyəti və alimliyi həmahəngləşən bu ziyalını artıq uzun müddətdir doğma ADPU-muzda salamlayıram: gah dəhlizdə, gah iclas salonlarında və s. Elman müəllimə nüfuz qazandıran səbəblər sırasında öncə onun sadəlik və saflığını, bilikli və savadlılığını, yüksək mədəniyyət və elm yiyəsi kimi hörmət qazanmağını göstərə bilərəm.

Eşidəndə ki, «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəridir, xeyli sevindim. Bu milli ruhlu, bəşər sevgili alim-pedaqoq poeziyanın, şeirin də vurğunudur. Elman Hilal oğlunun ustad şairlərdən Məhəmmədhüseyn Şəhriyar və Söhrab Tahir, unudulmaz-mütəfəkkir yazıçımız Mirzə İbrahimov haqqında mətbuatda dərc edilmiş məqalələri, çapdan çıxmış kitabları diqqətəlayiq fəaliyyət kimi qeyd olunmalıdır.

Onun dədə-baba məskəni Lerikdə dəfələrlə olmuşam. Barəsində söz düşəndə həmyerliləri bu vətənpərvər professordan həmişə razı qaldıqlarını söyləyiblər. Biz bir çox mədəni-kütləvi tədbirlərdə, AYB-in yığıncaqlarında həm iştirakçı, həm də çıxışçı kimi alqışlanmışıq.

Elman bəyi – ictimai həyatla möhkəm bağlı olan bu səmimi insanı elin xeyir və şər mərasimlərində də mütəmadi görürük. Dostumuz şair Allahverdi Məmmədlinin ölümündən il yarım keçəndən sonra biz onun oğlu Turalın toyunda yanaşı oturmuşduq. Professor şənliyə oğlu Elmarla birlikdə gəlmişdi. Elman müəllimi ad günlərində, yubileylərdə, təqdimatlarda çox görmüşəm. Bu yaxınlarda paytaxtdakı Atatürk Mərkəzində bir kitab müzakirəsində ikimiz də mülahizələrimizi söylədik. Tədbirdən qayıdarkən Elman Hilal oğlunun 55 yaşını ürəkdən təbrik etdim və məmnun qaldım ki, bədahətən qoşduğum misralar onun çox xoşuna gəldi:

***Fəsillər arxada, fəsillər öndə...***
***Halaldır vəzifən, duz-çörəyin də.***
***Zuvandda doğulub həmkarım Elman,***
***Fəqət Azərbaycan var ürəyində.***



***Seyfəddin Eyvazov***
*Naxçıvan Dövlət Universitetinin*
*«Azərbaycan ədəbiyyatı» kafedrasının*
*dosenti, filologiya üzrə fəlsəfə doktoru*

## XOŞ NİYYƏTLİ İNSAN, SƏMİMİ ALİM ÖMRÜNÜN DAŞIYICISI

Professor Elman Quliyevlə yaşımızın elə çağında tanış olduq ki, tələbəlik və erkən cavanlıq ötüb keçmişdi. Belə tanışlıqda müəyyən çətinlik olur – rəsmi müraciət, rəsmi cavab və s. Bu o zaman idi ki, XIX və XX əsr Azərbaycan ədəbiyyatının professional bilicisi, təəssüf ki, biz oxuduğumuz zaman mənim müəllimim olmamış, lakin böyük rəğbət bəslədiyimiz rəhmətlik Xeyrulla Məmmədovun ölümündən sonra Elman müəllimin təşəbbüsü ilə çap olunmuş «XIX əsr Azərbaycan ədəbiyyatı» kitabının təqdimatı keçirilirdi. Həmin vaxt mən ADPU-da prof. Himalay Qasımovun rəhbərlik etdiyi kafedrada stajirovkada idim və bir vaxtlar oxuduğum «APİ»-də özümü lap xoşbəxt hiss edirdim. Məsələ bundadır ki, mən 1970-ci ildə bu gözəl institutu filologiya ixtisası üzrə bitirmişəm və bizə o zaman Əbdüləzəl Dəmirçizadə, Mirzə Feyzulla Qasımzadə, Əhməd Seyidov, Məmmədhüseyn Təhmasib, İsmayıl Şıxlı, Zeynal Tağızadə, Kamal Qəhrəmanov, Əhəd Hüseynov, Afad Qurbanov, Mirzə Cavad Bağırov... kimi hamının qəbul etdiyi elm adamları dərs deyirdi. XX əsr ədəbiyyatını isə Sədi Əfəndiyev demişdi və... diferensial zaçotdan adi zaçota çevrilmiş və imtahandan da betər xofu olan yoxlamada mən və qrup yoldaşım, Nizami təqaüdçüsü Nizami Xudiyev «mexaniki» zaçot almışdıq. Gözəl insan kimi yadımızda qalan dekan Həmzə Qasımzadədən transfer edilmiş dekanlığı təhvil alan Afad müəllim qrupun zaçotunu komissiya vasitəsilə götürməyə gələndə və bizi koridorda görüb «Niyə zaçota daxil olmamısınız?» – deyə soruşanda «Biz qiymət almışıq»– dedik. İçəridə nə olduğunu bilmədik, ancaq onu bildik ki, zaçotu götürməyi o zaman dosent olan Xeyrul-

la müəllimə həvalə etmişdilər... İndi Xeyrulla müəllim həyatda yoxdur və onun yeri görünür. Bir şairimizin dediyi kimi – «Tarixdə yara qaldı, tarixdə ara qaldı – 41-45 arası...» Xeyrulla müəllim Zuvand mahalına sığmayan və Azərbaycan elmi və Azərbaycanşünaslıq üçün çox dəyərli uzman alim idi, hər halda adi, sıradan bir adam deyildi, mənim zənnimcə, biz onu qorumalı idik və qoruya bilmədik.

Elman müəllimi elə o toplantı-təqdimatda özüm üçün «kəşf etdim» və bu kəşf də o idi ki, Elman müəllim çətin adam deyil, eləcə, yaxşı adamdır. Sonra onun əsərləri ilə, başçılıq etdiyi mərkəzlə tanışlıqdan sonra elmi potensialına da bələd oldum. Dərslik kimi bizə bəxş etdiyi «Türk xalqları ədəbiyyatı» kitabının tədris üçün çox yararlı olduğunu gördüm və ondan dərs zamanı istifadə etdim. İlk təəssüratımı soruşanda «Məncə, Musa Cəlili də ora əlavə etsəniz, yaxşı olar» demişdim. Həssas insan olan Elman müəllim bu günlərdə zəng edib həmin mövzunu dərsliyinə daxil etdiyini dedi. Deməyə də bilərdi.

Elman müəllimə bir iş yoldaşımızın avtoreferatına rəy verməsini xahiş etmişdim. Professor E.Quliyev onun rəyini yubatmadan yazmışdı. Elman müəllim inciməz, – tənbəllik etməyib rəyi «yoxlamaq məqsədilə» oxudum, oxudum görüm, rəy avtoreferatı nə dərəcədə əhatə edir? Çox xoşuma gəldi, bu öz yerində, Elman müəllimin yüyrək, əhatəli və anlaşıqlı elmi dili mənim yaddaşımda qaldı. Mən indi bu elmi üslubu başqalarından ayırd edə bilərəm. Zənnimcə, bu vurğuladığım «elmi üslub» məsələsi elmdə əsas məsələlərdən biridir. Elə alim var ki, onun akademizmindən qaçıb can qurtarmaq istəyirsən. Elman müəllim isə M. Füzuli termini ilə desək, «bu düşvarı asan eyləyir».

Onun əsərlərini, mükafatlarını sadalamaq istəmirəm, ancaq onun Şəhriyara olan sevgisinin elmi dillə bəyanına hörmətlə yanaşdığımı bildirirəm. Elman müəllim elmdə yeri olan və görünən insandır. Bu, məni ona görə sevindirir ki, elmə səmimi insanlar nə qədər çox gəlsələr, bir o qədər insanlıq qazanar. Mən elmdə cılız, ancaq əzazil müəllimlər də görmüşəm, ona görə də belə deyirəm. Ancaq yaxşılar daha çoxdur və o səmimi alim, alim insanlardan biri də professor Elman Quliyevdir. Mənim şəxsi qənaətimə görə, müəllim üçün ən vacib qazanclardan biri, tələbələrin sevgisidir. Tələbə öz müəllimini sevmirsə, apar, qaytar – təbii ki, müəllimi. Bəs yuxarıda adlarını sadaladığım müəllimlər elə bu müsbət enerjinin daşıyıcıları deyilmidirlər? Axı onlar hamısı allahın rəhmətinə qovuşublar, keçmiş tələbələr isə, «Bu mənim fikrim deyil, Təhmasibin fikridir» deyirlər, yaxud, «Feyzulla Qasımzadə bizə dərs deyəndə deyirdi ki, bu fikri kitabı-

ma daxil edə bilməmişəm, senzura qoymadı... Dəmirçizadə dərs deyəndə bir tələbədən yersiz bir kəlmə eşitməzdin, İsmayıl Şıxlının dərsi sanki yazıçı ilə bir görüş idi, Mirzə Cavad klassik ədəbiyyatı, xüsusilə Füzulini əzbər bilirdi, Əhəd Hüseynovun hər dərsi tələbələr üçün romantika ilə elmin bir vəhdəti idi, Şükür Sadıqov ədalət mücəssəməsi idi» və s.

Müəllim üçün elmin, öyrətmənliyin fəzasına yüksəlməkdə qoşa qanad onun biliyi ilə yanaşı, yüksək mənəvi-əxlaqi keyfiyyətlərin bir şəxsiyyətdə cəmləşməsidir. Filologiya elmlər doktoru, professor Elman Quliyevdə isə bu keyfiyyətlər sanki qan yaddaşı ilə gəlmiş və üzvi vəhdətdədir. Bu gün Elman müəllim yaradıcılığının yetkinlik yaşındadır, yaşının yaradıcı dövrünü yaşayır. Onun bu xeyirxah insan ömrünü şərəflə yaşadığına sevinənlərdən biri də mənəm.

Allahın ömür əmanəti qoy səndə, sənin kimi insanlarda çox qalsın!

*27 fevral 2013. Gecə saat 04:58*
*Şərur şəhəri*



*Hacı Mir Kazım*
*Ali dərəcəli həkim*

## DAĞ OLMAQ İSTƏSƏN DAĞA ARXALAN!

İyirmi beş ildən çox olar. Rayondan gəlirdim. Axşam saat on bir olardı. Radionu açdım. Şirin ləhcə, bəlağətli bir nitqlə Türk ədəbiyyatından, türk xalqlarının görkəmli şəxsiyyətlərindən – C.Rumi, Ş.Təbrizi, Y.İmrə, Mehmed Akif və s. kimi dahilərdən həvəslə danışan natiq məni valeh etmişdi. O, sanki üzbəüz oturub gözlərimin içinə baxaraq, mənimlə söhbət edirdi. Şam pərvanəni özünə çəkən kimi o öz dərin məzmunlu, hədəfi humanistlik, vətənpərvərlik, milli-mənəvi dəyərlərimizi tanıtmaq, sevdirmək və aşılamaq olan sözləri və ifadələrilə məni özünə cəlb etmişdi. Bu təsir altında avtomobili idarə etmək çətin olduğundan və həm də bu zəngin «qidanı»ın hamısını hərisliklə udmaq istəyim Salyan-Ələt yolunun Kürsəngi deyilən sahəsində maşını saxlamağıma səbəb oldu. Söhbətə diqqətlə qulaq asdıqca təəssüf hissi keçirirdim ki, radionu niyə daha tez açmamışam. Heç olmazsa, danışan alimin kimliyini öyrənərdim!

Maşını saxladıqdan bir neçə dəqiqə sonra veriliş başa çatdı. Mən yerimdəcə, sükan arxasında donub qalmışdım. Dəniz tərəfdən sərin meh əsirdi. Başımın üstündə on dörd gecəlik Ay Günəşdən aldığı nurla ətrafı ziyalandırırdı. Digər tərəfdən, müsahibin çox böyük zəhmətləri nəticəsində əldə etdiyi və öz səyi ilə müasir dünyamıza yönəltdiyi tarixin dərinliklərindən doğan mənəviyyat «günəş»lərinin ziyasına mən də qərq olmuş halda sükuta dalmışdım. Bir saatdan çox keçmişdi. Bir neçə dəqiqəlik söhbətlə radio müsahibim məni öz pərəstişkarına çevirmişdi. Böyük Füzuli demişkən, bir nöqtə «məhrəm»-i «mücrim» edə bilər. Burada Təbriz günəşi olan Şəmsi yada salmamaq mümkün deyil:

Üzümü qiblə səmtinə tutdum. Allah-taala məni hidayət etdi. Fikirləşdim ki, Ay da, Günəş də, qədim türk dövrünün mənəvi günəşləri də, bu

saat öz bəlağətli nitqilə qəlbimdə yeni bir səyyarə parıltısı yaradan radio müsahibim də məxluqdur. Bunların hamısını xəlq edən tayı-bərabəri olmayan yeganə Allah-taaladır. Yalnız ona pərəstiş etməli, onun verdiyi bu və digər nemətlər müqabilində daim şükürlər etməliyik!

Birdən verilişin aparıcısının son sözlərini xatırladım. Bu beynimdə əks səda verdi:

– Hörmətli dinləyicilər, müsahibim Lerik rayonunda anadan olmuş istedadlı tədqiqatçı Elman Quliyev idi.

Həmyerlim olsa da onu tanımırdım. Sonralar bir sıra obyektiv və subyektiv səbəblərə görə Elman müəllimlə görüşüb tanış olmaq mənə qismət olmamışdı.

2004-cü ilin payızı idi. İşlədiyim xəstəxanada otağıma ADPU-nun professoru Xeyrulla Məmmədovla birlikdə nisbətən cavan yaşlı, qəddi-qamətli, nurani simalı bir şəxs daxil oldu. Xeyrulla müəllim oturmadan əvvəl üzünü mənə tutub:

– Mir Kazım, tanış olun. Bizim universitetdə işləyir. Böyük alimdir. Yazdığın kitablardan ikisini gətirib birini mənə, o birini də Elman müəllimə ver!

Xeyrulla müəllimi tanıyırdım. Qüdrətli tədqiqatçı, qiymətli həyatını arxivlərdə keçirməklə zəngin xəzinələri araşdırıb tapan və mətbuat, televiziya vasitəsilə xalqına təqdim edən, obyektivliyi, heç nədən çəkinməyərək həqiqəti deməyi və müdafiə etməyi bacaran bir ziyalı idi. Prof. X.Məmmədov müasir dövrdə ölkəmizdə geniş elmi potensiala malik az sayda olan istedadlı alimlərdən biri olduğu halda Elman müəllimə böyük alim deməsi məni cəsarətləndirdi:

– Professor, sizdən də böyük alimdir?

Xeyrulla müəllim cavabında:

– Bəli, məndən də böyük alimdir. Hal– hazıda o, mənim səviyyəmdədir. Lakin mənə nisbətən cavan yaşdadır. Elmə olan həvəsinə, çalışqanlığına, zəhmətsevərliyinə bələdəm. Əlbəttə, məndən daha uca məqamda olduğunu görürəm.

Prof. X.Məmmədov danışdıqca onda olan səmimiyyət, təvazökarlıq, Elman müəllimin müvəffəqiyyətlərinə görə daxilində keçirdiyi sevinc və iftixar hissi özü büruzə verməsə də ətrafdan sezilirdi.

Sonrakı söhbətlərdən məlum oldu ki, mənim neçə illər əvvəl radioda dinlədiyim şəxs qarşımda əyləşən, bayaqdan bəri dinib-danışmayan, onun barəsində prof. X.Məmmədovun söylədiyi xoş sözlərdən təvazökarcasına bir növ xəcalət çəkən Elman Quliyev imiş.

Çox sevindim. Sanki uzun illər bundan əvvəl itirdiyim əvəzi olmayan

ən qiymətli cavahiratımı tapmışdım. Onun həm də kələxanlı Hilal dayının oğlu olduğunu bildim.

Həmən gündən sonra prof. E.Quliyevlə dəfələrlə elmi müzakirələr aparılan məclislərdə, fərdi olaraq iş otağında görüşmüş, yaxud telefonla ünsiyyətdə olmuşam. Elman müəllimin respublika elmi ictimaiyyətində sanballı yeri olduğunun, adının hörmətlə çəkildiyinin şahidi olmuşam. Hər dəfə onda yeni üləmaya məxsus insani keyfiyyətlər görür,onun fəxr ediləsi azərbaycanlı oğlu olduğunu bir daha təsdiq edərək sevinir, iftixar hissi keçirirəm.

Prof. E.Quliyevin elmi-tədqiqat əsərlərinin dərinliyini, dəyərini, xalq üçün nə dərəcədə faydalı və əhəmiyyətli olduğunu araşdırmaq, qiymətləndirmək fikrində deyiləm. Bunun üçün böyük alimlər, istedadlı tədqiqatçılar, tənqidçilər vardır. Onlardan bəziləri özlərinin səviyyələrinə, dərk edib qiymətləndirmə qabiliyyət və qüvvələrinə görə sözlərini deyiblər. Mənim bu barədə söz açmağım çətindir. Çünki E.Quliyev öz əsərlərilə elə bir zirvəyə qalxmışdır ki, o böyük dağı və zirvəsini kiçik ölçülü güzgüdə əks etdirmək mümkün deyildir. Böyük söz ustadı S. Şirazi demişkən:

پرده بردارکه بیگانه خود آن روی نه بیند توبزرگی ودر آینیهٔ کوچک نه نمائ

Prof. E.Quliyev çox yüksək əxlaqi keyfiyyətlərə malikdir. Gözəl davranış, sadə və nəcib rəftar, özündən böyüklərə həm də kiçiklərə qarşı olduqca qayğıkeş və nəzakətli münasibətilə seçilən helm və təvazökarlıq nümunəsini özündə birləşdirən bir alimdir. Aliqədr İslam peyğəmbərinin xalqa müraciətlə:

– Mən Allah tərəfindən göndərilmişəm ki, sizin əxlaqınızı təkmil edib kamilləşdirim! – hədisinə müvafiq müsbət cavab verib özündə gözəl əxlaq tərbiyə edən xoş xülq nümunəsi olanlardan biri elə E.Quliyevdir.

Haradandır Elman müəllimdə bu gözəl xüsusiyyətlər? Səbəbini aşağıdakı amillərdə görürəm.

1. Uca və qüdrətli olan Allah-taalanın mərhəməti.

2. Elman müəllimi dünyaya gətirib ona tərbiyə verən valideynlər.

Atası Hilal kişini mən 7-ci sinifdə oxuyərkən görmüşdüm. O zamankı yaddaşıma görə hündür boylu, qarayanız, ərəb kişilərinə bənzər nurani simalı, mehriban baxışlı bir kişi idi. Hamı – cavanlar da, ondan yaşlılar da ona Hilal dayı deyə müraciət edirdilər. Bunun iki səbəbi vardı. Birincisi, Hilal dayı halal zəhmətlə ailəsini dolandırmaqdan başqa, ikinci cahan müharibəsindən sonrakı qıtlıq dövründə ehtiyacı olanlara əl tutmuşdu. Necə

هرچند پرستیدن بت مایهٔ کفرست ما کافر عشقیم گرین بت نه پرستیم

deyərlər, yetim-yesirə «dayılıq» etmişdi. İkincisi, cavan yaşlarından belə ünsiyyətdə olduğu adamlarla, xüsusilə tabeçiliyində olanlarla əsl böyük, yüksək insani keyfiyyətlərə malik qayğıkeş bir ziyalı kimi rəftar etmişdi. Ona görə də ona hörmət mənasında «dayı» deyə müraciət edirdilər.

Ailəsini halal və pak nemətlərlə qidalandırdığına, övladlarına sağlam tərbiyə verdiyinə görə, həmçinin xalqa etdiyi xeyirxahlıqlarına görə insanların duası səbəbinə Allah-taala Hilal dayıya Elman kimi övlad bəxş etmişdir.

Yaxşı, saleh övlad valideynin bağışlanmasına, cənnətə getməsinə də səbəb ola bilər. Allah Hilal dayıya qəni-qəni rəhmət eləsin!

3. Elman müəllimin boya-başa çatdığı təbii-coğrafi və zəngin mənəvi mühit.

Elman müəllim indiki Lerik rayonu adlandırılan Zuvand mahalının ucqar dağ kəndi olan Kələxanda dünyaya göz açmışdır. Nəfəs aldığı səfalı dağ havası, içdiyi Savalandan süzülüb gələn zülal kimi həyatverici şəffaf bulaq suyu, yediyi dağ yerlərinin min-bir şəfaya malik ot-çiçəyilə bəslənmiş heyvanların və quşların əti, südü, yağı, yumurtası, mütləq ekoloji təmizliyi və saflığl ilə seçilən arı balı, bağ və biçənəklərinin müstəsna ətrə, dada malik göy-göyərtisi, tərəsi, tərəvəzi, meyvələri, qapıdan və ya pəncərədən boylananda ilk gözünə çarpan başı göylərə ucalan əzəmətli Qənbərçə dağı.

Elman müəllim zəngin mənəvi mühitə malik olan çoxsaylı Zuvand alimlərinin təlim və tərbiyə etdiyi əhali arasından çıxmış, o mühitdən bəhrələnmişdir.

Kələxan kəndindən bir kilometr məsafədə yerləşən Kəlvəz kəndində tarixi bilinməyən, lap qədimdən mədrəsə olmuşdur. Burada ətraf rayonlardan,indiki Cəlilabad, Masallı, Lənkəran və s. rayonlardan olan tələbələr təhsil almışlar. Bu barədə rəsmi arxiv sənətləri mövcuddur. XIX-XX əsrlərdə bu mədrəsədə fəaliyyət göstərən ensiklopedik biliyə malik alimlər: Mirzə Cəfər, Molla Əzim, Molla Nüsrət, Mirzə Vəhid və s. ustadlar-müəllimlər çalışmış, xalqın maariflənməsi üçün səy göstərmişlər. Bu alimlərin apardığı mütərəqqi maarifləndirici işin nəticəsidi ki, XIX əsrin sonlarında Kəlvəz kəndində rus-tatar məktəbi də açılmışdır. Burada Zuvandın əksər kəndlərindən olan uşaqlar – gələcəyin ziyalıları, alimləri oxuyub təhsil almışlar. Hansı ki, o zaman bir çox böyük yaşayış məntəqələrində ibtidai təhsil verən məktəblər belə olmamışdır.

1920-50-ci illərin repressiyaları, ikinci cahan savaşı, 1952-ci ildən Zuvandın 34 kəndinin, 22 min əhalisinin zorla köçürülərək, o zaman insan yaşayışı üçün minimal şəraiti belə olmayan şoran, bataqlıqlı Muğan düzü-

nə yerləşdirilməsi, nəticədə əhalinin pərən-pərən düşməsi mahalın elmi potensialına böyük və illər uzunu sağalmaz zərbələr vurmuşdur. Buna baxmayaraq, möhkəm və qüdrətli kökə malik olan Zuvand əhalisi büdrəsə də yıxılmamış, öz mənəviyyatını bərpa etmişdir. Böyük filosof, müdrik yazıçı Əlisa Nicat, filologiya elmlər doktoru prof. Xeyrulla Məmmədov, tibb elmlər doktoru prof. Əli Hüseyn Hidayətov, nəinki ölkəmizdə, həmçinin bütövlükdə Qafqazda və Orta Asiyada tibb tarixində ilk dəfə olaraq donordan xəstəyə qaraciyər köçürməklə neçə-neçə insanı vaxtsız ölümün pəncəsindən alıb həyata qaytaran tibb üzrə fəlsəfə doktoru cərrah–transplantoloq Mir Cəlal Kazımi, biologiya elmlər doktoru Yusif Hidayətov, fizika-riyaziyyat elmlər doktoru Yusif Nurullayev repressiya dövründən sonra yetişmiş çoxsaylı zuvandlı alimlərdən bir neçəsidir. Filologiya elmlər doktoru Elman Quliyev də bu sırada əsas yerlərdən birini tutur. Onun yetişməsində Zuvandın mənəvi mühitindən aldığı təsirlərin rolu az olmamışdır.

Elman müəllim dərin zəkalı alimdir. O, xoşbəxtdir. Çünki o, dünya fəlsəfəsi tarixində silinməz iz qoyan Şərqin əvəzolunmaz klassiklərini oxuyub anlayır, onları tədqiq edir, onların yaratdıqları gözəllikləri görüb duya bilir. Müasir dünyamız üçün o əsərləri şərh edib xalq kütlələrinə, oxucu auditoriyalarına, ali məktəb tələbələrinə çatdıra bilir. Tələbələr də müəllimlər də onun çoxsaylı tədqiqat əsərlərindən bəhrələnirlər.

C.Ruminin «Məsnəvi»sini, «Divani-Şəms»ini, Nizami «Xəmsə»sini, Füzuli «Eşqini» dərk etmək heç də asan deyil. İstedadlı həmişəcavan şair M.Müşfiq gözəl demişdir:

*Xoşdur, gözəl görüb bütün elliyi,*
*Çalışmaq, yaşamaq, sevmək, sevilmək.*
*Xoşdur, xilqətdəki hər gözəlliyi*
*Ürəkdən duyaraq anlaya bilmək.*

Elman müəllim bir də ona görə xoşbəxtdir ki, Allah-taala ona gözəl bir nemət – zəhmətsevərlik əta etmişdir. O, çətinliklərdən qorxmur, daim çalışır. Əylənməyə, eyş-işrətə, şəxsi həyatı üçün istirahətə belə vaxt ayırmır. Buna sübut qısa müddət ərzində onun yazıb ərsəyə gətirdiyi çoxsaylı tədqiqat əsərləri, dərsliklərdir.

Xoşbəxtliyinin bir səbəbi də budur ki, O, ülvi məqama-sufilik məqamına istiqmətlənmişdir. Başqa cür ola da bilməz. «Məsnəvi»ni dərk etmək üçün Mövlana məqamına yaxınlaşmaq, o məqama yüksəlmək, o xislətdə olmaq lazımdır.

Elman müəllim xəstədir, peşəsinin xəstəsidir. Hər xəstəliyin törədiciləri atəşdə-odda yanıb məhv olur. Lakin Elman müəllimin xəstəliyi üçün

atəş bayramdır. Çünki bu xəstəliyin törədiciləri Mövlananın «Məsnəvi»si, Füzulinin, Sultan Vələdin divanı, Yunis İmrənin, Mehmed Akifin, Məhəmməd Hüseyn Şəhriyarın əsərləridir. Belələrinin vurğunluğu – xəstəliyi artdıqca, əzabı çoxaldıqca ondan alınan zövq və şirinlik daha da ləzzətli olur.

*Çoxlar incikdi ki, sən onlara naz eyləmisən,*
*Mən də incik ki, mənim nazımı az eyləmisən.*
***Şəhriyar***

*Can fəda eyləməyi yara həmin mən bilirəm*
*Bu təriqi demə hər qafilü gümrah bilir.*
***Füzuli***

Məhz bu xəstəliyin nəticəsidir ki, Elman müəllim bu fani olan maddi aləmə çox da aludə deyil. O, mənəviyyat aləminə, əbədiyaşar olan ruhaniyyət aləminə yüksəlməyə meyil edir. Ancaq bu məsləkində kor-koranəlık əqidəsi, tərki-dünyalıq yoxdur.

Elman müəllimin əbədiyaşar mənəviyyat aləminə yüksəlməsinin səbəbini izah etmək üçün Şəms Təbrizi külliyyatından bir parça diqqətinizə təqdim edirəm. Şeiri tərcümə etmirəm. Çünki onda mənim tərcümə edəcəyimdən daha dərin mənalar vardır. Azəri türkcəsində o əsərə layiq müdrikanə kəlamlar və ifadələr, fəlsəfi terminlər tapmaqda aciz olduğum üçün bunu oxucuların ixtiyarına buraxıram.

االخترو ابر و فلک جنی دیو و ملک　　آخر ای بی یقین بهر بشر می رود
پنبه برون کن ز گوش عقل بصررا مپوش　　کن صنم حله پوش سوی بصر می رود
نای و دف و چنگ را ا ز پی گوش زنند　　نقش جهان جانب نقش نگر می رود
جنس رود سوی جنس بس بود این امتحان　　شه سوی شه می رود خر سوی خرمی رود
هر چه نهال ترست جانب بستان برند　　خشک چوهیزم شود زیر تبر می رود
جان سوی تبریز شد در هوس شمس دین
جان صدفست وسوی بحر گهر می رود ;

Bəli, prof. Elman Quliyev ayağını möhkəm qranitəbənzər təməl üzərində qoymuş, kürəyini sadaladığım maddi və mənəvi dağlara söykəmiş, üzünü ucalıq məqamına – mələklər aləminə istiqamətləndirmişdir. Onu ilhama gətirən sənət eşqidir. Bu eşq insanı dağa çevirib əzəmət zirvəsinə ucaldar.

Bu şərəfli yolda professor Elman Quliyevə Allah-taala dərgahından uzun ömür, cansağlığı, hədəfində mətinlik və daha yeni-yeni müvəffəqiyyətlər arzulayıram!



*Mir Cəlal Kazımi*
*tibb üzrə fəlsəfə doktoru, cərrah-transplantoloq, Mərkəzi Neftçilər Xəstəxanası «İnsan orqanlarının köçürülməsi» şöbəsinin müdiri*

## QƏRİBLİYİ UNUTDURAN İNSAN

ADTU-nu bitirdikdən sonra kiçik elmi işçi kimi məni universitetin Ümumi cərrahiyyə kafedrasında saxladılar. Yenicə müstəqillik əldə etmiş ölkəmizdə köhnə, totalitar rejimin yeknəsəq qayda-qanunlarından yaxa qurtara bilməyən çoxsaylı həkimlər əhatəsində, təcrübi müalicə işlərindən çox əsasən kağız-kuğuz götürüb qoymaq, yazı-pozu işlərilə məşğul olmaq məni qane etmirdi. Fikirləşdim ki, respublikamızda olmayan, inkişaf etmiş ölkələrin təbabətində müvəffəqiyyətlə həyata keçirilən müasir müalicə üsullarını öyrənib respublikamızın səhiyyəsində tətbiq etməklə xalqa daha çox xeyir verə bilərəm. 2002-ci ildə qardaş Türkiyəyə üz tutdum. Sovetlərdən fərqli olaraq kəmiyyətə deyil, keyfiyyətə üstünlük verməklə daha çox mənfəət əldə etmək istəyən kapitalist quruluşlu Türk dövləti təhsil müəssisələri qarşısında çox ciddi müstəsna tələblər qoymuşdur. Bu sahədə heç bir güzəştə yol verilmir.

Türk dili və ixtisas üzrə birillik hazırlıq kursu keçib müvəffəqiyyətlə imtahan verdim. Məni məşhur EGE Universitetinə uzmanlığa qəbul etdilər. Olduqca gərgin əmək şəraitində 6 il EGE universitetində çalışdım. Demək olar ki, istirahət etmədən xəstəxana divarları arasında – çox vaxt əməliyyat masası arxasında və ya əməliyyat etdiyim xəstələrin yanında olurdum. Müvəffəqiyyətlərim yorğunluğumu və istirahət etmək instinktimi unutdurmuşdu. Gərgin əmək öz bəhrəsini vermişdi. Artıq ümumi cərrahiyyəyə aid bütün əməliyyatları sərbəst edir, qaraciyər, böyrək, mədəaltı vəzin köçürülməsini həyata keçirirdim. Xocalarımın – ustadlarımın dililə desəm, kamil «Cərrah-transplantoloq» olmuşdum. Universitetdən kənara çıxmağım sonrakı iki il ərzində baş verdi. Bu, ezamiyyətə getdiyim zaman – ya müxtəlif elmi mərkəzlər tərəfindən konfrans və konqreslərdə fəal iştirak etmək üçün dəvət olunmağım, ya da İzmirdən bir neçə yüz km

məsafədə olan şəhərlərə xəstələrə köçürmək üçün beyni ölmüş adamlardan lazımi orqanları götürməyimdən ötrü təcili yardım arabası ilə, yaxud helikopterlə getdiyim hallarda olurdu.

Növbəti dəfə 2008-ci ilin sentyabr ayında Bakıda keçiriləcək «Orqan nəqli» üzrə Beynəlxalq konqresə EGE Universitetinin professoru dr.Murad Kılıçla dəvət aldıq. Konqres MNX-da keçirdi. Mən məruzə etdikdən sonra xəstəxananın baş həkimi TED mərhum Fəxrəddin Cavadov M.Kılıçla məni öz otağına dəvət etdi. Təbrikdən, təşəkkürdən sonra mənə Azərbaycanda – Mərkəzi Neftçilər xəstəxanasında işləməyi təklif və təkid etdi. Uzmanlığı qurtarmağıma bir neçə ay qalmışdı. Başa vurmağım üçün şərait yaradacağını vəd etdi. Elə həmin ilin dekabr ayının 8-də ağır forma sirroz nəticəsində qaraciyəri sıradan çıxmış 44 yaşlı Rasim Məmmədova xalası oğlu 22 yaşlı Nurməhəmmədin qaraciyərinin bir payını köçürtdük. Hər iki əməliyyat əla keçdi. Hələ respublikamızda bu ağır əməliyyat üçün hazırlıq olmadığından lazım olan alətləri Türkiyədən gətirməklə əməliyyatı EGE universitetində çalışdığım həmkarlarımla birgə həyata keçirmişdik. Qafqazda, həmçinin Orta Asiyada təbabət tarixində ilk olaraq belə bir əməliyyatın keçirilməsi mətbuat, televiziyada sensasion xəbərlər kimi yayılmışdı.

Fəxrəddin müəllim dediyi kimi vədinə əməl etdi. Mən Bakıya qayıtdım. MNX-da dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsində müasir avadanlıq və tibbi alətlərlə təchiz olunmuş Orqan nəqli şöbəsi açılmışdır. Məndən başqa da xaricdə təhsil almış bir sıra mütəxəssisləri Fəxrəddin müəllim işə götürmüşdür. Həyatını respublika səhiyyəsinin inkişafına həsr etmiş Fəxrəddin Cavadova Allahdan qəni-qəni rəhmət diləyirəm!

Bu xeyirxah iş indi də davam edir. Artıq bu günə kimi MNX nəzdindəki başçılıq etdiyim Orqan nəqli şöbəsində 35 nəfərə qaraciyər, 49 nəfərə böyrək köçürmüşük. Bir nəfərə eyni vaxtda həm qaraciyər, həm də böyrək köçürmüşük. Belə əməliyyat dünya təbabəti təcrübəsində az sayda nadir əməliyyatlardan sayılır. Həmçinin respublikamızın ucqar rayonlarında: Qəbələ, Quba, Cəlilabad, Şamaxı kimi rayonlarda bir çox xəstələrə səyyar böyrək köçürmə əməliyyatı aparmışıq. Bəzi qonşu ölkələrdən də müraciət edirlər. Respublika Səhiyyə nazirliyinin razılığı əsasında onlara da yardım edirik.

Şəhərdə olmadığım 7 il müddətində doğma Bakımız çox dəyişmişdi. Həddən artıq çoxmərtəbəli göydələnlərin tikilməsi, küçə və meydanların abadlaşdırılması, onlara yeni adların verilməsi, nəqliyyat sıxlığı və s. fonunda torpaqlarımızın hələ də işğal altında qalması, köçkün və qaçqınlardan əlavə, ucqar bölgələrdən də adamların paytaxta axını, müəyyən qədər işsizlik, şəhərdə xaotik bir gərginlik yaratmışdı. Təbii ki, bu təsirlər şəhər

əhalisinin psixoloji durumundan, davranış tərzindən yan keçə bilməzdi. Üstəlik xarici qüdrətli dövlətlərin Azərbaycan uğrunda maraqlarının toqquşması, daxildə bəzilərinin «bəlkə də qaytardılar» əqidəsilə yaşaması və bu yolda rüşvətxorluğa rəvac verməklə sərvətlənmək hərisliyi, ehtiyacları olmadığı halda bir neçə yerdə qəsrlər – «villalar» tikdirmələri və s. əməllərilə iqtisad və ideoloji təxribat törətmələri iradəsi zəif olan adamların ruhiyyəsini sarsıdır, onlarda sabaha inamı azaldır, ümidsizləşdirirdi. Çoxdan ayrıldığıma görə Bakıdakı məktəb və institut yoldaşlarımı, dostlarımı demək olar ki, itirmişdim. Dərdlərimi bölüşməyə, fikir mübadiləsi etməyə adam tapmırdım. Yenə də Türkiyədəki kimi xəstəxana divarları arasında kiçik sayda olan heyətlə, sağalmaq üçün ümid diləyən xəstələrlə, gecədən-gecəyə evə döndüyüm halda çox qısa müddətdə valideynlərimlə bir növ qərib həyatı keçirirdim. Vətəndə qəriblik! Bu ifadə yazıda, kağız üzərində «məzlum, sakit» görünsə də qəlbdə-şüurda müdhiş bir bomba təlatümü yaradır. Belə bir dərin fiziki yorğunluq və ruhi gərginlik vəziyyətimdə fikrə dalmışdım. Bir nəfərin mənimlə görüşmək istədiyini bildirdilər. Otağıma dəvət olunmasını tapşırdım.

Daxil olan qəddi-qamətli, nurani simalı, diqqət etdikdə dolğun-çoxmənalı gözlərində razılıq və sevinc ifadəsi sezilən, ziyalı görkəmli bir şəxs idi. Əyləşməsini təklif etdim. Oturan kimi:

– Mir Cəlal həkim, gəlmişəm sizə təşəkkürümü bildirəm. Respulikamızın səhiyyəsinə gətirdiyin yenilik, qaraciyər köçürməklə etdiyin unikal cərrahi əməliyyat barədə televiziya verilişlərindən müfəssəl məlumat almışam. Çox sevinirəm ki, azərbaycanlısan. Sonsuz iftixar hissi keçirirəm ki, mənim yerlimsən, Zuvandlısan. Bir daha sübut etdin ki, hələ keçmişdən elmi potensiala malik Zuvand tükənməyib. Gələcəkdə də heç bir çətinlikdən qorxmayaraq xalqa səmimiyyətlə təmənnasız xidmət edən oğullar yetirəcəkdir. Mən bilirəm ki, bu məqama çatmaq üçün hansı problemlərlə üzləşmiş, nə böyük çətinliklərdən keçmisiniz. Burada da sizin üçün asan olmayacaq. Türkiyədən fərqli olaraq, yenicə müstəqillik qazanmış respublikamız hələ keçid mərhələsindədir. Sizə yardımçı olan bəzi xidmətlərin işini özünüz görməlisiniz. Tədricən onlar da yaranacaq. Ancaq tutduğunuz yol şərəfli yoldur. Mir Cəlal, mən sənin atanı, baban və əmini də yaxşı tanıyıram. Siz ağır seyid nəslinə mənsubsunuz. Peyğəmbər xanədanından çıxmısınız. Son iki min ilin ən məşhur və şərəfli şəxsiyyəti hesab edilən baban Məhəmməd peyğəmbər insanları «cəhalət» dövrünün zülmətindən qurtaranda az zəhmət çəkmişdi? Elimizin ən pak, nəcib əqidəli dindar alimi və ağsaqqal əmin Hacı Mir Tohid ağa söhbətlərinin birində eşitdiyim bu sözləri demişdi: «İnsan Allah-taalanın Yer üzündə olan xəlifəsidir. İnsan xaliqi-cüzidir, yəni kiçik yaradandır». Allaha sığınmaq-

la adam nə istəsə edə bilər (əlbəttə xeyirxah və savab işlər). Sənin müvəffəqiyyətlərini gördükdən sonra ağanın dediklərini bir daha təsdiq edirəm. Allah-taala səni və sənin kimiləri göndərməklə xalqımıza öz rəhmətini nazil etmişdir. Ata-baba məsləkinə sadiq qalmağın və həkimlik peşən – hər ikisi müqəddəsdir. Bu yolda sizə mətinlik və daha böyük müvəffəqiyyətlər arzulayıram! Adım Elman, soyadım Quliyevdir. ADPU-da işləyirəm.

Elman müəllimin şirin, qəlbə yatan, beynə-şüura nüfuzedici sözlərini dinlədikcə sanki çoxdan bəri daşıdığım yorğunluq hissindən azad olur, dincəlirdim. Özü haqqında çox təvazökarcasına qısa məlumat versə də mənəviyyatca olduqca zəngin bir adam olduğu hiss olunurdu. Sonralar onunla 2-3 dəfə görüşdüm. Elman müəllimin sadə, təvazökar davranışı onun böyüklüyünü gizlədə bilmədi. Öyrəndim ki, o, filologiya elmlər doktoru, ADPU-nun professorudur. «Türk odası» və «Türk araşdırmalar» elmi-tədqiqat mərkəzinin rəhbəridir. Elmi əsərləri İraq, Türkiyə, İran, Türkmənistan, Kipr və s. ölkələrdə çap olunmuşdur. Dünya Türk xalqları ədəbiyyatı və klassiklərini öyrənən və tədqiq edən bir sıra ölkələrdəki elmi mərkəzlərdə çalışan alimlər arasında sanballı yer tutur. O, vaxtilə Türkiyədə hazırlıq kursu keçərkən mənə Türk dili və ədəbiyyatından dərs demiş Türk dili kafedrasının rəhbəri prof.dr.Fikret Türkeni tanıyır onunla beynəlxalq elmi konqresdəki xatirələrindən danışırdı.

Yüksək erudisiyaya malik prof.Elman Quliyevin geniş, hərtərəfli insani və elmi keyfiyyətlərini tam şəkildə açıqlamaq nə qələmin, nə kağızın və nə də bu sözləri yazanın bugünki qüdrəti daxilində deyildir. Məşhur ingilis yazıçısı Mayn Ridin bir ifadəsini xatırlamaq kifayətdir: «Məntiqi düşünmək qabiliyyəti olan bir adam üçün bir damcı suya baxdıqda heç vaxt görmədiyi və haqqında eşitmədiyi Niaqara şəlaləsinin, yaxud Atlantik okeanının mövcud olduğunu təsəvvür etmək çətin deyildir».

Oxucuların məntiqi düşünmək qabiliyyətində olduğunu bilərək bu kiçik həcmli məlumatın Elman müəllimin səviyyəsini dərk etməyə kifayət edəcəyini güman edirəm. Bircə onu deyə bilərəm ki, prof. Elman Quliyevlə tanışlıqdan sonra mən fiziki və mənəvi yorğunluqlara qalib gəldim. Elman müəllim məni vətəndəki qəriblikdən xilas etdi. Bu bir tərəfdən, əsl pedaqoq kimi idrakımı tormozlayıb ruhi zəiflik yaratmaq istəyən «tozlar»dan özünün psixoloji üsulları ilə şüurumu təmizləyib cilalaması ilə, digər tərəfdən onun yanıma gəlişilə ayağının yüngül olması ilə, Bakıda dostlarımın artması hesabına olmuşdur. Qadir Allahdan Elman müəllimə cansağlığı və daha uca zirvələri fəth etməkdə kömək olmağı arzulayıram!



*Əbülfəz Bünyatov*
*Sumqayıt şəhər 1 saylı Notariat kontorunun notariusu*

## GÖZƏL DOST, NƏCİB İNSAN

Elman müəllimi bir insan kimi göz önünə gətirəndə mən o qədər onun haqqında danışmaq istərdim ki... Amma əlimə qələm alıb yazmaq istəyəndə fikirləşdim ki, mən Elman müəllimin hansı məziyyətlərindən yazım, yaradıcı insan kimi alimliyini, yaradıcılığını, yoxsa çətin, dar gündə insan kimi hamıya kömək əlini uzatmasını, gözəl ailə başçısı olmasını qeyd edim. Nə qədər götür-qoy etsəm də bir qərara gələ bilmədim. Fikirləşdim ki, hansı bir məziyyətini qabartsam, digəri gözüm önündə daha çox canlanacaq, xatirələri bir-bir çözələməyə məcbur olacağam. Elman müəllim gözəl və nəcib insandır, sadə olduğu qədər də ciddi və tələbkardır. Çox ciddi mətləblərə elə sadə və sakit şəkildə öz münasibətini bildirir ki, ondakı dərin təxəyyülə, hadisələri qiymətləndirmək bacarığına heyran olmaya bilmirsən . Mən onu tanıdığım 15 il ərzində dəfələrlə hər hansı məsələyə münasibətini bildirəndə çox təmkinli və ədalətli mövqeyini görmüşəm. Ona görə də onunla danışanda düzü bir az ehtiyat edirəm. Çünki o, qarşısındakı və ətrafındakı insanları və baş verənləri qiymətləndirə bilir. Bu, həm də onun dərin ağıla və biliyə malik olmasından, humanistliyindən və sözün həqiqi mənasında ziyalılığından irəli gəlir. Elman müəllim həyatda çox şeylərə nail olub, arzularına çatmaq üçün böyük zəhmət sərf edib, heç vaxt yoruldum deməyib və özündən də razı olmayıb .

Mən onun sonuncu tədqiqat əsəri olan «Türk xalqları ədəbiyyatı»nı oxuyanda bir daha anladım ki, o, tədqiq etdiyi hər bir şəxsiyyəti öz ağlının süzgəcindən keçirib, ona ürəyinin istisini verib, əldə etdiyi materiallara arxayınlaşmayıb, sanki o deyir, mənim hələ deyiləsi çox sözlərim var, yazacağım əsərlər var. Bu əsər haqqında fikirlərimi onunla bölüşəndə o özünə xas olan bir şəkildə gülümsəyib dedi: «Mən hələ dəryadan bir damla götürmüşəm, bu o nəhəng şəxsiyyətlərin yaradıcılığına sadəcə mənim tərəfimdən bir baxış idi. Hələ qarşıda çox işlər var, ömür vəfa etsə, planımda çox işlər, vacib işlər var».

Mən bu sadə, ağıllı, böyük alimimizə qulaq asdıqca fikirləşdim:

Yaşa, dağlar oğlu, sənə eşq olsun!

Öz əsərlərinlə, tədqiq etdiyin görkəmli şəxsiyyətlərlə bərabər o əbədiyyətdən və şöhrətdən sənə də bir pay düşür.



*Hacı Nizam Hacı Mirxas oğlu*
*ADPU-nun Biologiya fakültəsinin dekan müavini, Fiziologiya kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru*

## GÖZƏL HƏMYERLİM

İnsana, yaranmışın alisi olan bəşər övladına, doğma vətəni onun ulu əcdadlarının əbədiyyətə qovuşduğu torpaqdan, boya-başa çatdığı eldən, elatdan başlayır.

Vətən böyük – geniş mənada millətin və dövlətin mənsub olduğu tarixi-coğrafi ərazidir. Peyğəmbərimiz Rəsuli-əkrəm buyurur: «Vətəni sevmək imandandır». Şairlər yazırlar: «Vətəni sevməyən insan olmaz». Əgər insan kiçik komasını ən möhtəşəm imarətlərə, yoxuşlu-yamaclı yollarını geniş küçələrə – xiyabanlara, nənə-babasının, ata və anasının məzarlarını müqəddəs ziyarətgahlara bərabər tutmasa, nə qədər ali rütbələrə, məqamlara çatarsa da o şəxs vətənini, millətini və insanları sevə bilməz. Allah-taala vətənimizə dərgahında olan bütün yaxşı nə varsa hər şeyi bəxş etmiş etmişdir, o cümlədən heç nəyi Azərbaycan məmləkətinin qədim əsrarəngiz yaşayış məskəni olan Lerik rayonundan əsirgəməmişdir. Lerik ən qədim tarixə malik yaşayış mərkəzi olmaqla yanaşı həm də tükənməz yeraltı və yer üstü sərvətləri, ən əsası isə dəyanətli, mərd, intellektli, əvəzsiz insanları ilə şöhrətlidir. Lerikin tarixi, eramızdan əvvəlki minilliklərə gedib çıxır. Araşdırmalarla müəyyən edilmişdir ki, sonuncu, yəni 4-cü buzlaşmada dünyanın 5 yerini buzlar tutmamışdır. Bunlardan biri də Lerik rayonunun Zuvand mahalıdır. Alimlərin fikrinə görə Lerikdən keçərək, Xəzərə tökülən Lənkəran çayının 40 verst adlanan ərazisindən çay boyu yuxarıya doğru həmişə ağ buludlar qalxıb «Dağlarqapısı» adlanan yerdə əriyərək yox olurlar. Belə bir nəzəriyyə vardır ki, buzlar da bu əraziyə qədər gəlib çıxmış və sonra əriyərək geri çəkilmişdir. Bu səbəbdən də Zuvand ərazisini buzlar tutmamışdır. Beləliklə də sonrakı bitki və heyvanat aləmi buradan yenidən inkişaf etmişdir. Nəsli kəsilməyən dəmira-

ğacı kimi bitkilər və şir, pələng, ayı kimi heyvanlara Lerik meşələrində bu gün də təsadüf edilir.

Lerik ərazisi, xüsusilə də Zuvand zonası dövrünün görkəmli alimləri, ziyalıları ilə şöhrət tapmışlar. Haqqında söz demək istədiyim insan gözəl alim, sədaqətli dost, qeyrətli vətəndaş, filologiya elmləri doktoru, professor Elman Hilal oğlu Quliyev də 1958-ci ildə Lerik rayonunun Zuvand zonasının Kələxan kəndində dünyaya gəlmişdir. Mən də 1949-cu ildə Lerik rayonunun Aşağı Amburdərə kəndində anadan olmuşam. Kəndlərimizin arasında məsafə 1km-ə qədərdir. Ancaq 1951-ci ildə bizi Lerik rayonundan departasiya edərək əvvəllər Puşkin adlanan indiki Biləsuvar rayonuna köçürmüşlər. Elman müəllimlə tanışlığın 1994-cü ildə həmyerlimiz, qeyrətli, dəyanətli, yüksək potensiallı, alimlər içərisində cəngavər olan professor Xeyrulla Məmmədovun xeyirxahlığı hesabına baş verdi. Mən o vaxtlar ADPU-nun Fiziologiya kafedrasında dosent vəzifəsində çalışırdım. Elman müəllimlə ilk tanışlığımdan çox məmnun oldum. Onun səmimiliyi, özünü layiqincə təqdim etməsi mənim çox xoşuma gəldi və daha bir ziyalı, səmimi zəhmətkeş həmyerlimlə gələcəkdə bir universitetdə işləyəcəyimə, özümə sədaqətli bir dost tapdığıma çox sevinirdim. Elman müəllimin sonrakı fəaliyyəti mənim gözümün qabağında olmuşdur. Elman müəllimin bu müddətdə əzmlə çalışdığının, onun elmi potensialından hansı məharətlə, ustalıqla, məsələlərə elmi cəhətdən yanaşmaqla öz fikrini təqdim etməyi bacardığının şahidi oldum. Elman müəllimin apardığı elmi-tədqiqat işlərini çox yüksək səviyyədə reallaşdırmasıyla aldığı nəticələr dostlarını, həmkarlarını həmişə sevindirdiyi kimi, ətrafında bəzi bədxah yoldaşları narahat edirdi. Bunlar daxilindəki pis xislətlərini hərəkətlərilə biruzə verirdilər. Elman müəllim bu bədxahlara çox səbirlə, dəyanətlə cavablarını verib öz yerlərini onlara göstərirdi. Bu, məni həm narahat edirdi, həm də sevinirdim ki, bədxahların qarşısına ağıllı, təmkinli cavab verən dostum vardır. Bu hadisələrdə Xeyrulla müəllim öz müdrik məsləhətlərilə, tutarlı elmi dəlillərlə bizlərə arxa-dayaq olurdu. Elman müəllim apardığı elmi-tədqiqat işlərinin nəticəsi olaraq 2004-cü ildə «M.Şəhriyar yaradıcılığının təkamülü (Milli problemlər konteksində)» mövzusunda doktorluq dissertasiyasını müdafiə etdi. Bu bir hadisə idi. Çünki Elmana qarşı aparılan kampaniyanın iştirakçıları bir növ iflasa uğradılar və həmişə başıaşağı olmalarını qəbul etdilər. Elman müəllim daha bir parlaq qələbə ilə bizləri sevindirdi. Elman müəllim az bir vaxtda professorluq vəzifəsini tutdu. Bu illərdə professor Elman Quliyev 10 fənn proqramı, 25-ə qədər kitabı sanballı elmi əsərlər, dərsliklər, dərs vəsaitləri, Türk xalqlarının ədəbiyyatına aid 10 kitab çap etdirmişdir. «Mirzə Uluğbəy»(Özbəkistan) mükafatını almışdır, C.Rumi-800 (YUNESKO) müsabiqəsinin laureatı, iki dəfə «İlin alimi», «İlin müəllimi» müsabiqəsinin

qalibi olmuş və 2012-ci ildə Universitetimizin 90 illik yubileyi münasibətilə 12 nəfərə Azərbaycan Respublikasının Prezidentinin 18 aprel 2012-ci il tarixli sərəncamı ilə o cümlədən biz iki həmyerliyə Mehdizadə Nizam Mirxas oğlu və Quliyev Elman Hilal oğluna Elmdə və təhsildə əldə etdikləri müvəffəqiyyətlərə görə «Tərəqqi» medalı təqdim edilmişdir. Biz, iki həmyerliyə əməyimizə verilən qiymətə görə Mətbuat vasitəsilə minnətdarlığımızı bildirdik.

Lerik rayonu bütün parametirlərinə görə üstünlüyə malikdir. Xüsusilə də təhsil, mədəniyyət sahəsindəki uğurlarına görə fərqlənir. Lerikin ərazisində 43 ibtidai, 63 natamam orta, 45 orta tam məktəb, kollec, pedaqoji texnikum, musiqi və peşə məktəbləri, 20 uşaq baxçası fəaliyyət göstərir. 60 kitabxana, 20 mədəniyyət evi, 34 klub, 60 məişət xidməti, 300-ə yaxın ticarət və iaşə ocaqları, mərkəzi poçtamt, 40-a qədər poçt-rabitə şöbəsi, 48 xəstəxana, tibb məntəqələri xalqın xidmətindədir. Bu göstəricilər rayon əhalisinin sağlam ruhlu, yüksək savada və intellektə malik olmasına gətirib çıxarır. Hazırda Lerikdən pərvazlanan elmlər namizədləri, elmlər doktorları, seçilib-sayılan qələm sahibləri, əmək qəhrəmanları, yüksək dövlət vəzifələrində çalışan adamlar, generallar, admirallar, yüksək rütbəli hərbçi zabitlər, 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş şəxs vardır. Müqayisədə intellekt imkanlarının yüksək olmasına görə layiqli məqamlar tuturlar. Bu danılmaz həqiqətdir ki, günəşin üzünü heç nə ilə tutmaq olmaz. Mənim qardaşım, dostum və fəxr etdiyim Elman müəllim də bu torpağın, bu vilayətin övladıdır. Elman müəllim indi dünyanın böyük ölkələrinin elmi məclislərinin xitabət kürsülərindən Azərbaycanı bütün dünyaya, türkün nəyə qadir olduğunu cəsarətlə söyləyir və öz xalqının, millətinin nəyə qadir olduğunu göstərir.

Elman müəllim dünyanın bir çox elmi mərkəzlərinin üzvüdür və bir çox ölkələrin fəxri adlarına layiq görülmüşdür. Professor Elman Quliyev hazırda ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru, «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin rəhbəridir. 2011-ci ilə qədər AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olmuşdur. Hazırda AMEA-nın akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şurasının, həmçinin Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Mən Lerikin, Zuvandın fəxri olan professor, elmlər doktoru, sədaqətilə, yüksək insani keyfiyyətlərilə, nəzakətilə seçilən həmyerlim, dostum Elman müəllimi ürəkdən təbrik edirəm, ona can sağlığı, uzun ömür, övladlarına xöşbəxtlik, ailə səadəti arzulayıram. Bir ürəkdən gələn müqəddəs dua edirəm:

« Allah səni bütün bədxahların şərindən qorusun!» Amin!



*Əsgər Şahverən oğlu*
*«Əliyev» kommersiya kompaniyasının prezidenti*

## YADDAŞIMIN İÇİNDƏN ...

80-ci illərdə bitirdiyi Kəlvəz kənd orta məktəbinə təyinatla gələn Elman müəllimə təhsil aldığı müəllimlərin sıralarında olmağı qol-qanad verirdi. Müəllim kimi ilk dərs dediyi şagirdlərdən biri də mən idim. Simasındakı qürur, çöhrəsindəki işıq, gözlərindəki nur, ifadələrindəki sərrastlıq, şəxsiyyətindəki nəciblik bizi dərhal özünə cəlb etdi. Xarakteriylə şagirdlərinə şəxsiyyət olmağı təlqin edir, anamızın öyrətdiyi dildə düşünməyi, mülahizə yürütməyi, dərk etməyi öyrədirdi.

İndi uzun illər ötmüşdür. Bu gün müəllimim barədə söz demək mənim üçün böyük xoşbəxtlikdir.

Ömrümüzün unudulmaz səhifələrinə çevrilən orta məktəb illərindən sonra da yollarımızı ziyalılığı ilə işıqlandıran müəllimimizi yaddan çıxarmadıq, şərəfli həyat yolunu izlədikcə, tədqiqatlarını öyrəndikcə ona oxşamağa çalışdıq.

Elman müəllimi başqa müəllimlərdən fərqləndirən xüsusiyyətlərdən biri də onun şablonçuluqdan uzaq olmasında idi. Çox sonralar başa düşdüm ki, o, bütün varlığı ilə etalona çevrilən pedaqoqlardan imiş.

Həyat nəğmələrini, rəsmlərin solmazlığını, dastanların əfsununu əbədiləşdirən peşə sahiblərinin yaranmasında müəllimin rolu istisna təşkil edir.

Ulu öndərimiz Heydər Əliyev demişdir: «Müəllim vəzifəsi ona görə şərəflidir ki, o, cəmiyyət üçün ən dəyərli, ən bilikli, zəkalı, tərbiyəli vətənpərvər vətəndaşlar yetirir». Alicənab, nəcib, kübar təbiətli Elman müəllim, təhsilində rol oynadığı insanları dövlət atributlarına, dilinə və dininə, milli-mənəvi sərvətlərimizə, ənənələrimizə hörmət ruhunda tərbiyə edir. Çünki, dilini və ədəbiyyatını qiymətləndirməyənlər, vətəndaş kimi müxtəlif səviyyələrdə özünü doğrultmayanlar kifayət qədərdir.

Bütün dəyərlərimizi gələcəyə aparan ana dilimiz, bizim milli əxlaqı-

mızı, estetik dünyagörüşümüzü, etik normalarımızı şərtləndirir. Mürəkkəblikləriylə bərabər ən obrazlı fikirləri də canlandıra bilən Azərbaycan dili məhz Elman müəllim kimi ziyalılarımızın sayəsində indiki məqamına çata bilmişdir.

Özünün mükəmməl nitq mədəniyyəti ilə dilimizin cilalanmış ən müxtəlif ifadəlilik imkanlarını sübut edən Elman müəllim, kamil, axıcı, şirin danışıq tövrü ilə dinləyici və auditoriyanı ardınca apara bilir. İkisi də tale töhfəsi olan vətən və dil Elman müəllimin timsalında müqəddəsləşən bir harmoniya təşkil edir.

Elman müəllim qəlblərimizin mühəndisi, könlümüzün memarı, xəyallarımızın astronomu idi. Davranışındakı ağayanalıq və qoçaqlıq, alicənablıq və mətanət, təmkinlilik və hünər, dözümlülük və təvazökarlıq örnəyimiz olmuşdur. Platon demişdir: «Əgər bir cəmiyyətdə çəkməci pis usta olarsa, cəmiyyət bundan o qədər də çox ziyan çəkməz. Uzaq başı insanlar pis tikilmiş ayaqqabılar geyər. Ancaq o cəmiyyətdə ki, müəllim hazırcavablıqdan, hafizədən, ağıl gözəlliyindən, bilikdən və savaddan məhrum ola, o cəmiyyətdə küt və nadan adamlardan ibarət bir kütlə əmələ gələr». Bu mənada biz özümüzü xoşbəxt hesab edirik, ona görə ki, Elman müəllimdən düşünüb-danışmaq, əzbərçilikdən uzaq həqiqətləri düzgün dərk edib dəqiq izah edə bilmək, yürüdülən mühakimələrdə və məlumatlarda etibarlılığı təyin etmək və s. elmə yiyələnmək vərdişlərini əxz edə bildik.

Elman müəllim təkcə onu tanıyanlar üçün deyil, bütövlükdə təhsil və elm sahəsi üçün gərəkli bir insan olmağını çoxdan sübut etmişdir. Onun doğma yurdumuzun dilbər guşəsi Zuvand mahalında doğulması və müəllim kimi yetişməsi burada təhsilin qədim ənənələri olmasının sübutudur. Bu mahalın kiçik kəndlərində saysız-hesabsız, hamı üçün nümunə ola biləcək şəxsiyyətlər doğulmuşdur.

Şübhə etmirəm ki, müəllimimiz bizi yeni uğurları ilə sevindirəcək, dəyərli tədqiqatları ilə elmimizə yeni töhfələr verəcəkdir. Şəxsiyyət sözünün ucuzlaşdığı, fərdlərin deqradasiyaya uğradığı bir zamanda, bu cür insanların elmimizdə və təhsilimizdə mövcudluğu milli səadət kimi sayıla bilər. Çünki, elmi-texniki tərəqqinin, ictimai-siyasi inkişafın cövhərində savadın və biliyin daşıyıcıları – müəllimlərimiz durur.

Əziz müəllimim! Siz dilimizin imkan verdiyi ən ali, ən ülvi sözlərə layiq olduğunuzu müxaliflərin hiylə və tədbirlərini, həsəd və xəyanətlərini, ittiham və etirazlarını qıraraq sübut etdiniz. İllər saçlarınızda paklıq rəmzi olan ağ izlər buraxdı, çöhrənizə müdriklik çökdü. Biz çox şadıq ki, sizin ləyaqətiniz xalqımızı istənilən məqamda təmsil etməyə imkan verir....

Sizə uğurlar arzulayırıq!



***Qüdrət Umudov***
*ADPU-nun dosenti*

# GÖZƏL İNSAN, GÖRKƏMLİ ALİM, ETİBARLI DOST

Başlığa gətirdiyimiz bu ifadələr Elman Hilal oğlunun şəxsiyyətinə ünvanlanan və həqiqəti ehtiva edən müsbət xüsusiyyətlərin hamısını əks etdirmir. Başlığın qısa olması tələbindən biz daha çox qabartmaq istədiklərimizi sərlövhə etdik. Düşünürəm ki, bunları təsdiq və ya sübut etmək üçün heç bir əziyyət çəkməyəcəyəm. Bildiklərimin, daha çox gördüklərimin az bir hissəsini xatırlatsam kifayət edər...

Mən son kursa adlayanda Elman birinci kursa daxil olmuşdu. 1977-ci ilin sentyabrında, elə ilk həftələrdə bu qaraşın oğlan yuxarı kursda oxuyanların və təbii ki, bizim – nisbətən aktiv «qoca»ların nəzər-diqqətini cəlb elədi. Elmanı «sinifkom» təyin etmişdilər. Elə ilk həftələrdən fəal bir gənc olduğu görünürdü. Əlində qrup jurnalı dəhlizdə o yan – bu yana gedər, qrup və potok yoldaşlarını səfərbər edərdi. Özünə inamlı, bir qədər dikbaş adamları biz «qoca»lar (IV kurs) təbii ki, bir o qədər xoşlamazdıq. Bir müddətdən sonra məlum oldu ki, bu gəncin «dilinə görə dilçəyi də var» imiş. İlk semestrin sonunda əlaçı çıxdı, şəkli və adı şərəf lövhəsinə qaldırıldı. Dekanımız prof. Afad Qurbanov, müavinləri Mürsəl Həkimov, Quşdan Bağırov (hər üçünə Allah rəhmət eləsin) və nüfuzlu müəllimlər fakültə yığıncaqlarında təşkilatçı və dərs əlaçısı Elman Quliyevi tərifləyir və nümunə göstərərdilər. İnstitutu qurtarıb təyinat yerinə getdik. Sonralar Elmangilin kursu göstəricilərinə görə fərqləndilər, məşhur oldular. Onlardan neçəsi elmlər doktoru, professor oldu.

1985-ci ildə aspiranturaya daxil oldum. Bir müddət sonra E.Quliyev də aspiranturaya gəldi. O, qiyabi, biz isə – Yaqub Babayev, Əzizxan Tanrıverdi və b. əyani təhsil alırdıq. Elmanla vaxtaşırı görüşürdük, lakin elə bir şəxsi yaxınlığımız yox idi.

1991-ci ildə aspiranturanı bitirmiş gənc alimləri işlə təmin etmək üçün ADPİ-nin nəzdində üç elm sahəsini birləşdirən «Dədə Qorqud» elmi mərkəzi təşkil edildi (Allah rektor S.Aslanova rəhmət eləsin). Ramazan Qafarlı, Y.Babayev, T.Cavadov, M.Allahmanov, mən və başqaları orada işə götürüldük. Bu gənclərin yoldaşlığı və dostluğu o vaxtdan başlandı. Beş nəfərin – Təyyar Cavadov, Yaqub Babayev, Elman Quliyev, Mahmud Allahmanov və Qüdrət Umudovun yoldaşlığı, aramızda yaş fərqinin az olması, gündəlik ünsiyyətdə olmamız və digər səbəblərdən əsl dostluğa çevrildi. O vaxtlar ekranlarda populyarlıq qazanmış bir-birindən cəsur beş döyüşçüdən bəhs edən bir Orta Asiya filminə istinadən çoxları bizi «beş nəfər fərqanəli» deyə çağırırdı. İsti, təmənnasız dostluğa çoxları həsəd aparırdı. Bir-birimizi yaxından tanımağa, evlərinə gedib gəlməyə başladıq. Elmin çətin yollarında, adi məişət problemlərinin həllində bir-birimizə dəstək olardıq. Tez-tez toplaşardıq. Elman qardaşımla da ailəvi yaxın olduq. Bir-birimizi öyrəndik, sınadıq.

Elman Zuvandlıdır, əsl dağ adamıdır. Gediş-gəliş zamanı, eləcə də rast gəldiyim ellilərindən onun ailəsi, əsli-nəsli haqqında çox yaxşı, xoş sözlər eşitdim. Təbiətən təvazökar insan olan Elman müəllimin öz əsil-nəcabəti ilə fəxr etməyə haqqı var. Atası, əmisi, böyük qardaşı bütöv bir mahalın ağsaqqalı, məsləhət və güvənc yeri olmuşlar. Hər biri ziyalı, uzaqgörən, müdrik insanlar idi. Atası – rəhmətlik Hilal əmi uzun müddət (1958-1981-ci illər) təsərrüfat rəhbəri, respublikada tanınmış kolxoz sədrlərindən biri olmuş, ömrünün sonlarında zona Yol-tikinti trestinin rəisi işləmişdir. Böyük qardaşı mərhum Araz müəllim (yeri cənnət olsun) rayonda rəhbər vəzifələrdə çalışırdı, əcəl tez apardı. İndi (ömrü uzun olsun) Elman müəllimin özünü zuvandlılar ağsaqqal bilir, onunla fəxr edirlər.

Elman Quliyev namizədlik dissertasiyasını vaxtından qabaq müdafiə etdi. İlk monoqrafiyası dissertasiya mövzusuna uyğun «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» (1997) adlanır. Elman müəllim 2004-cü ildə «M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)» mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etdi. E.Quliyevin M.Şəhriyar yaradıcılığına marağı, məhəbbəti zaman baxımından xeyli əvvəl pərvəriş tapmışdır. Dostumuz hələ 1992-ci ildə böyük türk şairinin şeirlərindən ibarət bir kitabça çap etdirmişdi (M.Şəhriyar. «Gəldim sizi görməyə». Bakı, 1992). Sonralar Elman müəllim bu işi həcmini genişləndirməklə davam etdirdi. Şair «Heydərbabaya salam» kitabını Şəhriyarsevərlərin ixtiyarına verdi (M.Şəhriyar. «Heydərbabaya salam» necə varsa». Bakı, 2004). E.Quliyev Məhəmmədhüseyn

Şəhriyarın ən nüfuzlu tədqiqatçılarından biridir. Şairin həyatı və irsi ilə bağlı alimin araşdırmaları «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006) adlı monoqrafiyalarında əksini taparaq elmi ictimaiyyətin ixtiyarına verilmişdir.

Elman Quliyevdə vətənə məhəbbət, «o tay sevgisi» böyükdür. Onun doğulduğu kəndin üstündəki gədikdən (dağların arasından) baxanda Güney Azərbaycanın göz işlədikcə uzanan ərazisi ta Savalana qədər görünür. Özündən eşitmişəm ki, Elman uşaqlıqdan «sovet»in «yaşıl paqonlu»larının əngəlləməsinə baxmayaraq, hündür bir təpəyə çıxar, üzü cənuba durar, saatlarla tamaşa edər və xəyala dalardı. Cənublu söz nəhənglərinə, onların yaradıcılığına marağı, görünür, uşaqlıqdan onun qəlbində və düşüncəsində yuva salmışdır. E.Quliyevin görkəmli şairimiz Söhrab Tahirin «Lirika» (Bakı, 1992) kitabını tərtib etməsi, ona sanballı ön söz yazaraq çap etdirməsi, bir sıra cənublu şairlər haqqında məqalələr yazması da, yəqin ki, oradan qaynaqlanmışdır.

Dəyərli türk oğlu, professor Elman Quliyevin öz millətinə sevgisi hədsizdir. Alim-pedaqoq iyirmi ilə yaxındır ki, Türk və Şərq xalqları ədəbiyyatlarını uğurla tədqiq və tədris edir. Bunu görkəmli ədəbiyyatşünasın tərtib etdiyi tədris proqramları «Türk xalqları ədəbiyyatı» (Bakı, 1998), «Şərq xalqları ədəbiyyatı» (Bakı, 1998), «Ümumtürk ədəbiyyatı» (Bakı, 2005), «Qədim türk ədəbiyyatı» (Bakı, 2010) və «Türkiyə türk ədəbiyyatı» (XIX-XX əsrlər) (Bakı, 2011) və «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (Bakı, 2009; 2011), «Şərq xalqları ədəbiyyatı» 2 cilddə (Bakı, 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) adlı dərslik və dərs vəsaitləri göstərməkdədir. Elman müəllim bu kitabların, demək olar ki, Azərbaycanda ilk yazarıdır. İki clddən ibarət, az qala 1500 səhifəlik «Şərq xalqları ədəbiyyatı» kitabı Azərbaycan elmi və mədəniyyəti tarixində nadir hadisələrdəndir.

Alim türkçülüyə olan əvəzsiz xidmətinə görə «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı almış, 2007-ci ildə YUNESKO xətti ilə keçirilmiş C.Rumi – 800 müsabiqəsinin laureatı, iki dəfə «İlin alimi» (2007; 2010) və «İlin müəllimi» (2011) müsabiqələrinin qalibi olmuşdur. Bir sıra beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış edib ödüllər almış Elman müəllimin elmi əsərləri Türkiyə, İraq, İran, Şimali Kipr, Türkmənistan kimi

ölkələrin elmi məcmuələrində çap olunmuşdur. Qardaş ölkə səfirliklərindən xüsusi təşəkkürlər almış, laureat medallarına sahib olmuşdur. E.Quliyevin əməyi dövlət tərəfindən də yüksək qiymətləndirilmiş, Dövlət başçısının fərmanı ilə (18 aprel 2012-ci il) o, «Tərəqqi» medalı ilə təltif olunmuşdur. Hazırda ADPU-da «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzində rəhbərlik edən prof. Elman Quliyev Respublikanın aparıcı elmi müəssisələrində Dissertasiya Şuralarının, Azərbaycan YB-nın üzvü, ölkədə və xaricdə keçirilən elmi konfrans və simpoziumların təşkilat komitələrində üzv və bəzən də sədr kimi də geniş diapazonda fəaliyyət göstərməkdədir. Professor magistr, aspirant və dissertantlara rəhbərlik etməklə gələcək milli elmi potensialının yüksəlməsi yolunda da səylə çalışır.

Əslində Elman Quliyevin elm və təhsilimiz yolunda xidmətləri çoxdur. Biz onlar haqqında yığcamlıq xatirinə, bəlkə də bir az xəsisliklə danışdıq. Onun hər bir əsəri, hər hansı bir məqaləsi üzərində təhlillər aparıb, müzakirələr açsaq, onda gərək cildlərlə kitab yazılsın.

Professor E.Quliyevin elmi-pedaqoji fəaliyyəti haqqında qısa, xronikal təqdimatdan sonra yenə onun şəxsi – insani keyfiyyətlərinə qayıtmaq istəyirəm. Tələbələri onu çox sevir. Rəhbərliyi altında çalışan elmi işçilər, magistr və aspirantlar ondan çax razıdırlar. Onlar Elman müəllimin qayğısı ilə əhatə olunduqları üçün ona ata kimi rəğbət bəsləyirlər. İş yoldaşları, çalışdığı kafedranın rəhbəri və əməkdaşları, filologiya fakültəsinin, habelə Pedaqoji Universitetin rəhbərliyi ona hörmət edir.

Sərlövhə kimi verdiyimiz «triada»nın bir həlqəsi dostluqla bağlıdır. Elman çox etibarlı dostdur. Ona tanıyanlar, onunla dostluq edənlər yaxşı bilir ki, ona hər məqamda arxalanmaq olar. Mən Allahımdan razıyam ki, mənə belə bir dost nəsib etmişdir.

ƏZİZ DOST! «55»in mübarək! Sən bu 55 ildə çox şeyə nail olmusan. Qədirbilən elin-oban var. Gözəl ailən var, həyat yoldaşın arxanda daim mətanətlə dayanıb. Oğlun Elmar, qızın Ülkər başını uca edib, şöhrətini artırıblar. Fidan sənin ən yaxın köməkçindir. Nəvələrini də ki, maşallah, Allah saxlasın. Çoxlu səni sevən dostların var. Respublikanın ədəbiyyatşünaslıq sahəsində tanınmış alimlərindənsən. Elmlər doktoru, professorsan, iş kollektivinin sevimlisisən. Deməli, xoşbəxtsən. Hələ qarşıda səni çox uğurlar gözləyir, inşallah! Qadir Allahdan sənə uzun ömür (heç olmasa 99 il), can sağlığı, davamlı ailə səadəti, təbii ki, işlərində, elmi-pedaqoji fəaliyyətində çoxlu uğurlar arzulayıram.



*Təranə Rəhimli*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# ELMAN QULİYEV DEDİKDƏ İLK YADA DÜŞƏN İFADƏ

Tanıdığımız insanların hər birinin yaddaşımızda ən xarakterik cizgiləri ilə həkk olunan bir portreti var. Bu portretdə «son fırçanın vurduğu rəng» şəxsiyyətin kimliyini tamamlayır. Və xarakteri bütövləşdirən cizgilər içərisində biri mütləq digərlərini üstələyir, daha qabarıq nəzərə çarpır, bütünlükdə şəxsiyyətin varlığı idrakımızda həmin keyfiyyətlə assosiasiya olunur. Eynşteyn deyəndə ilk olaraq atom fizikası, Hüqo deyəndə mərhəmət fəlsəfəsi, Cavid deyəndə hüdudları görünməyən romantizm, Müşfiq deyəndə kövrək lirika yada düşdüyü kimi. Halbuki böyük şəxsiyyətlərin ali təfəkkürü, yüksək intellekti onlara universal idraki fəaliyyətlə məşğul olmaq imkanı verib. Dünyada ilk qadın professor, riyaziyyatçı Sofiya Kovalevskayanın yazıçılığı, publisistikası, şair Lermontovun karikatura rəssamlığı, yazıçı Qriboyedovun bəstəkarlığı, bəstəkar Ü.Hacıbəyovun dramaturqluğu, felyeton ustalığı, fizik Frederik Jolio Kürinin alpinistliyi, riyaziyyatçı Lobaçevskinin kənd təsərrüfatına töhfələri və s. kimi. Dünya elm və mədəniyyət tarixinin bu özəlliyi eyni zamanda bir neçə sahədə fəaliyyət göstərən ziyalılarımızın yaradıcılığında bu gün də dönə-dönə müşahidə etdiyimiz bir reallıqdır. Lakin bu fəaliyyət sahələrindən birinin daha məhsuldar olduğu da danılmaz bir həqiqətdir. Ədəbiyyatşünas, mətnşünas, pedaqoq, elm təşkilatçısı professor Elman Quliyevin də fəaliyyət yolunu diqqətlə nəzərdən keçirdikdə bu qənaətə gəlmək olar ki, alimin yaradıcılığının mahiyyətini ehtiva edən başlıca yaradıcılıq sahəsi türkologiyadır.

Professor Elman Quliyev dedikdə ilk olaraq yadıma düşən ifadə «türkçülük, turançılıq»dır, daha sonra onun təsəvvürümdəki portretini bütövləşdirən digər ali keyfiyyətlər gözlərim önündə sıralanır. Bəlkə, bu, E.Quliyevin on ildən artıq gərgin alim zəhmətinin bəhrəsi olan «Seyid Məhəmmədhüseyn Şəhriyar» adlı fundamental tədqiqatının aşıladığı azərbaycançılıq, türkçülük ideallarına sonsuz sədaqət hissilə bağlıdır?! Yaxud onun Azərbaycan Dövlət Pedaqoji Universitetində «Türk xalqları ədəbiyyatı» fənnini ilk olaraq tədris etməsi, daha dəqiq desək, Azərbaycanda milli müstəqillik əldə olunduqdan sonra ali məktəb tədris proqramlarına salınmış bu fənnə türkçülüyün təəssübkeşi kimi sevgi və qayğısı, «Ümumtürk ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı» fənnlərinin ilk dəfə orijinal proqramlarını tərtib və nəşr etdirməsi, «Müasir özbək ədəbiyyatı», «Türkiyə türk ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəviyyatı» kimi dəyərli dərslik və dərs vəsaitlərinin müəllifi olması, yaradıcılıqları ümumtürk konteksti ilə rəğbət qazanan Məhəmmədhüseyn Şəhriyar, Söhrab Tahir və b. şairlərin kitablarının tərtibçisi olması buna əsas verir?! Əlbəttə, təkcə bu sadalanan uğurlar Elman Quliyevin türkoloq-alim kimi fəaliyyətinin yadda qalmasına kifayət edər.

Lakin alimin İran, İraq və Türkiyədə dərc olunmuş türkçülük ünvanlı elmi əsərləri, Türkiyə ədəbi-elmi ictimaiyyəti ilə yaradıcılıq əlaqələrinin geniş konteksti, Azərbaycan, Türkiyə, İran və s. ölkələrdə keçirilən möhtəşəm beynəlxalq elmi tədbirlərdə böyük maraqla qarşılanan konseptual mahiyyətli məruzələri də millilik və türkçülük prinsiplərini dolğun şəkildə özündə əks etdirir.

Onun tərcümeyi-halının bir çox mühüm faktları türkçülük sahəsində xidmətləri ilə bağlıdır. Türk xalqları ədəbiyyatının tədqiqi və təbliği yönümündə gördüyü işlərlə ədəbi-elmi ictimaiyyətin diqqətini cəlb edən alimin təşəbbüsü ilə Türkiyə səfirliyinin ADPU-da «Türk dili və ədəbiyyatı oxuma odası»nı yaratması, Yuneskonun elan etdiyi Mövlana ilinə görə AMEA-nın, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin, Türkiyənin Böyük Şəhər Bələdiyyəsinin təşkilatçılığı ilə keçirilən Cəlaləddin Rumi mövzusunda «Birlikdə yaşamaq sənəti və Mövlana» müsabiqəsinin laureatı olması belə əhəmiyyətli faktlardandır. Hazırda bu oda türk elmi araşdırma mərkəzi kimi fəaliyyət göstərir. Burada tələbələrin iştirakı ilə bir sıra elmi konfrans və görüşlər keçirilmiş, Azərbaycan elminin inkişaf problemləri və s. elmi məsələlərlə bağlı diskussiyalar aparılmışdır. Prof. E.Quliyevin rəhbərlik etdiyi «Türk odası» ilə Türkiyənin Azərbaycanda fəaliyyət göstərən Eğitim Müşavirliyi, Kültür və Tanıtma

Müşavirliyi, Quzey Kıbrıs Bakı nümayəndəliyi arasında sıx əlaqə yaradılmışdır.

Yalnız Elman Quliyevin təsəvvürümdəki türkçü-alim portretini bunlarla məhdudlaşdırmaq istəməzdim. Sadalanan yaradıcılıq uğurları nə qədər möhtəşəm səslənsə də, bunlardan daha önəmli olan Elman Quliyevin köksündə gəzdirdiyi türk sevgisi ilə dolu böyük ürəkdir. Onun yaradıcılıq uğurları da, müəllim fəaliyyəti də, təməli sağlam olan, Azərbaycan adət-ənənəsinə sadiq möhkəm bir ailəyə başçılıq etməsi də, filoloq həmkarları ilə səmimi dostluq münasibətləri də öz gücünü, qüvvəsini bu ürəkdən alır. Məhsuldar alimə ömrün sonrakı onilliklərini də məhz bu sevgi dolu ürəklə yaşamağı, elmi nailiyyətlərilə türkçülüyümüzün, azərbaycançılığımızın şöhrətini zirvələrə yüksəltməyi, bu ruhda neçə-neçə dəyərli tədqiqatlar ərsəyə gətirməyi arzu edirik.



*Natiq Əli Tudə oğlu Cavadzadə*
*AzTV-nin rejissoru*

## MÜDRİK CAVAN

Yaxşı yadımdadır! 1999-cu il martın 11-də Azərbaycan Pedaqoji Universitetində atam Əli Tudənin 75 illik yubileyi təntənə ilə qeyd olunacaqdı. Tədbirə 3-4 gün qalırdı. Hazırlıq işləri ilə maraqlanmaq üçün universitetə getdim. Rektorla, dekanla görüşdüm. Tələbələrin Əli Tudənin şeirlərindən ibarət hazırladığı musiqili-ədəbi kompozisiya ilə tanış oldum. Məmnun qaldım. Bir rejissor kimi öz fikir və qeydlərimi dedim. Hər şey yüksək səviyyədə idi. Qalırdı ancaq tədbirin keçirilməsi.

Martın 11-də Pedaqoji Universitetin akt zalı ağzınacan adamla dolu idi. Bura nəinki tələbələr, Əli Tudə yaradıcılığının işığına yığışan bir çox ziyalılar, tanınmış və tanımadığımız kənar şəxslər də toplanmışdı. Rəyasət heyətində Universitetin rektoru, prorektorları, kafedra müdirləri, bir çox görkəmli şair və yazıçılar, Əli Tudənin qələm və məslək yoldaşları əyləşmişdilər. Rektor Bəhlul Ağayev yubileyin girişində Əli Tudə haqda qısaca məlumatdan sonra sözü məruzə etmək üçün dosent Elman Quliyev adlı tanımadığım bir şəxsə verdi. Sözün açığı mən bir qədər narahat idim. O vaxta qədər Elman Quliyevi tanımırdım. Əli Tudənin həyatı isə çox məşəqqətli və keşməkeşli, yaradıcılığı nəhəng, rəngarəng, çoxşaxəlidir. Elman Quliyevin bu məsuliyyətli işin öhdəsindən necə gələcəyi, məruzəsinin nə səviyyədə olacağından narahat idim. Çünki yubileyə qədər nə Elman Quliyevlə görüşmüşdüm, nə də o məndən Əli Tudənin yaradıcılığı haqda bir şey soruşmuşdu. Nə isə...

Xitabət kürsüsünə uca boylu, dolu bədənli, qarabuğdayı, gözləri yanan bir gənc çıxdı və başladı... Amma nə başladı. Sanki o özü Əli Tudənin həsrətli, hicranlı həyatını yaşamış, əsərlərinin yazıldığı vaxtlarda şairin yanında olmuşdu. Artıq ilk cümlələrdən narahatlığım get-gedə əriməyə başladı və məruzənin sonunda bu narahatçılıq böyük razılıq və minnətdarlığa çevrildi. Elman Quliyev Əli Tudəyə layiq bir məruzə ilə şairin həyat və yaradıcılığını gənc nəslə dolğunluğu ilə çatdırdı. Yaşlı nəslin qarşısında isə bu imtahandan üzüağ çıxdı.

Əlbəttə, yubileydə bir çox çıxışlar oldu. Xatirələr danışıldı. Şairin şeirlərindən nümunələr gətirildi. Bu, təbiidir. Şairin yubileyi keçirilirdi. Hamısı gözəl. Amma mənim yaddaşımda bütün bunların içində Elman Quliyevin Əli Tudə haqda məruzəsi xüsusi yer tutdu. Yubileydə iştirak edən sanballı ziyalıların bir-bir Elman Quliyevi təbrik etmələri qəlbimdə ona yaranmış hörməti bir qədər də dərinləşdirdi.

Elə o gündən də mən vətənpərvər insan, istedadlı pedaqoq, gözəl tənqidçi, alim E.Quliyevlə yaxından tanış oldum. Sonradan bu tanışlıq mənəvi dostluğa çevrildi və mən Elman müəllimi vətənini, torpağını sevən, işinə tələbkar yanaşan, ədəbiyyatımızın yorulmaz təbliğatçısı kimi kəşf etdim.

Söhbətlərimizdə vətən, ədəbiyyat və bir çox mövzulara toxunurduq. Bir dəfə təsadüfən dedi ki, «Mən Lerik rayonunun Zuvand mahalının Kələxan kəndindənəm. Sərhəddə yerləşən kəndimizdən Savalan dağı, Cənubi Azərbaycan kəndləri görünür. Həmişə kəndə gedəndə həsrətlə Savalanın qarlı başına, əzəmətli, vüqarlı cüssəsinə tamaşa edirəm». Mən yalnız onda başa düşdüm ki, hardandır bu həsrət, bu nisgil E.Quliyevdə. Cənubi Azərbaycana, Cənubi Azərbaycan ədəbiyyatına bu bağlılıq. Şəhriyar, M.İbrahimov, Əli Tudə, Söhrab Tahir haqda yazdığı yazıların mayası.

Elman Quliyev gülərüz və nikbin adamdır. Çöhrəsində təbəssüm heç vaxt əskik olmur. İnsan kimi çox mülayim və xeyirxahdır. Sədaqətli dostdur. Sədaqətini nədə gördüm? 2004-cü ildə Əli Tudənin «Yarımçıq dastan» kitabını çapa hazırlayırdım. Ön söz yazmaq üçün E.Quliyevə müraciət etdim. Vaxtın dar olmasına baxmayaraq, qısa müddət ərzində kitaba «Bir ömürdə iki tale» başlıqlı ön sözü yazdı. Çox minnətdaram ki, o bu yazısında Əli Tudə haqda çoxlarının demədiyi və ya cəsarət edib deyə bilmədiyi bir çox həqiqətləri üzə çıxardı.

Elman Quliyev həm də səmimi və tələbkar pedaqoqdur. Uzun illərdir ki, Azərbaycan Pedaqoji Universitetində işləyir. Onun neçə-neçə tələbəsi yüksək vəzifələrdə çalışır və Azərbaycanımızın inkişafına xidmət edir.

Mən Elman müəllimlə tanış olanda o dosent idi. İndi isə filologiya elmləri doktoru, professordur. Bir çox sanballı və tanınmış təşkilatların fəxri üzvüdür.

Elmi məqalələrin, yazıların, kitabların müəllifidir. Bir çox mükafatlara layiq görülüb. Azərbaycan ədəbiyyatının inkişafında xidmətlər göstərib. Türk ədəbiyyatının araşdırılması və təbliğatında yorulmadan çalışır.

Elman müəllim 55 yaşındadır. Yaşına görə cavan, zəkasına görə müdrikdir. Bu cavan – müdriklik hər adama nəsib olmur. Elman müəllimə can sağlığı, uzun ömür, elmin yeni-yeni zirvələrini fəth etməyi arzulayıram.



*Hacı Əlimuxtar Bağırov*
*maliyyəçi-auditor*

# ATAMIN HÖRMƏT BƏSLƏDİYİ ALİM

Yaxınlarda haqq dünyasına qovuşan atam Hacı Balağa təkcə yaxşı həkim-ortoped, alim kimi məşhurlaşmamışdı, o, ciddi şəxsiyyət olmaqla bahəm, ünsiyyətcil, el-oba təəssübünü çəkən, zəif-kasıb təbəqəyə həmişə həyan duran, görkəmli, elm-sənət adamlarına rəğbət bəsləyən alicənab şəxs idi. Atam mənim üçün böyük örnək, nümunədir. O, zənnində heç vaxt yanılmır, bir çox hadisələrin mahiyyətini irəlicədən açır, zəngin həyat təcrübəsindən istifadə edərək, adamı görən kimi, necə deyərlər, üzündən oxuyur, xarakterini əzbər tanıyırdı. Və onun son vaxtlar ən çox bəyəndiyi insanlardan biri də filoloq-alim, professor Elman Quliyev idi. Heç demə, bu hüsn-rəğbətin, hörmət-izzətin kökündə başqa bilmədiyim amillərin də rolu varmış, bütün bunları Elman müəllimin tərcümeyi-halına az-çox bələd olandan sonra başa düşmüşəm.

Bəs mənim sonradan öyrəndiklərim nədir? Əvvəla, öyrəndim ki, Elman Hilal oğlu Quliyevlər nəslinə mənsubdur. Bu soyad Lerikin Zuvand nahiyəsinin Kələxan kəndindəndir. Quliyevlər sayılıb-seçilən nəsildir. Təkcə Ağa Quliyevin adı, şöhrəti bu nəslin tanınması üçün bəs edir. Bütün Lerikin öndə gedən başbilənlərindən hesab olunan Ağa əmini yaxşı xatırlayıram. Atam Hacı Şamil İsgəndərovu ən yaxın dostu sayırdı və Ağa əmi Şamil əmiyə qoşulub, tez-tez evimizə təşrif buyurardılar. Onlar zəmanəsinin ən ağıllı, sayılan kişiləriydilər. Atam Ağa Quliyevin Zuvand camaatının aran rayonlarına köçürülməsi ilə bağlı Mircəfər Bağırovla vuruşması, Stalinlə cəsarətlə məktublaşması barədə maraqlı əhvalatlar danışardı. Ağa əminin mübarizliyini, əsl kişilərə xas mərdi-mərdanəliyini həmişə tə-

rifləyirdi. Əlbəttə, «ot kökü üstə bitər» və o zaman yəqin ki, Elman da balacaydı, mən də. Ancaq mən Elman müəllimin bu adlı-sanlı nəslin övladı olduğunu, Ağa əminin qardaşı Hilal kişinin oğlu olduğunu bilmirdim.

İndi müəyyən qədər yaşa dolmuşam və hər dəfə atamın ünsiyyət körpüsü saldığı şəxsiyyətləri bir-bir gözümün qabağına gətirirəm. Şübhəsiz, o işıqlı ziyalılardan biri də Elman müəllimdir. Mənim həyata öz baxışım, öz qənaətlərim var. Həmyerli də olmaq olar, müəyyən yöndə əlaqələr də qurmaq. Təki ortada etibar, sədaqət hər iki tərəfi birləşdirsin! Atam vəfat edərkən qapımızı ilk döyənlərdən biri Elman Quliyev idi. O, yaşı səksəni ötmüş atam Balağanı yüksək dəyərləndirir, «belə insanların getməyi hamı üçün itkidir, ancaq ailə üçün yox, yaşın çoxluğunun məsələyə dəxli yoxdur» deyir, ürəkdən təəssüf hissi keçirir, təsəllisini əsirgəmirdi. Mən o ağrılı günlərdə bir daha hiss etdim ki, Elman müəllim həssas qəlbli insan və həm də dərd ortağıdır. Nə gizlədək, bəzən ən çox hörmət elədiyin şəxslə də dərdini ortadan bölə bilmirsən.

Elman Quliyevin böyüdüyü mühit, tərbiyə aldığı, oxuyub, biliklərə yiyələndiyi ilk təhsil ocağı doğulduğu kənddə yerləşir. Mənim ata-baba kəndim Xəlifələrlə Kələxan yaşayış məntəqəsi bir-birinə yaxındırlar. O dağların saf ab-havası, bulaqların zümzüməsi, ərik və alma bağlarının minbir rahiyəsi, çöl-çəmən qoxusu bizim damarlarımızda qan kimi axır. Və bu gün mən fəxr edirəm ki, Elman müəllim böyük türkoloq-alim, yaxşı pedaqoq kimi yetişib, ölkənin ən nüfuzlu qocaman ali məktəblərinin birində – pedaqoji universitetdə çalışmaqla nəsli-nəcabətinin adına şöhrət gətirib, eyni zamanda o, başı çalmalı dağlara oğulluq borcunu qaytarıb. Bu, hər kəsə nəsib olan hünər deyil.

Elman müəllim həmişə mənə Zuvand mahalının daha bir alim oğlu Xeyrulla Məmmədovu xatırladır. Onlar bir-birinə çox doğmaydılar, əqidəcə də, məsləkcə də yaxın adamlardı, baxmayaraq ki, yaş fərqləri çox idi. Xeyrulla müəllim ağsaqqal ömrünü yaşayırdı, Elman müdriklik zirvəsinə yenicə qədəm basırdı. Sələf-xələf bağlılığı iki alimi birləşdirmişdi. Çox zaman Bakı şəhərində birgə gəzib dolanırdılar. Elman Hilal oğlunun bir böyüklüyü də ondaydı ki, ustadı Xeyrulla müəllimi yüksək dəyərləndirir, hörmətinin üstünə hörmət gətirirdi. Təəssüf ki, bu fani dünya Xeyrulla Məmmədovu da çəkib apardı. Bu gün o görkəmli ədəbiyyatşünas-alimin irsinin təbliğatçısı, əsas keşikçisi yenə Elman Quliyevdir. O, Xeyrulla Qulam oğlunun xeyirxahlıqlarını, qayğıkeşliyini unutmur, ondan öyrənib ibrət götürdüyünü hər yerdə fəxarətlə söyləyir.

Yeri gəlmişkən, eşitdiyimə görə məhz Elman müəllimin təşəbbüsü

sayəsində  iki dəfə Xeyrulla Məmmədovun xatirə günü keçirilib. Bir dəfə pedaqoji universitetdə, bir dəfə də Milli Dram Teatrında. Hər iki tədbirin aparıcısı Elman Quliyev olub. Sonra o, görkəmli alimin adının əbədiləşdirilməsi naminə müvafiq Dövlət qurumlarına müraciət edib və istəyinə çatıb. İndi onun doğulduğu və müəllimlik fəaliyyətinə başladığı Lerik rayonunda adına küçə verilib, muzeydə guşə ayrılıb. Buna yalnız alqış və yüksək dəyər vermək düşür.

Mən bilirəm ki, Elman Quliyev də tanınmış elm xadimidir, filoloq kimi gəlib zəhməti sayəsində professor səviyyəsinə çatıb. Alimin xeyli sayda məqalələri və kitabları nəşr olunub, dərsliklərindən bütün ölkənin filoloq-tələbələri istifadə edir. Düzdür, mən ədəbiyyatçı deyiləm və müəllifin həmin əsərlərinin dərin təhlilini verə bilmərəm, ancaq o kitab və məqalələrin sanbalı bütün ölkəyə məlumdur. Onun tez-tez Türk xalqları və Şərq xalqları ədəbiyyatına müraciət etməsi, dahi söz xridarlarının yaradıcılığını təhlil etməsi, kitablar tərtib edib buraxması, türkdilli ölkələrə işgüzar səfərləri fəaliyyətinin önəmli səhifələridir.

Xeyli müddətdir ki, Bakı şəhərində yaşayıram, övladlarım burda dünyaya gəliblər və təhsil alırlar. Bakı gözəldir, günü-gündən də böyüyür, yaxşılaşır. Burda xeyli sayda dostum var. Onlar əsasən həmyaşıdlarımdır, tələbə yoldaşlarımdır. Lakin atamın dilindən adlarını eşitdiyim kəslər ən müqəddəs şəxslərdir, onları dostlarımdan az sevmirəm. Bu sırada doğmalar içində Elman Quliyev də var. Mən elə bilirəm ki, o, həm də mənə ruhən doğmadır bu qarışıq zəmanədə Elman müəllimə həmişə ürək qızdırmaq olar.



***Yaşar Rzayev***
*filologiya üzrə fəlsəfə doktoru, dosent,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

## UCALIQDAN UCALIĞA

Elman Quliyev ilə tanışlığımın tarixi bir elə uzaq deyil. Əvvəllər haqqında eşitmişdim. Deyəsən, haçansa ötəri görüşümüz də olmuşdu. Amma Pedaqoji Universitetə işləməyə gələndən sonra həm eyni kafedrada çalışan kolleqa kimi, həm də bir dost kimi yaxından tanıdım və bir çox müsbət keyfiyyətlərinin şahidi oldum. Onun, özünəməxsus təbiəti və gözəllikləri ilə hər görəni valeh edən əsrarəngiz Talış dağlarının qoynundan – Lerik rayonundan paytaxtımıza qədər uzanan ömür yolu asan olmasa da mənalı və ibrətamiz olmuşdur: unudulmaz tələbəlik illərinin böyük arzularla dolu romantikası, doğma rayonunda həm savadı, həm geniş dünyagörüşü, səmimiyyəti və yüksək səviyyəsi ilə bu gün də şagirdlərin, valideynlərin, bütün həmkəndlilərinin yaddaşında unudulmaz yer tutan müəllimlik fəaliyyəti, doğma Pedaqoji Universitetə qayıtması və burada elmi-pedaqoji fəaliyyəti ilə həm bir müəllim kimi böyük hörmət qazanması, həm də elmi potensialını ortaya qoyaraq, namizədlik və doktorluq dissertasiyalarını uğurla müdafiə etməsi, daim elmi-yaradıcı axtarışlar aparması, faydalı təşəbbüsləri, universitetdə türk araşdırmaları mərkəzinin və türk odasının yaradılmasında böyük zəhməti və həmin mərkəzə bu gün də böyük şövqlə rəhbərlik etməsi, xarici ölkələrdə keçirilən bir çox elmi konfranslarda Azərbaycan elmini layiqincə təmsil etməsi... Bu gün filologiya elmləri doktoru, professor Elman Quliyev Azərbaycan ədəbiyyatşünaslığında özünü lazımınca təsdiq edən bir alim kimi tanınır. Onun dahi şairimiz Məmmədhüseyn Şəhriyar haqqında tədqiqatları, Türkiyə türk ədəbiyyatının, həmçinin digər türk xalqları ədəbiyyatının sistemli, eyni zamanda türkçülük prinsipləri daxilində öyrənilməsi sahəsində xidmətləri diqqətə layiqdir. Elman Quliyevin «Türkiyə türk ədəbiyyatı» (XIX-XX

əsrlər)» (Bakı, 2001), «Türk xalqları ədəbiyyatı» (Bakı, 2009) dərslikləri faydalı vəsaitlər kimi xüsusilə diqqəti cəlb etmişdir. Təsadüfi deyildir ki, «Türk xalqları ədəbiyyatı» dərsliyində türkçülük problemləri və türk ədəbiyyatının çoxsaylı sənətkarlarının həyat və yaradıcılıqları lazımi səviyyədə öyrənildiyinə görə dərslik Türkiyənin Azərbaycandakı Böyük elçisinin ön sözü ilə səfirlik tərəfindən təkrar çap olunmuşdur.

Bu faydalı dərs vəsaitində ümumtürk yazılı ədəbiyyatının, XI əsr türk-islam mədəniyyətinin ilk böyük mütəfəkkir nümayəndəsi Yusif Balasaqunlu, Türkiyə türk ədəbiyyatı, özbək, türkmən, qazax, Krım-tatar, qırğız ədəbiyyatları əhatə olunmuşdur. Dərslikdə türk mədəniyyəti və ədəbiyyatına həm ümumtürk konsepsiyası, həm də hər bir milli ədəbiyyatın özünəməxsusluğu baxımından diqqət yetirilmişdir. «Türk xalqları ədəbiyyatı» fənninin tədrisi prosesində hər bir milli ədəbiyyatın məşhur abidələri, dövrü üçün tipik, səciyyəvi sayılan nümunələri, fərdi yaradıcılıq qabiliyyəti parlaq olan şəxsiyyətləri ön plana çəkilmişdir. Ali məktəblərin filologiya fakültəsi tələbələri və mütəxəssislər üçün faydalı olan bu kitabda türk xalqları ədəbiyyatının yaradıcılıq məsələləri, ayrı-ayrı görkəmli sənətkarların həyat və yaradıcılıqları geniş şəkildə tədqiq və təhlil olunmuşdur. Müəllif Türkiyə türk ədəbiyyatının Cəlahəddin Rumi, Yunis İmrə, İbrahim Şinasi, Əbdülhəmid Ziya Paşa, Namiq Kamal, Əbdülhəq Hamid Tarxan, Tofiq Fikrət, Mehmed Akif Ərsoy, Ziya Göyalp, Ömər Seyfəddin, Yəhya Kamal Bayatlı, Rəşad Nuri Güntəkin kimi nümayəndələrinin həyat və yaradıcılıqları haqqında zəngin məlumat verir.

Elman Quliyevin ötən il çap olunan «Şərq xalqları ədəbiyyatı tarixi» ikicildliyi də ədəbi və pedaqoji mühitdə yüksək qiymətləndirilmişdir. Bu sanballı ikicildlik Elman müəllimin gərgin və faydalı zəhmətinin, yuxusuz gecələrinin bəhrəsidir.

Elman müəllimin həm də münasibətdə olduğu insanlara, dost-tanışa və əlbəttə, ailəsinə, övladlarına olan böyük diqqətinin, qayğısının hər gün şahidi oluruq. O, dost-tanışların hər hansı probleminə, qayğısına biganə qalmır, onların həlli üçün əlindən gələni əsirgəmir. Buna görə şəxsi qayğılarına, işinin çoxluğuna, hətta bəzən vaxt məhdudluğuna da baxmadan dərhal öz işini buraxaraq dostunun-tanışının qayğıları ilə məşğul olur.

Ömür yolu davam edir. Vaxtilə uca dağlardan enib elm dalıyca şəhərə gələn Elman müəllim, şübhəsiz, həm əzmkarlığı, yorulmazlığı, yaxşı mənada inadkarlığı, həm də istedadlı alim kimi yeni-yeni axtarışları, tədqiqatları ilə, ədəbiyyatşünaslıq elminə yeni töhfələri ilə bu yolu bir daha ucalıqlara qaldıracaqdır.



***Həmzə Vəliməmmədov,***
*Respublikanın Əməkdar jurnalisti*
*Lerik rayon Ağsaqqallar Şurasının sədri*

# ELİMİZİN ALİM OĞLU

Ulu Tanrı bizim yerlərə səxavətini bol-bol paylayıb. Bir tərəfdə dağlar ucalır, bir tərəfi meşələrdir. Bumbuz bulaqları var, otları can dərmanıdır. Göz işlədikcə meyvə bağları uzanıb gedir. Bu diyarı gəzib dolaşan yoruldum demir, bir də dönmək istəyir.

Bizim diyarı şöhrətləndirən təkcə təbiəti deyil, həm də dağ vüqarlı övladlarıdır. Lerik Azərbaycana neçə-neçə şəxsiyyət bəxş etmişdir: ictimai xadim Böyükağa Mirsalayev, iki dəfə maarif naziri işləmiş Mirzə Məmmədov, hüquqşünas Ağa Quliyev, filosof-alim Rəşid Nurullayev, filologiya elmləri doktoru Xeyrulla Məmmədov, din xadimi Molla Qələm və başqaları. Respublikanın elm və mədəniyyət ocaqlarında, MDB ölkələrinin ali məktəblərində Lerikdə boya-başa çatmış onlarca elm adamı çalışır. Onların arasında əməkdar elm xadimləri, elmlər doktorları, incəsənət adamları vardır. Az kənd tapılar ki, alimi olmasın. Haqqında söhbət açdığım filologiya elmləri doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Elman Hilal oğlu Quliyev də Lerikin yetişdirdiyi alimlərdən biridir.

Elman müəllimi səksəninci illərdən, tələbəlikdən tanıyıram. Atası Hilal kişi Zuvandın sayılıb-seçilən ağsaqqallarından idi. İkinci cahan müharibəsində yara alıb qayıtmışdı. Uzun illər rayonda təsərrüfatlarda rəhbər vəzifələrdə fəaliyyət göstərmişdi. Ömrünün 23 ilini yol-abadlığa sərf etmişdi. O, dəfələrlə yerli sovetlərə deputat seçilmişdi.

İş elə gətirdi ki, 17 il Elmanın qardaşı Araz Quliyevlə rayon qəzetinin redaksiyasında çalışmalı oldum. Araz müəllim savadlı jurnalist idi.

Onun sözü də, özü də ictimaiyyət tərəfindən ehtiramla qəbul edilirdi. Heyif ki, həyatdan vaxtsız getdi, ömür karvanının 59 ilini yaşadı. Əziz xatirəsi qəlbimizdə qaldı.

Elman müəllim Kəlvəz kənd orta məktəbində direktor müavini işləyəndə redaksiyaya gələr, publisist yazıları ilə qəzetdə çıxış edərdi. Klassiklərimizin yubileylərində biz ona müraciət edib material hazırlamağı tapşırardıq. Sanballı yazıları oxucular tərəfindən maraqla qarşılanırdı.

1988-ci ildə Elman müəllim «Xalq yazıçısı Mirzə İbrahimovun ədəbi-estetik görüşləri və sənətkarlığı» mövzusunda namizədlik dissertasiyası müdafiə etdi. Onu ilk təbrik edib əlini sıxanlardan biri də bu sətirlərin müəllifiydi.

Alim eloğlumuz böyük şair Məhəmmədhüseyn Şəhriyar irsinin yorulmaz tədqiqatçısıdır. İran və Türkiyə mətbuatında Elman müəllimin Şəhriyar sənətinin tədqiqinə dair neçə-neçə elmi məqaləsi çap olumuşdur. Ustad şairin anadilli şeirlərinin çoxsaylı nümunələrini ilk dəfə kitab şəklində çap etdirib oxuculara təqdim etmişdir. Onun doktorluq dissertasiyası da Şəhriyar yaradıcılığına həsr olunmuşdur.

Alim dostumu bir üzü olan kişi kimi tanımışam. Həyatda yerini biləndir, necə deyərlər, dili ürəyinin göstəricisidir. Qəlbi körpə ürəyi kimidir. Orada kinə-küdurətə yer yoxdur. Onda birmənalı şəkildə azərbaycançılıq, türkçülük var. Həyatda çox şeyi onlardan əxz etdiyi atası Hilal kişini, el ağsaqqalı Ağa əmini həmişə minnətdarlıqla yad edir.

2007-ci ilin aprelində oğlum Rövzətlə Ərdəbilə getmişdim. Məqsədim ordan Təbrizə yola düşüb Şəhriyarın məzarını ziyarət etməkdi. Ərdəbildə yaşayan dayım Hacı Rəcəb bizə qoşuldu. Üç gün gözəl Təbrizi gəzdik, abidələri, tarixi yerləri ilə tanış olduq. Hara getdik, kimlə görüşdük, qonaqpərvərliklə qarşılandıq.

Dahi Şəhriyarın məzarını ziyarət edib ev muzeyinə döndük. Çox da böyük olmayan birmərtəbəli evin otaqlarının birində şairin əsərləri, haqqında yazılmış kitablar nümayiş etdirilir. Kitablar arasında dostum, akademik İsa Həbibbəylinin «Ustad Məhəmmədhüseyn Şəhriyar» monoqrafiyası, eləcə də Elman Quliyevin «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Heydərbabaya salam» necə varsa» əsərlərini görəndə qəlbim fərəhlə doldu. Bələdçiyə dedim ki, ağayi Elman mənim həmkəndlimdir. «Mənim də salamlarımı ağaya deyəsən», – söylədi. Təbrizdən qayıdandan sonra Elmanla görüşüb bələdçinin salamlarını çatdırdım.

Elman müəllimin istedadlı alim olduğunu dəfələrlə mərhum professor Xeyrulla Məmmədovdan eşitmişdim. Ötən ilin yayında Naxçıvanda

akademik İsa Həbibbəylinin qonağı idim. Söhbət Elmandan düşdü. Akademik böyük razılıqla dedi ki, professor Elman Quliyev ədəbiyyatşünaslıq elminə dəyərli töhfələr verir. O, fars ədəbiyyatını, türk xalqlarının ədəbiyyatını çox gözəl bilir. Bu səpkidə məqalələri böyük maraqla oxunur, universitetlərin filologiya fakültələrində tədris olunur.

Qohum-əqrəbasına bağlı adamdır Elman müəllim. Qohumlarının şad günlərində sevincdən uçmağa qanad axtardığı anları da, Allah eləməsin, kiminsə kədərli anında bu hüznü öz dərdi kimi yaşadığını görmüşəm. Qardaşı Arazın ölümündən keçən beş il ərzində elə bir il olmayıb ki, Bakıdan 350 kilometr yol gəlib Kələxan kəndində onun məzarını ziyarət etməsin.

Professor Elman Quliyevin son illər nəşr olunmuş kitablarının şəxsi kitabxanamda ayrıca yeri var. Yeri düşəndə vərəqləyib təkrar-təkrar oxuyuram, evdəkilərə də oxutdururam. Nəvələrimdən biri Şəhriyarın «Öyrədən Allahın adı ilə» yazısını özünəməxsus intonasiya ilə əzbər söyləyir.

Rayonumuzda ədəbi yaradıcılığa neçə-neçə gənc yenicə başlamışdır. Yayda onları Elman müəllimin yanında görmək olur. Gənc yazarlar ondan məsləhət alır, fikir mübadiləsi aparırlar. Çapa hazırlanan kitablara ön söz yazmaqla yerli yazarları ruhlandırır.

Elimizin alim oğlunu 55 yaşa çatması və əməyinin dövlət tərəfindən qiymətləndirilməsi münasibəti ilə ailəmiz adından təbrik edib deyirəm:

– Canın sağlam, qələmin iti olsun!



*Kamil Bəşirov*
*ADPU-nun Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının dosenti*

## DƏYƏRLİ DOST, GÖZƏL ALİM

Professor E.Quliyevlə yaxın tanışlığım 20 ildən artıqdır, lakin hərdən mənə elə gəlir ki, biz onunla çoxdan, lap uşaqlıq illərindən tanışıq, dostuq. Görünür, insan insana yaxın olduqca, yoldaşlıq edib oturub-durduqca, doğmalaşdıqca il-ay hesabı yaddan çıxır, zaman adama çox şərti görünür, doğulduğun məkan, fiziki ömür, yaş fərqi anlayışı yaddan çıxır. Burada yersiz görünsə də, şahidi olduğum bir əhvalatı xatırlamaya bilmirəm... Bir dəfə kafedrada oturub olandan-keçəndən söhbət edirdik. Birdən kafedramızın ağbirçəyi rəhmətlik prof. Nabat xanım Abdullayeva üzünü mənə tutub soruşdu:

– Kamil, yəqin yadında olar, 1952-ci ildə M.Bağırov Səməd Vurğunu yanına çağırıb ona nə demişdir?

Doğrusu, çaşıb qaldım, mənim üçün bu gözlənilməz bir sual idi. Məsələ burasındaydı ki, mən onun dediyi zamandan xeyli sonra dünyaya gəlmişdim. O vaxtları necə xatırlaya bilərdim? Məni bu anlaşılmazlıqdan dostum İsmayıl müəllim xilas etdi, özünə məxsus şirin ləhcə və yumorla söhbətə müdaxilə etdi:

– A bajı, sən onu məndən soruş, o illərdə Kamil nə gəzirdi bu dünyada, heç plan-prospektdə də yox idi...

Bu sətirləri yazan zaman qarşımda Elman müəllimin yığcam tərcümeyi-halı əks olunmuş bir vərəq olmasaydı, düşünərdim ki, biz bir vaxtda, bir kənddə doğulub, bir məktəbdə, bir sinifdə oxumuşuq, Bakıya da birgə gəlmişik. Sən demə rəhmətlik Nabat xanım çox da qınanmalı deyilmiş...

Elman müəllimin əsl türk kişilərinə məxsus yerişi-duruşu, danışığı-davranışı onun əsl-nəcabətindən xəbər verən ilkin təəssürat göstəriciləridir. Çatma qaşları altından müsahibinin iç dünyasına nüfuz edə bilən diqqət və qayğı dolu gözləri, sınayıcı nəzərləri qarşısında adam saxtakarlıqdan xilas olur, bütün varlığına dərin bir səmimiyyət hissi hakim kəsilir, istər-istəməz bu baxışların gipnozuna düşürsən. Belə olmağı bacarmayan-

lar isə onun min bir ifadə zənginliyinə malik çöhrəsində nagahan meydana gələn kinayəli bir təbəssümə «qonaq olur», tez uzaqlaşıb canlarını qurtarmağa çalışırlar. «Göründüyün kimi ol və ya olduğun kimi görün!» fəlsəfəsi Elman müəllimin mütləq gerçəklik yaşam kredosudur... Öz dərin müşahidəçilik qabiliyyəti və analitik təfəkkürü sayəsində prof. E.Quliyev zəngin həyat təcrübəsinə yiyələnib, zəhmət və istedadı sayəsində respublikamızın tanınmış müəllim və tədqiqatçı alimlərindən biri kimi ad qazanıb. Müəllim və alim şəxsiyyətini özündə böyük ustalıqla birləşdirməyi bacaran Elman müəllim hər zaman tələbələrinin sevimlisi olub, elmi ictimaiyyətin önəm verdiyi, bəyəndiyi, barmaqla sayıla bilən ziyalılardan biri kimi sayılıb-seçilib. Türk xalqları ədəbiyyatının görkəmli tədqiqatçısı və tərbiyəçisi olan müəllifin «Orta əsrlər türk xalqları ədəbiyyatı», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», «Şərq xalqları ədəbiyyatı» (2 cilddə), «Özbək ədəbiyyatı» və s. kimi əsərləri onun yorulmaz qələmindən çıxan və müəllifinə təkcə vətəndə deyil, onun hüdudlarından çox kənarda da şöhrət gətirən sanballı tədqiqat əsərləridir. Onun türk xalqları ədəbiyyatının araşdırılması və təbliği ilə bağlı geniş fəaliyyəti beynəlxalq qurumların da diqqətini cəlb etmiş, əməyi müxtəlif elmi titul və mükafatlarla qiymətləndirilmişdir. Türk xalqları ədəbiyyatının aktual problemlərinin hərtərəfli araşdırılması sahəsindəki böyük uğurlarına görə «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına, Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin xüsusi Dövlət təşəkkürünə layiq görülmüşdür. Prof. E.Quliyevin Şəhriyarşünaslıq sahəsində xidmət və uğurları onun elmi fəaliyyətinin başqa bir xəttini təşkil edir. Yüksək elmi-pedaqoji fəaliyyətinə görə Azərbaycan Respublikasının Prezidentinin 2012-ci il 18 aprel tarixli sərəncamı ilə «Tərəqqi» medalına layiq görülmüşdür.

Prof. E.Quliyev elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, həm də geniş ictimai fəaliyyətlə məşğul olur. ADPU-da mövcud olan «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin yaradıcısı və rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. AMEA-nın nəzdində fəaliyyət göstərən Dissertasiya Şuralarının üzvü kimi gənc filoloq alimlərin yetişməsinə xüsusi qayğı və diqqət göstərir.

Elman müəllim təəssübkeş vətəndaş, görkəmli alim, gözəl müəllim, bacarıqlı təşkilatçı və mükəmməl şəxsiyyət olmaqla yanaşı, həm də sədaqətli dost, xeyirxah həmkar, qayğıkeş ailə başçısıdır. Üç övlad böyüdüb millətə xidmət yoluna çıxarıb. Eşitdiyimə görə, həm də çox mehriban babadır...

Bu günlərdə 55 yaşı tamam olan Elman Quliyev hələ də gənclik şövqü ilə yaşayıb-yaradır, ömrünün hər anını millətə xidmət üçün qənimət sayır. Bu münasibətlə əziz dostumu təbrik edir, ona arzu etdiyi qədər ömür və uğur diləyirəm.

Ağzın kəsərdən, sözün əsərdən düşməsin, qardaş!...



*Hidayət Bəşirov*
*Lerik rayon Veteranlar Şurasının sədri*

## DOSTUMUZ, QARDAŞIMIZ

Bir şəxslə ki, çox yaxın oldun, dost oldun, onun cəmiyyət arasında böyük nüfuzu vardısa, belə şəxsiyyətlər haqqında fikir söyləmək, yaxud bir yazı yazmaq istəsən, çox tərəddüd edirsən, fikirləşirsən ki, hardan başlayım, necə cümlə yazım ki, ürəyimdən olsun.

Belə şəxsiyyətlərdən biri, bu gün həm respublikamızda, həm də bir çox türkdilli ölkələrdə tanınan, hər yerdə dərin hörmət və ehtiramla qarşılanan, qayğıkeş və xoşxasiyyət, doğulduğu diyarı məhəbbətlə sevən professor Elman Quliyevdir.

Elman Hilal oğlu Quliyev, öz dili ilə desək Lerik rayonunun Zuvand mahalının Kələxan kəndində dünyaya göz açmışdır.

Elman Quliyevin fəaliyyəti Azərbaycan Dövlət Pedaqoji İnstitunda tələbəlik illərindən müəllimlərin nəzər-diqqətini cəlb edir. Tələbə elmi cəmiyətində çıxışları, onun gələcəkdə istedadlı alim olacağından xəbər verir. İnstitutu başa vurub doğma kəndinə qayıdır, Kəlvəz orta məktəbində müəllimlik edir. Ancaq onu narahat edən bir məsələ var idi ki, o da elmin yüksəliş yolu idi. Bu arzu onu yenidən təhsil aldığı instituta gətirir. O, dissertasiya mövzusu seçir, Mirzə İbrahimovun yaradıcılığından namizədlik işini müvəffəqiyyətlə başa çatdırıb müdafiə edir. Doktorluq dissertasiyası üçün gecəli-gündüzlü axtarışlar aparır. Ustad Şəhriyarın ana dilimizdəki əsərlərini ətraflı öyrənir, İranda yaşayan azərbaycanlı alimlərlə əlaqə yaradır və 2004-cü ildə «Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər konteksində)» mövzusunda doktorluq dissertasiyanı müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsi alır. Ulu peyğəmbərimiz

alimlərə yüksək qiymət verib: «Elmindən fayda gələn alim, min abiddən üstündür. Elm öyrənən İslamın dayağıdır». Elman müəllimin elmi araşdırmaları onun zəhmət dolu, şərəfli ömür yolunun bəhrələridir. Elmə olan sonsuz məhəbbətinə görə filoloq alim kimi çox əmək sərf edir, elmi yenilikləri ilə bizi sevindirir. Çoxlu kitabların, monoqrafiyaların müəllifidir. Lerikdən ölkənin universitetlərində onlarca tələbə oxuyur. Onlardan Elman müəllimdən məsləhət alanlar, çətinliyə düşəndə müraciət edənlər də az olmur.

Elman Quliyev doğulduğu və boya başa çatdığı doğma kəndini, rayonunu, respublikamızı çox sevir. Bu yerlərdə aparılmış tikinti-quruculuq, abadlıq illərindən fərəhlə danışır və təbliğ edirdi.

Möhtərəm Prezidentimiz İlham Əliyevin 2005, 2006 və 2010-cu illərdə 3 dəfə Lerik rayonunda olması, Lənkəran Lerik yolunun çəkilməsi, rayona qaz kəmərinin verilməsi, çoxlu məktəb və səhiyyə obyektlərinin tikilməsi, turizm düşərgələrinin istifadəyə verilməsinə bütün leriklilər kimi Elman müəllim də çox sevinir, bu işlərlə fəxr edir.

Belə bir xüsusiyyət – öz elinə, obasına bağlılıq, rayonumuzun bütün tədbirlərində, xeyir-şərində daim iştirak etmək hər kəsə nəsib olmur. Elman müəllimdəki bu keyfiyyətlər, Allah rəhmət eləsin, atası Hilal kişidən ona keçib. Bizim tərəflərdə az adam tapılar ki, Hilal kişini tanımasın. Xeyirxah, dost-tanış qədrini bilən bir insan idi. Amalı yol çəkmək, körpü salmaqdı.

Elman müəllimin istedadlı alim kimi yetişməsində rəhmətlik qardaşı Arazın zəhməti həmişə xatırlanır. Qələminin püxtələşdiyi bir vaxtda həyatdan köçdü. Qəzetlərdə imzası, ürəklərdə xatirəsi qaldı Araz müəllimin.

Alimliyinə, şəxsiyyətinə hörmət bəslədiyim Elman Quliyevi həmişə axtarışda olmaq arzusu ilə əlinə sıxıram.



*Akif Ağayev*
*Lerik rayon Əliabad kənd*
*ərazi dairəsinin icra nümayəndəsi*

## ELİMİZİN FƏXRİ

Quliyevlər soyu qədim tarixə malikdir. Bu soyun nümayəndələri həmişə xalqla birlikdə olmuş, xalqın istədiyi insanlara çevrilmişlər. Yaşadığımız XXI əsrdə də bir daha özlərini təsdiq edən bu nəslin görkəmli nümayəndələrindən biri də gözəl alim və gözəl ailə başçısı, eyni zamanda Zuvand mahalını və Leriki təmsil etməklə bərabər, hazırda Azərbaycanı təmsil edən prof. Elman Quliyevdir. Bu gözəl insan Azərbaycan xalqı üçün mən deyərdim, böyük mənəvi sərvətdir. Belə ki, onun yazdığı çoxsaylı əsərlərdə Azərbaycan milli-mənəvi dəyərləri özünə yer alır. Görkəmli Azərbaycan şairi, Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığına həsr etdiyi doktorluq dissertasiyası sırf Azərbaycançılıq ruhunu tədqiqi baxımından əhəmiyyətlidir. Məhəmmədhüseyn Şəhriyarı Azərbaycan şairi kimi təqdim edərkən onun yazdıqları insanı valeh edir. Mən alimin doktorluq dissertasiyasının müdafiə prosesində şəxsən iştirak etmişəm, böyük alimlər qarşısında onun elmi səviyyəsinin böyüklüyünə şahid olmuşam.

Mən prof. Elman Quliyevin qohumlara, dostlara, həmyerlilərə necə qayğı göstərdiyinə heyran qalmışam. O, qardaşı balalarını, bacısı uşaqlarını öz balaları kimi sevir, onlarla nəfəs alır. Mən onun kimi qardaş təsəvvür edə bilmirəm. Mərhum qardaşı Araz dünyasını vaxtsız dəyişəndə onun keçirdiyi kədəri inanmıram ki, kimsə keçirə bilər. Araz müəllimin balalarının uğurlarına onun kimi sevinən əmini təsəvvür edə bilmirəm.

Mən əminəm ki, necə Elman Quliyev Quliyevlər nəslinə şərəf gətiribsə, onun övladları Elmar, Ülkər, Fidan, Ayla və Rəvan Quliyevlər də bunu şərəflə davam etdirəcək.

Əzizim Elman müəllim, mən Sizi 55 illik yubileyiniz münasibəti ilə təbrik edirəm. Sizə can sağlığı arzulayıram. İnanın ki, Sizin uğurlarınıza bir ailə və qohumlar sevinmir, bütün Azərbaycan xalqı sevinir. Ona görə ki, Siz hər yerdə millətimizi, dövlətimizi, ruhumuzu təbliğ və təmsil edirsiniz. Buna isə hələ bundan sonra da, ən azı 50 il vaxt lazımdır. Mən həmin ömrü Allahın Sizə bəxş etməyini arzu edirəm.



***Fikrət Muradlı***
*iş adamı*

# QÜRUR DUYDUĞUMUZ İNSAN

Prof. Elman Quliyevlə həmyerli olsam da onu ilk dəfə təhsil aldığım ali məktəbdə görmüşəm. Mən tələbə olanda Elman müəllim namizədlik dissertasiyası müdafiə etmişdi. Təhsil aldığım o vaxtki APİ-nin filologiya fakültəsində hamı Elman müəllimin uğurlu müdafiəsindən danışır, ona filologiya elminin gələcək nailiyyətlərində ümidverici bir şəxs kimi baxırdılar. Bu cür fikirlər bir həmyerli kimi məni fərəhləndirir, onunla yaxından tanış olmağa sövq edirdi. O zaman bizi Elman müəllimin bacısı oğlu, kurs yoldaşım Ruslan Mirzəyev tanış etdi. İlk tanışlıqdan mən onun nə qədər savadlı, səviyyəli, sadə, səmimi bir insan olduğunun şahidi oldum. Mənə elə gəldi ki, onun haqqında xoş söz deyənlər bir qədər xəsislik edib hələ az deyirlər. Hər dəfə görüşəndə indiki kimi dünya problemlərindən kənar dayanıb yalnız elmdən danışan Elman müəllimdən çox şey öyrənmək olurdu. O, mənə dərs deməsə də məhz bu səbəbdən mən onu özümə müəllim hesab etmişəm. Tale elə gətirdi ki, indinin özünə qədər ürəyim bu sənətdə qala-qala, yollar məni başqa istiqamətə apardı. Amma həmin yollar məni müəllimlərimdən ayırmadı. Çünki o müəllimlərin özü də, sözü də mənim üçün müqəddəs idi. Görünür, onlarla həmsöhbət olmaq ehtiyacımın kökündə bu dayanır. Elə buradaca mənə dərs deyən, elmin, eyni zamanda həyatın sirlərini öyrədən müəllimlərimin adlarını sadalamaq istərdim. Ancaq bu siyahıda hansısa səbəbdən özlərinə yer almayacaq müəllimlərimin ruhunun məndən inciyəcəklərini nəzərə alıb fikrimdən daşınıram. Elə bilirəm ki, prof. Elman Quliyevlə Bakıda əlaqələrimizin yaxınlığı taleyin hökmüdür. Yaşadığımız cəmiyyət elədir ki, eyni bir insan haqqında ətrafdakıların tam razılıqla danışması qeyri-mümkündür. Amma bu

hal Elman müəllim üçün istisna hesab olunur. Müşahidələrim onu deməyə əsas verir ki, 25 ildə mən Elman müəllim haqqında yalnız xoş sözlər eşitmişəm. Çox vaxt fikirləşirəm ki, bu insana olan sevginin, hörmətin səbəbi nədir? Hesab edirəm ki, Elman müəllimi yaxşı tanıyan, onunla həmsöhbət olan hər kəs bu sualın cavabını özü üçün asanlıqla müəyyənləşdirə bilər. Yəqin hamı təsdiqləyər ki, o, nəzakətlidir, xeyirxahdır, bədxahlıqdan uzaqdır, sevincə də, kədərə də şərik olandır və s.

Ancaq bu sevginin, bu hörmətin başqa bir tərəfini heç cür unutmaq olmaz. Bu isə Elman müəllimin elmi uğurları və bu uğurların insanlarda yaratdığı fərəhlə bağlıdır. Prof. Elman Quliyevin ədəbiyyatşünaslıq fəaliyyətini üç istiqamətdə qruplaşdırmaq olar: Azərbaycan, türk və şərq xalqları ədəbiyyatı problemlərinin araşdırılması və təhlili.

İlk öncə prof. Elman Quliyev Azərbaycan ədəbiyyatı problemlərinin öyrənilməsində, bu xəzinənin görkəmli simalarının yaradıcılıqları üçün xarakterik məsələlərin araşdırılmasında böyük elmi nailiyyətlər əldə edən ədəbiyyatşünas kimi tanınır. Bu sırada M.İbrahimov, M.Şəhriyar, S.Tahir, Ə.Tudə və s. kimi görkəmli şəxsiyyətlər yer alır. Bütün araşdırmalarında prof. Elman Quliyev məsələlərə Azərbaycançılıq və türkçülük baxımından aydınlıq gətirmiş, milli-azadlıq ideyalarının təhlilinə böyük diqqət ayırmışdır. Yəqin ki, bu cəhət Azərbaycanın milli müstəqillik qazanmasının tədqiqatçılara verdiyi imkanlarla birbaşa bağlıdır. Ancaq situasiya nə qədər imkan yaratsa da, tədqiqatda əsas məsələni istedad və nəzəri hazırlıq həll edir. Onun Sovet dövrü tədqiqlərinə aid olan xalq yazıçısı Mirzə İbrahimovla bağlı yazdıqlarında belə milli məfkurə məsələləri özünə yer almışdır. Bu onu göstərir ki, prof. Elman Quliyev zamanından asılı olmayaraq milli ideyalara daha böyük önəm vermiş, nəzəri-estetik, konsepsiyalar daxilində problemlərin təhlilini apara bilmişdir. Sovet dönəmində cəsarət və vətəndaşlıq hissiyyatı güclü olmadan məsələlərə bu cür yanaşmaq yəqin ki, mümkün olmazdı. Onun elmi yaradıcılığı ilə ilk tanışlıq zamanı görürsən ki, Azərbaycançılıq və türkçülük aspekti daim irəliyə doğru xüsusi inkişaf xəttində davam etdirilir. Yəni o, istənilən tədqiqatlarında, təhlillərində bu cəhəti üzə çıxarmağı əhəmiyyətli hesab edir. Alimin dahi şairimiz Şəhriyarla bağlı yazdığı «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Şəhriyar poeziyası və milli təkamül» və s. kitablarda biz Azərbaycançılığı xüsusi istiqamət kimi görə bilirik. Onun Şəhriyar əsərlərində özünü mühafizə edən açıq, sətiraltı formada ifadə olunan misralarında Azərbaycan dili sevgisi bütöv Azərbaycan ideyasının təbliği ilə bağlı verdiyi təhlillər nə qədər əhəmiyyətli və inandırıcıdır. Elman müəllimin ən

böyük uğurlarından biri də müstəqillik dövründə tədris olunan Türk və Şərq xalqları ədəbiyyatları üçün yazdığı dərslik və monoqrafiyalarla bağlıdır. Mən sovet dövründə təhsil almışam. Filologiya fakültəsini bitirsəm də burada Türk və Şərq xalqları ədəbiyyatı ilə bağlı heç bir fənn tədris olunmayıbdır. Görəndə ki, hazırda bu fənlər tədris olunur, indiki tələbələrə qibtə edirsən. Çünki bu fənlər bizim milli-mənəvi eyni zamanda milli-dini ruhumuz və keçmişimizlə bağlıdır. Məncə, prof. E.Quliyev Azərbaycanda bu sahənin ən böyük mütəxəssisi hesab olunur. Mən bu sözləri söz xatirinə demirəm. Prof. E.Quliyevin bu sahənin aparıcı adamı olması fikrini Azərbaycan alimləri təsdiqləyir və etiraf edirlər. Amma Elman müəllim bu cür qiymətləndirmədən heç də arxayınlaşmır, əksinə Türk və Şərq ədəbiyyatının yeni-yeni problemlərini üzə çıxarır, tədqiqatlarını davam etdirir. Onun bu sahədə yazdığı «Türkiyə türk ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», «Müasir özbək ədəbiyyatı tarixi», «Qədim dövr türk xalqları ədəbiyyatı», «Özbək ədəbiyyatı», 2 cildlik «Şərq xalqları ədəbiyyatı», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» və s. kitabları onu göstərir ki, prof. Elman Quliyev həqiqətən bu sahənin görkəmli mütəxəssisidir. Azərbaycanın bütün universitetlərində bu kitabların dərslik kimi qəbul edilməsi həm müəllif üçün uğurdur, həm də bizim kimi insanlar üçün qürur. Şəxsən mən bir insanın qısa vaxtda bu qədər kitab yazmasını qəhrəmanlıq hesab edirəm.

Prof. E.Quliyev zəhmətkeş, dövlətinə, millətinə sadiq, sadə, təvazökar insandır. Mən onu 55 yaşı münasibətilə təbrik edir, can sağlığı arzulayıram.



***Yədulla Ağazadə***
*Lənkəran Dövlət Universitetinin*
*Dil və ədəbiyyat kafedrasının müdiri,*
*filologiya elmləri doktoru*

## USTADIN ƏN BÖYÜK YADİGARI

Tanınmış ədəbiyyatşünas alim, professor Elman Quliyev haqqında ilk dəfə görkəmli elm fədaisi, hamımızın sevimlisi Xeyrulla Məmmədovdan eşitmişəm. Etiraf edim ki, o vaxta qədər yalnız adını eşitmişdim. Keçən əsrin 90-cı illərində Lənkəran Dövlət Universitetində ədəbiyyatşünas alimlərə ciddi ehtiyac duyulan zamanlarda mən təkidlə Xeyrulla müəllimi bizim universitetlə əməkdaşlığa dəvət etdim. Ustad dəvətimə hörmətlə yanaşsa da işinin çoxluğundan, eləcə də səhhətindən gileylənərək gələ bilməyəcəyini söylədi və Elman Quliyevi dəvət etməyimi tövsiyə etdi. Xeyrulla müəllim Elman Quliyevi həm görkəmli alim, həm də gözəl insan kimi xarakterizə etdi. O vaxtdan Elman müəllimlə daha yaxından tanış olmaq imkanı arayırdım. Doğrudur, özünü şəxsən görməsəm də elmi yaradıcılığı, elmi uğurlarıyla maraqlanır, iftixar, qürur duyurdum. Alimi, insanı, şəxsiyyəti səciyyələndirən cəhətlər çoxdur. Bunların içərisində alim üçün ən ümdəsi onun təfəkkürü və ürəyidir.

E.Quliyevin çoxcəhətli, çoxşaxəli elmi yaradıcılığına diqqət etdikdə onun parlaq təfəkkürə, zəngin erudisiyaya malik ədəbiyyatşünas alim olduğunu görmək çətin deyildir. Alimin böyüklüyü ondadır ki, elmdə özünəməxsus izi, özünəməxsus sözü olsun. Məhəmmədhüseyn Şəhriyar haqqında çoxları yazıb, tədqiqat işləri aparıblar. Lakin bu gün Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının araşdırıcılarından söz düşəndə ilk öncə prof. Elman Quliyev yada düşür. Elman Quliyevin yaradıcılığında ikinci istiqamət ümumtürk ədəbiyyatının hərtərəfli tədqiqatı ilə bağlıdır. Alim Şəhriyar yaradıcılığı ilə başladığı elmi axtarışlarını daha da genişləndirərək türk xalqlarının ədəbiyyatı haqqında filoloji fikirdə olan müəyyən boşluğu doldurmağa çalışmış, milli ədəbiyyatşünaslığımızın dünya ədəbiyyatı

kontekstində öyrənilməsi yolunda gərəkli fəaliyyət göstərmişdir. Artıq alimin bu yöndə olan dərslikləri, dərs vəsaitləri nəinki respublikamızda, eləcə də xarici ölkələrdə də hörmətlə qarşılanır, müəllifinə böyük nüfuz qazandırır.

Elmi yaradıcılığı haqqında danışarkən alimi yüksək pedaqoji mərifətə malik pedaqoq-alim kimi də səciyyələndirmək olar. İş elə gətirdi ki, prof. Elman Quliyev bir neçə dəfə Lənkəran Dövlət Universitetində uyğun ixtisas üzrə Dövlət İmtahan Komissiyasının sədri kimi fəaliyyət göstərmişdir. Tələbələr, müəllimlər, komissiya üzvlərilə nəzakətli davranışı, öz fəaliyyətində qayğı, diqqətlə tələbkarlığı, məsuliyyəti bacarıqla birləşdirməsi, dərin təhlillər aparması onu daha yaxşı tanımağımıza imkan yaratdı.

Elman Quliyev, heç şübhəsiz ki, görkəmli alimdir, gözəl müəllimdir. Lakin həyat sübut etmişdir ki, kimliyindən asılı olmayaraq hər bir adamı, şəxsiyyəti onun insani cəhətləri, həyata, dünyaya, insanlara şəxsi baxışları, nurlu əməlləri daha dərindən tanıdır. Alimin qələmi ilə yanaşı gözəl ürəyi də olmalıdır. Bu istiqamətdə alim dostumdan çoxsaylı misallar çəkərək onu nurlu bir insan, gözəl şəxsiyyət kimi dəyərləndirə bilərəm. Lakin bircə fakt göstərməklə kifayətlənmək istəyirəm. Elman müəllim 2006-cı ildə ustadı Xeyrulla Məmmədovun «XIX əsr Azərbaycan ədəbiyyatı» kitabını nəşrə hazırlamış, kitaba «Gərək günəş dağları aşıb sönməyəydi» adlı ön söz əvəzi yazmışdır. Təkcə həmin yazını oxumaq kifayətdir ki, Elman müəllimin ürəyini görə biləsən. Bu ürəkdə ustada nə qədər böyük sevgi, məhəbbət vardır. Bu sevgi həm də ədəbiyyatımıza, vətənimizə, onun adlı-sanlı insanlarına, işıqlı ziyalılarına olan tükənməz məhəbbətdən qaynaqlanır. Hiss edirsən ki, ustadın elmi estafeti etibarlı əllərdədir. Görkəmli alim itkisindən gələn təsəlli də budur. Bunu Elman müəllim də yaxşı qələmə almış və belə demişdir: «Təsəllimiz odur ki, prof. X.Məmmədovdan onu sevənlərə və Azərbaycan elminə dünyanın ən qiymətli daş-qaşından dəyərli əsərləri, Xeyrulla müəllim şəxsiyyəti, Xeyrulla müəllim vüqarı, Xeyrulla müəllim ləyaqəti, Xeyrulla müəllim üslubu yadigar və nümunə qalmışdır.» Bu sözlərə içimdən gələn bir əlavəm var. Hesab edirəm ki, ustadın elə ən böyük yadigarı onun yolunu ləyaqətlə davam etdirən, görkəmli alim və gözəl şəxsiyyət kimi dəyərləndirilən, bu günlərdə anadan olmasının 55 illiyini təntənə ilə qeyd etməyə hazırlaşdığımız professor Elman Hilal oğlu Quliyevdir.

Alim dostumu, hamımızın iftixarı Elman müəllimi yubiley tarixçəsi ilə ürəkdən təbrik edir, sağlamlıq və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.



*Kamran Kazımov*
*Lənkəran Dövlət Universiteti Humanitar və pedaqoji elmlər fakültəsinin dekanı, dosent*

## ZƏHMƏTKEŞ ALİM VƏ QAYĞIKEŞ İNSAN

Elman müəllimlə ilk tanışlığımız bir neçə il bundan əvvəl Lənkəran Dövlət Universitetində olub. Düzdür, bir alim kimi onu qiyabi olaraq tanıyırdım və çoxsaylı əsərləri ilə tanış idim. Deyirlər, igidin adını eşidincə, üzünü görmək daha yaxşıdır. Mən bu İGİDi görəndə, xasiyyətinə bələd olanda qarşımda səmimiyyətilə, mehribançılığı ilə, qayğıkeşliyi ilə seçilən bir insan gördüm. Açığın deyim ki, onun avtobioqrafiyası ilə tanışlıqdan sonra böyük bir qürur hissi keçirirəm ki, bizim həmyerlimizdir. Elman müəllimin elmi araşdırmaları ilə tanış olanda, onun Azərbaycan elminə çox böyük töhfələr verdiyinin şahidi oluruq. Xüsusən, türk xalqları ədəbiyyatının araşdırıcısı kimi Elman müəllimin zəhməti danılmazdır. Onun araşdırmalarında türk xalqlarının, ümumən, bir çox Şərq xalqlarının ədəbiyyatı geniş vüsət tapmışdır. Keçmiş sovet dönəmində türk xalqları ədəbiyyatı ancaq sovetlər birliyinə daxil olan türkdilli xalqların ədəbiyyatı səthi öyrənildiyi halda, müstəqillik dövründə isə Elman müəllimin gərgin əməyi sayəsində ümumən türk xalqları ədəbiyyatı ətraflı tədqiq olunaraq dərslik və dərs vəsaiti kimi işıq üzü görmüşdür.

Elə bu zəhmətkeşliyi sayəsində Elman Quliyev 2007-ci ildə «İlin alimi», 2011-ci ildə isə «İlin müəllimi» müsabiqəsinin qalibi olmuşdur. Azərbaycan aliminin bu uğurları biz həmkarları və həmyerliləri çox sevindirir.

Elman müəllimin gənc alimlərin də yetişməsində rolu böyükdür. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu və Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdində fəaliyyət göstərən Dissertasiya Şuralarının üzvü olması buna bariz nümunədir. Bu uğurlar Elman müəllimin bu gün qeyd etdiyi cəmi 55 yaşı dövründə olub. İnanıram ki, Elman müəllimin uğurları bundan sonra daha çox və daha səmərəli olar.

Fürsətdən istifadə edib, onu bu yubiley münasibətilə təbrik edir, ona yeni zirvələri fəth etməyi arzu edirəm.



*Sakibə Ələsgərova*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru*

## MÜƏLLİMİMİN MƏNƏVİ VARİSİ VƏ SƏDAQƏTLİ ALİM

Mən Elman Quliyevi aspiranturada oxuduğum illərdən tanıyıram. Müəllimim, elmi rəhbərim görkəmli ədəbiyyatşünas alim Xeyrulla Məmmədovun yaxın dostu, şəxsiyyətinə hörmət elədiyim bir insan kimi. Həyatda hər kəsin bir xarakteri var. Elman müəllim gözəl, mülayim rəftara sahib, Allah qorxusu olan, insanpərvər bir şəxsdir. Bu da xalq müəlliminə xas olan bir xüsusiyyətdir. «Qurani-Kərim»in «Ali-İmran» surəsində deyilir: «İnsanlarla onların yaşlarına, baxışlarına, anlama dərəcəsinə müvafiq danışmaq da mülayimliyin əlamətlərindəndir». Dünyamızın indiki vəziyyətində, yəni insanların ünsiyyətə çox da qiymət vermədiyi bir vaxtda belə insanlara ehtiyac daha çox olur. Görkəmli qəzəlxan Əliağa Vahid namərdə əyilməyən, ruhunu özgələrə satmayan insanlar haqqında yazır:

*Vəhşiligə, namərdligə, nadanlığa nifrət!*
*İnsanlıq ilə ömr eləyən bəxtəvər oldu.*

Zaman atlı, biz piyada olmuşuq. Gözümüzü açdıq ki, tanıdığımız Elman müəllimin saçlarına dən düşüb, elmlər doktoru, professor kimi fəaliyyət göstərir, bir şöbəyə rəhbərlik edir, neçə-neçə əsərlərin müəllifidir və s. Müxtəlif şəkildə ardıcıl olaraq qiymətləndirilmiş bu insan yenə də dostlarının, mühitinin tanıdığı sadə Elman müəllimdir.

Onun yaradıcılığında diqqətimi ən çox çəkən Şəhriyar poeziyasından yazdığı elmi işdir. Maraq dairəm Cənubi Azərbaycan ədəbiyyatı olduğundan müsəlman dünyasının görkəmli şairi Şəhriyarın yaradıcılığınının öyrənilməsində əməyi olanlardan birinin də Elman Quliyevin olması mənim

üçün sevindirici haldır. Şəhriyar məzhəbini danmayan, xalqını sevən övladlar yetişdirməyimizi tələb edirdi. Qədim tarixə malik olan türk xalqları ədəbiyyatının tədqiqi və tədrisi ilə məşğul olan bir alimin onun yaradıcılığını sevməsi, öyrənməsi və tədqiqə cəlb etməsi yəqin ki, Şəhriyar ruhunu oxşayır. Sənətkarın həyat və yaradıcılığını, mühitini təhlilə cəlb edərək üzə çıxartdığı yeniliklərlə bərabər elm və bədii aləmə təqdim edən E.Quliyev Şərq poeziyasının görkəmli simasının hamı tərəfindən oxunan və sevilən bir şəxs olduğunu bildiyi üçün Şəhriyarın poeziyasını özünəməxsus bir şəkildə təhlil edərək həyati tərəflərini üzə çıxardır, bilinməyən tərəflərini xalqın diqqətinə çatdırır. O, iki dildə yazıb-yaradan və zəngin yaradıcılığa malik olan sənətkarın mütərəqqi sələfləri ilə yaradıcılıq prosesindəki bağlılığı həyatın diqtəsi kimi qiymətləndirir və onun milli təkamül prosesini izləyərək əhəmiyyətini Azərbaycançılıq ideyaları ilə əlaqələndirir. Şəhriyarın yaradıcılığını milli zəmində izləyən, şairin ədəbi-estetik görüşlərini, onun Azərbaycan dilinə yanğısını, təəssübkeşliyini ümumbəşəri problemlərin həllinə bağlayan Elman müəllim bütün bunları şairin xalqın içərisindən çıxması və xalqın həyatını dərindən bilməsi ilə üzvi əlaqədə görür. Şəhriyar novator şairdir və hər cür yeniliyə qucaq açır, ancaq klassik ənənəyə də yaradıcı yanaşır. Şəhriyarı milli, vətənpərvər, dilimizin təəssübkeşi olan bir şair kimi qiymətləndirən E.Quliyev Azərbaycan dilinin Cənubi Azərbaycanda işləklik dərəcəsinin artmasında Şəhriyarın rolu məsələsini dəlillərlə diqqətə çatdırmışdır. Şəhriyar yaradıcılığının mövzu dairəsinin bir çoxları tərəfindən tədqiqata cəlb olunmasına baxmayaraq, hörmətli alim bu məsələyə yenidən qayıdaraq orijinal söz demək qabiliyyətini bir daha təsdiqləmişdir.

Bir xalqı iki yerə bölərək özlərini tarix boyu lənətli vəziyyətinə salanlar bəlkə də, xalqımızın bu dərəcədə mənəvi bağlılığını anlamadılar. Bu nisgilin düşmənə qarşı nifrətə çevrilməsi neçə-neçə əsərlərin ortaya çıxmasına səbəb oldu. Şəhriyar yaradıcılığını mövzu dairəsinə görə qiymətləndirərkən ayrılıq, ana dili, vətən problemlərinin «ağır basdığı»nın zaman-zaman şahidi oluruq. Elman müəllim Şəhriyarın nisgilli baxışlarının Heydərbaba dağına yönəlməsini təbii sayır. Dərdimizin bu dağ qədər azman olduğunu yenə Şəhriyarın misraları ilə təsdiqləyir:

*Heydərbaba, mərd oğullar doğginən,*
*Namərdlərin burunların ovginən.*

Şəhriyarı oxuyarkən dilinin sadəliyinə heyran qalırsan, ən zəif yaddaş belə onu qavrayır. Elman müəllim bu məsələyə elmi münasibət bəsləyir, Şəhriyar yaradıcılığının bədii çəkisini, sənətkarlıq xüsusiyyətlərini

müstəviyə yatıraraq əsl qiymətini verməyə çalışır. Məzmun və forma bağlılığı, fikrin bədi ifadəsinin əhatəliliyi, məzmunun elmi-fəlsəfi dərki, həyat hadisələrinə münasibətdə Şəhriyarın üslub çalarları və s. kimi məsələlər elmi əsərin çəkisini daha da artıraraq oxunaqlı etmişdir.

Hər bir elmi əsər ağır zəhmətin, ömürdən verilmiş müəyyən zaman kəsiyinin məhsuludur. M.Şəhriyar, M.İbrahimov, S.Tahir haqqında yazdığı elmi əsərlər, xüsusən, Türkiyə və digər türkdilli xalqların görkəmli sənətkarlarının həyat və yaradıcılığının tədqiqinə həsr olunmuş əsərlər Elman müəllimin zəhmətkeş bir alim olmasının sübutudur. Alim türk xalqlarının ədəbiyyatının öyrənilməsinə, xüsusilə tədrisinə şəraitin yaradılmasına daima qayğı göstərir, bunun üçün heç bir zəhmətdən çəkinmir. Bu da çoxinformasiyalı bir cəmiyyətdə Türkçülük və Azərbaycançılıq ideyalarının təbliğinə yönəlikdir. İnteqrasiya dövrü olan XXI əsrdə diqqəti informatlaşmadan birbaşa mətnə doğru çəkmək az hünər deyil. Türkiyə türkləri, özbək, türkmən, qazax, tatar, qırğız və s. xalqların ədəbi nümunələrini Azərbaycan aliminin təfəkkür süzgəcindən keçərək oxucuya, tələbəyə doğma dilində çatdırılması, hətta dərslik və dərs vəsaiti şəklinə salınması müəllifin müvəffəqiyyətidir. N.Hikmət «röyalarının ölkəsində ölməyi» özünə xoşbəxtlik sayır, M.Şəhriyar Heydərbabaya pənah aparır, onunla kədərini bölüşür, Elman müəllim də bütün bunları ana dilimizdə cilalayaraq, elminin hünəriylə paralellər apararaq bizlərə ərməğan edir, öz nisgilini bu şəkildə ovundurmağa çalışır. Hər əsəri Elman müəllimin neçə yaşını əlindən alıb bilmirəm, ancaq hər əsəri onu ən azı bir yaş cavanlaşdıracaq, nə vaxtsa neçə il əvvəl gördüyümüz qardaşımızı, həmkarımızı qarşımızda əvvəlki kimi görsək, təəssüblənməyək. Bu, onun mənəvi haqqıdır.

Xeyrulla müəllimin xatirə gecəsində onu dinləyərkən həm kədəri, həm zəhməti, həm də sevinci eyni anda yaşadığını hiss edirdim. Həm xatırlayırdı, həm də mənəvi varisi olduğu əziz müəllimlərimizə hesabat verirdi. Bir tərəfdə cəfakeş Xeyrulla müəllimin portreti, kitabları, lentə köçürülmüş şəkilləri, bir yanda zəhmətkeş Elman müəllimin yorğun siması ahəng yaradırdı. Ancaq Azərbaycanın nəhəng, məşhur ziyalıları, elm adamları Xeyrulla müəllimi olduğu kimi xatırlayanda bu sima bir az canlanırdı.

Elman müəllimə can sağlığı, yaradıcılıq uğurları və xoş arzular diləyi ilə.



*Hacı Bayram Aslanov*
*«Şərəf» nişanı ordenli müəllim, Azərbaycan Respublikasının və keçmiş SSRİ-nin maarif əlaçısı*

## DÜNYANIN ÇIRAĞI

Söz qadir Allahın bəndəsinə bəxş etdiyi ən böyük nemətlərdən biridir ki, insan fikir, düşüncə və hisslərini onun vasitəsilə ifadə edir, başqaları ilə əlaqə saxlayır, ünsiyyət qurur. Məncə, hər bir sözün, fikrin dəyəri onun sadəliyində və doğruluğundadır. Düz danışan, doğru fikir söyləyən heç vaxt onun isbatına çalışmır, çünki özünə yəqini vardır. Alim haqqında söz söyləmək olduqca çətin və məsuliyyətlidir. Ancaq insan onda təsəlli tapır ki, əsl alimlər müdrik, elmdə dərin olduqları qədər, həyatda sadə, səmimi və təvazökar olurlar və professor Elman Quliyev belə alimlərin bariz nümayəndələrindən biridir.

Elman müəllimi qiyabi olaraq çoxdan tanıyırdım. Respublika mətbuatında Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndələri Mirzə İbrahimov və Məhəmmədhüseyn Şəhriyar barəsində qələmə aldığı elmi məqalələrini oxumuşdum. Əyani tanışlığımız 2008-ci ilini yayına təsadüf etdi. Beynəlxalq Mətbuat Mərkəzində toplunun təqdimat mərasimi olacaqdı. Bir neçə gün əvvəl naşir Akif Dənzizadənin təklifi ilə rayonumuzdan olan alimlərə kitab payladıq və xahiş etdik ki, təqdimatda obyektiv fikirlərini söyləsinlər. İyul ayının 4-də keçirilən təqdimatda ən dolğun, hərtərəfli və dəyərli fikir bildirənlərdən biri də Elman müəllim oldu. Qısa vaxtda kitabı bütövlükdə oxumuşdu. Onun diqqətcilliyi, müsahibinə qarşı yüksək insani münasibəti məndə bu şəxsə qarşı maraq, hörmət və ehtiram hissini artırdı və sonralar bir neçə dəfə görüşdük, hər dəfə vaxtın tez qurtardığına görə təəssüfləndim. Çünki əsl alimlərlə söhbətdən adam doymur, qəlbinə bir sevinc hissi hakim kəsilir, insan mənəvi baxımdan zənginləşir,

gözündə insanın dəyəri yüksəlir. Buna görədir ki, insanlıq dünyasının günəşi imam Həzrət Əli (ə) alim məclislərini cənnət bağçalarına bənzədir.

Elman müəllim Lerikin Zuvand mahalında xeyirxah əməlləri ilə tanınmış Quliyevlər nəslinin ən dəyərli övladlarından biridir. O, həyatını elmə həsr edib və bütün varlığı ilə elmə bağlanıb. Allahın sonuncu peyğəmbəri Məhəmmədin (s) elm, onun faydası, elmlə məşğul olan insanların əməyi, onlara münasibət barədə söylədiyi kəlamlar hər birimiz üçün olduqca qiymətlidir. Hədislərin birində deyilir: «Alimlərə hörmət qoyun, onlar peyğəmbərlərin varisləridir. Onlara hörmət Allaha və onun Rəsuluna hörmət deməkdir.» Allahın sonuncu Rəsulu elmlə məşğul olanları peyğəmbərin varisi hesab etməklə həm alimlərin, həm də cəmiyyət üzvlərinin üzərinə böyük məsuliyyət qoyur. Elmlə məşğul olanlar elə çalışmalıdırlar ki, onların əməyindən, elmi nailiyyətlərindən, kəşflərindən istər mənəvi, istər maddi baxımdan cəmiyyət üzvləri fayda götürsünlər. İnsanlar da alimlərə fəzilət sahibi olduqlarına görə qayğı və hörmət göstərməklə peyğəmbərin vəsiyyətini yerinə yetirmiş olurlar.

Peyğəmbərimizin hədislərindən öyrənirik ki, bilik əldə etmək üçün zaman, məkan, məsafə məhdudiyyəti yoxdur, yəni insan ömrü boyu (beşikdən qəbrədək) öyrənməyə səy göstərməli, elm qazanmaq üçün, lazım gəlsə ən uzaq yerlərə belə getməkdən çəkinməməlidir. Allahın rəsulu elmin fəzilətini ibadətin faydasından üstün hesab edir. Çünki hər bir şəxsin ibadəti sırf özünə aiddirsə, öyrəndiyi elmdən həm özü, həm də başqaları bəhrələnir. Elm öyrənən və onu müsəlman qardaşına öyrədənin əməyini Peyğəmbərimiz ən xeyirli sədəqə hesab edir. Məhəmməd (s) peyğəmbər buyurub: «Elm öyrənin, çünki elm sahibini yaxşını pisdən seçməyə qadir edir. Behiştin yolunu hamarlayır. Çöldə dostumuz, tənhalıqda munisimizdir. Köməksizlikdə yoldaşımız, xoşbəxtliyə tərəf yol göstərənimiz və düşmənlər arasında silahımız hesab olunur.»

Elmə sonsuz maraq Elman müəllimi heç vaxt rahat buraxmayıb, onu həmişə çalışmağa, axtarmağa sövq edib. Tələbəlik illərindən vaxtının qədrini bilib, hər dəqiqəsinin səmərəli istifadəsinə çalışıb. 1980-ci ildə tələbə-gənclərin II Ümumittifaq elmi konfransında «Əli Kərimin lirikası» mövzusunda oxuduğu məruzə I dərəcəli diploma layiq görülüb. İlk müvəffəqiyyət onu sevindirib, özünə qarşı inamını artırıb, daha şövqlə axtarış aparmağa, işləməyə həvəsləndirib. Ucqar dağ kəndinin məktəbində işləyə-işləyə namizədlik dissertasiyası üzərində çalışıb. XX əsr Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndələrindən biri M.İbrahimovun yaradıcılığını tədqiq edib, filologiya elmləri namizədi alimlik dərəcəsi alıb.

Məhəmmədhüseyn Şəhriyar Azərbaycanda ən çox sevilən və oxunan şairdir. Bu qüdrətli sənətkarın yaradıcılığı professor E.Quliyevin əsas tədqiqat obyekti olmuşdur. Müəllifin əməyi ilə tanışlıq üçün bu sahədə böyük zəhmət bahasına qələmə aldığı kitabların adlarını qeyd etmək kifayətdir: «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı-1999), «Heydərbabaya salam» necə varsa» (Bakı-2004), «Şəhriyarın poetikası» (Bakı-2006, həmmüəlliflə) və s. «Heydərbabaya salam» poeması ötən əsrdə bir neçə dəfə Bakıda nəşr olunub. Elman müəllimin ən böyük əməyi ondadır ki, o, əsl alim məsuliyyəti ilə əsərə yanaşıb, Şəhriyarın şəxsən özünün iştirak və nəzarəti ilə 1954-cü ildə İranda çap olunan variantını əsas götürüb, ölkəmizdə nəşrlər zamanı buraxılan səhvləri aradan qaldıraraq, «Heydərbabaya salam» necə varsa» kitabını ərsəyə gətirib. Məlumdur ki, Cənubi Azərbaycanda yazılı ədəbi dil formalaşmadığına görə yaradıcılıqla məşğul olanlar daha çox orfoepik normalara üstünlük verib. Bu cəhət ustad Şəhriyar yaradıcılığında da özünü göstərir. Tədqiqatçı, müəllif qələmindən çıxan sətirləri olduğu kimi xalqa çatdırmağı vacib hesab edir. M.Şəhriyarın anadilli şeirlərinin böyük əksəriyyətinin ilk dəfə ölkəmizdə çap edilməsi işi də Şəhriyarşünas alim kimi Elman müəllimin üzərinə düşüb.

Ölkəmiz milli müstəqillik əldə etdikdən sonra təhsil sahəsində bir sıra uğurlu islahatlar aparılıb. İslahatların nəticəsi ali məktəblərin ayrı-ayrı fakültələrində bir sıra yeni fənlərin keçirilməsinin vacibliyini ortaya çıxardı. Belə fənlərdən biri də filologiya fakültələrində «Türk xalqları ədəbiyyatı» fənninin tədrisi oldu. Sevindirici haldır ki, bu sahədə ilk proqramların tərtibi və dərsliklər müəllifi professor Elman Quliyevdir. «Türk xalqları ədəbiyyatı» (Bakı-1998), «Ümumtürk ədəbiyyatı» (Bakı-2005) və digər tədris prqoramlarının tərtibi ona məxsusdur.

İslam aləminin dahi şəxsiyyəti imam Həzrəti Əli (ə) buyurub: «Hər bir qabı doldurmaq olar, elm qabından başqa». Bu mənada Elman müəllim böyük səbr və təmkinlə elmi axtarışdadır. Onun elmi yaradıcılığının əhatə dairəsi olduqca geniş və çoxcəhətlidir. Bir-birinin ardınca qələmə aldığı əsərlərinə diqqət yetirdikdə alimin elmi qüdrətinə, əməksevərliyinə valeh olursan. Elmi işlə məşğul olanlar dərslik, xüsusilə orijinal dərslik yazmağın məsuliyyətini çox yaxşı dərk edirlər. Çünki proqramda yer alan bütün təlim materialı dərslikdə hərtərəfli və yığcam şəkildə əhatə olunmalıdır. Ancaq o, alim cəfakeşliyi ilə gecəsini gündüzünə qatıb, yüzlərlə kitab oxuyub, fikir süzgəcindən keçirərək bu çətinliyin öhdəsindən ləyaqətlə gəlib. «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı-1999), «Türkiyə türk ədəbiyyatı» (Bakı-2008), «Türk xalqları ədəbiyyatı» (Bakı-2009), «Şərq

xalqları ədəbiyyatı» (Bakı-2011) dərsliklərini müəllim və tələbələrin istifadəsinə verib.

İslamın əziz peyğəmbəri Məhəmməd (s) buyurub: «Alimləri eşidin, çünki onlar dünyanın çırağı, axirətin nurudurlar.» Allahın rəsulu alimləri dünyanın çırağı hesab edir, çünki cəmiyyət onların fikir, düşüncə, kəşfləri sayəsində tərəqqi edir, maddi və mənəvi cəhətdən aydınlığa çıxır. İnsan mənəviyyatının kamilləşməsi yolunda fədakarlıq göstərən əxlaqşünaslar, söz ustaları olan mütəfəkkirlər, müəllimlər tarix boyu əməli fəaliyyətləri ilə bütövlükdə insanların düzgün ruhda, Allahın buyurduğu şəkildə tərbiyəsinə töhfə verməyə çalışmışlar.

Professor Elman Quliyev sevimli Peyğəmbərimizin dünyanın çırağı hesab etdiyi alimlərdəndir ki, bu gün Azərbaycan Dövlət Pedaqoji Universitetində gələcəyin ədəbiyyat müəllimləri olan yüzlərlə tələbə onun mühazirələrini dinləyir, böyük alimdən ədəb, əxlaq, mərifət dərsini alır, olduqca dəyərli kitablardan bəhrələnirlər. Qadir Allahdan həmyerlimiz, dostumuz, bizə əziz olan insan Elman müəllimə can sağlığı, və elmi fəaliyyətində yeni-yeni uğurlar diləyirik.



*Eldar İskəndərzadə*
*şair-dramaturq, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü, ATV International kanalının «Televiziya Filmləri Studiyasının» baş redaktoru*

## BİZİM PROFESSOR

Tarixlər boyu Lerik rayonu ölkəmizə fəaliyyti ilə seçilən, tarixlərin yaddaşında öz dəst-xətti olan böyük şəxsiyyətlər, dəyərli ziyalılar, tanınmış alimlər bəxş edib. Şərəfli dünənimizdən başlanan yol bu gün də ləyaqətlə davam etdirilir, nüfuzlu insanlarımızın simasında tariximizə yeni–yeni şəxsiyyətlərin adları həkk olunur. Təkcə ədəbiyyat sahəsində əslən Lerikdən olan neçə-neçə nurlu insanı, dəyərli alimi qeyd etmək olar ki, onlar Azərbaycan elmi üçün əvəzsiz şəxsiyyət və əsl fədai olublar. Mirzə Rüstəmovun, Azadə Rüstəmzadənin, Xeyrulla Məmmədovun adları hələ uzun zamanlar Azərbaycan ədəbi elmində ehtiramla çəkiləcək. Bu böyük alimlərlə çiyin-çiyinə çalışan, elm qarşısında xidmətləri ilə sələflərindən heç də geri qalmayan, böyük ziyalı, elmlər doktoru, professor Elman Quliyevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Azərbaycan ədəbiyyatşünaslığında Şəhriyar yaradıcılığının tədqiqindən tutmuş klassik Şərq ədəbiyyatının, xüsusilə, Türk ədəbiyyatının araşdırılması üçün böyük zəhmət çəkən ikinci bir tədqiqatçı alim göstərmək çətindir. Onun elmi fəaliyyəti haqqında yəqin ki, onun həmkarları daha geniş, daha sanballı fikirlər yazacaqlar. Mən isə bir şair olaraq bu böyük şəxsiyyət, zəhmətkeş alim haqqında hisslərimi bölüşmək istərdim. Ən əvvəl qeyd edim ki, Elman müəllimi olduqca ləyaqətli, səmimi və əsl ziyalı kimi tanıyıram. Bir eloğlu kimi ona hörmətim və ehtiramım böyükdür. Ona görə yox ki, o, məhz əslən Lerikdəndir. Elman müəllim kimi alimlər çoxdan Lerik miqyasından çıxıb ölkə miqyaslı, Türk dünyasında tanınmış alimlərin sırasında yer alıblar. Belə elm xadimləri fikrimcə, bəşəridirlər. Onlar təkcə bir

elə, bir obaya, bir ölkəyə, bir regiona məxsus ola bilməz... Bu gün azərbaycanlı olan hər kəs öz doğma ana dilində Şərqin nəhəng simalarının əsərlərini oxuya bilirsə, türk ədəbiyyatının ən qədim zamanlardan tutmuş bu günümüzə qədərki yaradıcılarını mütaliə edə bilirsə, bir sözlə, bəşəriyyətin ən nurlu şəxsiyyətləri ilə «təmas» yarada bilirsə buna görə görkəmli alim, professor Elman Quliyevə minnətdar olmalıdır. Mənim şəxsi kitabxanamın ən yüksək mərtəbəsində «Seyid Məhəmmədhüseyn Şəhriyar», «Müasir özbək ədəbiyyatı tarixi», «Heydərbabaya salam «necə varsa», «Türk xalqları ədəbiyyatı», 2 cilddə olan «Şərq xalqları ədəbiyyatı», «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı « kitabları qərar tutub. Onlar kitabxanamın hündür mərtəbəsinə təsadüfən yox, elə ucalığa layiq olduqlarına görə yerləşdirilib. Onların müəllifi isə ürəyimin ən dərin güşəsində məskən salıb. Mənə elə gəlir ki, Elman müəllimin Azərbaycan ədəbiyyatşünaslığındakı fəaliyyəti Həmid Araslı, Mir Cəlal Paşayev, Məmməd Arif, Abbas Zamanov, Xeyrulla Məmmədov, Bəkir Nəbiyev və başqa alimlərimizin əməyi ilə müqayisə edilməlidir.

Professor Elman Quliyev həm də qayğıkeş ailə başçısı, cəmiyyətin sadə üzvlərindən biridir. Cavankən ağsaqqallıq zirvəsinə ucalmaq səadəti də ona nəsib olub. Bu ali xüsusiyyət bir tərəfdən onun böyük soy-kökündən, nəsil şəcərəsindən irəli gəlirsə, digər tərəfdən onun əsl ziyalıya xas alicənablığından doğur. Hələ elə bir xeyir və ya şər məclisi olmayıb ki, mən orada Elman müəllimi görməyim. Bu onun elin sevincində sevinməyi, bəd günündə kədərlənməyi bacarmağından irəli gəlir. El arasında hamı ona «Bizim Professor» deyə müraciət edirlər. Bu da ona olan el məhəbbətindən, el sevgisindən qaynaqlanır. Bu məhəbbəti, bu ehtiramı qazanmaq isə hamıya qismət olan səadət deyil. Böyük bir elin hörmət bəslədiyi şəxsiyyət adını qazanmaq, elmdə zirvələrə ucalmaq tarixin yaddaşında qalmaq deməkdir. Əbədiliyin mübarək, əziz Elman müəllim! Əlamətdar yubileyiniz münasibəti ilə Sizi səmimi qəlbdən təbrik etmək səadətini mənə bəxş etdiyinə görə Böyük Allaha şükür edirəm.



*Ağacəfər Həsənli*
*şair*

# ALİM ÖMRÜ, MÜƏLLİM ÖMRÜ

Alim ömrü bambaşqadır, müəllim ömrü başqa. Yalnız həyatda ən uğurlu, ağıllı insanlar bu iki ömrü birləşdirir, vəhdət şəklində yaşaya bilir. Daha doğrusu, bir alim ömrünü yaşamaq naminə gərək bir insan ömrünü girov qoyasan. Alim – həm hərfi mənada, həm də elə böyük anlamda müəllimdir, eyni zamanda öyrətmək eşqiylə daim ürəyini çılçırağa döndərən əsl pedaqoq-müəllim də alimdir. Onlar arasında məsafə fərqi azdır.

Yaxşı filoloq-alim, tədqiqatçı-araşdırıcı kimi çoxdan tanıdığım eloğlum, həmyerlim Elman Quliyev elmə müəllimlikdən gəlib. Özü də orta məktəbdən, lap həyatın dibindən. Yaxşı yadımdadır, mərhum Xeyrulla Məmmədov həmişə Elmanı tərifləyir, onun zəhmətsevərliyini, savadını, potensialını yüksək dəyərləndirir, mütləq yaxşı alim kimi yetişəcəyini çəkinmədən deyir, nümunə göstərirdi. Budur, o, çoxsaylı əsərləri ilə həm çalışdığı pedaqoji universitetdə ustadı Xeyrulla müəllimin yarımçıq əməllərinin mənəvi davamçısına çevrildi, həm təcrübəli pedaqoq kimi gənc kadrların hazırlanmasında sözünü dedi, həm də sanballı tədqiqatlarını ümumiləşdirib vacib dərs vəsaitləri yazıb nəşr etdirdi.

Mən «çoxdan tanıdığım» ifadəsini sözgəlişi işlətmədim. Elman üzdə olan, bütün cənub bölgəsində tanınan adlı-sanlı bir nəslin ləyaqətli nümayəndəsi və davamçısıdır. Bir zaman atası Hilal Quliyev Lerikdə müxtəlif vəzifələrdə çalışıb, camaatın hörmətini qazanıb. Vaxtilə atam Hüseyn Həsənov da kolxoz sədri olub, o, həmişə sərhədyanı kəndlərə baş çəkərkən Kələxana gedir, Elmanın doğma əmisi, bütün bölgənin «Ağa dayı» çağırdığı Ağa Quliyevlə maraqlanırdı. Ağa dayı Zuvand kəndlərinin köçürülməsi, el-obanın represiyaya məruz qalması ilə əlaqədar müharibədən sonrakı o çətin vaxtlarda cəsarətlə Stalin – Bağırov rejiminə qarşı çıxmış, sa-

kinləri etiraza çağırmış, mübarizəni dayandırmamış, doğma kəndindən bir addım kənara atmamış, türmələrdə məhkum həyatı yaşamışdır. O, dəfələrlə tutulmuş və ağlı-dərrakəsi, məntiqi sayəsində günahsızlığını sübuta yetirmiş, azadlığa buraxılmışdır. Bax, Elman belə müdrik şəxsiyyətlərin himayəsində böyümüş, ərsəyə yetmişdir. Şübhəsiz, nəcib ailə ənənəsinin insanın inkişafında rolu danılmazdır.

Ötən yüzilliyin 70-ci illərinin ortalarında Elman Hilal oğlunun böyük qardaşı Araz müəllimlə Lerikdə çıxan «Bolluq uğrunda» qəzetində çalışmışam. Həddən ziyadə istiqanlı, adamlara qaynayıb-qarışan, emosional, təmiz ürəkli Araz yerə-göyə sığmır, böyük arzularla yaşayırdı. O, səxavətli və mehriban idi, ailənin kiçik üzvü Elmanın ədəbiyyatı sevdiyini həvəslə danışırdı. Araz çox qohumpərəst, qohumcanlı idi, aylar-illər ötəndən sonra balaca qardaşı Elmanın hər uğuruna sevinir, rast gələn kimi təzə məlumatlar verirdi. Qardaşı idealıydı və ona böyük ümidlər bəsləyirdi. Təəssüf ki, Araz az yaşadı və Elman müəllimin alimliyini görsə də, indiki möhtəşəm sanbalını, həqiqətən öz sahəsində parladığını, bütün türk və şərq dünyasına səs saldığını görmədi....

Alim var, zor-xoş bu müqəddəs ada çatmaq üçün xahiş-minnətə düşmüş, qapılar dalında ömür çürütmüş, kitabları ilə deyil, kimlərinsə himayədarlığı və kölgəsi sayəsində cərgəyə qoşulmuşdur. Alim də var, arxası – biliyi, savadıdır, heç kəsə ağız açdırıb tapşırılmayıb, şəxsiyyətinə sıxışdırmayıb ki, hansı məmurasa boyun əysin, vüqarı sınsın. Elman müəllim ikinci tip alimlərdəndi və daim öyrənib, günlərini kitabxanalarda keçirib. Ölkənin görkəmli, nüfuzlu elm xadimləri ilə daim ünsiyyət saxlayıb, zərrə-zərrə, qətrə-qətrə mənimsədiklərindən faydalanıb. Qardaş Türkiyə Cümhuriyyətində , İran İslam Respublikasında simpoziumlarda, seminar və yığıncaqlarda iştirak edib, məruzələrlə həmişə diqqət mərkəzində olub, Azərbaycana fəxri diplomlarla, dəyərli mükafatlarla qayıdıb. Və qətiyyən «yoruldum» deməyib, elmin böyük okean olduğunu dərindən dərk edib, ardıcıllar, davamçılar yetişdirib.

Güney Azərbaycanında doğulan nəhəng şairimiz Məhəmmədhüseyn Şəhriyar təkcə müasir farsdilli ədəbiyyatın deyil, həm də çağdaş Azərbaycan şeirinin fəxridir. O, İranda nə qədər sevilirsə, ölkəmizdə də, türk dünyasında da bir o qədər sevilir, təqdir olunur. Elman müəllim Şəhriyarın ədəbi irsini dönə-dönə oxumuş, tədqiqat işlərindən qətiyyən soyumamış, mütəfəkkir şairin yaradıcılığından bəhs edən xeyli sayda məqalə yazıb ortaya qoymuşdur. Şəhriyar irsi alimin doktorluq dissertasiyası olmuşdur. Elman Quliyevin şairə həsr olunan kitabları bu gün onun yaradıcılığını öyrənənlər üçün ayrıca bir mənbədir, töhfədir. Eyni zamanda həmin dərslikləri gənc ədəbiyyatçılar, filoloqlar öyrənir. Alim söhbətlərində deyir ki, Şəhriyar şeiri tükənməz xəzinədir, ədəbiyyatımızın saf, büllur bu-

laq suyudur, ana dilimizin şipşirin həzin laylasıdır. Və o, Şəhriyardan soyumaq bilmir, müxtəlif aspektlərdə şairin yaradıcılığından uğurlu tədqiqatlarını davam etdirir.

Bəzən görürsən, ən yaxşı alim müəllim adını doğrulda bilmir, tələbə auditoriyasına girərkən özünü itirir, hətta əzbər bildiklərini gənc nəslə çatdırmaqda çətinlik çəkir. Elman Quliyev sərıştəli, tam hazırlıqlı müəllimdir, mühazirə-seminar salonlarında pörtüb qızarmır, əksinə daha sərbəst surətdə tələbələrlə ünsiyyət qurur, onların sevgisini qazanır. «Mən Elman müəllimin tələbəsi olmuşam». Bir dəfə bədii yaradıcılıqla məşğul olan cavan bir qız uşağının fəxrlə söylədiyi bu sözlərdən mən də qürur duydum. «Pedinstitut» – indiki universitet Azərbaycana saysız-hesabsız müəllim kadrı bəxş edib və indi cəsarətlə demək olar ki, həmin «ordunun» inkişafında, püxtələşməsində həmyerlimizin də rolu var.

Elman Quliyev yaxınlarda mənə qalın cildli bir kitab göstərdi: dərslik nümunəsi idi. Səhv eləmirəmsə, «Şərq xalqları ədəbiyyatı» adlanırdı. Kitabda farsdilli, türkdilli və ərəbdilli xalqların ədəbi nümunələri sistemləşdirilmiş, klassik irs öndə ardıcıllıqla verilmiş, müasir ədəbiyyatın seçmə əsərləri yığcam şəkildə daxil edilmişdir. Bəs bu kitabın əhəmiyyəti nədədir? Əvvəla, alimin seçib dərsliyinə saldığı əsərlər indiyəcən pərakəndə halındaydı və yazarlarımız tərəfindən dilimizə çevrilərək mətbuat səhifələrində dərc olunmuşdu. Elman müəllim onları gərgin zəhməti sayəsində arıtlayıb, ələkdən keçirmiş, ən yaxşılarını toplamış, çoxsaylı oxucusuna maraqlı, dəyərli kitab yadigar qoymuşdur. İndi gələcəyin müəllimi gedib kitab dükanlarını axtarmaz və ya kitabxanalarda saatlarla vaxtını əritməz, «Şərq xalqları ədəbiyyatı»nı əldə eləsə, «bir dam altda cəmləşən» mənəvi xəzinə ilə qısa müddətdə tanışlıq imkanı tapar.

İkincisi, bu xidmət təbliğat xarakteri daşıyır. Axı, xalqları bir-birinə yaxından tanıtmaq üçün ədəbiyyatdan, mədəni irsdən ali inteqrasiya yoxdur. Düzdür, bu bağlılıq SSRİ hakimiyyəti dövründə məhdud dairədəydi. Çünki sovet ittifaqı realist ədəbiyyatın tərəfdarıydı, ideyaca üst-üstə düşməyən bədii nümunələrin çapına «xalqlar həbsxanası»nda icazə verilmirdi. «Qlavlit» deyilən xüsusi təşkilat ölkədə çap olunacaq kitabları qovluqlarda bitdə-bitdə oxuyur, məzmunu ilə tanışlıq imkanı əldə edir, ya kəsibdoğrayır, «təmizləyir», ya da ümumiyyətlə zərərli əsər adlandırırb qadağa qoyurdu. Heç Nobel mükafatı laureatları yaxına buraxılmırdı. Ona görə bu ziyanlı tendensiya və bəsit münasibət nəticəsində milyonlarla oxucu xarici ölkələrin bədii məhsullarından süni surətdə kənarda qalmışdı. Kitab dərs vəsaiti olmaqdan savayı, o boşluğu doldurmaq baxımından misilsiz əhəmiyyət daşıyır.

Məlumdur ki, türk-islam mədəniyyəti zaman-zaman təcrid olunmuş, bu mədəniyyətin dahi yaradıcılarının əsərləri it-bata düşmüş, əlyazma

şəklində Avropanın muzeylərinə daşınmışdır. Professor Elman Quliyev çalışdığı ADPU-da şəxsi təşəbbüsü ilə hələ 2007-ci ildə «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzini yaradıb. Türkiyənin Azərbaycan Respubikasındakı o vaxtkı Fövqəladə və Səlahiyyətli səfiri Hulusi Kılıçla əlaqə quran görkəmli araşdırıcı xeyli əlavə vəsaitlər, maraqlı kitablar, qardaş ölkənin keşməkeşli şanlı tarixinə dair sənədlərin foto surətlərini, nadir şəkillər əldə edib mərkəzi zənginləşdirmişdir. Elman Quliyev türkoloq-alimdir. O, bunu son illərdəki fəaliyyəti ilə təsdiq etmişdir. Kitablarının adlarına diqqət yetirək: «Türk xalqları ədəbiyyatı», «Ümumtürk ədəbiyyatı», «Müasir özbək ədəbiyyatı tarixi», «Türkiyə türk ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», «Özbək ədəbiyyatı» və s. Bu kimi dərslik, dərs vəsaiti və proqram xarakterli nümunələr həm bakalavr təhsili alanlar üçün, həm də magistrlər üçün nəzərdə tutulmuşdur. Alimin türk xalqlarının ədəbiyyatını səciyyələndirməsinin bir gözəl missiyası da bundan ibarətdir ki, indi azərbaycanlı gənc ədəbiyyatçı ümumtürk yazılı abidələrini kompleks şəklində öyrəndikdən sonra ədəbi nəhənglərin – C.Ruminin, Y.Əmrənin, N.Kamalın, Z.Göyalpın, Ə.Nəvainin, M.Fəraqinin, İ.Qaspiralının, Ç.Aytmatovun, O.Süleymanovun və başqalarının həyat və yaradıcılıqlarını öyrənir.

Elmi və pedaqoji fəaliyyətindəki uğurları ilə yanaşı Elman müəllim işıqlı insan, xeyirxah və təəssübkeş dostdur. Bəzən adamlar azacıq yuxarı qalxan kimi ətrafını görmür, tanışlarını belə saya almaq istəmir, təkəbbür və lovğalıqdan yaxa qurtarmaqda çətinlik çəkirlər. Elman olduqca sadə və təvazökardır. Həmyerlilərinin və dostlarının bütün xeyir-şər tədbirlərinə özünü çatdırır. Bir yaxşı cəhəti də ondan ibarətdir ki, doğulduğu Kələxan kəndini, qohum-əqrabasını, dağların qucağına sığınıb yaşayan mərd insanları unutmur. Əgər bir ayağı Bakıdadırsa, bir ayağı mütləq Lerikdə – kənddə-kəsəkdədir. İndi o, Zuvand mahalının ən tanınmış övladlarının cərgəsindədir və müəyyən daxili problemlərin həllində gənc ağsaqqal missiyasını ortaya qoyur, sözü keçir.

Ötən il Kələxan tərəfə yolum düşmüşdü. Alim dostumun kənddəki sadə dədə-baba ocağını qardaşı Qəhrəman müəllimlə ziyarət elədim. Kələxanda rayon İH-nin yerli nümayəndəsi vəzifəsində çalışan Qəhrəman Quliyev istiqanlı və zəhmətkeş təsiri bağışladı. Elə bil Elmanla bir almadı, yarı bölünüblər, zahirən də, daxilən də bir-birinə çox oxşayırlar. Ürəyimdə fikirləşdim ki, nə yaxşı Qəhrəman kimi oğullarımız var və onlar ata-baba ocağının işığını sönməyə qoymur, el-obaya qahmar çıxır, arxa dururlar.

Həmin ocaqları kor qoymağa haqqımız çatmır, Elman müəllim! Çünki oralar bizim son güman yerimizdir.



*Akif Dənzizadə*
*«Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri» jurnalınnı mətbuat və informasiya şöbəsinin müdiri*

## MƏN ONU XEYRULLA MƏMMƏDOV QƏDƏR SEVİRƏM

***Allah bizi göydən yerə endirir,***
***Alimlərimiz isə elmi ilə bizi göyə qaldırır!***

Mərhəmət sahibləri Vətən, torpaq, qohum, qardaş, dost, doğma, bir sözlə qanı bir olan insanları müqəddəsliklə qəbul edirlər. Elə buna görə də bəşəri amilləri cəmiyyətin bütün üzvlərinə eyni dərəcədə şamil edənlər ən müqəddəs amallarla ömür yaşayanlardır. Bunlar da müqəddəs məmləkətimizdə tarixən olmuşlar və olmaqdadırlar. Şəksiz ki, xalqın səadəti uğrunda çarpışan qəhrəmanlar ölməzdir. İllər ötdükcə, onların xatirəsi milyonların qəlbində dərin kök salır, əbədiləşir, xalqın mübarizəsində və əməllərində yaşayır.

Hər bir şəxsiyyətin formalaşmasında ocağın, kökün rolu vardır. Millət, xalq o zaman böyük, yenilməz olur ki, özünə, kökünə, milli, mənəvi, əxlaqi dəyərlərinə xidmət etməyi bacarır. Bu sırada vətəni, eli, obası üçün çalışmış və təmənnasız xidmət etməyi bacaranlar daim sayğı və sevgilə seviliblər.

Nümunə göstərmək istədiyim insanın doğulduğu Lerik rayonunun ərazisi anfiteatrı xatırladır. O, arxa tərəfdən qövsvari hündür təpələr və sivri uclu dağlarla əhatə olunmuşdur. Rayon mərkəzi olmazdan əvvəl bu məntəqə dağ silsiləsini ikiyə bölən yaşıl bir vadinin qoynunda yerləşən sadə bir kəndciyəzdən ibarət olub. İnzibati status aldıqdan sonra o, hüdudlarını genişləndirmiş, silsilə təşkil edən dağların sinəsində hər ev laçın yuvasını xatırladan şəhərə çevrilmişdir.

İnsanlar kimi kəndlərin, şəhərlərin, yurdun, məmləkətlərin də tale yazısı olur, deyib aqillər. Bəxtinə, qismətinə, tarixi yaddaşına, məşəqqətli anlarla yanaşı, xoşbəxt anlarla dolu tale yazılmış yerlərdən biridir Lerik. Yetirmələri ilə təkcə Azərbaycanda deyil, dünyada tanınan bu rayon başqalarından fərqləndirən, ona şöhrət gətirən də bu amildir. Yazını uca zirvələr fəth etmiş böyük alimimiz, əmi qədər mənə doğma olan Xeyrulla Məmmədovun fikirlərinə rəğmən başlamağım təsadüfi deyil. Məhz onun bilavasitə ərkiyanə əmri ilə, elmi əsərlərini nəşr etdiyim gözəl ziyalımız Elman Quliyevi tanıdım. Tanı-

dığıma görə də çox sevindim. Onunla daha çox təmasda olduqca, hər dəfə onu yenidən kəşf edirdim.

Onun elm uğrunda sanki canını fəda etməsinin şahidi oldum. İstirahət bilməyən bu adam daim axtarışdadır.

Həyat fəaliyyətini daim elmi araşdırmalara sərf edən Elman müəllim vaxtın azlığından çox şikayətlidir. Bu şikayət qalın cildli kitabların əmələ gəlməsinə səbəb olub. O cildlər ki, indiyə qədər araşdırılmamış mövzularla, işlənməmiş ədəbi proseslərin təhlili ilə zəngindir. Elmi nailiyyətləri göz önündədir. Şəhriyar yaradcılığının təhlili və Şərq xalqlarının ədəbiyyatının təhlil edərək ortaya qoyduğu əsərlər indiyə qədər deyilməyən sözlər, səslənməyən fikirlərin nümunəsidir. Təsadüfi deyil ki, Azərbaycanın tanınmış alimləri öz aralarında «böyük institutun görə biləcəyi işi məhz Elman Quliyev görüb» deyirlər. Ən əsası ali məktəblərin çoxunda onun nəşr etdiyi kitablardan dərslik kimi istifadə edilməsi bir lerikli kimi onunla qurur duymağa məni sövq edir.

Elman müəllimin şəxsiyyəti və onun xarici görünüşü onu ilk dəfə görən hər kəsin ona məsuliyyətlə yanaşmasını, sanki diktə edir.

Dostluqda sadiq olan Elman müəllim qarşı tərəfin ziyanına baş verə biləcək bütün əməyini dostunun bir qaşına qurban verməyi bacaran bir insandır. Elmi fəaliyyətdən başqa şəxsiyyət olaraq onunla qurur duymağım da səbəbsiz deyil.

Mənim üçün onda diqqəti çəkən bir xüsusiyyət də odur ki, o hörmətli ziyalımız Xeyrulla Məmmədovun hörmət və ehtiramının daim yüksək tutmasıdır. Sağlığında və ölümündən sonra Xeyrulla müəllimə qarşı gizlin və aşkar, qısqanclıqla aparılmış kompaniyalara necə sərt cavab verməsinin dəfələrlə şahidi olmuşam. Çoxsaylı tələbələri kimi o da Xeyrulla Məmmədovun adıyla daim qurur duyur. Hətta övladının toyunda bir neçə dəqiqə kövrək baxışlarla ətrafa boylandığının səbəbini mənim kimi bir neçə nəfər də başa düşdü. Sanki xeyir-dua vermək üçün gözləri Xeyrulla müəllimi axtarırdı. Nəticədə rühən Xeyrulla Məmmədovu axtaran Elman müəllim təskinliyi müəllim və ustadının bacısı oğlu, körkəmli aktyor Ramiz Novruzovdan ilk təbrikləri eşitməklə böyük təskinlik tapdı...

Mənəvi, əxlaqi, insani və məslək mönasibətlərində sağlam, aydın və şəffaf olan bir insandır Elman Quliyev. Lev Tolstoyun təbirincə düşünsək, insanın dəyəri onu ifadə edən kəsrlə ölçülür. Yəni Kəsrin surəti başqalarının sənin haqqıda fikirləri, məxrəci isə sənin özün haqqında fikirlərindir. Kəsrin qiyməti nə qədər böyük olsa insanın qiyməti, dəyəri də bir o qədər böyükdür. Başqalarının Elman müəllim haqqında dediklərini bu kitabda oxuyuruq. Onun özü isə özü haqqında həddindən artıq kiçik fikirdədir. Deməli Elman müəllim vətənimiz, elmimiz və bizim üçün çox qiymətli şəxsiyyətdir.

Yaşın mübarək Elman müəllim.

Dabanını torpağa möhkəm bas. Qoy izlərin bütün dünyada qalsın.



*Təranə Əzimova*
*Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru*

## SƏMİMİ DOST

Bəlkə də, bu yazım adi sözlərlə, məqalə xatirinə yazılan bir məqalə olardı. Elman müəllim haqqında mənə yazı yazmaq həm çətin, həm də asandır. Asandır ona görə ki, o, özü o qədər insanpərvər, sadə, qayğıkeş insandır ki, bu sözləri onun haqqında yazmaq mənim üçün bir şərəfdir.

Alim olmaq olar, insan olmaq hər adama nəsib olmur. Elə alimlər var ki, bildikləri elmi insanlara öyrətməkdə, kömək etməkdə paxıllıq edirlər. Elman müəllim isə əksinə elə hey çalışar ki, kimə isə, haradasa köməklik etsin, yıxılanı qaldırsın. Mənə elə gəlir ki, bu onun soy kökündən, nəslindən irəli gəlir.

Tanınmış alim prof. E.Quliyev bizim ədəbi-mədəni və pedoqoji fikir tariximizdə özünəməxsus yeri, siması və xidmətləri olan bir şəxsiyyətdir. Bildiyiniz kimi hər şey şəxsiyyətdən başlayır: sənətkarlıq da, alimlik də və bir də dünyaya dahilər bəxş edən unudulmaz müəllimlər də. Yaradıcılıqla məşğul olan hər kəsin tərcümeyi-halı, dünyagörüşü, nəzəri səviyyəsi, intellektuallıq dərəcəsi, hətta fərdi xarakterinin əsas aparıcı əlamətləri onun əsərlərində, elmi-nəzəri tədqiqatlarında mütləq özünü büruzə vermiş olur. Çünki özgələrə başqa cür görünmək müəyyən dərəcədə mümkün olsa da, insan özü-özündən qaça bilmir, ürəyinin, beyninin hərarət və ziyasını sərf etdiyi əsərlərində istər-istəməz özünü həqiqi şəkildə təqdim etməli olur.

Heç yadımdan çıxmaz, müdafiə günü Elman müəllim işi ilə əlaqədər Türkiyədə ezamiyyətdə idi. Səhər tezdən müdafiə gedərkən mobil telefo-

numa bir zəng gəldi. «Təranə xanım, heç darıxma, hər şey yaxşı olacaq.» O mənə elə ürək-dirək verdi ki, doğurdan da, ürəyim bir az sakitləşdi.

Mən neçə illərdir ki, Türk xalqları ədəbiyyatından magistratura şöbəsində dərs deyirəm. Əvvəl-əvvəl bu dərsi deməkdə çox çətinlik çəkirdim. Sonralar Elman müəllimin köməyi ilə, onun məsləhətlərinə əməl edə-edə bunun öhdəsindən gələ bildim.

Prof. E.Quliyev sözün tam mənasında müasir ruhlu və geniş sosial diapozonlu bir alim filoloq, eyni zamanda böyük şəxsiyyətdir. Elman müəllim bir alim kimi, ziyalı kimi, ictimaiyyətçi, ata, rəhbər, türkçü kimi özündə kamil şəxsiyyətə aid olan bütün keyfiyyətləri birləşdirir.

Elman müəllim, tanrıdan Sizə can sağlığı arzulayıram.




*Eşqanə Babayeva*
*filologiya üzrə fəlsəfə doktoru*


## NƏCİB İNSAN, DƏYƏRLİ ALİM...

Filologiya elmlər doktoru, professor Elman Quliyev təkcə Azərbaycanda deyil, ölkəmizin kənarlarında da öz dəsti-xətti ilə tanınan dəyərli alimlərimizdən biridir. O, ədəbiyyat tariximizdə özünəməxsus bir mövqeyə sahibdir.

Elman müəllimin yaradıcılığı ilə tanışlığım doktoranturada təhsil aldığım illərə təsadüf edir. Dissertasiya mövzumla əlaqədar olaraq bir çox elmi mənbələrə müraciət edir, türk ədəbiyyatı ilə bağlı hər hansı bir material görəndə, xüsusi ilə də öz alimlərimizin bu haqda yazdığı məqalələrə rast gələndə sevincim aşıb-daşırdı. Belə mənbələrdən biri də, Elman müəllimin əsərləri idi. Tədqiqatçının «Türkiyə türk ədəbiyyatı» adlı kitabı, demək olar ki, bu sahədə yazılmış ilk qaynaqlardan biri idi. Daha sonra onun Şəhriyar yaradıcılığına həsr olunmuş fundamental elmi monoqrafiyası və doktorluq dissertasiyası ilə tanış oldum. Şəhriyyar poeziyasının bütün ruhunu özündə əks etdirən bu əsəri heyranlıqla oxudum.

Bu vaxta qədər Elman müəllimi monoqrafiyaların, dərsliklərin, müxtəlif səpkili elmi məqalələrin müəllifi, istedadlı tədqiqatçı, dəyərli bir alim kimi qiyabi olaraq tanıyırdım.

2008-ci ildə Türkiyənin Burdur şəhərində keçirilən Beynəlxalq Mehmed Akif Ərsoy konfransında isə bu gözəl insanla şəxsən tanış olmaq mənə nəsib oldu. Sevimli müəlliməm Maarifə xanım Hacıyeva, Səriyyə xanım Gündoğdu və Elman müəllimlə yol yoldaşı oldum. Bu insanlarla səyahət, özəlliklə də Elman müəllim kimi maraqlı bir alimlə tanışlıq, onların duzlu-məzəli söhbətləri qəlbimdə çox gözəl xatirələr buraxdı.

Sırf tədqiqat sorağında olduğum üçün konfrans boyunca mövzumla

əlaqədar araşdırma aparır, ən mühümü isə dünyanın müxtəlif ölkələrindən gəlmiş alimlərin dəyərli söhbətlərini dinləmək istəyirdim. Buna görə də, qısa fasilələrdə o dəqiqə Nəcib Fazil yaradıcılığı haqqında söhbət açır, diqqəti Mehmed Akif Ərsoydan daha çox Nəcib Fazil Qısakürəyə yönəldirdim. Qısakürək çox maraqlı və ziddiyyətli şəxsiyyət olduğu üçün onun haqqında paradoksal görüşlər irəli sürülür, bəzi gizli məqamlara toxunulur, hətta mübahisə edirdilər. Elman müəllim də, mənə bir mütəxəssis kimi bu mövzuyla, türk ədəbiyyatı ilə bağlı öz dəyərli tövsiyələrini verirdi. Bu söhbətlərdə onun həddindən artıq təvazökar və sadə bir insan olduğunun bir daha şahidi oldum.

Maraqlı fikir və mülahizələri, dərin məntiqi, gözəl, səlis məruzəsi ilə tədqiqatçı Türkiyəli alimlərin də diqqətini çəkirdi. Elman müəllimə böyük bir rəğbət var idi.

Bu yolçuluqda ciddi tədqiqatçı, dəyərli alim kimi tanıdığım Elman müəllimin insani keyfiyyətlərini, səmimi yoldaşlığını, insansevərliyini, insanlara qayğısını gördüm. Burada mən, onsuz da böyük bir alim kimi tanıdığım Elman müəllimi bir insan kimi yenidən kəşf etdim. Yüksək mənəvi dəyərlərə sahib olan ƏSL İNSAN.

Mənim qəlbimdə Burdur xatirələrinə bir xatirə də əlavə olundu: Dəyərli alim, nəcib insan Elman müəllim!



*Qədiməli Əhməd*
*Şair-publisist, AYB-nin üzvü*

# YARATMAQ VƏ YAŞATMAQ SEVGİSİ

Hər bir yaradıcılıqla məşğul olan insanın imzası özü haqqında danışmasa da, yazdıqları onun haqqında tam təsəvvür yaradır. Çünki əsl sənət adamının yaratdıqları onun iç dünyasının təcəssümüdür. Və yaratmaq sevgisi ilə yaşatmaq sevgisi insan taleyində həyat simfoniyasına çevrilir.

İnsan doğuluşundan sonra dünyaya böyük həvəs və arzularla addımlar atır. Sevgi və ağlın vəhdəti onun yolunda ümid məşəli yandırır.

Elmin və sənətin yolu da belədir. Sevgi və ağılla nizamlanıbsa, mənalı və uğurlu sabahı var.

Dünyaya ağlın və sənətin gözü ilə baxan xalq şairimiz Məmməd Araz yazırdı:

*Dünyada bir damla olmaq istəsən,*
*Dünyaya bir ümman həvəsilə gəl.*

Əzizim Elman müəllim, siz dünyaya ümman həvəsilə gəldiyiniz üçün qəlbiniz ümman kimi geniş və dərindir. Və həm də siz «dünyaya qəlbin gözüylə baxmağı, qəlbin gözüylə duymağı» bacaran yurddaşlarımızdansınız. Ona görə də, sizi həyata gətirən ana anaların ən xoşbəxti, ata ataların ən müdrikidir. O ana dünyanın ən təmiz, ismətli, müqəddəs qadını, o ata dünyanın uca atalarından idi. Elə ülvi varlıqların müqəddəs ruhları qarşısında baş əyməyə dəyər.

Haqqınızda çox eşitsəm də, görüşməmişdik. Lakin həmin gözəl gün qismətimizdə varmış.

2007-ci ilin avqust ayında Azərbaycan televiziyasının çəkiliş qrupu «Məclisi-üns» ədəbi-musiqili verilişini hazırlamaq üçün rayonumuza – Lerikə gəlmişdi. Lerikin bir qrup ağsaqqal ziyalılarının iştirak etdiyi həmin tədbirə siz də gəlmişdiniz. Şair dostum Eldar İskəndərzadə və LDU-nun dosenti Səfər Şirinov da iştirakçılar arasındaydı. Mən də həmin təd-

birə dəvətliydim. Sevindim. Çünki sizinlə çoxdankı görüş istəyim gerçəkləşmişdi.

Çəkiliş üçün münasib bir yer seçildi. Biz Lerikin qədim yaşayış məskənlərindən biri olan Cəngəmiran kəndində keçmiş Lənkəran qəzasının Zuvand nahiyyəsinin pristavı İbadulla bəy Nurullabəyovun vaxtilə yaşadığı evin həyətindəki əsrlər görmüş qoz ağacının altında məclis qurduq. Tədbir yüksək səviyyədə keçdi. Operator tədbiri lentin yaddaşına köçürdü.

Tədbirdə Lerikimizin tarixi, etnoqrafiyası, adət-ənənələri, tarixi şəxsiyyətləri, ədəbi mühiti haqqında etdiyiniz maraqlı söhbətlər, fikir və mülahizələr diqqətimi cəlb etdi. Bir daha əmin oldum ki, haqqınızda eşitdiklərim həqiqətdir. Sizə hörmət və rəğbətim artdı. Sevindim ki, səmimi, sadə və təmiz qəlbli bir insanla, görkəmli, dəyərli tədqiqatçı alimlə yaxından tanış olmuşam. Sonralar əlaqələrimiz daha da genişləndi.

2007-ci ilin dekabrında sizin redaktorluğunuz və ön sözünüzlə çap olunan «Tənha kölgə» kitabım geniş oxucu auditoriyasında yüksək səviyyədə qarşılandı. Kitabdakı ədəbi nümunələrə yazdığınız şərhlər, apardığınız təhlillər bir daha göstərdi ki, Azərbaycan ədəbiyyatında sağlam ədəbi tənqid gündən-günə inkişaf etməkdə, böyük elmi potensiallı alimlər yetişdirməkdədir.

Elmi fəaliyyətinizin vətəndaşlıq mövzularının tədqiqi və təbliği ilə bağlılığı göstərir ki, siz yaxşı vətəndaş və vətənpərvərsiniz. O səbəbdəndir ki, əsl vətəndaş kimi düşünür və yazırsınız. Və elmi yaradıcılığınızda Şəhriyar yanğısının, sevgi hisslərinin çalarları ən önəmli məsələlərdəndir. Təsadüfi deyil ki, doktorluq işiniz də böyük Şəhriyarın yaradıcılığı ilə bağlıdır.

Siz Lerikin gözəlliyi, ecazkarlığı ilə seçilən Zuvand torpağında təkcə el ağsaqqalları Ağa, Höccət, Hilal əmilərin nəsil yadigarları olan elin, ulusun fəxri deyilsiniz, Siz həm də Lerikin fəxr edəcəyi övladlarındansınız. Atanız Hilal əmi oxuyub təhsil almağınıza görə ata sevgisini əsirgəmədiyi üçün həmişə rəhmətlə yad edilir.

Əzizim Elman müəllim, Siz Azərbaycan pedaqoji və filoloji fikir tarixinə töhfələr bəxş edən alimlərimizin, xüsusən böyük alim, unudulmaz Xeyrulla Məmmədovun layiqli davamçısısınız. Mərhum alimimizin hələ ötən əsrin 80-ci illərində Sizə bəslədiyi ümidləri doğrultmusunuz.

Siz Azərbaycan Dövlət Pedaqoji Universitetində hörmət sahibisiniz. «Elmsiz bağlı qapıları açmaq, divarları aşmaq olmaz» prinsipini tələbələrinizə də təlqin edirsiniz.

İnanıram ki, hələ böyük uğurlarınız qabaqdadır. Yeni-yeni nailiyyətlərə imza atmağa qadirsiniz. Bir söz adamı kimi mən də bu çətin və şərəfli yolda Sizə uğurlar arzulayıram.



***Məlahət Babayeva***
*ADPU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müəllimi*

## BÖYÜK İNSAN

Hər bir cəmiyyətin yüksək meyarlar prizmasından formalaşmasında, şübhəsiz ki, dəyərli müəllimlərin rolu da əvəzsizdir. Müəllim gələcəyin böyük şəxsiyyətlərinə müxtəlif elmlərin açarını verməklə yanaşı, həm də onların həyat ümmanında azmamaları üçün mayak qismində də çıxış edir. Bir tələbə kimi mən də bu baxımdan çox şanslıyam. Çünki hələ universitetin ilk kurslarından öz sahəsində əsl mütəxəssis olan prof. Elman Quliyev kimi dəyərli müəllimin tələbəsi olmuşam. Lakin professor Elman Quliyevlə tanışlıq tələbəlik illərindən çox-çox erkən baş verib. Belə ki, ədəbiyyata olan həvəs mənə bu sahədə yazılmış elmi monoqrafiyalarla tanışlığa da zəmin yaratmışdı. Bu elmi əsərlərin içərisində isə Elman Quliyevin əsərləri öz sanballılığı və əhatəliyi ilə seçilirdi.

Şərq və ümumiyyətlə bütün türk ədəbiyyatının mahir bilicilərindən olan Elman müəllim, uzun sürən əziyyətlər və çətinliklər hesabına Azərbaycan Dövlət Pedaqoji Universitetində ilk dəfə olaraq «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin açılmasına nail olmuşdur. Onu da qeyd edək ki, bu universitetdə yaradılan ilk və yeganə xarici ölkə ədəbiyyatı mərkəzidir. Mərkəz bilavasitə bütün türk dövlətləri ilə elmi mübadilə edir ki, bu da şübhəsiz Elman müəllimin gərgin əməyi nəticəsində hasil olur. Bu mərkəzdə gələcəyin tədqiqatçısı olacaq gənc kadrlar üçün bütün şərait yaradılmışdır. Mərkəzin tədqiqat işləri həm də mütəmadı olaraq nəşr edilən topluda işıq üzü görür. Bütün bunlar isə görkəmli professorumuz Elman Quliyevin həm rəhbərliyi, həm də şəxsi təşəbbüsü ilə gerçəkləşir.

Elman müəllim hər şeydən öncə çox gözəl insan və gözəl alimdir. Tə-

əssüfləndirici haldır ki, hətta elm aləmində də qısqanclıq, həsəd, kiminsə işinə mane olmaq çox adi hal alıb. Elman müəllim isə, əksinə elm sahəsində olan bütün yeniliklərə sevinir, başqalarının uğurlarını özünkü kimi qəbul edir. Bunu həm mən, həm də Türk araşdırmaları mərkəzinin tədqiqatçıları, həm də bütün Elman müəllimi tanıyanlar təsdiq edə bilər. Elman müəllim ona müraciət edən hər bir şəxsə hörmətlə yanaşır və apardığı tədqiqatlar barədə dərindən məlumatlandıqdan sonra düzgün istiqamət verir. Elman müəllim öz peşəsinə çox tələbkarlıqla yanaşdığından gənc tədqiqatçıların da öz araşdırmalarında dəqiq elmi mənbələrə istinad etməsinə, məntiqi nəticə çıxarmasına həssaslıqla yanaşır.

Elman müəllim həm də çox xeyirxah insandır. Onun həyat kredosu «Hər zaman yaxşılıq edin. Hətta sizə pislik edənlərə də yaxşılıq edin. Qoy sizə yaxşılıq qalsın» fəlsəfəsidir. Doğrudan da müəllim ilk öncə bu prinsipə özü riayət edir və bütün tələbələrinə də bunu tövsiyə edir. Mən də dəfələrlə haqsızlıqlarla üzləşəndə bir dəstək kimi dəyərli müəllimim olan Elman müəllimi özümə dayaq görmüşəm və o, yenə də «pisliklərə qarşı pis olma. Pisi heç kəs sevmir. Mən bundan da pislərini yaşamışam» deyə təskinlik verib.

Elman müəllimin bu məziyyəti müdafiələrdə, kafedramızda aparılan müzakirələrdə də özünü göstərir. Düzdür, professor zəif, elmi sanballılığı az olan əsərləri tərifləmir. Lakin Elman müəllim iradlarını elə şəkildə tədqiqatçıya çatdırır ki, araşdırmaçının qüruru sınmır və o, elmi işini yüksək səviyyədə ərsəyə gətirməsinə həvəslənir.

Elman müəllim bir iş yoldaşı kimi də çox alicənabdır. Onun işlədiyi müəssisədə heç kəs professor haqda mənfi rəy söyləyə bilməz. Müəllim, bütün iş yoldaşlarını, tabeçiliyində olanları respublika və beynəlxalq konfranslarda iştirak etməyə, dövri mətbuatda müxtəlif mövzuları əhatə edən məqalələrlə çıxış etməyə səsləyir.

Mənim də bir gənc tədqiqatçı kimi yetişməyimdə elmi rəhbərim, Azərbaycan ədəbiyyatı kafedrasının müdiri, professor Himalay Qasımovla yanaşı Elman müəllimin də zəhməti böyükdür. Belə ki, Elman müəllim tədqiqat işimin müzakirəsindən tutmuş, elmi işimin müdafiəsinə qədər bütün mərhələlərdə bilavasitə iştirak etmişdir. Onu da qeyd edim ki, professor ondan nəyisə xahiş etməyini gözləyən insanlardan deyil. O, həssas müəllim qəlbi ilə işlərin necə irəlilədiyi ilə maraqlanır, çox operativ şəkildə öz köməyini göstərir.

Elman müəllim ictimaiyyət arasında da çox böyük nüfuza malik olan alimlərdəndir. O, dəfələrlə dövlət mükafatlarına layiq görülüb, çoxlu təq-

dirnamələrlə təltif olunmuşdur. Kitabları dəfələrlə dövlət hesabına böyük tirajlarla çap olunmuşdur. Elman müəllim, yorulmaq bilməyən zəhmətsevər və daim öz üzərində işləyən görkəmli alimdir. Professoru daim müxtəlif dövrlərdə çap olunmuş kitabların, monoqrafiyaların arasında görmək olar. Ədəbiyyatın elə bir dövrü, sahəsi, qolu yoxdur ki, Elman müəllimin ondan mükəmməl səviyyədə xəbəri olmasın. Lakin bununla yanaşı, Elman Quliyev həm də çox təvəzökar insandır. O, qəti şəkildə, doğrudan da, layiq olduğu haqlı tərifləri qəbul etmir, bütün insanların belə olmalı olduğunu qeyd edir.

Mən, bir tələbəsi, yetirməsi, işlədiyi kafedranın əməkdaşı və nəhayət bir övladı kimi Elman müəllimə hər yaşda sağlam, gümrah olmağı arzulayıram. Ümid edirəm ki, o, indiki vəzifə və mövqeyindən qat-qat üstün yerləri tutacaq və indi də olduğu kimi uzun illər Azərbaycan elmini, ədəbiyyatını bütün dünyada tanıdacaqdır.



***Pərvin***
*Azərbaycan ədəbiyyatı*
*kafedrasının müəllimi*

## ELMAN MÜƏLLİMİMİZ

Deyirlər adam dünyaya gələndə beyni ağ kağız kimi olur. Ona görə uşaq vaxtı hər hansı yeni informasiya yaddaşa daha tez yazılır. Amma məncə, yeni doğulmuş körpənin beyni ağ kağız yox, yazılmamış, tərtəmiz kitaba bənzəyir. İnsan hər dəfə yeni bir mərhələyə keçəndə həmin həyat kitabının yeni səhifəsi açılır. Və bu mərhələyə aid müxtəlif hadisələr, adamlar yaddaşa, yeni səhifəyə yazılır. Sadəcə müxtəlif rəngli qələmlə. Bəziləri qırmızı, bəziləri qara, bəziləri boz...

Elman müəllim mənim tələbəlik səhifəmə işıqla yazılmış simalardandır. Düzdür, sonralar mən Azərbaycan Dövlət Pedaqoji Universitetində işləməyə başladım və bizim ünsiyyətimiz, həmkar münasibətlərimiz daha da səmimi şəkil aldı. Amma mən onun əsl ziyalı, mehriban insan, qayğıkeş, savadlı müəllim xarakterini hələ ilk tələbəlikdən hiss etmiş, görmüşdüm. Elə birinci dərsimizdə Elman müəllimin əsl elm, ədəbiyyat təəssübkeşi olmasını açıq-aydın duymuşdum. Onun qədim dövrdən müasir zamana kimi türk xalqları ədəbiyyatını müqayisəli, əlaqəli şəkildə öyrətməsi, buna bütün ruhuyla çalışması heç yadımdan çıxmır. Səsini bir ton belə qaldırmadan bütün auditoriyanı öz sehrinə salan müəllimimizin sirrini indi, onunla eyni kafedrada çalışdığım məqamlarda aşkar etmişəm. Səbəb sevgidir... Sənətinə, müəllimliyə, ədəbiyyata sevgisi. Lakin Elman müəllimin bir çox savadlı alimlərdən fərqi həm də odur ki, o qısqanc deyil, səxavətlidir. Bildiklərini bölüşməyə, öyrətməyə hər an hazırdır və ən əsası özü də bundan zövq alır. Elman müəllimin təkcə tədris etdiyi və bu sahəyə aid bir çox kitablar yazdığı Türk xalqları ədəbiyyatının deyil, dünya ədəbiyyatının, sufizmin, qədim və müasir dövr Azərbaycan ədəbiyyatı-

nın da mükəmməl bilicisidir. Və bütün bu bilgilər onu insan kimi, alim kimi nə qədər zənginləşdiribsə, bir o qədər də təvazökar və mərhəmətli edib.

... Elman müəllimin istər insan, istərsə də sadəcə alim xarakteri barədə çox yazmaq və danışmaq olar. Lakin yazımın bu yerində mən onun qəlbinin saflığı, dostuna, həmkarına görə necə ürəkdən sevinməsi xüsusiyyətindən söz açmaq istəyirəm. Maraqlıdır ki, insan hər hansı bir sevinci, uğuru yaşayanda öz duyğularını deyil, başqalarının hisslərini düşünür. Görüm kim sevinəcək, kim paxıllıq edəcək, kim kölgə salmağa çalışacaq və s. «Qar yağacaq» kitabımın təqdimat mərasimində yəqin mən də daha çox yaxınlarımın, ətrafımdakı adamların düşüncələrini fikirləşir, gözlərdə sevinc axtarırdım. Və bu adamların arasında Elman müəllimin tələbəsinə, gələcəyinə inandığı bir gəncə görə necə sevinməsini, ürəkdən çıxış etməsini də heç zaman unutmaram. Şübhəsiz ki, o, paxıllar zamanəsində bir çoxları üçün örnəkdir. Lakin Elman müəllimdən təkcə bu sahədə yox, bir çox məsələlərdə örnək götürmək olar. Onun heç bir qalmaqala, söz-söhbətlərə fikir vermədən, qoşulmadan, sadəcə öz işiylə vicdanla məşğul olması və əziyyətlərinin bəhrəsini də lazımi kimi görməsi hər kəsi düşündürə biləcək məqamdır.

Elman müəllimin elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap edilmişdir. Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki uğurlarına görə «Ən yaxşı tədqiqatçı vətənpərvər alim» qızıl medalına (2011) və Türkiyə Respublikasının Azərbaycandakı səfirliyinin Xüsusi Dövlət təşəkkürünə (2012) layiq görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir. Bundan əlavə o, universitetimizdə keçirilən «İlin alimi» (2007, 2010) və «İlin müəllimi» (2011) müsabiqələrinin qalibi olmuşdur. Bütün bu uğurlar ən qəliz mühitdə, cəmiyyətdə belə zəhmətkeş adamın məqsədinə çatmasının bariz göstəricisidir.

Onun türk xalqları ədəbiyyatına aid yazdığı əsərlər, kitablar istər tələbələr, istər bu fənni tədris edən müəllimlər üçün dəyərli vəsaitlərdir.

Mən Elman müəllimin keçmiş tələbəsi və hazırki həmkarı kimi bütün bunlara görə təşəkkürümü bildirir, onu yubiley münasibətiylə təbrik edir, yeni və davamlı uğurlar diləyirəm.



*Aytən Abbasova*
*«Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin elmi işçisi*

## CƏFAKEŞ TÜRKOLOQ

Mən prof. Elman Quliyevi ilk dəfə 2003-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində bizə «Türk və şərq xalqları ədəbiyyatı» fənnini tədris edərkən tanımışam. Özünəməxsus üslubu, dərin məzmunlu mülahizələri, auditoriyadakı ciddiliyi qədər auditoriyadan kənarda tələbələrə olan qayğıkeş münasibəti onu tələbələrin sevimlisinə çevirmişdi. Artıq 9 ilə yaxındır ki, mən Azərbaycan Dövlət Pedaqoji Universitetində prof. Elman Quliyevin təşəbbüsü ilə yaradılmış və onun rəhbərlik etdiyi «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzində çalışıram. Birlikdə çalışdığımız bu illər ərzində mən Elman müəllimi daha yaxından tanımaq imkanı əldə etmişəm. Prof. Elman Quliyev 55 illik ömür yolunu şərəflə keçərək səviyyəli alim və mütəxəssis, əsl ziyalı, qayğıkeş ailə başçısı, mehriban və təvazökar insan, sevimli müəllim, vəfalı dost kimi adlar qazanmağa nail olmuşdur.

Elman müəllimin zəhmətsevərliyi, çalışqanlığı, möhkəm və sarsılmaz iradəsi ona həyatın enişli-yoxuşlu yollarını müvəffəqiyyətlə keçməyə, maneələri əyilmədən dəf etməyə və yüksək nailiyyətlər əldə etməyə imkan vermişdir. Bol-bol uğurları olan Elman müəllimdə heç vaxt qısqanclıq hissləri olmamış, o, tələbələrinə, rəhbəri olduğu gənclərə də həmişə ürəkdən uğurlar diləmiş, onlara özünün min-bir əziyyətlə keçdiyi elm yollarının çətinliklərini aşmağa əlindən gələn köməyi əsirgəməmişdir.

Bir alim və tədqiqatçı kimi prof. Elman Quliyev daima özünə qarşı tələbkarlığı, dəqiqliyi, mənbələrə diqqətlə yanaşması və tədqiqatlarındakı faktların zənginliyi ilə fərqlənir. Lakin bunlardan əlavə onun yazılarının digər bir cəhəti üslubundakı səmimilik və vətəndaş mövqeyinin aydınlığıdır. Bəlkə də bu səbəbdəndir ki, Elman müəllimin məhsuldar elmi və pedaqoji fəaliyyəti diqqətdən kənarda qalmamış, o, dəfələrlə Dövlət və bir sıra qurumlar tərəfindən müxtəlif təltiflərlə mükafatlandırılmışdır.

Prof. Elman Quliyevin çıxış və məruzələrində səsləndirdiyi maraqlı fikirlər, problemə özünəməxsus yanaşma tərzi həm respublikada, həm də Türkiyə, İran, İraq, Türkmənistan və Şimali Kiprdə keçirilən beynəlxalq konfrans və simpoziumlarda həmişə böyük maraqla qarşılanmışdır. Onun gərgin və səmərəli elmi fəaliyyəti hər zaman türkçülük ideyalarının təbliğinə və milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət etmişdir.

Qeyd edək ki, Azərbaycanda türk xalqları ədəbiyyatının araşdırılması, öyrənilməsi, türkçülüyün təbliğ olunması sahəsində əvəzsiz xidmətləri olan prof. Elman Quliyevin adı bir sıra «ilk»lərlə də bağlıdır. Azərbaycanda ali məktəblər üçün ilk dəfə hazırladığı tədris proqramları («Türk xalqları ədəbiyyatı» (1998), «Şərq xalqları ədəbiyyatı» (1998), «Ümumtürk ədəbiyyatı» (2005), «Qədim türk ədəbiyyatı» (2010), «Türkiyə türk ədəbiyyatı» (XIX-XX əsrlər) (2011), gərgin əməyin nəticəsi kimi meydana gələn dərslik və dərs vəsaitləri («Müasir özbək ədəbiyyatı tarixi» (1999), «Türkiyə türk ədəbiyyatı» (2003), «Özbək ədəbiyyatı» (2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (2010), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (2010), «Türk xalqları ədəbiyyatı» (2009; 2011), «Şərq xalqları ədəbiyyatı» 2 cilddə, (2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (2012) buna ən yaxşı nümunədir.

1991-ci ildən Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən Elman müəllim universitet rəhbərliyi tərəfindən ona həvalə olunan bütün vəzifələrin öhdəsindən həmişə bacarıqla gəlmişdir. Artıq prof. Elman Quliyev bir neçə ildir ki, «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinə rəhbərlik edir. Bu illər ərzində qayğıkeş rəhbər kimi fəaliyyət göstərən Elman müəllim əməkdaşlarına daim səmimi münasibəti ilə də fərqlənmişdir. Əməkdaşlarının uğurlarına öz uğuru kimi daima ürəkdən sevinən Elman müəllim bir ata kimi onların ən kiçik problemləri ilə də yaxından maraqlanmağı həmişə özünə borc bilmişdir.

Bir elmi rəhbər kimi Elman müəllimin mənim üzərimdəki əməyi də çox böyükdür. Türk xalqları ədəbiyyatı problemləri ilə bağlı verdiyi faydalı məsləhətlər, dəyərli tövsiyələr mənə qarşıya qoyulan problemi həll etməkdə həmişə çox böyük kömək olur. Ancaq bir şeyi də qeyd etməliyəm ki, Elman müəllim bir elmi rəhbər kimi davamçılarına sadəcə kömək etməklə kifayətlənmir, onları, o cümlədən məni ruh düşkünlüyünə düşməyə qoymur, hər zaman bizi həvəsləndirir, gənclərin işıqlı gələcəyinə inamını hər fürsətdə qeyd edir.

Əziz və hörmətli müəllimim Elman müəllim! Sizi 55 yaşınızın tamam olması münasibətilə səmimi qəlbdən təbrik edirəm və Ulu Tanrıdan Sizə möhkəm can sağlığı, daha bir 55 il, ailənizlə birlikdə firavan ömür, könül xoşluğu, ömrünüzün bu məhsuldar dövründə bol-bol uğurlar, coşğun yaradıcılıq ilhamı, elmi-pedaqoji və təşkilati fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzu edirəm.



*Leyla Faiqqızı*
*ADPU-nun «Türk araşdırmaları» elmi-tədqiqat laboratoriyasının elmi işçisi, AJB-nin üzvü*

# NƏCİB İNSAN, GÖRKƏMLİ ALİM

Mən Elman müəllimi tələbəlik illərindən tanıyıram. Hələ tələbə olarkən onu təvazökar, savadlı, öz işinə məsuliyyətlə yanaşan, tələbələrinə qayğı göstərən bir insan kimi tanımışam. Elman müəllimi tanıyarkən mən hələ 3-cü kurs tələbəsi idim. Hər zaman onunla ədəbi polemikalarımız, ədəbiyyatla bağlı müzakirələrimiz olurdu. Bu insanın nə dərəcədə ədəbiyyatı dərindən bilməsi, içindəki türkçülük yanğısı, təəssübkeşliyi məni hər zaman heyran edirdi. Mən Elman müəllimin bu türkçülük yanğısını, «turan təəssübkeşliyini» böyük türk mütəfəkkiri Ziya Göyalp ilə müqayisə edərdim. Eləcə də mədəniyyətin beşiyi sayılan Şərqin təəssübünü çəkmək də məhz bu nurlu insana müyəssər olmuşdur. Öz elmi yaradıcılığında türk və şərq nəzəri-estetik ideyalarını qabarıq şəkildə təcəssüm etdirən Elman müəllim Azərbaycanda ilk dəfə olaraq bu sahədə sanballı araşdırmalar aparmış və dəyərli kitablar yazmışdır. Elman müəllimin müəllifi olduğu «Özbək ədəbiyyatı», «Türkiyə türk ədəbiyyatı», «Türk xalqları ədəbiyyatı», 2 cildlik «Şərq xalqları ədəbiyyatı» bu alimin qələminin itiliyindən xəbər verir. Tale elə gətirdi ki, universiteti bitirdikdən sonra mən Elman müəllimin rəhbərlik etdiyi elmi-tədqiqat laboratoriyasında işə başladım. İşlədiyim müddət ərzində hər zaman Elman müəllimi qayğıkeş müdir, ləyaqətli insan, sağlam mənəvi-estetik dəyərlərə sahib olan bir şəxs kimi görmüşəm. Bütün işçilərinə ata qayğısı göstərən, diqqətini əsirgəməyən Elman müəllim hər bir əməkdaşının uğuruna öz uğuru qədər sevinir, çətin və mürəkkəb məqamlarda bizlərə dayaq olmağa çalışır. Elman müəllim həmçinin mənim elmi rəhbərimdir. Onun elmi rəhbərliyi ilə mən artıq bir ildir ki, ADPU-nun «Azərbaycan ədəbiyyatı tarixi» kafedra-

sının dissertantıyam. Müdir olmaqdan əlavə Elman müəllim həmçinin elm sahəsində də bizlərə öz qayğısını əsirgəmir, elmi nailiyyətlərimizi yüksək dəyərləndirməklə yanaşı, bu nailiyyətlərin əldə olunmasında da bizə kömək etməyə çalışır. Öz doğma qızlarına göstərdiyi qayğını bizlərdən də əsirgəməyən Elman müəllim sözün həqiqi mənasında böyük ürəyə sahib olan insandır. Elman müəllimlə bərabər 2008-ci ildə Şəhriyarın 100 illik yubileyi ilə bağlı böyük bir tədbir hazırlamışdıq. O zaman da bu insanın ədəbiyyatın dəyərini nə dərəcədə bilməsinin, Şəhriyar yaradıcılığına olan sevgisinin canlı şahidi oldum.

Elman müəllim həmçinin gözəl ailə başçısıdır. Azərbaycan xalqı üçün üç dəyərli övlad böyüdüb tərbiyə edən prof. Elman Quliyev iş həyatında, kollektivdə dəyərli və hörmətli insan olduğu qədər, eyni zamanda yaxınlarının, doğmalarının da hörmətli şəxsiyyətləri sırasındadır.

İnsan ömrü bəzən elə sürətlə ötüb keçir ki, bəzən biz bunun fərqinə belə varmırıq. Lakin geriyə doğru boylanıb yaşadığın ömür yoluna nəzər salanda görürsən ki, ömrün pillələrini uğurla addımlamış və artıq zirvəyə doğru yaxınlaşırsan. Bu günlərdə sevimli müəllimim prof. Elman Quliyevin 55 yaşı tamam olur. Ömrün nurlu yollarında müvəffəqiyyətlə addımlayan Elman müəllim sözün həqiqi mənasında nəcib insan, görkəmli alim və respublikamızda sayılıb-seçilən ziyalılardandır. 55 illik ömrünü Azərbaycan, türk və şərq xalqlarının ədəbiyyatının tədqiqinə həsr etmiş bu görkəmli türkoloq-alim hər zaman millətininin, xalqının təəssübünü çəkmiş, öz şərəfli ömrünü elmi tədqiqlərə sərf etmişdir. Bu gün prof. Elman Quliyev respublikamızda, eləcə də respublikamızın hüdudlarından kənarda tanınan alimlər sırasında qərarlaşmışdır. Bütün bunlara o, öz şərəfli ömür yolu ilə, elm uğrunda öz «alnının inci tərini axıtmaqla» nail olmuşdur. Heç bir vəchlə elmi axtarışlardan uzaqlaşmayan prof. Elman Quliyev bu gün də öz araşdırmalarını davam etdirir, elmimizə yeni-yeni «tapıntılar bəxş etmək» üçün yorulmadan çalışır.

Məndən soruşsalar ki, prof. Elman Quliyevi necə xarakterizə edərdin? Cavabım belə olardı: Təvazökar insan, qayğıkeş ata, vətənpərvər ziyalı, dəyərli alim, şimallı-cənublu Azərbaycanın və bütün türk dünyasının görkəmli tədqiqatçısı, hörmətli şəxsiyyət və ən əsası milli-mənəvi dəyərlərə sadiq insan. Onun tədqiq edərək araşdırdığı Məhəmmədhüseyn Şəhriyar, Mirzə İbrahimov yaradıcılığı, eləcə də türkdilli xalqların, şərq dünyasının nəhəng nümayəndələri ilə bağlı apardığı araşdırmalar, yazdığı kitablar, monoqrafiyalar, dərsliklər Azərbaycan elmi üçün ən dəyərli töhfələr sırasındadır.

Əziz Elman müəllim! Sizi 55 yaşınızın tamam olması münasibətilə ürəkdən təbrik edir, Sizə can sağlığı, uzun ömür və işlərinizdə yeni-yeni nailiyyətlər arzulayıram. Böyük şairimiz Nəriman Həsənzadə deyib: «Sağlamlıq, gözəllik ləyaqətini, alır əlimizdən yaş soruşmadan...» Sizə bu nurlu ömür yolunda uğurlar!

Çox zaman biz insanlar bir-birimizi təbrik edərkən eyni arzu ilə çıxış edirik, hər kəsə uzun ömür arzulayırıq. Bu dəfə isə mən Sizə bir qədər fərqli arzu bildirmək istəyirəm. Mən də Sizə hamı kimi uzun ömür arzulayıram, ancaq Allah-Taaladan arzum budur ki, Sizə nəsib olmuş bu ömür payını sağlam şəkildə, səhhətinizdə heç bir problem olmadan yaşayasınız.

İstərdim öz təbrikimi müəllimim və müdirim prof. Elman Quliyev haqqında yazdığım şeirlə bildirim:

*Həyatda borcluyuq sənə müəllim,*
*Cahana yayılmış şöhrətin sənin.*
*Fərqi yox fəhləyik, ya da ki alim,*
*Əlçatmaz zirvədir qüdrətin sənin.*

*Bizlərə həmişə gərək olmusan,*
*Səninlə fəxr edir yetirmələrin.*
*Bilik dünyasında kömək olmusan,*
*Əbədi sərvətdir sənin zəfərin.*

*Müəllim şərəfi hər şeydən uca!*
*Hər an qarşısında baş əyir aləm.*
*Ona minnətdaram ömrüm boyunca,*
*Onun varlığıyla öyünürəm mən!...*

Həyat çox gözəldir. Mənalı ömür yaşamaq isə daha gözəldir. Arzu edirəm ki, bu mənalı və şərəfli ömür yolunun keşməkeşlərini müvəffəqiyyətlə başa vurasınız, çünki Siz öz örnək alim ömrünüz ilə buna layiqsiniz.

Əziz Elman müəllim, bir daha Sizi təbrik edirəm. Arzu edirəm ki, gün o gün olsun, Sizin yüz illik yubileyiniz münasibətilə öz təbrik sözlərimi qələmə alım. İnşallah, inanıram ki, ulu tanrı bizə və Sizə o günü nəsib edəcək. 55 yaş nədir ki? Həyat hələ irəlidədir!



*Vüsalə Zeynalova*
*«Türk araşdırmaları»*
*ETL-nin elmi işçisi*

## ÖRNƏK ZİYALI ÖMRÜ

Yaşı bilinməyən dünyanın, insanı riqqətə gətirən yazılmamış qanunları ilə yanaşı sirli, ecazkar gözəllikləri də vardır. Ağac barı, dağ çayı, şəlalə füsunkar nəğməsi, şır-şır axan bulaqlar pıçıltısı, güllər, çiçəklər ətri ilə sevildiyi kimi, insan da İlahi tərəfindən ona bəxş edilmiş ömür yolundakı əməlləri ilə seçilib sayılır. Taleyini hər hansı bir peşəyə bağlayıb, bu peşənin sirlərinə dərindən yiyələnib Vətəninə, xalqına xeyir verənlər, yaşayaraq arxada qoyduğu illərdən özlərinə məxsus bir tarix yaradırlar. Yorulmaq bilmədən çalışanlar xariqələr yaradıb şöhrətə çatır və ictimaiyyət tərəfindən yaşadılır və sevilirlər. Belə insanlardan biri də professor Elman Quliyevdir.

Elman Quliyev elm sahəsində bir çox uğurlu nailiyyətlər əldə etmiş, Azərbaycanda, eləcə də respublikamızın hüdudlarından kənarda tanınan, bir çox beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmiş, elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap edilmiş görkəmli bir ziyalıdır. O, «M.Şəhriyar: Gəldim sizi görməyə» (Bakı,1962), «S.Tahir. Lirika» (Bakı, 1992), «M.Şəhriyar. Heydərbabaya salam» (Bakı, 2004) kitablarının, «Türk xalqları ədəbiyyatı» (Bakı, 1998), «Şərq xalqları ədəbiyyatı» 2 cilddə (Bakı, 1998), «Ümumtürk ədəbiyyatı» (Bakı, 2005), «Qədim türk ədəbiyyatı» (Bakı, 2010), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2011) kitablarının, eləcə də bir sıra tədris proqramlarının tərtibçisidir. Bununla yanaşı, prof. Elman Quliyevin «Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar» (Bakı, 1999), «Müasir özbək ədəbiyyatı tari-

xi» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006, həmmüəlliflə), «Özbək ədəbiyyatı» (Bakı, 2009), «Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri» (Bakı, 2010, həmmüəlliflərlə), «Orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2010), «Türk xalqları ədəbiyyatı» (Bakı, 2009; 2011), «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» (Bakı, 2012) adlı kitabları işıq üzü görmüşdür. Elman müəllim çəkdiyi zəhmətin bəhrəsini görmüşdür. O, 1999-cu ildə «Mirzə Uluğbəy» (Özbəkistan) mükafatı almış, 2007-ci ildə C.Rumi-800 müsabiqəsinin (YUNESKO) laureatı, iki dəfə isə «İlin alimi» (2007, 2010) və «İlin müəllimi» (2011) müsabiqələrinin qalibi olmuşdur. 2012-ci il 18 aprel tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir. Prof. Elman Quliyev cəfakeş türkoloq kimi yorulmadan yaradıcılıq axtarışlarını davam etdirir və yeni-yeni elmi nailiyyətlər qazanır.

Elman müəllimi isə mən ilk dəfə 2004-cü ildə magistraturada oxuduğum illərdə tanıdım. Hər bir tələbə kimi mən də Elman müəllimin mühazirələrini diqqətlə dinləyir, onun mühazirələrini necə də həvəslə, sevə-sevə oxuduğunun, tələbələrinin ünvanladığı sualları diqqətlə dinləyib cavablandırmasının, tələbələrinin Elman müəllimə olan hörmətinin şahidi olurdum.

Elman müəllimi daha yaxından 2008-ci ildən onun rəhbəri olduğu «Türk araşdırmaları» elmi-tədqiqat laboratoriyasında işə başladığım zamandan bəri tanıdım. Bu beş ildə Elman müəllim bizə həm müdir, həm də bir ata oldu. O, hər zaman qayğımıza qalır, yeri gəldikdə nəsihətlər verir, bir problemimiz olduqda isə bacardığı qədər bizə kömək etməyə çalışır. Biz də öz növbəmizdə Elman müəllimin nəsihətlərini dinləyir, onun biliklərindən faydalanırıq.

Əziz və hörmətli müəllimim prof. Elman Quliyevi 55 yaşı olması münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı, elmi yaradıcılığında yeni-yeni nailiyyətlər arzu edirəm.



*Validə Şıxəliyeva*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, «Türk araşdırmaları» ETL-nin laborantı*

## ZƏHMƏTKEŞ ALİM

Səmimiliyi, mehribanlığı, alicənablığı və digər keyfiyyətləri ilə hamının hörmətini qazanmış prof. Elman Quliyev haqqında nə qədər xoş sözlər söyləsək, nə qədər yazılar yazsaq yenə də azdır.

İlk öncə onu qeyd edim ki, o, Azərbaycan, türk və şərq xalqları ədəbiyyatının öyrənilməsi sahəsində bir neçə ilkə imza atmış və zəhməti qarşılığında – Cəlaləddin Rumi mövzusunda təşkil edilmiş «Birlikdə yaşamaq sənəti və Mövlana» müsabiqəsinin laureatı, Avropa Nəşr Mətbu Evi tərəfindən «Ən yaxşı vətənpərvər tədqiqatçı alim» diplomu və qızıl medalla təltif olmuş, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 90 illik yubileyi zamanı səmərəli elmi və pedaqoji fəaliyyətinə, cəmiyyətdəki fəal mövqeyinə görə Azərbaycan Respublikasının Pezidentinin sərəncamı əsasında «Tərəqqi» medalı ilə mükafatlandırılmışdır. Hətta Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi şurasının qərarı ilə çoxsaylı araşdırmalarına, elm sahəsinə böyük töhfə verə biləcək yazılarına, elmi-pedaqoji kadrların hazırlanması, tələbələrin elmi araşdırmalara yönəldilməsi və həvəsləndirilməsi işi üzrə verdiyi nəticəyə, yüksək səviyyəli yerli və beynəlxalq konfranslarda aktiv iştirakına görə iki dəfə «İlin alimi» və «İlin müəllimi» adını almışdır. Azərbaycanda türk xalqları ədəbiyyatının araşdırılması istiqamətindəki fəaliyyətinə, tədris proqramının, dərslik və dərs vəsaitinin hazırlanması sahəsindəki uğurlarına görə Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və Səlahiyyətli Səfiri Hulusi Kılıç tərəfindən təşəkkürnamə almışdır. Bütün bunlar özü-özlüyündə Elman Quliyevin elmin uca zirvələrini fəth etdiyinin əsas göstəricilərindən biridir.

Elman müəllim novator bir alimdir. Onun hər yazısında yeni bir istiqamət və hər bir istiqamətdə isə fərqli tərəflərdən araşdırılıb ortaya çıxarılmış müəkəmməl bir yaradıcılıq işi ərsəyə gəlmişdir. Gərgin əmək, yuxusuz gecələr nəticəsində M.Şəhriyarla bağlı yazdığı kitab, məqalə, elmi yazılarındakı yeni nəfəs özünü dərhal büruzə verir. Hətta bu yazılar o qədər mükəmməl və dəqiq işlənilmişdir ki, Azərbaycandan kənarda – İran, Türkiyə və digər ölkələrdəki gənc və yaradıcı alimlər, magistr, bakalavrlar, doktorantlar səmərəli şəkildə bəhrələnirlər.

Türkologiya sahəsindəki tədqiqatlarında gənc nəslə milli zəmin əsasında mənəvi dəyərlərmizin qorunması, vətənpərvərlik hisslərinin aşılanması, türkçülük, islam və ümumbəşər ideyalar müstəvisində müxtəlif problemlərin araşdırılması Elman Quliyevin Azərərbaycan təhsilinə göstərdiyi xidmətlərin nəticəsidir.

Elman Quliyev öz sahəsinin mükəmməl bilicisidir. Müasirləri tərəfindən «Yaradıcı elm xadimi», «Məhsuldar alim», «Zəhmətkeş pedaqoq» adlandırılan professor türk və şərq xalqları ədəbiyyatı tarixini ardıcıl və sistemli şəkildə öyrənib araşdırmış, tədqiqat aparıb onları ümumiləşdirmişdir.

Bu nəcib alim vətəninə sonsuz sevgi və dərin hörmət bəsləyir. O həm övladlarına, həm də tələbə, magistr, doktorantlara, bir sözlə, demək olar ki, bütün gənc nəslə vətənpərvərlik duyğu və düşüncələrini aşılayır. Gənclərdə vətən sevgisini birbaşa qanlarına hopdurub vətənə qarşı sədaqət, rəğbət yaratmış olması gənc alimin daha bir üstünlüyüdür.

Müəllimim Elman Quliyevə möhkəm can sağlığı, çoxlu yaradıcı fikirlər, yeni ideyalar, axtarışlar arzulayıram.



*Elnurə Paşayeva*
*«Türk araşdırmaları» ETL-nin laborantı*

## ELMİN FATEHİ

Elman müəllimin 55 yaşına həsr olunmuş kitaba gələn yazıları bir-bir nəzərdən keçirərkən müşahidə etdim ki, hər kəs onun Sovet rejiminin yenicə dağıldığı bir vaxtda ilk dəfə olaraq türk ədəbiyyatını tədris etməsindən, Türk və Şərq ədəbiyyatlarına aid neçə-neçə kitab və monoqrafiyalar yazmasından, Şəhriyar poeziyasına vurğunluğundan, «Türk odası» və «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzini yaratmasından, necə qayğıkeş, hörmətcil, qədirşünas olmasından, özündən böyüklərə, müəllimlərinə və xüsusilə də, Xeyrulla müəllimə hörmət və sevgisindən, kiçiklərə diqqətindən, necə övlad, necə qardaş, əmi, dayı, ata, baba, ümumiyyətlə, necə ailə başçısı olmasından ağız dolusu yazıb və dəfələrlə vurğulayıb. Düşündüm ki, mən də yazımda eyni xüsusiyyət və cəhətləri qeyd edərək təkrara yol verməyim. Ona görə də qərara aldım ki, onun yaratdığı «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzində laborant kimi fəaliyyətə başladığımdan bu günə kimi onda müşahidə etdiyim digər cəhətlərindən yazım. Beş ildən artıqdır ki, mən bu mərkəzdə çalışıram. Bu illər ərzində Elman müəllim bizə müdirdən çox ata kimi yanaşıb və söhbət düşəndə dəfələrlə qeyd edib ki, bizi öz qızlarından ayırmır. Elman müəllim çox zəhmətkeş bir insandır, daha dəqiq ifadə etsək, o işinin vurğunudur. Hər zaman işdə – vəzifəsinin başında olmağı sevir. Hər kəs işini bitirib tez evə getməyə can atarkən Elman müəllim əksinə işdə oturmağı, yazı yazmağı çox sevir və bunlara üstünlük verir. Hətta bayram, istirahət günü olandan sonra iş üçün yaman darıxdığını hər dəfə ondan eşitmək olar. O, bizə xüsusi diqqətlə yanaşır və bizi diqqətindən əskik etmir. Otağımızda nəyinsə çatışmadığını görəndə, biləndə o dəqiqə bunu həll edir. Məsələn, otağımızda lampa yandıqda bunu görən kimi onun dəyişdirilməsi üçün o saat lazımi

yerlərə müraciət edir, birimizi qayğılı görərsə, yaxından dərdlərimizlə maraqlanır, boş vaxtı olan kimi bizimlə əyləşib söhbət edir. Elman müəllim həm də inadkar biridir. Əgər qarşısına bir məqsəd qoyubsa, istədiyinə nail olana qədər o işdən əl çəkməz. Həmişə bizə də məsləhət verir ki, qarşınıza qoyduğunuz məqsədi gerçəkləşdirənə qədər ardınca gedin. Bu yolda ola bilsin ki, maneələr olacaq və bu təbiidir. Ona görə də pessimist olmayın. Heç vaxt heç bir maneə sizi ruhdan salmasın. Çalışın bu maneə də sizə məqsədinizə çatmağa stimul versin. Bu cür məsləhət və dəstəyi ilə Elman müəllim bizi həyata nikbin baxmağa dəvət edir. O, bizim uğur və nailiyyətlərimizə bizdən də artıq sevinir.

Hər bir alimin özünəməxsus kaprizləri var və təbii ki, Elman müəllimin də öz təbiətinə uyğun kaprizləri var. Məsələn, Elman müəllim hövsələsiz adamdır. Bu da onun xarakterinə ayrı bir rəng, ahəng qatır. Onunla çalışdığım bu müddət ərzində bir dəfə də olsun onun təcili olmayan yazısını görməmişəm. O, yazılarına xüsusi bir həssaslıqla yanaşır. Hətta tələsik olmayan yazılar belə hər zaman təcili kompyuterdə yığılmalıdır. İstədiyi zaman yazılar hazır olmayanda əsəbiləşir, deyinir. Həmişə bizə deyir ki, mən evdəkilərə də demişəm, sizə də deyirəm, mən əsəbi olanda mənə bir söz deməyin. Çünki istəmədən qəlbinizi qıraram, sonra da özümü pis hiss edirəm. Ümumiyyətlə, Elman müəllimin yazıb-yaratmaq eşqi həsəd aparılacaq qədər böyükdür. Nə qədər səhhətindən, gözündən və yuxusuzluqdan şikayət etsə də, yazı yazmaqdan heç vaxt vaz keçmir. Hətta özü yazdığı yazılardan belə çox vaxt razı qalmır. Dəfələrlə onların üzərində çalışır, düzəlişlər və əlavələr edir. Onun əl yazmalarını gördükdə bu xüsusiyyətləri asanlıqla anlamaq olar. Belə əl yazmalar yalnız əsl alimlərə məxsusdur. Elman müəllim isə həmişə deyir: «Yazının gözəlliyi onun üzərində aparılan çoxsaylı qaralanmış düzəlişlərdədir.» Bəzən səhhətindən şikayət edəndə biz ona istirahət etməyi məsləhət görürük. Lakin Elman müəllim bir zəhmətsevər kimi elə hesab edir ki, alim üçün istirahət yazıb-yaratmaq, oxumaq və kitab yazmaqdır. Hətta biz hər dəfə məzuniyyətdən qayıdanda da elə ilk iş günündən Elman müəllimin yeni-yeni ideyalar və bol-bol yazılarla gəldiyinin şahidi oluruq. Biz onda başa düşürük ki, Elman müəllim yenə istirahət etməyib. Arzu edirəm ki, bu il 55 illik yubileyini qeyd etdikdən sonra sözün əsl mənasında doyunca istirahət etsin. İndiyə qədər həddindən çox və kifayət qədər zirvələr fəth edib. Yetər artıq, indi də özünə və səhhətinə fikir versin. Bir az da olsa, fəth etdiyi zirvələrdə fatehliyinin səfasını sürsün. Çox sevimli Elman müəllim, 55 yaşınız mübarək!...



*Günel Bağırova*
*«Türk araşdırmaları»*
*ETL-nin böyük laborantı*

# DƏYƏRLİ İNSAN

Azərbaycan Pedaqoji Universitetinin professoru Elman Quliyevin 55 illiyinə həsr olunmuş topluda onun işçisi kimi söz demək ilk baxışdan çox çətindir. Tanınmış insan, qayğıkeş müəllim haqda söz demək məsuliyyətli bir işdir. Türk dünyasına qarşı bağlılıq, məhəbbət onun tədqiqatlarında öz əksini tapır. Professor Elman Quliyev böyük alimdir. Vətəninə millətinə bağlı bir insandır. Türk xalqları ədəbiyyatının geniş şəkildə öyrənilməsində və çatdırılmasında çox böyük xidmətləri var. Professor Elman Quliyev nəinki Azərbaycanda, hətta digər türk ölkələrində də tanınır. O, tez-tez səfərlərə gedib Azərbaycanımızı layiqincə təmsil edir. Başqa alimlərdən öz biliyi, özünəməxsus nitqi və səliqəliyi ilə fərqlənir. Həyatın çətin və ağır sınaqlarına sinə gərən Elman Quliyev bu gün bir çox mükafatlara layiq görülmüşdür. Professorun elmdə və həyatda özünəməxsus öz dəstixətti var. Onun yüksələn xətlə keçdiyi elm və həyat yolu bunları təsdiq edir. O, öz işinə olduqca ciddi və məsuliyyətli yanaşır.

Müəllim əməyinin nəticəsində cəmiyyət formalaşır, savadlı, bilikli, geniş dünyagörüşlü, nümunəvi əxlaqa malik insanlar yetişir. Bu insanlar cəmiyyəti daha da inkişaf etdirir. Bu şərəfli işin dəyərini bilən əcdadlarımız həmişə müəllimə hörmətlə yanaşmışlar. Bizim dəyərli professorumuz bu müəllimlərdən biridir. Mən 5 ildir ki, prof. Elman Quliyevlə çalışıram və bu beş ildə o bizə müdirlikdən ziyadə atalıq edib. Hər bir işimizlə yaxından maraqlanıb, əlindən gələn köməyi əsirgəməmişdir. Həmişə bizə gələcəyə ümidlə baxmağı, pessimist yox, optimist olmağı tövsiyə edən Elman müəllimin məsləhətləri mənə «Pessimist yalnız tuneli görür, optimist

tunelin sonundakı işığı görür. Realist, tunellə birlikdə işığı və gedən qatarı da görür» kəlamını xatırladır. Elman müəllim bizi başına yığıb dəfələrlə həyatla bağlı, gələcəkdə işlərimizlə bağlı nəyi necə edəcəyimiz barədə tövsiyyələrini bildirib. Həzrəti Əlinin belə bir kəlamı var: «Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür.» Elman müəllim incə davranış, insani keyfiyyətləri, təvazökarlığı və ən əsası sadəliyi ilə işlədiyi kollektivin və onu tanıyanların hörmətini qazanmışdır. Bütün bunlar bir daha göstərir ki, o xoşbəxt insandır və həyatda fəal mövqe tutub. Hər şey zəhmətdən doğur. O, həm də gözəl ailə başçısıdır. Təmiz, saf ailəsi, gözəl balaları onun başının ucalığı, qürurudur. Elman müəllimin 55 yaşının tamamlandığı bir vaxtda mən öz adımdan və ailəm adından ən xoş arzularımı yetirir, ona və ailəsinə daim xoşbəxtlik, bəxtiyarlıq, firavanlıq diləyir, elmi fəaliyyətində yeni-yeni uğurlar arzulayıram. Bundan sonra da Tanrıdan Sizə 100 il sağlam həyat diləyirəm, əzizimiz Elman müəllim mən sonda bu yazımı Ceyms A.Garfield-ın bir sözüylə bitirmək istəyirəm: «Xətlər, ürəklərimizdə deyil, tək alınlarımızda meydana çıxar. Çünki insanın ruhu heç bir zaman yaşlanmaz...»



*Könül Nəbiyeva*
*«Türk araşdırmaları» elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi*

## GÖRKƏMLİ TÜRKOLOQ ALİM

Mənim Elman müəllimlə tanışlığım «Türk araşdırmaları» ETL-yə kiçik elmi işçi təyin olunduğum gündən başlayır. Bu təqribən 2007-ci ilin oktyabrının ortalarına təsadüf edir. Həmin tarixdən etibarən prof. Elman Quliyev mənim və iş yoldaşlarımın ən çox hörmət bəslədiyimiz şəxsiyyətə çevrilmişdir. Humanist bir insan kimi tanıdığımız Elman müəllim həqiqi mənada əsl ziyalılarımızdan biridir. İşçiləri ilə münasibətində qayğıkeşliyi və milli təəssübkeşliyi ilə seçilən pedaqoq, həm də örnək götürülməli bir insandır.

Demək olar ki, türk xalqları ədəbiyyatının öyrənilməsinə böyük vaxt sərf edən bu alim peşəsinə vurğunluğu və öz sahəsi üzrə əldə etdiyi nailiyyətləri ilə seçilir. Onun türk ədəbiyyatının aktual problemlərini araşdıran tədqiqatları öz orijinallığı, elmi səviyyəsi ilə diqqəti cəlb edir. Yüksək intellektual səviyyəyə malik olan görkəmli alim, filologiya elmləri doktoru, prof. Elman Quliyev 1991-ci ildən etibarən ADPU-da elmi fəaliyyətə başlamışdır. 2004-cü ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. «M.Şəhriyar. Gəldim sizi görməyə» (Bakı, 1992), «S.Tahir. Lirika» (Bakı, 1992), «M.Şəhriyar. Heydərbabaya salam» (Bakı, 2004) kitabları, «Türk xalqları ədəbiyyatı» (Bakı, 1998), «Şərq xalqları ədəbiyyatı» (Bakı, 1998), «Ümumtürk ədəbiyyatı» (Bakı, 2005) tədris proqramlarını tərtib etmişdir. Professorun «Mirzə İbrahimov: ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri» (Bakı, 1997), «Seyid Məhəmmədhüseyn Şəhriyar»(Bakı, 1999), «Müasir özbək ədəbiyyatı tarixi» (Bakı, 1999), «Heydərbabaya salam» necə varsa» (Bakı, 2001), «Türkiyə türk ədəbiyyatı» (Bakı, 2003), «Şəhriyar

poeziyası və milli təkamül» (Bakı, 2004), «Şəhriyar poetikası» (Bakı, 2006, həmmüəlliflə) adlı kitabları işıq üzü görmüşdür.

Prof. Elman Quliyev Beynəlxalq konfranslarda dəfələrlə məruzə ilə çıxış etmişdir, eləcə də onun bir sıra elmi əsərləri İran, Türkiyə və İraqda dərc olunmuşdur. Hazırda professor ADPU-da «Türk araşdırmaları» elmi-tədqiqat laboratoriyasının müdiridir.

Elman Quliyevin elmi-pedaqoji fəaliyyətini nəzərdən keçirdikdə onlarla monoqrafiya, kitab və dərsliklər göz önündə canlanır. Yüksək yaradıcılıq potensialına malik olan alimi 55 illik yubileyi münasibəti ilə təbrik edir və ona şərəfli fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.



*Günel Yunusova*
*Gəncə Dövlət Universitetinin doktorantı*

# TÜRKÇÜLÜK SEVGİSİ İLƏ YAŞAYAN ELMİ RƏHBƏRİM

Mənim üçün çox qiymətli olan sevimli müəllimim, dəyərli tədqiqatçı alim, elmi rəhbərim Elman Quliyevin haqqında söz demək çox çətin olsa da o qədər də şərəfli olduğu üçün bu dahi insan haqqında bəzi fikirlərimi deməyə cəhd edəcəyəm.

Professor Elman Quliyev savadı, insanlara münasibəti, tələbələrlə davranışı, ədalətliliyi, obyektivliyi ilə məni elm sahəsinə həvəsləndirən, bu sahədə özümü sınamağa sövq edən müəllimlərimdən biridir. 1996-2000-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində təhsil aldığım dövrdə Elman müəllim bizə «Türk xalqları ədəbiyyatı» fənnini tədris etmişdir. Yadımdadır ki, onun dərs saatını bütün tələbələr səbirsizliklə gözləyirdi. Hətta bəzi hallarda digər dərslərdən yayınan tələbələr də Elman müəllimin dərsi olan gün heç bir yerə getməz, auditoriyaya daxil olaraq onun mühazirələrinə diqqətlə qulaq asar, tam sakitliyə riayət edərdilər. Mühazirələrin məzmunu, anlatma və deyim tərzi, diksiya o qədər aydın və cəlbedici idi ki, maraqsız qalmaq olmurdu. Müəllim mövzunu o dərəcədə ətraflı, səlis və hərtərəfli izah edirdi ki, mövzunun hər hansı bir hissəsinin daha da aydınlaşdırılması üçün sual verməyə ehtiyac qalmırdı. Elman müəllimin türk xalqlarının ədəbiyyatı və mədəniyyətini sevə-sevə bizə öyrətməsi tələbə yoldaşlarımızdan bir çoxunda bu sahəyə həvəs yaratmış və bu sahənin tədqiqinə meyl etməyə başlamışdıq.

Ali məktəbi qurtardıqdan sonra uzun müddət müəllimlik fəaliyyəti

ilə məşğul oldum, magistratura pilləsini başa vurdum və doktorantura şöbəsinə daxil oldum. Bu illər ərzində türk xalqları ədəbiyyatı ilə yaxından tanış olmağa, müxtəlif kitablar oxumağa başladım. Ən çox oxuduğum professor Elman müəllimin əsərləri olmuşdur.

Çünki Elman müəllimin əsərləri nəinki Azərbaycanda, eyni zamanda bütün türk dünyasında sevilərək oxunan, şəxsiyyətinə hörmət bəslənilən alimdir. Elman müəllimin adı təkcə respublikamızda deyil, onun sərhədlərindən çox-çox uzaqlarda mütəfəkkir alim, qeyrətli və cəsarətli elm xadimi, sadə və səmimi insan kimi məşhurdur.

Zəngin mədəniyyəti və ədəbiyyatı, qədim tarixi olan türk xalqları sivilizasiyanın inkişafında, dünya ədəbi-bədii fikrinin formalaşmasında əhəmiyyətli rol oynamış, bu sahədə özlərinin qabaqcıl yerlərini qoruyub saxlamışdır. Elman Quliyevin «Türk xalqları ədəbiyyatı» kitabından dərslik kimi istifadə olunur. Bu kitab türk dünyasının – Türkiyə türkünün, özbək, türkmən, qazax, qırğız, tatar ədəbiyyatının görkəmli simalarının yaradıcılıq nümunələri əsasında hazırlanmış dəyərli tədqiqat əsəridir. Bu kitab ona görə çox dəyərləndirilir ki, kitabda ilk öncə türk dövlətçiliyinin yaranması, inkişafı barədə məlumat verilir, türk dövlətlərinin möhtəşəmliyi, yenilməzliyi, dünyada söz sahibi olması xüsusilə qeyd edilir. Kitabda çoxminillik tarixə malik türk xalqları ədəbiyyatının aparıcı, yaradıcı simalarının, o cümlədən Türkiyə türk ədəbiyyatının Mövlanə Cəlaləddin Rumi, Yunis İmrə, İbrahim Şinasi, Əbdülhəmid Ziya Paşa, Namiq Kamal, Əbdülhəq Hamid Tarxan, Mehmed Akif Ərsoy, Tofiq Fikrət, Rəşad Nuri Güntəkin və s., özbək ədəbiyyatının Əlişir Nəvai, Həmzə Niyazi, Qafur Qulam, Zülfiyyə, Musa Aybək, Uyğun, Şərəf Rəşidov, Maqsud Şeyxzadə, Türkmən ədəbiyyatının Məxtumqulu Fəraqi, qazax ədəbiyyatının Abay, Oljas Süleymenov, qırğız ədəbiyyatının Çingiz Aytmatov, krım-tatar ədəbiyyatının İsmayıl Qaspiralı kimi görkəmli nümayəndələrinin həyat və yaradıcılığı barədə, eləcədə qədim türk epos nümunələri, şeir və nəsr nümunələri barədə ətraflı məlumat verilir.

Onun əsərlərindən ruhlanaraq elmi işimin mövzusunu Türkiyə ədəbiyyatının müəyyən bir dövrünə – Tənzimat ədəbiyyatına həsr etmişəm və elmi rəhbər olmaq üçün Elman müəllimə müraciət etmişəm. Elman müəllim türk ədəbiyyatının bu dövrünün tədqiqata ehtiyacı olduğunu bildirib elmi rəhbərim olmağa həvəslə razılıq verdi. Bu məni çox sevindirdi və şərəf duydum. Professor Elman Quliyevin yaradıcılığına nəzər saldıqda görünür ki, əsasən Şəhriyarşünaslıqda çox dəyərli əsərləri olan və bu sahədə dəyərli söz sahibi olan alim türk xalqlarının ədəbiyyatına, ayrı-ayrı se-

vilən türk ədiblərinə həsr olunmuş çoxlu sayda əsərlər yazıb oxuculara bəxş etmişdir. Sonuncu çap etdirdiyi «Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı» kitabında həmin dövr türk ədəbiyyatı haqqında müfəssəl məlumatlar əldə etmək olur. Elman müəllimin gördüyü işlər çox böyükdür, əzəmətlidir. Bütün əsərləri oxunaqlıdır, seviləndir. Göstərdiyi xidmətlərə görə dövlət tərəfindən təltif olunmuş, müsabiqələrdə qalib gəlmişdir. Lakin bu təvazökar insan heç vaxt gördüyü işlərin böyüklüyündən danışmır, öyünmür, yalnız öz işi ilə məşğuldur.

Elman müəllimin yaradıcılığının ən məhsuldar dövrüdür. Elm aləminə gözəl əsərlər bəxş etmək üçün yorulmaq bilmədən çalışır. Eləcə də rəhbəri olduğu şəxslərdəndə köməyini, bilik və bacarığını əsirgəmir. Onun bu işlərini alqışlayır, uzun və sağlam həyat, qarşısına qoyduğu vəzifələri uğurla başa çatdırmağı arzulayıram.

Əziz rəhbərim, şərəfli ömür yolu keçmiş mənəvi atam! Sizi 55 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, can sağlığı arzu edirəm.

*Muradova Zöhrə**
*ADPU-nun Filologiya fakültəsinin tələbəsi*

# TƏLƏBƏLƏRİN SEVİMLİSİ, ÜMİD YERİ – ELMAN MÜƏLLİM

Hörmətli professor, sevimli müəllimim, dahilərin inci adlandırdıqları sözü ipə-sapa düzərək, qılıncdan kəsərli dedikləri sözü qınından sıyıraraq Sizin böyüklüyünüz, müəllim şəxsiyyətiniz qarşısında təşəkkür etməyə, minnətdarlıq duyğularımı Sizə layiqli şəkildə çatdırmağa qabiliyyətim çatmaz bəlkə, amma bu gün bir tələbə üçün gözlərinizdən oxuduğum «haqsızlıq edə bilmək» narahatçılığını, vicdanınızı sızıldada biləcək hərəkətin baş vermə qorxusunu görəndə, Sizdən asılı olmayan səbəblərə görə keçirdiyiniz təlaşı hiss edəndən sonra yazmaya, heyrətimi və heyranlığımı, təşəkkür və minnətdarlığımı bildirməyə bilməzdim.

Hər şeydən əvvəl bilməyinizi istərdim ki, Siz tələbələrinizin qəlbində çox uca zirvə fəth etmisiniz və daima bu «zirvədə» qalmağınızı arzulayıram.

Sizin timsalınızda mən Azərbaycanın böyük pedaqoqlarının layiqli xələfini görürəm -bizə dərs deməyə başlayandan çox az bir müddət sonra heç birimiz ««XX əsr Azərbaycan ədəbiyyatı» dərsidir» demədik «Elman müəllimin dərsidir» dedik – eyniylə S.S.Axundovun direktor olduğu məktəbə «Süleyman məktəbi», N.Nərimanovun açdığı qiraətxanaya «Nərimanın kitabxanası» deyildiyi kimi.

Bu gün Siz mənim üçün böyük müəllim məhəbbəti ilə «Balalara hədiyyə» verən, bir kəlmə sözü ilə «cılız bədənin böyük ürəkli» sahibini kəşf edib, xalqımıza qazandıran F.B.Köçərli mənziləsindəsiniz – öz tələbəsini bir kəlmə sözündən kitab kimi oxuyan, ona qayğı göstərib fərdi yanaşma böyüklüyünü göstərən müəllim ucalığındasınız.

Auditoriyadakı etirafları ilə kiçilməyən, əslində yüksələn və daha əzəmətli, düşüncə böyüklüyü, təvazökarlığı ilə insanı heyrətə gətirən, əql, zəka sahibi və «Elm öyrənməzdən əvvəl elə bilirdim ki, hər şeyi bilirəm elə ki, oxumağa başladım, gördüm ki, heç nə bilmirəm» – deyən Sokrat böyüklüyündə idiniz.

---

* *Bu yazı 2010-cu ildə tələbə tərəfindən kafedraya təqdim edlmişdir.*

Sizin kimi böyük alimin öz tələbələri üçün keçirdiyi narahatçılıqlarının şahidi olarkən, «Bunları Sizin üçün deyirəm ey, öyrənin» kimi yanıqlı müraciətlərinizi eşidərkən mənim üçün böyük M.C.Rumi görüntüsündə idiniz: «Nə olursan ol, gəl, istər kafir, istər mecusi, istər bütə tapan ol, gəl! Bizim dərgahımız umutsuzluq dərgahı deyildir. 100 dəfa tövbəni pozmuş olsan da yenə gəl!». Rumi harayı, nəfəsi ilə tələbələrinizə «oxuyun, öyrənin» deyirdiniz.

Əslində Sizin tərifə ehtiyacınız yoxdur, bunu bilirəm, amma mən Sizə minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm: (Sizə layiqli söz demək gücüm yoxdur...): minnətdaram, təşəkkür edirəm mühazirələrinizin məna tutumuna görə, tələbələrə söz demək, sual vermək şəraiti yaradıb cavablandırma böyüklüyünü göstərdiyinizə, bizə göstərdiyiniz diqqət və qayğıya görə. Bir də minnətdaram ona görə ki, Azərbaycan və Türk dünyasının çox nurlu zəka sahiblərini bizə tanıtdığınız və o ziyadan pay götürməyimiz üçün bizə bələdçi, köməkçi oldunuz. Mən Əli bəy Hüseynzadəni Sizin sayənizdə «kəşf etdim», bu qədər gecikdiyim üçün təəssüfləndim...Bu tanıtıma görə Sizə ömrüm boyu minnətdar olacağımı bilmənizi istərdim!. Və çox zaman tələbələrə «qırmızı qaranlıqlı», «yaşıl terror» əsdirən, onları «sındırmağa» çalışan və buna müvəffəq olmayanda tələbəni şikəst etmək eşqi ilə yaşayan, müəllim adı daşımağa layiq olmayan, ancaq bu şərəfli mərtəbəyə dırmaşanlara Əli bəyin «Səd İbn Vəqaası mədəniyyətə xidmətlərini iranilərdən sormayın, ərəblərdən sorun...Bismark fransızların qənimi, almanların iftixarı..., Teymurun da türk mədəniyyətinə etdiyi xidmətlərini İrandan və Çindən yox , ...Orta Asiyadan soruşun» – kəlamının nurundan, işığından güc alaraq bütün qəlbimlə söyləmək istərdim: «Müəllimliyi, təkcə alim olmağı deyil, adam olmağı, insan olmağı, öyrənməyi və öyrətməyi professor Elman Quliyevdən öyrənin və onun kim olduğunu tələbələrdən soruşun!!!»

Bəlkə də məktubumdakı sözlər Sizi güldürəcək, nə bilim, vaxtınızı aldığım üçün narahat edəcək, istərsə cırın, istərsə atın, amma mənə bir daha aydın oldu ki, Siz «lətif hissləri sönməyə qoymayan» bir bağbansınız – tələbələriniz üçün. Bir xalqın, bir millətin gözlərinə çıraq olmaq sevincini, türklüyün arxasında öz zəkası ilə durmaq, dayaq olmaq qüdrətini tanrım Sizdən heç bir vaxt əskik etməsin!

# DOĞMALARIN
# ÜRƏK SÖZLƏRİ



*Araz Quliyev*

*(qardaşı)*

# *Yeri boş qalan baş təbrik*



***<u>Təsəlli görüntüsü</u>***





*Aida Quliyeva*
*Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti*
*(əmisi qızı)*

## XƏFİF YUMOR HİSSİ İLƏ ÜZDƏ TƏBƏSSÜM YARADA BİLƏN ALİM, İNSAN

Elman haqda nə demək olar?

Elman bu gün elmlər doktoru, professordur. Dünyanın materiallaşdığı və pulun gücünün artdığı, onun təsir dairəsinin genişləndiyi bir dövrdə elmə və tədqiqata hörmətlə yanaşan azsaylı alimlərdən biridir.

Amma mənə görə, o hər şeydən əvvəl mənim əmim oğludur. Mənim ən sevimli əmim Hilal əminin oğludur. Hilal əmi ilə görüşlər uşaqlıq həyatımın ən xoşbəxt xatirələri ilə bağlıdır. Hilal əmi əgər Bakıya gəlibsə, deməli biz gözümüz yaşarana qədər gülməliyik və ya biz yayda atamın təbiri ilə desək dünyanın ən gözəl məkanı Lerikin Kələxan kəndinə istirahətə gəlmişiksə və orada birinci və ən möhtəşəm qonaqlığı Hilal əminin evində görməliyik və yenə də onun ilk baxışda adi məişət əhvalatlarına qulaq asıb, gülməkdən uğunmalıyıq.

Sonra Elman, mənim uşaqlığımın kumiri, çox istədiyim, vaxtsız ölümü ilə hamımızı şoka salan və ölümünə bu gün də inanmadığım böyük əmim oğlu Arazın vaxtilə ən çox güvəndiyi və gələcəyinə böyük ümidlər bəslədiyi kiçik qardaşıdır.

Elman həm də mənim qardaşlarımın qardaşı, onların xoş günlərində fəxr edəni, dar günlərində arxasıdır. Mən bunu anamla atamı itirdiyim günlərdə daha qabarıq görmüşəm. O, qüssəli günlərdə maksimum dərdə şərik olmaqla xəfif yumor hissi ilə üzdə təbəssüm yaratmağı bacaran bir adamdır.

Elman bir insan kimi çox həssas, qəlbi geniş insandır. O, öz məclis-

lərində, istər övladlarının toyunda, ya başqa məclislərdə diqqətini hamının üzərində eyni paylaşar, heç kim diqqətsizlikdən əziyyət çəkməz.

Amma onu da qeyd etmək lazımdır ki, Elman eyni zamanda Quliyevdir, yəni Quliyevlər nəslinə aid olan bütün kaprizlər ona da məxsusdur. Yəni heç kim onu öz fikrindən, əqidəsindən döndərə bilməz, bizim içimizdə ən yumşaq xasiyyətli olsa da, məqsədə sona qədər gedər və qalib gələnə qədər çarpışar.

Sonda onu deməliyəm ki, Elman çox gözəl ailə başçısı, ideal həyat yoldaşı, övladlarına düzgün tərbiyə verə bilən ata, mehriban babadır.

Bizim universitetdə çox sevdiyim professor Flora xanım Əlimirzəyevanın (prof. Xalid Əlimirzəyevin ömür-gün yoldaşı) bir cümləsi heç yadımdan çıxmır. O, bunu mənə çox əvvəl, hələ mən aspirant olan dövrdə demişdi. Dedi ki, qızım, elə nəsillər var ki, dərman verib onları kəsmək lazımdır (kimsə onu bərk hirsləndirmişdi), amma sizin kimi insanların nəslini hər vasitə ilə artırmaq lazımdır, çünki dünyanı sizin kimilər xilas edəcək. Deməyin ki, qeyri-təvazökardır, doğrudan da bizim nəsildə öz xarakteri və şəxsiyyəti ilə gələcəyə örnək olacaq onlarla adamlar var. Bunların içində həm böyük dövlət xadimləri, həm elm adamları, həm də adi, sadə insanlar var. Azərbaycanın ilk arxitektoru Nüsrət Quliyev, sovet dövründə respublika səviyyəsində mühüm vəzifələr tutan Ağa Quliyev, babam Ağami Quliyev, atam Aydın Quliyev, əmim Hilal Quliyev, Araz Quliyev, Özbək Quliyev, qardaşlarım Asiman və Aqil Quliyevlər...və bu sırada layiqli yeri olan Elman Quliyev. Bu qədər...



*Fikrət Quliyev*
*(qardaşı)*

## FƏXRİMİZ, SEVİMLİMİZ

O hələ uşaq vaxtlarından ədəbiyyata maraqlı idi. Orta məktəb illərində bu həvəs onda bir daha çoxaldı. Orta məktəbi əla qiymətlərlə bitirən Elman o vaxtkı Azərbaycan Pedaqoji İnstitutuna daxil oldu.

Elman artıq kənd həyatını şəhər mühiti ilə əvəzlədi. Tələbəlik illərində çoxlu bilik əldə etmək məsuliyyəti onu gecə-gündüz oxumağa həvəsləndirdi. Vaxtının çoxunu kitabxanalarda keçirdi. Başa düşdü ki, yaxşı bilik əldə etmək üçün səbirli və dözümlü olmalıdır. Ona görə də o bunun öhdəsindən gələ bildi.

İnstitut illəri arxada qaldı. Təyinatını özünün oxuduğu məktəbə aldı. Dərs dediyi müəllimlər keçmiş şagirdini gənc müəllim kimi qarşıladılar. Elman artıq bir müəllim kimi fəaliyyətə başladı. Sonrakı söhbətlərində bildirirdi ki, sinfə girdiyi günü heç vaxt yadından çıxarmayacaq. Axı o gün müstəqil əmək fəaliyyətinə başladığı ilk addım idi.

Elman müəllim həm həmkarları, həm şagirdləri, həm də yerliləri arasında az bir zamanda böyük hörmət və nüfuz qazandı. Bir qədər sonra o tədris işləri üzrə direktor müavini vəzifəsinə irəli çəkildi. Direktor və müəllimlər arasında onun hörməti daha da artdı. Kənddə olmasına baxmayaraq, Elman müəllim şəhərlə əlaqə saxlayır, əlavə ədəbiyyat əldə edir, biliyini daha da zənginləşdirirdi. Bunun sayəsində bir müddət sonra o, aspiranturaya qəbul olundu. Kənddə müəllim işləyə-işləyə aspiranturada da oxuyurdu.

1988-ci il həm onun, həm də bizim üçün yadda qalan oldu. Namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi. Əvvəllər ali təhsil aldığı institut onu öz qoynuna aldı, tələbə olduğu institutda indi müəllim kimi

işə başladı. Tələbələr qarşısında mühazirə oxumaqdan zövq alırdı. O, ilk günlərdən tələbələrin hörmətini qazanmışdı.

Elman müəllim bütün bunlarla kifayətlənmədi. Özü üzərində çalışır, elmi məqalələr yazır, kitablar çap etdirirdi.

Həmkarları arasında gənc olan Elman təvazökar və yerini biləndir. Pedaqoji və elmi fəaliyyətində də çox məsuliyyətlidir. Məzuniyyət vaxtı kəndə gələndə də qohum və tanış-bilişlərlə əlaqə saxlamağı çox xoşlayır. Özünün dediyinə görə bu, ona zövq verir. Bununla yanaşı, o, istirahətə gəlməsinə baxmayaraq, yaradıcılıqla məşğul olur, elmi fəaliyyətini davam etdirir.

Azərbaycan və Türk xalqları ədəbiyyatı onun üçün çox əzizdir. Xüsusilə də Şəhriyar yaradıcılığı. Kənddə adamlarla söhbətlərində ən çox Şəhriyardan danışır. Ana dilimizdə şirin səslənən şeirlərindən nümunələr söyləyir. Bu onun Şəhriyar yaradıcılığına necə vurulduğunu göstərir.

Elman doğma kəndini sevdiyi kimi kənd adamları da ona xüsusi hörmət bəsliyirlər. Onun kəndə gəlişi həm qohum-qardaş üçün, həm də bütün kənd sakinləri üçün bayrama çevrilir. Toy sahibləri toy günlərini onun yay məzuniyyəti günlərinə salırlar. Çünki o öz xeyir-duasını gənclərə verməklə onlara xoşbəxtlik və səadət diləyir. Onun iştirakı toy-düyünü təmtəraqlı edir və şən keçir. Elə ki, yayda kəndə gəldi, təkcə kənddən deyil, ətraf yerlərdən – Bakıdan, Lənkərandan və s. onunla görüşməyə çoxlu insanlar gəlir. Özünü çəkməyən, öz təvazökarlığı ilə hamıya eyni gözlə baxan Elman müəllim kənddə onunla görüşməyə gələnlərin qulluğunda çox vaxt özü durur. Deyir ki, belə etdikdə özümü rahat hiss edirəm. Bu, mənim canıma yatır.

Bilmirəm nəyinsə təsiridir ki, Elman kənddə olduqca xoş hisslər keçirir. Mən şəxsən doğma yurduna bu cür ürəkdən bağlanan, ürəyində hamıya yer verən, təmənnasız yaxşılıqlar edən insan təsəvvür edə bilmirəm.

Elman indi uca mərtəbədədir. Filologiya elmləri doktoru, professor, Pedaqoji Universitetin «Türk araşdırmaları» elmi-tədqiqat mərkəzinin müdiri, 20-ə yaxın monoqrafiya, dərslik, dərs vəsaiti, 150-dən çox məqalə müəllifidir. Xidmətlərinə görə ölkə prezidentinin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif olunub, neçə-neçə xarici dövlətlərin mükafatının alıb. Amma Elman bütün bunların müqabilində sadəliyini, səmimiliyini qoruyub saxlaya bilib. Elmanın böyüklüyü elə bundadır.

Mən də böyük qardaş kimi ona can sağlığı və yaradıcılıq uğurları arzulayıram. Qoy o həmişə tutduğu xoş əməllərini davam etdirsin və elimizin, obamızın başını uca etsin!



***Özübəy Quliyev***
*ehtiyatda olan polis polkovnik-leytenantı,*
*polis veteranlar şurasının sədri,*
*Qarabağ veteranı*
*(əmisi oğlu)*

## HAMI ÜÇÜN YAŞAYAN İNSAN

«Sənət adamlarının yaratdıqları onların özlərindən çox xalqa xidmət üçün yaranır.» Bu müdrik kəlamı deyən aqillər yanılmayıblar. Çünki əsl sənət xalqın xidmətində məna tapır. Böyük Məmməd Araz yazırdı:

*Qoy belə ərisin min ömrün olsa,*
*Boş anı keçməsin bir dəqiqəmin.*
*Deyirəm hamıçün yaşayıramsa,*
*Hamı da mənimçün yaşayır yəqin...*

Əziz qardaşım Elman müəllim, sən xalqımızın hamı üçün yaşayan övladlarındansan. Onun üçün də xalq, vətən yolunda bir anı da boş keçirməmisən.

Bu sətirləri çox səmimi və dərin duyğularla yazıram. Ona görə ki, səninlə birlikdə keçirdiyimiz keçmiş illərin xatirələri hələ də yaddaşımdadı. Onda ucqar dağ kəndində çopur qayaların qoynunda keçirdiyimiz qayğısız uşaqlıq çağlarının rəngarəng günləri indi ələçatmaz, ünyetməzdi. İndi sən respublikamızda tanınmış görkəmli ədəbiyyatşünas alim kimi şöhrət qazanmısan və ucalıqlara doğru pillələr addımlamaqdasan.

Keçmiş günlər yadındamı? Qalaların üstünə qalxaraq başı qar yuvası Savalanı seyr edərdik. Sən uşaq baxışlarını Savalandan bir an ayırmaz, yaşca səndən böyük olduğum üçün mənə qəribə-qəribə suallar verərdin. Vətənimizin dünəni, tarixi keçmişi barədə çox şeylər bilmək istərdin... Savalana baxa-baxa ustad Şəhriyarın «Heydərbabaya salam» poemasını əzbər söyləyərdin. Sənin zəkana, hafizənə heyran olardım. O vaxtlar hiss edərdim ki, gələcəyin parlaq, işıqlı olacaq, şəxsiyyət kimi yetişəcəksən. Yanılmadım, orta məktəbi əla qiymətlərlə bitirdin. Arzular səni indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinə gətirdi. İmtahanları müvəffəqiyyətlə verib yüksək nəticə ilə filologiya fakültəsinə qəbul oldun.

Universiteti fərqlənmə diplomu ilə bitirəndə kiçik dağ kəndi Kələxanda ata ocağında toy bayram oldu. Sonralar aspiranturaya qəbul oldun. Tale

elə gətirdi ki, ustad Şəhriyara qəlbində olan böyük məhəbbəti reallığa çevirdin, doktorluq işini onun yaradıcılığına həsr etdin. Doktorluq müdafiəndə respublikamızın tanınmış şəxsiyyətləri, alimləri iştirak etdilər.

Filologiya elmləri doktoru Xeyrulla Məmmədov səninlə fəxr etdiyini bildirərək dedi: «Elman müəllim bizim onunla fəxr edəcəyimiz, elmdə, sənətdə işıqlı gələcəyimizi quran tələbələrimizdən, gənc alimlərimizdəndir.»

Bu gözəl fikirlər sənin şəxsiyyətinə, sənətinə verilən alim qiyməti idi. Buna hər kəs sevinir, doğulduğun Lerik torpağı da fəxr edirdi.

Əziz əmioğlum, sənin doktorluq işinin müdafiə günü böyük salona gələnlərin ürəkləri sanki bahar havasına köklənmişdi. Qonaqların sayı-hesabı yox idi. Görkəmli alimimiz İsa Həbibbəyli, Lerikin keçmiş icra başçısı Füzuli Hacıyev, filologiya elmləri doktoru Qəzənfər Paşayev və respublikanın görkəmli alimlərinin böyük bir qrupu iştirakçılar arasındaydı.

Müdafiəndən sonra ziyafət məclisi keçirildi. Ziyafətdə İsa Həbibbəyli gözəl nitq söylədi. O dedi: «Mən çox müdafiələrdə iştirak etmişəm. Ancaq heç kəsin müdafiəsində belə yüksək münasibət görməmişəm. Bu gün Lerikin icra başçısı Füzuli Hacıyevin bu mötəbər məclisdə iştirakı və söz deməsi göstərir ki, Elman müəllim gənc olmasına rəğmən, həqiqətən böyük hörmət sahibidir. O, gənc alimlərimizə nümunədir.» Belə səmimi fikirləri eşidəndə qəlbimdən dəruni hisslər keçdi. Fəxr etdim ki, nəslimizin iftixarı olan sən – Elman müəllim ümumən Azərbaycan xalqının iftixarı olmağa layiqsən.

Hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetində professor kimi fəaliyyət göstərirsən. İşlədiyin elm ocağında böyük hörmətin var. Neçə-neçə monoqrafiyanın, elmi-metodik əsərlərin müəllifisən. Çoxlu elmi, bədii və publisistik kitablara redaktorluq etmisən. AYB-ın üzvüsən. Dərs dediyin tələbələrin qəlbində daim elm məşəlini yandırırsan.

Qardaşım, hələ o vaxtlarda uşaqlıq illərində alnında xoşbəxtliyin izlərini görürdüm. Hələ o zamanlarda uşaq gözlərinin dərinliklərində, uşaq baxışlarında ilahi bir təbəssümün gizləndiyini duyurdum. Bəli, sən xoşbəxtsən, əməllərinlə, qazandıqlarınla.

Dahi şəxsiyyətlərdən biri demişdir ki, müdriklik sonradan qazanılmır, o, ilahi vergidir. Müdriklik gərək insanın mənində ola. Yunan filosofu Zenon bilik və müdrikliyi əxlaqın təməl daşı adlandırırır. Doğrudan da, belədir. Sən əsl müdrik insansan. Çünki müdriklik səndə ilahi vergisidir. Keçmiş xatirələr vərəqləndikcə elə zənn edirəm ki, keçdiyimiz zaman dünəndə baş verib. Lakin arxaya boylananda görürəm ki, illərin üstünə illər gəlib. Biz artıq müdriklik çağının mənalı anlarını yaşayırıq.

Xalqımızın əziz alim oğlu, sənə uzun ömür, can sağlığı arzulayıram. Arzu edirəm ki, həyatın və elmin çətin yollarında Allah həmişə sənə yar olsun!



*Qəhrəman Quliyev*
*Lerik rayonu Kələxan kənd ərazisi üzrə icra nümayəndəsi (qardaşı)*

## QÜRUR DUYDUĞUMUZ QARDAŞ

Mən qardaşım Elman haqqında ilk dəfə yazı yazıram. Əslində uzun illərdir ki, onunla bağlı hər gün ya kimdənsə xoş sözlər eşidirəm, ya da bu barədə kiməsə mən danışıram. Amma hara gedirəmsə insanların ona hörmət bəslədiyinin şahidi oluram. Mənə elə gəlir ki, insan üçün, qardaş üçün bundan böyük fərəh ola bilməz. Elmanın xoşbəxtliyi ondadır ki, hamı ona hörmət edir, xətrini istəyir. Bütün kənd, rayon əhli bilir ki, Elman yayda istirahətə onun üçün əziz olan doğma kəndimizə gəlir. Bu ərəfədə demək olar ki, insanların əksəriyyəti məndən Elmanın nə vaxt gələcəyini soruşurlar. Buna görə bir qardaş kimi qürur duyuram. Elə ki, Elman kəndə gəldi, hamı onun başına yığışır, keçmişdən, bu gündən şirin-şirin söhbət edirlər. Amma daha çox Elmana qulaq asır, ondan çox şeylər öyrənmək istəyirlər.

Elman elm adamıdır. Elmdə ən uca zirvəyə çatmış insandır. Filologiya elmləri doktoru, professorudur. Elman elmdə təsadüfi insan deyildir. Neçə-neçə monoqrafiyanın, dərsliyin, yüzlərlə elmi məqalələrin müəllifidir. Yaradıcılığına, elmi araşdırmalarına Azərbaycan alimləri ilə yanaşı, bir sıra xarici dövlətlərin elm adamları da yüksək qiymət verirlər. Tez-tez xarici dövlətlərdə keçirilən elmi konfranslara dəvət alması, oradakı çıxışları, elmi iclaslara sədrlik etməsi onun dünya alimləri arasında nüfuzunun göstəricisidir. Hər dəfə onun elmi nailiyyətlərinə görə mükafat və diplomlara layiq görüldüyünü eşidəndə ailəmizin sevincinin həddi-hüdudu olmur. Bu yaxınlarda Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Elmanın «Tərəqqi» medalına layiq görülməsi

onun elmi, pedaqoji, ictimai fəaliyyətinə verilən yüksək qiymət idi. Fürsətdən istifadə edib cənab İlham Əliyevə bir daha minnətdarlığımızı bildiririk.

Elmanın həyat tarixçəsi bütünlüklə gözlərim önündədir. Demək olar ki, onun həyatında iz buraxmış elə bir hadisə yoxdur ki mən ona şahid olmayım. Onun orta məktəbdə oxuduğu, ali məktəbdə təhsil aldığı, kənd məktəbində işlədiyi, universitetdə çalışdığı müddətlərdə sevimli, kədərli, gərgin günlərinin şahidinə çevrilmişəm. Lakin Elmanın həyatında, taleyində elə hallar var ki, onlara şahid olmaq olar, şərik olmaq isə qeyri-mümkündür. Çünki, onun hadisələrə özünəməxsus baxışı, fərdi yanaşması var. O, bu hadisələrə çox az insanda olan ürəklə yanaşır, həmin hadisələrə heç kimdə olmayan göz ilə baxır. Böyük qardaşımız Arazın vaxtsız ölümünün onu necə sarsıtdığına, ürəyində bu günün özünə qədər qaysaq bağlamamış yaraya çevrildiyinə hamı şahiddir. Elə bilirəm ki, yubiley yazısına daxil edilmiş bu cümlələr nə oxucu üçün, nə də Elman üçün qəribə, təəccüblü olmayacaq, hansısa kədər hissi yaratmayacaq. Çünki Elman elə gün olmaz ki, bu vaxtsız ayrılığın onda yaratdığı acı hissləri yaşamasın, bu barədə düşünməsin...

Mən bir qədər əvvəl qardaşımın həyatında əlamətdar olan bir çox hadisələrə şahidliyimdən bəhs etmişdim. Bunlardan bir neçəsi haqqında söz açmağı, yenidən həmin günlərin xoş xatirələrinə qayıtmağı özümə borc bilirəm. 1988-ci ilin noyabr ayının 15-də Elman namizədlik dissertasiyasını müdafiə edirdi. Açığı bu müdafiənin həyəcanını bütün ailə yaşasa da, Elmanın sakit, həyəcansız hərəkətləri bizim diqqətimizdən yayınmırdı. Müdafiədən sonra bunun səbəbləri bizim üçün tam aydın oldu. Çünki müdafiə yüksək səviyyədə keçmişdi, Elman uğurlu giriş sözü söyləmişdi, opponentlərinin iradlarına, şura üzvlərinin suallarına dolğun cavab vermişdi və s. Müdafiə prosesinin sonunda çıxış edən elm adamlarının onun haqqında yüksək fikirlər söyləməsi həm bizim qürurumuzu, həm də ona olan ümidlərimizi artırırdı. Elmanın doktorluq dissertasiyasının müdafiəsində də biz həmin xoş hissləri yaşadıq. Məlumdur ki, onun doktorluq dissertasiyası M.Şəhriyar yaradıcılığının problemlərinə həsr olunmuşdur. Elman sözün həqiqi mənasında hazırda şəhriyarşünaslığın aparıcı mütəxəssisi hesab olunur. Bu gün onun Şəhriyarla bağlı yazdığı bir neçə kitabı tədqiqatçıların əsas istinad mənbəyidir. Həmin kitablar Təbrizdə Şəhriyarın ev muzeyində eksponat kimi sərgilənir. Bu bizim ailə və nəsilmiz üçün qürurdur. Onu da deyim ki, bu gün Azərbyacandan İrana gediş-gəliş olduqca asanlaşıb. Azərbycandan Təbrizə müxtəlif məqsədlər

üçün gedən ziyalılar Şəhriyarın ev muzeyinə baş çəkməyi özlərinə borc bilirlər. Maraqlıdır ki, Lerikdən, Lənkərandan, Biləsuvardan və s. rayonlardan Təbrizə gedib Şəhriyarın ev muzeyini ziyarət edənlər arasında bizim ailəmizi tanıyanlar Elmanın kitablarını burada gördüklərinə çox sevinir, telefon edib bizi təbrik edirlər. Bu cür təbrik zənglərinin bizim ürəyimizdə yaratdığı fərəhi sözlə ifadə etmək çətindir.

Elman qohumcanlı insandır. Nəsildə elə bir insan tapılmaz ki, onun mehribanlığından, canyanğısından danışmasın. Bizim bütün xeyir işlərimiz Elmansız keçmir. Elmanda ayrıseçkilik deyilən bir düşüncə yoxdur. O, öz oğluna, qızına necə diqqətlidirsə, qardaşı, bacısı uşaqlarına da o cür diqqət kəsilir. Elman olduqca sadə və səmimidir. İstənilən məclisdə, istənilən insanlar əhatəsində onun hansısa yüksək elmi titul, elmi dərəcəyə sahib olduğu, yaxud vəzifə daşıdığı müşahidə olunmur. 55 il insan ömrü üçün böyük hədd deyil. Elmanın xoşbəxtliyi ondadır ki, bu qısa vaxtda nə qədər yaxşı sözlər varsa adının qabağına yığa bilib: istedadlı alim, gözəl müəllim, zəhmətkeş insan, vəfalı dost, ləyaqətli vətəndaş, qayğıkeş əmi, dayı, ata, nümunəvi ailə başçısı və s. İnanmıram ki, kimsə bu sözlərə irad tapsın. Elman yaxşılıq etməyi özünə həmişə borc bilir. Görünür ki, bu səbəbdən onda minnət, təmənna deyilən xüsusiyyət müşahidə olunmur. Buna görə də Elmanı qarşıda hələ çox-çox uğurlar gözləyir. O şeylər ki Elmandan asılıdır, istənilən ağırlığa baxmayaraq, bunları etmək onun üçün çətin deyil. Buna görə də mən əziz qardaşıma Allahdan can sağlığlı arzu edirəm. Qoy onun ömrü uzun, həyatı rahat, günləri şən olsun.



***Mübariz Quliyev***
*Lerik rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin müdiri (qardaşı oğlu)*

## GÜNƏŞ TƏK NURLU

Müəllimlər müəllimi filologiya elmlər doktoru, professor Elman Quliyev-sevimli Elman əmim haqqında düşüncələrimi, yaddaşımda həkk olmuş həm kövrək, həm də şirin anları qələmə almaq istərkən ilk növbədə gözümün önündə atam Arazın parlaq siması canlandı. Qələm əlimdə titrədi, fikirlərim haçalandı. Axı bu yazı onun haqqı idi. Sevimli qardaşı haqqında o qədər deyiləsi sözü var idi ki... Lakin yenə də atamın o gülümsər çöhrəsi köməyimə yetdi, mənə Elman müəllimin yubileyi ərəfəsində bu yazını özünün jurnalist təxəyyülü ilə sanki diktə etdi.

Elman müəllimi mən ailəmizin, nəslimizin başı üstündə nur saçan bir günəşə bənzədirəm. Elə bir günəş ki, yolumuza daim işıq saçır, ömür yolumuzu elm çırağı ilə nurlandırır. Elə bir günəş ki, nəslimizin hər bir nümayəndəsinin qəlbinə istilik bəxş edir, həyatını şəfəqləndirir. Elə bir günəş ki, ürəyimizdəki ata nisgili buzunu əridə bilib.

Günəş tək nurlu bir insanın son illər qazandığı uğurlarla mən də fəxr edir, belə bir ziyalıyla qürur duyuram. Fəxr edirəm ona görə ki, o, Mövlanə Cəlaləddin Ruminin 800 illiyi ilə bağlı 2007-ci ildə YUNESKO-nun keçirdiyi beynəlxalq müsabiqənin laureatı olmuş, Özbəkistanın «Mirzə Uluğbəy» mükafatına layiq görülmüş, «İlin Alimi», «İlin Müəllimi» adını almış, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir. Elman müəllim Türk ədəbiyyatı problemlərinin öyrənilməsi sahəsindəki xidmətlərinə görə «Ən yaxşı tədqiqatçı alim» qızıl medalına layiq görülmüşdür. Bu təltiflərin siyahısı daha genişdir. Bəli qürur duyuram ki, vətənimizin belə dəyərli ziyalı alimi mənsub olduğum Quliyevlər nəslinin nümayəndəsi, mənim əmimdir.

Elman müəllimlə atam mehriban qardaş olmaqla yanaşı, həm də yaxın dost, sirdaş idilər. Söhbətləri həmişə bizim üçün də maraq doğurardı. Nədən söhbət salmazdılar: boya-başa çatdıqları kəndin tarixindən, hünərpərvər insanlarından, ecazkar təbiətindən, qayğılarından, yurda bağlılıqdan, vətən sevgisindən, Zuvandı Cənubi Azərbaycandan ayıran tikanlı məftillərdən, şeirdən, poeziyadan, Şəhriyardan...

Kələxanın gözəl təbiəti, uca dağları, göz yaşı tək dupduru kəhrizləri qoynunda boya-başa çatan Elman müəllim bu yurdun əsl vurğununa çevrilmişdir. Lakin bu yurda sevginin içində bir nisgil də vardı. Bəzən o, qalaya çıxıb həsrətlə o taya boylanar, Savalandan əsən mehi ciyərdolusu nəfəsinə çəkər, ikiyə bölünmüş Azərbaycanın başına gətirilən müsibətdən ürək ağrısı ilə söhbət açardı. Elə bu hisslər idi ki, sonralar Elman müəllim doktorluq işini o taylı-bu taylı Azərbaycan dərdini özündə yaşadan böyük Şəhriyara həsr etdi.

Elman müəllim doğmalarına, qohumlarına, dostlarına, el-obasına qəlbən bağlı bir ziyalıdır. Bu bağlılıq, bu sevgi, bu istək onun qələminin məhsulu olan dəyərli kitablarında da əks olunub. Elman müəllim «Seyid Məhəmmədhüseyn Şəhriyar» kitabının ilk səhifəsində yazır: «25 il çətin dağ şəraitində Lerikin yol-abadlıq işlərinə rəhbərlik etmiş mərhum atamın və dünyasını vaxtsız dəyişmiş nakam qardaşımın əziz ruhuna ithaf edirəm». «Türk xalqları ədəbiyyatı» kitabının ön səhifəsində isə belə bir qeyd var: «Kitabı həyatda analıq, qonşuluq, ağbirçəklik borcunu şərəflə yerinə yetirmiş, ağzı dualı, alnı möhürlü ipək anam Məşədi Rahilə xanımın və dünyasını vaxtsız dəyişmiş əziz qardaşım Arazın müqəddəs ruhlarına ithaf edirəm».

Atamdan sonra ailəmizin dayağı, sözün əsl mənasında ağsaqqalı Elman əmimdir. Bizimlə müntəzəm əlaqə saxlayır, yolu rayona düşdümü, birinci bizim qapını açar. Qayğılarımızla maraqlanır, məsləhətlərini verir, köməyini əsirgəmir. Anam, bacım Səidə, qardaşım Tahir və digər ailə üzvlərimiz bizə göstərdiyi bu hədsiz qayğıya görə ona həmişə minnətdarlıq hisslərini ifadə edirlər.

Soyadını daşıdığımız Quliyevlər nəsli təkcə Zuvand mahalında deyil, Lerikdən uzaqlarda da yaxşı tanınır. Elman müəllim də bu ulu nəslin kökünə arxalanan, budağını yaşadan ziyalılardan, vətənpərvər insanlardan biridir. İstəkli şairimiz Zəlimxan Yaqub necə də gözəl deyib:

*Oğul ol, od qoru, ocağın yaşasın,*
*Kökünə arxalan budağın yaşasın.*

*Məsləkə sirdaş ol, bayrağın yaşasın,*
*Günəş ol, səhəri sevgiylə qarşıla,*
*Yağış ol, yerə hop, torpağın yaşasın!*

Elman müəllimin yubileyi ərəfəsindəyik. Həyatda həmişə «əla» qiymətləri ilə fərqlənən və «əla» davranışları ilə hamımıza nümunə olan sevimli əmim indi iki əlanın-qoşa beşin astanasında, əhatəsindədir. Onu bağrıma basıb ailəmizin adından «55 yaşın mübarək» deyirəm. Elman müəllimə Lerik uzunömürlüyü, dağlarımız qədər ucalıq, bumbuz, dupduru kəhrizlərimiztək saflıq arzulayıram. Əlli beşi aşır, yüzü haqla, ucalığı uca saxla, Elman müəllim!



*Mirzəyeva Solmaz*
*(bacısı)*

## FƏXR OLUNAN QARDAŞ...

Hər bir bacı üçün qardaşının həyatda layiqli mövqe tutması, əməli işi ilə insanların rəğbətini qazanması, uğurlarının görkəmli şəxsiyyətlər tərəfindən yüksək qiymətləndirilməsi böyük fəxrdir. Bu mənada mənim qardaşım Elmanla qürur hissi ilə fəxr edərək öyünməyə haqqım vardır. Elman öz zəhməti, əziyyəti ilə böyük uğurlar əldə edərək millətinə, xalqına, Vətəninə layiqli övlad olmuş, insanlara, ətrafında olan hər bir şəxsə bəslədiyi məhəbbət və ehtiramını əməli işində təsdiqləmişdir.

Elmanın bu günündən danışarkən qeyri-ixtiyarı onun uşaqlıq illəri yadıma düşür, hərəkətləri, əməlləri olduğu kimi gözlərimin qarşısında canlanır. Elmanın uşaqlıq dövrü Lerik rayonunun Kələxan kəndində keçib. Kəndimiz İran İslam Respublikasının sərhəd zonasında yerləşir. Tez-tez kənd qızları sərhədin yaxınında yerləşən Əlivan adlı yerə ot yığımına gedirdilər. Elman həmin dövrlərdə azyaşlı idi. Ancaq buna baxmayaraq o, mənimlə birlikdə Əlivan adlı yerə gedir və uşaq köməkliyi ilə mənə yardımçı olmağa çalışırdı. Elman kiçik yaşlarından zəhmətə qatlaşan, ağır fiziki işdən çəkinməyən bir uşaq idi. Onun zəhmətə, əməyə olan sevgisi böyüdükcə daha da artdı. Elman evdə uşaqlıqdan hamının sevgisini qazanmışdır. Özünün sakitliyi, sözəbaxımlılığı, işgüzarlığı ilə ailə üzvlərinin sevimlisi idi. Onun zəhmətkeşliyi, elmə, təhsilə olan marağı, sevgisi məktəb illərində xüsusi ilə diqqəti çəkirdi. Evdə heç bir zaman onun dərslərə hazırlaşmasına kimlərinsə köməklik göstərməsinə ehtiyacı olmayıb. O, elmə olan həvəsi və marağı sayəsində məktəb dərslərinə ciddi hazırlaşıbdır. Çox keçmədi ki, bu istək onu hazırda elmi fəaliyyətdə olduğu Azərbaycan Dövlət Pedaqoji Universitetinə aparıb çıxardı. Elman ali təhsilini başa vu-

rub təhsil aldığı Kəlvəz kəndi orta məktəbində müəllimləri ilə çiyin-çiyinə çalışdığı illərdə də hamının, məktəb kollektivinin, kənd camaatının hörmət və məhəbbətini qazanmışdır. O, kəndin bütün ictimai işlərində, əlamətdar günlərində, insanların xeyir işlərində və digər mərasimlərində fəal iştirak edərək onlara maddi və mənəvi yardım göstərməyə çalışmışdır. Ona görə də o, hamının əzizi və doğması olmuşdur. Elman bu hörməti hazırda işlədiyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllim və tələbə kollektivində də qazanmışdır.

Elmanın mənim həyatımda, övladlarımın ali təhsil alıb, ziyalı kimi formalaşmalarında çox böyük əziyyəti olmuşdur. 1985-ci ildə həyat yoldaşımı itirdikdən sonra mən Elmanın qayğı və diqqətini daha artıq hiss etmişəm. Həmin dövrdə səhhətimdə yaranmış ciddi problemlərin, xəstəliyin aradan qalxmasında Elmanın çox böyük köməkliyi olmuşdur. Mən ağır xəstəlikdən qurtarıb övladlarımın yanına qayıtmağıma və bu günə kimi yaşamağıma görə yalnız və yalnız Elmana borcluyam. O, ağır xəstəlikdən əziyyət çəkdiyim bir dövrdə müalicə üçün məni dəfələrlə Bakı şəhərində yerləşən müxtəlif xəstəxanalara aparmışdır. Bir ata kimi qayğımı çəkərək səhhətimdə olan problemin aradan qalxmasında əvəzi ödənilə bilməyən köməklik göstərmişdir. Göydə Böyük Yaradanımız olan Allahın, yerdə isə Elmanın köməkliyi ilə mən övladlarıma qovuşmuşam. Bu mənəvi borcun qarşılığını isə vermək mümkünsüzdür. Əgər həmin dövrdə Elmanın sayəsində sağalmış olmasaydım, o halda 11 övladımın gələcək taleləri müəmmalı olardı. Ona görə də 11 övladımın ailə həyatı qurmasına, 5 oğlumun ali təhsil alıb bu gün layiqli övlad olaraq müxtəlif sahələrdə çalışmaqla xalqa xidmətlər göstərmələrinə görə daha çox Elmana minnətdaram.

Elman övladlarımın ali təhsil almasında da maddi və mənəvi yardımçım olmuşdur. Həyat yoldaşını itirmiş, eyni vaxtda 3 övladı müxtəlif universitetlərdə ali təhsil alan bir anaya maddi və mənəvi yardımçı olmaq işi Araz, Qəhrəman qardaşlarımla yanaşı, Elmanın da üzərinə düşmüşdü. Bu köməkliyi Elmandan hər bir zaman görmüşəm. Elman mənim üçün ata əvəzidir. Ona görə də qardaşım yaşda kiçik olsa da mənim üçün bir valideyn əvəzidir. Övladlarım Elmandan təkcə bir dayı kimi deyil, eyni zamanda bir valideynin edə biləcəyi qayğı görmüşdür. Elman həyatında çox şey qazanıb, lakin bu işdə onun heç bir şəxsi kömək və dayağı olmayıb. O, həyatda hər bir uğurlarını öz zəhməti hesabına əldə etmişdir. Bu uğurlara Elman yuxusuz gecələri, əziyyəti, zəhməti hesabına çatmışdır. Allah həmişə zəhmət çəkəni sevir. Ona görə də çəkilən zəhmət heç vaxt nəticə-

siz qalmır. Elman bu böyük nəslin ağsaqqalıdır. O, bir ağsaqqal kimi hər bir şəxsə köməklik etmək istəyində olub və bu istəyini əməli işində təsdiqləyib. Bu səbəbdən də, o, bizim üçün, bütöv bir nəsil üçün ağsaqqal dəyərindədir.

Elman anamızı çox istəyirdi. Anamız Rahilə Quliyeva abırlı, həyalı, ismətli, alnı möhürlü bir qadın idi. Elman hər bir işə başlamazdan əvvəl onun xeyir-duasını alırdı. Elə bilərəm ki, Elman bu gün də anamızdan xeyir-dua eşitmək istəyərdi. Ancaq bu gün anamız həyatda yoxdur. Ona görə də Elmana mən böyük bacı kimi həm öz adımdan, həm də anamız adından xeyir-dua verib arzularımı bildirmək istəyirəm:

«Əziz qardaşım Elman, Allah sənə çəkdiyin əziyyətlərin xeyrini versin. Övladlarının xeyrini görəsən. Ucalardan uca olasan. Arzu edirəm ki, daim sənin xoş soraqlarını eşidək. Gün o gün olsun ki, sənin 100 illik yubileyini qeyd edək. Sən hamıya dayaq olduğun kimi Allah da sənə dayaq olsun. Allah hər şeyi qəlbinə görə versin. Çünki sənin qəlbin gözəlliklərlə doludur».

Sənin kimi görkəmli alimin, tanınmış şəxsiyyətin bacısı olduğum üçün fəxr edirəm, əziz qardaşım.



*Quliyeva Sevda*
*(bacısı)*

## ALLAH SƏNİ HƏMİŞƏ UCA ETSİN, ƏZİZ QARDAŞIM

Bir bacı kimi qardaşım Elmanın hər bir uğuru mənim üçün şərəfdir. Onun əldə etdiyi hər bir nailiyyət nəinki ona, bütün nəslimizə baş ucalığı gətirir. Qardaşım haqqında danışmaq üçün mənə saatlarla, günlərlə, aylarla vaxt lazımdır. Qardaşım Elman həddindən artıq təmiz, sədaqətli və şəxsiyyətcə alicənab insandır.

Ömür boyu özünəməxsus həyat tərzi yaşamışdır. Bizə qarşı həmişə diqqətli olmuşdur. Mənim üçün o, çox böyük əziyyətlər çəkmişdir. Elman səxavətini məndən heç vaxt əsirgəmir, bütün ehtiyaclarımı ödəyir. Maddi və mənəvi dayaq olur.

Tez-tez çətinliyə düşəndə qardaşlarım yanımda olsa da, ən çox yük Elmanın üzərinə düşürdü. Çətinliklərlə rastlaşanda yanımda birinci onu görürəm. Hər bir çətinliyimdən onun sayəsində çıxmışam. Ailəsindən bizi heç vaxt ayırmayıb, balamı da balalarından. Qızımın toyunu da Elman edib. Hər an əlaqə saxlayır, danışır. Tez-tez zəng vurur, bircə gün zəng etməyəndə boşluq hiss edir, narahat oluram.

Yaxşılıqlarını, mənə etdiyi köməyi deməklə bitməz. İtirilmiş yaşamaq ümidini mənə o qaytarıb, mənə dayaq olub. Heç valideyinin etmədiyini mənim üçün qardaşım edib. Həmişə deyirlər valideyinin zəhmətini itirmək olmaz, amma Elmanın  zəhməti onlardan da mənə artıqdır.

Bu günkü həyat tərzimə, yaşayışıma görə Elmana minnətdaram. Elman nəslimizin fəxri, şan-şöhrəti olduğu kimi, bundan sonra da daha da uca olmağını tək Allahdan diləyirəm.



***Kərimov Şahəddin***
*iş adamı*
*(bibisi oğlu)*

## QOHUMLARIN SEVİMLİSİ, ELİMİZİN FƏXRİ

Azərbaycanın gözəl və dilbər guşələri olduqca çoxdur. Məmləkətimizin ayrı-ayrı vilayətlərinin özünə məxsus incəlikləri və gözəllikləri var. Belə gözəl mahallardan biri də Lerik rayonunun Zuvand mahalıdır.

Çox maraqlı tarixi keçmişi olan bu yerlər həmişə diqqət mərkəzində olmuşdur. Zuvand mahalı hər bir insan üçün gözəl və maraqlı olduğu qədər mənə daha yaxın və doğma sayılır. Ona görə ki, mənim anam rəhmətlik Sona xanım Zuvand mahalının Kələxan kəndində anadan olmuşdur. İlk öncə qeyd edim ki, mən uşaqlıqda bu kəndə tez-tez gedər, dayı uşaqları ilə həmişə sıx ünsiyyətdə olardım.

Dayım Hilal kişi dövrünün gözəl bir ziyalı şəxsi olub. O, rayonun müxtəlif məsul vəzifələrində çalışmış və yüksək hörmət qazanmışdır. Hilal dayım həmişə ehtiyacı olan insanlara kömək edər, öz vətəninə, xalqına yorulmadan, əzmlə xidmət edərdi. Dayım həmişə öz sözünün qiymətini və kəsərini bilən bir ziyalı kimi tanınıb. Bütün bu xüsusiyyətlər nə yaxşı ki, onun oğlu, yəni dayım oğlu Elman müəllimdə də əks olunub.

Elman yaşca məndən kiçik olsa da, biz tez-tez görüşər və maraqlı söhbətlər edərdik. O, hələ uşaq vaxtı öz dostları, qohum-əqraba arasında böyük hörmət qazanıb. Özündən böyüklərə həmişə hörmətlə yanaşar, kiçiklərə çox həssas qayğı göstərirdi. Elman üzərinə düşən məsuliyyəti dərk edər və öz üzərində çox çalışırdı. Məhz onun öz kökünə malik irsi xüsusiyyətlər onun nümunəvi vətəndaş kimi yetişməsinə dəlalət edir.

Elman artıq gənclik dövründə daha mütərəqqi bir gənc olmaqla öz xalqına bağlı olan bir şəxs kimi formalaşıb. Onun bu xüsusiyyətləri onu orta məktəbi nümunəvi bitirərək ali məktəbə daxil olmasına şərait yarat-

dı. Mən bibi oğlu kimi onun uğuruna çox sevindim. Elman artıq ali məktəbi də yüksək nəticələrlə başa vuraraq ADPU-də 1991-ci ildə müəllim kimi fəaliyyətə başladı. ADPU-də tez bir vaxt ərzində müəllimlər və tələbələr arasında hörmət qazandı. Onun öz üzərində çalışqanlığı onu təkcə müəllimlik fəaliyyəti çərçivəsinə sığmayıb, gözəl tədqiqatçı kimi də formalaşıb. Elman müəllim artıq doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru dərəcəsi qazanmışdır.

Qeyd etdiyim kimi o, öz xalqını ürəkdən sevən bir şəxs olduğu üçün türk xalqlarının ədəbiyyatı və onun tarixi haqqında əsərlərin, məqalələrin müəllifidir. Demək olar ki, onun bütün əsərlərini ardıcıl oxuyub belə qərara gəlmişəm ki, Elman müəllim çox dərin tarixi araşdırmaların izindədir.

Deyərdim ki, o bütün bu fəaliyyəti ilə bərabər, ictimai işlərdən də geri qalmır. Onun qardaş türk dövlətlərinin ayrı-ayrı elm adamları ilə sıx əlaqəsi var. Universitetdə oxuyan türk tələbələri ona xüsusi hörmət göstərir, onun tədqiqatlarından istifadə edirlər. Bütün bunlarla yanaşı Elman müəllim öz dostları, qohum-əqrabaları ilə də yaxından ünsiyyətdə olan bir insandır. Elə bir qohum-əqraba məclisi olmaz ki, Elman orada iştirak etməsin və öz maraqlı iştirakı ilə yadda qalmasın. Onun insanlarla çox gözəl və səmimi ünsiyyət xüsusiyyətləri var. Deyərdim ki, Elman sadə, eyni zamanda təvazökar bir insandır. Bəzən fikirləşirsən ki, bütün bu işləri bir insan necə də görüb başa vura bilər. Lakin fikirləşdikcə bunun sadə bir cavabını tapırsan. Bunun üçün gərək Elman müəllim kimi sadə, geniş qəlbli və yorulmaz bir insan olasan. İşlərinin çox olmasına baxmayaraq, Elman müəllim tez-tez öz doğma kəndinə, rayonuna, eyni zamanda bibisi uşaqlarına baş çəkmək üçün Kiravud kəndinə gedər və hər bir qohumla ayrı-ayrılıqda maraqlanar, onların sevincinə sevinc qatar, kədərinə səbir diləyər. O çalışır ki, ondan kömək uman hər bir şəxsə bacardığı qədər kömək etsin.

Bir dəfə söhbət zamanı Elman mənə dedi: «Şahəddin, mənə bir məsləhət ver, mən hara getsəm orada sakitlik, dinclik tapa bilərəm?» Bu sual mənə bir qədər təəccüblü gəldi, amma bunun sadə bir cavabı vardı.

Dedim dayı oğlu, sənin ki, belə geniş qəlbli ürəyin var, sən heç vaxt dinclik tapa bilməyəcəksən. Çünki, sən hara getsən kimlərəsə adi gələn bir problem sənin diqqətini cəlb edəcək, istər ədəbi problemlər, istərsə də, adi insanların müxtəlif problemləri. Sən onlardan ayrı özünü rahat hiss edə bilməzsən.

Bəzən mənə zəng vuraraq, hansısa bir tədqiqat əsərində nəyəsə nail

olduğu barədə sevincini bölüşür. Hiss edirəm ki, o, məhz belə dəqiqələrdə dinclik tapır. Bu işlərin içində olan bir insan kimi o, türk xalqlarının tarixi keçmişinin necə də çətin və şərəfli olduğunu daha çox dərindən dərk edir.

Biz inanırıq ki, Elman müəllim bu şərəfli və məsuliyyətli işdə daha çox müvəfəqiyyətlər əldə edəcək və gənclərimiz onun bu tədqiqat nəticələrindən istifadə edəcək. Gələcək nəsillər Türkün həmişə Türk olduğunu bir daha duyacaqlar.

Bibi oğlu kimi, istərsə də onun elmi fəaliyyətini izləyən bir insan kimi həmişə onunla fəxr edirəm.

Bir haşiyəyə çıxmaq yerinə düşərdi. Bir dəfə Elman müəllimə zəng vurub hal-əhvalını soruşdum. O, hər şeyə görə Allaha şükr edib, bir şeydən gileyləndi. Dedi:

– Şahəddin məndə həmişə çatmayan zaman intervalıdır. Bəzən bütöv sutka da mənim bir günlük işlərimi başa vurmağa bəs etmir. Mən isə gülümsəyərək dedim:

– Elman müəllim, Siz nə qədər öz işinizdə yorulmadan çalışıb zövq alırsınızsa, hər bir qohum-əqraba, dost, qonşu və bir sözlə, Sizə ehtiyacı olan hər bir şəxsə fərdi olaraq diqqət ayırırsınızsa, zamanın hər bir problemini özünüzün problemi sanaraq onlara sinə gərib mübarizə aparırsınızsa, Sizə bir həftə bir sutka civarında olsa belə yenədə kifayət etməyəcək. Məhz elə buna görə də Siz, istər qohum-əqraba, istərsə də sadə xalq və ziyalılar arasında həmişə seviləcəksiniz.

Bu işinizdə sizə uğurlar, Allahdan cansağlığı diləyi ilə bibin oğlu Şahəddin!



*Ruslan Mirzəyev*
*Şirvan şəhər Hüquq*
*məsləhətxanasının müdiri*
*(bacısı oğlu)*

# İSTEDADLI ALİM, XEYİRXAH VƏ QAYĞIKEŞ İNSAN...

Müəllim üçün ən yüksək mükafat tələbə, şagird məhəbbətini qazanmaqdır. S.M.Qənizadənin fikrincə desək «Müəllimin evi kitabxana, dövləti şagirdlər, sazı və nəğməsi şagirdlərin sədası, qazancı isə millətinin məhəbbəti və etimadıdır». Sanki bu sözlər həyatda dayım olan, məktəb partası arxasında müəllimim olmuş Elman müəllim haqqında deyilib. Bu mənada Elman müəllimin tələbələrinin simasında gələcək ziyalıların mənən zənginləşməsi, onların milli-mənəvi, əxlaqi dəyərləri mənimsəməsi, ədəbi-bədii dünyamızı öyrənməsi istiqamətində göstərdiyi xidmətləri bir xoşbəxt ömrün göstəricisidir.

Şəxsiyyətinə və elmi uğurlarına pərəstiş edərək rəğbət bəslədiyim dayım Elman müəllim hər bir kəsə nəsib olmayan əsl ziyalılıq keyfiyyətləri ilə ətrafdakıların daima rəğbətini qazanmışdır. O, geniş dünyagörüşlü, qohum-əqrəbasını, dostunu sevən, xeyirxah, xalqına, Vətəninə xidmət etməyi bacaran, daima elmi axtarışlarda olan bir ziyalıdır. Onun öz xarakterində, elmi-pedaqoji və digər sahələrdə olan fəaliyyətində nümayiş etdirdiyi şəxsi keyfiyyətləri əsl ziyalılıq nümunəsidir. O, həmişə hər bir şəxsə köməklik etmək istəyində olmuş və bu istəyini əməli işində sübuta yetirmişdir. Bu keyfiyyətlərlə yoğrulmuş həyat yolu hər bir insanı həyatda xoşbəxtlik zirvəsinə yüksəldir.

Elman müəllim həyatda qazandığı bütün uğurlarını öz zəhməti ilə, heç bir şəxsin köməyi və dayağı olmadan əldə etmişdir. Qədim mütəfəkkirlərdən birinin sözüdür: «Həyatda qazanılmış uğurlar o zaman daha qiy-

mətli olur ki, həmin uğurlar zəhmət hesabına əldə edilmiş olsun». Bu baxımdan Elman dayı həyatda bəxti gətirən xoşbəxt şəxslərdəndir. O, sözün həqiqi mənasında bir ziyalı, sözünü demiş alim, səmimi insandır. Heç təsadüfü deyildir ki, Elman müəllim qeyd olunmuş keyfiyyətləri ilə istər elmi yaradıcılıq səviyyəsində və istərsə də ictimaiyyət arasında yüksək nüfuz sahibidir.

Bu gün Elman müəllim Azərbaycan Dövlət Pedaqoji Universitetində tədris etdiyi fənnin elmi sirlərini tələbələrinə uğurla öyrədir. Həmin tələbələr də müəllimindən əldə etdikləri biliyi Respublikanın müxtəlif bölgələrində gələcəyin ziyalılarına  tədris edirlər. Elman müəllimin onlarca tələbəsi bugünkü gündə onunla çiyin-çiyinə çalışaraq elmi axtarışları və tədqiqatları ilə elmə töhfələrini verir, bununla da Azərbaycan ədəbiyyatının araşdırılmasında, öyrənilməsində uğurlara imza atırlar.

Elman müəllim Vətənini, xalqını sevən və bu sevgisini elmi-pedaqoji fəaliyyətinə yönəldən bir alimdir. Onun Müasir Azərbaycan ədəbiyyatının problemləri, Türk və Şərq xalqları  ədəbiyyatı, Cənubi Azərbaycan ədəbiyyatı, xüsusi ilə Məmmədhüseyn Şəhriyyar, Əli Tudə, Söhrab Tahirin yaradıcılıqları üzrə olan elmi axtarışları alimlər tərəfindən yüksək qiymətləndirilir. Elman müəllimin elmi araşdırmaları üzrə apardığı tədqiqatlar da Vətən sevgisi ilə əlaqəli olmuşdur. Əsl vətəndaş doğma Vətənini sevməli, bu sevgini əməli işi ilə təsdiqləməli, yüksək savada və dünyagörüşə malik olmalı, dilinə, tarixinə, ədəbiyyatına, milli adət-ənənələrinə, soykökünə hörmət bəsləməli, işi ilə xalqının hərtərəfli inkişafına öz töhfəsini verməlidir. Qeyd olunan keyfiyyətlərin dayım Elman müəllimdə olması onun xalqımızın əsl vətəndaşı olmasını şərtləndirir. Bu səbəbdən də Elman dayının  şəxsiyyəti mənim üçün bir örnək nümunəsidir.

Elman müəllim nüfuzlu, elmdə sözünü demiş bir alim olmaqla bərabər, həm də dost, tanış üçün, qohum-əqrəba üçün bir fədakarlıq, xeyirxahlıq təcəssümüdür. O, qohum-əqrəbasına ürəkdən bağlı olan bir şəxsdir. Bu səbəbdəndir ki, qohumların, yaxınların bütün ailə tədbirlərində, xoş günlərində, müxtəlif  mərasimlərində ürəkdən iştirak edir, onlara yardım göstərməyə çalışır. Heç təsadüfi deyil ki, biz Elman dayıdan təkcə dayı kimi deyil, eyni zamanda bir valideyn kimi qayğı  görmüşük. Bu səbəbdən də mənim hansı yaşda, hansı səviyyədə olmağımdan asılı olmayaraq daima Elman dayıdan  öyüd-nəsihət və məsləhətlər eşitməyə mənəvi ehtiyacım vardır.

Elman müəllim təkcə yaxınlarına deyil, bütün insanlara daima xeyirxahlıq etməyi sevir. Kiməsə köməklik göstərərsə heç vaxt qarşı tərəf-

dən təmənna ummaz. Bəzən qeyri-ixtiyarı düşünürəm: Elman dayı yalnız xeyirxah işlər və insanlara yalnız yaxşılıq etmək üçün yaranıbdır. Onunla ünsiyyətdə hər bir şəxs onun necə böyük bir qəlbə malik olan, həyatda ən yüksək mövqedə duran, sözü ilə əməli bir olan şəxs olduğunun şahidi olur.

Elman dayı mənim məktəb partası arxasında olarkən etdiyi tövsiyələri, tələbkarlığı, təhsil almağıma, elmi səviyyə əldə etməyimə olan təsiri ilə həyatda özümə layiqli mövqe tutmağıma, uğurlar qazanmağıma yardımçı olmuşdur. Belə ki, mən Lerik rayonunun Kəlvəz kənd orta məktəbinin IX-X siniflərində təhsil alarkən Elman müəllim mənim Azərbaycan dili və ədəbiyyatı fənni üzrə müəllimim olmuşdur. Həmin dövrlərə qayıdarkən Elman müəllimin sərt baxışları, kəskin sözləri, tələbkarlığı, ciddiliyi yadıma düşür. Onun dərsində heç bir şagird artıq hərəkətlər etməyə cürət etməzdi. Hamı dərsi sakitcə dinləməyə, nəyi isə öyrənib müəllimə danışmağa çalışırdı. Məktəbdən qayıdıb evə gələrkən Elman dayının sərt şəkildə tez-tez söylədiyi «get dərslərini oxu» sözləri bu gün də qulaqlarımda səslənir. Elə bu xatirələr səbəbindəndir ki, mən özümü daima Elman dayımın yanında şagird kimi hiss edirəm.

Hal-hazırda mən Elman müəllimdən almış olduğum elmin faydasını görürəm. Çünki bu müəllimdən öyrəndiklərim məndə humanitar fənlərə bir maraq və sevgi oyatmışdır. Həmin maraq və sevgi məni əvvəlcə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinə, oradan da Bakı Dövlət Universitetinin hüquqşünas fakültəsinə aparıb çıxarmışdır. Ona görə də mən Elman müəllimlə həm də müəllimim kimi fəxr edirəm.

Sadə və təvazökar insan, öz şərəfli peşəsi və həyat yolu ilə çoxlarına nümunə olan Elman dayını yaxınlaşan 55 illik yubileyi münasibəti ilə təbrik edir, ona uzun ömür, can sağlığı, şərəfli və çətin elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayıram.

Bu gün mən filologiya elmlər doktoru, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, istedadlı alim, dayım və müəllimim olan Elman dayımla fəxr edirəm. Eşq olsun belə dayıya! Böyük Yaradan Elman dayını onun özündən daha çox elmimizin inkişafı üçün , qohum-əqrəbası, dostları üçün qorusun! Amin!...



*Mirzəyev Altay*

*Lerik rayon polis şöbəsinin İstintaq qrupunun müstəntiqi, polis kapitanı (bacısı oğlu)*

## ŞƏRƏFLİ VƏ BÖYÜK HƏYAT YOLU KEÇMİŞ ƏZİZ DAYIM

Tanrı hər bir insana ömrü bir dəfə verir. İnsan da yaşadıqca bəzən dönüb ötən günlərinə, geridə qoyduğu ömrə nəzər salır. Görəsən necə ömür sürüb? Yaşadığı günlərin işığı, istisi kiminsə ömrünə aydınlıq, hərarət gətiribmi? Kiməsə arxa-dayaq olubmu? Deyirlər həyat özü bir səhnədir. Hər kəs bu səhnədə öz rolunu oynayır. Kimi mənfi, kimi isə müsbət «obraz» rolunda.

55 illik bir dövrü arxada qoyan sevimli dayım, Azərbaycan ədəbiyyatşünaslığının tanınmış simalarından biri olan Elman Quliyev barəsində bü gün mən fəxarətlə, böyük qürur hissi ilə danışa bilərəm. O, doğurdan da, bu günədək yaxınları, doğmaları, onu tanıyan hər bir şəxs üçün, ümumən isə Vətəni üçün yaşamış, cəmiyyətdə özünə layiqli yer tutmuşdur. Onu tanıyan hər kəs Elman müəllimin nə qədər sadə, qayğıkeş və təvazökar bir insan olduğunu bilir. O, özünə şərəfli bir peşə seçmişdir. Elman dayı istər orta məktəbdə müəllim işlədiyi dövrdə, istərsə də bu gün Azərbaycan Pedaqoji Universitetində fəaliyyət göstərərkən dərs dediyi şagird və tələbələr həmişə onun yüksək mənəvi keyfiyyətlərini, qayğıkeşliyini və böyük qəlbə sahib olduğunu görmüşlər. Onun yetişdirdiyi tələbələr bu gün Respublikanın müxtəlif rayonlarında gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olaraq onlara elmin sirlərini öyrədirlər.

Elman müəllimin doğulub, boya çatdığı Kəlaxan kəndi coğrafi şəraitinə görə dəniz səviyyəsindən xeyli hündürlükdə yerləşir. Oranın təmiz havası, saf suyu insan üçün sağlamlıq və ilham mənbəyidir. Həmin saf sudan, təmiz havadan və ucalıqdandır ki, Elman müəllim də bu gün saflığı, təmizliyi ilə seçilmiş, uca məqamlara yetişə bilmişdir. O, mənsub olduğu böyük Quliyevlər nəslinə, kökünə daima bağlı olmuş, atası Hilal Quliyev və uzun müddət Respublika Prokurorluğuna rəhbərlik etmiş əmisi Ağa Quliyevin qazandıqları ad-sanı daha da yüksəklərə qaldırmışdır. Elman dayı həyatda nə qazanmışdırsa, bütün bunları kimsənin köməyi olmadan

əldə etmişdir. O, zəhmətkeş və çətinliklərə sinə gərməyi, sınaqlardan üzüağ çıxmağı bacaran bir insandır. Dahilərin bir sözü var; «ya olduğun kimi görün, ya da göründüyün kimi ol». Elman müəllim necə vardırsa, belə də görünür.

Böyük şairimiz Bəxtiyar Vahabzadənin həyatın fəlsəfəsi barədə yazdığı bir şeir yadıma düşür;

*Yaşamaq yanmaqdır, yanasan gərək,*
*Həyatın mənası yalnız ondadır.*
*Şam əgər yanmırsa, yaşamır demək,*
*Onun da həyatı yanmağındadır.*

Elman müəllim bu günədək yaşadığı ömrü yaxınlarına, övladlarına, şagird və tələbələrinə, ən əsası isə ürəkdən sevdiyi böyük Vətəninə həsr etmişdir. O, yorulmadan elmi axtarışlarını davam etdirir, Azərbaycan ədəbiyyatşünaslıq elmini öz tədqiqatları ilə daha da zənginləşdirir, gənc alimlərin yetişməsində əməyini əsirgəmir.

O, türkologiya, Azərbaycan ədəbiyyatşünaslığı, şərqşünaslıq elmlərində öz sözünü demiş görkəmli alimdir. Elman Quliyev dedikdə eyni zamanda ilk növbədə Cənubi Azərbaycan ədəbiyyatının tanınmış şairi Seyid Məmmədhüseyn Şəhriyar yada düşür. Belə ki, doktorluq dissertasiyası tələbləri daxilində ilk dəfə olaraq Şəhriyar yaradıcılığı Elman müəllim tərəfindən tədqiq olunmağa başlanmış, onun barəsində neçə-neçə kitablar, elmi məqalələr, monoqrafiyalar ərsəyə gətirmişdir. Demək olar ki, Şəhriyarı Azərbaycan ədəbiyyatşünaslığında tam halda Elman müəllim tədqiq etmişdir. Bundan başqa, onun türk və Şərq xalqları ədəbiyyatı sahəsində əldə etdiyi elmi araşdırmaları bu gün respublikanın ali təhsil məktəblərində tədris olunur. Elman Quliyevin xidmətləri Dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən o, «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

Elman dayı bütün qohumlar kimi bizim üçün də əvəzedilməzdir. 1986-cı ildə atamızı vaxtsız itirdikdən sonra o, anamıza və bizə böyük mənəvi dayaq olmuş, qayğımıza qalmış, hər birimizə doğru yol göstərmiş, öyüd-nəsihətlərini əsirgəməmiş, demək olar ki, bütün məclislərimizin bəzəyi olmuşdur.

Mən də onu sevən bütün insanlar kimi şərəfli və böyük bir həyat yolu keçmiş, sadə və qayğıkeş insan dayım Elman Quliyevi 55 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı, elmi-pedaqoji fəaliyyətində daha yüksək uğurlar və ailə səadəti arzulayıram. Arzum budur ki, Elman müəllim bundan sonra da ən azı 55 illik bir ömür yaşasın. Yenə də hamıya nümunə olası bir ömür.



***Tahir Quliyev***
*Dövlət Yol Polisi əməkdaşı, polis kapitanı*
*(qardaşı oğlu)*

## XEYİRXAH MƏSLƏKLİ İNSAN

Yazıçı və şair olmasam da, xeyirxah insan, geniş ürək sahibi, gözəl əmim Quliyev Elman Hilal oğlu barəsində ürək sözlərimi deməyə mən də özümü borclu hesab edirəm. Əslində söz adamı haqqında söz demək böyük cəsarət tələb edir. Mənə isə bu cəsarəti heç şübhəsiz hörmət və məhəbbətim bəxş edir.

Elman əminin yazdığı dərsliklər, kitablar Azərbaycanda və eləcə də bir neçə dövlətlərdə sevilə-sevilə oxunur, rəğbətlə qarşılanır və istifadə edilir. Mən onun kitablarını kitabxanalarda, evlərdə, tələbə əllərində gördükdə ürəyim dağa dönür. Təbrizdə Şəhriyarın ev muzeyində əmimin kitablarının yer alması bizim üçün xüsusi qürurdur. Onun kitabları bu gün ölkədə kadr hazırlığında da əhəmiyyət kəsb edir. Belə kitablardan bəhrələnən tələbələr gələcəkdə ixtisaslı müəllim və savadlı kadr kimi yetişərək yeni nəsillərdən öz bilik və bacarığını əsirgəməyəcəklər. Mənə elə gəlir ki, bir insanın bu qədər iş görməsi tanrı vergisidr.

Möhtərəm Prezidentimiz İlham Əliyevin sərəncamı ilə 18 aprel 2012-ci il tarixdə əmim Elman Quliyev «Tərəqqi» medalı ilə təltif olunanda, bir neçə dəfə ayrı-ayrı vaxtlarda ilin alimi adına layiq görüləndə və Azərbaycan dövlətinin nümayəndəsi kimi xarici dövlətlərdə olarkən onu mavi ekranda görəndə sevincimin həddi-hüdudu olmamışdır.

Mənim çılğınlıq dövrüm Elman əminin Kəlvəz kənd orta məktəbində müəllim işlədiyi dövrə təsadüf edir. Həmin dövrdə əməyə alışmağımda, zərərli vərdişlərdən kənarlaşdırılmağımda, eləcə də bir insan kimi formalaşmağımda onun rolu çox olmuşdur. İlk dəfə də uşaq olanda məni o,

Bakı şəhərinə aparmışdır. Bakıya getməzdən əvvəlki gecə Masallı rayonunun Qızılağac kəndində dostu Əlizaman müəllimin evində yatarkən səhərə kimi sevindiyimdən gözümə yuxu getmədi. Ona görə ki, ilk dəfə Bakıya gedirdim. Bu mətni yaza-yaza həmin keçmiş günlərin xoş xatirələri bir kino lenti kimi gözümün önündə canlanır. Evdə kiçiklər onu balacaların dilində desək, həmişə «qaqaş» adlandırırdılar. Doğrudan da aylar, illər keçəndən sonra deyilənlər öz yerini tapdı, Elman əmi bizə və çoxlarına əsl qardaş, arxa kimi çətin vaxtlarda, hətta öz ehtiyacı ola-ola da belə köməyini heç kimdən əsirgəmədi. Elman əmi eşitdimyə görə də uşaqlıq illərindən zəhmətə qatılmışdır. O, vəzifəli şəxsin ailəsində doğulub boya-başa çatsa belə, zəhmətdən uzaq olmamışdır. Babam Hilal Quliyev  uzun illər kolxoz sədri, yol idarəsinin müdiri vəzifələrində işləmişdir, yəni əlində hər imkanı olsa da, ancaq Elman əmi gəncliyində də özü zəhmətə əl atmışdır. Həmin zəhmətdir ki, hal-hazırda onu elm sahəsində zirvələrə ucaltmışdır.

Ümumiyyətlə, Lerik rayonunun Kələxan kəndindən olan Quliyevlər nəslinin nümayəndələri mötəbər insanlar kimi tanınmışlar. Bu nəslin üzvləri təkcə Lerik rayonunda deyil respublika səviyyəsində tanınır. Həmin nəslin tanınmağının səbəblərindən biri də bu nəsildən olanlar mühüm rəhbər vəzifələrdə olsalar belə xalqın, el-obanın içində olmaları, bir süfrə başında oturub çörək kəsmələri, özlərinin maddi ehtiyacları ola-ola da tikələrini kasıblarardan əsirgəməmələri olmuşdur. Burada bir əlavə etmək istəyirəm ki, köhnə adamlar babam Hilal Quliyev haqqında mənə xatirələr danışanda bildirirlər ki, o, Lerik rayon yol idarəsinin müdiri işləyəndə, hansı ki, texnikanın və avtomobillərin az olduğu, ancaq yük maşınları olduğu dövrdə yolda gedəndə hər hansı qadın görəndə müdir və yaşlı olsa da özü düşüb yük avtomobilinin kuzasına minərdi, həmin qadınları isə kabinaya əyləşdirərdi. Məhz Elman Quliyev belə nəslin nümayəndəsidir ki, böyüklərindən bunu görüb götürmüşdür. Atalar sözü var ki, «ot kökü üstə bitər». Elman əmi də həmin kök üstə dayanaraq gözəl əməllər sahibi olmuşdur və nəslinin adət – ənənəsini davam etdirmişdir. Başqa cür ola da bilməzdi. Mən xidməti işimlə əlaqədar Lerik rayonu və digər qonşu rayon ərazilərində olanda tanımadığım adamlar məndən soruşurlar ki, sən kimsən, haralısan? Cavab verəndə ki, Zuvandın Kələxan kəndindən Quliyevlər nəslinin nümayəndəsiyəm, təkcə bu mənə bəs edir, tanıyan şəxslər bu nəslin böyüklərinin yaxşı və xeyirxah əməllərindən o qədər danışırlar ki, bu da iş yoldaşlarımın arasında mənüm üçün fərəhdir. Ona görə mən də həmişə çalışıram ki, böyüklərimin xeyirxah yolunu davam etdirim.

Elman əmi haqqında xoş xatirələrimi yazarkən qəlbimdə bir nisgil baş qaldırır. Həmin nisgil ata nisgilidir. Atam Araz Quliyev vaxtsız dünyasını dəyişsə də, Elman əmi bütün çətinlikləri öz üzərinə götürərək ata yoxluğunu bizə hiss etdirmədi. Mən atamın iyini həmişə ondan alıram. Çünki mənə elə gəlir ki, onlar eyni canda, eyni fikirdə olan adamlardır. Yəqin ki, Elman əminin bu cür yüksəlişini səbirsizliklə gözləyən, lakin həmin yüksəlişi bu gün görməyən atamın ruhu onun bu nailiyyətlərinə görə şad olacaq. Ona görə də bütün nailiyyətlərinizə, xeyirxahlığınıza görə Sizə və bu maraqlı ömür yolunda sizinlə birlikdə çətinlikləri, zəhməti bərabər paylaşan, bizim əziyyətimizi çəkən həyat yoldaşınız Səbirə xanıma şəxsən minnətdarlığımı bildirirəm.

Elman əmi, Sizi 55 yaş münasibətilə ürəkdən təbrik edirəm, sizə dünyanın ən gözəl neməti olan can sağlığı, ailə səadəti, yaradıcılıq fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram və bütün yaxınlarım kimi mən də Sizin adınızla fəxr edirəm.



***Baxşıyev Cavid***
*Riyad-Farm MMC-nin şöbə müdiri*
*(kürəkəni)*

## AD GÜNÜNÜZ MÜBARƏK

Mən Elman müəllim haqqında nə deyə bilərəm. Elman müəllim Respublikada tanınmış alim, gözəl nüfuza malik bir şəxsiyyətdir. O, hər zaman dövlətinə, millətinə və el-obasına bağlı bir insan olmaqla yanaşı, gözəl ailə başçısı, mehriban qohum, səmimi və hər kəsə vəfalı bir insandır. O, müstəqil dövlətimizin çiçəklənməsində, elmimizin inkişafında çox böyük işlər görmüş, böyük və çoxşaxəli pedaqoji fəaliyyəti sahəsində misilsiz uğurlar qazanmış, respublikamızın tərəqqisi naminə çalışan dəyərli kadrlar yetişdirmiş, ölkəmizin bütün bölgələrində bir pedaqoq kimi çox böyük bir nüfuz qazanmışdır. Onun həyat yolu çoxlarına, əsasən gənc nəslə böyük bir örnəkdir. Bunu onun dərsliklərindən, əsərlərindən və məqalələrindən daha aydın görmək olar. Elman müəllimi tanıyan insanlardan onun haqqında yalnız xoş sözlər eşitmək olar. O, həmçinin tariximizin gözəl bilicisidir. Elman müəllim təkcə ölkəmizdə deyil, hətta respublikamızın hüdudlarından kənarda da böyük nüfuza malik bir alimdir. Bunlarla yanaşı mən də öz adımdan deyə bilərəm ki, Elman müəllim nümunəvi ailə başçısı, övladlarına gözəl ata, nəvələrinə qayğıkeş bir babadır.

Elman müəllim! 55 yaş insan ömrünün kamillik və müdriklik çağıdır. Bu yaş münasibəti ilə Sizi səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, can sağlığı və şərəfli həyat yolunuzda daim müvəffəqiyyətlər arzu edirəm.



*İlahə Bağırova*
*(baldızı qızı)*

# QAYĞIMI ÇƏKƏN İNSAN

Elman əmi haqqında fikir bildirmək üçün mənim ürəyimdən gələn kəlmələr azlıq edər. Mən Elman əmini ata kimi bilirəm, arxam, dayağım hesab edirəm. O, çox gözəl insan, xeyirxah, ürəyiaçıq, qəlbi saf və daima ürəyində Allah qorxusu və sevgisi olan şəxsdir. İnşallah Allah yaratdığı bu gözəl bəndəsinə etdiyi bütün yaxşı əməllərinin mükafatını daima verər. Mən də çox sevdiyim Elman əmimə can sağlığı və qəlbinin istədiyi ən kiçik arzudan ən böyük arzuya qədər bütün istəklərinin çin olması dua edirəm.

Elman əmi! Səni çox, lap çox istəyirəm.



*Şükürova Günay*
*(bacısı qızı, müəllimə)*

## FƏXR ETDİYİM DAYI

Bu başdan deyim ki, ürəyimdən keçənləri ifadə etməyə çalışacağam. Bu haqqda danışmaq mənim üçün olduqca sevinc və şərəflidir. Dayım olduğu üçün demirəm, həqiqətən də o, çox böyük insandır...

Günlərlə danışsam sözüm bitməz. Bu neçə illər ərzində mən qürurla öz dayımdan söhbət açıb, fərəhlə ondan bəhs etmişəm.

Elman dayını tanıdan yaxşı əməlləridir. Nəinki mənə, bütün qohum-əqrəbamıza əzizdir. Çünki dayım bizimçün böyük işlər görüb, əziyyətimizi çəkib... Bu cür qayğıkeş, mehriban dayı hər insanın qarşısına çıxmır, həyatda tək-tək olur... Qonşuluqdakı rəfiqələrim həmişə mənə deyirlər: «Kaş ki, bizim də belə dayımız olaydı». Mənə yaxşılıqları çox olub, hansı birini deyim, düşünürəm ki, bunları sadalamaqla qurtarmaz. Keçmişə nəzər salıb əvvəllər baş verən hadisələri, uşaqlıqda yaşadıqlarımı yada salmaq mənim üçün çətindir. Yəqin ki, bizi tanıyanlar mənim nə demək istədiyimi anlayacaqlar. Elman dayı bizi o zaman qanadı altına aldı.

Dayım Elman bizə olduqca çox bağlıdır, tək bizim üçün deyil, bütün ətrafı üçün çox işlər görüb. Mənim və anamın bütün çətinlikləri onun üzərinə düşüb.

Qohumlarımın uğurları dayım Elmanın etdiyi seçimlərdən başlayır. Müəllim sənətini də mənə o, məsləhət görüb. Hal-hazırda müəllim işlədiyimçün dayıma minnətdaram.

Dayım haqqında danışmaqla qurtarmaz. Ömrünün hər anını yaradıcılıqla keçirir. Yaratdığı əsərlər hər biri özlüyündə tərifə layiqdir. Kitablarının ilk səhifəsində babamın, nənəmin, dayılarımın xatirələrini yad etməsi məni olduqca sevindirir. Hər yeni kitabı çıxanda mənə imzasıyla hədiyyə etməsi mənim üçün böyük hədiyyə olmaqla yanaşı, həm də mənim üçün bir qürurdur. O, sədaqətli və doğru sevən insandır.

Etiraf edirəm ki, Elman dayım bu günki gündə də mənə arxa və dayaqdır. Mən dayımla fəxr edirəm. Arzu edirəm ki, bəşər övladı ümumilikdə dayım kimi sadə, qayğıkeş... olsun. O, doğurdan da tərifə layiqdir. Allah onu bizə çox görməsin.

ŞİRİN ARZULAR...

DOĞMA HİSSLƏR...

XOŞ DİLƏKLƏR...



*Elmar Quliyev*
*Azərbaycan Respublikası*
*Daxili İşlər Nazirliyi*
*Baş Dövlət Yol Polisi*
*idarəsinin müstəntiqi*
*(oğlu)*

## ATAMLA HƏMİŞƏ FƏXR ETMİŞƏM

«Ot öz kökü üzərində bitər» deyib atalarımız, kök nə qədər sağlam, dayanıqlı, möhkəm olsa, bir o qədər uzunömürlü və qüsursuz yaşamı təmin edər. Hər bir insan da cəmiyyətdə yaşadığı vaxtda onun ruhunu və cismini qidalandıran kökə, soya və ən əsası bünövrəyə bağlıdır. Bu, əcdadlarımızdan bizlərə ötürülən mənəvi gücün təməlidir. Gözlə görünməyən, mahiyyəti tam açılmayan bu təməl insanın cəmiyyətdə formalaşmasında, hər hansı mövqeyi nümayiş etdirməsində, özünə uyğun yer tutmasında vacib meyarlardandır. Bu, insanın həyatda vicdanlı, şərəfli və səmimi yaşamasını təmin edir. O insan xoşbəxtdir ki o, valideynləri, kökü ilə fəxr edə bilsin və qürur hissi keçirsin. Ulu tanrım bu hissi məndən əsirgəmədiyi üçün ona həmişə minnətdarlıq və şükür etmişəm.

Atam Lerik rayonunun ən ucqar kəndi olan Kələxan kəndində anadan olmuşdur. Bu ucqar və balaca kəndin «yaddaş»ında böyük tarixi həqiqətlərlə yanaşı, vahid Azərbaycanın tikanli məftillərlə ikiyə ayrılmasının acı xatirələri də həkk olunub. Həmin «yaddaş» zaman-zaman insan düşüncələrini «qidalandıraraq» onların ruhunun milli istiqamətdə dəyişməsində, xarakterinin formalaşmasında mühüm rol oynayıb. Təbii gözəllikləri, ucalığı, Tanrı dərgahına yaxınlığı ilə seçilən bir məkanda atamın anadan olması onun cəmiyyəti dərk etmə və ictimai-siyasi proseslərə münasibətində fərqli baxışlarının formalaşmasına təsirsiz qalmamışdır.

Ağlım kəsəndən bəri atamı kitabsız, kitabı da atamsız təsəvvür etməmişəm. Ən qəribəsi isə budur ki, kitaba qarşı olan sevgi onda elə bir səviyyədə öz təcəssümünü tapmışdır ki, o, mütaliə zamanı sanki öz rahatlığını tapır və bundan mənəvi həzz alır. Saatlarla atamın masa arxasında əyləşib oradan ayrılmamasının, zehni əziyyət hesabına yazdıqlarını bitirib ilk oxucuları olan ailə üzvlərinə oxuduqda daxili məmnunluğunun şahidi

olmuşam. Onun kitaba, sözə, elmə verdiyi dəyər, bu barədə söylədiyi fikirlər şəxsən mənim üçün bir övlad kimi yaşam prinsipinə çevrilmişdir. Məhz atamın istər Azərbaycanda, istərsə də beynəlxalq aləmdə çalışdığı sahədə özünü təsdiqinin və almış olduğu çoxsaylı titulların kökündə bunlar dayanır. Çoxsaylı elmi əsərlərin, məqalələrin, dərs vəsaitlərinin müəllifi olmasına baxmayaraq, onun içində olan yaradıcılıq həvəsi insanda o təəssüratı yaradır ki, sanki o, elmi yaradıcılığının başlanğıcındadır. Dəfələrlə atamla oturub fikirlərimizi bölüşən zaman, «nə vaxt istirahətinə vaxt ayıracaqsan?» təkidli sualımıza «mən istirahətimi məhz mütaliə edərkən tapıram» cavabı atamın öz peşəsini necə sevdiyini və onunla nəfəs almasını bir daha təsdiq edir.

Atam peşəsinə bağlılığı ilə yanaşı, həmçinin ailəsinə, övladlarına, nəvələrinə də bağlı bir insandır. O, nəinki gözəl ata, həmçinin gözəl babadır. Asudə vaxtlarını bütövlüklə ailəsinə sərf edərək kiçik problemlərimizin həllində belə övladlarının sıxıntı çəkməməsini təmin etmişdir. Atam bir övlad kimi hər mənada mənə dəstək olmuş, mənə düzgün yol göstərmişdir. Ailə üzvlərimiz arasında və ikimiz arasında olan söhbətlər zamanı atamız bizə həmişə məsləhət görmüşdür ki, həyatda çətinliklərə sinə gər, qürurla yaşa, heç bir şeyə əyilmə, ailəyə, vətənə sadiq ol. Bu sözlərin mənasını mən yaşa dolduqca başa düşür və zaman-zaman anlamağa başlayıram. Həqiqətən də, cəmiyyətdə qürurlu yaşamaqdan gözəl nemət və var-dövlət yoxdur. Əziyyət ilə əldə edilən nemət həm şirin, həm də uzunömürlü olur, fərqi yoxdur, istər maddi, istərsə də mənəvi nemətlər olsun. Mən həmin mənəvi nemətləri deyirəm ki, hal-hazırkı cəmiyyətdə onlara sahib olmaq və həmin dəyərləri qorumaq çox çətindir. Mənim üçün atam həm də qeyd etdiyim mənada əvəzsiz nümunə və müqəddəs bir məktəbdir.

Mən atamda böyüyə hörmətin, kiçiklərə nəvazişin, ailəyə qayğının nümunəsini görmüş və çalışdığım qədər ondan çox şeylər öyrənmişəm. Lakin mənim üçün atam elə bir xəzinədir ki, həmin qiymətli xəzinə qapılarının kiçik bir hissəsini adlamaqdan ötrü mənə uzun müddət vaxt lazımdır. Arzu edirəm ki, Allah atama o qədər ömür versin ki, mən ömrümün axırına qədər atamın sahib olduğu xəzinədən bəhrələnə bilim. Allah onu mənim və bizim ailəmizin başının üstündən əskik etməsin. Çünki bizim həmişə ona ehtiyacımız var və olacaq.

Əziz ata, səni ad günün münasibəti ilə səmimi qəlblə təbrik edirəm. Neçə yaşının olmasından asılı olmayaraq, sən bizim üçün həmişə cavansan və başımızın tacısan. Arzu edirəm ki, Allah bizim başımızın üstündən sənin parlaq işığını əskik etməsin. Ad günün mübarək, əziz ata! Səninlə fəxr edən və sənə layiq oğul olmağa çalışan oğlun Elmar...



*Könül Quliyeva*
*(gəlini)*

# BƏNZƏRİ OLMAYAN AİLƏ BAŞÇISI

*Oxumasını bilsən hər insanın bir kitab olduğunu görəcəksən.*
***William E. Channing***

İnsanlar haqqında söylənilən hər hansı bir fikir sözün məsuliyyətinə dəlalət edir. Yəni deyilən fikir digər insanlar tərəfindən də qeyd edildiyi kimi qəbul edilməlidir ki, sözün dəyəri olsun. Bir gəlin kimi mənim Elman müəllim haqqında fikir söyləməyim mənim üçün həm dəyərli, həm də məsuliyyətlidir. Bir söz adamı haqqında fikir söyləmək mənim məsuliyyətimi daha da artırır. Mən Elman müəllimi Quliyevlər ailəsinə gəlin gəldiyim gündən tanımışam. Ailəyə çox qısa müddət bundan əvvəl daxil olmağıma baxmayaraq, Elman müəllimin səmimiliyi, ailəyə bağlılığı və gəlin kimi mənə atalıq qayğısı bu qısa vaxt kəsiyini elə bir formaya salmışdır ki, sanki mən onu illərdir ki, tanıyıram. Qəribəsi budur ki, hər keçən gün mən Elman müəllimin müsbət mənada tanımadığım tərəfini tanıyır və onu kəşf edirəm. Elman müəllim həm gözəl ata, ağsaqqal, həm də bənzəri olmayan ailə başçısıdır. Ailənin ən kiçik məsələlərini təkbaşına və qayğı ilə yerinə yetirir, uşaqla uşaq, böyüklə böyük kimi davranır. Məhz onun bu xüsusiyyəti ailəsi və övladları arasında valideynlik dəyərindən başqa, bir insan kimi dəyərini də əvəzsiz edir.

İnsanın hələ körpə vaxtlarından qayğısını çəkən valideynləri onun ilk böyükləri sayılır. Daha sonra o, ətrafında olan yaşca ondan böyük adamlara böyük gözü ilə baxmağa başlayır. Artıq həddi-buluğa çatdıqda insanın bu adamlardan bəzilərinə, hətta dünyadan köçsələr, belə hörməti

daha da artır. İnsanın böyüklərə verdiyi dəyər onun özünə verdiyi dəyərlə birbaşa əlaqəlidir. Mən Elman müəllimin yüksəx əxlaqi dəyər nümunəsi kimi öz ailəsində olan böyüklərinə, ağsaqqallarına, xüsusən, erkən dünyasını dəyişmiş mərhum qardaşı Araz Quliyevlə bağlı düşüncələrini eşitdikdə mənə bir daha aydın oldu ki, o, mənəvi dəyərləri özündə cəmləyən mükəmməl bir insandır.

Bəşər övladı doğulduğu vaxtdan dünyasını dəyişdiyi vaxta qədər fərqinə varsa da, varmasada əməlləri və işləri ilə müəyyən bir tarix yaradır. Mən insanı bir kitaba, onun yaratdıqlarını isə kitabın səhifələrinə bənzədirəm. Kitabın dəyəri və onun səhifələrinin sayı şəxslərə görə dəyişir. O şəxs xoşbəxtdir ki, öz kitabını səhifələdikdə yaratdıqlarına görə qürur hissi keçirir. Elman müəllim məhz belə insanlardandır. Ailə başçısı kimi sağlam ailə təməlini qurub, övladlarını böyük əziyyətlə boya-başa çatdırıb, onlara ali təhsil verib cəmiyyətə yararlı insan kimi yetişdirib, pedaqoji fəaliyyəti ilə isə on minlərlə tələbəyə həyat yolu göstərə bilib. Elm okeanından zərrə-zərrə toplanılan nemətlərin insanlara ötürülməsi Allahın buyurduğu vacib əməllərdən biridir. Elman müəllimin gərgin zehni əməyi nəticəsində yazmış olduğu çoxsaylı kitablar bir daha təsdiq edir ki, alim kimi o, Allahın buyurduğu vacib vəzifəni layiqincə yerinə yetirir.

Ömrünün 55-ci baharını yaşayan qaynatamı ad günü münasibəsi ilə təbrik edir, ona uzun ömür, can sağlığı arzulayıram. Ulu Tanrıdan diləyirəm ki, Elman müəllimi bizim ailəmizin və Quliyevlər nəslinin başından heç vaxt əskik etməsin.



*Ülkər Baxşıyeva*
*(qızı)*

# ƏZİZ ATAM

*«Ağıllı adam həmişə sənət və hünər əldə edib ad qoymağa çalışır.»*
***«Kəlilə və Dimnə»dən***

İlk dəfədir ki, əlimdə qələm atam haqqında təəssüratlarımı yazıram. Bu yazını yazmaq mənim üçün nə qədər şərəfli olsa da, bir o qədər də məsuliyyətlidir. Çox gözəl demişlər ki, valideynə ən azı ona görə hörmət etmək lazımdır ki, onların hər ikisi səninlə yaradan arasında vasitədir. Deməli sən özünə və yaradana hörmət etdiyin qədər, öz vasitəçilərinə də hörmət etməlisən. Valideyn haqqını biz övladlar heç vaxt heç nə ilə qaytara bilmərik. Əziz atam, Siz çox gözəl atasınız. Siz Allah tərəfindən bizə bəxş edilmiş zəngin xəzinəsiniz. Ucsuz-bucaqsız ümmanların sonu olmadığı kimi bizim də Sizə olan sevgimizin sonu yoxdur, mavi gözlü dənizlərdəki ləpələrin pıçıltısına insan qulaq asdıqca doymadığı kimi, Sizin də sözlərinizin şirinliyindən doymaq olmur.

Atam hər zaman öz üzərində çalışan gözəl bir alim, çox duyğusal, həssas, zərif qəlbə malik, xeyirxah, qonaqpərvər, elinə-obasına bağlı, təmkinli bir insandır. Əgər atalıq dəyərlərini ölçə biləcək bir meyar olsaydı, o zaman atam ən qayğıkeş, övladlarına min bir tellə bağlı olan, onların yolunda canından keçməyə belə hazır olan və eyni zamanda da övlad sevgisinin ən yüksək zirvəsini fəth etmiş bir ata kimi dəyərini alardı. Əziz atam, Siz bizim döyünən ürəyimiz, aldığımız nəfəs, gözümüzün nurusunuz. Qardaşım və bacımın da adından deyə bilərəm ki, həyatda Sizə bağlı olduğumuz qədər ikinci bir kəs yoxdur. Bizim hər qazandığımız uğur Sizin gözlərinizdə sevincə, çöhrənizdə təbəssümə və qəlbinizdə qürura çev-

rilir. Bu uğurların müqabilində Sizin bu hissləriniz bizim üçün ən dəyərli və qiymətli mükafatdır. Biz artıq böyüsək də, müstəqil həyata qədəm qoysaq da, Sizin gözünüzdə hələ də uşaq kimiyik. Sizin diqqətiniz, qayğınız və sevginiz bizi daima bir kölgə kimi izləyir və qoruyur.

Atam çox həssas, alicənab, ziyalı bir insandır. İnsanlarla davranışında bu cəhət özünü büruzə verir. Hər zaman bizə tövsiyələrində deyir ki, danışmazdan əvvəl yüz ölçün, sonra sözünüzü deyin ki, kiminsə qəlbində inciklik yaranmasın. Gözəl bir şeirdə deyildiyi kimi:

*Deyilməmiş sözləri deyə bilərsən hər an*
*Lakin deyilmiş sözü qaytara bilməz insan!*

Ağlımız kəsəndən bu günə qədər atamızın nümunəvi hərəkətləri, onun tərbiyəvi nəsihətlərinin təsiri altında böyümüşük və bu gün də onun bizə göstərdiyi düzgün istiqamətin xeyrini görürük. Ailə daxili hər hansı bir məsələnin müzakirəsində atam hər birimizin fikrini ayrı-ayrılıqda öyrənir, lakin son qərarı özü verir. Atam çox uzaqgörən, təmkinli, tələbkar, qayğıkeş, zarafatcıl, səmimi, sakit təbiətli, xeyirxah, bütün qohum-əqrəbanı öz qanadı altına yığmağı bacaran, qapalılığı sevməyən bir insandır. Həmişə atamın işdən evə qayıtmasını səbirsizliklə gözləmişik. Çünki onun gəlişi ilə evdə xoş bir ab-hava yaranır, ilk növbədə bizim gün ərzində nə ilə məşğul olduğumuzla, dərslərmizdə hansı uğurlar qazanmağımızla maraqlanar və bundan çox fərəh hissi keçirərdi. Hər gün bizimlə 1-2 saat müəyyən tərbiyəvi söhbətlər aparardı. Atamızdan eşitdiyimiz bu ibrətamiz nəsihətlər müəyyən yeniyetməlik yaşımıza çatdıqda bizim müsbət mənada formalaşmağımızda böyük rol oynamışdır. Atamızın «valideyni uşağın fərəhi yaşadar» sözləri bizim üçün bir deviz olmuşdur. Bizim də atamıza verə biləcək fərəh hissi dərslərimizi yaxşı oxumaq, özümüzü tərbiyəli, nümunəvi göstərməkdən ibarət ola bilərdi. Məncə, biz bu hissi atamıza həmişə yaşatmışıq.

Atamın hər yeni kitabı onun yeni bir uğurudur, bütün bunları o, ağır zəhmət, yuxusuz gecələr hesabına qazanmışdır. Gecə nə vaxt oyansaydım, onun otağının işığı yanardı, yaxınlaşdıqda görərdim ki, atam yazı yazır, kitablarla işləyir.

1991-ci ildə M.Şəhriyarın şeirləri əsasında tərtib etdiyi «Gəldim sizi görməyə» adlı miniatür kitabındakı şeirlərdən birinin mövzusuna uyğun olaraq, bir balaca qızla oğlanın yamacda otların üstündə əl-ələ tutub qaçması səhnəsi təsvir olunmuşdur. Atamın xahişi ilə, rəssam həmin səhnəni qardaşımla mənim simamıza, üz cizgilərimizə, boyumuza uyğun olaraq təsvir etmişdir. Mənim o zaman 3 yaşım var idi. İndi o şəkli görəndə çox

sevinirəm, əlbəttə ki, bu, atamın bizə olan sonsuz sevgilərindən birinə nümunə ola bilər.

Mənim digər uşaqlardan üstünlüyüm, bir xoşbəxt cəhətim ondan ibarətdir ki, atam həm də mənim müəllimim olmuşdur. İki il bakalavr pilləsində, iki il də magistratura pilləsində Elman müəllim mənə dərs deyib. Bir müəllim kimi də atamla bağlı xatirələrim çoxdur. Hərdən nostalji hisslərə dalanda, o əziz tələbəlik illəri üçün elə darıxıram ki, lap burnumun ucu göynəyir. Elman müəllim öz fənnini çox gözəl bilən, savadlı, tələbkar, fənnini tələbəyə sevdirməyi bacaran, bütün tələbələrin sevgisini qazanan və seçilən bir müəllimdir. 90 dəqiqəlik mühazirənin hardan başlayıb harda bitməsini biz hiss etməzdik, bir də görərdik ki, artıq tənəffüsdür. Bütün bunlara o, bol-bol, yeni elmi faktlarla zəngin, yorucu olmayan, şirin və axıcı danışıq tərzi, üslubu nəticəsində nail olurdu. Elman müəllimin dərsində auditoriyada tam sakitlik olardı, hamı bir nəfər kimi onu diqqətlə dinləyərdi. Çox vaxt uşaqlardan eşidərdim ki, Elman müəllimin daha bir mühazirəsi olsaydı, məmnuniyyətlə dinləyərdik. Elman müəllimlə tələbələr arasında təkcə tələbə-müəllim münasibəti deyil, eyni zamanda ata-övlad münasibəti də yaşanırdı. Mən bunun dəfələrlə şahidi olmuşam ki, tələbələr öz problemlərini, hər hansısa bir çətinliklərini ona deməkdən çəkinməzdilər, əksinə ürək isindirib tam səmimi bir dialoq qurardılar. Mənə bir hal xoş gələrdi ki, tələbələri atamın tədris etdiyi «Türk xalqları ədəbiyyatı» və «XX əsr Azərbaycan ədəbiyyatı» fənlərini fənnin adları ilə deyil, «Elman müəllimin dərsi» kimi adlandırardılar.

Həyatda mənim idealım atamdır. O, xaraktercə ziyalı bir insandır. Bu xüsusiyyət ailəmizin ruhuna kök atmışdır, bizim formalaşmağımıza da təsirini göstərmişdir. Mən qürur hissi keçirir və fəxr edirəm ki, Elman Quliyev kimi bir şəxsiyyətin, şöhrəti nəinki respublikada, həmçinin respublikadan kənarda yayılmış bir alimin, çoxsaylı kitablar, dərsliklər, monoqrafiyalar müəllifi olan bir professorun, sözün həqiqi mənasında gözəl bir ziyalının, xeyirxah əməlləri ilə hamının sevgisini qazanmış insanın övladıyam. Mən atamı 55 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edirəm, ona həyatda ən gözəl nemət olan can sağlığı, uzun ömür arzulayıram. Əziz atam, Sizə ömür nərdivanının ən yüksək mərtəbələri olan 80, 90, 100-cü mərtəbəsinə də indiki şuxluq, indiki təravətlə qalxmağı arzu edirəm.



*Fidan Quliyeva*
*(qızı)*

## MƏNƏ HAMIDAN ƏZİZ VƏ SEVİMLİ ATAM

Mən atamı çox sevirəm. Atam çox gülərüz, mehriban, xeyirxah, qonaqpərvər, geniş ürəyə malik bir insandır. Atam əlindən gələn qədər hamıya yaxşılıq etməyi özünə borc bilir. Həmişə deyir ki, «Bir anlığa özünüzü həmin insanin yerinə qoyun, o zaman onun nə hisslər keçirdiyini anlayacaqsınız. Heç kəsə laqeyd, biganə yanaşmayın». Bu sözlərdə doğurdan da, böyük bir həqiqət vardır.

Onun övladlarına olan məhəbbəti ölçüyə gəlməyəcək dərəcədədir. Mən bunu əminliklə deyə bilərəm ki, qardaşım Elmardan, bacım Ülkərdən də çox atam məni istəyir. Bunun səbəbi isə evin sonbeşiyi olmağımdan irəli gəlir. Mən artıq böyüsəm də, atamın gözündə hələ uşaq kimiyəm, o, mənim nazımı çox çəkir. Atam məni sanki balaca uşaq kimi əzizləyir, işdə olduğu müddətdə tez-tez mənə zəng vurur və əhvalımla maraqlanır. Bu sualı isə hər gün eşidirəm: «Fidaş, evə gələndə səninçün nə alım?»

Biz balaca olduğumuz zamanda atam Türkiyədə keçirilən elmi konfransların birinə dəvət aldığından bir həftəlik ora getməli oldu. İlk dəfə idi ki, atamızdan bu qədər aralı qalırdıq. Atam ailəsinə çox bağlı adam olduğundan istirahətini belə bizimlə qurar, bizsiz istirahət etməyi sevməz. Bu səbəbdən idi ki, biz üçümüz də atamız üçün darıxdığımızdan xəstələndik, hətta hərarətimiz belə yüksəldi. Anam çox narahat olmuşdu. Maraqlısı budur ki, atam səfərdən qayıdan kimi, üçümüz də yerimizdən qalxdıq, sevincimizdən xəstəlik də yadımızdan çıxdı.

Atam bizi tez-tez başqa rayonlara, müxtəlif teatrlara, muzeylərə, şəhərmizin görməli yerlərinə, ən çox da Lerikə aparır. Biz Lerikə həmişə

yay tətillərində ailəliklə gedirik. Lakin ilin digər fəsillərində atam rayona getdikdə məni də özü ilə aparır. Onunla yol yoldaşı olmaq da çox maraqlıdır, adam heç darıxmır. Maraqlı söhbətləri ilə, Lerik meşələrində salınan çox gözəl istirahət mərkəzlərini gəzdirə-gəzdirə beş saatlıq yolun nə zaman sona çatdığını adam heç hiss etmir. Bütün bunlar atamın mənə olan sonsuz sevgisindən irəli gəlir. Bir faktı da vurğulayım ki, adi günlərdə belə, yorğun vaxtları olsa da mənimlə gəzməyə getməyi çox sevir. Biz birlikdə müxtəlif yerlərə gedirik, məni əyləncə mərkəzlərinə aparmaqdan, mənim üçün bazarlıq etməkdən çox zövq alır.

Atam çox qonaqpərvər, elinə-obasına, Kələxan kəndimizə, el camaatına, qohum-əqrəbaya sıx bağlı olan, onlarla tez-tez əlaqə saxlayan bir insandır. O, dəvət aldığı bütün məclislərin hamısında iştirak etməyi özünə borc bilir. Bizə də həmişə nəsihətlərində deyir ki, qohum-əqrəba ilə, el camaatı ilə həmişə əlaqə saxlayın, əlinizdən gələn yaxşılığı əsirgəməyin. İnsanlara heç vaxt pislik etməyin. Çünki etdiyiniz yaxşılıq da, pislik də haçansa qabağınıza çıxacaqdır, ona görə də pislik etməkdən uzaq olun.

Mən gözümü açandan evimizi həmişə qonaq-qaralı görmüşəm. Kimliyindən asılı olmayaraq atam hamını güləruzlə, çox səmimi, mehribancasına qarşılamış və onların evimizdən bir parça çörək kəsməmiş, çay içməmiş getməsinə imkan verməzdi. Atam çox gözəl yumor hissinə malikdir. Ən adi əhvalatları belə şirin, məzəli formada çatdırmağı bacarır. Onun baməzə zarafatları, səmimi söhbətləri hamıda çox şux, şən əhval-ruhiyyə yaradır.

Mən atamı 55 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edirəm. Ona ən əsası can sağlığı, uzun ömür arzulayıram. Atamın kölgəsini üzərimizdə hiss etdikdə biz hamımız ailəlikcə özümüzü çox xoşbəxt hiss edirik. Atama işlərində yeni-yeni uğurlar, müvəffəqiyyətlər və elmi fəaliyyətində daha da yüksək zirvələri fəth etməyi arzulayıram. Əziz atam, əgər bizi xoşbəxt görmək istəyirsənsə çox yaşa.



*Quliyeva Səbirə*
*(həyat yoldaşı)*

## AİLƏMİZİN FƏRƏHİ, HAMIMIZIN ÜMİDİ

Elman gözəl ömür-gün yoldaşı, ailə başçısı, mehriban, qayğıkeş ata və səmimi bir insandır. O həm də bütün nəslin qayğıkeşi və ağsaqqalıdır. Hədsiz dərəcədə qürurlu olan bu insan haqqında nə qədər xoş sözlər desəm də yenə də az olar. O, öz eli, obası, kəndi ilə nəfəs alan bir insandır. Bakıda yaşamağımıza baxmayaraq, hər gün öz doğma kəndi Kələxanla bağlı xoş xatirələr yada salır, xəyalən bizi keçmişə aparır. O, elcanlı adamdır. Məncə, ömrümün sonuna kimi bu sevgi ondan tükənməyəcək. O, xalqın xidmətində durmağı özü üçün şərəf və borc bilir. Əlindən gələni heç kəsdən əsirgəmir. Hətta imkanı xaricində olan xahişləri də yerinə yetirməyə çalışır. Həyatın sevinci də, kədəri də bu şəxsin qəlbini titrədir. Bu günə qədər onda biganəlik, saxtakarlıq görməmişəm. O, çox xeyirxahdır. Onun dedikləri ailədə hamı üçün çox dəyərlidir. O, nə deyərsə, bütün ailə onu qəbul edir və fayda tapır. Təvazökarlıqdan uzaq olsa da, qeyd etmək istərdim ki, onun elmi-nüfuzu Azərbaycanla məhdudlaşmır. Türkiyə, İran, İraq, Şimali Kipr alimlərinin ona etdiyi müraciətlər və Elmanın onlara verdiyi elmi məsləhətlər bütün ailə üzvlərimizdə qürur hissi oyadır.

Qeyd etmək istərdim ki, o həm də çox mehriban babadır. O, nəvələri Cəlil və Fuadı sevə-sevə əzizləyir. Ən yorğun anlarında belə öz istirahətini nəvələri ilə qurur. Onları oynatdıqda «balalarımı gördüm, bütün yorğunluğum canımdan çıxdı» deyir. Balaca Cəlil əlini açıb qucağına qaçdıq-

da və üzündən öpüb ona «baba» dedikdə Elmanın gözlərindəki sevincin həddi-hüdudu olmur, o da uşaq kimi sevinir. Bu ilin qədəmləri bizə düşərli olacaq, onun baba kimi sevincinə daha bir sevinc qatılacaq. Tezliklə daha bir gözəl balamız ailəmizə qədəmlərini basacaq. Bütün ailə üzvlərimiz onun gəlişini çox səbirsizliklə gözləyir.

Mən ömür-gün yoldaşım Elmanı ad günü münasibətilə ürəkdən təbrik edirəm, ona uzun ömür, can sağlığı, elmi fəaliyyətində uğurlar arzulayıram. Arzu edirəm ki, onun bütün arzuları çiçəklənib ömrünü bir çələng kimi bəzəsin.

## KİTABLARI

1. M.Şəhriyar. Gəldim Sizi görməyə. Bakı, 1991 (tərtib və ön söz).
2. S.Tahir. Lirika. Bakı, 1992 (tərtib və ön söz).
3. Mirzə İbrahimov: Ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri. Bakı, 1997 (dərs vəsaiti).
4. Seyid Məhəmmədhüseyn Şəhriyar. Bakı, 1999 (monoqrafiya).
5. Müasir özbək ədəbiyyatı tarixi. Bakı, 1999 (dərslik).
6. "Heydərbabaya salam" necə varsa. Bakı, 2001 (monoqrafiya).
7. Türkiyə türk ədəbiyyatı, Bakı, 2003 (dərslik).
8. Şəhriyar. "Heydərbabaya salam". Bakı, 2004 (tərtib və ön söz)
9. Şəhriyar poeziyası və milli təkamül. Bakı, 2004 (monoqrafiya).
10. Heydərbabaya salam" necə varsa. Bakı, 2004 (təkmilləşdirilmiş və yenidən işlənilmiş nəşri).
11. Şəhriyar poetikası. Bakı, 2006 (monoqrafiya), prof.H.Qasımovla birlikdə.
12. Türkiyə türk ədəbiyyatı. Bakı, 2007 (dərslik) (II nəşri).
13. Türk xalqları ədəbiyyatı. Bakı, 2008 (dərslik).
14. Özbək ədəbiyyatı. Bakı, 2009 (dərslik, təkmilləşdirilmiş II nəşr).
15. Türk xalqları ədəbiyyatı. Bakı, 2009 (dərslik, təkmilləşdirilmiş II nəşr).
16. Türk xalqları ədəbiyyatının yaradıcılıq problemləri. Bakı, ADPU, 2010 (həmmüəlliflərlə).
17. Orta əsrlər türk xalqları ədəbiyyatı. Bakı, ADPU, 2010.
18. Türk xalqları ədəbiyyatı. Bakı, "Constant Empire", 2011.
19. Şərq xalqları ədəbiyyatı (2 cilddə). Bakı, "Constant Empire", 2011.
20. Qədim və orta əsrlər türk xalqları ədəbiyyatı. Bakı, ADPU, 2012.

## PROQRAMLARI

1. Türk xalqları ədəbiyyatı. Bakı, 1998 (tədris proqramı) bakalavr təhsili üçün.
2. Şərq xalqları ədəbiyyatı. Bakı, 1998 (tədris proqramı) bakalavr təhsili üçün.
3. Ümumtürk ədəbiyyatı. Bakı, 2005 (tədris proqramı) magistratura təhsili üçün.
4. Qədim türk ədəbiyyatı. Bakı, 2010 (tədris proqramı) magistratura təhsili üçün.
5. Türkiyə türk ədəbiyyatı (XIX-XX əsrlər). Bakı, 2011 magistratura təhsili üçün.

## MƏQALƏ, TEZİS VƏ RƏYLƏR

1. Balalara hədiyyə. "Azərbaycan müəllimi" qəzeti, 26 aprel 1994-cü il.
2. Bayatılar. "Azərbaycan müəllimi" qəzeti, 01 avqust 1986-cı il.
3. Realist sənətkar. "Azərbaycan müəllimi" qəzeti, 17 oktyabr 1986.
4. M.İbrahimov romanlarında realizm. Azərbaycan ali məktəbləri aspirantlarının IX respublika elmi konfransının materialları. Bakı, 1987, səh.5-7.
5. Gözəl təbiət lövhələri. "Azərbaycan təbiəti" jurnalı, 1987, N3.
6. M.İbrahimovun "Böyük dayaq" romanında realizm. "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalı, 1988, N2, səh.45-46.
7. Ədəbiyyatşünaslığın əsasları. "Azərbaycan müəllimi" qəzeti, 17 aprel 1989.
8. M.İbrahimovun yaradıcılığında realizmin təzahür formaları. Azərbaycan ali məktəb aspirantlarının VIII respublika elmi konfransının tezislər məruzəsi (II cild). Bakı, 1985, səh.75.
9. M.İbrahimovun ədəbi-tənqidi fəaliyyəti haqqında. "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalı, 1986, N2, səh.21-22.
10. Şəhriyarın nəşri və tədqiqi tarixindən. "Novruz" qəzeti, 30 iyun 1991.
11. Ümmandan damlalar. "İki sahil" qəzeti, 5 dekabr 1991.
12. "Türkiyəyə xəyali səfər". "Azərbaycanın səsi" qəzeti, 16 aprel 1992.
13. "Gəldim sizi görməyə". "İki sahil" qəzeti, 14 may 1992.
14. "Ölümsüzlük". "Azərbaycan" qəzeti, 20 yanvar 1991.
15. Hər iki tay vətəndir. M.Şəhriyar "Gəldim sizi görməyə" miniatür kitabına yazılmış ön söz. Bakı, 1992, səh.5-8.
16. İki tale arasında. S.Tahir. Lirika. (miniatür kitaba yazılmış müqəddimə). Bakı, 1992, səh.5-9.
17. Poeziya və milli şüur. "Etnopsixologiya və etnopedaqogika. Mənbələr və müasir problemlər" Respublika elmi konfransının tezisləri. Bakı, 9-10 noyabr, 1992, səh.129-130.
18. Şəhriyar yaradıcılığında vətənpərvərlik mövzusu. Respublika praktiki konfransının tezisləri. 25-26 aprel, 1994, səh.78-79.
19. Şəhriyarın sənət görüşləri. "Xalq qəzeti", 22 oktyabr 1996.
20. Şəhriyarın estetik görüşləri. "Əhrar" qəzeti (İran), 3-10 dey, 1375 (25 dekabr - 4 yanvar 1996-97).
21. Ədəbiyyat nəzəriyyəsi. "Xalq qəzeti", 22 fevral 1997.
22. Şəhriyar və klassik ədəbiyyat. Pedaqoji Universitet xəbərləri. Humanitar elmlər seriyası, 1997, N1, səh.14-18.
23. Şəhriyar işığından hərə bir pay götürdü. "Avrasiya" qəzeti, 26 aprel, 1998-ci il.
24. M.Şəhriyarın "Heydərbabaya salam" poemasının ilk nəşri və bəzi mülahizələr. "Sosial rifah" qəzeti, 11-18 sentyabr, 1998, səh.7.
25. M.Şəhriyarın "Heydərbabaya salam" poemasının ilk nəşri və bəzi mülahizələr. "Sosial rifah" qəzeti, 18-25 sentyabr, 1998, səh.3.

26. Türk dünyasının layiqli övladı (Ç.Aytmatov - 70). "Dövran" qəzeti, 1998, 13 dekabr, səh.4.
27. Tanrı şairi Yunus İmrə. "Piyam-e-nou" (Yeni söz). İran, Təbriz, 29 mah 1377 (1998), N17, səh.9.
28. Şair haqqında monoqrafiya. "Ədəbiyyat qəzeti", 5 fevral, 1999 (X.Məmmədovla birlikdə).
29. Ustad Şəhriyarın sənətkarlığı. ADPU-nun Humanitar elmlər seriyası. Bakı, 1998, N1, səh.174-179.
30. Cənub poeziyası və şeirin poetik ənənəsi. Aspirantların və gənc tədqiqatçıların respublika elmi konfransının materialları. 11-12 fevral, 1998, II hissə, səh.13-14.
31. Səsin gəlmir, ey Şəhriyar, hardasan? Dövran-qəzan. 15 may 1999, N92, səh.8.
32. M.Şəhriyar və millilik. "Gülüstan" jurnalı, may, 2000-ci il, N4, səh.47-48 (Türkiyə).
33. Tənqidimiz iki əsrin hüdudunda. "Ədəbiyyat qəzeti", 26 may 2000-ci il. N21, səh. 3-4.
34. Əli Tudənin poetik dünyası. "Azərbaycan müəllimi" qəzeti, 9-15 noyabr, 2000-ci il, N45, səh. 4.
35. M.Şəhriyar yaradıcılığının milli estetik idealı Aspirantların və gənc tədqiqatçıların VI res. Elmi konfransının materialları, II hissə, Bakı, 2000, səh. 150-151 (Azərbaycan Respublikası Təhsil Naziri).
36. Şəhriyar yaradıcılığında dil məsələsi: Münasibət və təəssübkeşlik, Yeni ənənə deyilir. Prof. M.Əlizadənin anadan olmasının 90 illiyi münasibətilə elmi konfransın materialları. Bakı, BDU-nun nəşri, 2001, səh. 359-405.
37. M.Şəhriyarın "Türkiyəyə xəyali səfəri"ndə gerçəklik amilləri. Bakı. 2001, səh.160-163.
38. Türk xalqları ədəbiyyatının tədqiq və tədris problemləri. Birinci Beynəlxalq Türkoloji qurultayın 75 illiyinə həsr olunmuş elmi konfransın materialları (6-7 mart 2001-ci il). Bakı, 2001, səh.191-194.
39. Şəhriyar ənənəsi və Yaxın Şərq ədəbiyyatı. Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu. Elmi araşdırmalar, N3-4. Bakı, 2001, səh.95-97.
40. Həsrətdən yaranan poeziya. S.Tahirin 75 illiyinə həsr edilmiş kitab (tərtibçi-müəllif V.Arzumanlı). Bakı, 2001, səh.225-232.
41. Şəhriyarın türk dili uğrunda mücadiləsi. "Tarix" dərgisi (Türkiyə, İstanbul), kasım (noyabr), 2001-ci il, sayı 179, səh.60-61.
42. Xalqın böyük oğlu (M.İbrahimov haqqında xatirə - rəy). "Palitra" qəzeti, 27-28 mart 2002, səh.15.
43. Göyçə bayatıları və ya yurd didərginlərinin el harayı. "Dədə Qorqud" jurnalı, N2, 2002, səh.15.
44. M.Şəhriyar yaradıcılığının tarixi-milli zəmində inkişafı. Ənənə və

qloballaşdırma Beynəlxalq elmi simpoziumun materialları (24-25 aprel 2002-ci il). Azərbaycan-Hollandiya dostluq cəmiyyəti. Bakı, 2002, səh.176-179.
45. M.Şəhriyar milli vətəndaş mövqeyi və tarixi şərait. Ənənə və qloballaşdırma Beynəlxalq elmi simpoziumun materialları (24-25 aprel 2002-ci il). Azərbaycan-Hollandiya dostluq cəmiyyəti. Bakı, 2002, səh.179-183.
46. Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında ədəbi təsir dairəsi. "Yurd" qəzeti, İraq, 10 yanvar 2003-cü il, səh.5.
47. Məhəmmədhüseyn Şəhriyar yaradıcılığının ədəbi təsir dairəsi. "Yurd" qəzeti, İraq, 30 ocaq (yanvar) 2003, səh.4.
48. Türk zəfər tarixinin səhifələri. "Yeni Azərbaycan" qəzeti, 30 mart 2003-cü il, səh.13.
49. Yeniləşmə dövrü Türkiyə türk ədəbiyyatında ədəbi hərəkat və onun əsas mərhələləri. "Yeni Azərbaycan" qəzeti, 05 aprel 2003-cü il, səh.14.
50. M.Şəhriyar yaradıcılığı və milli-ədəbi proses. "H.Əliyev və dilimiz, ədəbiyyatımız, tariximiz" respublika elmi-nəzəri konfransının tezisləri. Bakı, 18-19 aprel 2003-cü il, səh.54-55.
51. Göyçə bayatıları və ya yurd didərginlərinin el harayı. "Yeni Azərbaycan" qəzeti, 27 aprel 2003, səh.14.
52. M.Şəhriyar yaradıcılığında insan amili və milli azadlıq problemi. Pedaqoji tədqiqatlar. Elmi məqalələr məcmuəsi. Bakı, 2003, N1, səh.27-32.
53. M.Şəhriyar: İctimai mühit və şəxsiyyət formalaşması. Ekologiya, fəlsəfə, mədəniyyət elmi məqalələr məcmuəsi. 34-cü buraxılış. Bakı, 2003, səh.119-121.
54. İranda ədəbi hərəkat və milli təkamülə gedən yol. "Xəzər xəbər" jurnalı, 01-15 may 2003-cü il, N144, səh.30-31.
55. İranda ədəbi hərəkat və milli təkamülə gedən yol. "Xəzər xəbər" jurnalı (II məqalə), 15-31 may, 2003-cü il, N145, səh.30-31.
56. Şəhriyar yaradıcılığı və türkçülüyə təkamül meyli. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Filologiya məsələləri, N2, Bakı, 2003, səh.52-56.
57. Şəhriyar dövrünün ictimai-siyasi mənzərəsi və ədəbi mühit. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Filologiya məsələləri, N2, Bakı, 2003, səh.91-95.
58. M.Şəhriyarın "Heydərbabaya salam" poemasının milli səciyyəvi xüsusiyyətləri. Azərb. MEA Nəsimi adına Dilçilik İnstitutu. Tədqiqlər N2. Bakı, "Elm", 2003, səh.333-338.
59. Xalq yaradıcılığı ənənələri və Şəhriyar şeiri. Azərb. MEA Nəsimi adına Dilçilik İnstitutu. Tədqiqlər N2. Bakı, "Elm", 2003, səh.339-342.
60. Qafur Qulamın söz-sənət dünyası. "Yeni Azərbaycan" qəzeti, 22 iyun 2003-cü il, səh.6.
61. H.Əliyev və Cənubi Azərbaycan milli-mənəvi dəyərləri. "H.Əliyev və milli-mənəvi dəyərlər" mövzusunda konfransının materialları. Bakı, 2003, səh.40-52.

62. Şəhriyarın Sədiyə münasibəti. Böyük İran şairi Sədi Şirazi . Azərb. MEA Şərqşünaslıq İnstitutu və İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin birgə keçirdiyi Beynəlxalq elmi-ədəbi konfransının materialları (9 oktyabr 2002). Bakı, 2003, səh.192-196.
63. Şəhriyar yaradıcılığı və milli qurtuluş ideyası. ADPU-nun 63-cü elmi konfransının materialları, IV buraxılış. Bakı, 2003, səh.44-45.
64. Şəhriyarın şeirlərində vətən sevgisi. "Tarix" kültür dərgisi. Türkiyə, İstanbul, 2003, ocaq (yanvar), N193, səh.36-37.
65. Şəhriyar yaradıcılığında şair həyatının konkret məqamları. Pedaqoji Universitetinin xəbərləri, N3. H.Əliyevin anadan olmasının 80 illiyinə həsr olunmuş "H.Əliyev və Azərbaycan" elmi seminarının materialları (24 aprel 2003-cü il), Bakı, 2003, səh.266-269.
66. M.Şəhriyar yaradıcılığı və klassik irs (Sədi və Hafiz yaradıcılığına münasibət aspektində). Azərb. MEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu Elmi Araşdırmalar, V buraxılış, 2003, N1-2, səh.120-123.
67. Ədəbi dilin tarixi inkişaf mərhələsi və Şəhriyar şeirinin milli dəyərləri. Ana dili fondu. Dünya Azərbaycanlılarının Əlaqələndirmə şkrası. Filoloji araşdırmalar, XIX kitab, Bakı, 2003, səh.223-233.
68. Türkiyənin zəfər tarixi: tarixi proseslər və müasir mərhələ. "Hərbi and" qəzeti, 26-31 dekabr 2003-cü il, səh.7.
69. Orijinal tədqiqat. "Azərbaycan müəllimi" qəzeti, 30 aprel 2004-cü il, səh.6.
70. Ədəbi dil tarixi problemləri: Milli-etnik kimlik və etnogenezis məsələlərinə yeni baxış. "Yeni Azərbaycan" qəzeti, 02 iyun 2004, səh.4.
71. Heydərbaba yüksəkliyi - sənət möcüzəsi. "Şəhriyar "Heydərbabaya salam" kitabına yazılmış ön söz. Bakı, 2004, səh.3-24.
72. Dərdi dünyalara sığmayan şair (Əjdər Yunusov haqqında). "Xəmsə" qəzeti, 02-09 iyul 2005-ci il, səh.11.
73. "Gərək günəş dağları aşıb sönməyəydi" (Xeyrulla müəllim haqqında). "Ədəbiyyat qəzeti", 14-16 oktyabr 2005.
74. Azərbaycan tarixi romanı: Mərhələlər, problemlər (Yavuz Axundlunun kitabı haqqında rəy. Prof. H.Qasımovla birlikdə). "Ədəbiyyat qəzeti", 06 yanvar 2006, səh.3-6.
75. Türkiyə və X.Məmmədovla bağlı "Xəmsə" qəzeti, "Söz" jurnalında yazılarım var.
76. Şeir-sənət problemləri M.Şəhriyarın ədəbi-estetik görüşlərində. Elmi axtarışlar. AMEA Folklor İnstitutu (Folklorşünaslıq: Filologiya, fəlsəfə, tarix və nəzəriyyə aspektləri), XVI, Bakı, "Səda", 2005, səh.12-19
77. Şəhriyarla bağlı məqalə. ADPU-nun Elmi Əsərləri, N1, 2005.
78. Şəhriyarla bağlı məqalə. ADPU-nun Elmi Əsərləri, N1, 2005.
79. M.Şəhriyar yaradıcılığında vətənpərvərlik amalı. Tarixi keçmiş və müasir reallıq. ADPU-nun Elmi xəbərləri, N5, 2005, səh.13-19.

80. Azərbaycan tarixi romanının 70 illik inkişaf yolunun fundamental tədqiqi. ADPU-nun Elmi Xəbərləri, [1]5, 2005, səh.532-534 (prof.H.Qasımovla birlikdə)
81. Türkiyə: mədəniyyətin və turizmin beşiyi. "Qafqaz" jurnalı, 2006, N1.
82. Hafizdən sonrakı Hafiz. "Nəbz" qəzeti, 27 sentyabr, 2006, səh.3 (müsahibə)
83. Şəhriyar yaradıcılığının təkamülü. "Heydərbaba yüksəkliyi - sənət möcüzəsi". "Nəbz" qəzeti, 04-06 oktyabr, 2006, səh.13
84. Vurğunşünaslıq töhfəsi. "Ədəbiyyat qəzeti", 27 oktyabr, 2006, səh.1-2, həm də H.Qasımovun "S.Vurğunun poetik dünyası" kitabı. Bakı, 2006, səh.3-7.
85. Azərbaycan ekran dramaturgiyasının yaradıcılıq problemlərinin yeni tədqiqi. "Kredo" qəzeti, 10 mart 2007, səh.20 (prof. H.Qasımovla birlikdə)
86. Ə.Hüseynova; Z.Yaqubun yaradıcılığı (prof. H.Qasımovla birlikdə). "Kredo" qəzeti, 17 mart 2007, səh.9.
87. Ankaranın Şəhriyarlı günləri. "Heydərbaba yüksəkliyi - sənət möcüzəsi". "Ədəbiyyat qəzeti", 6 aprel, 2007, səh.1-3-4.
88. Müəmmalı dünyanın real görüntüləri. "Ədəbiyyat qəzeti", 20 aprel, 2007, səh.2. (prof. H.Qasımovla birlikdə)
89. Heydərbaba yüksəkliyi - sənət möcüzəsi". "Varlıq" dərgisi (İran-Tehran), 1385, 141-ci sayı.
90. Pedaqogika tarixinin fundamental tədqiqi. "Xalq qəzeti", 19 iyun 2007, N132, səh.7.
91. Əhməd Cəfəroğlu irsinin tədqiqinə töhfə. "525-ci qəzet", 28 iyun 2007, səh.7.
92. "Nazlı hilal ölkəsinə" Şəhriyar gəlişi. YOM dərgisi. Türk dünyası Mədəniyyət dərgisi, [1]6, 2007, səh.114-116.
93. Azərbaycan ədəbiyyatşünaslığı məsələlərinin tədqiqi XX əsr hüdudlarında (rəy). "Ədəbiyyat qəzeti", 21 sentyabr 2007, səh.6.
94. C.Rumi və onun cahanşümul "Məsnəvi"si. "Azərbaycan məktəbi" jurnalı, 2007, N5, səh.79-87.
95. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər. "Yavuz Axundlu - 80. Şərəfli ömür" kitabında məqalə. H.Qasımovla birlikdə. Bakı, 2007, səh.315-322.
96. Ədəbi-tarixi yaddaşa yeni baxış. "Ədəbiyyat qəzeti", 4 aprel, 2008, N12.
97. Sözün poetik məqamı və ya Qədiməli Əhməd şeirləri barədə bir neçə söz. "Qədiməli Əhməd. Tənha kölgə" kitabı, 2007, ön söz.
98. Ziya Göyalp yaradıcılığında müqəddəs amal və böyük ideyaların tərənnümü. "Azərbaycan dili və ədəbiyyatı tədrisi" jurnalı, N2, 2008, səh.60-66 (məqalə)
99. M.A.Ərsoy yaradıcılığında türk zəfər tarixi və istiqlal duyğularının tərənnümü. "Ədəbiyyat qəzeti", 5 dekabr 2008, səh 4.
100. M.Şeyxzadə - 100. Onun sənət dünyası. "Azərbaycan məktəbi" jurnalı, N5, 2008, səh.92-97.
101. Başlıca məqsədimiz türk dünyasının böyük şəxsiyyətlərini gənc nəslə tanıtmaqdır. "Türküstan" qəzeti, 21-27 dekabr 2008, səh.13 (müsahibə)

102. Xalqın böyük oğlu (məqalə). Mirzə İbrahimov (məqalələr toplusu kitabı). Bakı, 2008, səh.312-317.
103. Cəlaləddin Ruminin dövrü. Mühiti və ürfani görüşləri. Azərbaycan Beynəlxalq Universiteti. Xəbərlər (Pedaqoji və psixoloji elmlər seriyası), N2, səh.124-131. Bakı, 2008.
104. İsmayıl Qaspiralı yaradıcılığında türk millətinin dirçəlişi məsələləri sənətinin estetik idealı kimi. "Turan" Stratejik Araştırmalar Merkezi Uluslararası Bilimsel Hakemli Mevsimlik Dergi, Konya, 2009, N1, səh.59-69.
105. M.A.Ərsoy yaradıcılığında türk zəfər tarixi və istiqalal duyğularının tərənnümü. I Uluslararası M.A.Ərsoy simpoziumunun materialları, 19-20-21 noyabr, 2008, Türkiyə, Burdur, M.A.Ərsoy Universitetinin buraxdığı kitab, I-II cildlər, səh.187-191
106. İbn Ərəbi fəlsəfi görüşləri və Nəsimi təsəvvürləri. "Azərbaycan məktəbi" jurnalı, 2009, N6, səh.56-63 (həmmüəlliflə)
107. Ədəbi-tarixi yaddaşa müasir baxış. Ömrün illəri və əsərləri. Bakı, 2009 (Akad. İsa Həbibbəylinin 60 illik xatirəsinə həsr edilmiş məqalələr toplusu), səh.547-553
108. Xiyabanişünaslığa yeni bir töhfə (ön söz). Vüqar Əhməd. "Şeyx Məhəmməd Xiyabani". Bakı, 2010, səh.4-8.
109. Xiyabanişünaslığa yeni bir töhfə. "Kredo", 20 fevral 2010, səh.3-5.
110. İsmayıl Qaspiralı publisistikasında mənsub olduğu millətin problemlərinə ictimai-siyasi kontekstdə yanaşma. "Klassik Azərbaycan filologiyası və müasir problemlər" mövzusunda Cəfər Xəndanın 100 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2010, səh.181-188.
111. Türk xalqları ədəbiyyatı problemlərinin tədrisi və öyrədilməsi məsələləri. Hacəttəpə Universiteti. Uluslararası öğretmen yetiştirme politikaları ve sorunları sempozyumu II. 16-18 mayıs 2010, Beytepe, Ankara, səh.522-527.
112. Türkdilli sufi ədəbiyyatda Əhməd Yəsəvi ənənələri və Yunis İmrə yaradıcılığı. "Xoca Əhməd Yəsəvi və Şərqin sufi ədəbiyyatı" adlı beynəlxalq konfransın materialları. Türkmənistan, Aşqabad, 2010, s.91.
113. "Kitabi-Dədə Qorqud" dastanı və türk milli-estetik düşüncəsinin dairəsi. Şimali Kipr Türk Cümhuriyyəti, Yakın Doğu Universiteti və Türksoyun keçirdiyi "Dədə Qorqud və keçmişdən gələcəyə türk dastanları" adlı beynəlxalq konfransın materialları. Şimali Kipr Türk Cümhuriyyəti, Lefkoşa, 25-28 oktyabr 2010, səh.101-102
114. İsmayıl Qaspiralı publisistikası. İraq, "Qardaşlıq" kültür ədəbiyyat və sənət dərgisi, N249-250, iyul-avqust, 2010, səh.52-55.
115. "Kitabi-Dədə Qorqud" dastanı və türk milli-estetik düşüncələrinin təsir dairəsi. "Ədəbiyyat qəzeti", 5 noyabr, 2010-cu il, N43, səh.1.
116. Namiq Kamal yaradıcılığında vətən və hürriyyət ideyalarının tərənnümü. Doğumunun 170-ci ilində Uluslararası Namiq Kamal Sempozyumunun

materialları. Türkiyə, Tekirdağ, Namiq Kamal Universiteti, 2010, 20-22 dekabr, səh.511-518.
117. Şeirimizdə dəyərli bir imza - Ağacəfər Həsənli. "525-ci qəzet", 25 fevral 2011-ci il, səh.6.
118. Görkəmli ədəbiyyatşünas alim, tanınmış pedaqoq. "Ədəbiyyat qəzeti", 20 may 2011-ci il (N18), səh.5.
119. Mehmed Akif Ersoy yaradıcılığında türk zəfər tarixi və istiqlal duyğularının tərənnümü. İraq, "Qardaşlıq" kültür ədəbiyyat və sənət dərgisi, N255-256, yanvar-fevral, 2011, səh.51-53
120. Nazim Hikmət XX əsr türk şeirinin görkəmli nümayəndəsi kimi. AMEA-nın akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu və Babeş-Bolyai Universitetinin Türkologiya və Mərkəzi Asiya Araşdırmaları İnstitutunun birgə keçirdikləri "Müasir şərqşünaslığın aktual problemləri" adlı Beynəlxalq elmi konfransın materialları. Bakı, 2011, 01-02 iyun, səh.198-200
121. Klassik ədəbiyyat ənənələri və Sultan Vələd yaradıcılığı. Prof. Abbas Zamanovun 100 illik yubileyinə həsr olunmuş "Müasir Azərbaycan filologiyası: axtarışlar, problemlər, perspektivlər" mövzusunda Respublika Elmi konfransının materialları. Bakı, "Elm və Təhsil", 2001, səh.251-259
122. "Heydərbaba" yüksəkliyi - sənət möcüzəsi. Bakı, "Azərbaycan şərqşünaslığı" jurnalı (Şəhriyar - 105 xüsusi buraxılış), N2 (6), 2011, səh.35-38
123. Tarixi proseslərin ədəbi dilə təsiri. "Məhəmmədhüseyn Şəhriyar: ədəbi təsir və əlaqələr" mövzusunda beynəlxalq elmi konfransın materialları. AMEA-nın akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. Bakı, 2011, 7 dekabr, səh.72-87
124. XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyədə ədəbi hərəkat və onun əsas mərhələləri. Mübariz Əlizadənin 100 illik yubileyinə həsr olunmuş "Şərq filologiyasının aktual problemləri" adlı Respublika elmi konfransının (28-30 dekabr) materialları. Bakı, BDU, 2011, səh.296-300
125. Hikmət çələngi və yaxud müqəddəsliyə çağırış kitabı. Hacı Mir Kazım Kazıminin "Yaşatmaq yaşamaqdır" kitabına ön söz. Bakı, 2011
126. Yəhya Kamal Bəyatlı irsinin tədqiqi və təqdimi. "Təhsil" jurnalı, N2 (20), fevral 2012 (A.Abbasova ilə birlikdə)
127. Cənubi Azərbaycan ədəbiyyatı problemləri yeni baxış bucağı altında. Bahar Bərdəli. "Cənubi Azərbaycan mühacir poeziyası (1947-1990)" kitabına ön söz. Bakı, "Elm və təhsil", 2012, səh.3-5
128. Tofiq Fikrətin uşaq şeirlərinin mövzu dairəsi. II Beynəlxalq türk xalqları uşaq ədəbiyyatı konqresinin tezisləri. Bakı, Azərbaycan, 11-13 oktyabr, səh.11-12
129. Görkəmli ədəbiyyatşünas alim, tanınmıq pedaqoq. Dünyada qala bilmək... (prof.X.Məmmədovun xatirəsinə həsr olunmuş kitab). Bakı, "Qanun", 2012, səh.60-72
130. Bir gül soldu Kərkükdə. "Ədəbiyyat qəzeti", 8 fevral 2013, N5 (4860), səh.4

131. Bədii möhtəşəmliyin - "Dəli Kür"ün dil poetikası. "525-ci qəzet", 23 fevral 2012, səh.29
132. Zəhmətin bəxş etdiyi şöhrət. "Təhsi l" jurnalı, N02(26), 2013, səh.39-40
133. Mənalı ömür yolu. "Respublika" qəzeti, 4 aprel 2013-cü il, səh.7
134. Bir dost kimi… "Ədəbiyyat qəzeti", 5 aprel 2013-cü il, səh.7

## RƏSMİ OPPONENTLİK

1. Bəşirova Elnarə Əziz qızı. Mövzu: "Azərbaycan mühacirət ədəbiyyatında milli istiqlal mövzusu (Almaz İldırımın yaradıcılığı əsasında)" (filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya)
2. Məmmədova Xumar Şəmsi qızı. Mövzu: "Azərbaycan ədəbiyyatı çağdaş Amerika elmi-ədəbi mənbələrində" (filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya)
3. Ağayeva Gözəl Firudin qızı. Mövzu: "Təbriz ədəbi mühiti" (1941-1946-cı illər) (filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya)
4. Məmmədova Bahar Hüseynəli qızı. "Balaş Azəroğlunun yaradıcılıq yolu" (filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya)
5. Ağayeva Firuzə Abdulla qızı. XVIII əsr türkmən şeiri (Məxdumqulu Fəraqinin yaradıcılığı əsasında). (doktorluq dissertasiyası).
6. Qaybalıyeva Səkinə Allahverdi qızı. Əbdüllətif Bəndəroğlunun ədəbi-elmi fəaliyyəti (filologiya üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya).
7. Səttər Əli qızı Durmaz. "Çakəri Sinanın "Yusif və Züleyxa" məsnəvisinin filoloji-tekstoloji tədqiqi" (filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyaya).
8. Ağazadə Yədulla Bəbir oğlu. "Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı" (doktorluq dissertasiyası).

## ELMİ RƏHBƏRLİK

1. Məhəmməd Mehdi Bayat. (İraq) Mövzu: "M.Şəhriyarın ədəbi irsi və İraq-türkman şeiri"
2. Yunusova Günel Kamil qızı. Mövzu: "Tənzimat poeziyasında ənənə və novatorluq problemi"
3. Abbasova Aytən Şahid qızı. Mövzu: "Cengiz Dağcı yaradıcılığında tarixi-siyasi problemlərin təcəssümü"
4. Kərimova Leyla Faiq qızı. Mövzu: "Səməd Vurğun və Mehmed Akif Ersoy poeziyasında milli-mənəvi ideallar"
5. Babayeva Ofelya Eldar qızı. Mövzu: "Müasir Türkiyə türk poeziyasında ənənə və novatorluq (Sezai Karakoç yaradıcılığı əsasında)"



# *M Ü Q Ə D D Ə S   A N A M*

*Rəhmətlik anamın yas məclisində istedadlı alim və şair dostum Vüqar Əhməd mənə "Anam mənim yox daha" şeirini təqdim etdi. Mən şair olmasam da, bu şeirin təsiri altında özümün kədərli hisslərimi ilk dəfə poetik şəkildə belə qələmə aldım.*
*(Elman)*

*Aman Allah, anam getdi dünyadan,*
*Anam getdi, dünyam getdi dünyadan.*
*Məni qoydu qəm içində Yaradan*
*Anam mənim, gözəl anam yox daha.*

*Sən idin həyatda inamım, andım,*
*Gündüzlər günəşim, gecə çırağım.*
*Sən böyük kitabsan, mən bir varağın*
*Anam mənim, ipək anam yox daha.*

*Son gecəni baş qoyaraq dizinə,*
*Göz qırpmadan hey baxmışam üzünə,*
*Qulaq asdım şirin-şirin sözünə*
*Anam mənim, gözəl anam yox daha.*

*Ürəyim ağrıyır, çox kədərliyəm,*
*Qismətim beləymiş, qəm çəkirəm, qəm.*
*Səni qəm içində xatırlayıram*
*Anam mənim, anam mənim yox daha.*

*Sənin yerin məzar deyil, ürəydi,*
*Tabutunu kaş Araz götürəydi,*
*Elmarın da gərək toyun görəydi,*
*Anam mənim, ipək anam yox daha.*

***19.02.2009-cu il***

# ÖMRÜN KEÇƏN GÜNLƏRİ






ARAZ
HILAL OGLU
QULİYEV
SEYİD
MƏHƏMMƏDHÜSEYN
ŞƏHRİYAR


TÜRK DİL KURUMU



*Atası Quliyev Hilal Mirzəcan oğlu (1916-1981)*
*Uzun muddət müəllim, kənd soveti sədri, kolxoz sədri və 25 il Lerik rayon Yol-Tikinti Trestinin rəisi işləmişdir.*



*Anası Quliyeva Rahilə Qəribəli qızı (1924-2009)*
*Orta təhsilli, evdar qadın olmuşdur.*



*Elman Quliyev nəslin ağsaqqalı Azərbaycan Respublikasının baş prokuroru səlahiyyətlərini icra etmiş əmisi Ağa Quliyevlə birlikdə. 1989-cu il.*



*Əmisi Quliyev Höccət*
*(1912-1989)*



*Qardaşı Araz Quliyev*
*(1946-2005)*
*Ali təhsilli, ömrünün sonuna qədər Lerik rayonunda rəhbər vəzifələrdə çalışmışdır.*



*Qardaşı Lələxan Quliyev*
*(1956-1974)*
*Ali məktəbin I kursunda oxuyarkən faciəli şəkildə dünyasını dəyişmişdir.*



*Elman Quliyev anası ilə*






*Elman Quliyev Ankarada Türk Dil Qurumunun keçirdiyi Şəhriyar konfransında çıxış zamanı. Şəkildə sağdan, Qulaməli Həddad Adil (İran İslam Respublikasının Milli Məclis Şurasının sədri), Bülent Arınç (Türkiyə Böyük Millət Məclisinin sədri) və İran, Türkiyə Milli Məclislərinin deputatları. 19 fevral 2007-ci il.*



*Elman Quliyev Şəhriyarın 100 illik yubileyi ilə bağlı keçirilən tədbirdə çıxış edərkən. İran, Tehran, 2006-cı il*




*Şimali Kipr Türk Cümhuriyyətinin Yaxın Doğu universitetində konfransda çıxış edərkən. 2010-cu il*



*Süleyman Rüstəmin 100 illik yubileyində çıxış zamanı. ADPU. Böyük akt zalı. 07 aprel 2006-cı il.*



*ADPU-da keçirilən tədbirdə çıxış edərkən. 2010-cu il*



*AMEA-nın Şərqşünaslıq İnstitutunda çıxış zamanı.*



*“Xoca Əhməd Yəsəvi və Şərq sufi ədəbiyyatı” beynəlxalq elmi konfransında çıxış zamanı. Türkmənistan, Aşqabad, 22 sentyabr 2010-cu il*




*Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş tədbirdə çıxış zamanı. ADPU, 18 mart 2008-ci il*




*Mirzə İbrahimovun 100 illik yubileyində çıxış zamanı. 24 noyabr 2011-ci il. Şəkildə sağdan prof. Cəlil Nağıyev, prof.Yusif Seyidov, xalq şairi Fikrət Qoca, ADPU-nun rektoru prof.Yusif Məmmədov, Mirzə İbrahimovun qızı Solmaz İbrahimova, prof.Buludxan Xəlilov.*



*İran televiziyasına M.Şəhriyarın yaradıcılığı ilə bağlı müsahibə verərkən. 2006-cı il.*



*Şəhriyarın anadan olmasının 105 illik yubileyinə həsr olunmuş tədbirdə.*
*2011-ci il*



*Türkiyənin TRT-Avaz telekanalına müsahibə verərkən.*
*2010-cu il.*





*Elman Quliyev "Xoca Əhməd Yəsəvi və Şərq sufi ədəbiyyatı" beynəlxalq elmi konfransında iclasa sərdlik edərkən. Türkmənistan, Aşqabad, 22 sentyabr 2010-cu il*





*Prof. Xeyrulla Məmmədova həsr olunmuş tədbirdə aparıcılıq edərkən.*
*Akademik Milli Dram Teatrı, 30 yanvar 2013-cü il.*



*Görkəmli şair və dramaturq Maqsud Şeyxzadəyə həsr olunmuş tədbirdə çıxış zamanı. Şəkildə sağdan xalq şairi Fikrət Qoca, Maqsud Şeyxzadənin qızı, Özbəkistanın Azərbaycandakı səfiri Abduqafur Abdurahmanov, Azərbaycan Mədəniyyət Nazirinin müavini Sevda Məmmədəliyeva. 27 yanvar 2002-ci il.*



*ADPU-da Türkiyə səfirliyinin rəhbərliyi ilə təşkil olunmuş yığıncaqda çıxış zamanı. Sağdan Mədəniyyət müşaviri Melda Araz, ADPU-nun rektoru prof.Yusif Məmmədov, Türkiyə səfirinin birinci müavini Erkan Özoral, Təhsil müşaviri Halis Koyunçuoğlu. 2009-cu il.*

# KİTABLAR






*Prof. Elman Quliyevin Şəhriyarın ev muzeyində sərgilənən kitabları*






*Şəhriyarın ev muzeyinin direktoru ilə görüşərkən. 2006-cı il.*




HİMALAY ƏNVƏROĞLU, ELMAN QULİYEV
ŞƏHRİYAR
POETİKASI


ЕЛМАН ГУЛИЈЕВ
М. ИБРАҺИМОВ:
ӘДӘБИ—ЕСТЕТИК
КӨРҮШЛӘР
ВӘ СӘНӘТКАРЛЫГ
МӘСӘЛӘЛӘРИ


Elman Quliyev, Aytən Abbasova,
Leyla Kərimova, Könül Sadıqova
TÜRK
XALQLARI ƏDƏBİYYATININ
YARADICILIQ PROBLEMLƏRİ


Elman Quliyev
ŞƏHRİYAR POEZİYASI
VƏ
MİLLİ TƏKAMÜL


ELMAN
QULİYEV
MÜASİR
ÖZBƏK
ƏDƏBİYYATI
TARİXİ


ELMAN QULİYEV
TÜRK XALQLARI
ƏDƏBİY
ELMAN QULİYEV
TÜRKİYƏ
TÜRK ƏDƏBİYYATI
(XIX – XX ƏSRLƏR)
BAKI — 2007
ELMAN QULİYEV
TÜRK
XALQLARI
ƏDƏBİYYATI
ELMAN QULİY
TÜR
XALQLARI
ƏDƏBİYYATI
ELMAN QULİYEV
QƏDİM VƏ ORTA ƏSRLƏR
TÜRK XALQLARI ƏDƏBİYYATI


ŞƏRQ
XALQLARI
ƏDƏBİYYATI
1
ELMAN QULİYEV


ŞƏRQ
XALQLARI
ƏDƏBİYYATI
2
ELMAN QULİYEV


ELMAN QULİYEV
ÖZBƏK
ƏDƏBİYYATI
BAKI - 2009


ELMAN QULİYEV
ORTA ƏSRLƏR
TÜRK XALQLARI ƏDƏBİYYATI


M. ŞƏHRİYAR
HEYDƏRBABAYA SALAM


ЛИРИКА


М. Шәһријар
Кәлдим сизи көрмәјә...

*«Tərəqqi» medalı*


AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ I-1479
Azərbaycan Respublikası Prezidentinin
2012-ci il 18 aprel tarixli
2177 nömrəli Sərəncamı ilə

Quliyev
Elman
Hilal oğlu
"TƏRƏQQİ"
medalı
Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEV






*"Tərəqqi" medalı təqdim edilərkən. Sağdan ADPU-nun rektoru, AMEA-nın müxbir üzvü, prof. Yusif Məmmədov, Azərbaycan Respublikasının Təhsil Naziri prof. Misir Mərdanov. 2012-ci il*




*Elmi Şurasında ADPU-nun rektoru, AMEA-nın müxbir üzvü, prof. Yusif Məmmədov "İlin alimi" (I yer) diplomunu təqdim edərkən. 20 may 2011-ci il*



*Elman Quliyevə Mehmet Akif Ersoy universitetində diplom təqdim edilərkən. Türkiyə, Burdur şəhəri, noyabr, 2008-ci il.*

# YAŞANAN ÖMÜRDƏN GÖRÜNTÜLƏR



*Prof.Aida İmanquliyevanın anadan olmasının 72-ci ildönümü münasibətilə keçirilən tədbirdə Elman Quliyev prof. Aida İmanquliyevanın xatirəsinə ithaf etdiyi 2 cildlik "Şərq xalqları ədəbiyyatı" kitabını prof.Nərgiz Paşayevaya təqdim edərkən. Bakı, Hökümət evi. 10 oktyabr 2011-ci il.*



*Türkiyənin Azərbaycandakı səfiri Hulusi Kılıçla səfirlikdə görüş zamanı. May, 2012-ci il*



*Şəhriyarın anadan olmasının 105 illik yubileyinə həsr olunmuş tədbir zamanı. Şəkildə soldan: xalq şairi Söhrab Tahir, AMEA Şərqşünaslıq İnstitutunun direktoru, prof.Gövhər Baxşəliyeva, prof.Elman Quliyev, AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini f.ü.f.d. Məsiağa Məhəmmədi. 2011-ci il*



*Bu da bir xoşbəxtlikdir.*



*ADPU, Azərbaycan ədəbiyyatı tarixi kafedrasının əməkdaşları.*
*5 mart 2012-ci il.*



*Vüqar Əhmədin 50 illik yubileyi münasibətilə keçirilən tədbirdə. Şəkildə soldan üçüncü prof.Mirəşrəf Fətiyev (DAK-ın sədri), akad. Vasim Məmmədəliyev, prof.Qəzənfər Paşayev, prof.İmamverdi Həmidov, prof.Elman Quliyev və s. 15 aprel 2013-cü il.*



*Prof. Elman Quliyevin şəxsi təşəbbüsü ilə yaradılmış
“Türk araşdırmaları” elmi-tədqiqat mərkəzinin açılışı zamanı.
Şəkildə sağdan: Türkiyə çəfiri Hulusi Kılıç, ADPU-nun rektoru,
AMEA-nın müxbir üzvü, prof. Yusif Məmmədov və b. 18 dekabr 2008-ci il.*




*Türkiyənin səfiri Hulusi Kılıçın səlahiyyət müddəti bitdiyi ərəfədə
“Türk araşdırmaları” mərkəzini ziyarəti zamanı. 1 iyun 2012-ci il.*




*Şəkildə soldan Prof.Xeyrulla Məmmədov, prof.Həsən Balıyev, prof.Elman Quliyev. 2004-cü il.*



*Hacettepe universitetinin əməkdaşları "Türk odası"nda. Fevral, 2006-cı il.*



*ADPU-da rektorluqda görüş zamanı.*
*Şəkildə sağdan prof.Himalay Qasımov, prof.Buludxan Xəlilov, Hacı Mirəziz Seyidzadə, ADPU-nun rektoru, AMEA-nın müxbir üzvü, prof.Yusif Məmmədov, xalq şairi Sabir Rüstəmxanlı, millət vəkili Hüseynbala Mirələmov, prof.Elman Quliyev, Çingiz İsmayılov. 15 noyabr 2006-cı il.*



*Şimali Kipr Türk Cümhuriyyəti Yaxın Doğu universitetində keçirilən konfrans-da. Şəkildə sağdan prof.Muxtar İmanov, prof.Adil Babayev, prof.Fəxrəddin Məmmədli (Yaxın Doğu universitetinin prorektoru), prof.Elman Quliyev, prof.Bəhlul Abdullayev. 2010-cu il.*




*Türk Dil Qurumunun başkanı Şükrü Haluk Akalın*
*"Türk araşdırmaları" ETM-də. 2011-ci il*



*Mehmet Akif Ersoy universitetində. Şəkildə soldan prof. Maarifə Hacıyeva, akad. Əbülfəz Quliyev, universitetin rektoru prof. Gökay Yıldız, dos. Fərqanə Mehdiyeva, f.ü.f.d.Eşqanə Babayeva. 20 noyabr 2008-ci il.*





Dünya şöhrətli Cavad Heyətlə birlikdə. 2008-ci il.

Müğənni Yaqub Zurufçu ilə. 2008-ci il.



Elman Quliyev Şəhriyarın 90 illik yubiley iştirakçıları arasında.
İran, Tehran.



*Şəhriyarın 100 illiyinə həsr edilmiş tədbirdə. İran, Tehran. 2006-cı il*



*Elman Quliyev bəstəkar Cavanşir Quliyevlə.*




*Elman Quliyev Şamaxı yolunda türk əsgərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərkən*




*Şimali Kipr Türk Cümhuriyyəti, Girne şəhəri. Şəkildə sağdan prof.Muxtar İmanov, prof.Bəhlul Abdullayev, xalq yazıçısı Anar, prof.Adil Babayev, prof. Elman Quliyev. 2010-cu il.*



*Şəkildə sağdan ikinci Abbasəli Həsənov (Azərbaycanın İrandakı səfiri), görkəmli şair, alim Yəhya Şeyda, prof. Elman Quliyev, şair-tədqiqatçı Mübəyyim. 2006-cı il*



*prof. Elman Quliyev xalq yazıçısı Anarla.*



*Şəkildə soldan prof. Yaqub Babayev, prof. Elman Quliyev, şair Paşa Qəlbinur, xalq şairi Məmməd Araz, xalq şairi Fikrət Sadıq. 2002-ci il.*



*AMEA-nın müxbir üzvü, prof.Nizami Cəfərovla fikir mübadiləsi apararkən. Fevral, 2013-cü il.*



*Prof.Elman Quliyev Şəhriyarın oğlu Hadi (soldan dördüncü) və nəvəsi Nəkisa ilə. Şəhriyarın ev muzeyi, İran, Təbriz, aprel, 1998-ci il.*



*Şəkildə sağdan Məhəmməd Mehdi Bayat (İraq, Kərkük), xalq artisti Əlibaba Məmmədov, prof.Qəzənfər Paşayev, prof.Elman Quliyev. 2011-ci il.*



*Şəkildə sağdan prof. Elman Quliyev, AMEA-nın prezidenti akad. Fəraməz Maqsudov, Afaq Əbdülqızı, prof. Hamlet İsaxanlı. 1998-ci il.*



*Elman Quliyev Şimali Kipr Türk Cümhuriyyətinin prezidenti Mehmet Ali Talat bəylə birlikdə. 15 mart 2007-ci il*



*Elman Quliyev Kipr adasını ikiyə bölən sərhəddə. Lefkoşa, 2010-cu il*



*Akademik Ağamusa Axundovla birlikdə.*
*Şimali Kipr Türk Cümhuriyyəti, 2010-cu il.*



*Elman Quliyev Şimali Kipr Türk Cümhuriyyətinin səfiri Zeki Gazioğlu (şəkildə sağdan ikinci) ilə öz iş otağında. 16 may 2011-ci il*




*Elman Quliyev oğlunun toy sevincini dostları ilə bölüşərkən. Şəkildə sağdan prof.Qəzənfər Paşayev, prof.Musa Qasımlı, prof.Cəlil Nağıyev, yazıçı-publisist Hüseynbala Mirələmov, prof.Nizaməddin Şəmsizadə, naşir Akif Dənzizadə, Maliyyə Nazirliyinin idarə rəisi Məzahir Ağazadə, Ekologiya və Təbii Sərvətlər Nazirinin I müavini Firdovsi Əliyev. 29 iyun 2012-ci il*



*Elman Quliyev sevimli müəllimi xalq yazıçısı İsmayıl Şıxlı ilə. 1990-cı il*



*Elman Quliyev Şəhriyarın məzarı önündə (soldan 2-ci)*



*Şəkildə sağdan – Fəridə xanım (Şəhriyarın bacısı qızı), şair Savalan, Elman Quliyev. İran-Tehran, 18 sentyabr 2006-cı il*



*Prof. Xeyrulla Məmmədovun əhatəsində.*



*Elman Quliyev Şəhriyarın məqbərəsi önündə. Təbriz, 1998-ci il*




*Elman Quliyev Məşrutə rəhbəri Səttar xanın məzarı önündə. İran, Tehran*



*Elman Quliyev İraqlı aspirantı Məhəmməd Mehdi Bayat ilə. 2011-ci il*



*Elman Quliyev (şəkildə soldan üçüncü) Moskva şəhərində. 1981-ci il*



*Şəkildə soldan prof.Elman Quliyev, prof.Yavuz Akpınar, prof.Yusif Gədikli. Ankara, 20 fevral 2007-ci il*



*Elman Quliyev Mehmet Akif Ersoy Universitetinin müəllim və tələbləri arasında. 2008-ci il*





*Elman Quliyev zəlzələ nəticəsində yerlə-yeksan olmuş qədim Saqalasos şəhərinin xarabalıqlarını gəzərkən. Türkiyə, noyabr 2008-ci il*

# Kaş qayıdıb bir də uşaq olaydım.



5 yaşında



7 yaşında



Elman Quliyev orta məktəbin VIII sinfində oxuyarkən (şəkildə sağdan birinci)









*Elman Quliyev tələbə yoldaşları arasında (şəkildə soldan ikinci)*



*Elman Quliyev mühazirə zamanı. 25 dekabr 2003-cü il*



*Elman Quliyev məzunu və müəllimi olduğu Lerik rayonu Kəlvəz kənd orta məktəbinin müəllim kollektivi arasında (şəkildə II sırada sağdan birinci)*



*Ötən günlərdən xoş görüntü*



*Elman Quliyev rəhmətlik Kazım Şıxəliyevlə susuz dağ döşündə əkib-böyütdüyü ağacların kölgəsində.*



*Elman Quliyev həyat yoldaşı və oğlu Elmar ilə. 1987-ci il*



*Elman Quliyev anası və oğlu ilə Məşhəd ziyarətində. 1991-ci il*



*Elman Quliyev ailə üzvləri ilə birlikdə Xızıda Mıkayıl Müşfiqin ev muzeyi önündə. 2011-ci il*



*Elman Quliyev həyat yoldaşı ilə*



*Nəvə əlindən tutmaq sevinci*
*(Nəvə Cəlil 1 yaş 6 ayında)*



*Elman Quliyevin dünyaya yeni göz açmış nəvəsi Ayan*
*(17 may 2013-cü il)*



*Elman Quliyev ailə üzvləri ilə birlikdə*



*Üç nazlı bala (sağdan) Ülkər, Elmar və Fidan*




*Elman Quliyevin oğlu Elmarın Daxili İşlər Naziri Ramil Usubov tərəfindən qəbul edilib təltif edilərkən*



*Elman Quliyev qardaşı qızı Səidə ilə*



*Elman Quliyev qızı Ülkərlə*



*Elman Quliyevin mərhum qardaşı Arazın ailə üzvləri və qohumlarla çəkdirdiyi son şəkil. 07 dekabr 2004-cü il. Bakı şəhəri, «Ayla» şadlıq evi.*




*Aman ayrılıq*




*Mərhum qardaşı Araz Quliyevlə (soldan ikinci) toy şənliyində*



*Elman Quliyev şair Zivər Ağayevin yaradıcılıq gecəsində (sağdan birinci sırada Ülkər Quliyeva, prof.Elman Quliyev, Abdulkadir İnaltekin, sağdan II sırada prof.Maarifə Hacıyeva, Zivər Ağayeva)*



*Elman Quliyev  ruhən bağlı olduğu doğma Kələxan kəndinə tamaşa edərkən*



*Elman Quliyevin ibtidai təhsil aldığı Kələxan kənd məktəbi*



*Elman Quliyevin orta təhsil aldığı Kəlvəz kənd məktəbi*



*Elman Quliyev doğmaları ilə toy şənliyində*



*Elman Quliyev xanımı ilə nəvə sevincini paylaşarkən.*
*Soldan: Ülkər, nəvə Cəlil, Elman, Səbirə, nəvə Fuad və Cavid.*



*Elman Quliyev Elmar və Könülün toy şənliyində.*



*Elman Quliyev ailə üzvləri ilə birlikdə.*

## *PROQRAM, DİPLOM, ELMİ AD, ELMİ DƏRƏCƏ, TƏLTİF, TƏŞƏKKÜR VƏ DİGƏR RƏSMİ SƏNƏDLƏR*
















ФӘРГЛӘНМӘ

ДИПЛОМУ

У № 052618

Бу дипломун саһиби Гулијев Елман Һилал оғлу јолдаш 1977-чи илдә В.И. Ленин адына Гырмызы Әмәк Бајрағы орденли Азәрбајҹан Дөвләт Педагожи Институтуна дахил олмуш вә 1981 илдә Азәрбајҹан дили вә әдәбијјаты ихтисасы үзрә там курсу битирмишдир.

Дөвләт имтаһан комиссијасынын 1981 ил 3 ијун тарихли гәрары илә она орта мәктәбдә Азәрбајҹан дили вә әдәбијјаты мүәллими ихтисасы верилмишдир.

М. Ј.

Бакы шәһәри 15 ијун 1981 ил.

Геј № 87

Азербайджанский из.

ДИПЛОМ

С ОТЛИЧИЕМ

У № 052618

Настоящий диплом выдан Гулиеву Эльману Гилал оглы в том, что он в 1977 году поступил в Азерб. ордена Трудового Красного Знамени Гос. Пед. инст. им. В.И. Ленина и в 1981 году окончил полный курс названного института по специальности Азербайджанский язык и литература.

Решением Государственной экзаменационной комиссии от 3 июня 1981 г. присвоена квалификация учителя Азерб. языка и лит. в ср. школе

Председатель Государственной экзаменационной комиссии

Ректор

Секретарь

М. П. Город Баку 15 июня 1981 г.

Регистрационный № 87

Московская типография Гознака, 1963.


ДИПЛОМ

КАНДИДАТА НАУК

ФА № 012358

Москва 29 марта 1989 г.

Решением Совета в Азербайджанском гос. педагогическом институте им. В.И. Ленина от 15 ноября 1988 г. (протокол № 13)

Гулиеву Эльману Гилал оглы

ПРИСУЖДЕНА УЧЕНАЯ СТЕПЕНЬ

КАНДИДАТА ФИЛОЛОГИЧЕСКИХ НАУК

Председатель совета

Ученый секретарь совета


Azərbaycan Respublikası

ALİ ATTESTASİYA KOMİSSİYASININ

6 iyul 2000-ci il (protokol №25)

QƏRARI İLƏ

Elman Hilal oğlu Quliyevə

Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasının

DOSENTİ

ELMİ ADI VERİLMİŞDİR

Ali Attestasiya Komissiyasının sədri

Ali Attestasiya Komissiyasının baş elmi katibi

РЕШЕНИЕМ

ВЫСШЕЙ АТТЕСТАЦИОННОЙ КОМИССИИ

Азербайджанской Республики

от 6 июля 2000 года (протокол №25)

Кулиеву Эльману Гилал оглы

ПРИСВОЕНО УЧЕНОЕ ЗВАНИЕ

ДОЦЕНТА

по кафедре истории Азербайджанской и мировой литературы

Председатель Высшей аттестационной комиссии

Главный ученый секретарь Высшей аттестационной комиссии



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

*27 yanvar 2006-cı il tarixli (protokol № 03 - R)*

*qərarı ilə*

*Elman Hilal oglu Quliyevə*

*filologiya elmləri*

**DOKTORU**

*alimlik dərəcəsi vermişdir*

Ali Attestasiya Komissiyasının Sədri

Ali Attestasiya Komissiyasının Baş Elmi Katibi

THE SUPREME ATTESTATION
COMMISSION ATTACHED TO THE PRESIDENT OF
THE REPUBLIC OF AZERBAIJAN

*by the Decision dated January 27, 2006 (Minutes № 03 - R)*

*confers on*

*Elman Hilal Guliyev*

*the academic degree of*

**DOCTOR**

*of Philological Sciences*

Chairman of the Supreme Attestation Commission

Principal Academic Secretary of the Supreme Attestation Commission



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

*26 noyabr 2010-cu il tarixli (protokol № 19 - R)*

*qərarı ilə*

*Elman Hilal oglu Quliyevə*

*Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrası üzrə*

**PROFESSOR**

*elmi adı vermişdir*

Ali Attestasiya Komissiyasının Sədri

Ali Attestasiya Komissiyasının Baş Elmi Katibi

THE SUPREME ATTESTATION
COMMISSION ATTACHED TO THE PRESIDENT OF
THE REPUBLIC OF AZERBAIJAN

*by the Decision dated November 26, 2010*
*(Minutes № 19 - R)*

*confers on*

*Elman Hilal Guliyev*

*the academic title of*

**PROFESSOR**

*at the Department of Azerbaijan and World Literature History*

Chairman of the Supreme Attestation Commission

Principal Academic Secretary of the Supreme Attestation Commission



AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

ŞƏHADƏTNAMƏ

Quliyev Elman Hilal oğlu

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 2011-ci il 27 dekabr tarixli iclasının qərarı ilə 2010/2011-ci tədris ilində tədrisin keyfiyyətinin yaxşılaşdırılması, tələbələrin tədris prosesinə daha fəal cəlb edilməsi, tələbələrin dərslik və dərs vəsaiti ilə təminatı, yeni təlim texnologiyalarının tətbiqi sahəsində qazandığı nailiyyətlərə görə humanitar elimlər nominasiyası üzrə

İLİN MÜƏLLİMİ

müsabiqəsinin qalibi olmuşdur.

REKTOR: AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, prof. Y.Ə.Məmmədov



AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

ŞƏHADƏTNAMƏ

Quliyev Elman Hilal oğlu

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 2011-ci il 28 fevral tarixli iclasının qərarı ilə 2010-cu ildə səmərəli elmi fəaliyyətinə, elmi - pedaqoji kadrların hazırlanması, tələbələrin elmi araşdrılmalara həvəsləndirilməsi işinə verdiyi töhfəyə, elmi konfranslarda fəal iştirakına görə humanitar elmlər üzrə

İLİN ALİMİ

müsabiqəsinin qalibi ( 1-ci yer) olmuşdur

REKTOR: AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, prof. Y.Ə.Məmmədov



AZƏRBAYCAN RESPUBLİKASI
"AVROPA NƏŞR MƏTBU EVİ"

DIPLOM

AZ № 803210148

"Avropa Nəşr Mətbu Evi" mükafat komissiyasının qərarı ilə milli - mənəvi dəyərlərimizin qorunmasında, istedadlı gənc müəllimlərin hazırlanmasında, türk xalqları arasında dostluq əlaqələrinin genişlənməsində səmərəli fəaliyyətinə, ölkədə keçirilən ictimai-siyasi,mədəni-kütləvi tədbirlərdə yaxından iştirakına, cəmiyyətdəki fəal ziyalı mövqeyinə, türk xalqlarının ədəbiyyatı sahəsində olan çoxsaylı dəyərli elmi kitablarına, türk xalqlarının ədəbiyyatının aktual problemlərinə dair yaradıcı elmi təkliflərinə, torpağına-Vətəninə sonsuz sevgisinə, gənc nəslin təlim-tərbiyəsində, gənclərdə vətənpərvərlik hisslərinin aşılanmasında və müstəqil dövlətçiliyimizin təbliğində,möhkəmləndirilməsində, Azərbaycanın təhsil sahəsində göstərdiyi xidmətlərinə görə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin Azərbaycan və Dünya ədəbiyyatı tarixi kafedrasının professoru, filologiya elmləri doktoru, "Türk odası" və "Türk araşdırmaları" elmi tədqiqat mərkəzinin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin üzvü

**ELMAN HİLAL OĞLU QULİYEV**

ƏN YAXŞI VƏTƏNPƏRVƏR TƏDQİQATÇI ALİM
QIZIL MEDALI İLƏ
təltif olunur

*"Avropa Nəşr Mətbu Evi" mükafat komissiyasının sədri, "Avropa NME" nin prezidenti* S.Səlimbəyli

*Bakı, 2011*

REPUBLIC OF AZERBAIJAN
"EUROPEAN PUBLISHING AND PRESS HOUSE"

DIPLOMA

AZ № 803210148

By the decision of the Awarding Commission of "European Publishing and Press House" Professor of the Department of "Azerbaijani and World Literature" of the faculty of Philology of Azerbaijan State Pedagogical University, Doctor of Philology, Head of "Turk Odasi" and "Turkish Researches" Scientific-Research Center, member of the Union of Azerbaijani Writers

**ELMAN H. GULIYEV**

is awarded with the
GOLD MEDAL
THE BEST PATRIOT SCIENTIST-RESEARCHER

for his rational activity in the protection of our national and moral values, efficient activity in training talented young teachers, active participation in social-political, cultural-mass events held in the country, active intellectual position in the society, numerous valuable scientific books in the field of literature of Turkish nations, creative scientific suggestions on urgent problems of Azerbaijani literature, endless love for his country and Native land, his services rendered in education and upbringing of the young generation, propagating the senses of patriotism to the young generation, propagating, strengthening our independent statehood and in the field of education in Azerbaijan

*Chairman of the Awarding Commission of "European Publishing and Press House" President of "Europe NME"* S. Salimbayli

*Baku, 2011*









*Mirzə Uluğbəy mükafatı*



Həsən bəy Zərdabi, Səməd Vurğun, Ustad Şəhriyar:

“QIZIL QƏLƏM”

MEDIA MUKAFATI LAUREATI

Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə

QULİYEV ELMAN HİLAL oğluna

İLTİFATLA TƏQDİM EDİLMİŞDİR

QƏLƏMİNİZDƏN İNCİ SÖZLƏR TÖKÜLSÜN

AzərKİVHİ RH sədri Ç.Qurbanoğlu



2012/BAKU/5815708

31 iyul 2012-ci il

Hörmətli Elman Quliyev,

Türkiyə Respublikası Səfirliyi ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti arasındakı əlaqələrin genişləndirilməsinə yönəlik təşəbbüsləriniz, Səfirliklə olan səmərəli əməkdaşlığınız, Azərbaycanda Türk xalqları ədəbiyyatının araşdırılması istiqamətindəki fəaliyyətləriniz, irəli sürdüyünüz elmi təkliflər, o cümlədən universitetlər üçün dərslik, dərs vəsaiti və tədris proqramlarının yazılması ilə bağlı fəaliyyətləriniz və gənc nəslin yetişdirilməsi sahəsində göstərdiyiniz xidmətlərdən ötrü təşəkkürümü bildirərək, elmi və içtimai fəaliyyətlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

**Hulusi KILIÇ**
**Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri**

Prof. Dok. Elman Quliyev
Azərbaycan Dövlət Pedaqoji Universiteti



**Kuzey Kıbrıs Türk Cumhuriyeti Bakü Temsilciliği**

Azerbaycan Devlet Pedagoji Üniversitesi bünyesinde

**Prof. Dr. Elman Quliyev**

nezaretinde faaliyet gösteren Türk Araştırmaları Elmi Tedqiqat Merkezi'ne, Türk Dili ve Kuzey Kıbrıs Türk Cumhuriyeti'ne gösterdikleri dikkat ve yaptıkları çalışmalar için teşekkürlerini sunar.

**Zeki Gazioğlu**
**Temsilci**

**16.5.2011**



AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**ŞƏHADƏTNAMƏ**

**QULİYEV ELMAN HİLAL oğlu**

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN ELMİ ŞURASININ 29.02.2008-Cİ İL TARİXLİ QƏRARI İLƏ YÜKSƏK ELMİ-TƏDQİQAT İŞLƏRİNƏ, ELMİ-PEDAQOJİ KADRLARIN HAZIRLANMASINA, TƏLƏBƏLƏRİN ELMİ ARAŞDIRMALARA HƏVƏSLƏNDİRİLMƏSİNƏ, ELMİ KONFRANSLARDA FƏAL İŞTİRAKINA GÖRƏ

**İLİN ALİMİ**

MÜSABİQƏSİNİN QALİBİ (III YER) OLMUŞDUR.

REKTOR: AMEA-nın müxbir üzvü, prof. Y.Ə.Məmmədov


Elman Quliyev
Cəlaləddin Rumi mövzusunda
"Birlikdə yaşamaq sənəti və Mövlana"
müsabiqəsinin laureatı olmuşdur.
Təşkilat komitəsi


UNESCO
Birləşmiş Millətlərin Elm,
Təhsil və Mədəniyyət Təşkilatı
800
Mövlana
ELMAN QULİYEV
Azərbaycan Yazıçılar Birliyi və
Konya Böyük Şəhər Bələdiyyəsinin
keçirdiyi "Birlikdə yaşamaq sənəti və
Mövlana" mövzusunda
şeir, hekayə və elmi məqalə müsabiqəsində
III dərəcəli diploma layiq görülmüşdür.
Münsiflər Heyətinin sədri
Fikrət Qoca


MUĞAM
Sayın
Prof.Dr. Elman KULİYEV
ZİYARET ANISI
"MUĞAM" MEDENİYET MERKEZİ
Abdulkadir İNALTEKİN
www.mugam.com


TÜRKSOY
YAKIN DOĞU ÜNİVERSİTESİ
Prof. Dr. Elman GULİYEV
Kuzey Kıbrıs Türk Cumhuriyeti Yakın Doğu
Üniversitesi'nde 25 - 28 Ekim 2010'da gerçekleştirilen
"Dede Korkut ve Geçmişten Geleceğe Türk Destanları"
uluslararası sempozyumuna yapmış olduğunuz
çok değerli katkılarınız için teşekkür ederiz.
Düsen KASEİNOV
TÜRKSOY Genel Sekreteri
Dr. Suat İ. GÜNSEL
Yakın Doğu Üniversitesi Kurucu Rektörü



AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ ELMİ KİTABXANA

AZERBAIJAN REPUBLIC MINISTRY OF EDUCATION
BAKU STATE UNIVERSITY SCIENTIFIC LIBRARY

22 17/4
04. 04. 12

Azərbaycan Dövlət Pedaqoji
Universitetinin rektoru, AMEA-nın
müxbir üzvü, professor
Yusif Məmmədova

**Hörmətli Yusif müəllim!**

Gələcəyimiz olan gənclərin təlim-tərbiyəsi işində Sizinlə maddi və mənəvi əməkdaşlığımız hər zaman faydalı olmuşdur.

BDU-nun Elmi kitabxana fondunun zənginləşdirilməsi, kitabxanaçılıq və informasiya, filologiya və şərqşünaslıq fakültələrinin tələbələrinin istifadəsi üçün rəhbərlik etdiyiniz universitetin əməkdaşı professor Elman Quliyevin müəllifi olduğu 2 cildlik "Şərq xalqları ədəbiyyatı" kitabından hər bir cilddən 20 nüsxə universitetimizə hədiyyə etməyinizi xahiş edir, peşə fəaliyyətinizdə və şəxsi həyatınızda uğurlar arzulayırıq.

**Elmi kitabxananın direktoru:** **İbrahimova S.H.**



Azərbaycan Respublikası
Təhsil Nazirliyi
Çağ Öyrətim İşlətmələri
**QAFQAZ UNİVERSİTETİ**

The Republic of Azerbaijan
Ministry of Education
Çağ Educational Corporation
**QAFQAZ UNIVERSITY**

№ Ç-QU-10000-000/2321

03 04 2012

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru
AMEA-nın müxbir üzvü professor Yusif Məmmədova

Hörmətli Yusif müəllim,

Gələcəyimiz olan gənclərin təlim-tərbiyəsi işində sizinlə maddi və mənəvi əməkdaşlığımız hər zaman faydalı olmuşdur.

Qafqaz Universitetinin kitabxana fondunun zənginləşdirilməsi və tələbələrin istifadəsi üçün rəhbərlik etdiyiniz universitetin əməkdaşı Professor Elman Quliyevin müəllifi olduğu 2 cildlik "Şərq xalqları ədəbiyyatı" kitabından 15 nüsxə universitetimizə hədiyyə etməyinizi xahiş edir, peşə fəaliyyətinizdə və şəxsi həyatınızda uğurlar arzulayıram.

**Hörmətlə,**

Rektor Professor Ahmet Sanıç



TDK 1932

***TÜRK DİL KURUMU***
***TEŞEKKÜR BELGESİ***

Sayın Prof. Dr. Elman GULİYEV

*Türk Dil Kurumuna yaptığınız katkılardan dolayı teşekkür eder, başarılarınızın devamını dilerim.*

*Prof. Dr. Şükrü Halûk AKALIN*
*Türk Dil Kurumu Başkanı*



Пролетарии всех стран, соединяйтесь!
ВСЕСОЮЗНЫЙ ЛЕНИНСКИЙ КОММУНИСТИЧЕСКИЙ СОЮЗ МОЛОДЕЖИ

КОМСОМОЛЬСКИЙ БИЛЕТ

№21731619

Фамилия Кулиев
Имя Эльман
Отчество Гилал оглы
Год и месяц рождения 1958 июль
Время вступления в ВЛКСМ март 1972
Лерикский райком
(наименование комитета комсомола, выдавшего билет)
ЛКСМ Азербайджана

(личная подпись)
М. П. Секретарь комитета комсомола
19 февраля 1976 г.
(дата выдачи)

Бутун өлкәләрин пролетарлары, бирләшин!
ҮМУМИТТИФАГ ЛЕНИН КОММУНИСТ ҜӘНҸЛӘР ИТТИФАГЫ

КОМСОМОЛ БИЛЕТИ

№21731619

Фамилиjасы Гулиjев
Ады Елман
Атасынын ады Һилал оғлу
Анадан олдуғу ил вә аj 1958 иjул
ҮИЛКҜИ-jә дахил олдуғу вахт март 1972
Азәрбаjҹан ЛКҸИ Лерик
(билети верән комсомол комитәсинин ады)
Рајон комитәси

(шәхси имза)
М. J. Комсомол комитәсинин
19 феврал 1976 ил
(верилдиjи тарих)

6



ПАРТИЙНЫЙ БИЛЕТ

№ 25525705

Фамилия Гулиев
Имя Эльман
Отчество Гилал оглы
Год рождения 1958
Время вступления в партию февраль-1990
Наименование партийного органа, выдавшего билет
Лерикский райком
Компартии Азербай-
джана.

Гулиев
(личная подпись)
М. П. Секретарь партийного комитета
Дата выдачи 24 июля 1990 г.

ПАРТИJА БИЛЕТИ

№ 25525705

Фамилиjасы Гулиjев
Ады Елман
Атасынын ады Һилал оғлу
Доғулдуғу ил 1958
Партиjаjа дахил олдуғу вахт феврал-1990
Билети верән партиjа органынын ады
Азәрбаjҹан КП Лерик
раjон комитәси.

Гулиев
(шәхси имза)
М. J. Партиjа комитәсинин катиби
Верилдиjи тарих 24 иjул 1990 ил.


вәсигә
1990-чы илин
март ајынадәк
етибарлыдыр
Депутатын шәхси имзасы

Депутат вәсигәси №
Јолдаш
№-ли сечки даирәсиндән
Кәнд Халг Депутатлары Советинә депутат сечилмишдир.
Ичраијјә Комитәсинин сәдри
Ичраијјә комитәсинин катиби




# Azerbaycan Devlet Pedagoji Üniversitesi'ne Malzeme Desteği

Azerbaycan'ın akademik hayatında özel bir konuma sahip olan Azerbaycan Devlet Pedagoji Üniversitesi'ne Başkanlığımız tarafından malzeme desteği sağlandı. Ülkenin eğitim kadrolarının yetiştirildiği yüksek öğretim kurumu bünyesinde faaliyet gösteren "Türk Odası" ve "Türk Araştırmaları Bilimsel Araştırma Merkezi"ne bilgisayar, ALL IN ONE Cihazı, televizyon, klima, bilgisayar masası ve koltukları ile kitaplık temin edilerek Üniversite yetkililerine teslim edildi.

Türkiye tarihi ve edebiyatı ile ilgili bilimsel araştırmaların yürütüldüğü "Türk Odası" ve "Türk Araştırmaları" Bilimsel Araştırma Merkezi'ne sağlanan destekle merkezin daha fonksiyonel ve çağdaş bir araştırma merkezi haline dönüştürülmesine ve buradan yararlanan kişi sayısının arttırılmasına önemli bir katkı sağlanmış oldu.

*Ülkenin eğitim kadrolarının yetiştirildiği yüksek öğretim kurumu bünyesinde faaliyet gösteren "Türk Odası" ve "Türk Araştırmaları Bilimsel Araştırma Merkezi"ne bilgisayar, ALL IN ONE Cihazı, televizyon, klima, bilgisayar masası ve koltukları ile kitaplık temin edildi.*

bülteni 17


...noram

ədəbiyyat QƏZETİ

# Elman Quliyev - 50

*Hörmətli Elman müəllim!*

*Sizi — istedadlı ədəbiyyatşünas alimi 50 yaşınızın tamam olması münasibətilə təbrik edirik.*

*Siz elmi-ədəbi fəaliyyətə tələbəlik illərindən başlamısınız. 1991-ci ildən indiyədək ADPU-da çalışırsınız. Laborantlıqdan professor vəzifəsinə qədər yüksəlmisiniz. 1988-ci ildə Mirzə İbrahimov yaradıcılığı əsasında namizədlik, 2004-cü ildə isə "M.Şəhriyar yaradıcılığının təkamülü (milli problemlər kontekstində)" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmisiniz. "M.Şəhriyar. Gəldim sizi görməyə", "S.Tahir. Lirika", "M.Şəhriyar. Heydərbabaya salam" kitablarının tərtibçisisiniz. Sizin ayrı-ayrı vaxtlarda işıq üzü görmüş "Mirzə İbrahimov: ədəbi-estetik görüşlər və sənətkarlıq məsələləri", "Seyid Məhəmmədhüseyn Şəhriyar", "Müasir özbək ədəbiyyatı tarixi", "Heydərbabaya salam" necə varsa", "Türkiyə türk ədəbiyyatı", "Şəhriyar poeziyası və milli təkamül", "Şəhriyar poetikası" (həmmüəlliflə), "Türk xalqları ədəbiyyatı" adlı kitablarınız ədəbiyyatşünaslığımızın uğurlu nailiyyəti sayıla bilər.*

*Siz eyni zamanda ciddi şəkildə elmi-pedaqoji fəaliyyətlə də məşğulsunuz. Belə ki, siz bir çox tədris proqramı, dərs vəsaiti və dərsliklər müəllifisiniz. Müəllifi olduğunuz "Türk xalqları ədəbiyyatı", "Şərq xalqları ədəbiyyatı", "Ümumtürk ədəbiyyatı" tədris proqramları Azərbaycan təhsil sistemində ilk tərtib işi kimi diqqəti cəlb edir. 1999-cu ildə "Mirzə Uluğbəy" (Özbəkistan) mükafatı almış, 2007-ci ildə C.Rumi — 800 (YUNESKO) müsabiqəsinin laureatı və "İlin alimi" (2007) müsabiqəsinin qalibi olmusunuz. Elmi əsərləriniz İran, Türkiyə və İraqda dərc olunmuşdur. Xaricdə keçirilən bir çox beynəlxalq konfransların iştirakçısı olmuş və məruzə ilə çıxış etmisiniz. Hazırda ADPU-da Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasının professoru, "Türk odası" və "Türk araşdırmaları" elmi-tədqiqat mərkəzinin rəhbəri, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ixtisaslaşdırılmış Müdafiə Şurasının üzvü kimi səmərəli fəaliyyət göstərirsiniz.*

*Hörmətli Elman müəllim!*

*Sizi bir daha yarımməsrlik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.*

**Azərbaycan Yazıçılar Birliyi**

*Azərbaycan Yazıçılar Birliyinin təbriki. 2008-ci il.*

# Azerbaycan Devlet Pedagoji Üniversitesi bünyesindeki Türk Odası" donatıldı



Azerbaycan Devlet Pedagoji Üniversitesi bünyesinde faaliyet gösteren "Türk Odası" ve "Türk Araştırmaları Bilimsel Araştırma Merkezi" Başkanlığımız tarafından yeni ekipmanlarla donatıldı. Daha fonksiyonel ve çağdaş bir araştırma merkezine dönüştürülmesi amaçlanan merkez ve odaya bu çerçevede bilgisayar, bilgisayar masası ve koltuğu, müdür koltuğu, televizyon, televizyon sehpası, klima ve kitaplıktan oluşan malzemeler alındı ve üniversite yetkililerine teslim edildi.

"Türk Odası" ve "Türk Araştırmaları Bilimsel Araştırma Merkezi", geçtiğimiz günlerde T.C. Bakü Büyükelçisi Hulusi Kılıç, Büyükelçilik mensupları, Üniversite yöneticileri ve medya temsilcilerinin katıldığı açılış töreniyle hizmete sunuldu. Törende konuşma yapan Azerbaycan Devlet Pedagoji Üniversitesi Rektörü Prof. Dr. Yusif Memmedov, Başkanlığımız katkılarıyla çağdaş bir görünüm ve işlevsellik kazanan "Türk Odası" ve "Türk Araştırmaları Bilimsel Araştırma Merkezi"nin iki ülke arasında eğitim ilişkilerinin geliştirilmesine katkı sağlayacağına inandığını ifade ederek, yardımlarından dolayı TİKA'ya teşekkür etti.

Üniversitedeki öğretim görevlileri ve öğrencilerin Türk edebiyatı, kültürü ve tarihini öğrenmesi amacıyla kurulan "Oda ve Merkezde" bu alanda yapılan ve yapılacak olan çalışmalardan yararlanmaları sağlandı.

*Türkiyənin mətbuat səhifələrində*

Səh. 2 **Gənc müəllim** 25 OKTYABR 2004-cü il.

# TÜRK DİLİ VƏ ƏDƏBİYYATI OXUMA ODASI İSTİFADƏYƏ VERİLDİ





1 oktyabr 2004-cü il tarixdə universitetimizin həyatında daha bir əhəmiyyətli hadisə baş vermiş, Türkiyə Cumhuriyyətinin Bakıdakı Böyük Elçiliyi tərəfindən ADPU-da yaradılmış Türk dili və ədəbiyyatı oxuma odasının təntənəli açılışı olmuşdur.

Türkiyə Cümhuriyyətinin Azərbaycandakı böyük elçisi cənab Əhməd Unal Çeviköz və ADPU-nun rektoru, professor Bəhlul Ağayev qırmızı lenti kəsərək iştirakçıları oxuma odasına dəvət etdilər.

Professor Bəhlul Ağayev və böyük elçi Əhməd Unal Çeviköz geniş məruzə ilə çıxış edərək iki qardaş ölkənin - Azərbaycan və Türkiyənin müttəfiq münasibətlərindən, həmçinin elm və təhsil sahəsində qarşılıqlı mübadiləsindən, onun əhəmiyyətli nəticələrindən bəhs edərək əldə olunan nailiyyətləri vurğuladılar.

Universitetin prorektoru professor Rafiq Baxşəliyev, filologiya fakültəsinin dekanı professor Həsən Balıyev, Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasının müdiri professor Himalay Qasımov, professor Xeyrulla Məmmədov, dosent Elman Quliyev, Azərbaycan EA-nın müxbir üzvü Vəli Əliyev, professor O. Sultanov, tarix fakültəsinin dekanı dosent Rəhim Əliyev çıxış edərək türk dili və ədəbiyyatı oxuma odasına öz məqsədyönlü işində uğurlar arzuladılar. Tədbirdə həmçinin Türkiyənin Bakıdakı Səfirliyinin və Egitim Müşavirliyinin rəsmi nümayəndələri, ADPU-nun professor-müəllim heyətinin üzvləri - filologiya fakültəsinin dekan müavini dosent Məhərrəm Hüseynov, ADPU-nun xarici tələbələrlə əlaqə şöbəsinin müdiri Azər Sultanov, dosent Yaqub Babayev, dosent Qüdrət Umudov, Türkiyə Cümhuriyyəti Mediasının nümayəndələri, Azərbaycan Dövlət televiziyasının, Spase kanalının əməkdaşları, Türkiyənin televiziya kanalları K-D, STV, TRT-1 repartyorları iştirak edirdilər.



Tərana RƏHİMLİ.

*Elman Quliyevin rəhbəri olduğu "Türk odası"nın açılışının mətbuatda işıqlandırılması.*

198 AZƏRBAYCAN YAZIÇILARI (XX-XXI yüzilliklər)



**ELMAN QULİYEV**
**(1958)**

***Quliyev Elman Hilal oğlu – ədəbiyyatşünas, pedaqoq, 2007-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü.***

1958-ci il iyulun 23-də Azərbaycanda Lerik rayonunun Zuvand mahalı Kələxan kəndində anadan olmuşdur. Burada kənd ibtidai məktəbi, qonşu Kəlvəz kəndində orta məktəbi bitirdikdən sonra iki il istehsalatda çalışmışdır (1975-1977).

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini fərqlənmə diplomu ilə başa vurmuşdur (1977-1981). Lerik rayonu Kəlvəz kənd orta məktəbində müəllim, dərs hissə müdiri işləmişdir (1981-1991). Azərbaycan Dövlət Pedaqoji Universitetində elmi işçi (1991-1993), müəllim (1994-1995) vəzifələrində çalışmışdır. "Azərbaycan ədəbiyyatında sosialist realizminin inkişafında Mirzə İbrahimovun rolu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir (1988). ADPU-nun Azərbaycan və dünya ədəbiyyatı tarixi kafedrasının dosenti (1995) olmuşdur. Hazırda isə orada kafedranın professoru, "Türk odası" və "Türk araşdırmaları" elmi-tədqiqat mərkəzinin müdiridir.

Ədəbi fəaliyyətə tələbəlik illərindən başlamışdır. Yüzdən artıq elmi məqaləsi çap olunmuşdur. Son illər M.Şəhriyarın poetik yaradıcılığına ciddi diqqət yetirir. Böyük şairin "Gəldim sizi görməyə" (1992), "Heydərbabaya salam" (2004) kitablarını tərtib etmişdir. Söhrab Tahirin "Lirika" (1992) miniatür kitablarını tərtib edib, ön söz yazıb çap etdirmişdir. Bir sıra tədris proqramları hazırlamışdır. "Məmmədhüseyn Şəhriyarın yaradıcılığının təkamülü" (Milli problemlər kontekstində) mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (2004). Şərq ölkələrində elmi məqalələri dərc olunmuşdur. Beynəlxalq konfranslarda məruzə ilə çıxış etmişdir. Elmi fəaliyyətinə görə "Mirzə Uluğbəy" (Özbəkistan) mükafatı almış (1999), Cəlaləddin Rumi-800 (YUNESKO) müsabiqəsi laureatı olmuş (2007), "İl alimi" fəxri ada layiq görülmüşdü.

Əsərləri:

1. Mirzə İbrahimov: ədəbi-estetik görüşləri və sənətkarlıq məsələləri, B., ADPU nəşri, 1997, 97 səh., 500 nüs.
2. Seyid Məmmədhüseyn Şəhriyar, B., Mütərcim, 199[illegible], 178 səh., 500 nüs.
3. Müasir özbək ədəbiyyatı tarixi, B., Şeyda nəşriyyatı, 1999, 108 səh., 500 nüs.
4. "Heydərbabaya salam" necə varsa, B., Elm, 2001, 1[illegible] səh., 500 nüs.
5. Türkiyə-türk ədəbiyyatı, B., Orxan, 2003, 122 səh., 1.000 nüs.
6. Şəhriyar poeziyası və Milli təkamül, B., 2004, 2[illegible] səh., 1.000 nüs.
7. Şəhriyar poetikası, B., 2006, 227 səh., 500 nüs. (şərikli).
8. Türk xalqları ədəbiyyatı, B., 2008, 367 səh., 1.000 nüs.
9. Özbək ədəbiyyatı, B., 2009, 109 səh., 500 nüs.
10. Türk xalqları ədəbiyyatı, B., 2009, Qismət, 400 səh., 1.000 nüs.

*Azərbaycan Yazıçıları Ensiklopediyasında Elman Quliyev haqqında verilmiş məlumat.*